**NAMİQ ABBASOV**

# MƏDƏNİYYƏT SİYASƏTİ VƏ MƏNƏVİ DƏYƏRLƏR

BAKI – 2009

*Elmi redaktoru və ön sözün müəllifi*
**Mübariz Süleymanlı**
*sənətşünaslıq namizədi, dosent*

Rəyçilər:
**Niyazi Mehdi**
*fəlsəfə elmləri doktoru, professor*
**İlqar Hüseynov**
*kulturologiya elmləri doktoru, dosent*
**Şəhrəddin Məmmədov**
*fəlsəfə elmləri doktoru, professor*

**Namiq Abbasov. Mədəniyyət siyasəti və mənəvi dəyərlər.** Bakı, 2009, 444 səh.

Kitabda Azərbaycan Respublikasının müasir dövrdə mədəniyyət siyasətinin elmi-müqayisəli təhlili verilir, bu siyasətin milli-mənəvi dəyərlərimizin inkişafındakı rolu araşdırılır və qloballaşma prosesinin neqativ təzahürləri ilə təmasda milli-mənəvi dəyərlərimizin aşınmadan qorunması istiqamətində məqsəd və vəzifələri şərh edilir. Habelə mədəniyyət siyasəti anlayışının təhlili verilir, müstəqillik qazandıqdan sonra əldə olan müvəffəqiyyətlərdən, mövcud olan problemlərdən və onların necə aradan qaldırılması yollarından bəhs edilir. Hər bir milli mədəniyyətin inkişafı üçün vacib olan mədəni əməkdaşlığın Azərbaycanda nə dərəcədə inkişaf etdiyi öyrənilir. Milli dəyərlərimizin Azərbaycan kulturoloji düşüncəsindəki spesifik xüsusiyyətləri tarixi inkişaf fonunda izlənilir və dəyərləndirilir. Qabaqcıl dünya ölkələrinin mədəniyyət siyasəti təhlil edilir və onların müsbət cəhətlərinin mənimsənilməsi yolları araşdırılır. Dövlət siyasətində mədəni və mənəvi irsin qorunması vəzifələrinin metod və üsulları təhlil edilir, mədəniyyət siyasətinə dair təkliflər verilir.

$\frac{4702000000}{N - 098 - 2007}$ **Qrifli nəşr**

**© "N.Abbasov", 2009**

# Ön söz

Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli-mənəvi dəyərləridir. Bu səbəbdən də hər şeydən əvvəl və hər sahədə, o cümlədən mədəniyyət siyasəti sahəsində mədəniyyətin təsbiti mövzusuna üstünlük verilməlidir. Milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz ki, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə müasir mədəniyyət siyasətində yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir.

Müasir dünya siyasətində qlobal, regional və lokal problemlərin, qloballaşma və mədəni inteqrasiya məsələlərinin həllinə yeni münasibət müşahidə edilməkdədir. Demokratiyanın siyasi sistem kimi formalaşdırılmasını tələb edən bu prosesdə Azərbaycan Respublikası da fəal iştirak etməkdədir. Lakin hər zaman diqqətə alınmalıdır ki, yalnız milli və bəşəri dəyərlərin sintezi və dünya təcrübəsi yönündə həyata keçirilən islahatlar sayəsində dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmaq mümkündür. Sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrənilməsini, kompleks əlaqələrinin genişləndirilməsini zərurətə çevirir ki, bütün bunlara da yalnız mükəmməl mədəniyyət siyasəti sayəsində nail olmaq mümkündür.

Bu gün Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmasına, müstəqilliyinin möhkəmlənməsinə dair bir sıra tədbirlər həyata keçirilir. Eləcə də təhsil və mədəniyyətin inkişafı üçün zəruri qərarlar qəbul edilir. Dövlət aparatının, təhsil və mədəniyyət institutlarının Avropa standartlarına uyğun şəkildə

qurulması istiqamətində səylər göstərilir. Milli-mədəni, intellektual qüvvələr öz fəaliyyətləri ilə dövlətin mədəniyyət sahəsindəki siyasətinin müasir durumunu təhlil edir və bu siyasətin perspektivlərinə aydınlıq gətirməyə çalışırlar.

Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə istinad edərək həyata keçirir.

Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət, milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Azərbaycan xalqı azad və suveren dövlət quraraq, mədəni-iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir.

Dövlətimizin belə bir demokratik mədəniyyət siyasəti xətti tutduğuna və müasir dünya mədəniyyətinə inteqrasiya olunduğumuza görə, mədəniyyətimizin özündə böyük bir dəyişiklik etmədən, yəni mühafizə edilməsi zəruri olan milli şəxsiyyətimizi təşkil edən xarakterik keyfiyyətlərimizi budamadan, milli-mənəvi dəyərlərimizə xələl gətirmədən, təcrübəyə və elmin mütərəqqi nailiyyətlərinə söykənərək, forma dəyişikliklərini şüurlu surətdə aparmaq məcburiyyətində olduğumuzu qəbul etməliyik. Bu gün istəsək də, istəməsək də qloballaşma hərəkatından, mədəni inteqrasiya prosesindən kənarda qala bilmərik. Bu prosesin müsbət cəhətlərinin cəmiyyətimizin mədəni tərəqqisinə xidmət etdiyini danmamaq şərti ilə, neqativ təzahürlərinin qarşısını almaq barədə də düşünməliyik.

Müasir dövrdə mədəniyyətin idarəedilməsi üçün zəruri olan elmi təsəvvürün işlənib hazırlanması, ancaq gündəlik məsələlərin həllinə yönəldilən və mədəniyyətin ayrı-ayrı sahələrini əhatə edən

tətbiqi tədqiqatlar sahəsi ilə məhdudlaşdırılmır. Həmin tədqiqatlar çox geniş bir elmi bilikləri özündə ehtiva edən kulturoloji profilli sahələrlə həyata keçirilir. Eyni zamanda mədəniyyət haqqında elm – kulturologiya sürətlə inkişaf edən elmi sahələrə aiddir. Bu da belə bir zərurətdən doğmuşdur ki, məhz ümumi kulturoloji konsepsiya mədəniyyət sahəsində bütün tətbiqi tədqiqatların nəzəri və metodoloji bazasını təşkil etməlidir. Kulturoloji konsepsiyaya ehtiyac nəinki mədəni praktikada və ona bilavasitə xidmət edən tətbiqi elmlərdə, həm də bütün ictimai elmlər sistemində özünü göstərir.

Lakin kulturoloji konsepsiyanın bu sistemdə yerini dəqiq müəyyən etmək zərurəti vardır. Şübhəsiz, bunun üçün ilkin şərt nisbətən müstəqil tədqiqat predmetinin müəyyən edilməsidir. Vaxtilə təbiət və tarix elmlərini, sonralar isə ictimai elmləri bir-birindən ayırmaq üçün vacib hesab edilən təbiət və mədəniyyətin ənənəvi fərqləndirilməsi bu gün qənaətbəxş hesab oluna bilməz. Bu konsepsiyanın prinsiplərini ictimai və tarix elmlərinin digər sahələrindən ayırmaq üçün kriteriya yoxdur. Vacib olan sahələrin hər biri bütün mədəniyyət faktları ilə əlaqəlidir, mədəniyyət haqqında elm onları öz tədqiqat perdmetinə daxil edir. Deməli, mədəni materiala ehtiyac, özlüyündə hər hansı bir bilik sahəsini müstəqil mədəniyyət konsepsiyası kimi qurmaq üçün kifayət deyildir və hələ ki, mədəniyyət və siyasət kulturoloji sahədə elmi tədqiqatın xüsusi predmeti deyildir. Kulturologiyanı elmi tədqiqatın xüsusi predmeti kimi ayırdıqda müəyyən konseptual və metodoloji zəminə əsaslanmaq zəruridir. Problemin həllinin çətinliyi mədəniyyətin elə bir fenomen olmasındadır ki, onu sırf zahiri və empirik surətdə ictimai həyatın digər sahələrindən ayırmaq mümkün deyildir. Mədəniyyət ən geniş mənada insanın həyat fəaliyyətinin bütün əsas sahələrini – maddi istehsal, sosial-siyasi münasibətlər, mənəvi inkişaf, məişət, insanlar arasında qarşılıqlı əlaqə sahələrini səciyyələndirir. Müasir sosial həyatın istənilən sahəsi bu fenomenin mədəni əhəmiyyəti və qiyməti baxımından səciyyələndirilmək imkanına malikdir. Deməli, mədəniyyət konsepsiyasının tədqiqi ilə digər ictimai elmlər predmetinin tədqiqini bir-birindən ayıran

sərhədin haradan keçməsi məsələsi mədəniyyətin müasir tədqiqatçıları qarşısında çox kəskin şəkildə qoyulur.

Müasir cəmiyyətin bütün mədəni fəaliyyətinin başlıca məzmununu və əsas məqsədini təşkil edən "insan şəxsiyyətinin formalaşdırılması prosesi"nin mürəkkəb strukturu, eyni zamanda mədəniyyət konsepsiyasının olduqca mürəkkəb strukturunu aydınlaşdırır. Bu mənada kulturologiya, hər şeydən əvvəl, insanın müəyyən cəhətlərinə görə mədəniyyət tərkibinə daxil olan fəaliyyət növlərinin müxtəlifliyini (maddi əməyi, ünsiyyəti, siyasi və ictimai fəaliyyəti, məişəti, asudə vaxtı, elmi, incəsənəti, təhsili və i.a.) diqqətdə saxlamalıdır. İkincisi, kulturologiya mədəni nemətləri və sərvətləri yaradan, qoruyan, irs qoyan, mübadilə və istifadə edən mədəni fəaliyyətin özünün müxtəlif sahələrini birləşdirməlidir. Üçüncüsü, mədəniyyət haqqında elm, mədəniyyətin əsas elementlərinin – sərvətlərin, davranış normalarının, nümunələrinin, dünyagörüşü prinsipləri və ideyaların, mənəvi və estetik idealların təhlilini verməlidir. Deməli, cəmiyyətin və ayrılıqda götürülmüş fərdin bütün mədəniyyət binası bu elementlərdən yaranır. Ona görə də kulturoloji tədqiqatlarda məhz belə bir kompleks xarakterli səciyyəvi xüsusiyyətlərə ciddi diqqət yetirilməlidir.

Mədəni dünyaya sürətlə inteqrasiya etməkdə olan Azərbaycan Respublikasının demokratik inkişafı üçün zəruri olan təsisatlar və hüquqi bazanın formalaşdırılması yönündə müəyyən işlər görülmüşdür. Lakin bu sahədə ciddi uğurlar qazanmaq üçün islahatlara olan ehtiyac günü-gündən özünü daha qabarıq büruzə verməkdədir. Təbii ki, bu islahatlar mədəniyyət siyasətinin səlahiyyətlərin bölünməsi prinsipi əsasında gerçəkləşməsini təmin edəcək, siyasi plüralizm, fikir azadlığı, vətəndaş cəmiyyəti quruculuğu sahəsində daha demokratik mühitin yaranmasına təkan verəcəkdir. Çünki mədəni dünyada vicdan və söz azadlıqları, şəxsiyyətin toxunulmazlığı, əsas insani hüquq və azadlıqların təmin edilməsi, tolerantlıq mühitinin bərqərar olması əsl vətəndaş cəmiyyəti formalaşdırmaq yolunda atılmış zəruri addımlardan hesab edilməkdədir.

Digər sahələrlə yanaşı mədəniyyət siyasətində əldə edilmiş mühüm nailiyyətlər ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsinə şərait yaradır. Müstəqil respublikamızın nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi onun beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə, dünya ölkələri içərisində öz layiqli yerini tuta bilməsinə əlverişli imkan vermişdir. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən mədəniyyət siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələrin inkişaf etdirilməsinə də şərait yaradır.

Mədəniyyətin tərəqqisi haqqında fikir müxtəlifliyi isə yalnız elmi səbəblərlə deyil, eləcə də daha dərin sosial-tarixi səbəblərlə şərhini tapır. Mədəniyyət nəinki nəzəri izah tələb edən anlayışdır, həmçinin ictimai inkişafın real praktik və vacib məsələsidir. Mədəniyyət sahəsində siyasət müstəqillik dövründə təkcə bizim deyil, həm də digər dünya dövlətlərinin siyasətinin tərkib hissəsinə çevrilmişdir. Mədəni inkişaf məsələləri müxtəlif partiyaların, beynəlxalq siyasi sənədlərin, proqramların mühüm tərkib hissəsi olmuşdur.

Beləliklə, "mədəniyyət" anlayışının fundamental nəzəri əhəmiyyəti və mürəkkəbliyi müasir tarixi situasiyada mədəniyyət problemlərinin qloballığı və çoxcəhətliyi ilə şərtlənir. Bəşər tarixində yeni epoxanın – insan həyatının bütün sahələrində köklü dəyişikliklər epoxasının xarakterini dərk etmədən geniş mənada mədəniyyətin məzmununu başa düşmək mümkün deyil. Azərbaycanda yeni cəmiyyətin qurulması ilə şərtlənən dəyişikliklərin mühüm amili, ümumiyyətlə yeni dövrdə geniş miqyas almış elmi-texniki tərəqqidir. Təbii ki, cəmiyyətdə baş verən genişmiqyaslı dəyişikliklər mədəniyyətin inkişafına da təsirsiz qalmamışdır. Bəşər mədəniyyətinin perspektivləri ilk növbədə, dünyanın mövcud dilemmanı necə həll edəcəyindən asılıdır ki, bu baxımdan dövlətlərin mədəniyyət siyasətləri və xalqların mənəvi dəyərlərinin mühafizəsi problemlərilə bağlı tədqiqatların əhəmiyyəti danılmazdır.

Bu vaxta qədər bütün dünyada, o cümlədən Azərbaycan Respublikasında mədəni quruculuq məsələləri, mədəniyyət sa-

həsində inkişafın təmin edilməsinə dair problemlər bir çox kulturoloqların, tarixçilərin, filosofların, filoloqların, sənətşünasların, psixoloqların, sosioloqların, politoloqların, pedaqoji sahə mütəxəssislərinin diqqətini cəlb etmişdir. Mədəniyyət sahəsində siyasətin uğurla həyata keçirilməsinə dair araşdırmalarda bir sıra suallara cavab axtarılmış, dünya kulturoloji fikrində müəyyən elmi qənaətlər əldə edilmişdir. Eləcə də son dövrlərdə azərbaycanlı alimlərin araşdırmaları içərisində mədəniyyət siyasətinə və milli-mənəvi dəyərlərimizin mühafizəsi probleminə həsr olunmuş (və ya bu mövzuya toxunulan) bir çox elmi tədqiqatlar aparılmış, elmi-nəzəri əsərlər yazılmışdır. Lakin müasir şəraitdə mədəniyyət siyasəti və mənəvi dəyərləri mövzusu Namiq Abbasovun "Mədəniyyət siyasəti və mənəvi dəyərlər" adlı monoqrafiyasında ilk dəfə sistemli şəkildə araşdırılmışdır.

Bu sevindirici bir haldır ki, Azərbaycanın müstəqilliyinə qovuşduğu dövrdən etibarən yaranan imkanlar və milli-mənəvi dəyərlərimizin mühafizəsinə göstərilən qayğı, gənc alimlərin və tədqiqatçıların bu sahədəki araşdırmalarına da stimul verməkdədir. Bu mənada Namiq Abbasovun "Mədəniyyət siyasəti və mənəvi dəyərlər" mövzusunda yazmış olduğu monoqrafiya da məhz belə bir zəmin üzərində ərsəyə gəlmişdir. Mədəniyyət siyasəti sahəsindəki fəaliyyətlərə elmi dəstək vermək məqsədindən irəli gələn bu tədqiqatın aparılması prosesində, təbii ki, mədəniyyət fenomeni ilə bağlı yuxarıda qeyd olunan səciyyəvi xüsusiyyətlər və bu sahədə əldə edilmiş elmi qənaətlər nəzərə alınmışdır. Bu baxımdan, milli-mənəvi dəyərlərin mühafizəsi və inkişafını, mədəniyyət siyasətinin mahiyyəti, icra mexanizmi və perspektivlərinin tədqiqini nəzərdə tutan monoqrafik araşdırma mövzusu aktuallıq kəsb etməkdədir.

*Mübariz Süleymanlı*

# Giriş

Mədəniyyət siyasəti sahəsində qazanılan nailiyyətlər sübut edir ki, Azərbaycan dövlət müstəqilliyi getdikcə möhkəmləndirilməkdə, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir. Dövlətçiliyin təməlinin, milli varlığın özülünün, əsasının mədəniyyətə bağlı olduğunu aydın dərk edən mərhum prezident Heydər Əliyev 13 avqust 2001-ci il tarixli bəyanatında söyləmişdir: "Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Ümummilli liderimiz Heydər Əliyevin yürütdüyü siyasi-mədəni xəttin layiqli davamçısı prezident İlham Əliyevin inamla və sədaqətlə həyata keçirməkdə olduğu mədəniyyət siyasətinin uğurlu nəticələri və perspektivləri artıq göz qabağındadır. Belə ki, "2006 – 2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın əsas qayəsi daxili və xarici dövlət mədəniyyət siyasətinin təminatı mexanizmlərini dünya standartları səviyyəsinə çatdırmaq yolunda mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və mədəni sənayelərin dirçəldilməsi kimi prioritet istiqamətləri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməklə qədim və möhtəşəm Azərbaycan mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasına, gələcək inkişafına və dünya mədəniyyətinə uğurlu inteqrasiyasına nail olmaqdır. Mədəniyyət və incəsənətin bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi həyata keçiriləcək islahatların əsas məğzi kimim nəzərdə tutulmuşdur.

Mədəniyyət siyasətinin perspektivlərini müəyyənləşdirən "2006 – 2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın ümumi məqsəd və vəzifələri mədəniyyət

siyasətinin təminat mexanizmləri kimi çıxış edən və mədəniyyətin bütün sahələrini əhatə edən mədəniyyətin idarəolunma, hüquqi, maliyyə, elmi-informasiya təminatı, insan resurslarının inkişafı, maddi-texniki infrastrukturun müasirləşdirilməsi və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi kimi ümumi məsələlərin inkişaf etdirilməsindən, o cümlədən daxili və xarici dövlət mədəniyyət siyasətinin göstərilən sahələrinin dünya standartları səviyyəsinə çatdırılması üçün tələb olunan islahatların həyata keçirilməsinin təmin edilməsindən ibarətdir.

"2006 – 2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın müddəalarında belə bir elmi yanaşma yer alır ki, digər ictimai-siyasi konsepsiyalarla yanaşı mədəniyyət konsepsiyası da cəmiyyətdə mühüm dərketmə və dünyagörüşü funksiyasını yerinə yetirməli, baş verən mədəni proseslərin mənasını, məzmununu, istiqamətini müəyyənləşdirməli, kulturologiyanın gələcək inkişaf yollarını, vasitələrini və məqsədlərini əsaslandırmalı, gələcəyə doğru gedən insanların ali humanist sərvətlərini qorumalı, müasir inkişaf etmiş ölkələrin mədəniyyət praktikasının neqativ tərəflərini, mədəniyyət haqqında qeyri-bəşəri "ifrat müasir" konsepsiyalarının əsassızlığını sübut etməlidir. Mədəniyyət konsepsiyası mədəniyyətin bir ictimai hadisə kimi mahiyyətini açmalı, onun müasir cəmiyyətdə müxtəlif əlaqələrini, yerini və rolunu aydınlaşdırmalı, mədəni həyatın yaradıcılıq, mədəni irsə münasibət, mədəni sərvətlərin yayılması, istifadə olunması və qorunması kimi mühüm tərəflərini hərtərəfli öyrənməlidir.

Belə bir kulturoloji yanaşmaya görə, mədəniyyət konsepsiyasına ehtiyac həm də gündəlik mədəni fəaliyyət praktikasında, siyasətdə, müəssisələrin və sosial mədəniyyət institutlarının işində, habelə mədəniyyətin sosial idarəolunması və cəmiyyətin mədəni həyatının təşkili sahəsində də özünü göstərir. Bu ehtiyac müstəqillik əldə etmiş cəmiyyətlərdə insanın hərtərəfli inkişafına, humanist tipli şəxsiyyətin formalaşmasına yönəldilmiş elmi, mədəni, tərbiyəvi işə və maariflən-

dirici fəaliyyətlə məşğul olanların hamısına aiddir. Təsadüfi deyildir ki, dünyanın digər ölkələrindəki mədəni quruculuğun nəzəri təminatı ölkəmizdə də mədəniyyət konsepsiyasının mühüm şərtidir. Mədəniyyət faktları ilə əlaqəsi olan ictimai elmin konkret və ixtisaslaşdırılmış sahələrindən fərqli olaraq, bu konsepsiya mədəniyyət haqqında bütöv və ümumiləşdirilmiş konsepsiyadır.

Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlər mövzusunda aparılmış bu araşdırmada həmin əsərlərə istinad edilmişdir ki, onların müəllifləri içərisində F.Qasımzadə (61; 62), B.Qurbanov (66; 67; 68; 106; 107), F.Məmmədov (81; 128; 129; 130; 131; 132; 133), A.Şükürov (99; 100; 101), Ə.Tağıyev (30; 102), N.Cəfərov (20; 21), R.Bədəlov (139; 161), S.Məmmədəliyeva (139), S.Dadaşova (23), R.Aslanova (8), M.Süleymanlı (92; 93; 94; 95; 96; 97; 114; 115), İ.Hüseynov (51; 52; 53; 54; 55; 56), M.Manafova (19; 59; 70; 76; ), N.Axundova (7), N.Əfəndiyeva (28; 29; 56; 76), M.Əsədli (19; 37; 38; 76) S.Əliyeva (19; 59; 76), O.Sultanov (23), A.Əlizadə (34; 35), İ.Əliyeva (32), A.Haqverdiyev (42), Y.Əliyeva (33) kimi azərbaycanlı kulturoloqların tədqiqatları xüsusilə qeyd edilməlidir.

Monoqrafiyada yeri gəldikcə Avropa (121; 136; 138; 158; 160), Rusiya (120; 122; 123; 125; 127; 137; 159) və Türkiyə (104; 105; 109; 116; 117; 118; 119; 141; 142; 143; 144) alimlərinin əsərlərindən faydalanılmış, Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin mədəniyyət siyasətinə dair qəbul etdiyi proqramlardan (109; 117; 118; 139;), rəsmi statistik məlumatlardan, mədəniyyətin inkişafına istiqamətlənmiş tədbirlər planından, Mədəniyyət və Turizm Nazirliyinin beynəlxalq təşkilatlar üçün hazırladığı hesabat xarakterli "Milli Məruzə"dən, habelə YUNESKO-nun tövsiyələrindən və Avropa Şurası ekspertlərinin hesabatlarından (139; 157; 161) istifadə edilmişdir.

Azərbaycan dövlətinin mədəniyyət sahəsində siyasətini tədqiq edən alimlər içərisində tarix elmləri doktoru, professor F.Məmmədovun və onun rəhbərlik etdiyi mədəniyyət assosiasiyasının fəaliyyəti xüsusilə qeyd edilməlidir. Onun "Kulturologiya"ya dair dərslik və elmi monoqrafiyalarında (81; 128; 129; 130; 131; 132; 133) dövlətin mədəniyyət siyasəti hərtərəfli nəzərdən keçirilmişdir. Bundan əlavə "Azərbaycan və müasir dünya" məcmuəsində "Azərbaycanda yeni mədəniyyət siyasətinin vəzifələri haqqında" məqaləsi nəşr edilmişdir. Eyni zamanda 2001-ci ilin 27-29 iyununda "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsi üzrə Açıq Cəmiyyət İnstitutu-Budapeşt SOROS Fondunun himayəsi ilə keçirilmiş Beynəlxalq konfransın və sosioloji tədqiqatın sənəd və materialları məcmuəsində (81) Fuad Məmmədovun, Nigar Axundovanın, Fuad Qasımzadənin, Solmina Dadaşovanın, Oqtay Sultanovun, Əli Abasovun, Cəmilə Səttarovanın, Rəhman Bədəlovun və xarici ölkə alimlərinin mədəniyyət siyasəti haqqında məqalələri çap olunmuşdur. Həmin məcmuədə layihənin mahiyyəti anketlərin nəticələri və s. materiallarda öz əksini tapmışdır. Artıq ilk sayı işıq üzü görmüş "Simurq" jurnalında (Baş redaktor: F.Məmmədov) da mövzuyla əlaqəli elmi yazılar dərc edilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin "Mədəniyyət siyasəti" şöbəsinin hesabat və nəşrlərində, habelə nazir müavini professor Sevda Məmmədəliyevanın "Azərbaycanda mədəniyyət siyasəti" (elmi icmal, 2002), "Azərbaycanın mədəniyyət siyasəti" (Avropa Şurasının "Stage" layihəsi əsasında, 2003), "Qloballaşma dövründə mədəniyyət" (2004) və "Mədəniyyət və insan" (2005) monoqrafiyalarında (139) mövzuya dair çox dəyərli elmi təhlillər yer almaqdadır.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin elmi nəşri kimi və bu vaxta qədər AAK-ın elmi nəşrlərinin qeydiyyatında olan kulturologiyaya dair yeganə məcmuə olan "Mədəniyyət dünyası"nın (Baş redaktoru: M.Süleymanlı)

bütün buraxılışlarında (2001–2008-ci illər ərzində cəmi on dörd sayı nəşr edilmişdir) mədəniyyətin ən müxtəlif problemlərinə həsr edilmiş elmi yazılar çap edilmişdir.

Azərbaycan mədəniyyətinin bəzi problemlərini işıqlandıran namizədlik və doktorluq dissertasiyalarının yazılması da mövzuya olan ciddi elmi-tənqidi münasibəti əks etdirməkdədir ki, müəllif yeri gəldikcə bu tədqiqat əsərlərindən də yararlanmışdır. Belə ki, son vaxtlar mövzuyla bağlı İlhamə Əliyevanın "Azərbaycan bayramları və milli mənəvi dəyərlərimiz" (32), Anar Haqverdiyevin "Müstəqil Azərbaycan Respublikasının mədəniyyətinin aktual problemləri" (42), Yeganə Əliyevanın "Azərbaycanda kulturoloji fikrin tarixi inkişaf mərhələləri" (33), Fatimat Məmmədovanın "Azərbaycan mühacirətinin elmi-nəzəri tədqiqatlarında dil kulturoloji baxışlar kontekstində" (82), Zaur Cəfərzadənin "Şərq mədəniyyətlərinin tarixi tipologiyasının metodoloji problemləri" (22), Fərqanə Hüseynovanın "Müstəqillik dövründə Azərbaycan – Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət)" (57) adlı namizədlik dissertasiyaları və Nigar Əfəndiyevanın "Azərbaycanlı özünüdərki və özünüidentifikasiyanın kulturoloji-fəlsəfi problemləri qloballaşma kontekstində" (29) mövzusunda doktorluq işi diqqəti cəlb edir. Həmin dissertasiyaların mövzusu bilavasitə Azərbaycan dövlətinin mədəniyyət siyasətinə və mənəvi dəyərlərimizə həsr olunmasa da, bu və ya digər paraqraflarda həmin problemlərə toxunulmuşdur.

Lakin müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri mövzusu məhz bu monoqrafiyada ilk dəfə sistemli şəkildə araşdırılmışdır.

Tədqiqatın əsas məqsədi mədəniyyət siyasətinin elmi, müqayisəli və tənqidi təhlilini verməkdən, bu siyasətin milli-mənəvi dəyərlərimizin inkişafındakı rolunu araşdırmaqdan və şərh etməkdən ibarətdir. Araşdırmada yeni mədəniyyət siyasətinin milli-mənəvi dəyərlərimizin inkişafındakı rolu və yerinin müəyyənləşdirilməsi, mədəniyyətdə qloballaşma prosesinin

neqativ təzahürləri ilə təmasda aşınmadan qorunması istiqamətində qarşıya qoyulmuş məqsəd və vəzifələr başlıca yer tutur.

Bu məqsədlə tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur: Mədəniyyət siyasəti anlayışını təhlil etmək və Azərbaycanda mədəniyyət siyasətinin istiqamətlərini öyrənmək; Azərbaycan müstəqillik qazandıqdan sonra mədəniyyətimizdə baş verən hadisələri, əldə olan müvəffəqiyyətləri, mövcud olan problemləri və onları necə aradan qaldırmağı öyrənmək; Hər bir milli mədəniyyətin inkişafı üçün vacib olan mədəni əməkdaşlığın və onun Azərbaycanda, müasir dövrdə nə dərəcədə inkişaf etdiyini öyrənmək; Milli dəyərlərimizin Azərbaycan kulturoloji düşüncəsindəki spesifik xüsusiyyətlərini tarixi inkişaf fonunda izləmək və dəyərləndirmək; Qabaqcıl dünya ölkələrinin mədəniyyət siyasətini təhlil etmək və onların müsbət cəhətlərini milli mədəniyyətimizi qoruyub saxlamaq şərtilə Azərbaycanın mədəniyyət siyasətinə tətbiq etmək; Dövlət siyasətində mədəni və mənəvi irsin qorunması vəzifəsinin metod və üsullarının təhlil etmək; Azərbaycan mədəniyyətinin gələcəkdə daha da yüksək səviyyədə inkişaf etməsi üçün mədəniyyət siyasətinə dair təklif və tövsiyələr vermək.

Mədəniyyət konsepsiyasını ancaq mənəvi mədəniyyətin öyrənilməsi çərçivəsinə salmaq, maddi mədəniyyətin mövcudluğunu inkar etmək, onun digər fəaliyyət sahələri və ictimai fəaliyyət növləri ilə bağlı elementlərini təhlildən kənarda qoymaq olmaz. Monoqrafiyada mədəniyyət konsepsiyasının, insan fəaliyyətinin bütün növlərini və üsullarını, həmin fəaliyyətin subyekt kimi inkişafı, təkmilləşməsi baxımından təhlil etməyə qadir olduğu haqqında müddəanın hərtərəfli əsaslandırılmasına cəhd edilmişdir. Ona görə də mədəniyyətin perdmeti cəmiyyətin hər hansı bir ayrıca "sahəsi" deyil, bütövlükdə bütün cəmiyyətdir; insanın özünü ictimai varlıq kimi hazırlayan, tam insan şəxsiyyətini formalaşdıran cəmiyyətdir, xalqdır. Sosial həyatda ictimai fəaliyyətin bu və ya digər sahəsinin insanın özünə təsir göstərən, onu formalaşdıran, fərdi

inkişaf xarakterini müəyyənləşdirən amilə çevrilməsi dərəcəsindən asılı olaraq mədəniyyət konsepsiyası tədqiqatlar predmetinə aiddir. İnsanın öz ictimai və istehsal fəaliyyətində necə formalaşması haqqında məsələ mədəniyyət konsepsiyanın mərkəzi məsələsi kimi özünü göstərir. Deməli, mədəniyyət konsepsiyası cəmiyyətdə fərdi və bəşəri aspekti ayırır və onu, özünün xüsusi təhlili mövzusuna çevirir.

Müasir kulturoloji konsepsiya, insanın fəaliyyət prosesində ictimai istehsal və təkrar istehsal nəzəriyyəsi kimi müəyyənləşdirilməklə, çağdaş sosial-tarixi nəzəriyyənin mühüm tərkib hissəsi olaraq nəzərdən keçirilir. İctimai hadisə olan mədəniyyət tarixi ancaq sosial həyatın bütün cəhətlərinin (iqtisadi, sosial, siyasi, mənəvi) kontekstində dərk edilə bilər, onların hər birini özlərinə xas bəşəri məzmun baxımından səciyyələndirmək mümkün olur. Məhz mədəniyyət nəzəriyyəsi ictimai sistemin humanistlik "ölçüsünü", onun insanların mənafeyinə, məqsədinə, tələbatına uyğunluğunu müəyyən etməyə imkan verir.

Mədəniyyətin mütərəqqi nəzəriyyəsi, sosial və tarixi məzmundan məhrum olan mücərrəd düşüncəli insanın tələblərinə cavab vermir. İstənilən sosial sahənin mədəni mənasını aşkara çıxarmağa cəhd göstərən bu konsepsiyanın təhlilində ən əvvəl, öz əməyi ilə cəmiyyətin maddi və mənəvi sərvətini yaradan insanların mənafelərini nəzərə alır. Həmin konsepsiya üçün cəmiyyətin mədəni hazırlığının zəruri göstəricisi, insanların ictimai istehsal sistemində real mövqeyi, onların ictimai-siyasi və mənəvi həyatda iştirak səviyyəsi, şüurluluq və sosial fəallıq dərəcəsidir.

Mövcud cəmiyyətin maddi həyatının təkrar istehsal prosesinin əsas elementlərinin (istehsal, mübadilə, bölgü, istehlak) birliyi haqqında bir sıra tədqiqatçıların müddəası geniş, ümumsosioloji mənaya malikdir və habelə mənəvi istehsal sahəsinə də aiddir. Həmin müddəa mədəniyyətin tədqiqi, onun cəmiyyətdə fəaliyyət göstərməsi üçün mühüm metodoloji əhəmiyyətə malikdir. Ümumilikdə götürdükdə, istər mədəniy-

yətin tarixi və nəzəriyyəsi problemlərinin öyrənilməsi və əldə olunan təcrübənin bəşəriyyətin tərəqqisi naminə istifadə olunması baxımından, istərsə də dünya dövlətlərinin bu yöndə həyata keçirdikləri mədəniyyət siyasətlərində uğurlu nəticələrə nail olunması, habelə ictimai-siyasi və sosial-mədəni proseslər kontekstində mənəvi dəyərlərin mühafizəsi və təbliği baxımından dünya, o cümlədən Azərbaycan kulturoloji fikrində çoxsaylı tədqiqatlar aparılmışdır. Bununla belə indiyədək Azərbaycanda dövlət mədəniyyət siyasətinin tarixilik və perspektivlər baxımından sistemli şəkildə elmi-tənqidi təhlilini verən və bu siyasətdə mənəvi dəyərlərin çəkisini dəyərləndirən monoqrafik tədqiqat əsərləri çox azdır.

Məhz bu mənada monoqrafiya Azərbaycanın mədəniyyət siyasətinin mənəvi dəyərlərimizin inkişafındakı fəaliyyətini əks etdirən ilk əsərlərdən biridir. Tədqiqat işinin elmi yeniliyi də məhz problemin özünün qoyuluşu ilə müəyyən olunur və əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

– Azərbaycan dövlətinin mədəniyyət siyasətinin problemlər kontekstində müstəqillik dövrünün prioritetləri, sosial məqsədlər və mənəvi dəyərlər baxımından kulturoloji mahiyyəti ilk dəfə olaraq tədqiqata cəlb edilmiş, mədəniyyət sahəsində planlaşdırma, qanunvericilik təminatı məsələləri şərh edilmişdir;

– Müasir dövrdə dövlət mədəniyyət siyasətinin qarşılaşdığı çətinliklər, siyasi və iqtisadi sistem dəyişikliklərinin mədəniyyət sahəsindəki təzahürləri, mədəniyyət müəssisələrinin fəaliyyəti, əhalinin mədəni həyatda iştirakı, yaradıcılığın dəstəklənməsi, mədəniyyətin maliyyələşməsi və milli-mənəvi dəyərlərin mühafizəsi problemləri elmi meyarlar çərçivəsində tədqiq edilmişdir;

– Azərbaycanda mədəniyyət siyasətinin effektivləşmə və səmərəliləşmə perspektivlərinə diqqət yetirilmiş, dünya dövlətlərilə müqayisəli təhlillər aparılmış, bu siyasətin tənzimlənməsində yerli və beynəlxalq təşkilatların rolu göstərilmişdir. YUNESKO və Avropa Şurası qərarlarının ümumi çərçivəsində

elm və təhsil sahəsində Azərbaycanın mədəniyyət siyasətinin məqsədlərinə, ali təhsilli kadr hazırlığı problemlərinə və qeyri-hökumət təşkilatlarının yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardımlarına aydınlıq gətirilmişdir.

– Azərbaycan dövlətinin mədəniyyət siyasəti sahəsindəki nailiyyətləri və uğura doğru perspektivlərinə elmi-tənqidi qiymət verilmiş, mədəniyyət industriyaları və milli-mənəvi irsin qorunması ilə bağlı fəaliyyətlər nəzərdən keçirilmiş, gənclər siyasətinin mədəni və mənəvi aspektlərinə baxılmış, turizmin inkişaf perspektivləri və mədəni-asudə vaxt problemləri elmi cəhətdən dəyərləndirilmişdir.

Aparılmış araşdırmalar keçid dövründə müstəqil Azərbaycan Respublikasının mədəniyyətində baş verən proseslər haqqında ümumi anlayış formalaşdırmağa imkan yaradır. Bütün bunlar mədəniyyətimizin nailiyyətlərini obyektiv qiymətləndirməyə və gələcək üçün onun inkişaf yollarını proqnozlaşdırmağa kömək edəcəkdir.

Tədqiqat işinin obyektini Azərbaycan mədəniyyətinin tarixi-kulturoloji problemləri kontekstində dövlətimizin mədəniyyət siyasətinin nəzəri və əməli məsələləri təşkil edir. Dünya və Azərbaycan kulturoloqlarının mədəniyyət siyasəti ilə bağlı monoqrafik araşdırmaları, dissertasiyalar və problematik məqalələr tədqiqata cəlb edilmişdir. Bu məqsədlə azərbaycanlı araşdırıcılarla yanaşı, Rusiya və Türkiyə alimlərinin mövzu ilə bağlı tədqiqatlarından geniş istifadə edilmiş, mədəniyyət siyasətinə dair qəbul edilmiş proqramlardan, rəsmi statistik məlumatlardan, Mədəniyyət və Turizm Nazirliyinin "Milli Məruzə"sindən, habelə YUNESKO-nun tövsiyələrindən və Avropa Şurası ekspertlərinin hesabatlarından tədqiqat obyekti kimi faydalanılmışdır.

Araşdırmanın nəzəri və metodoloji əsasını tarixilik, varislik, məntiqilik və sistemlilik prinspləri təşkil edir. Müəllif müasir mədəniyyətimizdə baş verən hadisələrin şərhi ilə proseslərə obyektiv qiymət verməyə çalışmış, keyfiyyət, kəmiyyət,

struktur təhlilin, o cümlədən, müqayisəli və konkret-təhlilin metodlarından istifadə etmişdir. Müəllif tədqiqatda konkret tarixi fakt və təhlillərə əsaslanmışdır. Tarixi hadisə və proseslərin işıqlandırılmasında xronoloji ardıcıllığın saxlanılmasına xüsusi diqqət yetirilmiş, bütün mənbələrə tənqidi yanaşma metodundan istifadə edilmişdir. Hadisə və proseslərin təhlili ilə yanaşı səbəb-nəticə əlaqələri də nəzərdən qaçırılmamışdır.

Tədqiqat işi çoxsaylı və çoxşaxəli qaynaqlar əsasında yazılmışdır. Tədqiqatda mədəniyyətə dair qanunlardan və qanunvericilik aktlarından, proqram, çıxış və hesabatlardan, dövri mətbuatdan, monoqrafiyalardan, dərs vəsaitlərindən, elmi məqalələrdən, elmi konfrans materiallarından, kulturoloji fikrin elmi-nəzəri qənaətləri və təcrübəsindən faydalanılmış, mövzu ilə bağlı tədqiqat müəlliflərinin fikir və mülahizələrindən, analoji araşdırmaların təcrübə və nəticələrindən istifadə edilmişdir.

Araşdırma zamanı əldə olunan başlıca elmi qənaət və nəticələr müasir dövrdə Azərbaycanda mədəniyyət siyasətinin təməl prinsiplərinin açıqlanması və uğurla həyata keçirilməsi, habelə bu məqsədlə mənəvi dəyərlərin inkişaf amillərinin müəyyənləşdirilməsi baxımından elmi-nəzəri əhəmiyyət daşıyır. Monoqrafiya təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma üsulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. Qeyd etmək lazımdır ki, monoqrafiya təkcə kulturoloqlar üçün deyil, həmçinin mədəniyyətin müxtəlif problemlərini araşdıran tədqiqatçılar üçün də əhəmiyyət daşımaqdadır.

# MƏDƏNİYYƏT SİYASƏTİNİN MAHİYYƏTİ VƏ PROBLEMLƏRİ

XXI əsrə sürətli inkişaf yolunda olan müstəqil bir dövlət kimi qədəm qoymuş Azərbaycan Respublikası qazandığı istiqlalı qoruyub saxlamaq, demokratik dövlət qurmaq, fikir plüralizmi və azad bazar iqtisadiyyatına malik olan vətəndaş cəmiyyəti yaratmaq uğrunda inamla mübarizə aparmaqdadır. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasətinin təməl prinsiplərinin, bu siyasətin tarixi, ictimai-siyasi, sosial-mədəni, elmi və kulturoloji əsaslarının araşdırılmasına keçməzdən əvvəl, təbii ki, həm mədəniyyət siyasəti, həm də, ümumiyyətlə, mədəniyyət anlayışının mahiyyətinə açıqlıq gətirilməsinə və mədəniyyət siyasətinin həyata keçirilməsi prosesində mənəvi dəyərlərin çəkisinin müəyyənləşdirilməsinə ehtiyac duyulur.

Çünki XXI əsr bütün dünya dövlətləri və millətləri arasında iqtisadi, siyasi, mədəni əlaqələrin artması, son nəticədə qloballaşma ilə xarakterizə olunmaqla yanaşı, eyni zamanda ayrı-ayrı xalqların etnik-mənəvi köklərinə yenidən dönüşü ilə də xarakterikdir. İndi Planetin bütün irili-xırdalı dövlət və millətləri könüllü və ya könülsüz, ixtiyari və ya qeyri-ixtiyari son nəticədə böyük qloballaşmaya aparıb çıxaran nəhəng inteqrasiya magistralına qoşulmaqdadır. Qloballaşma kontekstində etnik-milli mövcudluğun siyasi, iqtisadi, kulturəl, mənəvi suverenliyi ilə bağlı milli konsepsiya və konseptual ideyalar yekcins deyil. Bu prosesi sosial-siyasi, mədəni-mənəvi, iqtisadi-güzəran, elmi-intellektual müstəvilərdə vahid qlobal harmoniya hesab edənlər də var, kainatın daha çox vahid bir mərkəzdən idarə olunan bürokratik-texnoloji ərazi vahidinə çevrilmə prosesi olduğunu iddia edənlər də. Ən müxtəlif mövqe və münasibətlər xarakterindən asılı olmayaraq qloballaşmaya aparan nəhəng inteqrasiya magistralı bütün planeti sorub aparmaqdadır. Mümkün olan ən optimal variant

bu prosesə hər bir etnosun milli-mənəvi "Mən"ini dərk edərək qoşulmasıdır. Bəlkə də, bu zərurətin dərkindən doğan həqiqətin nəticəsidir ki, indi qloballaşma ayrı-ayrı xalqların etnik-mənəvi köklərinə yenidən dönüşü ilə də xarakterizə olunur. Bu da cəmiyyət tarixinin inkişaf qanunauyğunluğunun özünüqoruma instinktindən doğur (17, s.8-9).

XX əsrin son on illiyi və XXI əsrin əvvəllərində mədəniyyətin qloballaşma prosesi sürətlə inkişaf etmişdir. Mədəni diffuziya, daha dəqiq desək, mədəni dəyərlərin mənimsənilməsinin kortəbii və yaxud nəzarət edilməyən cəhəti həm pozitiv, həm də neqativ aspektlərə malikdir. Bir tərəfdən o xalqlara imkan verir ki, bir-biriilə ünsiyyətə girsin və bir-birini yaxından tanısın. Ünsiyyət və tanıma xalqların yaxınlaşmasına şərait yaratmışdır. Digər tərəfdən həddindən artıq fəal ünsiyyət və mənimsəmə mədəni orijinallığın itirilməsi üçün təhlükədir. Eyni mədəni nümunələrin bütün dünyada yayılması, mədəni təsir üçün sərhədlərin açılması və mədəni ünsiyyətin genişlənməsi alimləri müasir mədəniyyətin qloballaşma prosesi haqqında danışmağa məcbur etmişdir. Qloballaşma millətlərin dünya sisteminə inteqrasiyasının sürətləndirilməsinə təsir edir, müasir nəqliyyat vasitələrinin və iqtisadi əlaqələrin inkişafı ilə güclənir, kütləvi informasiya vasitələrinin insanlara təsirini gücləndirir. Bu xalqlar arasında mədəni kontaktların genişlənməsinə imkan verir və insanların miqrasiya proseslərini güclənidirir.

XX əsr elmi-texniki tərəqqi əsri, XXI əsr isə qloballaşma, inteqrasiya və informasiya əsri adlanır. Qloballaşma prosesi təşəkkül tapdığı vaxtdan indiyə kimi Qərb və Şərq dövlətləri arasında sosial, iqtisadi, mədəni və hərbi əlaqələr sürətlənir, kommunikasiya vasitələri genişlənir. Qloballaşma inkişaf etmiş Qərb dövlətlərində məqbul sayılan ideoloji standartlar əsasında baş verdiyindən, müsəlman dünyası bu proseslər zamanı, onlara ayrılmış yeri və xüsusi çəkini müəyyən etmək zərurəti ilə qarşılaşmışdır (50, s.127).

Dünyada ortaq dəyərlər olan insan haqları, hüququn üstünlüyü və demokratiyanın əhəmiyyəti getdikcə artmaqdadır. Ötən əsrin sonlarından etibarən maliyyə bazarlarındaki sərbəstləşmə hərəkatları və informasiya texnalogiyasındakı inkişafla başlayan, xarici ticarətdəki sərbəstləşmə və texnoloji inkişafla sürətlənərək iqtisadiyyatın digər sahələrini da təsiri altına alan qloballaşma prosesi, son illərdə sosial və mədəni sahələrdə da istiqamətverici olmağa başlamışdır.

Kompyuter və informasiya texnologiyalarındakı sürətli inkişaflar nəticəsində məlumatların uzun məsafələr boyunca asan və sürətli ötürülə bilməsi Yer üzünün qloballaşmasında əhəmiyyətli rol oynamışdır. Bu proses, beynəlxalq rəqabət qaydalarında köklü dəyişikliklərə yol açmışdır. İstehlakçıların da məlumatlara çox sürətli və asan yiyələnmə imkanı ilə bağlı tələbi də qloballaşmışdır. Bunun nəticəsində müxtəlif ölkələrdəki istehlakçı seçimləri və həyat tərzləri arasında bənzərliklər meydana gəlməkdədir.

İnformasiya cəmiyyətunun yaranması prosesində ən əhəmiyyətli istehsal faktoru məlumat olduğundan, iş keyfiyyətinin yüksəldilməsi və inkişaf etmiş bir informasiya strukturuna sahib olmanın əhəmiyyəti artmaqdadır. Bu səbəblə də belə fikrə gəlinir ki, XXI əsrdə inkişafda olan ölkələrin inkişafına ən böyük yardımı insan qaynaqlarına yatırım və strukturun yaxşılaşdırılması göstərəcəkdir.

Ümumiyyətlə isə, qloballaşma pozitiv və neqativ cəhətlərə malikdir. Qloballaşmanın neqativ momentləri hər bir xalqın özünün mədəni özünəməxsusluğunun itməsi imkanını aşkara çıxarır. Bu proses assimlasiya təsirinə imkan verir. Müasir cəmiyyətdə mədəni özünəməxsusluğu qoruyub saxlamaq sivlizasiyanın ən ali nailiyyəti kimi dəyərləndirilir. Əvvəllər bu məsələlərə diqqət yetirilmirdi. Ona görə də bir millət digər milləti öz içərisində əridirdi, itaət altına alınmış xalqın mədəniyyət qalıqlarının müsbət ünsürlərini tamamilə özünə götürürdü. Misal üçün Latın Amerikası və Afrika ölkələrinin

Avropa müstəmləkəçiliyi dövründə bu işlər baş vermişdir. Müasir dövrdə əksər sivilizasiyalı insanlar üçün "sosial siyasət" və "mədəniyyət siyasəti" ifadələri vərdişə çevrilmişdir. Sual oluna bilər, bunlar nə üçün yalnız sivilizasiyalı insanlar üçün adiləşmişdir? Ona görə ki, bu, məqsədyönlü cəmiyyətin sosial-mədəni sahələrinin idarə edilməsi konsepsiyasına əsaslanır. Bütövlükdə bunlar sivilizasiyalı ölkələrin fərqləndirici əlamətləri hesab olunur. Bu xalqlar üçün bu hallar yalnız XX əsrin ortalarından başlayaraq adiləşdirilmişdir. Elə həmin vaxtdan başlayaraq bütün bəşəriyyətin mədəni genefondunun saxlanılmasına yeni yanaşma inkişaf etdirilmişdir. Bu konsepsiya BMT çərçivəsində ayrıca götürülmüş hər bir ölkəyə aid edilir.

BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə niazmnaməsində deyilir: "İnsan ləyaqətini qorumaq üçün mədəniyyət və təhsil ədalət, azadlıq və sülh əsasında bütün insanlar arasında geniş yayılmalıdır; ona görə də, bu baxımdan bütün xalqların üzərinə qarşılıqlı əməkdaşlıq ruhunda yerinə yetirilməli olan müqəddəs vəzifələr qoyulur. Buna görə də onlar dünyanın bütün xalqlarının təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığı yolu ilə tədricən beynəlxalq sülhə və bəşəriyyətin rifahına nail olmaq məqsədi" (75, s.9) güdür.

Dünya kulturoloji fikri yekdilliklə belə bir ümumi qənaətə gəlir ki, ənənəvi tədqiqatlarda bir-birindən ayrı, əlahiddə təqdim edilən qədim mədəniyyətlər, biri digərinin tarixi davamı və tamamlayıcısı olan qədim sivilizasiyaların təzahürü olmaq etibarilə vahid bir mədəniyyət hadisəsidir və indi bu sivilizasiyaların müasir varisləri XXI əsrin ilk onilliyini tamamlamaqdadır. Vahid mənşədən vüsət alan sivilizasiyalar tarixi epoxalar sınağından keçərək yenidən bir-birinə qovuşur. Beləliklə, türk etnik-mənəvi "Mən"inin dərk olunma və ümumtürk miqyasında psixoloji həzmi zərurəti bu günün reallıqlarından doğur. Və bütün bəşəriyyət gücündən, iqtisadi qüdrətindən, mənəvi-mədəni səviyyəsindən asılı olmayaraq milli varlığını

qorumaq istəyirsə, bu prosesə qoşulmalı, onun labüdlüyünü dərk etməlidir(16, s.7).

Dünya xalqlarının hər birində kökünə, soyuna, ilkin maddi-mənəvi dəyərlərinə qayıdış meyli son zamanlar bir qədər də güclənməkdədir. Xalq ruhunun, milli mənəviyyatın bütün ifadə çalarlarını və özəlliklərini qoruyub saxlayan milli-mənəvi dəyərlər bu qayıdışa rəvac verən sönməz idrak, solmaz təfəkkür, orijinal dünyaduyumudur. Məhz bu səbəblərdən də mənəvi dəyərləri də ğzündə ehtiva edən mədəniyyət məfhumu ilə bağlı tədqiqatlar və müzakirələr bu gün də səngimək bilmir, yəqin ki, hələ neçə-neçə onilliklər də bitib-tükənməyəcəkdir.

XX əsrin ikinci yarısından başlayaraq mədəniyyət siyasəti Qərb ölkələrinin fəaliyyətində tədricən mühüm yer tutmağa başlayır. Sonralar isə Avropa Şurası mədəniyyət siyasətinə demokratik inkişaf siyasəti kimi ciddi diqqət yetirir. 1986-cı ildə Avropa Şurası Avropa ölkələrində geniş yayılmış "Mədəniyyət siyasətinin qısa proqramı"na başlanğıc verdi. Bu proqran Mədəniyyət Nazirlikləri tərəfindən milli hesabatların hazırlanmasını nəzərdə tutur. Sonra bu hesabatlar Avropa Şurasının ekspertləri tərəfindən qiymətləndirilərək müvafiq tövsiyyələr hazırlanır. Bu tövsiyyələr məhsuldar fəaliyyət proqramının işlənməsi məqsədi ilə Strasburqda və ayrı-ayrı ölkələrdə müzakirə edilir. 1997-ci ildə Avropa Şurasının mədəniyyət siyasəti şöbəsinin fəaliyyətini yaxşılaşdırmağa xidmət edən "Mədəniyyət siyasətinin sistemləşdirilməsi və istehsalı ittifaqı" yarandı. İttifaq mədəniyyət siyasəti üzrə materialların yığılması, sistemləşdirilməsi və istehsalı, onların çoxaldılaraq müxtəlif ölkələrin dövlət və qeyri-hökumət strukturları arasında yayılması ilə məşğul olur. O, müxtəlif ölkələrdə mədəniyyət siyasəti sahəsində işləyənlər üçün təmas şəbəkəsi müəyyənləşdirir. Avropada mədəniyyətin inkişafı və mədəniyyət siyasəti üzrə diskusiyaların keçirilməsi və informasiya mübadiləsi məqsədi ilə 1998-ci ildə 40-dan çox mədəniyyət şəbəkəsi və təşkilatını özündə birləşdirən Forum




(58, s. 68)

Mədəniyyət siyasəti mədəniyyətin inkişafında böyük rol oynayır, çünki mədəniyyət siyasi amillərdən, dövlətin mədəni

inkişafına təkan verən və ya tormozlayan siyasi sistemindən asılıdır (18, s.28-29). Ona görə də mədəniyyət siyasətinin mahiyyətini açmaq üçün ilk növbədə kulturoloji fikirdə "mədəniyyət" məfhumuna olan münasibətə aydınlıq gətirmək lazımdır.

Dünya elmi fikrində mövcud olan bəzi təriflərdə "mədəniyyət" məfhumu əsasən belə izah edilir ki, bu fenomen varlığın və şüurun bütün sahələrində bəşəriyyətin predmetləşdirmə (sərvətlər, normalar, işarə sistemləri yaradılması və s.) və predmetsizləşdirmə (mədəni irsin mənimsənilməsi) proseslərinin dialektik vəhdətindən ibarət, gerçəkliyin yenidən dəyişdirilməsinə, bəşər tarixi zənginliyinin şəxsiyyətin daxili zənginliyinə çevriləmsinə, insanın mahiyyət qüvvələrinin hər vasitə ilə aşkara çıxarılmasına və inkişaf etdirilməsinə yönəldilmiş sosial-mütərəqqi yaradıcı fəaliyyətidir. Məhdud mənada əsasən maddi mədəniyyət (texnika istehsal təcrübəsi, maddi sərvətlər), mənəvi mədəniyyət (elm, incəsənət və ədəbiyyat, fəlsəfə, əxlaq, maarif və s.), həmçinin siyasi mədəniyyət (cəmiyyətin, sinfin, qrupun, fərdin fəaliyyətinin ictimai münasibətlərin dəyişdirilməsinin subyekti kimi şəxsiyyətin sosial inkişafının meyarını səciyyələndirən məqsədləri, nəticələri) haqqında danışmaq qəbul olunmuşdur (39, s.276) Uzun illərdir ki, təriflərin bəzilərində qeyd olunur ki, mədəniyyət – ictimai-iqtisadi formasiyaların bir-birini əvəz eməsindən asılı olaraq inkişaf edən tarixi hadisədir. Mənəvi mədəniyyəti maddi əsasdan ayıran və onu "elita"nın (fr. elite – ən yaxşı, seçilmiş) mənəvi məhsulu kimi izah edən idealist mədəniyyət nəzəriyyələrinin əksinə materializm maddi nemətlərin istehsalı prosesini mənəvi mədəniyyətin inkişafının əsası və mənbəyi kimi nəzərdən keçirir; belə çıxır ki, mədəniyyət bilavasitə bütün xalqların fəaliyyətilə yaradılır. Qeyd etmək lazımdır ki, maddi şəraitdən asılı olan mənəvi mədəniyyət maddi əsas arxasınca avtomatik dəyişmir, əksinə nisbi

müstəqilliyi ilə (inkişafda varislik, müxtəlif xalqların mədəniyyətlərinin bir-birinə təsiri və s.) səciyyələnir (39, s.24).

Ümumiyyətlə, mədəniyyətin mahiyyətinə müxtəlif mövqelərdən yanaşan çoxsaylı təriflər mövcuddur. Bu terminoloji problemlər içərisində maraqlı olan anlayışlar kifayət qədərdir. Adətən, mədəniyyət dedikdə ictimai qrup, fərdi varlıq və şüurun vəziyyəti, həmçinin həmin vəziyyətin dəyişilməsi sahəsində fəaliyyət başa düşülür. Varlığın vəziyyəti, onun dəyişilməsindəki fəaliyyət adətən maddi vəziyyət adlanır. Varlıq haqqında təsəvvürlərin dəyişilməsinə aid fəaliyyəti və həmin fəaliyyətin nəticələri çox vaxt mənəvi mədəniyyət adlanır. Maddi və mənəvi mədəniyyət bir-birilə sıx surətdə əlaqədardır. "Varlıq şüuru müəyyən edir" fikri qədər, "şüur varlığı müəyyən edir" fikri də fəlsəfi və kulturoloji diskussiyaların müzakirə obyektidir (138, s.151). Tanınmış tədqiqatçı Y.M.Lotmanın: "şüurdakı hər hansı dəyişiklik maddi mədəniyyətin dəyişilməsinə təsir edir" və ya əksinə "mədəniyyət təkcə binanı yaratmır, o həm də insanları yaradır" kimi fikirləri çox alimlər tərəfindən qəbul edilməkdədir (127, s.29).

Qeyd etmək lazımdır ki, mənəvi mədəniyyəti mənəvi istehsalla eyniləşdirmək olmaz. Mənəvi istehsal – ideyaların, normaların, dəyərlərin məcmusudur. Mənəvi mədəniyyət daha geniş anlayış olub, mənəvi istehsalı da özünə daxil edir. Deməli, mədəniyyət maddi və mənəvi dəyərlərin məcmusudur. Konkret olaraq mədəniyyətə, belə bir tərif vermək olar. Mədəniyyət – cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onları nəsildən-nəslə vermək bacarığıdır. Mədəniyyət insanın sirli-sehirli dünyasıdır. Onun özünü dərk etməsi və şəxsiyyətin mövcudluq üsuludur (99, s.428).

Əksər tədqiqatçıların rəyinə görə maddi və mənəvi mədəniyyət arasındakı fərq nisbidir. Çünki onların hər ikisi insanın mahiyyət qüvvələrinin predmetləşdirilməsi və

predmetsizləşməsi nəticəsi olaraq meydana çıxır və onun yaradıcılıqda tələbatının reallaşmasıdır. Maddi mədəniyyət "şey" tələbatının ödənilməsi üçün dəyər yaradır. İnsanın cismani təşkilini əsaslandıran qida, paltar və yaşayış yeri və s. üçün dəyərlərin içərisində prioritet xarakterə malik olur. Mənəvi dəyərlər bütün tələblərdən "yüksəkdədir". O cismani tələbatlar çərçivəsindən kənara çıxır və onların ödənilməsi üsulunu mürəkkəbləşdirir. Mənəvi mədəniyyət iki növdə mövcud olur. Birincisi, predmet şey dəyərləri kimi, bu adətən insandan özgələşmiş əmtəə forması almışdır. Onlar maddi istehsalın nəticələrinə oxşayır. İkincisi, mənəvi mədəniyyət fəaliyyət aktını təmsil edir və burada nəticə insandan özgələşməmişdir, o yaradıcılıq prosesinin özü ilə üst-üstə düşür (tamaşa, dərs, müalicə təsiri). Buradan mənəvi istehsalın spesifikası maddi istehsalla müqayisədə fərqlənir. Mənəvi istehsal unikal, təkrarsız dəyərləri yaradır. Bu maddi rifah sahəsindəki istehsaldan fərqli olaraq şablona, tirajlaşdırmaya aid deyildir. Çünki maddi istehsal sahəsində ağalıq edən standart sxemdən fərqlənir. Deməli, mənəvi istehsal prosesində insan daha çox azadlığa malik olduğundan, şablondan uzaqdır və burada yaradıcılıq potensiyasını daha geniş şəikldə təzahür etdirir. Maddi mədəniyyət əsasən kollektiv cəhd nəticəsində yaranır və bilavasitə korporasiyanın sahəsində mümkün olur. Mənəvi istehsal korporasiyaya məruz qalır lakin o, təkbaşına baş verir (rəssamlıq, dramaturqiya, bədii ədəbiyyat, dini ehkamlar və s. konkret mənəvi məhsulun yaradılış məqamı bir müəllifin iştirakı baş verir).

Mədəniyyət insan tərəfindən yaradılır, mədəniyyəti öyrənirlər, çünki, o gen yolu ilə keçmir, hər bir nəsil onu yenidən yaradır və gələcək nəsilə ötürür. Bu proses sosiallaşmanın əsasıdır. Dəyərlərin, inamların, normaların, qaydaların və ideallarm mənimsənilməsi nəticəsində uşağın şəxsiyyətinin formalaşması və bu hərəkətinin tənzinlənməsi baş verir. Əgər sosiallaşma prosesi kütləvi ölçüdə dayansaydı bu,

mədəniyyətin məhvinə gətirib çıxarırdı. Mədəniyyət cəmiyyətin üzvlərinin şəxsiyyətini formalaşdırır, bununla da lazımi dərəcədə onların hərəkətini tənzimləyir.

Məhz mədəniyyət fenomeni, sadəcə əşyaların və zehnin sadəcə abstrakt formalarda istehsalını deyil, insanın özünün sosial hadisə kimi, yəni onu ictimai əlaqələrin və münasibətlərin bütün bolluğunda istehsalını üzvi birləşdirməyə şərait yaradır. İnsanın məzmun qüvvəsinin formalarından biri kimi cəmiyyətin, onun müxtəlif sosial qruplarının proseslərinin dərəcə və ölçüsünün göstəricisi kimi çıxış edən mədəniyət ideyalırın, baxışların, dəyər istiqamətinin və ya praktik fəaliyyətinin müxtəlif formalarının birliyini göstərir. Mədəniyyətdə yaradıcı qüvvənin sosial şəxsi keyfiyyətləri əks olunur və möhkəmlənir.

Hər bir insan cəmiyyəti öz şəxsi spesifik mədəniyyətinə və ya müəyyən dərəcədə digər sistemlərlə üst-üstə düşən sosial mədəni sistemə malikdir. Sosial mədəni sistemlər arasında fərqlər fiziki şəraitlərlə və resurslarla; fəaliyyətin müxtəlif sahələrinə məxsus olan imkanların diapozonu ilə, dilin, ritualların və ənənələrin, alətlərin hazırlanmasının istifadə edilməsininin tipi ilə; sosial inkişaf dərəcəsi ilə bağlıdır. Fərdin, onu əhatə edən, içərisində yaşadığı mədəniyyət, onun münasibətlərinə, dəyərlərinə, ideal və inamlarına təsir edir. Şübhəsiz ki, fərd bir neçə müxtəlif mədəniyyətlər çərçivəsində yaşaya və yerdəyişmə edə bilər.

Mədəniyyətin əsas funksiyaları arasında zehni, aksioloji, qadağanedici, stimullaşdırıcı, tənzimləyici, harmonikləşdirici, dəyişdirici, gedonistik (zövq), varislik funksiyasının adını çəkirlər.

Ümumiyyətlə, mədəni universililər nədir? Mədəni universililər – zaman və məkandan, cəmiyyətin sosial quruluşundan asılı olmayaraq bütün mədəniyyətlərə məxsus olan normalar, dəyərlər, qaydalar, ənənələr və xassələrdir.

Sosiologiyada mədəniyyət – sosial təbiətə malik olan və insanların müxtəlif sosial situasiyalarda qarşılıqlı anlaşmasını təmin edən, predmetlərin, ideyaların, dəyər anlayışlarının yaradılmasına, anlanılmasına, qorunmasına və yayılmasına yönəlmiş sosial münasibətlərdə əks olunan mürəkkəb dinamik quruluş kimi nəzərdən keçirilir. Sosioloji tədqiqatın obyekti, cəmiyyətdə mövcud olan mədəniyyət obyektlərinin yaradılması, örtülməsi, mənimsənilməsi üsullarının və formalarının konkret bölgüsü, mədəni həyatda daimi və dəyişkən proseslər, həmçinin onların sosioloji faktorları və mexanizmləridir. Bu kontekstdə sosiologiyada sosial birliklərin, qrupların və bütövlükdə cəmiyyət üzvlərinin təbii və sosial ətrafı ilə zamanca təkrarlanan, geniş yayılmış müxtəlif münasibət formalarını, birliklərin mədəniyyətinin inkişaf səviyyəsini müəyyən etməyə və deməli onların mədəni tərəqqisi və ya tənəzzülü haqqında danışmağa imkan verən mədəniyyətin inkişaf dinamikasını öyrənir.

Hər bir konkret birlik (sivilizasiya, dövlət, xalq və s.), bir çox əsrlər boyu fərdin, bütün həyatı boyu onu izləyən və nəsildən nəslə ötürülən öz şəxsi mədəniyyətini yaradır. Nəticədə çox mədəniyyətlər meydana çıxır. Sosioloqlar qarşısında insan mədəniyyətində nə isə ümumiliyin, elmi dildə desək, mədəni universalilərin olub- olmadığını öyrənmək problemi yaranır.

1959-cu ildə Amerika sosioloq və etnoqrafı Corc Merdək 70-dən yuxarı universalilərin bütün mədəniyyətlərdə eyni elementlərə malik olduğunu göstərdi: yaş dərəcələri, idman, bədən bəzək əşyaları, təmizliyə riayət etmə, qəbilə quruluşu, qida hazırlamaq, əməyin korporasiyası, kosmologiya, pərəstişkarlıq, rəqslər, dekorativ incəsənət, fala baxma, yuxuların yozulması, əməyin bölgüsü, təhsil və s.

Mədəni universalilər ona görə yaranır ki, bütün insanlar dünyanın hansı bir hissəsində yaşasalar da fiziki cəhətdən eyni cür quruluşdadırlar. Onların eyni bioloji tələbatları var. Deməli, bütövlükdə bəşəriyyət qarşısında ətraf mühitin ümumi prob-

lemləri ilə qarşılaşırlar. İnsanlar doğulurlar və ölürlər, buna görə də bütün xalqlarda doğum və ölümlə bağlı adətlər mövcuddur. Onlar birgə həyat sürdüklərindən onlarda əməyin bölgüsü, rəqslər, oyunlar, salamlaşmalar və s. yaranır.

Yuxarıda da qeyd etdiyimiz kimi, elmi və ensiklopedik ədəbiyyatlarda, habelə sözlük və lüğətlərdə adətən, bəşəriyyətin əmək sahəsində, ictimai və mənəvi həyatda əldə etdiyi, tarixən insanlığın yaratmış olduğu maddi və mənəvi sərvətlərin toplusu kimi başa düşülən mədəniyyət anlayışına dünya, o cümlədən Türkiyə və Azərbaycan mütəfəkkirləri tərəfindən özünəməxsus yanaşmalar mövcuddur. Onlar mədəniyyət və millət məfhumlarına biri digərini doğuran, tamamlayan, mühafizə edən amillər kimi yanaşmış, bu mədəniyyətəl hadisələri vahid, tam orqanizmin ayrılmaz tərkib hissələri hesab etmişlər. M.K.Atatürk, M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə kimi "milli dövlət ideoloqları" bir az da irəli gedərək mədəniyyət və millət məfhumlarını eyni mövqedən dəyərləndirmişlər. Mübariz Süleymanlı bununla bağlı yazır: "Elə bu səbəbdəndir ki, milli dövlət quruculuğu uğrunda qanlarını əsirgəməmiş, canlarını fəda etmiş Türk böyüklərinin demokratiya, hürriyyət, istiqlal uğrundakı ideya mübarizələri mədəni inkişafa, mədəni tərəqqi və intibah əsaslarına söykənmişdir. Artıq dünya dövlətçilik tarixində sınaqdan çıxmış, Azərbaycanda isə milli diriliyimizi mədəni təməllərə bağlayan M.Ə.Rəsulzadənin, "Milli dövlət kültür yaradıcılığının ən yüksək şəklidir" deyən M.B.Məhəmmədzadənin Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə təsdiqlənən elmi müddəaları milli dövlət quruculuğunda dil, kültür və mədəniyyətin ən mühüm və əvəzedilməz amil olduğunu bir daha aşkarlamaqda, xatırlatmaqda və bəyan etməkdədir" (95, s.58).

Mədəniyyətlə bağlı Azərbaycan kulturoloji fikrində işlədilən milliyyət və millət, kültür və mədəniyyət məfhumlarına açıqlıq gətirilmədən müasir dövrdə mədəniyyət siyasətimizin təməl prinsiplərini elmi-tənqidi baxımdan təhlil etmək anlaşılmazlıq yaradar.

M.Ə.Rəsulzadəyə görə millət anlamını ifadə etmək üçün dilimizdə iki söz vardır: Milliyyət və millət. Bunlardan birincisi lisanı (dil), dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir cəmiyyəti ifadə edər. İkincisi isə bu topluluqdan doğan ümumi bir iradəni anladar. "Millət olmaq əzmi" başlıqlı məqaləsində o, Düikeym və Madzininin tərifləri arasındakı ifadə fərqliliklərinə tənqidi yanaşaraq yazır ki, dilləri, adətləri, tarixləri, dinləri, vətənləri və sairələri bir olan insanlar bir milliyyət təşkil edərlər; fəqət, bir milliyyətin millət halına keçməsi ümumi şüur və kollektiv iradənin ortaya çıxmasına bağlıdır (111, s.17-18). Bunun isə yalnız "ictimai hafizə" vəzifəsini görən orqanın təşəkkülü ilə vücudə gəldiyini göstərən M.Ə.Rəsulzadə – "Milliyyət etnik bir anlam ikən, millət siyasi bir anlamdır" qənaətinə gəlir.

"Millətçilik-patriotizm" məqaləsində M.Ə.Rəsulzadə yazır: "Milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücuda gəlmiş statik bir varlıqdır; millət isə bu statik varlığın şüurlaşan dinamik (fəal) bir şəklidir. Statik bir keyfiyyət ərz edən milliyyət baxımından vətən coğrafi bir anlamdır. Halbuki şüur və iradəyə malik bulunan millət baxımından vətən, siyasi bir məna ifadə edər" (112, s.19-20).

"Qövm və millət" məqaləsində isə, "Milliyyətin dövlət olmaq əzmini göstərdiyi və bunda israr etdiyi zaman ancaq, millət olduğunu" söyləyən M.Ə.Rəsulzadə fikirlərində böyük türk filosofu Ziya Göyalpa istinad edərək yazır ki, "Millət (nation) şəxsiyyətini uzun müddət qeyb etdikdən sonra təkrar canlandırmağa çalışan bir Qövm deməkdir", "Millət, çağdaş mədəniyyəti külli tam, özünü də onun tərkib hissəsi olaraq görür" (113, s. 24-25).

Kulturoloji fikrimiz tarixində mədəniyyət və mədəniyyət anlamları da əsasən Ziya Göyalpın təklif etdiyi terminoloji modeldə başa düşülməlidir. Ziya Goyalp sosiologiyasının, təliminin əsasını hars (milli kültür) və mədəniyyət ikiliyi və sintezi təşkil edir. "Kültür milli, mədəniyyət isə beynəlmiləldir. Kültür yalnız bir

millətin din, əxlaq, hüquq, ağıl, estetika, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarının ahəngdar bir bütünüdür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox millətlərin ictimai həyatlarının ortaq bir bütünüdür" (41, s.40).

Hər bir xalqın mədəni irsi onun milli yaradıcılıq potensialının etibarlı göstəricisidir. Mədəni irsin qorunması və inkişaf etdirilməsi, ümumilikdə cəmiyyətin inkişafının və iqtisadiyyatla əlaqəli olan sahələrdən əlavə digər sahələrdə daha yüksək nailiyyətlər əldə etmək cəhtlərinin ayrılmaz bir hissəsidir.

Mədəni irs anlayışına bir sıra xarici ölkəərdə dörd mövqe dpxil edilir – tarix və memarlıq abidələri, muzeylər, kitabxanalar və arxivlər.

Azərbaycanın maddi və mənəvi mədəniyyət abidələri onun mədəni irsini tarixindən xəbər verir. Azərbaycan – qədim və orta dövr abidələri, qalaları, körpüləri, məbədləri, karvansaraları ilə zəngin bir ölkədir. Min ildən artıq Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələ şəhəri, Qədim Naxçıvan, Gəncə və Bərdə şəhərləri sənətkarlıq və mədəniyyət mərkəzləri kimi şöhrət tapmışdır. Bundan əlavə Azərbaycan qalalarla zəngindir. Kəlbəcər rayonunda dəniz səthindən 2500 metrdən uca dağın başında tikilmiş Lek qalası və oradakı qədim tikililər, Gədəbəy rayonundakı Namərd qala, Bakıda 28 metr hündürlüyündə 8 mərtəbəli Qız qalası, İsmayıllı rayonunda Cavanşirqala, Naxçıvanda Əlincə, Şəkidə «Gələrsən, Görərsən», Şamaxıda Gülüstan qalaları, Qaleyi-Buğurt və başqaları sözün əsl mənasında tariximizin möcüzələridir (64, s. 68).

Azərbaycanın tarixi memarlıq abidələri haqqında daha çox danışmaq olar. Bunlar bizim tarixi keçmişimizi əks etdirən maddi mədəniyyət nümunələridir. Bu nümunələrin hər biri bizə ulu tariximizə, keçmişimizə iftixar hissi ilə baxmağa əsas verir. Buna görə də hər bir Azərbaycan vətəndaşı, eləcə də Azərbaycan dövləti və mədəni abidələrin mühafizəsi, onların bərpası və təbliği üçün xüsusi səy göstərməlidir.

Azərbaycan hazırkı keçid dövrü şəraitində, mədəniyyət sahəsində kəskin tənəzzüllə üzləşmişdir. Bir çox kütləvi

mədəniyyət mərkəzlərinin (muzeylər, kitabxanalar, parklar, teatr və konsert zalları) əsaslı bərpasına və modernləşdirilməsinə ehtiyac duyulur. İncəsənət sahəsində tənəzzülün və mədəni irsin itməsinin cəmiyyətə təsiri istənilən halda iqtisadi inkişaf üzrə qarşıya qoyulan məqsədlərlə heç cür müqayisə edilə bilməz. Bu baxımdan hökümət, yoxsulluğun azaldılması məqsədləri çərçivəsində incəsənət sahəsində tənəzzül meyllərinin qarşısını alınmasına və mədəniyyətin inkişaf etdirilməsinə yönəldilmiş əsas tədbirlər işləyib hazırlamalıdır.

Hökumət yoxsulluğun azaldılması ilə bağlı məqsədlərə öz təsirini iki əsas istiqamətdə göstərməlidir. Mədəni irsə və mədəniyyətin gələcək inkişafına qayğının artırılması. Hazırda mədəniyət sahəsində çalışan işçilərin əmək haqqları çox və dövlət mədəniyyət müəssisələrində çalışan işçilərin əmək haqqlarının artırılması yolu ilə mədəniyyət işçilərinin yaşayış səviyyəsinin yaxşılaşdırılması təmin olunmalıdır.

Dünyanın bir çox ölkələrində bir qayda olaraq mədəni irsin qorunması, saxlanması və fundamental inkişafı dövlət siyasətinin tərkib hisəsi kimi, onun maliyyə vəsaitləri hesabına həyata keçirilir. Buna baxmayaraq mədəniyyətlə bağlı əlavə fəaliyyət sahələrinə özəl sektorun cəlb olunması da həvəsləndirilə bilər. Buraya müxtəlif təlim proqramları – bədii gecələrin, incəsənət tədbirlərinin və mədəniyyət mərkəzlərinə ekskursiyaların təşkil olunması, nəqliyyat, informasiya texnologiyası və nəşriyyat, eləcə də pərakəndə satış sahələri aiddir. Bundan əlavə bəzi mədəniyyət özəl sektora idarəetməyə verilə bilər. Bütün bünlar hökümtin inkişaf strategiyasına tam uyğun olaraq, gəlir əldəetmə imkanlarının yaradılmasına birbaşa təsir göstərəcəkdir.

Böyük türk sosioloqu Ziya Göyalp "mədəniyyətlə" "kültür" anlayışlarını bir-birindən fərqləndirməyə çalışmışdır. Onun fikrincə kültürlə mədəniyyət arasında məzmunca həm bmrləşmə, həm də ayrılma vardır. Bunların hər ikisi toplum şəklində olduqları üçün aralarında bir bənzərlk möcuddur. Ziya Göyal kültürü mahiyyətcə milli, mədəniyyəti isə beynəlmiləl hesab edirdi. O, yazır ki, kültür

milli olduğu halda, mədəniyyət uluslararasıdır, beynlmiləldir. Kültür yalnız bir millətin din, əxlaq, hüquq, ağıl, estetika, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarını uyumlu – ahəngdar bir bütünüdür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox millətlərin tomlunmsal-içtimai həyatlarının ortaq birbütünüdür (41, s. 160).




Böyük sosioloqun mədəniyyət haqqındakı mülahizələrində kültür və yetkinlik ifadələri işlədilir. Kültür ilə yenilik arasında fərqlərdən birisi, kültürün "demokratik", yeniliyin isə "aristok-

ratik" olmasıdır. Kültür xalqın gələnəklərində – ənənələrindən, alaşqanlıqlarından, şifahi və yazılı ədəbiyyatlarından, dilindən və musiqisindən, dinindən, əxlaqından, bədii və iqtisadi məhsullarından ibarətdir. Bu gözəlliklərin sərvətlərin xəzinəsi və muzeyi xalq olduğu üçün kültür demokratikdir. Yetkinlik isə yalnız yüksək təhsil görmüş, yüksək bir tərbiyə ilə yetişmiş həqiqi ziyalılara aiddir. Yetkinliyin əsası yaxşı bir tərbiyə görmək ağıla söykənən biliklərin (dərk edilə bilinənləri) incəsənəti, ədəbiyyatı, fəlsəfəni, elmi və heç bir fanatizmə yol vermədən dini süni olmayan, səmimi bir məhəbbətlə sevməkdən ibarətdir. Aydın olur ki, yetkinlik xüsusi br tərbiyə ilə təşəkkül tapmış duyum, düşünmə, (təfəkkür) və yaşayış tərzidir (41, s. 84).

Milli kültür xalqın mənəviyyatını – mənəvi dəyərlərini təşkil edirsə, mədəniyyyət ziyalılıq, yetkinlik kimi başa düşülür Ziya Göyalp xalqa doğru ifadəsini iki məqsəd üçün işlədirdi: birinci xaqdan milli kültür tərbiyəsi almaq üçün xalqa doğru getmək, ikinci xalqa mədəniyyət aparmaq üçün xalqa doğru getmək. Çünki xalq milli kültürün canlı bir muzeyidir.

Ziya Göyalp milliliyin daşıyıcısı, müəyyənləşdiricisi olan xalq sərvətlərini, şifahi və yazılı ədəbiyyatı, dini, əxlaqı, musiqini, bir sözlə mənəvi dəyərləri xammal kimi təsvir edir, bu xammalları isə alimlər, tədqiqatçılar, sənətşünaslar mükəmməl şəkildə emal etməli, işləməlidirlər. Onu da qeyd etmək lazımdır ki, "kültür" sözü əslində latıncadakı "kultura" dan yaranıb. Bu "kultura"nın bir anlamı isə "becərmə, becərilmə" torpağın emalıdır.

Böyük sosioloqun daha bir mülahizəsinə görə kültür milli, mədəniyyət isə beynəlmiləldir. Kültürlə mədəniyyət arasında həm birləşmə, həm də ayrılma vardır. Lakin mədəniyyət həm bilgilərlə, düşüncə ilə bağlı olduğu halda, kültür duyğularımızla bağladır. Duyğularımızla bağlı olan mənəvi aləmimiz – kültür obyektiv varlıqdır. Dil, din, əxlaq, estetika kimi duyğusal elementlər baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət olan zümrə millət adlanır. Milli

mənəvi dəyərlərimiz dedikdə məhz duyğularımızla bağlı olan kültürümüz – dilimiz, dinimiz, əxlaqımız nəzərdə tutulur. Ziya Göyalpın fikirlərinə əsaslanaraq belə nəticəyə gəlmək olur ki, mədəniyyət bilgilərlə, düşünüşlə bağlıdır. Hər hansı bir fərd duyğulardan azad deyil. Çünki insanlardakı ruh (psixologiya) duyğular və fikirlərdən ibarətdir. Yəni, psixologiya alimlərinə görə duyğu həyatımızın əsasıdır, düşüncə həyatımız ona aşılanmışdır. Deməli, ruhumuzun normal halda ola bilməsi üçün fikirlərimizin, düşüncə və bilgilərimizin duyğularımıza tamamilə uyğun olması lazımdır. Öz düşüncələrinin, fikirlərinin duyğularına – mənəvi aləmə uyğun gəlməyən insanı təsəvvür etmək çətindir.

Ona görə də biz əgər mədəniyyəti bilgilərlə, duşunuşlə bağlı qəbul etsək, onda görərik ki, o, duyğularımızla bağlı olan kültürümüzün (mənəvi dəyərlərimizin) inikşafına xidmət etməlidir.

Milli mənəvi dəyərlər hər hansı millətin tarix boyu əldə etdyi nailliytləridir. Yeni dünyaya gəlmiş hər hansı br insn hələ beşikdə ikən eşitdiyi laylalar ilə ana dilinin təsiri altında qalır. Buna görədir ki, ən sevdiyimiz dil ana dilimizdir. Ruhumuzu təşkil edən bütün dini-əxlaqi, bədii-etetik duyğularımız da bu dil vasitəsilə anlamışıq. Əslində ruhumuzun sosial duyğuları dinə, əxlaq və estetikaya – ədəbiyyata aid duyğulardan ibarətdir. İnsan ən səmimi, ən dərin duyğularını ilk tərbiyə zamanı alır. Hər bir normal insan hansı millətin tərbiyəsini alıbsa, ancaq onun ülküsü- idealı uğrunda çalışa bilər. Böyük İskəndər "Mənim gerçək atam Filipp deyil, Aristoteldir. Çünki birinci maddiliyimin – maddi quruluşumun, ikinci mənəviyyatımın – mənəvi quruluşumun meydana gəlməsinə səbəb olmuşdur" – deyirdi.

Bu baxımdan mədəniyyətimizin inkişafı mənəvi dəyərlərimizin inkişafından asılıdır. Mənəvi dəyərlər xalqı ruhən yaşadan, ona ideya, istiqamət, stimul verən bir dəyərdir. Bu dəyər hətta içtimai hadisələrə səbəb ola biləcək qüvvəyə malikdir.

Fransız sosioloqu Emil Dürkheym duyğunu (kültürü), düşüncəni (mədəniyyəti) toplum yaradır fikrini irəli sürür və toplumda kollektiv şüuran rolunu qeyd edir, iş bölümünü (əmək bölgüsünü) solsial həmrəyliyin əsası sayırdı. Bununla da O, tarixi materializmin iqtisadi modelini arxa plana keçirirdi. "Milli iqtisadiyyatımız ancaq iqtisadi gerçəkliyimizi tədqiq etdikdən sonra iqtisadi hadisələrmdən normal və xəstə olanları ayırd edə biləcək və ancaq o zaman iqtisadi xəstəliklərimizin müalicəsi üçün arayış və ya resept verə biləcəkdi (41, s. 70)".

E.Dürkheym daha bir yazısında qeyd edirdi ki, milli iqtisad elmi hər yerdə milli ülkudən öncə deyil, sonra doğur.

Millətimizin mənəvi-əxlaqi dəyərləri ilə bağlı, bütövlükdə mənəvi mədəniyyəti dastanlarımız, nağıl və folklorumuz, miflər, əfsanələr, dini inanaclar, eləcə də əxlaq hüquq texnika və iqtisadiyyatla bağlı qaydaların, elm və fəlsəfə ilə bağlı görüşlərin hər biri kollktiv təsəvvürlərdir. Dini inamın – etiqadın və nəzəriyyənin ziddi sayılan ayinlər və praktiki fəaliyyət də öncə ağılda təsəvvür olunub sonra həyata keçilirdikləri üçün əslində hər biri kollektiv (ortaq) təsəvvürlərdir. İçtimi kollektiv təsəvvürlər çoşqün böhranlar əsasında çox şiddətli həyacanlara bölünərək son dərəcə böyük qüdrət və gücə malik olurlar. İçtimai təsəvvürlərin bu durumuna ülkü məfkurə adı verilir. İçtimai təsəvvürlər gerçək (əsl) ülkü halını aldıqdan sonra həqiqi inqilabların səbəbi olurlar (41, s. 67).

Məsələn, XVIII əsrdən XX əsrə qədər xalqımızın dövlətçilik ənənələrinin əvvəlcə xanlıqlar, sonra isə imperiyalar tərəfindən bölüşdürülməsi azərbaycançılıq məfkurəsini yaratdı.

XIX əsr Azərbaycan marifçiliyi bu məfkürənin təsiri altında fəaliyətə başladı. Bu haqda professor N.Şəmsizadə yazır: "Azərbaycan maarifçiliyi Abbasqulu Ağa Bakıxanov simasında maarifçi mütləqiyyət simasında meydana atılır və Axundov nümunəsində respublikaçı baxışlara qədər tarixi bir inkişaf yolu keçir". H. Zərdabi, H. Z. Tağıyev, Ə. Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə,

Ü.Hacıbəyov, M.Ə.Sabir və H.Cavid kimi şəxsiyyətlərin və onların başçılıq etdiyi ədəbi-tarixi cərəyanların fəaliyyəti sahəsində XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda milli ideologiya formalaşdı və tarixdə ilk dəfə 1918-ci ildə milli dövlətin, Azərbaycan Demokratik Cumhuriyyəti yaranması ilə nəticələndi. Özündə türkçülük, islamçılıq və qərb dəyərlərini birləşdirən həmn ideologiya azərbaycançılıq idi (98, s. 38).

İnsan üçün mənəviyyat – mənəvi quruluş maddiyyatdan, maddi quruluşdan öncə gəlir. Normal bir insan hansı millətin tərbiyəsini alıbsa ancaq onun ülküsü – idealı uğrunda çalışa bilər. Çünki ülkü – məfkurə (ideya) yuksək həyəcan qaynağı olduğuna görə onun uğrunda mübarizə aparılır.

Məfkürəçilik içtimai-siyasi tələbatlar, tarixi təbəddülatlar dövründə xüsusilə qabarıq şəkil alır ki, Azərbaycanda da 1988-ci ildən başlayaraq məfkurəçiliyə çiddi tələbat yaranıb.

Xalqımızın çoxəsrlik cəmiyyət təcrübələri, dini və əxlaqi ənənələrindən nəşət edən bu məfkurəçiliyin birinci probleti, çıxış nöqtəsi – "özünə dönmək" ("Bölgə xaqan kitabəsi" 673-732-ci illər) kökə qayıdış, başqa sözlə istiqlalçılıqdır. Və yaxud Nəriman Nərimanovun təbirincə desək "Ümumideala çatmaq üçün, yəni insaniyyətə xidmət edmək üçün millətə lazımdır özünü tanısın. Bir milət özünü tanımz isə, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə xüsusi məsləki dalınca yeriş edə bilməz. Bu yoldda yeriş etməz isə ümumi müqəddəs məslək nə olmağın da düşünməz. Tariximizin bu günkü mərhələsində işğalçılığın başlıca şərti ittihadçılıq – birlikçilikdir (98, s. 71)".

Ümummili lider mərhum Heydər Əliyev mənəvi dəyərlərimiz haqqında deyirdi. "Bizim mili-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında. Yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət, həqiqi xalq ola blməz". Daha sonra isə o deyirdi: "Azərbaycan xalqı cürbəcür hökmdarların əlində olubdur, tarix boyu nə qədər əziyyətlər çəkibdir. Ancaq

dilini də, öz mənəvi əxlaqi mentalitetini də saxlayıbdır. Bu xalqımızın nə qədər dərin kökləri olduğunu göstərir" (151).

Milli mənəvi dəyərlərmiz əsrlərdən bəri formalaşmış, xalqın yaşayışına, maəişətinə daxil olunmuşdur. Azərbaycan xalqının mənəvi dərələrini fərqləndirən,onun xarakterini qabarıqlaşdıran əlamətlərindn ibarətdir. Azərbaycan xalqına məxsus ən başlıca milli-mənəvi keyfiyyətlər bunlardır:

– mərdlik, köməksizə humanistlik;
– sözünəbütövlülük, əliaçıqlılıq, səxavətlilik;
– ailəyə sədaqətlilik və bağlılıq;
– dostluğa möhkəmlik;
– vətənə, torpağa bağlılıq;
– düzlüyə aparan inam və etiqadın müqəddəsliyi;
– abır, həya, ismət və onun qorunması (151).

Bütün bu keyfiyyətlər Azərbaycan xalqının milli-mənəvi dəfərlərinə məxsusdur. Müasir şəraitdə Azərbaycan dövlətinin əsas vəzifəsi bu dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsindən ibarətdir. Bunun üçün də dövlətin mədəniyyət siyasəti mənəvi dəyərlərin inkişafına önəm verməli, bu sahədəki boşluqları aradan qaldırmalıdır.

Mədəniyyətə dair nəzəri konsepsiyaların müxtəlifliyi və bu sahədə nəzəri fikir birliyinin olmaması səbəblərindən biri mürəkkəb və çoxcəhətli fenomenin elmi tədqiqinin obyektiv çətinliyidir. "Mədəniyyətin hər hansı traktovkası tədqiqat məsələlərinin spesifikasından və mədəniyyətin müxtəlif fənlər çərçivəsində nəzərdən keçirilməsinə münasibətdən, bu fənlərdə təşəkkül tapmış kateqorial aparatdan asılıdır" (101, s.79).

Humanitar elmlərin heç bir anlayışı "mədəniyyət" qədər müxtəlif mühakimələrə, mülahizələrə meydan açmamış və bu qədər tərifin yaranmasına səbəb olmamışdır. Xüsusilə də konkret elmlər çərçivəsində mədəniyyət haqqında bir-birindən fərqli, çox müxtəlif təsəvvürlər mövcuddur. Və deyək ki, hətta bu gün mədəniyyətə verilən heç bir müfəssəl tərif belə onun məzmununu tam aça bilmir. Kulturologiya, fəlsəfə,

sosiologiya, tarix, etnoqrafiya, psixologiya və digər ictimai elmlərdə mədəniyyətin çox zaman bir-birindən olduqca fərqli təriflərinə təsadüf edilir. Həmin təriflər çox vaxt mədəniyyətin ayrı-ayrı, bəzən də olduqca mühüm tərəflərini əhatə etsə də, yenə heç də az əhəmiyyətli olmayan digər tərəflərini nəzərdən qaçırır.

Mənbələrdə belə bir fikir müxtəlifliyi təkcə elmi səbəblərlə deyil, eyni zamanda sosial-tarixi səbəblərlə izah edilir. Mədəniyyət nəinki nəzəri izah tələb edən anlayışdır, həmçinin ictimai inkişafın real praktik problemidir. Mədəniyyət problemi dünyanın tarixi prosesinin bilavasitə törəməsi və nəticəsidir.

Mədəniyyət elə bir fenomendir ki, onu ictimai həyatın digər sahələrindən ayırmaq, təcrid olunmuş şəkildə düşünmək mümkün deyildir. Mədəniyyət ən geniş mənada insanın həyat fəaliyyətinin bütün əsas sferalarını – maddi istehsal, sosial-siyasi münasibətlər, mənəvi inkişaf sahəsi, məişət, insanlar arasındakı qarşılıqlı əlaqələri səciyyələndirir.

Mədəniyyət ictimai hadisədir və yalnız ictimai həyatın bütün tərəflərinin (iqtisadi, sosial, siyasi, mənəvi) kontekstində dərk edilə bilər, onların hər birini özlərinə xas bəşəri məzmun baxımından səciyyələndirə bilər.

Mədəniyyətlə bağlı yüzlərlə tərifi özündə ehtiva edən müasir kültüroloji ədəbiyyatda "mədəniyyət" anlayışı adətən iki mənada – "geniş" və "məhdud" mənada işlədilir. Geniş mənada cəmiyyətdə qəbul edilən və təsdiqini tapan bütün həyat formalarını – adətlər, normalar, institutlar, o cümlədən dövlət və iqtisadiyyatı daxil etməklə hər şeyi ifadə edir. Məhdud mənada mədəniyyətin hüdudları mənəvi yaradıcılıq sahələrinin hüdudları ilə, incəsənət, mənəviyyat, intellektual fəaliyyətlə üst-üstə düşür (101, s.18). Azərbaycan kulturoloji fikir tarixində mədəniyyət anlayışı əsasən ən geniş mənada işlədilərək, bəşəri və xüsusilə də milli xarakterli hadisə kimi dəyərləndirilir. Yalnız kültürəl dəyərlər sayəsində milli dövlət quruculuğunun mümkünlüyü qəbul edilir, belə bir tezis irəli

sürülür ki, "milli istiqlala malik olmayan bir millət hürriyyət və harsını hifz edəməz" (Anlaşıqlı olsun deyə, "kültür" məfhumunu, daha çox işlətməyə meyilli olduğumuz "milli mədəniyyət"ə sinonim kimi də qəbul etmək olar). M.B.Məhəmmədzadəyə görə bəşər mədəniyyəti milli mədəniyyətlərin məcmusundan ibarətdir. Millətlər müstəqil olmadıqca milli mədəniyyətlərini mühafizə edə bilməzlər, buna görə də bəşər mədəniyyəti qüsurlu olar.

Həyati-bəşər təbiətlə mübarizədən ibarətdir. Mədəniyyəti-bəşəriyyə bu mübarizələrdən hasil olan qənimətdir. Məqsədi-bəşər mədəniyyəti-bəşəriyyəni daha ziyadə təmin etmək və onun feyzini daha ziyadə ümumiləşdirməkdir. Mədəniyyəti-bəşəriyyə isə milli harsların (kültürlərin) iştirakından və gözəlliklərinin məcmusundan hasil olma bir yekundur. Mədəniyyətin təmini, insanların cəmaətliklə yaşaması ancaq mədəni hökumət təsisi ilə mümkündür. Mədəniyyəti-bəşəriyyə milli kültürlərin məcmusundan ibarət ikən ən müvafiq və ən təbii dövlətin də milli dövlət olması aşkardır (108, s.145).

Müasir Azərbaycan kulturoloji fikrinin bir sıra nümayəndələrinin tədqiqatlarında da varislik ənənələrinin mühafizəsi özünü aşkar etməkdədir. Məsələn, Nizami Cəfərovun tarixi-kulturoloji mülahizələrinə görə milli mədəniyyət, milli təfəkkür və milli mövcudluq – bunların dialektik münasibəti milli xarakteri verir;

milli mövcudluq milli xarakterin maddi əsasıdır – bu anlayışda xalqın tarix səhnəsinə gəlişi, coğrafi lokallaşması, yerdəyişmələri, məskunlaşmalar... ifadə olunur;

milli təfəkkür milli xarakterin potensiyasıdır – bu anlayışda xalqın yaradıcılıq imkanı ifadə olunur;

milli mədəniyyət isə milli xarakterin bilavasitə göstəricisidir – bu anlayışda xalqın bütün tarix boyu yaratdığı nə varsa, hamısı ifadə olunur (21, s.16).

Milli diriliyi bütünlükdə mədəniyyətə bağlayan M.Ə.Rəsulzadə "Milli dirilik" adlı məqaləsində yazırdı: "Məncə,

mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz dirilyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə edir ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyinin deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil edir" (86, s.462).

Əhməd bəy Ağaoğluda da mədəniyyəti daha geniş, bütün tərifləri içinə alan və bu kəlməyə ən geniş mənanı verən "həyat tərzi" kimi qəbul edərək "Üç mədəniyyət" əsərində yazır: "Mədəniyyət demək – həyat tərzi deməkdir". Bir şərtlə ki, burada həyat qavramının özü ən geniş və hərtərəfli bir məna daşımalı, həyatın bütün sahə və tərəflərini, maddi və mənəvi hadisələrini özündə ehtiva etməlidir. Belə olan halda mədəniyyət düşüncə və axtarış tərzindən başlayaraq geyiniş şəklinə qədər həyatın bütün təzahürlərini, hadisələrini əhatə etmiş olur (95, s.62).

Bu məqamda kulturoloji fikir tariximizdə tez-tez qarşılaşdırılan və ya bəzən sinonim kimi də verilən "kültür" və "mədəniyyət" məfhumlarına nəzər yetirsək, bu anlamların bəzən bir-birinə nüfuzetmə, qarşılıqlı təsir baxımından ikili mənada işlənildiyinin də şahidi oluruq. M.Ə.Rəsulzadənin baxışlarına istinadən bu mülahizəmizə şərh versək, görərik ki, beynəlmiləl miqyasda götürüldükdə "mədəniyyət" daha geniş anlama gəlir və kültürlər məcmusu halında işlədilir. Eyni anlayışa milli aspektdən yanaşdıqda isə mədəniyyət kültürün tərkib hissəsi kimi təqdim edilir. Məsələn, "Azərbaycan kültür gələnəkləri" əsərində M.Ə.Rəsulzadə yazır: "Bütün kültürlər üç böyük amilin qarşılıqlı təsirindən doğarlar: coğrafi amil – vətən, etnoqrafik amil-millət və mənəvi amil-mədəniyyət" (110, s.9). Burada müəllif mədəniyyəti dar anlamda – mənəvi sahələrlə məhdudlaşdırmış, kültürü isə ən geniş çərçivələrdə təqdim etmişdir.

M.Ə.Rəsulzadəyə görə hər bir milli mədəniyyət digər millətlərin mənəvi sərvətlərini öyrənməli, milliliyə xələl gətirməyən cəhətləri mənimsəməlidir. Yalnız bu yolla milli

mədəniyyətləri zənginləşdirmək, onu bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevirmək olar.

Mədəniyyət siyasəti mədəniyyətin inkişafında böyük rol oynayır, çünki mədəniyyət siyasi amillərdən, dövlətin mədəni inkişafına təkan verən və ya tormozlayan siyasi sistemindən asılıdır (18, s.28-29).

Türkiyə Cümhuriyyətinin beşillik inkişaf planı ilə bağlı xüsusi ixtisas komissiyasının hesabatında göstərilir ki, iqtisadi və sosial inkişaf fəaliyyətləri iqtisadi olduğu qədər bəşəri mülahizələrlə də yönləndirilmə məcburiyyətindədir. Bu səbəbdəndir ki, mədəniyyət məsələlərilə bağlı fəaliyyətlər təlim-tərbiyə ilə əlaqəsini davam etdirməklə bərabər özəl bir xarakter və hədəflər mənzuməsi halını almışdır.

Millətlərarası bir quruluş olan YUNESKO-da ittifaqla qəbul edilən tarifə görə mədəniyyət, bir insan cəmiyyətinin öz tarixi təkamülü xüsusunda sahib olduğu şüur deməkdir. Bu insan cəmiyyəti bur tarixi təkamül şüuruna aid mövcudiyyətini davam etdirmə əzmini göstərir və inkişafını təmin edir.

Ölkəmizin çox yaxın keçmişdə qarşılaşdığı böhranın təməlində sosial və mədəni dəyərlər etibarilə yaradılan çox ciddi bir qərarsız və tutarsız dəyərlərin gənclərimizin zehninə nəqş edilə bilmiş olaması durur. Ancaq bu yollardır ki, ölkəni bölmə cəhdləri inkişaf edə bilmiş, öz dövlətinə və insanına qruplar ortaya çıxa bilmişlər. Və yenə bu yolla çalışma və istehsal qarətlərinə səd çəkilə bilmiş, iqtisadi və sosial sabitlik bərabərcə pozulmuşdur (109, s.XXII).

Türkiyənin beşillik inkişaf planı ilə bağlı xüsusi ixtisas komissiyasına göndərdiyi məktubunda Turqut Özal yazırdı: “Bu gün cəmiyyəti gücləndirməyə yönəldilmiş bütün səylər, müdaxilə edilə bilir maddi ünsürlərə olduğu qədər bəşəri ünsürlərə də yönəlmək məcburiyyətindədir. İnkişaf sadəcə kapital deyil, insan ünsürünə də dayandırıldığı zaman bütünlük ərzedən və ulaşılabilir bir hədəf halını almaqdadır. Xarici dünyaya açılan ölkəmiz, ölkə xaricində yaşayan yüz minlərcə

vətəndaşlarımızla birlikdə dəyərləndirilirsə, xarici təsirlərə ancaq öz mədəni dəyərlərinə sahib çıxaraq, milli xarakterilə müqavimət edəcək, birlik və bərabərliyini qoruya biləcəkdir. Dövlət iqtisadi və sosial inkişafın kəmiyyəti ilə olduğu qədər keyfiyyəti ilə də maraqlanmaq məcburiyyətindədir. Bu mənada dövlətin mədəniyyət fəaliyyətlərini tənzimləməsi, cəmiyyətin maddi rifahı ilə mənəvi mirası arasında ahəngli bir bütünləşməni təmin etmək və inkişaf yoluyla əldə edilən inkişafı nəticədə insanlarımız üçün bir daxili zənginliyin qaynağı halına gətirmək hədəfinə yönəldilmiş olmalıdır. Bu səbəblə iqtisadi inkişaf səylərimizi geniş bir proqram çərçivəsində davam etdirirkən, insan ünsürünə və millətimizin tarixindən süzülüb gələn mənəvi mirasına da əyilmək zorundayıq. Milli xarakter və dəyərlərimiz inkişaf səylərinin həm başlıca dayanağı həm də hədəfi olmaq məcburiyyətindədir (109, s.XXIII).

Dünya və Azərbaycan elmi fikrindən gətirdiyimiz nümunəlrdən də göründüyü kimi mədəniyyət anlayışı həm geniş, həm də çərçivələnmiş mənalarda tərif edilməkdədir. Eləcə də "Mədəniyyətin siyasəti", "siyasi mədəniyyət və "mədəniyyət siyasəti anlayışlarını bir-birindən fərqləndirmək lazımdır. Akademik Fuad Qasımzadənin yazdığı məqalədə bu barədə deyilir: "XX əsrin italyan filosofu Norbert Babbionun (1909-cu ildə anadan olmuş, əsərləri əsasən əsrin ortalarında Turində nəşr olunmuşdur) yaradıcılığı baxımından bu vacibdir. Liberalizm tərəfdarı olan Babbio siyasi mübarizəni gücləndirməyi, kəskinləşdirməyi ziyalıların vəzifəsi sayırdı. Ziyalıların siyasi fəaliyyətini o, "mədəniyyətin siyasəti hesab edirdi və onu mədəni siyasətə qarşı qoyurdu. Bu partiyaların mənafeyinə uyğun gəlir (61, s.74).

Digər tədqiqatlarda isə "siyasi mədəniyyət" anlayışının elmə ilk dəfə Q.Almond və S.Veberin gətirdikləri qeyd edilir. Hər iki alimin apardıqları araşdırmaların məqsədi fərdin və cəmiyyətin siyasi sistemi daxilində oynadığı rolun, eləcə də Qərb siyasi həyat tərzinin mahiyyətini təşkil edən demokrati-

yanın mədəni özüllərini müəyyənləşdirmək olub. S.Veberin sosioloji görüşlərinə əsaslanan Q.Almond belə hesab edirdi ki, siyasi mədəniyyətin xarakteri siyasi quruluşla müəyyən olunur və onun strukturu sistemdə fərdin siyasi fəaliyyət formaları, davranışları və inamlarından ibarətdir. Q.Almondun həmkarı S.Veberin irəli sürdüyü tezisə əsasən siyasi mədəniyyət fərdin siyasi sistemi bütövlükdə psixoloji planda dərk etməsidir.

Böyükağa Qubatoğlunun fikrinə əsasən siyasi mədəniyyət şəxsiyyətin mühüm diqqəti cəlb edən keyfiyyətidir. O, ideya və siyasi şüurla sıx surətdə bağlıdır. Bunlar isə dünyagörüşün mühüm cəhətləri və siyasi mədəniyyətin nüvəsidir. Buna görə də siyasi şüurun, siyasi təfəkkürün və daxili mədəniyyətin inkişafı olmadan siyasi mədəniyyətin varlığından söhbət ola bilməz. Siyasi şüur və siyasi mədəniyətin yüksəlməsi, cəmiyyətdə buna uyğun demokratik dəyərlərin qəbulu demokratik rejimin yaradılması üçün sosial zəmin hazırlayır(65, s.66-68).






(58,s 60-61)

Mədəniyyət siyasəti xalqın intellektual potensialının, mənəvi sağlamlığı və rifahını yüksəltməyə xidmət edən siyasətdir. O, həm də millətin mənəvi, sosial-iqtisadi inkişafının möhkəmlənməsini təmin edir. Mədəniyyət siyasətinin vəzifəsi maddi və mənəvi sərvətlərin istehsalı, qorunması və inkişaf etdirilməsi, eyni zamanda gələcək nəsillərə ötürülməsi üçün şəraitin yaradılmasıdır. Cəmiyyətdə insanların qeyri-bərabər mədəni inkişafını və mədəni deletantlığı aradan qaldırmaq üçün inkişaf etmiş ölkələrdə mədəniyyət siyasəti koordinasiya və tənzimlənmə yolu ilə elmi surətdə təşkil edilir və idarəetmə əsasında həyata keçirilir. Belə olan halda cəmiyyətin müxtəlif sosial qruplarının və xalqın marağını əks etdirən balanslı mədəni inkişafa nail olmaq olar.

Mədəniyyət siyasəti hüquqi təminata arxalanmalı və hadisələri qabaqlamağı bacarmalıdır. İnkişaf etmiş demokratik ölkələrdə mədəniyyət siyasətinə xalqın sosial vəziyyətinin və rifahının yüksəlməsi kimi baxılır. Çünki bu siyasətin əsas məqsədi insan həyatının qorunub saxlanması və yaxşılaşdırılmasına xidmət etməkdir.

Professor Fuad Məmmədov öz tədqiqatlarında bir-biri ilə sıx əlaqədə olub qarşılıqlı təsirdə olan ayrı-ayrı sahələrin mədəniyyət modelini təklif edir. Buraya təhsil və tərbiyə, elm və texnologiya, ədəbiyyat və incəsənət, din, etika, informasiya,

mətbuat və turizm, hüquq, təşkilat və idarəetmə, həyat tərzi, dil və mədəni irs səhiyyə, ekologiya və həyat fəaliyyətini təmin edən digər sistemlər daxildir. Həm də mədəniyyətin bütöv sistem kimi inkişafının bazis əsası hərəkətverici qüvvəsi, insanın intellektual fəaliyyəti və humanizm olan "mənəvi istehsal"dır. Azərbaycanda yeni mədəniyyət siyasətinin zəruriliyinin, rolunun və əhəmiyyətinin məntiqi dərk etmək üçün bir neçə sxematik şəkil göstərilir və aşağıdakı kimi təsvir edilir.




– Son və ali məqsəd mənvi kamilliyə və yüksək rifaha nail olmaqdır. Bundan ötəri mədəniyyət siyasəti cəmiyyətin və dövlətin hərtərəfli inkişafı üçün əlverişli şəraitin yaradılmasına nail olmalıdır,

– Müasir mədəni inşafla yanaşı şər qüvvələr və dağıntılar da mövcuddur. Bu halda mədəniyyətlə antimədəniyyət arasında balansın mədəniyyətin xeyirinə dəyişdirilməsinə nail olmaq lazımdır.

– Sosial-coğrafi ölçülərdə mədəni qeyri-bərabərliliyin aradan qaldırılması və müxtəlif xalqların mədəniyyətləri arasında mədəni inkişafın harmoniyasini təşkil etmək.

– Mədəniyyət siyasəti bütöv bir sosial sistem kimi ideoloji texnoloji və təşkilati səviyyələrdə inkişafın əsaslandırılmış idarə edilməsini nəzərdə tutur

– Mədəniyyət bir sosial fenomen kimi düzgün başa düşmək üçün onun dar (adiləşmiş) kontekstual və elmi anlayışlari arasındakı fərqi bilmək lazımdır.

– Müasir şəraitdə mədəniyyəti bütöv bir sosial sistem kimi aydın təsəvvür etmək olar. Bu zaman biz "mənəvi istehsalın" iqtisadi inkişafın əsas vasitəsi olduğunu görürük. Bu da ictimai rifahın artmasının açarı olan kulturoloji qanunauyğunluğun dərk edilməsidir. Dövlətin iqtisadi istehsalının səmərəliliyi elmin və elmi texnalogiyaların nailiyyətlərinin təhsil və tərbiyə sisteminin səmərəliliyi ilə düz mütənasibdir.

– Mədəniyyəti yaradan və daşıyan insan olduğuna görə, mədəni insan düsturunu da bilmək lazımdır. O, insanın özünü təkmilləşdirmək və onu əhatə edən dünyanı mütərəqqi dəyişməkdə imkanlarını açıqlayır.

– Nəhayət insan, cəmiyyət və dövlətin sosial-mədəni inkişafının əsas istiqamətləri, şərtləri və prioritetləri düzgün təyin etmək üçün mədəni inkişafın əsas amil və qanunlarını, habelə kulturologiya metodologiyasını bilmək lazımdır (128, s.191-198).

Bizcə mədəniyyət anlayışı geniş anlamda dərk olunmalıdır. Belə olan halda yuxarıda qeyd edilmiş mədəni insan düsturu ortalığa çıxır. Mədəni insan hər şeyə qadirdir. Təəssüf ki, bir çox hallarda mədəniyyət anlayışı dar mənada qəbul edilir, ədəbiyyat və incəsənət kimi başa düşülür. Əlbəttə bu çox səhv düşüncədir.

*Mədəni insan formulası* —

\+ bilik + bacarıq + mütəşəkkillik

mənəviyyat + yaradıcılıq fəaliyyəti

(58, s9)

Ziya Göyalpın bu barədəki fikirləri daha maraqlıdır: "Milli mədəniyyət – hars ilə mədəniyyət arasında həm bir birləşmə yeri, həm də ayrılıqlar vardır. Mədəniyyət ilə mədəniyyət arasında birləşmə yeri ikisinin də bütün toplumsal – ictimai həyatları içlərinə almasından ibarətdir. Toplumsal ictimai həyatlar bunlardır: Din, əxlaq, hüquq, ağıl, estetika, iqtisadiyyat, dil və texnika ilə bağlı həyatlar. Bu səkkiz növ toplumsal – ictimai həyatın toplamına cəminə "mədəniyyət" adı verildiyi kimi, mədəniyyət də deyilir. Bax, mədəniyyət ilə mədəniyyətin birləşdiyi yer və bənzərliyi bundan ibarətdir.

Mədəniyyət siyasəti mədəniyyətin bəşəriyyətin inkişafındakı rolunu şərh edən və bu istiqamətdə ardıcıl, sistemli fəaliyyət göstərən bir sahədir. Məhz buna görə də inkişaf etmiş demokratik ölkələrdə mədəniyyət siyasəti keçən əsrin ortalarından diqqət mərkəzindədir. Mədəniyyət siyasətinin inkişafı dünyada sülhün, firan həyat tərzinin və rifahın rəmzi kimi dərk olunmaqdadır.

Ümumilikdə götürüldükdə, mədəniyyət anlayışı ilə bağlı elmi ədəbiyyatda, lüğət və sözlüklərdə olan mövcud təriflərdə "mədəniyyət" məfhumu əsasən belə izah edilir ki, bu fenomen varlığın və şüurun bütün sahələrində bəşəriyyətin predmetləşdirmə (sərvətlər, normalar, işarə sistemləri yaradılması və s.) və predmetsizləşdirmə (mədəni irsin mənimsənilməsi)

proseslərinin dialektik vəhdətindən ibarət, gerçəkliyin yenidən dəyişdirilməsinə, bəşər tarixi zənginliyinin şəxsiyyətin daxili zənginliyinə çevriləmsinə, insanın mahiyyət qüvvələrinin hər vasitə ilə aşkara çıxarılmasına və inkişaf etdirilməsinə yönəldilmiş sosial-mütərəqqi yaradıcı fəaliyyətidir. Məhdud mənada əsasən maddi mədəniyyət (texnika istehsal təcrübəsi, maddi sərvətlər), mənəvi mədəniyyət (elm, incəsənət və ədəbiyyat, fəlsəfə, əxlaq, maarif və s.), həmçinin siyasi mədəniyyət (cəmiyyətin, sinfin, qrupun, fərdin fəaliyyətinin ictimai münasibətlərin dəyişdirilməsinin subyekti kimi şəxsiyyətin sosial inkişafının meyarını səciyyələndirən məqsədləri, nəticələri) haqqında danışmaq qəbul olunmuşdur (39, s.276) Uzun illərdir ki, təriflərin bəzilərində qeyd olunur ki, mədəniyyət – ictimai-iqtisadi formasiyaların bir-birini əvəz eməsindən asılı olaraq inkişaf edən tarixi hadisədir. Mənəvi mədəniyyəti maddi əsasdan ayıran və onu "elita"nın (fr. elite – ən yaxşı, seçilmiş) mənəvi məhsulu kimi izah edən idealist mədəniyyət nəzəriyyələrinin əksinə materializm maddi nemətlərin istehsalı prosesini mənəvi mədəniyyətin inkişafının əsası və mənbəyi kimi nəzərdən keçirir; belə çıxır ki, mədəniyyət bilavasitə bütün xalqların fəaliyyətilə yaradılır. Qeyd etmək lazımdır ki, maddi şəraitdən asılı olan mənəvi mədəniyyət maddi əsas arxasınca avtomatik dəyişmir, əksinə nisbi müstəqilliyi ilə (inkişafda varislik, müxtəlif xalqların mədəniyyətlərinin bir-birinə təsiri və s.) səciyyələnir (39, s. 377).

Mədəniyyət tarixinin araşdırılması təsdiq edir ki, mədəniyyətlə siyasətin əlaqəsi tarixən möhkəm olmuşdur. Bununla bağlı çoxsaylı istinadlar vermək mümkündür. Məsələn, rus tarixçisi V.O.Klyuçevski yazırdı ki, siyasi terminlər öz tarixinə malikdir. Həqiqətən də hələ qədim Yunanıstanda "siyasət" anlayışı altında dövlət fəaliyyətinə aid olan bütün nə varsa daxil edilirdi. V.İ.Dal siyasət dedikdə dövlətidarəçiliyinə aid olan elmi başa düşürdü. Bura hökmdarın əhval-ruhiyyəsi, məqsədi, əməllərinin tərzi, çox vaxt həqiqi niyyətlərin gizlədilməsi da-

xildir. Fransız ensiklopediya lüğətində “siyasət sənəti” ifadəsi işlədilir (134, s.212). M.Ə.Rəsulzadə isə deyirdi ki: “Mədəniyyətin qayəsi siyasəti elmə tabe etdirməkdir” (113, s.84).

Mədəniyyət sahəsindəki siyasət dövlət tərəfindən əhəmiyyətli dərəcədə ciddi həyata keçirilən, maliyyələşdirilən, nizamlanan praktiki tədbirlər sistemidir. Bu siyasət millətin mədəni və mənəvi irsinin toplanması, inkişafı və saxlanılmasına yönəlmişdir. Mədəniyyət siyasəti sayəsində, hər şeydən əvvəl, aşağıdakı suallar meydana gəlir. Millətin mədəni irsi necə qorunur? Bu tədbir bütün etnik və sosial qruplara necə aid edilir? Bütün istifadə edilən dillər bərabər statusa malikdirmi və ya ayrıca götürülmüş ölkədə mədəni və dil diskrinimasiyası mümkündürmü? Rəsmi dövlət dili əcdadların dili hesab olunur, yoxsa ki, müstəmləkəçi ağalığından qalan irsdir? Qeyri əsas dillər dövlət tərəfindən hansı səviyyədə müdafiə olunur və yaxud bu, yalnız icmanın qayğısı əhatəisndədir? Həmin dillər cəmiyyətdə mədəni və sosial fərqlərin qorunub saxlanılması üçün nə dərəcədə istifadə olunur və yaxud dil qrupları arasında antoqonizmin aradan qaldırılmasına və inkişafına şərait yaradırmı? Bu gün bir çox ölkələrdə mədəniyyət sahəsindəki siyasət assimlyasiya modelindən başqa sahələrə orientasiya götürür, nəticədə azlıqda olanlar özlərinin bəzi mədəni ənənələrindən və dəyərlərindən imtina edir, onu əksəriyyətin müdafiə etdiyi ənənələrlə əvəz edir. Nəticədə əksəriyyətin multi mədəni modeli müdafiə edilir. Burada fərd sosiallaşır və etnik mədəniyyətdə dominantlıq rolu ifa edir. Məsələn, ABŞ-da milyonlarla insan ingilis dilində və həmdə özünün etnik dilində danışır. Onlar ümummilli və etnik bayramları qeyd edirlər. Onlar öz ölkəsinin tarixini və millətinin tarixini öyrənir. Qlobal beynəlxalq miqrasiya, zəif inkişaf etmiş ölkələrin təsərrüfatının struktur yenidən qurulmasına stimul verir. Mexanikiləşmə və sənayeləşmə bura inkişaf etmiş ölkələrdən daxil olur, aqrar sektor ixtisara düşür və milyonlarla kənd əhalisi iş axtarmaq məqsədilə şəhərlərə köçməli olur. Onları

şəhər həyat tərzi cəlb edir. Eyni zamanda şəhərlərin orta sinfi adətən qərb həyat tərzinə yönəmlidir, buna görə də o öz ölkəsində rahat ixtisaslı iş tapa bilməyənlər, bu işi ABŞ da və yaxud Qərbi Avropada tapa bilir.

Azərbaycanın zəngin milli mədəniyyətinin qorunub saxlanılması dövlətimizin ən mühüm vəzifələrindən biridir. Mədəni sərvətin qorunub saxlanılması və istifadəsi problemləri ölkənin Əsas Qanununda – Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır".

Müstəqillik yenidən bərpa olunduqdan sonra Azərbaycanda hüquqi-vətəndaş cəmiyyəti yaranmasının bünövrəsini təmin mədəni quruculiq işləri geniş vüsət almağa başladı. Və ötən bu illər ərzində mədəni inkişafın hüquqi tənzimlənməsinə dair qanunvericilik bazasının yaradılması ilə bağlı xeyli işlər görülmüşdür. İlk növbədə onu qeyd edək ki, 1995-ci ilin noyabr ayının 12-də ümumxalq referendumu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının "Mədəniyyət hüququ" adlanan 40-cı maddəsi mədəniyyət hüququnun müdafiəsinə həsr edilmişdir:

"I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır" (9, s.22).

"Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanununda isə "Mədəniyyət sərvətləri" haqqında deyilir: "Mənəvi və estetik ideallar, normalar və davranış qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr və adətlər, tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri və metodları, tarixi və mədəni əhəmiyyəti olan

binalar, tikililər, əşyalar, tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir" (77, 18 aprel 1998-ci il, № 86). Bu Qanuna əsasən Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsipləri bunlardır: sosial və maddi vəziyyətindən, milli, irqi, dini və cinsi mənsubiyyətindən asılı olmayaraq hər kəsin mədəniyyət sərvətlərinin yaradılmasında, istifadəsində və yayılmasında hüquq bərabərliyi; hər kəsin istedadının, əqli imkanlarının üzə çıxarılmasının və yaradıcılıq azadlığının təmin edilməsi; milli mədəniyyətin bəşər mədəniyyətinin tərkib hissəsi kimi inkişaf etdirilməsi. Bu Qanuna əsasən Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin vəzifələri bunlardır: mədəni həyat tərzinin formalaşdırılması; milli və dünya mədəniyyəti sərvətlərinə qovuşmağa yönəldilən təhsil sisteminin inkişaf etdirilməsi; mədəniyyət sahəsində inhisara yol verilməməsi; dövlət mədəniyyət sisteminin müxtəlif mənbəələrdən maliyyələşdirilməsinin uzlaşdırılması; yaradıcılıq fəaliyyətinin bütün sahələr üzrə yüksəlişi üçün şərait yaranmasına kömək etmək məqsədi ilə ictimai müzakirələrin müxtəlif formalarından, ekspertiza müsabiqələrdən istifadə etməklə mədəniyyətin inkişaf istiqamətlərinin hazırlanması; mədəniyyət sərvətlərinin qorunması və artırılması; Azərbaycan Respublikasının mədəniyyət potensialının inkişafına, mühafizəsinə və ondan hərtərəfli istifadə olunmasına, mədəniyyət sahəsində geniş miqyaslı beynəlxalq əməkdaşlığa şərait yaradılması; dövlət mədəniyyət sisteminin elmi və mütərəqqi metodlarla idarəçiliyinin təmin edilməsi; tarix və mədəniyyət abidələrinin qeydiyyata alınması, qorunması və bərpası üçün müvafiq tədbirlərin görülməsi; mədəniyyətin inkişafına dair milli proqramların hazırlanması və həyata keçirilməsi, beynəlxalq proqramların hazırlanmasında iştirak edilməsi; görkəmli mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi üçün tədbirlər görülməsi; mədəniyyətin inkişafı fondlarının yaradılmasının təmin edilməsi;

Azərbaycan Respublikasında milli mədəniyyətin tərəqqisi və müvafiq dünya mədəniyyəti ilə inteqrasiyasını, milli ənənələrin dirçəldilməsi və inkişafını, əhalinin mənəvi tələbatının ödənilməsini təmin edən mədəniyyət əsərlərinin yaradılması üçün həvəsləndirici tədbirlərin görülməsi; mədəniyyət və incəsənətin nailiyyətlərindən istifadə edilməsində vətəndaşların Konstitusiya hüquqlarının, əhalinin zəngin milli və dünya mədəniyyəti sahələrindən faydalanmasının təmin edilməsi; mədəniyyət təsisatlarının normal fəaliyyətinin, onların maliyyələşdirilməsinin və maddi-texniki bazasının möhkəmləndirilməsinin təmin edilməsi; mədəniyyətin ixtisaslı kadrlara olan ehtiyacının təmin edilməsi.

Mədəniyyət haqqında Qanun özündə Avropa Şurasının humanist prinsiplərini də əks etdirir (barada Avropa konvensiyasının əsas müddəaları nəzərə alınıb). Qanun dövlətin və bütövlükdə cəmiyyətin maraqlarının müdafiə edilməsi baxımından mədəniyyət sahəsində konkret hüquqi münasibətlər qrupunu tənzimləyən normaları əks etdirir. Qanunda vətəndaş cəmiyyətinin tələblərinə cavab verən müddəaların nəzərdə tutulması müsbət əhəmiyyətə malikdir. Bunlara mədəniyyətlə və yaradıcılıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqları və azadlığının müdafiəsi, mədəniyyət təşkilatlarının yaradılması və onların inkişafına kömək, mədəni fəaliyyətə dövlətin müdaxiləsinin məhdudlaşdırılması, mədəniyyət sahəsində inhisarçılığın qadağan edilməsi aiddir. IX fəsil, 51 maddədən ibarət olan Qanunda ölkənin sosial-mədəni inkişafı üçün yaxşı əsaslar qoyulmuşdur.

Azərbaycanda mədəniyyət strategiyalarının inkişafına dair hesabat və məruzələrindən öyrənirik ki, Azərbaycanda mədəniyyət siyasətinin ümumi strateji məqsədləri çox yığcam şəkildə ifadə olunmuşdur: keçmişin mühafizə edilməsi, indinin dəstəklənməsi və inkişaf etdirilməsi; gələcəyin təmin edilməsi. Bu məqsədlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi çox vacib bir işə – ölkədə

mədəniyyət siyasətinin ümumi mənzərəsini cızmağa cəhd göstərmişdir. Bu, mədəniyyət sahəsində islahatların dərk olunması və həyata keçirilməsi yolunda ilk mühüm addımdır (139).

Beynəlxalq ekspertlərin fikrincə isə, bütövlükdə mədəniyyət sektoru ilə bağlı hökumətin üzərində düşünməli olduğu bir sıra məsələlər mövcuddur və Mədəniyyət və Turizm Nazirliyi onların həllində strateji lider rolunu oynamalıdır: islahatlar və mədəniyyət sahəsində qanunvericiliyin həyata keçirilməsi; informasiyalar, treninqlər və misallar (müsbət təcrübə və imkanları göstərən) vasitəsilə köhnə münasibətlərin dəyişdirilməsi; müxtəlif sektorların və xadimlərin niyyət və arzularına diqqətlə yanaşılması; milli əhəmiyyətə malik layihə və müəssisələrin zəruri dərəcədə maliyyələşdirilməsi və dəstəklənməsi; yaradıcılığın və iştirakın təşkil edilməsi; gənclər üçün siyasətin təmin edilməsi; mədəni çoxçeşidliliyin təşviq olunması. “Bütün bu vəzifələr 2001-ci ilin sonlarında işlənib hazırlanan 5 illik strateji planda – “Azərbaycan mədəniyyətinin inkişafına dair dövlət proqramında” da nəzərdə tutulmuşdur və bu proqram nazirliyinin, əslində Milli Məruzəyə islahatlar prosesinin birinci mərhələsi kimi baxdığını bir daha nümayiş etdirir. Digər Avropa ölkələrində uğurla sınaqdan çıxan və nisbətən yaxın dövrlərin məhsulu olan mədəniyyəti müdafiə təşəbbüsü inkişafın digər sahələri üçün mədəniyyət və incəsənətin ehtiyac və üstünlüklərinə diqqətin artırılmasını və mədəniyyətin inkişafı naminə, onun digər planlara daxil edilməsi yolu ilə müxtəlif hökumət orqanları arasında, habelə işgüzar dairələrlə sıx əməkdaşlıq yaradılmasını nəzərdə tutur. Bu, dövlət siyasətinin hər bir aspektini yaxşılaşdıran, eyni zamanda digər maraqlı amillərə dəstək gətirən ən yaxşı inteqrasiya fəaliyyəti strategiyalarına aparıb çıxarır. Artıq Azərbaycanda inteqrə edilmiş layihələrə aid bir neçə bu cür uğurlu təcrübə nümunəsi vardır, lakin onlar hələ strategiya olmaqdan çox uzaqdır. Mədəniyyət sahəsində treninq təlimçiləri üçün strategiya da qısa və orta müddətli inkişafın əsas məsələlərindən biridir.

Nazirlikdə, yerli hakimiyyət orqanlarında və mədəniyyət müəssisələri səviyyəsində lazımi sayda mədəniyyət meneceri və inzibatçısı olmadan heç bir islahat həyata keçirilə bilməz. Bunun ardınca isə sektoral islahat proqramları, məsələn, muzeylər, kitabxanalar, teatrlar üçün proqramlar həyata keçirilməlidir" (139).

Belə qənaətdəyik ki, müasir dövrdə Azərbaycan dövlətinin mədəniyyət siyasətini, getdikcə daha cox qloballaşan və həm də siyasiləşən dünyanın siyasi hadisələrindən təcrid edilmiş şəkildə təhlil və şərh etmək doğru olmaz. Və bu məsələdə hökmən siyasi amillərin mahiyyətinə və təsiretmə gücünə diqqət yetirmək lazımdır. Bunun üçün də ilk növbədə siyasi anlayışların, o cümlədən "siyasət" məfhumunun etimoloji mahiyyətinə açıqlıq gətirməyə ehtiyac vardır. Belə ki, bu məfhumla bağlı fəlsəfi lüğətlərdə əsasən belə qeyd edilir ki, siyasət – siniflər, millətlər və digər sosial qruplar arasındakı münasibətlərlə bağlı, əsas məqsədi dövlət hakimiyyətinin ələ keçirilməsindən, əldə saxlanılmasından və istifadə olunmasından ibarət fəaliyyətdir. Siniflər arasındakı münasibətlər və deməli, onların köklü mənafelərini ifadə edən siyasət həmin siniflərin iqtisadi vəziyyətindən irəli gəlir. Siyasi ideyalar və onlara uyğun təsisatlar iqtisadi bazis üzərində üstqurumu təşkil edir. Lakin bu heç də o demək deyildir ki, siyasət guya iqtisadiyyatın passiv nəticəsidir. Siyasətin dəyişdirici qüvvəyə çevrilməsi üçün o, cəmiyyətin maddi həyatının inkişafı tələbatını düzgün əks etdirməlidir. Mürtəce qrupların siyasəti cəmiyyətin irəliyə doğru inkişafını ləngidir, çünki bu siyasət cəmiyyətin obyektiv tələbatının ziddinə aparılır. İctimai həyatın müxtəlif sahələrinə uyğun olaraq siyasət iqtisadi, sosial, milli, aqrar siyasəti və sairəyə bölünür (39, s.371).

1985-91-ci illərdə keçmiş SSRİ tarixinə "yenidənqurma və aşkarlıq" bir dövrü kimi daxil olmuşdur. Bu dövr Sov. İKP-nin baş katibi və SSRİ-nin birinci prezidenti M.S.Qarboçovun adı ilə bağlıdır. Həmin dövrdə SSRİ məkanında mühüm hadisələr baş

vermişdir. Sovet İttifaqı və sosialist düşərgəsi dağılmış, kommunist partiyaların monopolyalarına son qoyulmuş, iqtisadiyyat liberallaşdırılmış, senzura yumşaldılmış, söz azadlığının əlamətləri üzə çıxmışdır. Eyni zamanda xalqın maddi vəziyyəti pisləşmiş, planlı iqtisadiyyat dağılmışdır. Keçmiş sovetlər birliyində birləşən dövlətlər müstəqillik əldə etdi, o cümlədən Rusiya Federasiyası yaradıldı. Ayrı-ayrı ölkələrdə eyni zamanda Rusiya Federasiyasında 1993-cü ildən ümumxalq referendum keçirildi, Rusiyada B.N.Yeltsin hakimiyyətə gəldi. Onun dövründə Rusiya Federasiyasında mədəni situasiyaya köklü sürətdə dəyişməyə doğru getdi. Xaricdə və sürgündə olan məşhur mədəniyyət xadimləri geriyə qayıtdı. O cümlədən, musiqiçilər M.L.Rostropoviç, müğənni Q.Vişnevskaya, yazıçılar A.Soljenitsin və T.Voynoviç, rəssam E.Neizvestnı və başqaları geriyə qayıtdı. Lakin bu dövrdə Rusiyadan minlərlə alimlər və mütəxəsssislər o cümlədən, texnika elmləri sayəsində tanınmış mütəxəssislər vətəni tərk etdilər. Azərbaycandan da Avropaya, Amerikaya, xüsusilə Türkiyəyə müəllim işləmək üçün alimlər, musiqiçilər və digər sahələrdəki mütəxəssislər getmişdir. 1991–94-cü illərdə Rusiyada elmə ayrılan maliyyə vəsaitinin 80%-ə qədəri ixtisara düşdü. 70-90 min nəfərə qədər 31-45 yaşlı alim hər il xaricə işləməyə getməyə başladı. Xüsusilə, gənc kadırların artımı aşağı düşmüşdü. Təkcə 1994-cü ildə ABŞ-a 444 min patent və lisenziyalar satılmışdır. Rusiyada isə yalnız 4 min potent və lisenziyalar satılmışdır. Rusiyanın elmi potensialı 3 dəfə azalmışdır. Əgər 1980-cı ildə elmlə məşğul olan 3 milyon mütəxəssis çalışırdısa, 1996-ci ildə elmlə məşğul olanlar 1 milyondan az idi (137, s.10).

Eləcə də ötən əsrin son onilliyində Azərbaycanda elmə sərf olunan maliyyə xərcləri özünü minimal şəkildə göstərirdi. Elmi konfranslarda, seminarlarda və s. tədbirlərdə iştirak etmək üçün xaricdən dəvət almış tanınmış alimlərin heç biri maliyyə ucbatından gedə bilmirdi. O zaman məlum olurdu ki, "beyinlərin axını" inkişaf etmiş ölkələrdə mümkündür. Məntiqə görə hansı ölkədən alimlər axını varsa, deməli həmin ölkə yüksək elmi və

mənəvi potensiala malikdir. Əgər Avropa və Amerikada keçmiş SSRİ məkanından gələn alimlərə, mütəxəssislərə ən yaxşı laboratoriyalarda iş verilirsə bu onu sübut edir ki, keçmiş dövrdə sovet elmi qabaqcıl mövqelərə malik olmuşdur. Rusiyanın və keçmiş SSRİ məkanındakı ölkələrin iqtisadi böhran səviyyəsinə düşməsinə baxmayaraq onlar dünyaya müxtəlif elm və texnika sahələrində yüzlərlə unikal kəşflər verə bilər. XX əsrin 90-cı illərində mədəniyyətin maliyyələşməsinin azalması saysız-hesabsız xüsusi nəşriyyatların yaranmasına mane olmadı. Keçmiş SSRİ məkanında o cümlədən Azərbaycanda şəxsi mətbəələr və nəşriyyatlar yarandı. Vaxtilə qadağan edilmiş, xüsusilə Freydin, Zimmelin, Berdyayevin və s. alimlərin əsərləri çap olundu. Onlarla ədəbi jurnallar, nəşr olunurdu. Yeni ədəbiyyat müstəqil sahə kimi yüzlərlə əsərinin çapını gücləndirdi. Dindarların sayının artması çoxsaylı məscidlərin tikilməsinə, müqəddəs yerlərin təmir edilməsinə şərait yaratdı. Dini kitablarla yanaşı dini jurnallar da nəşr olunmağa başlandı. Ali məktəblərin nəzdində ilahiyyat fakultələri yaradıldı. Çoxsaylı ilahiyyatçılar müxtəlif sahələrdə çalışmağa başladı. Sovet dövründə hətta ağla gəlməyəcək tədbirlər həyata keçirildi. Əlbəttə 90-cı illərin sonunda qüsurlar olsa da, XX əsrin sonunda XXI əsrin əvvəllərində mədəniyyət sahəsində sözün həqiqi mənasında irəliləyiş özünü göstərməyə başladı (50, s.127).

## Dövlətin mədəniyyət siyasətinin prioritetləri və məqsədləri

*(mənəvii dəyərlər kontekstındə)*

Qeyd etmək lazımdır ki, mədəniyyət siyasəti anlayıvşı həm Azərbaycanda, həm də, ümumiyyətlə bütün dünyada nisbətən yeni anlayışdır. Mədəniyyət siyasətinin bir elm kimi əsasını qoyanlardan biri Fransanın əfsanəvi mədəniyyət naziri, istedadlı fransız yazıçısı Andre Malro olmuşdur. XX əsrin 60-cı illərinin fransız cəmiyyətində mədəniyyət haqqında yeni anlayışın, onun inkişafının strategiyasının, cəmiyyətdə yeni rolunun formalaşdırılması ona nəsib olmuşdur. Şübhəsiz ki, bu ideyalar cəmiyyətin özünün belə dəyişikliklərə həvəsini, hazırlığını və istəyini əks etdirirdi (7, s.59).

İnsan inkişafının və dövlət quruculuğunun potensial imkanlarının həyata keçirilməsi, təşkilati, maliyyə və dünyagörüşü xarakterli obyektiv və subyektiv çətinliklərlə bağlıdır. Postsovet məkanının digər ölkələri kimi Azərbaycan Respublikasının da qarşısında ideoloji yenidənqurma və mədəni yeniliklər, təhsil, elm, səhiyyə şəbəkələrinin, ekoloji strukturun optimallaşdırılması, dövlətin texnoloji rəqabətə davamlılığının təminatı və əhalinin həyat təsnifatı sistemlərinin effektivliyinin artırılması ilə əlaqədar bir sıra mürəkkəb məsələlərin həlli durur. Ancaq bu gün tək təbii-milli irsiyyət, qan və gen yaddaşı da kifayət etmir. Texniki tərəqqi, tətbiqi kibernetika, fono və foto cəbbəxanası zəka yaddaşı kimi obrazlı yaddaşın da köməyinə gəlir. Mədəniyyət, xüsusilə ədəbiyyat-folklor münasibətlərində müasir dövrü daha belə cəbbəxanasız təsəvvürə gətirmək mümkün olmur (60, s.84-85).

Struktur sosial, regional və fərdi ölçüləri də, mədəni inkişafın qeyri-müntəzəmliyini də çətinilklərə aid etmək olar. Bu özünü həm də tam bir sistem kimi baxılan mədəniyyətin ayrı-ayrı sahələrinin bərabərsizliyində, əhalinin elitar və kütləvi mədəniyyətinin inkişafındakı ciddi daxili dispropasiyalarda,

inkişaf mədəniyyəti kimi mədəniyyət nailiyyətlərindən istifadədə, gender bərabərhüquqluğunun olmamasında, ölkənin müxtəlif regionlarının qeyri-bərabər mədəni inkişafında da özünü göstərir. Bu isə, mədəniyyətin sosial institutlarının inkişafı prioritetlərinin seçimi məsələsini günün vacib problemləri sırasına çıxarır. Sadalanan məsələlərin müvəffəqiyyətli həlli, mədəniyyət və mədəniyyət siyasəti sahəsində zamanın tələblərinə cavab verən yenilikçi islahatların keçirilməsinə yardımçı olan model və proqramların tərtibini və həyata keçirilməsini təkidlə tələb edir. Belə proqramların yaradılması üçün ruhi mədəniyyətin yüksək missiyasının yeni görünüşü və onun insanın, sosial sahənin və dövlətin inkişafında yenilikçi dəyişdirici rolunun imkanlarını açan problemlərin kulturoloji təhlili lazımdır.

Adətən, cəmiyyətdə baş verən qlobal sosial və ideoloji hadisələr miqyasca ona tay, bərabər ədəbi təlatüm və dalğada əks-səda tapır. Bu gün bədii-ədəbi ideoloji həyatda miqyas və əhatəcə məhz belə bir dalğadan xəbər verir. Şübhə etmirik ki, bizim Azərbaycan ziyalıları bu yeni mərhələni həyatda da, sənətədə də yaradanların ön xəttində, ilk cərgəsində olacaqdır. Məhz həmin mərhələyə, tarixi dönüş və çıxış nöqtəsi kimi nəzəri vəzifəmizi qısa şəkildə belə formula etmək olar. Müasir cəmiyyət, hər şeydən əvvəl, özünü dərk etməlidir. Hər sahədə, o cümlədən ədəbi-bədii, humanitar fikirdə axtarış vüsəti, ideyalar yarışı, düşüncə və fikir cəsarəti, sərbəst polemik meydan bunun üçün ən yaxşı təminatdır.

Yeni təfəkkür, tam həqiqət, aşkarlıq, demokratiya – ideoloji və mənəvi fəaliyyətin bütün sahələrində eyni dərəcədə vacib və əhəmiyyətli amillərdir. Lakin onların həm pozitiv, həm də neqativ təzahürü özünü humanitar sahədə ikiqat kəskinliklə göstərir. Yaxın tarixi keçmişin bütün sərt, acı təcrübəsi ilə aşkarlanan və nəzəri fikirdə də artıq etiraf olunan ibrətli əxlaqi dərs, fəlsəfi qənaət, bizcə odur ki, indi heç bir şey cəmiyyətə məhz yanlış ideoloji təlim, saxta nəzəriyyə, süni siyasi

konsepsiya qədər böyük zərər vurmur. O, şəxsiyyət və istedad itkilərinə, mənəvi dəyərin, əxlaqi sərvətlərin tələfatına, fərdi və ictimai vicdanla durğunluğa gətirib çıxarır. Deməli, bütün bu hallarda məhz humanist, humanitar meyarlar və prinsiplər əməli şəkildə özünü göstərir.

Milli mədəniyyət milli siyasətin əsaslandığı, istinad etdiyi başlıca istiqamətlərdən biridir. Çünki o, digər sahələrə nisbətən milli psixologiyanı daha dolğun, dürüst və obyektiv əks etdirir.

Postsovet cəmiyyətlərinin xüsusiyyəti ondan ibarətdir ki, onların mədəniyyəti özündə müxtəlif mədəniyyətlərin çoxlu tipini cəmləşdirən çoxkomponentli sistemdir. Bunlara totalitar sovet, avtoritar-feodal, sosialist, demokratik, oliqarxik, monarxik, elita-aristokrativ, adi-kütləvi, ənənəvi xalq və etnik tipləri aid etmək olar. Bununla yanaşı hər bir müasir cəmiyyətdə vəhşilik və barbarlıq dövrü mədəniyyətlərinin fəsadlarına rast gəlinir. Bu şəraitdə dövlətin mədəniyyət siyasətinin çox da asan olmayan vəzifələri bu mədəniyyətlərin vahid milli mdəniyyət çərçivəsində tənzim edilməsi və harmonikləşdirilməsi, cəmiyyətdə demokratik mədəniyyət dəyərlərinin tədricən bərqərar olmasına yönəldilməsidir. Əsas məsələlərdən biri "yüksək" mədəniyyətə – elmi biliklərə, peşə bacarıqlarına, mütəşəkkilliyə və mənəviyyata malik sosial-aktiv insan şəxsiyyətinin formalaşdırılması üçün zəruri şəraitin yaradılmasıdır.

Keçid dövrü Azərbaycanda yeni mədəniyyət siyasətinin həyata keçirilməsini tələb edirdi ki, bu da sovet tipli avtoritar mədəniyyətdən demokratiyanın siyasi sistem kimi təşəkkül tapması üçün etik-normativ əsas olan demokratik mədəniyyətə keçidi təmin edirdi. Mədəniyyətin demokratiya prinsip və dəyərlərinə əsaslanan yeni sosial tipini formalaşdıraraq bu cür siyasət insanın daxilən dəyişilməsi, sosial inkişaf, dövlət quruculuğu və beynəlxalq münasibətəlrin mühüm problemlərinin həllini təmin edəcəkdi. İntellektual inkişaf, azadlıq və etik tərbiyə prioritetlərinə yönəldilmiş demokratik mədəniyyət siyasəti Azərbaycan mədəniyyətinin sosial dinamikasında

köklü dəyişikliklərə kömək etməyə, Azərbaycan xalqının yaradıcı potensialını və onun insan, cəmiyyət və dövlətin inkişafı baxımından istifadə edilməsi imkanlarını ölçülməz dərəcədə yüksəltməyə xidmət etməlidir (18, s.22-23).

Milli psixologiya milli siyasətin həm obyekti, həm də subyektidir. Milli siyasət: milli psixologiyada formalaşır və milli psixologiya vasitəsilə idarəedici qüvvəyə çevrilir. Bunun üçün milli siyasət ilk növbədə hər bir tarixi dövrdə, yaxud konkret mərhələdə milli psixologiyanı nəzərə almağa məcburdur. Hər bir millətin psixologiyası isə ilk növbədə onun tarixi düşüncə tərzini, adət-ənənələrini, bədii təfəkkürü, etik və estetik baxışlarını, dünyaduyumunu yüksək bədii formalarda, kompleks şəkildə özündə əks etdirən milli mədəniyyətdə özünü göstərir.

Milli siyasətin milli mədəniyyətlə əsas təmas nöqtəsi tarixilikdir. Milli mədəniyyət istənilən tarixi dövrü, onun fakt və proseslərini, tarixi şəxsiyyətləri, təfəkkür tərzini, etik və etnoqrafik əlamətlərini, zövqünü bədii forma imkanları ilə müasirlik müstəvisində təqdim edə, bununla da milli siyasət üçün arsenala çevrilə bilər.

Mədəniyyətdə milliilik və bəşəriliyin dialektikası ifadə olunur. Ən qiymətli milli sərvət olan istedadla yaradılmış sənət əsəri yalnız bir millətə yox, bütün millətlərə məxsusdur. Homer, Firdovsi, Nizami, Şekspir, Bethoven, Bax, Ü.Hacıbəyov, Mikelancelo kimi şəxsiyyətləri hər biri öz millətinin və bütün bəşəriyyətindir.

Milli siyasət milli mədəniyyət vasitəsilə dünya siyasətinə birləşə bilər. Bu o deməkdir ki, milli mədəniyyətə bədiilik xasdır: o təkcə ideyaları və dünyagörüşünü, habelə milli psixologiyanı yox, tarixi, fəlsəfi, dini əxlaqi baxışları özünədə birləşdirir. Bütün bunlarsız isə milli siyasəti təşkil etmək, onu hərəkətə gətirmək qeyri-mümkündür.

Mədəniyyətdə başlıca yeri insan tutur, o əslində insanın özünə yaratdığı bədii abidədir. Milli siyasət də ilk növbədə

insana, onun tarixdəki rolu və dünyəvi əlaqələrinin, həmçinin müxtəlif millətlərdən olan insanlar arasında real münasibətlərin tənzimlənməsinə xidmət edir. Milli siyasət insanları ictimai qanunlar, milli mədəniyyət isə gözəllik qanunları ilə idarə edir. İctimai qanunlar tarixən keçici, gözəllik qanunları isə əbədidir. Milli siyasət cəmiyyətin ictimai birliyini, milli mədəniyyət isə əxlaqi bütövlüyünü qorumağa xidmət etməlidir. Azərbaycan mədəniyyəti respublikanın bütün xalqları və etnik qruplarının bədii sərvətidir. Ona görə də Azərbaycan milli siyasəti və milli mədəniyyətinin bir nömrəli problemi azərbaycançılıqdır. Bu həm də milli siyasət və mədəniyyətin ortaq məxrəci, birləşmə nöqtəsidir. Azərbaycançılıq həm milli siyasətin, həm də milli mədəniyyətin demokratizmini təmin edir. "Bir milli mədəniyyətdə iki mədəniyyət" şüarı mədəniyyətdə millətlərin yox, sinfilərin mənafeyini ifadə etdiyinə görə, milli mədəniyyətlərin inkişafını ləngitdi, onu beynəlmiləl mədəniyyət haqqında saxta ehkamının məngənəsində saxladı. Son 70 ildə Azərbaycanda başqa mənada iki mədəniyyət mövcud olub: kommunist ideologiyasına xidmət edən sovet mədəniyyəti və xəlqi və milli ideallar ifadə edən sovet dövrü mədəniyyəti (98, s.77-78).

Mədəniyyətin demokratikləşdirilməsi – şəxsiyyətin özünü realizə etməsi, mədəniyyət nemətlərindən azad istifadə etməsi, imkanlarının genişləndirilməsini, habelə mədəniyyətin vətəndaş cəmiyyəti və hüquqi dövlətin siyasi dəyərlərinə cavab verən yeni dialektik diferensiasiya və inteqrasiya proseslərinin tənzim edilməsini tələb edir. Müstəqil ölkənin demokratik mədəniyyətini liberalizm dəyərləri ilə, Azərbaycan xalqının milli dəyərlərinin sintezi yolu ilə yaratmaq zəruridir. Həmin prosesdə mühüm yeri yeni ümumsosial mədəni dəyərlər və normaların, demokratik mədəniyyətin əsasını təşkil edən ideallar, etika, təhsil sistemi, istehsalat, ekoloji, hüquqi və məişət normativlərinin, incəsənət və maddi təcəssümlərin formalaşdırılması vacibdir. Ənənəvi milli və yenilikçi dünya mədəniy-

yətlərinin fəal qarşılıqlı təsiri Azərbaycan cəmiyyətinin mütərəqqi inkişafına hərtərəfli yardımçı olacaqdır.

Müasir Azərbaycanın mədəniyyət siyasəti mədəniyyətin təşkili və idarə edilməsində dərin struktur islahatları, ölkənin milli-mədəniyyət quruculuğunda sosial- mədəni inkişafın dünya təcrübəsinin məhsuldar istifadə edilməsini təmin etməlidir. Ölkənin mədəniyyət siyasətinin əsas vəzifəsi perpektivliliyi elmi cəhətdən əsaslandırılmış proqramlar əsasında "mənəvi istehsal" sahəsinin idarə edilməsinin səmərəliliyini artırmaqdır. Bu zaman nəzərə almaq lazımdır ki, vətəndaş cəmiyyətində təkcə dövlət deyil, habelə beynəlxalq normalara müvafiq olaraq cəmiyyətin təşkil və idarə edilməsi məsələlərində milli hökümətlərlə əməkdaş kimi çıxış edən qeyri-hökümət təşkilatları ilə təmsil olunan cəmiyyətlər də mədəniyyət siyasətinin subyektidir (18, s.23-24).

Azərbaycanda mədəniyyət siyasətinin formalaşması üçün qiymətli mənbə BMT, YUNESKO, Avropa Şurası və digər beynəlxalq təşkilatların fəaliyyət təcrübələri, habelə Yaponiya, ABŞ, Rusiya və digər dünya ölkələrinin sosial-mədəni inkişaf təcrübələridir. Bu ölukələrdə təhsilə, elm və incəsənətə "mənəvi istehsalın" əsas komponentləri kimi, şəxsiyyət və cəmiyyətin həyat təhlükəsizliyinin, onun keyfiyyətinin artılırmasının, dövlətin mənəvi və maddi rifahının yüksəlməsinin təmin edilməsinə xidmət edən vasitə kimi baxılır.

Mədəniyyətə mənəvi, maddi, intellktual və hissi elementlər kompleksi kimi, yeninin yaranması və köhnənin dəyişməsinin fasiləsiz prosesi kimi geniş baxış, demək olar ki, birinci dəfə mədəniyyət sahəsində siyasət üzrə ümumdünya konfransında (Mondiakult, Mexiko-Siti, 1982) qəbul edilmiş tərifdə öz əksini tapmışdır. Konfrans, mədəniyyət və bəşəri dəyərlərə inkişafın əsas amilləri kimi baxılmasının getdikcə daha çox dərk edilməsini qeyd etmişdir. Bu konfransın qərarlarına əssalanaraq 1986-cı ildə BMT Baş Assambleyası 1988 – 1997-ci illərdə BMT və YUNESKO-nun himayəsi altında mədəniy-

yətin ümumdünya inkişaf onililiyinin keçiriləcəyini elan etdi. Mədəniyyəti daha geniş inkişaf strategiyalarına, habelə səmərəli praktiki fəailiyyət proqramlarına daxil etmək üçün mədəniyyətin inkişaf onilliyi ilə yanaşı, yaxın keçimşdə BMT və YUNESKO-da mədəniyyət və inkişaf üzrə ümumdünya komissiyası yaradılmış, sivilizasiyaların sülh və dialoq mədəniyyəti onilliyi elan edilmişdi (18, s.27).

Müasir şəraitdə dövlətin həll etdiyi vəzifələr daha mürəkkəb və daha çoxsahəlidir. Onun ölkənin daxili həyatına, o cümlədən, mədəniyyətin inkişafına istiqamətverici təsirinin miqyası artmışdır. Maddi və mənəvi istehsalın üzvi birliyinin təmin edilməsi, mədəniyyətin və kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının daim möhkəmləndirilməsi, geniş xalq kütlələrinin tarixi yaradıcılığa daha çox cəlb edilməsi, iki mədəniyyət sisteminin kəskinləşən ideoloji ziddiyyətləri, digər xalqlarla mədəni əməkdaşlığın genişlənməsi – bütün bunlar dövlətin mədəniyyətin inkişafındakı rolunun artmasını şərtləndirir.

Mənəvi mədəniyyət sahəsində dövlətin nəzəri, təşkilati və əməli fəaliyyəti, elm və mədəniyyətin nailiyyətlərindən bütün insanların istifadə imkanlarının təmininə, cəmiyyətitn hər bir üzvünün hərtərəfli, harmonik inkişafı üçün şərait yaradılmasına yönəldilmişdir. Mədəniyyət sahəsində dövlət siyasəti aşağıdakı əsas məsələlərin həllinin təmin edilməsinə yönəldilir: Mədəniyyətin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi; Mədəni fəaliyyətin nəzəri əsaslarının inkişaf etdirilməsi, mədəni quruculuğun idarə olunmasının forma və metodlarının təkmilləşdirilməsi; Ziyalı kadrların formalaşması və milli ideologiyanın tərbiyəsi, yaradıcılıq ittifaqlarının işinə yardım göstərilməsi; Geniş xalq kütlələrinin ölkəmizin və dünya mədəniyyətinin sərvətlərindən faydalanması üçün şərait yaradılması; Kütlələrin mədəni quruculuğa cəlb edilməsi, bacarıqların və istedadların inkişafı üçün əlverişli ictimai atmosferin yaradılması; Mədəniyyətin maddi bazasının inkişaf etdirilməsi.

Bütün bu prinsiplər bir daha sübut edir ki, dövlətin mədəniyyət siyasətinin inkişaf etdirilməsi mühüm yer tutur. Çünki, cəmiyyət özünü mədəniyyətdə ifadə və dərk edir. Siyasi mədəniyyət siyasi proses subyektlərini bilavasitə öz fəaliyyətində göstərən, varislik əsasında cəmiyyətin siyasi həyatının təzələnməsini təmin edən, tarixən təşəkkül tapmış dayanıqlı sərvətlərin, istiqamətlərin davranış modelləri sistemidir. Siyasi mədəniyyət vətəndaşların və hakimiyyətin qarşılıqlı münasibətələrini tənzimləyən, mənəvi-siyasi dəyərlərin davranış qaydalarını, adət və ənənələrin məcmusunu ifadə edir. Siyasi mədəniyyət sahəsi siyasi həyatdır, hakimiyyət və idarəetmə problemlərinə, insanların siyasətdə iştirakına, həmçinin siyasət və hüquq, siyasət və iqtisadiyyat, siyasət və mənəviyyatın qarşılıqlı təsiri məsələlərinə toxunur.

Dövlət mədəniyyətə və incəsənətə, xalqın adından və onun mənafeyindən çıxış edərək rəhbərlik edir. Müstəqil dövlətin elmi və bədii yaradıcılıq inkişafının düzgün istiqamətləndirilməsi barədə, onun yeni cəmiyyəti quran xalqın həyatı ilə əlaqəsinin möhkəmləndirilməsi barədə göstərdiyi qayğıda həmin sahəyə dövlət rəhbərliyinin yüksək, humanist mahiyyəti öz ifadəsini tapır.

Mədəniyyət sahəsində rəhbərliyin dövlət prinsipləri, elmi və bədii yaradıcılığın təbiətinin, mədəniyyətin obyektiv fəaliyyət qanunlarının, onun müəyyən konkret-tarixi situasiyada təsir mexanizminin idrakına əsaslanır. Bu prinsiplər mədəniyyətin ictimai həytanın müxtəlif sahələri ilə əlaqələrinin bütün məcmuyuna, tarixi sahələri ilə əlaqələrinin bütün məcmuyuna, tarixi münasibətlə və onu nəzərə almaqla xarakterizə edilir.

Dövlət mədəniyyət sisteminin başlıca vəzifəsi milli mədəniyyət sərvətlərinin, dünya mədəniyyəti nümunələrinin etibarlı şəkildə toplanıb qorunaraq gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, Azərbaycan xalqının adət və ənənələrinə bağlı, milli, mənəvi və mədəni, bəşəri dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar

yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir (77, 18 aprel 1998-ci il, № 86 ).

Azərbaycanda Mədəniyyət siyasətinin təminatı aşağıdakı istiqamətlərdə həyata keçirilir: Qanunvericilik təminatı; Müəlliflik hüququ; Mədəniyyətin maliyyələşməsi; Mədəniyyət sahəsində təhsil, treninqlər və tədqiqatlar; Beynəlxalq münasibətlər; Əhalinin mədəni həyatda iştirakı; Mədəni və təbii irs; Muzeylər; Kitabxanalar; Ənənəvi incəsənət; İfaçılıq sənəti – yaradıcılığın dəstəklənməsi; Mədəniyyət industriyaları; Avropa ekspertlərindən ibarət müstəqil qrupun məruzəsi (Mədəniyyət və sabit inkişaf; Azərbaycanda mədəniyyət strategiyalarının inkişafı; Nəticə və beynəlxalq əməkdaşlıq məsələləri; Mədəniyyət və özünəməxsusluq: milli, regional və azlıqlar səviyyəsində perspektivlər və cari vəziyyət); Mədəniyyət Sahəsində Qanunvericilik və Mədəniyyət Siyasətinin İnkişafı (139).

Tarixi kontekstdən baxıldıqda məlum olur ki, dövlətin mədəniyyət siyasəti, müəyyən obyektiv amillərin mövcudluğu halında təşəkkül tapır; bu amillər bilavasitə ona təsir göstərməklə qalmayıb, həm də bir növü onun təcəssümünün zaman-məkan kontinuumunu təşkil edir. Buna görə də hər hansı bir konkret ölkənin mədəniyyət siyasəti haqda təsəvvür əldə etmək üçün ilk növbədə onun tarixi, təbii-coğrafi şəraiti ilə, eləcə də həmin ölkədə ictimai və fərdi həyat sahələrində ümumi vəziyyətlə tanış olmaq lazımdır. Bu səbəbdən də hər bir ölkənin (təbii ehtiyatlardan tutmuş sosial və beynəlxalq xarakteristikalara qədər), onun mədəniyyət siyasətinin obyektiv şərtlərinin məcmusunu təşkil edən cəhətlərin öyrənilməsinə zərurət vardır. Bu cəhətlərə qısaca olaraq Azərbaycan Respublikasının nümunəsində diqqət yetirək.

Məlumdur ki, XX əsr ərzində Azərbaycanda əhali artımı və urbanizasiya sahəsində böyük prosseslər baş vermişdir. Əhalinin sayı azı dörd dəfə – 1897-ci ildə 1 806 700 nəfərdən 2000-ci ildə 8 016 200 nəfərədək artmışdır. Siyasi struktura gəlincə isə Azərbaycan demokratik, hüquqi, dünyəvi

respublikadır. Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul edilən hazırkı Konstitusiyası qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinin bölünməsini, prezident, parlament və bələdiyyə seçkilərinin keçirilməsini nəzərdə tutur. Azərbaycan Respublikasının siyasi modeli "prezident respublikası"na uyğundur. Siyasi qərarlar qüvvədə olan qanunvericilik çərçivəsində Azərbaycan Respublikasının prezidenti səviyyəsində qəbul edilir, sonra isə Nazirlər Kabineti və nazirliklər vasitəsilə həyata keçirilir. Milli Məclis majoritar sistemlə 5 il müddətinə seçilən 125 millət vəkilindən ibarətdir. Məhkəmə səlahiyyətləri Konstitusiya, ali və iqtisadi məhkəmələrə, habelə aşağı səviyyəli ümumi və ixtisaslaşmış məhkəmə instansiyalarına verilmişdir. 2002-ci il avqustun 24-də keçirilən ümumxalq referendumuna əsasən ölkənin bundan sonra da demokratik yolla irəliləməsi üçün konstitusiyaya əlavələr və düzəlişlər edilmişdir. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu prossesi öz inkişafının birinci mərhələsini yaşayır. Ədliyyə Nazirliyində 1500-ə yaxın qeyri-hökumət təşkilatı qeydiyyatdan keçmişdir, çox sayda QHT qeydiyyatsız fəaliyyət göstərir. Lakin, onlardan yalnız çox az bir qismi həqiqətən fəal hesab olunur. QHT-lərin əksəriyyəti lazımi maliyyə mənbələri, təşkilati vərdiş, tədqiqat potensialı və iştirakçıların sayı baxımından ciddi korluq çəkir.

Azərbaycan Respublikası 30-dan artıq beynəlxalq və regional təşkilatın üzvüdür: ATƏT (yanvar, 1992), BMT (mart, 1992), YUNESKO (iyun, 1992), İƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı, 1992), Avropa Bərpa və İnkişaf Bankı (1992), Dünya Bankı (1992), İslam Konfransı Təşkilatı (1992), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (1992), TÜRKSOY (iyul, 1993), MDB (sentyabr, 1993), YUNİSEF (1993), Ümumdünya Səhiyyə Təşkilatı (oktyabr, 1992), İNTERPOL (1993), Beynəlxalq Olimpiya Komitəsi (1993), Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Federasiyası (1993), GÖUAM (1997), Avropa Şurası (yanvar, 2001) və s. Bundan əlavə, Azərbaycan

Respublikası 1996-ci ildə Avropa Birliyi ilə tərəfdaşlıq və əməkdaşlıq sahəsində müqavilə imzalamışdır və 1994-cü ildən etibarən NATO-nun "sülh naminə tərəfdaşlıq" proqramında iştirak edir.

Azərbaycanın xarici siyasəti milli dövlət müstəqilliyinin və onun ərazi bütövlüyünün qorunmasına və gücləndirilməsinə, bərabərhüquqlu və qarşılıqlı faydalı münasibətlərin inkişafına, dünyanın bütün ölkələri ilə dostluq əlaqələrinin qurulmasına yönəldilmişdir. Azərbaycanın coğrafi vəziyyəti, sosial-siyasi səyləri, tarixi-mədəni ənənələrindən doğan transregional xüsusiyyətləri müstəqil Azərbaycan Respublikasının gələcəkdə daha da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə hər cür əsas verir. Bu da, heç şübhəsiz, onun daxili və xarici mədəniyyət siyasətinin inkişafına böyük təkan verəcəkdir (139).

Müasir Azərbaycanın mədəniyyət siyasəti, hər şeydən əvvəl, öz tarixinin son on yeddi ilini müstəqillik bayrağı altında yaşayan bir ölkənin siyasətidir. Siyasi rejimin dövlət quruculuğu, iqtisadiyyat və sosial sahələrdə köklü dəyişikliklərə səbəb olan transformasiyası mədəni prossesin məzmununa və dinamikasına bilavasitə təsir göstərmişdir. Eyni zamanda, həyat gerçəkliyinin spesifik inikas forması olan və düşüncənin, psixologiyanın, sosial şüurun dərin qatlarına nüfuz edən mədəniyyətdə baş verən dəyişikliklər digər sahələrdəki kimi heç də sürətli və aşkar şəkildə olmamışdır. Son illərdə ölkənin mədəni həyatında baş verən prosseslər üçün "sovet" keçmişindən "postsovet" indisinə nisbətən hamar keçid xarakterikdir. Şərti olaraq bu prossesi mədəniyyətdə "məxməri" inqilab adlandırmaq olar, çünki baş verənlərin tempi, metodları və xarakteri "dəyişiklik naminə dəyişikliyə" deyil, yeni reallığın tədricən mənimsənilməsinə yönəlmişdir. Qeyd etmək lazımdır ki, siyasi, iqtisadi, hüquq-mühafizə və təhsil sahələrindən fərqli olaraq mədəniyyət rəsmən islahatlar sahəsi elan edilməmişdi və bunun da nəticəsi olaraq dövlət tərəfindən verilən əlavə güzəştlərdən və beynəlxalq

təşkilatların maliyyə yardımından məhrum qalmışdı. Ancaq burada həm aşağı, həm də yuxarı səviyyədə dəyişiklər deklarativ bəyanatlar olmadan baş vermişdir (139).

Bəs bu dəyişiklərin məğzi nədən ibarətdir? Onların həyata keçirilməsi mexanizmləri hansılardır? Bu dəyişikliklərin gerçəkləşməsinə cəmiyyətin hansı təbəqələri cəlb olunmuşdur? Azərbaycanın müasir mərhələdə mədəniyyət siyasətini araşdırmaq istəyən hər kəs istər-istəməz bütün bu, eləcə də digər suallara cavab tapmaq məcburiyyətindədir. Çox güman ki, əvvəlki illərin süst düşüncəsindən tədricən azad olan cəmiyyətin öz şüurunda baş verən dəyişiklikləri son on ilin ən başlıca nailiyyəti adlandırmaq olar. Azərbaycanda yeni mədəniyyət siyasəti yuxarıların təşəbbüsü ilə deyil, real həyatda baş verən proseslərin inikası kimi formalaşmışdır. Müasir dövrün çox sürətlə dəyişən sosial mədəni konteksti, qloballaşma proseslərinin güclənməsi, mədəniyyət sahəsində prioritetlərin yenidən bölüşdürülməsi, kütləvi mədəniyyətin və mədəniyyət industriyasının ümumi mədəni həyat panoramına müdaxiləsi, bədii irsin qorunub saxlanması və yeni nəsillərə ötürülməsi sahəsində kommunikativ partlayış və nəhayət mədəniyyətin labüd inkişaf amili olduğunun aydın dərk edilməsi, mədəniyyətin, eləcə də mədəniyyət siyasətinin prinsipal şəkildə yeni dərki üçün zəmin yaratdı. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, real mədəniyyət siyasəti özünə ağ kağız üzərində hansısa ideal bir layihə yarada bilməz. Bu layihədə keçid dövrünün bütün çətinlikləri və ziddiyyətləri, əvvəlki və indiki zamanın bütün reallıqları nəzərə alınmalıdır (139).

Mədəniyyəti idarə etmək mümkündürmü? Mədəniyyətlə dövlətin birgə mövcud olduğu uzun əsrlər boyu bu sual nəinki öz aktuallığını itirməmiş, inkişaf etməkdə olan vətəndaş cəmiyyəti şəraitində həm də yeni məna kəsb etmişdir. Bu gün mədəniyyətin komanda-inzibatçılıq metodundan imtina edilməklə idarə olunması, bu sahənin hüquqi və maliyyə təminatının həyata keçirilməsi, onun strateji inkişaf xəttinin işlənib

hazırlanması ilə bağlıdır. Azərbaycanda bu funksiyalar çox səviyyəli sistem vasitəsilə həyata keçirilir. Həmin sistemə aşağıdakılar daxildir:

Milli Məclisin – Azərbaycan parlamentinin mədəniyyət məsələləri üzrə daimi komissiyası və sosial qanunvericilik şöbəsi – mədəniyyətin qanunvericilik əsaslarını təmin edir;

Prezident Aparatının humanitar siyasət şöbəsi – mədəni quruculuğun strategiya və taktikasını işləyib hazırlayır;

Nazirlər Kabinetinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsi – dövlətin sosial proqramlarının həyata keçirilməsini əlaqələndirir və təmin edir; Mədəniyyət və Turizm Nazirliyi – mədəniyyət sahəsi üçün dövlət büdcəsini tərtib edir, yuxarıda sadalanan bütün funksiyaları özündə cəmləşdirən birləşdirici mərkəz rolunu oynayır, dövlətin mədəniyyət siyasətinə bilavasitə rəhbərlik edir və bu siyasətin konkret realizasiyasını və əlaqələndirilməsini həyata keçirir.

Respublikanın 7 şəhərində və 61 rayonunda mədəniyyət və turizm şöbəsi vardır. Bütün parametrlərinə görə belə bir struktur mədəniyyət siyasətinin daha çox dördüncü modelinə (Fransada və keçmiş Sovet İttifaqında yayılmışdır) yaxındır. O, güclü adminstrasiya, dövlət tərəfindən güclü maliyyələşmə, mədəni həyat üzrə bütün tərəfdaşların, xüsusilə də regional və yerli cəmiyyətlərin müxtəlif peşə təşkilatlarının fəaliyyətinin stimullaşdırılması və əlaqələndirilməsini tələb edir. Heç şübhəsiz ki, bu model bir çox cəhətdən sovet keçmişindən miras qalmışdır. Bu da qanunauyğun haldır, çünki mədəniyyət siyasətini yaradan insanlar bir çox cəhətdən öz ölkələrinin tarixi ənənələrinin, onun dövlət qurluşunun, cari siyasi və iqtisadi situasiyaların, milli mentalitetin, mədəniyyət və incəsənət elitasının öz daxilindəki qüvvələr nisbətinin "əsiridirlər". Eyni zamanda mədəniyyət siyasəti yeni elmdir. O sürətlə güc toplayır, getdikcə daha çox dövləti öz aktiv fəaliyyət dairəsinə cəlb edir, həmin dövlətlər arasında informasiya və intellektual mübadiləni stimullaşdırır. Nəticədə, bütün bunlar müxtəlif

ölkələri mövqe yaxınlaşmasına sövq edir və onların müsbət təcrübələrinin dünya arenasına yayılmasına rəvac verir. Bu prosesin aktivləşməsində YUNESKO, son illər isə Avropa Şurası kimi beynəlxalq təşkilatlar əhəmiyyətli rol oynayır (139).

Azərbaycanda mədəniyyət məsələləri bilavasitə aşağıdakı orqanların ixtiyarındadır: Mədəniyyət və Turizm Nazirliyi, İdman, Gənclər və İdman Nazirliyi, Dövlət Teleradio Şirkəti, Dövlət Arxivi. Bu cür müxtəlif idarələrə bölünmə, yaxşı inkişaf etmiş üfüqi əlaqələr sisteminə malik, uzlaşdırılmış mədəniyyət siyasətinin işlənib hazırlanmasının zəruriliyi kimi köklü bir problem doğurur. Son illərin əlamətdar tendensiyalarından biri əvvəllər müstəqil fəaliyyət göstərən Abidələrin Mühafizəsi, Bərpası və İstifadəsi üzrə dövlət Komitəsinin və "Azərkino-video" istehsalat birliyinin Mədəniyyət və Turizm Nazirliyi strukturuna daxil edilməsi olmuşdur. Mətbuat və İnformasıya Nazirliyinin yenidən strukturlaşması nəticəsində, onun funksiyalarının bir qismi Mədəniyyət və Turizm Nazirliyinə keçmişdir. Heç şübhəsiz ki, həmin addımlar müsbət qiymətləndirilməlidir, çünki onlar dövlətin vahid mədəniyyət siyasətinin planlaşdırılması və realizasiyasını asanlaşdırır, onun üçün ümumi fəaliyyət sahəsi yaradır.

Beləliklə, bu gün mədəniyyət siyasətinin inkişafını iki əsas tendensiya – mərkəzəqaçma və mərkəzdənqaçma tendensiyaları müəyyən edir. Bir tərəfdən, mədəniyyət müəssisələrinin idarə olunması funksiyaları tədricən şəhər, kənd səviyyəsində yerli icra orqanlarına verilir, digər tərəfdən isə abidələrin mühafizəsi, kitab nəşri, kinematoqrafiya kimi mühüm istiqamətlər bir idarənin – Mədəniyyət və Turizm Nazirliyinin çətiri altında birləşdirilir.

Üç "D" konsepsiyası: desentralizasiya, demonopolizasiya və demokratikləşmə, mədəniyyətin idarə olunması sahəsində desentralizasiya, demonopolizasiya və demokratikləşmə proseslərini sürətləndirməyi nəzərdə tutan Avropa mənşəli "Üç "D" konsepsiyası"nın mütərəqqi ruhuna haqq qazandırmaqla

yanaşı, qeyd edək ki, bu gün Azərbaycanda həmin prinsiplərin həyata keçirilməsi böyük ehtiyatlılıq tələb edir. Problem ondadır ki, böyük şəhərlərdə demokratik dəyişikliklər açıq-aşkar hiss edilsə də, kənd yerləri və regionlarında həmin proseslər kifayət qədər intensiv getmir, mədəniyyətə ayrılan büdcə vəsaitləri isə heç də həmişə məqsədyönlü istifadə olunmur. Belə bir vəziyyətdə keçid dövrü üçün elə idarəetmə modelləri axtarıb tapmaq lazımdır ki, ümumdövlət səviyyəsində güclü inzibatçılıq hər bir konkret hala çevik yanaşa, büdcə planlaşdırması isə məqsədli və fərdi layihələrə uyğunlaşdıra bilsin.

Desentralizasiya prossesi formal olaraq mədəniyyət fəaliyyəti praktikasında hər gün baş verir. Belə ki, mərkəzi və yerli hakimiyyət orqanları arasındakı büdcə maliyyələşməsi orta hesabla 20 – 80% nisbətində müəyyən edilir. Lakin bu 80%-in real bölüşdürülməsi, onlardan istifadənin adekvatlığı, nəhayət, onların realizasiyasına nəzarət heç də yaxşı halda deyildir.

Təəssüflər olsun ki, hər şeydən əvvəl məhz yerli mədəniyyət obyektlərinin vəziyyəti qənaətbəxş deyil. Vəsaitlərin dağınıqlığı və mədəniyyət prosseslərinə səriştəsiz rəhbərlik bunda heç də az rol oynamır.

Mədəniyyət fəaliyyətinin demonopolizasiyası prossesi eyni vaxtda iki istiqamətdə – yuxarıdan və aşağıdan inkişaf edir. Belə ki, məsələn, 4 oktyabr 1997-ci il tarixli prezident fərmanına uyğun olaraq ölkədə lisenziyalaşdırma sistemi tətbiq olunmağa başladı ki, bu da müstəqil şəkildə, dövlətdən asılı olmadan konsert-əyləncə tədbirlərini keçirmək hüququ verdi; qeyri-rentabelli mədəniyyət obyektləri özəlləşdirildi. 2002-ci ildən isə konsert-əyləncə proqramlarının təşkili üçün tələb edilən lisenziya sistemi də ləğv olundu.

Digər tərəfdən, mədəniyyət indüstriyaları – kitab nəşri, mətbuat, audiovizual və fonoqram məhsulları, əyləncə indüstriyası və yeni texnologiyalar bazarı sürətlə inkişaf edir. Praktik olaraq, bu gün bu bazar milli mədəniyyət siyasətinə inteqrasiya olunmayan, dövlət tərəfindən maliyyələşdirilməyən

və nizamlanmayan müstəqil biznes sahəsidir (kinomatoqrafiya istisna edilməklə). Hal-hazırda Mədəniyyət Nazirliyi Açıq Cəmiyyət İnstitutu ilə birlikdə "Azərbaycanda mədəniyyət institutları: müasir vəziyyət və inkişaf perspektivləri" layihəsini həyata keçirir. Layihədə ilk dəfə olaraq həmin bazarın sərhədlərinin müəyyən edilməsinə, müəllif hüquqlarına riayət olunması probleminin öyrənilməsinə, bu sahədə sosioloji tədqiqatlar aparılmasına cəhd edilir. Artıq layihənin həyata keçirilməsinin ilkin mərhələsində aydın olmuşdur ki, bir çox rəqəmlər üzə çıxarılmır və xüsusi sahibkarlar tərəfindən səylə gizlədilir. Lakin çox da dərin araşdırmalar aparmadan belə audio, video və kompüter məhsulları bazarında müəlliflik hüquq və vergi qanunvericiliyinə riayət edilməsilə bağlı ciddi problemlər olduğu aydın şəkildə üzə çıxır. Mədəniyyət industriyalarının və onların istehsal etdiyi kütləvi mədəniyyətin rolunu qiymətləndirməmək dövlət siyasəti üçün bağışlanmaz səhv olardı. Leqal biznes üçün şərait yaradılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, konsultativ və texniki yardım – məhz bu vasitələr dövlətə bu qeyri-qanuni doğulmuş "enfant terrible" ilə ümumi dil tapmaqda və onu legitimləşdirməkdə kömək edə bilər.

Xidmət təklif edən sahələrdə – rəsm qalereyalarının, suvenir mağazalarının, dizayn bürolarının və s. açılmasında özəl sektorun inkişafı getdikcə güclənir. Bundan əlavə, hətta mədəni irsin mühafizəsi kimi ənənəvi dövlət sahəsi də özəl muzeylərin timsalında özünə "rəqiblər" qazanmağa başlamışdır.

Mədəni həyatın demokratikləşməsi vətəndaş cəmiyyətinin formalaşmasına səbəb olur, özəl təşəbbüslərin üzə çıxması və fərdi layihələrin həyata keçirilməsi üçün geniş imkanlar açır. Yeni qanunvericiliyin açdığı imkanlar mədəniyyət və onunla kəsişən sahələrdə çalışan xeyli sayda qeyri-hökumət təşkilatının yaranmasına gətirib çıxardı. Ədliyyə Nazirliyində rəsmən qeydə alınmış belə təşkilatların sayı 80-ə çatır. Onların əhatə etdikləri istiqamət spektri olduqca genişdir. Lakin bu heç də o demək deyil ki, bu təşkilatların 80-i də aktiv və məhsuldar

fəaliyyət göstərir. Onlardan bəziləri, "qrant çaxnaşması" ilə doğulanlar, nə qədər sürətlə peyda olsalar da, əsl fəaliyyətə başlamamış yox olurlar. Eyni zamanda, son illərdə stabilliyə nail olan, ölkədə geniş populyarlıq qazanan, bir çox beynəlxalq təşkilatlarla əlaqə yaradan qeyri-hökumət təşkilatları da mövcuddur. Onların arasında Soros Fondunun Açıq Cəmiyyət İnstitutu və İSAR xüsusilə seçilir, bu təşkilatların fəaliyyəti üçüncü sektorun dəstəklənməsinə və inkişaf etdirilməsinə yönəlmişdir. Təəssüflər olsun ki, büdcədən maliyyələşdirmə imkanlarının məhdudluğu hazırkı mərhələdə QHT sistemini dövlət səviyyəsində himayə etmək mümkün deyildir. Lakin Mədəniyyət və Turizm Nazirliyi belə əlaqələrin genişləndirilməsini və bu təşkilatların birgə layihələrə cəlb edilməsini özünün prioritet vəzifələrdən hesab edir.

Azərbaycan mədəniyyətinin rəngarəngliyi məsələsinə gəldikdə qeyd olunmalıdır ki, müasir Azərbaycanın digər, heç də az mühüm olmayan bir gerçəkliyi də əhalisinin çoxmillətli və yarıkonfessional olmasıdır. Təkcə Bakı şəhərində iyirmidən çox – rus, Ukrayna, kürd, lak, ləzgi, slavyan, tat, tatar, gürcü, inqloy, talış, avar, axıska türkləri, Avropa yəhudiləri, dağ yəhudiləri, gürcü yəhudiləri, alman, yunan və s. xalqların müxtəlif mədəniyyət cəmiyyəti fəaliyyət göstərir.

Bütün ölkə miqyasında belə cəmiyyətlərin sayı xeyli yüksəkdir; praktik olaraq, onlar etnik azlıqların sıx yaşadıqları bütün rayonlarda mövcuddur. Milli siyasətin əsas müddəaları Azərbaycan Konstitusiyasında təsbit edilmişdir və onlar etnik, irqi, dini mənsubiyyətindən asılı olmayaraq, respublikanın bütün vətəndaşlarının hüquq bərabərliyini təmin edir. Bundan əlavə, bir çox əsrlər boyu Azərbaycan üçün xarakterik olan tarixi, iqtisadi və mədəni xüsusiyyətlər sayəsində ölkə əhalisinin psixoloji statusu dözümlülük, başqa etnosların və milli azlıqların mədəniyyətinə hörmət şəraitində formalaşmışdır. Üç dindən – zərdüştlük, xristianlıq və islam dinlərindən keçdiyi mərhələləri öz şüurunda qoruyub saxlayan Azərbaycan

xalqının genetik yaddaşı da, onun həm ölkə daxilində, həm də beynəlxalq arenada tarazlaşdırılmış, üzvi mədəniyyətlərarası ünsiyyət qura bilməsi üçün heç də az əhəmiyyətə malik amil olmamışdır. Hal-hazırda Mədəniyyət və Turizm Nazirliyi ATƏT-in və Norveç Səfirliyinin dəstəyilə "Azərbaycanda mədəniyyət plüralizmi" layihəsini həyata keçirir; layihədə ölkənin bütün etno-mədəniyyət rəngarəngliyinin əks etdirilməsi planlaşdırılır. Müxtəlif milli azlıqların mədəniyyət cəmiyyətlərini onun realizasiyasına cəlb etməklə, Mədəniyyət Nazirliyi özünün ən mühüm strateji vəzifələrindən birini – mədəniyyətlərarası dialoqu inkişaf etdirmək və dəstəkləmək vəzifəsini həyata keçirir.

Mədəniyyət siyasətinin dövlət prioritetlərinə gəldikdə isə, ilk növbədə deyilməlidir ki, 1997–2001-ci illərdə Azərbaycan xalqının mədəni və təbii irsinin mühafizəsi, qorunub saxlanması, bu irs əşyalarının oğurlanması və qaçaqmalçılıq yolu ilə daşınmasına qarşı mübarizənin gücləndirilməsi sahəsində geniş Proqram qəbul edilmişdir. Həmin Proqram çərçivəsində respublikada əsas beynəlxalq Konvensiyalar radifikasiya edilmiş, bir sıra qanunlar qəbul olunmuşdur (75, s.5). 2001-ci ilin sonlarında isə Mədəniyyət və turizm Nazirliyi yaxın 5 il üçün "Azərbaycan mədəniyyətinin dövlət inkişaf proqramı"nı işləyib hazırlamışdı. Proqram Azərbaycanın dövlət mədəniyyət siyasətinin strateji məqsədlərinə nail olunmasına yönəldilmişdir və əsas prioritetlər kimi aşağıdakıları irəli sürür:

– mədəni və tarixi irsin mühafizəsi;
– yaradıcılığın dəstəklənməsi;
– mədəni sahənin hüquqi, elmi, informativ inkişafı;
– kadr hazırlığı və gənc istedadların dəstəklənməsi;
– milli kinematoqrafiyanın dirçəlişi və inkişafı;
– mədəniyyət turizmi infrastrukturunun yaradılması və inkişafı;
– kitab nəşrinin inkişafı (139).

Eyni zamanda, cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da onun həm daha da demokratikləşməsinə, həm də dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən kitabxana və muzey sistemlərinin köklü şəkildə modernləşdirilməsi və yenidən qurulması nəzərdə tutulurdu.

Proqramda mədəniyyətin idarə olunmasının yeni demokratik formalarının yaradılmasına, dövlətsizləşdirməyə və bəzi mədəniyyət obyektlərinin tədricən özəlləşdirilməsinə xeyli yer ayrılırdı. Mədəniyyət müəssisələri və təsisatları üçün güzəştli tariflər müəyyən etmək vasitəsi ilə mədəniyyət sahəsinin inkişafını stimullaşdıran, habelə bu sektora kənardan əlavə vəsait ayrılmaları cəlb edən vergi siyasətinin işlənib hazırlanması da xüsusi əhəmiyyət kəsb edirdi (139).

Bu istiqamətdə nəzərdə tutulmuş ən son Proqramda – mədəniyyət sahəsində dövlət inikşaf konsepsiyasında deyilir ki, "2006 – 2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın ümumi məqsəd və vəzifələri mədəniyyət siyasətinin təminat mexanizmləri kimi çıxış edən və mədəniyyətin bütün sahələrini əhatə edən mədəniyyətin idarəolunma, hüquqi, maliyyə, elmi-informasiya təminatı, insan resurslarını inkişafı, maddi-texniki ifrastrukturun müasirləşdirilməsi və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi kimi ümumi məsələlərin inkişaf etdirilməsindən, o cümlədən daxili və xarici dövlət mədəniyyət siyasətinin göstərilən sahələrinin dünya standartları səviyyəsinə çatdırılması üçün tələb olunan islahatların həyata keçirilməsinin təmin edilməsindən ibarətdir (10, s.6).

Yuxarıda deyilənlərə yekun vuraraq, belə bir faktı təsdiq etmək olar ki, Azərbaycan Respublikasının mədəniyyət siyasətinin müasir məqsədləri keçmişi qoruyub saxlamaq, indini dəstəkləmək və inkişaf etdirmək, gələcəyə inamla baxmaqdır. Cəmiyyətin ardıcıl surətdə demokratikləşməsi, ölkənin dünya birliyinə inteqrasiyası, mədəniyyətin bəşər inkişafının ayrılmaz faktoru kimi dərk olunması və qəbul edilməsinin getdikcə güclənməsi nikbin proqnozlar üçün əsas verir.

## Mədəniyyət siyasətinin planlaşdırılması, mədəniyyətin qanunvericilik təminatı və dövlətin bu sahədəki vəzifələri

Dünya təcrübəsində dövlətin mədəniyyət siyasəti və onun planlaşdırılmasındakı vəzifələrindən danışarkən ilk növbədə qeyd edilməlidir ki, bir ölkədə sosial dəyişikliklər kütləvi hadisəyə çevrildiri zaman zəruri olan tədbir və təşkilatlanmanı dövlət təmin etməlidir. Bu gün yaşanmaqda olan sürətli dəyişikliklər prosesi dövlətə yeni bir məsuliyyət yükləməkdədir. Dövlət, içində mədəni-mənəvi dəyərlərin yer alığı bir mədəniyyətin optimal ehtiyaclarını təmin etmək üçün bir mədəniyyət çərçivəsi təsbit etmək məcburiyyətindədir. Ancaq planlaşdırma doğrudan-doğruya mədəniyyətlə deyil, mədəniyyətin yayılması və paylaşılmasını təmin edən vasitələr ilə bağlıdır. Dövlət iqtisadi və sosial inkişafın kəmiyyəti ilə olduğu qədər keyfiyyəti ilə də maraqlanmaq məcburiyyətindədir. Bu halda problem, dövlətin mədəniyyət sahəsindəki məsuliyyətini təsbit etmək və bu sahədə görüləcək fəaliyyətləri iqtisadi və sosial planlaşdırma fəaliyyətləri ilə uyğunlaşdırmalıdır (109, s.6-7).

Planlaşdırmanın mədəniyyət sahəsinə daxil olması, bir cəmiyyətdəki kollektiv dəyərlərin dövlət tərəfindən təyin edilməsi və planlanlaşdırılmış bir mədəniyyətin yaradılması demək deyildir. Planlı mədəniyyətdən məqsəd, rəsmi bir mədəniyyət, hakim bir ideologiya də deyildir. Belə ki, bu mənada dövlətin vəzifəsi daha dar, daha müəyyən bir sahəyə inhisar edərək mədəniyyətin bütünü deyil, mədəni fəaliyyət olaraq yerinə yetiriləcəkdir. (109, s.7)

YUNESKO mədəniyyət siyasətini, bir cəmiyyətdə müəyyən bir zamanda mövcud olan fiziki və bəşəri qaynaqlardan optimal ölçüdə faydalanaraq bəzi mədəni ehtiyaclarını təmin etmək üzrə görülən şüurlu və məqsədli işlərin bütünü olaraq tərif etməkdədir. Siyasət prosesi şüurlu,

metodlu və məqsədli olub, məqsədlərin müəyyənləşdirilməsi və ehtiyacların təyin edilməsini zəruri edir (109, s.7).

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüquqdan istifadə edərək aşağıdakı niyyətlərini bəyan edir: "Ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək əsas prinsipə çevrilməkdədir".

Müasir dövrdə yüksək milli mədəniyyət yalnız öz xalqına xidmət etməklə yekunlaşmır və həm də bəşəri xarakter daşıyır. Qarşılıqlı ünsiyyətdə həm özü zənginləşir, həm də başqa millətlərin mədəniyyətlərinin mənəvi dəyərlərinin zənginləşməsinə rəvac verir. Yaşadığımız müasir dövr mədəniyyətlərin eyniləşdirilməsinə, milli köklər və qaynaqlarından ayrılmasına qarşı çıxaraq onun gələcəyini, mədəniyyətlərin əməkdaşlığında, ünsiyyətində, bədii yaradıcılıq əlaqələrinin möhkəmlənməsində və qarşılıqlı fəaliyyətinin mütərəqqi prosesində görür.

Bu gün Azərbaycan Respublikası dünyanın bir sıra ölkələri ilə mədəni əlaqə saxlayır. Bu mədəni əlaqələr millətlərarası ünsiyyət mədəniyyətinə, xalqların bir-birinə yaxınlaşmasına, onların arasında inam və etimadın möhkəmlənməsinə kömək edir (6, s.54).

Azərbaycanda müstəqil cəmiyyətin qurulması siyasi, sosial-iqtisadi, təhsil, hüquq və s. bu kimi sahələrdə çoxlu sayda islahatlarla müşayiət olunmuşdur. İslahatların elan olunması maksimum əlverişli şərait rejimini, dövlət büdcəsindən əlavə maliyyələşdirməni, böyük beynəlxalq təşkilatlar tərəfindən əhəmiyyətli kömək göstərilməsini nəzərdə tuturdu. Mədəniyyət rəsmi surətdə islahat sahəsi elan edilmədiyinə görə, nəticədə hər hansı bir imtiyazdan məhrum olmuşdur. Lakin deklarasi-

yalar olmadan da burada həm yuxarıdan və həm də aşağıdan dəyişikliklər baş vermişdir.

Hər bir milli respublikanın suverenliyi və tam müstəqilliyi iqtisadi-sosial sahələrlə yanaşı, onun milli mədəniyyətinin də hər vasitə ilə inkişaf etdirilməsini, bu mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanmasını, xalq ənənələrinin, mərasim və adətlərinin, mənəvi dəyərlərinin dirçəldilməsini və eyni zamanda xarici ölkələrlə mədəni əməkdaşlığı genişləndirməklə bədii və qarşılıqlı yaradıcılıq əlaqələrinin bir daha möhkəmləndirilməsini tələb edir.

Mədəniyyətin qanunvericilik təminatı problemindən bəhs edərkən isə vurğulanmalıdır ki, müstəqil Azərbaycan Respublikası ümumbəşəri dəyərləri prioritet qəbul edərək, demokratik, dünyəvi və hüquqi dövlət qurmaq yolunu seçmişdir. Həmin yol həm ölkənin dünya birliyinə sivil inteqrasiyasının, həm də həyat fəaliyyətinin bütün sahələrinin normal işləməsinin başlıca şərti olan qanunun aliliyinin təsdiqi və ona riayət olunması prinsipini nəzərdə tutur. Cəmiyyətimiz bütövlükdə mədəni həyatın və ayrı-ayrılıqda onun hər bir mərhələsinin – mədəni dəyərlərin yaradılması, qorunub saxlanması, yayılması və mənimsənilməsi (qəbul edilməsi) proseslərinin tənzimlənməsində komanda – sərəncamçılıq metodlarının yolverilməzliyi barədə razılığa nail olmuşdur. O, mədəniyyətin müxtəlif növ – maddi, maliyyə, kadr və informasiya resurslarından istifadə etməklə və yalnız diqqətlə düşünülmüş, yaxşı hazırlanmış və müasir tələblərə cavab verən qanunvericilik vasitəsilə idarə olunmasını qəbul etmişdir. Bu səbəbdən, mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl qanunların hazırlanması, qəbul edilməsi və tətbiq olunması müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycanda qanunlar necə yaranır? Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının "Qanunvericilik təşəbbüsü hüququ" haqqında 96-cı maddəsinə, həmçinin Azərbaycan Respublikası Milli Məcli-

sinin daxili Nizamnaməsinin "Milli Məclisin daimi komissiyalarında qanun və qərar layihələrinin hazırlanması və baxılması Qaydaları"nın 15-ci maddəsinə uyğun olaraq, qanun layihələri və digər məsələləri Milli Məclisin müzakirəsinə çıxarmaq hüququ Milli Məclisin deputatlarına, ölkə Prezidentinə, Ali Məhkəməyə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məxsusdur. Özü də ölkə Prezidentinin, Ali Məhkəmənin və NMR Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim etdikləri qanun layihələri olduğu kimi müzakirəyə çıxarılır və səsə qoyulur. Belə qanun layihələrinə dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın (NMR Ali Məclisi) razılığı ilə edilir. Fiziki və hüquqi şəxslərə, o cümlədən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə gəldikdə isə onların hamısının bu və ya digər qanunun hazırlanması və qəbul edilməsinin, yaxud hazırda qüvvədə olan qanunlara əlavələr edilməsinin zəruriliyini əsaslandırmaq məqsədilə Milli Məclisin müvafiq daimi komissiyasına (cəmi 11 belə komissiya mövcuddur) müraciət etmək hüququ vardır. Onlar həmçinin qanun layihəsinin ilkin, qaralama variantını təqdim edə bilərlər. Dəlillər inandırıcı olduğu halda müvafiq komissiyanın, mədəniyyətlə bağlı isə mədəniyyət məsələləri üzrə daimi komissiyanın üzvü olan deputatlar öz iclaslarında konkret qanun layihəsinin hazırlanması barədə qərar qəbul edirlər. Sonra komissiya qanun layihəsi üzərində bilavasitə işləmək üçün xüsusi işçi qrupu yaradır və ölkənin həmin sahədə ən yaxşı mütəxəssislərini o qrupa dəvət edir. Əgər qanun bir neçə daimi komissiya tərəfindən hazırlanırsa, o zaman ümumi işçi qrupu da yaradıla bilər. Sonrakı mərhələ digər ölkələrin müvafiq qanunlarını axtarıb tapmaqdan, hazırlanan qanunun ölkə daxilində nizamlamalı olduğu sahədə işlərin vəziyyətini, mövcud problemləri və nöqsanları diqqətlə öyrənməkdən ibarətdir. Hər bir qanun hazırlanarkən, həmçinin hökmən müvafiq beynəlxalq konvensiyalar nəzərə alınır. Nümunə üçün

deyək ki, təkcə Azərbaycan Respublikasının birinci çağırış (1995-2000) Milli Məclisinin mədəniyyət sahəsilə bağlı qanunvericilik fəaliyyəti xeyli intensiv olmuşdur. Bu müddət ərzində mədəniyyət sahəsində 15 əsas qanun qəbul edilmişdir.

Müstəqillik elan edildikdən sonra mədəniyyət sahəsində bütövlükdə 19 qanun qəbul olunmuşdur: Latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi haqqında (25 dekabr 1991-ci il); Kütləvi informasiya vasitələri haqqında (21 iyul 1992-ci il); Azərbaycan Respublikasının Müəlliflik Hüquqları Agentliyi haqqında (10 sentyabr 1993-cü il); "AZƏRKİNOVİDEO" istehsalat Birliyi haqqında (13 dekabr 1993-cü il); Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında (5 iyun 1996-cı il); Reklam haqqında (3 oktyabr 1997-ci il); Mədəniyyət haqqında Qanun (6 fevral 1998-ci il); Tarix və mədəniyyət abidələrinin qorunması haqqında (10 aprel 1998-ci il); Qrantlar haqqında (17 aprel 1998); İnformasiya azadlığı haqqında (19 iyun 1998-ci il); Kinematoqrafiya haqqında (3 iyul 1998-ci il); Memarlıq fəaliyyəti haqqında (3 iyul 1998-ci il); Kitabxana işi haqqında (20 dekabr 1998-ci il); Turizm haqqında (4 iyun 1999-cu il); Şəhərsalmanın əsasları haqqında (11 iyun 1999-cu il); Milli Arxiv Fondu haqqında (22 iyun 1999-cu il); Kütləvi informasiya vasitələri haqqında (8 fevral 2000-ci il); Muzeylər haqqında (24 mart 2000-ci il); Nəşriyyat işi haqqında (30 may 2000-ci il).

Milli Məclisin, mədəniyyət sahəsinin qanunvericilik özülünü təmin edən mədəniyyət məsələləri üzrə daimi komissiyası və sosial qanunvericilik şöbəsi müzakirəyə verilən hər bir qanunu hazırlayarkən, bu qanunların dünyanın inkişaf etmiş ölkələrinin standartları və praktikalarına uyğun olmasına, onlarda Avropa Şurasının mədəniyyət prioritetlərinin, eləcə də Azərbaycanın reallıqları və spesifik özəlliklərinin hökmən əks edilməsinə çalışmışlar. Bundan da əsas məqsəd səmərəli və təsirli, zamanın ruhuna uyğun, mədəniyyət fəaliyyətinin bütün subyektlərinin hüquq və maraqlarını təmin edən, müasir daxili

və xarici tələblərə cavab verən qanunlar yaratmaq olmuşdur. Bütün bu qanunların hamısında xüsusi olaraq qeyd edilir ki, əgər mədəniyyət sahəsini tənzimləyən milli normativ hüquqi aktlarla Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr arasında ziddiyyət olarsa, o halda həmin dövlətlərarası müqavilələrin müddəaları tətbiq olunur. Bu vəziyyət məhz beynəlxalq hüquqi normaların bizim cəmiyyət (dövlət) üçün prioritet təşkil etdiyini bir daha təsdiqləyir.

Mədəniyyət sahəsində qəbul edilən qanunvericilik aktlarına "Mədəniyyət haqqında Qanun" (1998) kimi bütövlükdə mədəniyyət sahəsini tənzimləyən qanunlar və "Kinematoqrafiya haqqında", "Şəhərsalma haqqında", "Muzeylər haqqında", "Nəşriyyat işi haqqında" və s. kimi mədəniyyət fəaliyyətinin konkret növlərilə bağlı olan qanunlar daxildir.

Mədəniyyət haqqında qanunda, hər şeydən əvvəl, dövlət siyasətinin prinsipləri, məqsədləri və vəzifələri ifadə olunmuş, həmin sahədə mərkəzi (dövlət) və yerli (bələdiyyələr) icra hakimiyyəti orqanlarının səlahiyyətləri müəyyən edilmişdir.

Bu qanunla hər bir şəxsin yaradıcılıq hüquqları və azadlıqları, beynəlxalq əlaqələrin və əməkdaşlığın inkişafı, habelə mədəniyyət sahəsində dövlətin antiinhisar siyasəti, milli özünəməxsusluğun, o cümlədən həm Azərbaycan xalqının, həm də tarixən Azərbaycan Respublikasında yaşayan etnik qrupların mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, mədəniyyət fəaliyyətilə məşğul olan ictimai birliklərin və təşkilatların yaradılması imkanları təmin olunur. Dövlətin bu sahəyə müdaxiləsi zorakılığın, irqi, milli və dini dözülməzliyin, pornoqrafiya və narkomaniyanın təbliğinin qadağan edilməsilə məhdudlaşır. Bu cür qadağaların real şəkildə fəaliyyət göstərə bilməsi məhkəmə proseduru vasitəsilə təmin edilir. Mədəniyyət fəaliyyətinə digər müdaxilə formalarına qanunla icazə verilmir. Bir sözlə, mədəniyyət fəaliyyəti və onun inkişafı ilə bağlı bir çox məsələlər həmin qanun çərçivəsində ümumi şəkildə həll edilmişdir.

Azərbaycanın mədəniyyət siyasətinin prioritet problemlərindən birinə – mədəni irsin qorunub saxlanılmasına gəldikdə isə, bu məsələ artıq hüquqi planda "Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında", "Milli Arxiv Fondu haqqında", "Kitabxana işi haqqında" qanunların qəbul edilməsi sayəsində həll edilib. Tarix və mədəniyyət abidələrini mühafizə etmək həm konstitusiyada, həm də "Mədəniyyət haqqında Qanun"da hər bir vətəndaşın əsas vəzifəsi elan edilsə də, ölkədə bu cür abidələrin aşkar edilməsi, öyrənilməsi, qorunması və istifadəsilə bağlı münasibətləri tənzimləyən xüsusi bir qanuna kəskin ehtiyac duyulurdu. Buna görə də, "Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında" qanun, abidələrin mühafizəsinin dövlət və bələdiyyə təminatı ilə bağlı məsələləri, onların istifadəsi, öyrənilməsi, konservasiyası, təmiri, bərpası, yenidən qurulması, regenerasiyası və təhlükəsizliyi qaydalarını ətraflı şərh edir. Qanunda abidələri qorumaq məqsədilə aparılan abadlıq və möhkəmləndirici tikinti işləri ilə bağlı problemlər hərtərəfli həll edilmişdir. Onda, tarix və mədəniyyət abidələrinə ümumdünya, ölkə və yerli (regional) səviyyədə mədəni dəyər statusu verilməklə onların tam siyahısının tərtib və təsdiq edilməsi, dövlət uçotuna alınması və pasportlaşdırılması, daşınmaz abidələrin xəritəsinin hazırlanması, onlar üzərində mülkiyyət formalarının müəyyən edilməsi nəzərdə tutulmuşdur. Qanunda abidələrin bədii-estetik simasının dəyişdirilməsinə və onların tamamilə və ya qismən dağılmasına səbəb olan təmir, tikinti, təsərrüfat və digər növ işlərin aparılmasının qadağan edilməsi də müsbət haldır.

Milli Arxiv Fondunun formalaşmasına və fəaliyyətinə qoyulan yeni tələblər, dövlət və qeyri-dövlət arxiv fondunun və onlarda saxlanılan sənədlərin mülkiyyət formalarının və hüquqlarının dəqiq müəyyən edilməsinin vacibliyi, habelə bu qədər böyük mənəvi sərvətin günün tələblərinə müvafiq normativ-hüquqi əsaslarının olmaması bu sahədə xüsusi qanunun hazırlanması və qəbul edilməsi zəruriyyətini doğur-

muşdur. "Milli Arxiv Fondu haqqında" Qanun arxivlərin fəaliyyəti, Milli Arxiv Fondunun formalaşdırılması, mühafizəsi və istifadəsi ilə bağlı bütün münasibətləri tənzimləyir, arxiv işçilərinin sosial müdafiəsini xeyli gücləndirir.

Kitabxana işinin təşkilinin təkmilləşdirilməsi, onun səmərəliliyinin gücləndirilməsi, məhsuldarlığının artırılması, eləcə də kitabxana informasiyası sahəsində oxucuların hüquqlarının təmin edilməsi məqsədilə ölkədə "Kitabxana işi haqqında" qanun qəbul edilmişdir. Qanun cəmiyyətin intellektual və mənəvi potensialının inkişafıına, ən müasir tələblərə cavab verən bilik səviyyəsinin yüksəldilməsinə fəal yardım göstərir, çünki o, kitabxanaların öz funksiyalarını, o cümlədən informasiya funksiyalarını həyata keçirmələri üçün, kitabxana işini keyfiyyətcə yeniləmək və yaxşılaşdırmaq üçün möhkəm hüquqi əsas yaradır. Qanunda başlıca diqqət həmin sahədəki prinsiplərin qismən dəyişdirilməsinə deyil, yeni iqtisadi və siyasi sistem şəraitində onların köklü surətdə yenidən nəzərdən keçirilməsinə və yenidən formalaşdırılmasına yönəldilmişdir. Bu qanun kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi üçün zəruri olan tələbləri, kitabxanaların maliyyə mənbələrini, onların yaradılması və fəaliyyəti qaydalarını, vətəndaşların kitabxanalardan istifadə zamanı hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir.

Tarix və mədəniyyət abidələrinin mühafizəsi ilə bağlı bütün problemlərin hüquqi cəhətdən tənzimlənməsi beynəlxalq konvensiyalara, o cümlədən "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" (Haaqa, 1954), "Ümumdünya mədəni irsinin mühafizəsi haqqında" (Paris, 1970), "Mədəni dəyərlərin qeyri-qanuni aparılmasının, məsinin, onların mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilən tədbirlər haqqında" (Paris, 1970), "Oğurlanmış və qeyri-qanuni

aparılmış mədəni dəyərlər haqqında" (1995) konvensiyalara, həmçinin YUNESKO-nun və onun nəzdində fəaliyyət göstərən beynəlxalq təşkilatların (İKOM, İKOMOS və İKKROM) və mədəni dəyərlərin mühafizəsi məsələləri ilə geniş şəkildə məşğul olan digər beynəlxalq qurumların layihə və tövsiyələrinə uyğun olaraq həll edilmişdir.

Ölkənin 1919-cu ildən formalaşmaqda olan muzey nun qorunmasını və keyfiyyətcə zənginləşməsini gücləndirmək, muzeylərimizin fəaliyyətini xeyli yaxşılaşdırmaq (bu gün ölkədə 231 muzey var), yenilərini, o cümlədən özəl muzeylər yaratmaq üçün xüsusi qanun qəbul edilmişdir. "Muzeylər haqqında" qanun dövlətlə muzeylər arasında qarşılıqlı əlaqələri tənzimləyən, onların vəzifə və funksiyalarını, imtiyaz və səlahiyyətlərini müəyyən edən, muzeylərin qaydalarını və hüquqlarını dəqiq ifadə edən, muzey fondunun qorunmasına, saxlanmasına, inkişaf etdirilməsinə və zənginləşdirilməsinə yardım edən və muzey işçilərinin sosial müdafiəsini gücləndirən təsirli bir sənəddir.

Müstəqilliyin ilk illərində şəhərsalma sahəsində meydana çıxan və şəhər və yaşayış məntəqələrinin bədii-estetik, lıq simasını xeyli korlanmasına səbəb olan mənfi tendensiyalar "Memarlıq fəaliyyəti haqqında" və "Şəhərsalmanın əsasları haqqında" qanunların qəbul edilməsini zəruri etdi. Hər iki qanun tikintidəki özbaşınalıq ucbatından ölkədə milli lığın və şəhərsalma praktikasının düçar olduğu tənəzzülü mağa, memarlıqla tikintinin ahəngdar, qarşılıqlı vəhdətini bərpa etməyə, uzun əsrlər boyu formalaşan memarlıq mədəniyyətini, şəhərlərimizin təkrarolunmaz kaloritini qorumağa və onları ləyaqətli səviyyədə gələcək nəsillərə çatdırmağa yönəldilmişdir. Azərbaycan memarlığının spesifik özəlliklərini qorumaq və inkişaf etdirmək naminə xarici vətəndaşlara və hüquqi şəxslərə yalnız Azərbaycan vətəndaşları və ya hüquqi şəxsləri ilə birgə, qanuna müvafiq qaydada memarlıq layihəsi həyata keçirməyə icazə verilir. Təkrarlığın və gözyorucu oxşarlığın

qarşısını almaq məqsədilə hər bir memarlıq layihəsindən yalnız bir dəfə istifadə edilməsi nəzərdə tutulur. "Şəhərsalmanın əsasları haqqında" qanun əhalinin optimal yerləşdirilməsi sisteminin yaradılmasını müəyyən edir, ərazilərdə, şəhərlərdə və digər yaşayış məntəqələrində tikinti və abadlıq üçün normal şəraitin təmin edilməsinə, sosial, nəqliyyat və mühəndis infrastrukturunun inkişafına, təbiətdən səmərəli istifadə olunmasına imkan yaradır, şəhərsalma fəaliyyətinin səlahiyyətlərini dəqiqləşdirir, həmçinin tarix, mədəniyyət abidələrinin qorunması və ətraf mühiti mühafizəsi sahəsində münasibətləri nizamlayır. Hər iki qanun hüquqi planda ölkənin memarlıq simasının proporsional, ardıcıl və ahəngdar inkişafına, habelə mürəkkəb şəhər təsərrüfatı prosseslərinin düzgün və məqsədyönlü idarə edilməsinə yardım göstərir.

Vahid sistem kimi nəşriyyat-poliqrafiya fəaliyyəti sahəsindəki çatışmazlıqlar və həmin sahənin bütün ən vacib problemlərini tənzimləyən müvafiq qanunun yoxluğu nəzərə alınaraq, "Nəşriyyat işi haqqında" qanun qəbul edilmişdir. Qanun pozulmuş nəşriyyat-poliqrafiya siklini bərpa etməyə və onun dirçəlişini təmin etməyə yönəldilmişdir. Qanunda dövlət siyasətinin əsas prinsipləri və nəşriyyat işi sahəsində dövlətin vəzifələri ifadə olunmuş, nəşriyyat-poliqrafiya fəaliyyətinin təşkil olunması və həyata keçirilməsinin optimal üsulları müəyyən edilmiş, həmin sahədə subyektlər arasındakı münasibətləri tənzimləyən prinsiplər dəqiqləşdirilmişdir. Ölkədəki iqtisadi reallıqları nəzərə alan, praktik, tətbiqi xarakter daşıyan belə bir sənədin qəbul edilməsi Azərbaycanda nəşriyyat-poliqrafiya işinin perspektivlərinə böyük ümidlə baxmağa əsas verir.

"Kinematoqrafiya haqqında" qanunda bu sahəyə dövlət himayəsinin əsas formaları açıqlanır. Qanunda milli film və kinoepopeyaların ilkin materiallarının qorunması kimi problemlər öz həllini tapır, milli filmlərin istehsalı, yayımı və beynəlxalq festivallarda iştirakının dövlət tərəfindən maliyyələşdirilməsinin qayda və şərtləri müəyyən edilir. Hüquqi

planda kino yaradıcılığı fəaliyyətini və kinematoqrafiya təşkilatlarının işini tənzimləyən məsələlər həll edilir.

"Azərbaycan dilindən istifadə və onun qorunması haqqında" son dərəcə vacib olan qanunu, xüsusilə qeyd etmək lazımdır. Həmin qanunun aktuallığı bununla bağlıdır ki, Azərbaycan Dövlət Respublikasının Konstitusiyasında (1995) Azərbaycan dilinin dövlət dili elan edilməsinə və buna müvafiq olaraq, həyatımızın bütün sferalarında ondan geniş istifadə olunması üçün hər cür şərait yaradılmasına baxmayaraq, bu sahədə xüsusi qanun qəbul olunmasını zəruri edən bir çox mühüm səbəblər mövcuddur. Xüsusilə də, dünyanın inteqrasiya olunduğu, qloballaşma prosseslərinə məruz qaldığı bir dövrdə Azərbaycan dili digər dillərin dağıdıcı təzyiqi ilə üzləşir. "Müasirləşdirmə" adıyla Azərbaycan dilini süni şəkildə yad dillərlə qarışdırma onun zibillənməsinə, ona xas normaların dəyişməsinə, sintaksis və intonasiyanın təhrifinə gətirib çıxarır. Bu cür "inkişaf yolu" Azərbaycan dilinin əsrlər boyu təşəkkül tapmış tipologiyasının, onun qrammatik qurluşunun pozulmasına, habelə fonetik normaların xeyli dəyişməsinə, lüğət tərkibinin itkisinə səbəb olur. Bundan əlavə, latın qrafikalı Azərbaycan əlifbasına keçidlə bağlı da xeyli çətinliklər mövcuddur. Bu və bir çox digər qüsurların qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" 21 iyun 2001-ci il tarixli fərmanı dərc olunmuş, onun 4 iyul 2001-ci il tarixli digər bir fərmanı ilə dil üzrə dövlət komissiyası yaradılmışdır; bu komissiyanın funksiyasına bundan əvvəl dərc olunmuş fərmanın həyata keçirilməsinə nəzarət etmək daxildir. Bu fərmanlarla bağlı yuxarıda adı çəkilən qanuna müəyyən dəyişikliklər və əlavələr edildikdən sonra, təkcə dövlət dilinin hüquqlarını təsdiq etməklə qalmayıb, eyni zamanda tarixən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün etnik qrupların dillərinin də hüquqlarını müdafiə edən və beləliklə də hüquqi baxımdan ölkədəki

mühüm etnodil prosseslərini düzgün tənzim edən bu sənəd Azərbaycan dilinin mədəni, sosial və siyasi əhəmiyyətinin yüksəlməsinə praktik yardım göstərəcəkdir.

"KİV haqqında" qanunun 2000-ci ildə qəbul edilməsinə baxmayaraq, KİV fəaliyyətinin qanunvericilik bazasının durmadan yaxşılaşdırılmasına və ümumavropa məkanına inteqrasiya olunmağa səy göstərilməsi bu qanuna yenidən baxılmasının başlıca səbəblərindəndir. 2001-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti "KİV-ə dövlət qayğısı sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Fərmanda qəzet kağızının ixracına qoyulan rüsumların ləğv edilməsi, KİV-nin inkişafı üçün uzunmuddətli və güzəştli kreditlər ayrılması məsələlərilə bağlı imkanların yaxşılaşdırılması, müstəqil televiziya və radio şirkətlərinin veriliş əhatəsinin genişləndirilməsilə bağlı tədbirlər görülməsi, xarici televiziya şirkətlərinin Azərbaycan ərazisində verilişlərinin qanunvericiliyə uyğun olaraq tənzimlənməsi, qəzet yayımına və özəl televiziya və radio şirkətlərinin verilişlərinə qoyulan vergi hədlərinin yenidən nəzərdən keçirilməsi, özəl qəzetlərin dövlət nəşriyyatlarında maneəsiz çap olunmasının təmin edilməsi kimi tədbirlər nəzərdə tutulur.

Eləcə də "Teatr və teatr fəaliyyəti haqqında", "Yaradıcılıq birlikləri və yaradıcı işçilər haqqında", "Milli qoruqlar və milli parklar haqqında", "Folklor ifadələrinin qeyri-qanuni istifadədən və onların qorunub saxlanmasına ziyan vuran digər fəaliyyətlərdən qorunması haqqında" qanunlar qəbul edilmişdir (75).

Müəlliflik hüququ qanunvericiliyinə gəldikdə isə, Azərbaycan Respublikasının sivilizasiyalı cəmiyyətlərin ən yüksək ölçülərinə cavab verən "Müəlliflik hüququ və əlaqəli hüquqlar" haqqında yeni qanunu 1996-cı il oktyabrın 8-də qüvvəyə minmiş və Azərbaycan tarixində müəlliflik hüququ sahəsində ilk qanun kimi, respublika rəhbərliyi tərəfindən elan edilən hüququ dövlət quruculuğu prinsiplərini təsdiq etmişdir. Bu qanunun ən diqqətəlayiq cəhəti ondadır ki, o, əsər yaradıcıları

ilə onun istifadəçiləri arasında qeyri-bərabər münasibətlər prinsipi əsasında yaradılan və daha haqlı olaraq "əsərlərdən istifadə hüququ" adlandırıla biləcək "Sovet müəlliflik hüququ"nun postulatlarını tamamilə ləğv etmişdir.

Azərbaycanda dövlət və müəlliflik hüququ sistemi dünya standartları səviyyəsində qurulmuşdur. Bu da bir sıra zərurətlərdən irəli gəlmişdir. Belə ki, Azərbaycan qədim və zəngin mədəniyyət ölkəsidir, görkəmli alimləri, yazıçıları və bəstəkarları ilə bütün dünyada məşhurdur. Mənəvi mədəniyyət ənənələri, yaradıcılıq nailiyyətlərinin himayə olunması və stimullaşdırılması müasir Azərbaycanda qayğı ilə qorunub saxlanmaqda və çoxaldılmaqdadır. Məhz bu səbəbdən gənc Azərbaycan dövləti respublika rəhbərliyinin düşünülmüş və uzaqgörən siyasəti sayəsində intellektual mülkiyyətə böyük diqqət yetirir. Azərbaycan Respublikasının yeni Konstitusiyasının bu hüquqların əhəmiyyətini qeyd edən 30-cu maddəsində deyilir ki, "hər kəsin intellektual mülkiyyət hüququ vardır. Müəlliflik hüququ qanunla qorunur".

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanun mədəniyyət sahəsində dövlət siyasətinin əsas istiqamətlərini möhkəmləndirir və özündə aşağıdakıları ehtiva edir: elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması ilə bağlı yaradıcılıq fəaliyyətinin təşviq edilməsi və stimullaşdırılması və millətin mənəvi dəyərlərinin çoxaldılması; qabaqcıl beynəlxalq təcrübə əsasında müəllif hüquqlarının müəyyən edilməsi və qorunmasını təmin edən qanunvericilik bazasının yaradılması; müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsində dövlət idarəsinin təşkili; beynəlxalq əlaqələri inkişaf etdirməklə, digər ölkələrin ərazisində milli hüquq sahiblərinin müəlliflik hüquqlarının qorunması.

Hüquqların qorunması sahəsində qanunvericilik və normativ-hüquq bazasına gəldikdə isə, 1996-cı ildə "Müəlliflik hüquqları və əlaqəli hüquqlar haqqında" qanun qəbul etməklə Azərbaycan postsovet məkanında bu sahədə qanunvericilik

bazası yaradan ilk ölkələrdən biri olmuşdur. Beynəlxalq ekspertlərin də etiraf etdiklərinə görə bu qanun demokratik, sivilizasiyalı cəmiyyətlərin meyarlarına uyğundur. "Müəlliflik hüquqları və əlaqəli hüquqlar haqqında" qanun müəlliflər (hüquq sahibləri), əsərlər və istifadəçilər arasında münasibətləri tənzimləyir, müəlliflik hüququnun milli qanunvericilik bazasını təmin edir.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1996-cı il tarixli sərəncamına əsasən bu qanunun tətbiqi və müəlliflik hüququ sferasının idarə olunması qaydaları müəyyən edilmiş, müəlliflik hüququ qanunvericiliyinin icrasına dair ən mühüm tədbirlərin həyata keçirilməsi təmin olunmuş və milli dövlət orqanının – Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin səlahiyyətləri müəyyən edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 38 saylı 2 may 1997-ci il tarixli Qərarına uyğun olaraq və sonrakı hökumət qərarları əsasında müxtəlif əsər növləri üzrə minimal tarif hədləri təmin edilmiş, müəlliflik hüququ müqavilələrinin nümunəvi formaları təsdiq olunmuş, əsərlərin könüllü qeydiyyatdan keçirilməsi və onların qeydiyyatına dair şəhadətnamələrin verilməsi qaydaları və müəlliflik hüququ qanunvericiliyinin tətbiqində mühüm rol oynayan digər məsələlər nizama salınmışdır. Bununla bərabər, Müəllif Hüququ Agentliyi tərəfindən, Ədliyyə Nazirliyi ilə razılaşdırılmaqla, qanunun icrasının təmin olunmasına köməklik göstərən bir sıra normativ-hüquqi aktlar və xidməti təlimatlar təsdiq edilmişdir.

Müəlliflik hüququna dair ayrı-ayrı müddəalar "Sahibkarlıq fəaliyyəti haqqında", "Mədəniyyət haqqında", "Kinematoqrafiya haqqında", "Memarlıq fəaliyyəti haqqında", "Şəhərsalma haqqında", "Reklam haqqında", "Nəşriyyat işi haqqında" və s. kimi bir sıra mühüm qanunlarda öz əksini tapmışdır. Bütövlükdə, intellektual mülkiyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, bütün inkişaf etmiş ölkələrdə olduğu kimi kompleks xarakter daşıyır və dövlət, inzibati, maliyyə,

əmək, prossesual və hətta cinayət hüququnun müddəalarını əhatə edir. Bu deyilənlər müəllif hüququnun kompleks, tamamilə müstəqil hüquqi institut olması haqda, onun, tənzim edilən münasibətlərə yalnız müxtəlif hüquq sahələrini təşkil edən normalarla vəhdətdə səmərəli hüquqi təsir göstərməsi haqda fikir yürütməyə imkan verir. Bu halda əsərlərə və əlaqəli hüquq obyektlərinə aid edilən hüquqların özü ənənəvi olaraq mülki hüquq strukturuna daxil edilir.

Azərbaycan intellektual mülkiyyət sahəsində beynəlxalq əməkdaşlıqda fəal iştirak edir. Azərbaycan Respublikası 1996-cı ildən ÜİMT-in üzvüdür, 1997-ci ildən Müəlliflik Hüququna dair Ümumdünya Konvensiyasında öz iştirakını davam etdirir. Azərbaycan 1998-ci ildən Ədəbiyyat və İncəsənət Əsərlərinin Qorunmasına dair Bern Konvensiyasının üzvü, 2001-ci ildən Fonoqramlara dair Cenevrə Konvensiyasının iştirakçısıdır. Bunlarla yanaşı, Azərbaycanın əlaqəli hüquqlar üzrə Roma Konvensiyasında, ÜİMT-in müəlliflik hüququ və fonoqramlar və ifalar üzrə İnternet-müqavilələrində iştirakı barədə təkliflər səlahiyyətli orqanların müzakirəsinə verilmişdir. Respublika MDB çərçivəsində müəlliflik hüququ ilə bağlı sazişlərdə fəal iştirak edir, habelə bəzi dövlətlərlə ikitərəfli hökumət müqavilələri bağlamışdır.

Dövlət siyasətinin təmin olunması sahəsində müəlliflik hüququ və əlaqəli hüquqlar institutunun inkişaf Konsepsiyası həyata keçirilir, qanunvericiliyə və hüquqların idarə olunmasına dair beynəlxalq təcrübə ümumiləşdirilir. Bu iş beynəlxalq ekspertlərlə sıx əməkdaşlıq şəraitində görülür. Müəlliflərin və istifadəçilərin uçot şəbəkəsi yaradılmışdır, istənilən maddi daşıyıcıya yazılmış əsərlərin qeydiyyatı, dövlət reyestrində qeydə alınmış əsərlərin elektron arxivləşdirilməsi və onların ekspertizasının təşkili təmin edilir. Agentlik müəllif hüquqları sahəsində fəaliyyət göstərən ictimai təşkilatların, habelə kollektiv idarəçiliklə məşğul olan mütəxəssislərin işini əlaqələndirir və onlara metodiki və hüquqi yardım göstərir,

keçirdiyi bir sıra seminarlar, təlimati yığıncaqlar, televiziya və digər kütləvi informasiya vasitələrində etdiyi onlarla çıxış, həmçinin bu sahədə hazırladığı elmi, metodiki və praktiki materiallar da daxil edilməklə hüquq sahiblərinin məlumatlandırılması yönündə iş aparır.

Avropa ölkələrinin müəlliflik hüququ qanunvericilikləri ilə milli qanunvericiliyin müqayisəli təhlilinin, habelə ÜİMT-in və TRİPS-in İnternet müqavilələrinin məzmunundan irəli gələn tələblərin həyata keçirilməsi, milli qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlamağa, həmçinin hamılıqla qəbul olunmuş beynəlxalq praktikaya uyğun bir sıra təşkilati tədbirlər həyata keçirməyə imkan verdi. Müəlliflərin əmlak hüquqlarının kollektiv idarə olunması çərçivəsində müəlliflərə və hüquq sahiblərinə düşən qonorarların toplanması, bölüşdürülməsi və onlara çatdırılması təşkil edilir, nəzərdə tutulmuş istifadəçilərin dairəsi daha çox kommersiya strukturlarının əhatə edilməsi hesabına genişləndirilir.

Beynəlxalq əməkdaşlıq və kooperasiya məsələlərində ÜİMT Azərbaycan Respublikasının dövlət orqanları ilə fəal əməkdaşlıq edir. Məsələn, 1998-ci ildə Müəllif Hüquqları Agentliyi ÜİMT-lə birlikdə Azərbaycanda ÜİMT-in yeni müqavi-lələri (internet müqavilələri) ilə bağlı məsələlər üzrə, habelə TRİPS sazişi üzrə milli seminarlar keçirmişdir. 2000-ci ilin mayında agentliklə ÜİMT Cənubi Qafqazda piratçılığa qarşı mübarizə məsələlərinə həsr olunmuş ilk regional seminar-simpozium keçirmişdir; həmin seminar-simpoziumda Gürcüstanın və Mərkəzi Asiya respublikalarının müəlliflik hüququ təşkilatlarının, həmçinin bu ölkələrin hüquq-mühafizə və gömrük strukturlarının nümayəndələri iştirak etmişlər. Yeni minilliyin ilk ilində "Gələcəyi bu gün yaradaq" devizi altında ÜİMT tərəfindən elan edilən 26 aprel – Beynəlxalq İntellektual Mülkiyyət Gününün, habelə üç il dalbadal 23 aprel – Kitab və Müəllif Hüququ Gününün bayram edilməsi ölkədə böyük rezonans doğurmuşdur.

Azərbaycanda intellektual mülkiyyət, xüsusilə də müəlliflik hüququnun inkişaf perspektivlərini aşağıdakı istiqamətlər prizmasından nəzərdən keçirmək daha məqsədəuyğundur: müasir tendensiyalar və Azərbaycanın yeni beynəlxalq sazişlərdə və dövlətlərarası kooperasiyalarda iştirakının genişləndirilməsi nəzərə alınmaqla milli qanunvericiliyin təkmilləşdirilməsi; bu sahədə dövlət siyasətinin və müəllif hüquqlarının idarə olunmasını həyata keçirən milli orqanın bundan sonra da modernləşdirilməsi və onun səlahiyyətlərinin inkişaf etdirilməsi; pozulmuş hüquqların təmin edilməsində hüququn tətbiqi praktikasının gücləndirilməsi.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, bütün dünyada olduğu kimi Azərbaycanda da rəqəmli texnologiya və İnternet adi praktikaya çevrilməyə başlamışdır. Bununla əlaqədar olaraq, agentlikdə hüquqların rəqəmli şəbəkələrdə idarə olunması perspektivləri üzrə iş aparılmışdır. Rəqəmli şəbəkələrdə müəlliflərin hüquqlarının qorunması ilə əlaqədar Azərbaycanın müəlliflik hüququ qanunvericiliyinə “fonoq-ram”, “hamının nəzərinə çatdırmaq hüququ” və “yayım hüququ” anlayışları ilə bağlı dəqiqləşdirmələr və agentliyin hazırladığı digər müvafiq təkliflər əlavə edilir. ÜİMT-in yeni beynəlxalq müqavilələrində – “Müəlliflik hüququ haqqında Müqavilə” və “İfalar və fonoqramlar haqqında Müqavilə”də Azərbaycan Respublikasının iştirakı məsələsinə səlahiyyətli orqanlarda baxılması ilə əlaqədar hazırlıq işləri aparılır.

Mühüm vəzifələrdən biri milli qanunvericiliyin, yerinə yetirilmiş olan müqayisəli təhlil əsasında Avropa direktivlərinə uyğunlaşdırılmasıdır.

Azərbaycanda, əlaqəli hüquqların qorunmasına dair Roma Konvensiyasına üzv olmaq istiqamətində hazırlıq işləri aparılmışdır, çünki milli qanunvericilik bu beynəlxalq sazişin tələblərinə uyğun gəlir. Azərbaycanın Ümumdünya Gömrük təşkilatına üzv olmağa hazırlaşması və TRİPS müqaviləsi tələblərinin yerinə yetirilməsi ilə əlaqədar Azərbaycan

Respublikasının Gömrük Məcəlləsinə sərhəddə piratçılığa və saxtakarlığa qarşı ehtiyat tədbirlərini sərtləşdirən bəzi dəyişikliklər edilməsi nəzərdə tutulur.

Azərbaycanda müəlliflik hüququ sisteminin inkişaf etdirilməsi planına əhalinin və hüquq sahiblərinin məlumatlandırılması məqsədilə yaxın vaxtlarda "İntellektual mülkiyyət" jurnalının nəşri, broşürlərin, bukletlərin və xüsusi nəşrlərin hazırlanması daxildir. Bununla əlaqədar, rəqəmli mikromətbəə və xüsusi təşkilati texnika əldə edilməsi məsələlərində ÜİMT-in agentliyə göstərdiyi yardım hər cür tərifə və təşəkkürə layiqdir.

Müasir müəlliflik hüququnun rolu haqqında danışarkən vurğulamaq lazımdır ki, hər bir ölkə özünün təkrarolunmaz simasına görə öz xalqına borclu olduğu kimi, müəlliflik hüququ da özünün bu günkü vəziyyətinə görə mövcud əsərlərə borcludur. Volterin kitablar haqqında söylədiyi qiymətli sözlər tamamilə haqlı olaraq bütün əsərlərə şamil edilə bilər: "Onlar bizim ocaqlarımızdakı od kimidirlər: biz onları kimdənsə götürür, ocağımızı qalayır, sonra başqalarına ötürürük. Nəticədə onlar hamının malı olur".

Millətin ən başlıca sərvəti olan intellekt öz mənbəyi kimi həmişə yaradıcılığa əsaslanmışdır. Yaradıcılıq məhsulları – elmi, bədii və incəsənət əsərləri bütün tarix boyunca bəşər mədəniyyətini hərəkətə gətirən lokomativ rolunu oynamışdır, onların qorunub saxlanılması isə mədəni təkrar istehsala səbəb olmuşdur. Yaradıcı şəxslərin hüquqlarını qoruyan və müdafiə edən qanunvericilik aktları da milli irsin, mədəniyyət ənənələrinin və ölkənin özünəməxsusluğunun mühafizə olunmasının zəruri şərti kimi meydana çıxmışdır. Güclü və müstəqil mədəniyyət industriyasının yaradılması belə qanunların mövcudluğundan asılıdır.

XX əsrin sonlarında bilik və mədəniyyətin funksiyalarında baş verən prinsipal dəyişikliklər və rəqəmli XXI əsrin imkanları intellektual fəaliyyət nəticələrindən istifadənin miqyasının kəskin surətdə genişlənməsinə gətirib çıxardı. İnsan

ağlının yaradıcılıq məhsulları iqtisadi dövriyyənin ən mühüm növlərindən birinə çevrildi.

Müasir dünyada heç bir sərhəd yaradıcılıq əsərlərinin yayılması üçün maneə törədə bilmir: bu səbəbdən müəllif hüququ elə bir sahəyə çevrilmişdir ki, onun mərkəzi nöqtəsi dünyanın hər yerindədir, çevrəsi isə ümumiyyətlə yoxdur. Bütün bunlar mədəni nemətlərin beynəlxalq ticarətinin inkişafında son dərəcə vacibdir və belə qarşılıqlı fəaliyyətin təhlükəsizliyini nəzərdə tutur.

Bununla da, cəmiyyətin qorunub saxlanılması və inkişafı üçün mədəniyyətin qorunması və stimullaşdırılmasının vacibliyinin dövlət tərəfindən dərk edilməsinin hüquqi ifadəsi olan müasir müəlliflik hüququ intellektual fəaliyyətin təkcə mədəni-intellektual deyil, həm də iqtisadi nəticələrinin reallığını diqqətə alır. Əgər yaradıcılığın dəstəklənməsi və stimullaşdırılması şəxsiyyət azadlığı və insan hüquqlarından doğursa, onda bu hüquq və azadlıqların, yaradıcılığın obyektiv ifadə olunmuş nəticələrinin mühafizəsi və qorunub saxlanılması ilə inteqrasiyası onların iqtisadi dövriyyədə fəal iştirak edən bazar məhsulları olduğunu qəbul etmək deməkdir. Müəlliflik hüququnun ikili təbiəti illər ötdükcə özünü daha aydın büruzə verir, şəxsi və əmlak hüquqlarının sıxı surətdə bir-birinə qarışması, bizim fikrimizcə, yaradıcının şəxsiyyətilə sıx bağlı olan müstəqil müəlliflik hüququ institutunun yaranmasına səbəb olmuşdur.

Bununla yanaşı, müəlliflik hüququ haqqında qanunvericiliyin üç əsrlik tarixi, müəlliflə cəmiyyətin maraqları arasında ağıllı balans – sərbəst ideya və biliklər axınında cəmiyyətin tələbatları ilə öz yaradıcı əməyinin ədalətli şəkildə mükafatlandırılmasını arzulayan müəllif marağı arasında kompromis axtarışından ibarət olmuşdur. Müəlliflik hüququ sahəsində toplanmış beynəlxalq təcrübədən istifadə olunması, milli ənənə və xüsusiyyətlərin və nəhayət bütün tərəflərin maraqlarının nəzərə alınması mühüm rol oynayır: son nəticədə bu sahədə

çıxarılan hər bir qərar kiminsə mənafeyinə toxunur, çünki kiminsə hüququ eyni zamanda kiminsə vəzifəsidir. Bütün bu səbəblər Azərbaycanın müasir müəlliflik hüququnun, yuxarıda sadalanan kompromislərin və mövcud ənənələrin məcmusu kimi formalaşmasına gətirib çıxarmışdır.

Bütövlükdə intellektual mülkiyyətin, ayrıca götürüldükdə isə müəlliflik hüququnun bu günkü vəziyyətini xarakterizə edərkən, Azərbaycan xalqının çoxəsrlik müəlliflik hüququ ənənələrini diqqətə almamaq olmaz. Azərbaycan müəlliflik hüququnun kökləri lap qədim dövrlərə, ibtidai-təbii anonim anlayışının müəlliflik şəxsiyyətilə əvəz edildiyi dövrlərə gedib çıxır. 1300 illiyini bu yaxınlarda qeyd etdiyimiz "Kitabi-Dədə Qorqud" buna parlaq nümunə ola bilər, hərçənd bəzi məlumatlara görə Qorqudun təsvir etdiyi hadisələr eramızın ilk əsrlərinə aid edilir. Məhz həmin əsrlərdə sadəcə folklor nümunələrini yazıya alan deyil, öz müəlliflərinin adlarını da qoruyub saxlayan əsərlər meydana çıxmağa başlayır. Orta əsr Azərbaycanında azərbaycanlı müəlliflər – aşıqlar, öz müəllifliklərini əbədiləşdirməyin orjinal formasını tapdılar və bu, bütün Şərqə yayıldı. Yaradıcının əsl adı və poetik ləqəbi hökmən şerin – nəğmənin son beytinə, "tapşırma"ya salınırdı. Müasir müəlliflik hüququ terminologiyası ilə ifadə etmiş olsaq, bu müəllifin şəxsi hüquqlarının qorunmasının aktiv forması idi. Tapşırmadan mənimsəmələr və ya onun dəyişdirilməsi adi mülki hüquqla – adətlə təqib edilirdi və plagiatçılıq edən şəxslər ictimai nifrətə məruz qalırdılar. Azərbaycanda müəllifin şəxsi hüquqlarının mühafizə olunması ənənələri və kağız istehsalının gur inkişafı sayəsində Nəsrəddin Tusi, Təbrizi, Mərzban, Həbibulla Gəncəvi, Marağayi, Naxçivani, Xaqani, Beyləqani, Məhsəti Gəncəvi, Nizami və digər Azərbaycan alimləri və şairlərinin əlyazmaları orta əsrlərdən günümüzə qədər gəlib çatmışdır.

Bugünkü müəllif hüququ ənənəsində müəllifin əmlak hüququ adlandırılanlar o vaxtlar mesenatçılıq xarakteri daşı-

yırdı. Vergil, Horatsi, Marsial öz himayədarlarının – mesenatların maddi köməyi ilə yazıb-yaratdıqları kimi böyük Azərbaycan memarı Əcəmi Naxçivani də özünün ən gözəl əsərlərini Azərbaycan Atabəylərinin sifarişi və himayəsilə yaratmışdı. Azərbaycan Şirvanşahları Seyid Yəhya Bakuvi kimi görkəmli alim-filosof, Xaqani və Fələki kimi məşhur şairlərə himayədarlıq edirdilər. Dahi Nizami Gəncəvi özünün "Xosrov və Şirin" poemasına görə böyük hökmdar Qızıl Arslan tərəfindən xüsusi bəxşişlə mükafatlandırılmışdı.

Məlum olduğu kimi, Qutenberqin çap üsulunu kəşf etməsi müasir müəlliflik hüququnun formalaşmasının başlanğıcı hesab edilir.

Azərbaycanın Ağqoyunlu və Səfəvilər dövlətlərinin Qərbi Avropa ölkələri, xüsusilə də Venetsiya Respublikası ilə xarici əlaqələri sayəsində 1594-cü ildə Romada "Mediçi" məntəqəsində ilk azərbaycanlı müəllifin kitabı çap üsulu ilə nəşr olundu. Bu kitab böyük Azərbaycan alimi Nəsrəddin Tusinin, XIX əsrin sonlarınadək Asiya və Şərq ölkələrində həndəsə və cəbr fənləri üzrə ən yaxşı dərslik hesab edilən və əlyazması halında hələ 1248-ci ildən mövcud olan "Təhriri-Oqilidis" əsəri idi. Bu əsər sonralar 1598-ci ildə, latın dilinə çevrildikdən sonra isə 1657-ci ildə Londonda təkrar nəşr olundu və lap bizim dövrə qədər Avropa məktəblərində ondan dərslik kimi istifadə edilirdi.

XVII əsrdən, şrift üsulu ilə kitab nəşrinin fəal inkişaf etdiyi Səfəvilər dövründən Azərbacanda müəlliflik hüququ müasir mənada qəbul edilməyə başlamışdı və onun tənzimlənməsi adi hüquq çərçivəsində həyata keçirilirdi.

Xalqımızın zəngin müəlliflik ənənələri sayəsində müəlliflik hüquqlarının Azərbaycanda təşəkkül tapmasının qısa tarixçəsi belədir. Tamamilə təbiidir ki, Azərbaycanın müasir, bugünkü müəlliflik hüququ latın və anqlo-sakson hüquq ənənələrinin, ÜİMT-in (Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı) və inkişaf etmiş ölkələrin ən yaxşı təcrübələri ilə tamamlanmış və zənginləşdirilmişdir.

Fransız yazıçısı Şatobrianın sözləri ilə desək, "hüquq borcu yox, borc hüququ doğurmuşdur". Cəmiyyətin, dövlətin alimlər və

mədəniyyət xadimləri qarşısında borcu müəlliflik hüququnu kristallaşdıraraq bugünkü səviyyəyə çatdırmışdır.

ÜİMT-in rəqəmli WIPOnet şəbəkəsinin yaradılması sahəsində gördüyü nəhəng işlər və agentliyin dünyanın ilk beş intellektual mülkiyyət idarəsi sırasında onda iştirakı bu şəbəkəyə xidmət göstərən mütəxəssislərin yenidən hazırlamasını tələb edir. Bununla əlaqədar ÜİMT-in gələcək üçün planlaşdırılan belə bir işi də rəğbətlə qarşılanır. Hüquqların kollektiv idarə olunması şəbəkələrinin inkişaf etdirilməsi və modernləşdirilməsi də aktual vəzifələrdən biridir.

Hazırda piratçılığa qarşı mübarizə hüququnun tətbiqi praktikası çox mühüm rol oynayar. Vəziyyəti mürəkkəbləşdirən odur ki, yaranmaqda olan industriya (məsələn, rəqəmli fonoqram istehsalı və s.) səbəbindən yerli istehsalçılar, praktiki olaraq, texniki müdafiə vasitələrindən məhrumdurlar. Dövlət qanunauyğun qaydada buraxılan intellektual məhsula identifikasiya sistemi tətbiq etməklə, onlara kömək göstərmək istəyir və Müəllif Hüquqları Agentliyi belə bir layihə hazırlamışdır. ÜİMT-in təcrübə mübadiləsi mövzusunda təşkil etdiyi beynəlxalq seminarların keçirilməsi məsələləri də aktual olaraq qalır. Bununla əlaqədar Azərbaycan öz milli agentliyini Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üçün, həm simpoziumlar keçirilməsində, həm də şəbəkə informasiya mübadiləsində baza kimi istifadə olunması təşəbbüsü ilə çıxış edir.

ÜİMT-in YUNESKO ilə birlikdə ənənəvi biliklərin və folklorun qorunması məsələləri sahəsində böyük işlər gördüyü məlumdur. Biz millətə məxsus olan bu intellektual mülkiyyət hüququnun qorunması sahəsində yeni beynəlxalq alətin yaradılmasına yönəldilmiş həmin fəaliyyəti hər vasitə ilə dəstəkləyirik. Bu məsələ bizim üçün son dərəcə aktualdır, çünki Azərbaycanın bir çox nəğmə janrlı əsərləri, folklor və dekorativ xalça sənəti nümunələri, çox təəssüflər olsun ki, bəzi qonşularımız tərəfindən vicdansızcasına mənimsənilərək öz əsl milli mənsubiyyətindən məhrum edilirlər.

## Demokratik və totalitar mədəniyyət planlaşdırılması

BMT-nin İnsan Haqları Bəyannaməsinin 27 (1) maddəsində "Hər kəs cəmiyyətin mədəniyyət həyatına azad olaraq qatılma haqqına sahibdir" ifadəsi yer almaqdadır. Beləcə mədəniyyət bir sosial haqq olaraq qəbul edilməkdə və digər sosial haqlar kimi dövlətə bəzi vəzifələr yükləməkdədir. Bu yanaşma mədəniyyəti bir zümrə imtiyazı olmaqdan çıxarmaqda və insan həyatının dövlət tərəfindən də dəstəklənəcək bir sferası halına gətirməkdədir.

Mədəniyyət cəmiyyətin bütün maddi-mənəvi dəyərlərinin cəmidir (109, s.19). Bu etibarla sürətli bir sosial inkişaf və dəyişmə içərisində olan Azərbaycan cəmiyyətinin mədəni ehtiyaclarının ödənilməsi, sadəcə maddi rifah səviyyəsi ilə dəyərləndirilməsi mümkün olmayan inkişafın yerinə yetirilməsi zəruri bir vəzifəsi halına gəlmişdir.

Maddi və mənəvi varlığımızın, milli xarakterimizin özəlliklərindən ilham alaraq inkişaf etdirilməsində, dövlətimizin ölkə və millətlə bölünməz bir bütün halında qorunması, yaşadılması və gücləndirilməsində, mənəvi bərabərlik və həmrəyliyimizin güclü, bağlayıcı, bütünləşdirici ortaq milli mövqe və davranışlarının inkişafında milli mədəniyyətümüz, tükənməz bir qaynaq təşkil etməkdə və bu baxımdan, cəmiyyətimizin bugünkü inkişaf səviyyəsi etibarilə çox önəmli bir rol oynamaqdadır (109, s.20).

Yuxarıda da bildirdiyimiz kimi çox müxtəlif mədəniyyət tərifləri verilmişdir. Ən ümumi mənası ilə bir cəmiyyət içərisində "həyatı ehtiva edən hər şey mədəniyyətə daxildir, mədəniyyətə girməyən insani bir fəaliyyət yoxdur". Ancaq mədəniyyət siyasəti və planlaşmasından bəhs edildiyi zaman bu tərifdə böyük ölçüdə məhdudlaşdırma və ya xüsusi bir perspektiv bəhs mövzusudur.

Türkiyə Cümhuriyyətinin beşillik inkişaf planına dair xüsusi komissiyanın hesabatında deyilir: "Ölkəmizin son illərdə keçirmiş olduğu təsrübələrə istinadən komissiyamız bu xüsusi perspektivi YUNESKO mütəxəssislərinin birgə qəbul etmiş olduqları bir tərif içərisində görməkdədirlər: Mədəniyyət, bir insan cəmiyyətinin öz tarixi təkamülü xüsusunda sahib olduğu şüur deməkdir; o mənada ki, bu insan cəmiyyəti bu tarixi təkamül şüuruna məxsus varlığını davam etdirmə əzmini göstərir və inkişafını təmin edir" (109, s.8) Bu tərif bir ölkədə sosial və iqtisadi inkişafa lazım olan mədəniyyət və tarixi yaddaşın təzələnməsi və inkişaf prosesini öz mədəniyyət və tarixi ilə bütünləşdirərək gerçəkləşdirmənin əhəmiyyətini müəyyənləşdirməkdədir.

Demokratik qayda ilə idarə olunan ölkələrdə, dövlətin vəzifəsi insanların özü-özlüyündə meydana gələn və müxtəlif təsirlərlə yüksələn yaşayış tərzlərini, inanc və dəyərlərini ortadan qaldırmaq etmək və bunların yerinə iqtidarda olanların düşüncələrinə uyğun formaları yerinə qoymaq, bu məqsədlə bir siyasət təyin edərək icrasını plana bağlamaq olmaz. Bunun mümkün olmayan iki tərəfi düşünülə bilir. Birincisi, demokratik cəmiyyətdə insan haqq və azadlıqları müqəddəsdir və ancaq zərurət varsa məhdudlaşdırılması mümkündür. Mədəni haqlar da insanların himayə etməsi zəruri olan həqiqi azadlıqlarından qaynaqlanır. İkincisi olaraq, siyasi rejim belə bir siyasət və planlaşdırmanın gerçəkləşdirilib tətbiq edilməsinə imkan verməz. Demokratiyada iqtidar və təşkilatlanmış müxalifət vardır. Sürəkliliyi lazım bilinən bir mədəniyyət siyasətinin belə bir rejimdə tətbiq edilməsi şansının az olduğu düşünülə bilir.

Nəhayət, deyilir ki, azadlığın müqəddəsliyi təməlinə söykənən bir sistemdə öz-özlüyündən, ünsürlərinin bir-biri üzərindəki təsir və təzyiqləri, bunların hər hansı sintezi ilə formalaşan mədəniyyət ünsürlərinə müdaxilə, demokratiyanın məntiq və fəlsəfəsi ilə tutarlı deyildir (109, s.9).

Ancaq "mədəniyyət sahəsində heç bir zaman mütləq bir liberalizm hökm sürməmişdir. Məsələn, təhsildə daima müəyyən qədər düzənləmə olmuşdur. Liberal dövlət, cəmiyyətin davamı üçün lazımlı gördüyü davranış modellərini təyin etmişdir. O halda yaradıcı müdaxilə azad demokratik cəmiyyət quruluşu içərisində, planlaşdırılmış bir müəssisələr çərçivəsi daxilinə soxula bilir" (109, s.9).

YUNESKO mütəxəssislərinin fikrincə, birgə qəbul edilən və yuxarıdakı açıqlanmaya söykənmək şərtilə mövzuya bir az daha aydınlıq gətirmək, beləcə mümkün olmaqdadır. Belə olunca hər cəmiyyət sözügedən "tarixi inkişafı xüsusundakı şüur"u sağlam tutmaq, bunu hər yöndən gələn hücumlara qarşı qorumaq məcburiyyətindədir. Demokratik cəmiyyətin bu məcburiyyətdən kənarda qala bildiyini qəbul etmək isə əsla mümkün deyildir. Əslində liberal və eyni zamanda plansız, yəni rəhbərsiz, lidersiz bir demokratik cəmiyyət bir çox təhlükələrlə qarşı-qarşıyadır. Bu təhlükələrdən ən başda gələni də, heç şübhəsiz cəmiyyətin bir mədəniyyət hücumuna və bunun nəticəsində mədəniyyət aşınmasına məruz qalmasıdır. Ziyalıların mədəniyyət həyatına ilham verə bilmədiyi, onu yönləndirə bilmədiyi cəmiyyətlər yabançı mədəniyyət istilasına açıq hala gəlməkdədir (109, s.10).

Liberal cəmiyyətdə mədəniyyətin demokratikləşməsi qaçılmaz bir nəticədir. Ancaq demokratikləşmə, böyük kütlə cəmiyyətlarində bölgəçiliyə doğru olan meyli gücləndirməkdə, belə bir hal isə, mədəniyyətün əsas mahiyyətini meydana gətirən ortaq tarixi inkişaf şüuruna zərər verməkdədir. Bütün bu hallar liberal kütlə cəmiyyətlərində çox böyük zərərlər meydana gətirə biləcək mədəniyyət böhranlarını ortaya çıxara bilməkdədir.

Bu etibarla mədəniyyətin planlaşdırılması cəmiyyətin həm varlığını davam etdirə bilməsi və həm də demokratik xarakterlərini qoruyaraq diktatorluq bəlasından məsun qala bilməsi üçün zorunludur.

Bu halda dövlətin mədəniyyət sahəsindəki fəaliyyətlərinin qayəsi cəmiyyətin maddi rifahı ilə mənəvi mirası arasında paralel bir inkişafı təmin etmək, elmi inkişaf və irəliləməyi o cəmiyyətin insanları üçün bir daxili zənginlik qaynağı halına gətirərək, keçmişin uzantısı olan indiki zamanın tarixi davamlılığını təmin etməkdədir (109, s.11).

İnkişaf planlarının məqsədi, sosial münasibətlərdə müəyyən bir tənzimləməni təmin etmək surətilə, cəmiyyətin bütününü içinə alan tarazlı bir inkişafdır. Cəmiyyətin bütününü əhatə edən, yəni iqtisadi, sosial və mədəniyyət yönlərindən inkişaf səyləri iqtisadi olduğu qədər bəşəri mülahizələrlə istiqamətləndirilməkdədir. Texniki tərəqqi və bərabərində gətirdiyi yeniliklər səbəbilə, iqtisadi inkişaf, bu kimi inkişafların qəbul edilmə şəklinə, həm istehsalçı, həm də istehlakçı olaraq fərdin bu sürətli və davamlı dəyişməyə göstərdiyi uyğunluğa bağlıdır. Dəyişikliklə ayaqlaşmaq və bunu qəbul etmək gücü, mədəniyyət standartlarını yüksəltmək və kollektiv həyatı tənzimləyəcək dəyərləri mühafizə etmək və ya yaratmaq surətilə təmin edilir. Dəyər sistemləri də, əks etdirdikləri mədəniyyətlər kimi, mənəvi ünsürlərdəki pozulma səbəbilə çökər. Modern dünyada bu pozulmaya səbəb olan amillərin ən mühümlərindən biri "dəyər yükü" daşımadığı zənn edilən, ancaq gerçəkdə dəyər ilə yüklü olan yeni texnologiyanın yayılmasıdır. Yenə önəmli bir başqa amil də çağdaş informasiya kommunikasiyalarının həddindən artıq inkişafı səbəbindən kainatın ruhi-psixoloji həcminin kiçilməsidir (109, s.12).

Günümüzdəki inkişaf əsasında yaranmış sonsuz bəşəri və əxlaqi problemlərə məhdud və texniki həll variantları aranmaqdadır. Beləcə də, xüsusilə insan hərəkətinin təməlində vasitənin qayədən, şəklin mahiyyətdən ayrı olmayacağı unudulmaqdadır.

Mədəniyyətün inkişaf etdirilməsi ilə əlaqəli fəaliyyətlər, bu gün hələ təlim-tərbiyə ilə əlaqəsini davam etdirməklə bərabər, xüsusi bir xarakter və qəti məqsədlər daşımaqdadır. Bu durumun üç dəyişik amillər qrupunun təsiri ilə ortaya çıxdığı

bilinməkdədir: Texniki amillər, sosial-iqtisadi amillər və sosioloji amillər (109, s.13).

– Texniki amillər – elektro-mexanik produksiyalar (musiqi və dramın qeyd və və filmlər yolu ilə çoxaldılması), radio və televiziya kimi texnik kütlə informasiya vasitələrinin inkişafı (bu yeni texnologiya milyonlarca insana istənildiyi qədər materialı qısa zamanda çatdırmaqdadır).

– Sosial-iqtisadi amillər – həyat səviyyəsinin yavaş-yavaş və təhsil səviyyəsinin ümumi olaraq yüksəlməsi nəticəsində daha ümumi bir kütləyə xitab olaraq açıqlanması.

– sosioloji amillər – sürətli şəhərləşmə hadisəsi və bir insanın özünə ayıra biləcəyi boş zamanın artmış olması (ənənəvi məhəlli mədəniyyətlərindən qopmuş olanların daha yaxşı bir sosial həyata olan ehtiyaclarının artması, yeni davranış örnəklərinin müəyyən edilməsi və gözlədiklərinin dəyişməsi – daxili turizm, adi ticarət, zərərli əyləncə fəaliyyətlərinin önlənməsi məcburiyyəti və b.).

Mədəniyyət planlaşdırıılması mədəniyyət vasitələrinin kəmiyyətcə nəzərə alınması ilə başlayır. Kəmiyyətcə təsbit edilməsi gərəkli olan mədəniyyətin özü deyil, imkan və qaynaqlarıdır.

Milli mədəniyyət siyasətinə kantitatif ünsürün daxil edilməsindən öncə bəzi ümumi tədqiqatların aparılmasına ehtiyac vardır. Bunların başında, mövcud mədəniyyət imkanları, bunları istifadə edənlər, bunlara xidmət (109, s.14) edən personal və fəaliyyət sahələrinə aid statistik məlumatları toplamaq gəlir. Bu çalışmalar aşağıda müəyyən edilənlərlə nəzərdə tutulur:

– İctimai dairələr, digər qurumlar və insanlar tərəfindən istifadə edilən mədəniyyət xərcləmələri;

– Əhalinin müxtəlif qruplarının mədəniyyət davranış modelləri

– ümumi inkişafın bir parçası olaraq mədəni inkişafın səviyyəsini təsbit etmək üçün gərəkli görülən araşdırmalar (109, s.14).

Ancaq bu sahədə heç əskiksiz statistik məlumat toplamaq çox çətin və ağır bir çalışma olduğundan, mütəxəssislər ümumilikdə bəzi qərarlara gəlmək, mədəniyyət siyasətini təyin etmək və nəticələri tədqiq etmək kimi daha məhdud məqsədlər üçün məlumat əldə etməyin daha yararlı olduğuna inanmaqdadırlar. Bunun üçün sektorlar arası bilgilərin tutarlı olması məqsədi ilə metodları standartlaşdırmaq lazım gəlir.

Bu bilgilərin, mədəniyyət siyasətinin təsbitində faydalı ola bilməsi üçün, ölkənin mədəniyyət potensialını təsbit etməyə və hər hansı bir tarixdə mədəniyyət baxımından tərəqqi səviyyəsini təxmin etməyə yardımçı olması lazım gəlir.

Bu bilgilərlə yanaşı mədəniyyət həyatında coğrafi amilin yeri; çeşidli mədəniyyət tiplərinin inkişaf təmayüllərinin analizi (ənənəvi mədəniyyəti, məhəlli mədəniyyətlər kimi); bu fərqli tiplər arasında mümkün təhlillər, hələ ki, üzə çıxmamış mədəniyyət ehtiyaclarının təhlili və müxtəlif sosial qruplararası mədəniyyət mübadiləsi kimi araşdırmalara da ehtiyac vardır. (109, s.15).

Mədəniyyət siyasəti xalqın intellektual potensialının, mənəvi sağlamlığı və rifahını yüksəltməyə xidmət edən siyasətdir. O, həm də millətin mənəvi, sosial-iqtisadi inkişafının möhkəmlənməsini təmin edir. Mədəniyyət siyasətinin vəzifəsi maddi və mənəvi sərvətlərin istehsalı, qorunması və inkişaf etdirilməsi, eyni zamanda gələcək nəsillərə ötürülməsi üçün şəraitin yaradılmasıdır. Cəmiyyətdə insanların qeyri-bərabər mədəni inkişafını və mədəni deletantlığı aradan qaldırmaq üçün inkişaf etmiş ölkələrdə mədəniyyət siyasəti koordinasiya və tənzimlənmə yolu ilə elmi surətdə təşkil edilir və idarəetmə əsasında həyata keçirilir. Belə olan halda cəmiyyətin müxtəlif sosial qruplarının və xalqın marağını əks etdirən balanslı mədəni inkişafa nail olmaq olar.

Mədəniyyət siyasəti hüquqi təminata arxalanmalı və hadisələri qabaqlamağı bacarmalıdır. İnkişaf etmiş demokratik ölkələrdə mədəniyyət siyasətinə xalqın sosial vəziyyətinin və rifahının yüksəlməsi kimi baxılır. Çünki bu siyasətin əsas məqsədi insan həyatının qorunub saxlanması və yaxşılaşdırılmasına xidmət etməkdir.

Müstəqil Azərbaycan Respublikası üçün mədəniyyət siyasəti yeni olsa da daha uğurlu aparılmaqdadır. Bunun üçün müstəqil Azərbaycan Dövlətinin mədəniyyət siyasəti üzrə prioritetləri müəyyənləşdirmişdir və bu sahədə ardıcıl və inadlı fəaliyyət proqramı vardır. Hazırki vəziyyətdə mədəniyyət siyasətinin prioritetləri ümumiləşdirilmiş halda aşağıdakı kimi müəyyənləşdirilir: Mədəni irsin mühafizəsi və mənəvi dəyərlərin inkişaf etdirilməsi; Yeni Qanunların qəbul edilməsi; Beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması; Bələdiyyələrin və Qeyri-Hökumət Təşkilatlarının təşkili və fəaliyyətlərinin genişləndirilməsi; Sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi.

Heydər Əliyevin tətbiq etdiyi mədəniyyət siyasəti bildirdiyimiz əsas və prinsiplər baxımından hədəfi göstərməkdədir: onun mədəniyyət siyasətinin ana xətti millilikdir. Bu siyasət əsasında mədəniyyətün öz mənliyini, kimliyini qorumasına dayanır; ancaq mədəniyyət özü öz varlığı və inkişafı içində zənginləşməyə, başqa mədəniyyətlərin nailiyyətlərindən öz strukturuna uyğun olanları almağa açıq, amma təqlidçilikdən uzaqdır. Heydər Əliyev milli səviyyə və tariximizlə mütənasib bir mədəniyyət siyasəti yürüdürdü. Onun tövsiyələrinə görə mədəniyyətün zəmini millətin səciyyəsidir (109, s.21).

Bu gün ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mədəniyyət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın son illərdəki nailiyyətləri içərisində ən çox izlənilən inkişaf mədəniyyət sahəsinə aiddir. Burada da dövlət siyasəti olan üç prinsipə lazımi şəkildə riayət olunub. Birincisi, Azərbaycanın tarixən yaranmış mədəniyyəti mühafizə olunur. Tarixi abidələrin,

ədəbiyyatın, çoxlu sayda muzeylərin bərpası, ölkənin qədim mənəvi mədəniyyətinin mühafizə olunması, yəni muğamın, rəssamlığın və s. maddi-mənəvi nə sərvətlərimiz varsa, onların qorunması üçün çox böyük işlər görülüb. Eyni zamanda, biz bu mədəniyyətimizi dünyaya çatdırırıq, eləcə də dünyanın böyük mədəniyyətini mənimsəyirik. Yəni vaxtilə yaradılmış nə varsa, bu gün onlar qorunur. Mədəniyyətimizin yaddaşsızlaşma problemi yoxdur. İkincisi odur ki, tədricən mədəniyyət və incəsənət müasir şəraitə uyğunlaşdırılır. Yəni həm mədəniyyətin, incəsənətin yaradılması prosesi, həm də onun istehlakı prosesi müasir standartlara uyğunlaşdırılır. Artıq Azərbaycanda mədəniyyət siyasətinin normal həyata keçirilməsi üçün prodüsser institutu formalaşmaqdadır. Bu mənada, on il əvvəl qəbul edilmiş mədəniyyət haqqında qanunu əsaslı şəkildə müzakirə edirik ki, günün tələblərinə uyğun dəyişdirək. Üçüncü prinsip ondan ibarətdir ki, ölkədə mədəniyyət və incəsənət adamına xüsusi qayğı göstərilir. Yəni, mədəniyyəti və incəsənəti yaradan ayrı-ayrı böyük istedadlardır və bu istedadlara qayğı göstərilməlidir. Bu məqsədlə, böyük sənətkarların yubileyləri keçirilir, onlara maddi köməklik göstərilir. Prezident təqaüdü və digər dövlət mükafatları təqdim edilir. 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində böyük sənətkarlarımızı itirirdiksə, onlar xaricə işləməyə gedirdilərsə, artıq belə problem yoxdur. Qeyd etdiyim mədəniyyət siyasətinin əsası ümumilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir (139; 161).

## Milli mədəniyyətin mahiyyəti və onun mühafizəsinə dair dövlət tədbirləri

Bir millәti meydana gətirən ünsürlər içərisində mədəniyyət birliyi və bütünlüyü ən önəmli yer tutur. Bir millətin milli mədəniyyəti, onun milli tarixindən qopub gələn bir ata mirası, maddi varlığının, inanc və əxlaq ucalığının, dil və sənət zənginliyinin, ənənələrinin əmələ gətirdiyi ortaq bir dəyərlər məcmusudur. Bir millətin var ola bilməsi, dünya millətlərinə varlığını qəbul etdirə bilməsi üçün, elm işığı altında mədəniyyət dəyərlərini incələməsi, şüurlu olaraq yaşadıb inkişaf etdirməsi zəruridir (117, s.36-37).

Bu gün inkişaf etmiş bir millət ola bilmə üçün elmdə, texnikada, iqtisadiyyatda və tenologiyada irəliləmiş və güclənmiş olmaq lazımdır. İqtisadi və texnologiya sahəsində millətlərin həyatında mədəniyyət və sənətin nə qədər önəmli bir yer tutduğu, iqtisadi və texniki sahələrdə inkişaf etmiş cəmiyyətlərdə açıqca görülməkdədir. Bu cəmiyyətlərdə milli mədəniyyəti yaşatma, araşdırma və dəyərləndirmə yolunda müxtəlif cəhdlər edilməkdə, çeşidli tədbirlər görülməkdədir (117, s.38).

Milli mədəniyyətimizin təməlləri – ailə, məktəb, milli dil, milli tarix, etnoqrafiya, folklor, incəsənət, sənət, teatr, opera, kitabxanalar, coğrafiya və iqtisad, insanlıq və müasir mədəniyyət, dünyagörüşü, vətən sevgisi, əski Azərbaycan əsərləri və muzeylər, nəşr, təbliğat və təşviqat kimi maddi-mənəvi və mədəni dəyər, fəaliyyət və strukturlara bağlıdır (117, s.38).

Bir millətin mədəniyyət həyatını yaşatmaq və inkişaf etdirmək üçün hüdudları aydın cızılmış, inkanları gerçəkliklə hesablanmış bir ümumi mədəniyyət siyasətinə ehtiyac vardır. “Şərqin qapalı, mistik və sxolastik mədəniyyət anlayışından ağlın hökmranlığına söykənən qərb anlayışına keçiş durumunda olan millətimizin lazım duyduğu milli bir mədəniyyət siyasətinin üç xüsusiyyəti əhatə etməsi zəruridir:

1. Milli mədəniyyət şüurunu oyandırmaq və oyanıq tutmaq.

2. Mədəniyyət dəyəri olan əsərləri qorumaq, yaşatmaq, tanıtmaq, sevdirmək.

3. Hər cür yol və üsuldan faydalanaraq mədəniyyətdə yaradıcılığı təşviq etmək" (117, s.39).

Bu söylənilənləri xülasə etsək, mədəniyyət siyasəti üç yöndə inkişaf etdirilməlidir: "Milli mədəniyyət şüuru və imkanı daima canlı tutulmalıdır; Mədəniyyət əsərlərimiz ən geniş anlamıyla qorunmalı, tədqiq edilməli, dünyaya və özümüzə anladılmalıdır; Millətimizin mədəniyyət yaradıcılığı sistemli olaraq təşviq edilməlidir" (117, s.40).

Türkiyə Cümhuriyyətinin milli mədəniyyət siyasətinin ana hədəflərini müəyyənləşdirən Milli mədəniyyət Özəl İxtisas Komissiyası, milli mədəniyyət planlaşdırması xüsusundakı çalışmalarının başlanğıcında milli mədəniyyət siyasətinin hədəfləri və təməl prinsipləri üzərində durmuş və aşağıdakı əsaslar üzərində məqsədəmüvafiq nəticəyə gəlmişdir: "Milli mədəniyyət siyasətinin ana hədəfi ilə Türkiyənin milli hədəfi arasında uyğunluğun olması şərtdir. Məlum olduğu kimi Türkiyənin milli hədəfi ölkədaxili sabitliyin və ölkə xaricində sülhün gerçəkləşdirilib davam etdirilməsi, müstəqillik, azadlıq, ədalət və haqq bərabərliyinə söykənən bir dünya düzəni içərisində milli birliyi, bütünlüyü və Türkiyə vətəndaşlarının qanunlarla təminat altında olan haqq və hürriyyətlərini qoruyaraq həyat şərtlərini demokratik düzən içərisində və sosial ədalət prinsiplərinə uyğun olaraq inkişaf etdirmək surətilə Türkiyə xalqını müasir mədəniyyət səviyyəsinə yüksəltməkdir. Bunun üçün gənc nəsillər fiziki və ruhi cəhətdən saglam, vətənpərvər, millətimizi ucaltmağı məqsəd bilən və demokratiyaya inanclı və milli ideallara bağlı bir zehniyyətlə yetişdirilməlidirlər. Bunun üçün Türkiyə mədəniyyət və sənəti dəyərləndirilməli, araşdırılmalı və bütün

ölkə səthində yayılaraq bütün cəmiyyətin bu mədəniyyətdən yararlanması və tanıması təmin edilməlidir" (109, s.26).

Eynilə Azərbaycan milli mədəniyyət siyasəti ilə uyğun gələn bu nümunədə göstərildiyi kimi mədəniyyət siyasəti də müəyyənləşdirilən milli siyasət hədəflərinə uyğunlaşdırılmış şəkildə formalaşdırılmalı və buna müvafiq mahiyyət qazanmalıdır. Bu mənada nəzərdən qaçırılmamalıdır ki, dil mədəniyyətün ən böyük, ən başda gələn ünsürüdür. Dil, mədəniyyətün ilk və təməl ünsürü olduğu kimi, digər mədəniyyət ünsürlərinin də başlıca daşıyıcısı və xəzinəsi durumundadır. Bu etibarla millət hər şeydən öncə və daha çox dil birliyi deməkdir (109, s.27-28).

Bir dilin qorunması, ancaq gələcək nəsillərə ötürülməsilə mümkün olur. Gələcək nəsillərə ötürülməyən dil, ölü dillər arasına girər. Dili ötürmənin başlıca yolu, milli təlim-tərbiyə və təhsildir. Azərbaycan dili öz strukturu daxilində və bütün zənginliyi ilə yeni nəsillərə öyrədilməlidir. Bunun üçün bütün dərs kitabları yaşayan, canlı, təbii və zəngin Azərbaycan dili ilə yazılmalı, müəllimlər bu Azərbaycan dili ilə təchiz edilməli, dərs kitablarında klassikləşmiş mətnlər yer tutmalı, təhsilə yardımçı olaraq ayrıca texniki mərkəz və vasitələrdən seçilmiş ədəbi əsərlərə qədər başqa əlavə dəstəklərdən faydalanmaq yoluna əhəmiyyət verilməlidir (109, s.31).

Ümumilikdə isə milli mədəniyyətimizin mühafizəsi və inkişafı üçün mədəniyyət siyasətində diqqət yetiriləcək sahələri belə təsnifatlaşdırmaq olar: Mədəniyyət və ədəbiyyat; Mədəniyyət və Azərbaycan musiqisi; Mədəniyyət, Azərbaycan memarlığı və məkan tənzimləməsi; Mədəniyyət və Azərbaycan tamaşa sənətləri; Mədəniyyət və Azərbaycan incəsənəti; Mədəniyyət və folklor; Mədəniyyət və kütləvi informasiya vasitələri; Mədəniyyət mühafizə və təbliğat müəssisələri; Mədəniyyət və Azərbaycanın xarici münasibətləri (Azərbaycan mədəniyyət ünsürlərinin təsbiti və mühafizəsi, ölkə daxilində-ölkə xaricində; Milli mədəniyyətin ölkə xaricində tanıdılması və yayılma-

sı); Mədəniyyət və tarix; Sosial araşdırmalar və mədəniyyət dəyişmələri; Mədəniyyət, din və əxlaq (109, s.32-39).

XX əsr Azərbaycan xalqının həyatında silinməz izlər qoymuşdur. Əslində yüzililklərin, minililklərin qovuşuğunda yeni bir Azərbaycn təşəkkül tapmışdır. Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, son yüzililkdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil ictimai-siyasi intibah yolunu tutmuşdur. Bu gün hər bir azərbaycanlı fəxr edə bilər ki, ata-babalarımız olduqca qısa bir zaman ərzində kütləvi savadsızlığa son qoymuş, vətənimiz bütün insanların oxuyub yazmağı bacaran savadlılar diyarına çevrilmişdir. Vətənpərvər və təəssübkeş ziyalılarımızın vətəndaş fəallığı sayəsində Şərqdə ilk teatr, ilk opera, ilk kino və s. Azərbaycanda meydana gəlmişdir. Kütləvi sürətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur.

Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm də mənəvi qələbəsi olmuşdur. Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə, iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir.

70 ililk ayrılıqdan sonra əldə etdiyimiz müstəqilliyin yenidən özümüzə qayıtdığı son 17 ildə minililklərdən süzülüb gələn mədəniyyətmizin doğma qaynaqlara söykənməklə ümumbəşəri dəyərlərə qovuşması üçün əsl mənada münbit zəmin təmin edilmişdir. Söykökə qayıdış, millətimizin özünü dərk etməsi, xalqımızın və dövlətimizin sivil bəşəriyyətin birgəyaşayış qaydalırını mənimsəmək prosesi gücləndikcə Azərbaycan xalqının malik olduğu ümumbəşəri mədəniyyətin təntənəsi daha aydın nəzərə çarpır. Müstəqilliyimizin on yeddi ili ərzində mədəniyyət işçilərimizin qazandığı uğurlar, bütövlükdə mədəni həyatımız belə deməyə əsas verir ki, XX əsr həqiqətən tarixə mədəniyyətimizin təntənəsi ilə daxil olmuşdur.

Əlbəttə müstəqil dövlət qumraq, onu daha da möhkəmləndirib inkişaf etdirmək üçün hərtərəfli, savadlı, mədəni şəxsiyyətin yetişdirilib tərbiyə edilməsi də mühüm amillərdəndir. Çünki şəxsiyyətin hərtərəfli inkişafı, cəmiyyətdə insanlar arasında onun rolu, tutduğu mövqe onun dünyagörüşünü formalaşdırır, siyasi, mədəni, əxlaqi və mənəvi, bədii və estetik inkişafı bütün dövrlərdə, zamanlarda olduğu kimi, müasir şəraitdə, müstəqililik illərində də aktuallıq kəsb edir.

Hazırda şəxsiyyətin inkişafı problemi bir çox aspektlərdən tədqiq edilir, sosioloji tədqiqatlar aparılır. Əsərlər, monaqrafiyalar, dissertasiyalar yazılır və s. işlər aparılır. Ümumiyyətlə, müstəqillik həyatımızın mühüm tərkib hissəsi kimi bütün insanları düşündürən məşğul edən vacib bir məsələyə çevrilir (58, s.5).

Azərbaycan mədəniyyəti bu gün milli-mənəvi qaynaqlardan qidalanaraq, özünün böyük hamisi Prezident Heydər Əliyevin qoyduğu ənənə, qayğı və diqqət sayəsində daha möhtəşəm bir dövrünü yaşayır. Müstəqililik dövründə tarixi şəxsiyyətlərimizin, milli mədəniyyətimizin görkəmli nümayəndələrinin, habelə ayrı-ayrı milli bayramların və tarixi günlərin qeyd edilməsi ilə bağlı tədbirlər dövlət başçınsı İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla keçirilir. Bu sənədlərə əsasən görkəmli şəxsiyyətlərimizirn adı ilə, tarixi hadisələrlə bağl yeni küçələr, meydanlar salınır, muzeylər açılır, müxtəlif nəşrlər çap olunur, sənət ustalarımız ölkəmizin ali mükafatları ilə təltif edilir, onların istedadı, mədəniyyətimizin iknişafında xüsusi yeri və rolu bir daha təsdiq olunur.

Ən sevindirici olanı budur ki, Azərbaycan artıq öz mədəniyyəti, ədəbiyyatı və incəsənəti, şəxsiyyətləri ilə dünya meridianlarına çıxır. Prezidentmizin müvafiq fərmanları ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyinin Fransada, Türkiyədə, İraqda, İranda və Rusiyada, dünya şöhrəti Bülbülün 100 illik yubileyinin Moskvada, Tbilisidə və Ankarada, məşhur bəstəkar Qara

Qarayevin 80-illik yubileyinin Moskvada və Parisd,ə görkəmli müğənni Rəşid Behbudovun 80 illik yubileyinin Moskvada, türk xalqlarının Ana kitabı olan "Kitabi-dədə Qorqud" dastanının 1300 illik yubileyinin Parisdə – YUNESKO-nun iqaqmətgahında yüksək səviyyədə qeyd olunması müstəqil Azərbaycanı yenidən dünyaya tanıtmışdır (79, № 11, s.3).

Hazırda Azərbaycanda 27 professional teatr, 50-dək xalq teatrı və özəl teatr, 13 konsert təşkilatı fəaliyyət göstərir. Mədəniyyət nazirliyi sistemində 2 böyük simfonik orkestr, xalq çalğı alətləri orkestri, bir neçə kamera və estrada kollektivləri var. Ölkəmiz üçün ən çətin məqamlarda prezidentimizin köməyi ilə Opera və Balet Teatrının, balet truppasının, Azərbaycan Dövlət Simfonik Orkestrinin, Dövlət Xor kapellasının, Dövlət rəqs Ansamblının qorunub saxlanması, üstəlik də yeni Xalq Çalğı Alətləri Orkestrinin yaradılması həqiqətən əsl incəsənətə vurğunluq, bu yolda fədakarlıq nümunələri sayıla bilər.

Bu gün mədəniyyət nazirliyi sistemində 3275 klub müəssisəsi, 4313 kitabxana, 61 mədəniyyət və istirahət parkı fəaliyyət göstərir. Xalqımızın mənəvi sərvətlərinin qoruyucusu, tədqiqatçısı və təbliğatçısı olan 137 muzey, 27 dövlət şəkil qalereyası və 2 bədii sərgi salonunda əsrin nailiyyətləri öz əksini tapır. Bakı Musiqi Akademiyası, Milli Konservatoriya, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Xoreqrafiya məktəbi, musiqi, rəssamlıq texnikumları, 300-ə yaxın uşaq musiqi, rəssamlıq və incəsənət məktəbləri Azərbaycan mədəniyyətinin gələcəyini yaşadacaq kadrlar hazırlayır.

Yaxın və uzaq xariclə mədəni əlaqələr əsrin son illərində geniş vüsət almışdır. Hər il Azərbaycan mədəniyyəti və incəsənəti dünyanın bir çox ölkələrində geniş nümayiş etdirilir və özünə hər dəfə çoxlu təzə pərəstişkarlar tapır.

Ölkə daxilində keçirilən yubiley tədbirləri dövlət başçısının mədəniyyətimizin tərəqqisinə göstərdiyi daim qayğını əks etdirir. Təkcə 2000 – 2006-cı illərdə keçirilmiş yubileylər və

dövlət əhəmiyyətli tədbirlər sadalanarsa, uzun bir siyahı alınar. Bu siyahıya Cəlil Məmədquluzadə, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Səməd Vurğunun anadan olduğu tarixi günlər, Əbdürrəhim bəy Haqverdiyevin 125 ililyi, tərzən Qurban Primovun 120 illiyi, xalq artistləri Möhsün Sənani və Məmmədəli Vəlixanlının 100 illiyi, Leyla Bədirbəylinin 80 illiyi, görkəmli rejissor və pedaqoq Tofiq Kazımovun 75 illiyi, pianoçu Vaqif Mustafazadənin 60 illiyi və öz həyatlarını milli mədəniyyətimizin inkişafına həsr etmiş, adlarını çəkə bilmədiyimiz onlarca digər sənətkarımızın yubileyləri daxildir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə üç ildən bir keçirilən Bülbül adına Vokalçıların Beynəlxalq Müsabiqəsi artıq dünya musiqiçilərinin nüfuzlu yarışına çevrilmişdir. 2000-ci ildə keçirilən ikinci müsabiqədə 11 ölkədən (Rusiya, Ukrayna, Gürcüstan, Türkiyə, Moldova, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Çin, Koreya respublikası və Azərbaycan) 78 vokalçı iştirak etmişdir.

Xalqımızın əsrlərlə qoyurub saxlaya bildiyi mədəni dəyərlər sırasında qüdrətli teatr sənəti öz qabaqcıl mövqeyini müstəqilik illərində daha da inkişaf etdirmişdir. Hər il teatr müəssisələrində 100-110 yeni tamaşa hazırlanır. Yeni dramaturqlar, teatrlar üçün işləyən yeni bəstəkarlar, rəssamlar yetişir. Teatr kollektivlərinin xarici dövlətlərdə, o cümlədən Moskvada, Sankt-Peterburqda, Ufada, Tiflisdə, Rustavidə, Ankarada, İstanbulda, İzmirdə, Bayburtda, Tehranda, Dehlidə, Havanada, Praqada, Sofiyada keçirilən beynəlxalq festivallarda uğurlu iştirakı, xarici ölkələrə uzun müddətli qastrol səfərləri sübut edir ki, milli teatrımız inkişaf və tərəqqi yolundadır (69, 25 dekabr 1991).

Ötən on illər ərzində respublikamıza, onun incəsənət dünyasına maraq daha da artmış, planetin ən müxtəlif ölkələrinin tanınmış kollektivləri və ifaçıları qastrol proqramları ilə Azərbaycana gəlmiş, milli səhnəmizin ustad sənətkarları ilə birlikdə çıxış etmişlər. Onların arasında dünya şöhrətli musiqiçi

Mstislav Rostropoviç, Belçikalı dirijor Fan Beyli, Amerika pianoçusu Nikolay Suk, dünyaca məşhur balet ustası Maya Plisetskaya, İqor Moiseyevin rəhbərlik etdiyi Rusiya Dövlət rəqs Ansamblı, Fransa və Türkiyənin teatr sənəti ustaları, Çin xalq Respublikasının rəqs kollektivi və bir çox başqa sənət xadimlərinin və kollektivlərinin adlarına rast gəlmək olar.

Bənzərsiz xanəndə Alim Qasımov muğam sənətinin inkişafındakı xidmətlərinə görə 1999-cu ildə YUNESKO Milli Şurasının ali mükafatına və "Pikasso-miro" qızıl medalına layiq görülmüşdür (79, № 11, s.3).

Fransada böyük bəstəkar Gektor Berliozun vətəni la Kont Sent-Andre şəhərində 7-ci Beynəlxalq musiqi Festivalında Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestrinin böyük qələbəsi ölkəimzdə böyük iftixar hissi ilə qarşılandı. Festivalda orkestrin ifasında digər sənət korifeyləri ilə yanaşı Üzeyir Hacıbəyovun, Fikrət Əmirovun, Qara Qarayevin də əsərləri səslənmişdir. Tamaşaçılar onların musiqisinə heyran qaldıqlarını bildirmiş, bu böyük sənəit koriyefeylərimizi dünyanın musiqi dühaları ilə müqayisə etmişdilər. O günlərin unudulmaz hadisələrindən biri də xalq artistimiz Fərhad Bədəlbəylinin Fransanın yüksək "Şevalye" Ədəbiyyat və İncəsənət ordeni ilə təltif edilməsi olmuşdu. Yeri gəlmişkən, möhtərəm Prezidentimizin şəxsi göstərişi ilə Azərbaycan nümayəndə heyəti üçün xüsusi təyyarə ayrılmışdı ki, Fransanın kütləvi informasiya vasitələrində bu hadisə Heydər Əliyevin mədəniyyətə böyük qayğısı kimi qiymətləndirilmişdi.

Azərbaycan incəsənət ustalarının "Ekspo-2000" Ümumdünya sərgisində bənzərsiz çıxışları müstəqil dövlətimizin mədəniyyət sahəsində əldə etdiyi uğurlardan sayıla bilər. Almaniyanın Hannover şəhərində Azərbaycan dövlət kamera Orkestrinin, Dövlət rəqs Ansamblının, dövlət mahnı teatrının, Azərbaycanın tanınmış sənətkarları, xalq artistləri Qərinə Kərimovanın, Təranə Muradovanın, əməkdar artistlər Əli Əsgərovun, Bilal Əliyevin, Gülyaz və Gülyanaq Məmmədo-

valaların çıxışları mədəniyyətimizə yeni şöhrət gətirdi. Planetin 174 ölkəsinin və 34 beynəlxalq təşkilatının təmsil olunduğu sərginin Baş Komissarlığı Azərbaycan Respublikasının mədəniyyət proqramını ayrıca qeyd edərək, dünya ölkələri arasında ən güclü bədii proqramlar sırasına daxil etdi. Sərginin təşkilat Komitəsi mədəniyyət xadimlərimizin istedadını xüsusi sertifaktla qiymətləndirdi.

Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar Sarayı və Qız Qalası daxil olmaqla içəri Şəhər Dövlət Tarix Memarlıq Komleksi YUNESKO-nun “Dünya mədəni irs siyahısı”na daxil edilmişdir. Bu respublika rəhbərliyinin qayğısı ilə əhatə olunan Azərbaycan elminin və mədəniyyətinin böyük uğuru və qələbəsi sayıla bilər.

Son illərdə mədəniyyətimizi təbliğ etmək məqsədilə respublika mədəniyyət nazirliyi xətti ilə Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı şirkətlərlə müştərək layihələr də yaradılır və həyata keçirilir. Bakıda yerləşən “ASIR” şirkəti ilə birgə fəaliyyət nəticəsində 2000-ci ildə Azərbaycan musiqisi incilərindən ibarət “Küləklər və Odlar musiqisi” adlı nəfis tərtibatlı kompleks disk buraxılmışdır. Musiqinin müxtəlif janrlarını əhatə edən bu diskdə ilk dəfə olaraq milli mədəniyyətimizin görkəmli nümayəndələri – Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Rauf Hacıyev, Tofiq Quliyev, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Rafiq Babayev, Zeynəb Xanlarova, Fərhad Bədəlbəyli, Fidan Qasımova, Xuraman Qasımova, Alim Qasımov və başqa sənətkarın yaradıcılığı bir yerdə sənətsevərlərə təqdim olunur.

Türkiyənin “Kaspian trans KO İNK” firması ilə Mədəniyyət nazirliyi üç ildir ki, “xalq yaradıcılığı-milli sərvətlər” devizi ilə xalq sənətkarlarının əl işlərinə respublika baxış müsabiqəsini keçirir. Məqsəd ənənəvi el sənətlərini yaşatmaq, əhalini bu sahəyə cəlb etmək, istedadlı xalq sənətkarlarını aşkara çıxarmaqdır. Artıq bu sahədə müəyyən

işlər görülmüşdür. 2000-ci ildə keçirilən üçüncü müsabiqənin yekun turunda respublikamızın 52 şəhər və rayonundan 569 nəfər el sənətkarı iştirak etmişdir.

Prezidentmizin bəstəkar, yazıçı, şair, aktyor, müğənni, rəssam əməyinə verdiyi yüksək qiymət sayəsində ölkəmizin yüzlərlə sənətçisi xalq şairi, xalq yazıçısı, əməkdar mədəniyyət işçisi kimi müxtəlif fəxri adlara layiq görülmüşdür. Heydər Əliyev yolunu davam etdirən prezident sənətkarların qayğılarına hər zaman diqqətlə yanaşmış, onlara maddi və mənəvi dayaq olmuşdur. O, ölkənin maliyyə çətinlikləri ilə üz-üzə durduğu bir vaxtda da sənət insanlarından öz qayğısını əsirgəmədi. Həyatını milli mədəniyyətimizin və elmimizin inkişafına, istedadını və ömrünü xalqına həsr edən 60 nəfərə yaxın görkəmli mədəniyyət və incəsənət xadimi Prezidentimiz tərəfindən təsis edilmiş xüsusi təqaüdə layiq görüldü.

Son illər ərzində Prezident fərmanı ilə dövlət simfonik orkestrinin və Azərbaycan dövlət Xor Kapellasının əmək haqlarının dörd dəfə, balet artsitlərinin əmək haqlarının isə beş dəfə atırılması bu sahədə çalışanlara əsl dövlət qayğısı olmuşdur. Prezidentmizin bu kollektivlərin malik olduğu imici saxlamaq, onların milli sərvət kimi nüfuzunu artırmaq, qorumaq, təbliğ və inkişaf etdirmək sahəsindəki qayğısı bu fərmanlarla bir daha təsdiq edilmişdir.

Bütün deyilənlər bir daha təsdiq edir ki, qədim tarixi və mədəniyyəti olan Azərbaycan xalqı yenidən müstəqillik qazandıqdan sonra dünya birliyində öz layiqli yerini tutmaq üçün digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı sahəsində də çox uğurlu addımlar atmışdır və XXI əsrin ilk onilliklərində dünyanın ən mədəni millətlərindən birinə çevrilmək əzmindədir.

## Mədəniyyətlərarası kommunikasiyalar və mədəni ünsiyyət

Müasir dövrdə kommunikativ proseslərin bir sosio-mədəni fenomen kimi öyrənilməsi hələ SSRİ dövründə, daha dəqiq desək XX əsrin 70-ci illərində başlamışdır. Bu hər şeydən əvvəl fəlsəfi-sosioloji və kulturoloji tədqiqatlara ictimai tələbatın təzahürü ilə özünü göstərmişdir. Buna görə kommunikativ fəaliyyətin müxtəlif forma və növlərini öyrənilməsi zəruri olmuşdur. Hələ sosializm dövründə kommunikativ fəaliyyət dərin, məqsədyönlü xarakter daşıyırdı. O həmin cəmiyyətin mənəvi-mədəni tələbatlarının ödənilməsində müəyyən funksiyanı yerinə yetirirdi. Bu funksiyaya eyni zamanda ünsiyyətə tələbat prinsipi də daxil idi.

Mənəvi-mədəni ünsiyyət mənəvi həyatın reallaşmasının zəruri üsuludur. Kommunikasiya prosesində ünsiyyətdə olan insanlar qarşılıqlı olaraq bir-birini zənginləşdirirlər. Kommunikativ proseslərdə iştirak etmə qabiliyyəti təkcə insanların fərdi mənəvi həyatının emosional zənginliyindən və intellektual səviyyəsindən asılı deyildir. Həmin iştirakın effektivliyi ilə əməli xarakteri çox halda cəmiyyətin mənəvi iqlimini müəyyən edir. Bəzi insanlar mənəvi ünsiyyətin rəngarəngliyində mədəni həyatın zənginliyinin əsasını görürlər.

Cəmiyyət inkişaf etdikcə insanlar istehsalın, cəmiyyətin və dövlət işlərinin idarə edilməsinə daha çox cəlb edilirlər. Getdikcə onların sosial-siyasi fəaliyyəti yüksəlir. Mənəvi-mədəni kommunikasiya prosesində təkcə biliklər, qabaqcıl ideyalar deyil, dostluq, məsuliyyət, hörmət, insanlara yaxşı hisslər arzulaması və s. kimi insani hisslər də nəsildən-nəsilə ötürülür. Bu xüsusiyyətlər xalqlara, millətlərin etnik mənşəyindən asılı olmayaraq, demək olar ki, bütün insanları aiddir. Bu ümumi təsəvvürlər, ümumi maraq və vəzifələrlə yanaşı, mühüm inkişaf yollarına da aiddir. Müxtəlif cəmiyyətlər çərçivəçində insanlar arasındakı mənəvi kontaktlar

müxtəlif obrazlı formalarda və ən müxtəlif istiqamətlərdə həyata keçirilir. Onun genişlənməsinin və dərinləşməsinin əsasında ümumbəşərilik durur. Qeyd etdiyimiz sosio-mədəni konteksdə ən mühüm rollardan birini də ünsiyyətin tərbiyəvi funksiyası oynayır. Normal insan tipinin formalaşması, əxlaqi, mənəvi, estetik cəhətdən zəngin olan insanların yetişdirilməsi bütün zamanələrdə və bütün cəmiyyətlərdə arzu edilən iş olmuşdur. Yeni qlobal şüurun və ümumbəşəri əxlaqı prinsip və normaların fəal təsdiqi bütün bunların kompleks problemləri sırasına daxildir. Eyni zamanda mənəvi-mədəni kommunikasiya prosesində həmin prinsiplərin reallaşmasına şərait yaranır.

Müasir insanlar arasındakı ünsiyyət, səciyyəvi cizgilərinin formalaşması şərtlərini ön plana çıxarır. İndi informasiya mübadiləsi, kütləvi kommunikasiya vasitələri, xüsusilə mətbuat-radio, kino, televiziyanın köməyi ilə aparılır. Bunun özü də social-siyasi idarəçiliyin mühüm alətinə çevrilir. Onlar eyni zamanda insanların şüuruna və davranışına ən güclü vasitələrə çevrilə bilir. Kütləvi kommunikasiya vasitələri sosio-mədəni informasiyaların yayılmasına deyil, eyni zamanda mövcud rəylərin sabitləşməsinə kömək edir və insanın sosiallaşması prosesinə mühüm təsir göstərir.

Yuxarıda qeyd edilən faktorların məcmuyu kommunikativ proseslərin alimlər tərəfindən tədqiqatını ön plana çıxarır və bu məsələ ətrafında filosofların, sosioloqların, estetiklərin, kulturoloqların əməkdaşlığını gücləndirir. Bu sahədə xeyli uğurlar əldə edilmişdir. Son illərdə Azərbaycanda A.Şükürov, Q.Əliyev, Ə.Tağıyev və M.Bayramovun M.Qəniyev və E.Məmmədovun, F.Məmmədovun, Ələkbər Məmmədovun, S.Dadaşovanın, M.Süleymanlının, İ.Hüseynovun, M.Manafovanın və başqalarının əsərləri çap olunmuşdur. Bu kitablarda mədəniyyətşünaslığın müxtəlif problemləri ilə yanaşı mədəniyyət sistemlərində kommunikasiya məsələləri də nəzərdən keçirilmişdir.

Bəşər cəmiyyəti mürəkkəb, özünü nizamlayan sistem kimi məlumdur. Cəmiyyətin inkişafı prosesində mədəniyyət tədqiqatın sosial "kodu" kimi çıxış edir. Semiotika sahəsində hardasa məlumat ("mətn") kimi nəzərdən keçirilir. Burada insanın təbiətlə qarşılıqlı münasibəti, əlaqəsi və digər insanların və cəmiyyətlərin bir-birilə əlaqəsi, mövcud biliyin nəsildən-nəsilə ötürülməsi nəticəsində yaranır. Mədəniyyətin ən mühüm vəzifəsi şəxsiyyətin formalaşmasıdır. Elə buna görə də şəxsiyyətin sosiallaşması prosesində əhəmiyyətli rolu mədəniyyətin kommunikativ funksiyası oynayır. Bununla bərabər mədəniyyətin aparıcı funksiyaları sırasında informasiya və idarəçilik vəzifələri də durur. Ümumiyyətlə, müasir ədəbiyyatda kommunikasiya və "ünsiyyət" anlayışları hərtərəfli nəzərdən keçirilmişdir. Həmin anlayışların mürəkkəbliyi və kifayət qədər işlənməsi hərtərəfli nisbətdə öyrənilməmişdir. Bir sıra alimlər "sosial ünsiyyət" və "sosial kommunikasiya" anlayışlarını eyniləşdirirlər. V.S.Yumatovun fikrincə belə eyniləşdirmə ancaq o halda mümkündür ki, sosial informasiya haqqında söhbət ictimai orqanizmin atributiv xassəsindən, keyfiyyətindən gedir. Sosial kommunikasiyadan söhbət gedərsə, nəzərə almaq lazımdır ki, onun təbiəti insanların informasiya münasibətlərində işarə, məna əlaqələri olması ilə müəyyən edilir. Başqa cür desək, ön plana semantik, semiotika, sintaksisin sosial unsiyyəti problemləri çıxır. "Ünsiyyət" və "kommunikasiya" anlayışlarının genezisi eyni deyildir (137, s.45).

Yuxarıdakı fikri əvvəlcə V.S.Korabeynikov (138, s.142) təsdiq etmişdir. Həmin fikri V.S.Yumatov da qeyd edirdi. O, mənəvi ünsiyyətin unikal vasitəsi kimi dilin fuknsional rolunu yüksək qiymətləndirirdi. Nitqin sayəsində cəmiyyətdə təkcə sosial informasiya ötürülmür, eyni zamanda material qəbul edilir, şifrə edilir və toplanırdı. Lakin V.S.Yumatov mənəvi (sosial) ünsiyyətin spesifikasının tərifini vermir. Onun digər anlayışlarda qarşılıqlı təsiri təhlil edilmirdi. O yalnız sxem ilə

məhdudlaşırdı. O bu sxemi aşağıdakı 4 əsas maddə ilə təklif edirdi:

1. Sosial ünsiyyət (gerçək ünsiyyət-bazis forması) – insanların birgə predmet maddi fəaliyyəti prosesində onların tarixən formalaşan maddi münasibətlərinin məcmuyudur.

2. İnsanların maddi qarşılıqlı təsirinin alternativ xassəsi və cəmiyyətdə sosial informasiyanın toplanması və yayılması prosesidir.

3. Sosial cəhətdən yığılmış informasiyanın mübadiləsinə tələbat, insanlar arasında informasiya əlaqəsi müvafiq işarə sistemini yaradır. Bu da mənəvi-intellektual ünsiyyətin sosial kommunikativ formalaşmasında iştirak edir.

4. Öz növbəsində informasiya, kommunikativ hadisələrin aktuallaşması prosesi və cəmiyyətin mənəvi həyatındakı proseslərin müxtəlif vasitələrilə çıxış edir. Xüsusilə tarixi inkişafın müəyyən mərhələsində kütləvi informasiya və təbliğat vasitələri (kütləvi kommunikasiya) çıxış edir (137, s.48).

Təəssüf ki, bu müddəalar komminikasiyanın müxtəlif forma və növlərinin xarakteristikası ilə əlaqədar olsa da, Yumatovda ancaq tezis səviyyəsində qalmışdır. Halbuki hər bir tezisin ətraflı şərhə ehtiyacı vardır. Bunun irəli sürdüyü müddəalar təsdiq olunmurdu.

V.M.Sonovninə görə ünsiyyət prosesi yalnız informasiya mübadiləsi ilə məhdudlaşdırılmalıdır. O, özündə qarşılıqlı təsiri və fəaliyyət aktını birləşdirir. Çünki onlar çoxsaylı möhkəm saplarla maddi ictimai münasibətlərlə bağlıdır (136, s.57).

Subyektiv-obyektiv münasibətlər sistemlərində fəaliyyətin müəyyən növünü nəzərdən keçirən ünsiyyət subyektin fəal istiqamətli fəaliyyətidir. M.S.Kaqan qeyd edir ki, ünsiyyət, fəaliyyət dörd növündən birini çıxmaq şərtilə üçündən fərqlənir. Bunlar təzədən dəyişmə, dərk edilmə və dəyər istiqamətli növlərdir. O subyekti obyektə deyil, digər subyektlərə və yaxud özünə yönəltmişdir (120, s.63). Bu zaman ünsiyyətin təşəbbüskarı kimi çıxış edənlər:

1. şəxsiyyətdir;
2. sosial qrupdur;
3. bütövlükdə cəmiyyətdir.

Cəmiyyətin morfoloji bölgüsü planında üç əsas forma – a) şəxsiyyətlərarası, b) qruplararası, v) sosiumarası – çıxış edir (20, s.44).

Kaqanın irəli sürdüyü müddəalar Uledov tərəfindən tamamlanmışdır. O, qeyd edirdi ki, mənəvi ünsiyyət sosial subyektlər arasında fəallığın təzahürüdür. Bu sosial subyektlər arasında fəallığın təzahürüdür. Bu fəallığın hansı formada təzahür edilməsinə baxmayaraq, o bütün hallarda fəaliyyət kimi səciyyələndirilir (138, s.97). Bununla bərabər Uledov mənəvi ünsiyyət haqqında verdiyi tərifə düzəlişlər verməyin zəruriliyini qeyd edirdi. Uledov mənəvi ünsiyyət dedikdə, onu mənəvi həyatın mövcudluğu üsulu kimi nəzərdən keçirirdi. Mənəvi həyatla mənəvi istehsalı əlaqələndirirdi. Eyni zamanda mənəvi vəziyyətin təzahürünün bütün formalarını və mənəvi tələbatları mənəvi istehsalla əlaqələndirirdi. Sosioloji planda Uledov öz fikrini davam etdirərək deyirdi ki, təhlil prosesində ünsiyyət fəaliyyət kimi tələbatın ödənilməsinə xidmət edirdi. Deməli, bunlarda kommunikativ fəaliyyəit qarşılıqlı əlaqədə göstərilirdi. Müəllif haqlı olaraq qeyd edirdi ki, kommunikasiya termininin məzmunu hələ indiyə qədər də tam aydınlaşdırılmamışdır. Orada əks olunan məzmun ünsiyyətə aid edilir. Çox vaxt kommunikasiya anlayışı altında, xüsusilə, kütləvi kommunikasiya adı altında kütləvi informasiya vasitələri fəaliyyəti başa düşülür. Kütləvi ünsiyyətin səviyyəsi üçün səciyyəvi cəhət, sayca çoxluq nəzərdə tutulsa da adətən auditoriyada azsaylı qruplar toplaşır və qarşılıqlı təsir vasitələrindən istifadə edir (138, s.97-98). Y.M.Lotmanın ardınca nəzər kommunikasiya (ünsiyyət) təhlilinə A.A.Brudnı və N.N.Talizinə yaxınlaşır (120, s.117). Məlumatın semantikasından asılı olaraq "siqnallar" (informasiyalar) ya dəqiq şəkildə məlum ünvana yönəldilir, ya da bəzi ehtimallara

görə çoxluğa yönəlir. Bu istiqamətlənmənin xarakteri kommunikativ proseslərin iki yerə bölünməyinin əsası olur. Brudnının rəyinə görə kommunikal proses məlumatı ciddi şəkildə müəyyənləşdirir. Lotmanın və onun məktəbinin ideyalarından çıxış edərək N.N.Talizinə ünsiyyətin iki növünü fərqləndirir:

1. İnformasiyanın həcmini saxlamaqla ötürülməyə istiqamətlənmiş ünsiyyət (ünsiyyət mədəniyyətin təkrar istehsalı mexanizmi kimi).

2. İnformasiyanın artımına istiqamət götürən ünsiyyət, burada şəxsiyyətin inkişafına aid olan yeni mətnlərin yaradılması (ünsiyyət mədəniyyətin inkişafı mexanizmi kimi).

Sonuncu prinsip fərdin fəal mövqeyini nəzərdə tutur. Bu da öz növbəsində yeni qabiliyyətlərin aşkar edilməsini və formalaşmasını üzə çıxarır. Onlar fəal surətdə yeni ünsiyyət formalarına aid edilir. Ümumiyətlə şəxsiyyətin formalaşması prosesi normativ şəxsiyyətin, fərdin sosial həyatının müəyyənlikləriIə və sosial fəaliyyətin şəxsi xarakteristikaları arasınlakı zidliyyətləri müəyyənləşdirir. Həmin vasitəçi faktor rolunu mətn oynayır. Burada mətn yeni yaradılan kimi eyni zamanda fəaliyyətin normativ və şəxsi aspektini təqdim edir. Keçid dövrü cəmiyyətinin mənəvi mədəniyyətinin formalaşması milli və ideoloji sahənin böyük yaradıcı vəzifəsidir. Mədəniyyət sahəsində köklü dəyişikliklər keçid dövrünün ümumi qanunauyğunluqlarından biridir. Yeni cəmiyyət quruculuğu prosesində, mənəvi mədəniyyətin köklü surətdə dəyişilməsi, təhsilin və gənc nəslin mədəni səviyyəsinin ümumi yüksəlişi insanların mənafeyini ifadə edən və ona xidmət göstərən yeni dövr mədəniyyətinin yaranması böyük dəyişikliklərlə müşayiət olunur. Keçid dövründə mövcud quruluşun mahiyyətinə aid olan mədəniyyət təşəkkül tapır. Bu mədəniyyət istər öz məzmununa, istərsə də insanların həyatında oynadığı pola görə əvvəlki cəmiyyətin mədəniyyətindən əsaslı surətdə fərqlənir. Sosializm dövründə sosializmə məxsus yalnız sosialist mədəniyyətinin ünsürləri təşəkkül

tapırdı. Bütövlükdə mədəniyyətin inkişafı hakim partiyanın, daha dəqiq desək, Kommunist Partiyasının mahiyyəti ilə müəyyən olunurdu. Həmin cəmiyyətdə mənəvi sərvətlərdən hakim partiya öz məqsədləri üçün istifadə edirdi. Onlar elm və texnikanı istehsala tətbiq edərkən ideologiyanın üstünlüklərini sübut etməyə çalışırdı. Bu cəmiyyətdə ədəbiyyat və incəsənət vasitələri sosializm münasibətlərini möhkəmləndirməyə, insanların şüuruna mövcud qaydalarla təsir etməyə və bu prinsiplərin dəyişilməz olması barədə fikir aşılamağa cəhd göstərirdilər. Doğrudur, məcburi təhsil sistemi işləyirdi. Amma sənətkarların fəaliyyətində azadlığa məhdudiyyət qoyulurdu ki, bu da qəbuledilməzdi.

Siyasi hakimiyyət elmin, texnikanın, incəsənətin, nailiyyətlərinin xalqın xidmətinə verilməsini dönə-dönə qeyd edirdi. Elə buna görə də Lenin yazırdı: "keçmişdə insanın bütün zəkası, onun bütün dühası yalnız bəzilərinə texnika və mədəniyyətin bütün nailiyyətlərini vermək, başqalarını isə ən zəruri şeydən, maarif və inkişafdan məhrum etmək üçün yaradırdı. İndi isə texnikanın bütün xarüqələri, mədəniyyətin bütün nailiyyətləri ümumxalq malı olacaqdır və bundan sonra insan zəkası və dühası heç bir zaman zorakılıq vasitəsinə çevriləmyəcəkdir" (138, s.491).

Sovet dövlətinin qurulduğu ilk illərində mədəniyyət, incəsənət, təhsil inkişaf etmişdir. Sonrakı illərdə bu siyasiləşdi və kommunist partiyasının siyasətini təbliğat vasitəsinə çevirdi. Onlar iddia edirdilər ki, bizim mədəniyyət sosial baxımdan spesifik mədəniyyətidir. Əslində isə mədəniyyət bütün əvvəlki inkişafın ən yaxşı nailiyyətini əks etdirir və bununla bərabər bəşəriyyətin mənəvi tərəqqisində, sosial mədəniyyətində "proletkultçular" adlananlar da sovet hakimiyyətinin ilk illərində sosialist mədəniyyətinin yaradılması yolları haqqındakı məsələlərdə yanlış, onlara yararlı baxışları müdafiə edirdilər. Həmin ifrat qanadın müəllifləri özlərinin proletar mənafeyinin qızğın tərəfdarları kimi qələmə verərək təsdiq

edirdilər ki, fəhlə sinfi keçmişin mədəni irsindən və vaxtilə burjuaziyaya qulluq göstərən köhnə mütəxəssislərin xidmətindən imtina etməli, yenidən özünün proletar mədəniyyətini yaratmalıdır. Təkrarsız milli-mənəvi sərvətimiz təbiətlə yanaşı, həm də milli mənəviyyat tarixdir. O, keçmişə yox, bugünə məxsusdur. O, özü dünənə çevriləndə yox, biz onu unudanda tarix "ölür". Tarixin əbədi-mənəvi diriliyi onun fasiləsiz əxlaqi tərbiyə və təsir qaynağı olmasındadır. Mədəniyyət tarixindən istifadə etməyən xalq, yeraltı sərvətindən, təbii enerji ehtiyatlarından, meşələrindən və çaylarından istifadə etməyən xalq kimi köməksiz və yoxsuldur. Yalnız yaddaşını itirən millət torpağını, folklorunu, mədəniyyətini və dilini də itirə bilir.

XX əsr bəşər sivilizasiyası tarixində ən dinamik dövrdür və o mədəniyyətin bütün xarakterində əks olunmuşdur.

XXI əsrin ümumi xarakteristikasını elmin, bəşəri intellektualın təntənəsi, sosial fırtınalar, sarsıntılar, paradokslar, epoxalar təşkil edir. Müasir cəmiyyət insana məhəbbətlə əlaqədar olan yüksək ideallar formalaşdıraraq bərabərlik, azadlıq, demokratiya, eyni zamanda həmin dəyərlərin sadələşdirilmiş anlamını yaratmışdır. Buna görə də müasir mədəniyyətdə baş verənlər çoxtərəfliliyi doğurmuşdur.

Ümumiyyətlə, XX əsr sosial sistemlərin, dinamik mədəni proseslərin sürətlə dəyişməsinin göstəricisi olan dövrdür. Buna görə də həmin dövrün inkişafının birmənalı olmayan qiymətinin yaranmasına imkan vermişdir (120, s.7).

Vaxtilə T.D.Lısenko, ümumiyytələ, genetikanı inkar və rədd etdiyi kimi, mədəniyyət, o cümlədən ədəbiyyatda da irsiliyi dananlar olmuşdur. Mənəvi yaddaşa vulqar qəsdlər, xüsusən, otuzuncu illər üçün səciyyəvi olmuşdur. Lakin artıq elmi və ideoloji demokratizmin bu günkü zirvəsində keçmiş irsə münasibət məsələsini də müasir "tam həqiqət" konsepsiyasından kənarda qoymaq olmaz. "Bütöv həqiqət" isə artıq tabu və veto əxlaqı "olar" və "olmaz" qrafiki, qadağan və

yasaq dozası tanımır. Aşkarlığa hüdud qoymaq axar çaya, yayılan işığa sərhəd qoymaq kimi şeydir. Həm bu günün, həm də dünənin tarix, mədəniyyət və ədəbiyyat xəritəsində bizim üçün mənimsənilməmiş qitə, qütb və ada qalmamalıdır. Haqsız kultlaşanla yanaşı haqsız unudulan barədə də tarixi ədaləti bərpa etmək zərurəti yaranırdı. "Tanrı", "Bütöv həqiqət" konsepsiyası klassik irsə münasibətin bir sıra məsələlərinə də yenidən qayıtmağı, ideoloji təcrübənin müasir dərsləri ilə ona bəzi təhlillər verməyi tələbini irəli sürürdü. Bu gün müasir dünyada, hətta qərb mədəniyyətində, ədəbiyyatında və ədəbiyyatşünaslığında Azərbaycanla bağlı hər şeyi öyrənmək mümkündür. Ona marksist münasibəti ifadə etmək insanları təmin etmirdi. "Öz" spesifik ədəbiyyat və mətbuatımızı isə hələ də planlı, sistemli, sanballı elmi-nəzəri tədqiqatların predmeti edə bilməmişik. Bu gün Azərbaycan mədəniyyəti və ədəbiyyat elminin nəzəri və metodoloji hazırlığı elə səviyyədədir ki, o, milli bədii inkişafın bütün mürəkkəbliyinə, obyektiv-tarixi təzad və paradokslarına ən yüksək, professional münasibət ifadə edə bilər və etməlidir. Əgər biz hətta indi də bütünlükdə kapitalist, yaxud feodal dövrünün mədəniyyətini yox, ancaq onlardakı mütərəqqi əxlaqi və inqilabi demokratik hadisələri öyrənsək, əvvələn hadisələri bütün ziddiyyətləri və mürəkkəbliyi ilə öyrənmək tələbini irəli sürən müasir-metodoloji müddəanı təhrif edərik. İkincisi, tarixi-ədəbi inkişafın mənzərəsi barədə təsəvvürün tamlığına xələl gətirərik. Orta əsrlərin və yeni dövrün ayrı-ayrı elə mühüm bədii, ictimai, fəlsəfi, dini, ideoloji hadisələri, faktları, abidələri, simaları var ki, onlar ən əsaslı, prinsipial səriştəli təhlilə layiq olduğu halda, biz onlara münasibətdə səthi, qeyri-professional təftiş və elementar inkar məqamlarından irəli gedə bilməmişik.

Müasir obyektiv tərəqqi prosesinin bütöv bir qütbünü atmaq, bəzi alimlər üçün bu tərəqqi hərəkatını bütün mürəkkəbliyi və ziddiyyətləri ilə dərk və təhlil eləməkdən asan görünmüşdür.

XX əsr mədəniyyətində üç dövrü ayırmaq zərurəti mövcuddur.

1) XX əsrin əvvəli – 1917, Azərbaycanda 1917 – 1918-ci illər – sosial-siyasi proseslərin kəskin dinamikası, bədii-mədəni üslub və formaların, fəlsəfi konsepsiyaların yaranması.

2) 20–30-cı illər – köklü yenidənqurma, mədəni dinamikanın bəzi sabitlik əlamətlərinin yaranması, mədəniyyətin yeni-sosialist formasının meydana gəlməsi.

3) müharibədən sonrakı dövr, daha dəqiq desək, bütün XX əsrin ikinci yarısını əhatə edən, regional mədəniyyətin formalaşması mərhələsi, milli özünüdərkin yüksəlişi, beynəlxalq hərəkatın yaranması, texnikanın sürətli inkişafı, yeni, qabaqcıl texnologiyanın meydana çıxması, ərazilərin fəal surətdə mənimsənilməsi, elmin istehslalla çulğaşması, elmi paradiqmaların bir-birini əvəzləməsi, yeni dünyagörüşün formalaşması dövrü.

Ümumiyyətlə, mədəniyyət elə bir sistemdir ki, burada hər şey qarşılıqlı əlaqədədir, həm də hər şey qarşılıqlı formada müəyyən edilmişdir (123, s.157).

Şəxsiyyətə və istedada münasibətdə sosial mənsubiyyəti meyar kimi mütləqləşdirən doğmalardan təmizləmədən, əbədi və ümumbəşəri sərvətlərə münasibətdə fərqliliyin elmi prinsiplərini mexaniki, nadan və vulqar tətbiqlərdən birdəfəlik xilas etmədən ədəbi prosesin istedad sərvəti, tarixi təcrübəsi və perspektiv gələcəyi barədə doğru qənaətlərə gəlmək mümkün olmaz. Halbuki məhz bu baxımdan, xüsusən, mədəni keçmişə münasibətdə sosial ədalətin pozulmasına çoxlu misallar gətirmək olar. Milli-mədəni xidmətlər və humanist əxlaqi dəyərlər estafetinə kimin hədiyyəsi və əlavəsi daha artıq olmuşdur. Bizim bayağı, burokrat, vulqar "sosioloqun", ədəbiyyatşünasın, kustar, empirik, fanatik ehkamçının, yoxsa ayrı-ayrı kapitalstin və ya milyoner Tağıyevin? Dini-tarixi, milli-mədəni abidələri uçuran, əski əlifbalı kitabları yandıran məlum, tanış demaqoqun (ateistin klassik 37-ci və 60-cı illər

tipinin), yoxsa xeyirxah və dindar Tereza ananın? Rüşvətxor, tüfeyli oğru "milyoner"in, yoxsa puluna gimnaziya açan, qız məktəbi təsis edən, teatr tikdirən, tələbələr oxudan savadsız, "vəzifəsiz", "zəhmətkeş" Tağıyev kimi milyonerin?

Ümumiyyətlə, ən səmimi dindar üzərində də simasız, beyinsiz ateistin kultu varsa, əgər yalnız quru, çılpaq "milyonçu" sözünə və adına görə başqa bütün dəlil, meyar və məntiqlər bir tərəfə atılırsa, günah yenə ədəbi, ictimai elmi, fəlsəfi fikirdədir.

Sözün həqiqi mənasında biz tarixi də, təbiəti də müasirliyin mahiyyətini səhvsiz dərk edə bilməsək, xeyrinə səfərbər etməsək, onu getdikcə daha fəal şəkildə bədii- fəlsəfi düşüncə, əxlaqi-estetik tərbiyə silahı etməsək, tarix yalnız keçmişin, təbiət isə yalnız öz ən qorxusuz, texnikasız, intellektsiz sakinlərinin sərvəti olaraq qalar. Məlum olduğu kimi, tarix-mədəniyyət əxlaq tərbiyə edir. Məhz yüz illərin mənəvi dərsi və təcrübəsi kimi formalaşan milli, tarixi, ictimai əxlaq həyatın özündə real əməli işə, yüz minlərdə hərəkətə gətirən qüvvətə çevrilə bilər. Mənəvi müqəddəsliyə çevrilə bilməyəndə isə insanı da şüar kimi havadan, damdan və bacadan asmağa ehtiyac əmələ gəlir. Ümumiyyətlə, yüzlərlə əsrdir ki, əcdadların əxlaqı bizim ən yaxşı xəlqi və milli ənənələrdə yaşayır; onlar ritorika ilə, şüarla yaranmadığı üçün şüarla da ötəri, konyuktur plakatla da məhv olmur.

Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdrlar. "Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir.

Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" (47, 3 fevral, 1996).

Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və çıxışlarında həmişə qürurla söylənilirdi. Heydər Əliyev göstərirdi ki, milli mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Son illərdə xalqımızın milli adət-ənənələrinə biganəlik halları haqlı olaraq xalqın, xüsusilə ziyalıların etirazına səbəb olmuşdur. Bu etiraz və narazılıqlar haqqında mətbuatda çıxışlar milli-mənəvi dəyərləri qorumaq çağırışına çevrildiyi bir vaxtda mərhum prezident, ümummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi: "Fürsətdən istifadə edərək, bir-iki məsələyə toxunmaq istəyirəm. O da ondan ibarətdir ki, biz öz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün iistiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli, mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik" (15, 13 avqust 2001).

Burada birinci növbədə torpaq, dil, ocaq, əcdad, övlad və qadınla bağlı şərəf, ləyaqət və namus ənənələrini nəzərdə tutmaq lazımdır. Müasir Avropada və Amerikada bir sıra xalqların milli faciə, qlobal fəlakət kimi yaşadığı müasir əxlaqi demoqrafik bəlalara (ailə-nikah-nəsil böhranı, alkoqol-narkoman-nihilizm sərxoşluğu ilə bağlı ifratlara) qarşı ən yaxşı sipər təbii-insani, milli tarixi sərvətləri müqəddəs tutub qorumaq, gələcək üçün də zədəsiz saxlamaq olmazdımı?!

Təəssüf ki, belə sərvətlərə münasibətdə də həssaslığın lazımi səviyyədə olmadığı hallara rast gəlirik.

Hələ Şekspirin Hamleti üsyan edirdi ki, dünya mənəvi məhvərdən çıxıb və zamanlar arasında bağlar qırılıb. İndi isə dünyanı sözün hərfi mənasında zamansızlıq oxundan, orbitindən çıxmaq qorxusu gözləyir. Lakin əbədi Hamlet sualı indiki ədəbi planetin qarşısında heç də əvvəlki intibah kəskinliyi ilə durmur. Niyə? Yoxsa diriliyə və əxlaqa mənəvi qəsdi obrazlı təfəkkür fiziki qəsddən – dünyanı gözləyən total və qlobal intihardan daha həssas, gərgin "qısa" bədii dalğada qəbul edir? Yox! Məsələ heç də intihara "mənəvi" və "fiziki" mahiyyət baxımından verilən təsnifdə və çeşiddə deyil bəlkə – "qlobal" ilə fərdi, "total" ilə milli arasında nisbətin bunlardan birincisinin xeyrinə kəskin şəkildə dəyişməsindədir. Çünki, klassik bədii düha və fəlsəfi düşüncə üçün fərdi və milli faciəni ümumiləşdirib ümumbəşəri fəlakət, qlobal mənəvi sarsıntı səviyyəsində yaşamaq daha təbii və qanunauyğun idi, nəinki planeti və bəşəri bütünlükdə gözləyən heçlik və yoxluq perspektivini bilavasitə şəxsi və "milli" müsibət kimi qavramaq və fərdiləşdirmək! Hətta bir neçə cahanı "mən"ə sığdırmaq və "mən"i cahana sığdırmaq yox: "məndə sığar iki cahan, mən bu cahana sığmazam!" Çünki fərdə "sığışanda" hətta cahan da "mən"ləşir, fərdiləşir və milliləşir, cahana "sığanda", cahanla bərabərləşəndə isə "mən" məhz "mən" kimi təkrarsızlığını, insani fərdiliyini, milli məxsusiliyini itirir, təkrarlaşaraq, mütləqləşərək mücərədləşir və simasızlaşır (60, s.98).

Zaman insanın yaşadığı dövr kimi olmalıdır. Əgər belə olmursa, zaman insandan geri qalırsa, ya qabağa gedirsə böhran başlanır. İnsan bütün hallarda zamanı geridə qoymalıdır.

Şəxsiyyətin əxlaq, fərdi günah və cavabdehliyi yox olanda isə faciənin də bəşəri fəlsəfi-vicdani məzmunu öz sərhədlərini itirir. Zamanın bağları qırılıb və onun yenidən bərpası ayrı-ayrı qəhrəmanlara tapşırılır. Bu intibah nikbinliyi idi! Bugünkü

obrazlı, bədii-fəlsəfi fikir isə nüvə faciəsinin xilaskar Hamletini hələ ki, axtarır. Öz fərdi və milli sərhədləri ilə birilkdə "mən" öz fəallıq və enerji mənbəyini (nüvəsini) də itirir, belə fərdi və milli nüvədən məhrum "mən"lərdən yaranan kütlə, axın, təbəqədə mənəvi dayağı və təməli həmişə özündə deyil, uzaqda arayır.

Deməli, bəşər tarixində "intibah" anlayışı həmişə insani, fərdi və milli amillərin vəhdətindən yaranır və yalnız onların qanad açması üçün üfüq və meydan yarananda mahiyyətcə humanist və insani olan tarixi epoxalarda gerçəkləşir.

Elmi ədəbiyyatda ünsiyyətin sosial-kulturoloji mahiyyətinə, onun tərbiyə prosesindəki roluna aid müxtəlif fikirlər mövcuddur. Ünsiyyətin elmi əsasları əsasən sovet mədəniyyətşünaslığında və pedaqoji elmdə kommunist metodologiyası aspektində şərh edilmişdir. Çox zamanlar bu tədqiqatlar reallıqlardan uzaq olmuş, sosialist həyat tərzini kommunist prinsiplərinə uyğunlaşdırılmalı idi. Kommunist cəmiyyəti ünsiyyətin azad mühiti kimi göstərilmiş, ancaq ünsiyyətin milli və dini formaları, onun tarixi ənənəviliyə söykənməsi haqqında elmi tədqiqat və təhlillər aparılmamışdır. Tarixi, fəlsəfi aspektlərdə aparılan bir sıra tədqiqatlardan aydın olur ki, insanın təkamül prosesi onun ünsiyyət mədəniyyətindən də asılı olmuşdur. Ünsiyyət mədəniyyəti bu və ya digər formada ictimai şüurun başqa sahələrinə də təsir etmiş, dünyagörüşünün, yaradıcılıq vərdişlərinin, əxlaqi cəhətlərin, davranış normalarının, ictimai mühiti əhatə edən bütün amillərin hərəkət və inkişaf rüşeyminə çevrilmişdir.

Ünsiyyət bəşər tarixinin ilkin dövrlərində instinkt xarakteri daşıdığı haldı, yeni əmək formalarının yaranması, eləcə də kainatın dərk olunmasına olan maraq insan zehniyyatını dərinləşdirmiş, onu fizioloji varlıqdan ictimai varlığa çevrilmişdir. Bunun da nəticəsində şüurlu ünsiyyətin təkamül prosesi başlanmışdır (103, s.152).

"İnsan – "təbiətin şah əsəridir", "dünyanın əşrəfidir", "hər şeyin meyarıdır" – bu intibah tərifləri bütün cəmiyyət formasiyalarında sosial-iqtisadi və ictimai tərəqqinin dəyişməz göstəricisi olaraq qalır. Bu baxımdan insan amili və milli amil müasir yenidənqurmada da sosial-iqtisadi, ictimai-mənəvi və ideoloji fəaliyyətin bütün sahələrdə məhək daşı misalındadır. Bu gün milli dilə və mədəniyyətə, tarixi-mədəni keçmişə, təbii-ekoloji mühitin gələcəyi, taleyi probleminə inqilabi-radikal dönüş, müstəsna həssaslıq və maraq təsadüfi deyil. Bütünlükdə bəşərin taleyi, diriliyi məsələsi bu problemlərin hər üçündən, onların əsl demokratik, humanist-beynəlmiləl mövqedən qoyuluşundan və həllindən bilavasitə asılıdır.

Təbiətin, şəxsiyyətin və milliyyətin ekologiyası ilə bağlı qayğılar indii qarşıda vahid, monolit, kompleks proqram şəklində durur, onları bir-birindən ayırmaq mümkün də deyil və belə ayırma cəhdi getdikcə daha da çətinləşir. Çünki təbiətdə, sivilizasiyada hər şey sanki getdikcə güclənən zəncir, əlaqəli, qapalı dövrə təşkil edir. Təbiətin bəkarətinə hər hansı qəsd dərhal insanın özünün fikri kamilliyi əleyhinə çevrilir, irsiyyətdə əks olunur: indii dünyada hər onuncu uşaq xəstə və şikəst doğulur, əqlin qüsuru ilə fitri-fizioloji qüsur və əksinə, şərtlənmişdir.

Pozulan genetik kod (mənəviyyatsız şüur-qrafoman alim, vəzifə sahibi, məmur, hərbi xadim) təbiətin ahəngliyini pozur və pozulan təbii harmoniya öz növbəsində irsi proqramda, gendə təbii inkişafı dayandırır (60, s.99-100).

Ümumiyyətlə, insan, cəmiyyətin təkamülü haqqında əldə olunmuş bilgilərə görə, üst paleolit dövründən başlayaraq ünsiyyətin mahiyyəti şüurun təkamülünə uyğun şəkildə tərəqqiyə çatmışdır. Adi ünsiyyət get-gedə məqsədli ünsiyyət həddinə çatmışdır. Müasir insanları əhatə edən aləmin mürəkkəbliyinin dərki prosesində ünsiyyətin də yeni keyfiyyətləri və xassələri meydana çıxmışdır. Əvvəllər ov üzərində qalib gəlmək, düşməni məğlub etmək üçün birləşən

insanlar sonralar daha mürəkkəb və məqsədli ünsiyyət formalarından istifadə etmək məcburiyyəti qarşısında qalmışlar. İnsan təbiət və cəmiyyətdə hökm sürən qanunauyğunluqların mahiyyətini, onların hər birinin özünəməxsusluğunu müəyyənləşdirmək həvəsi göstərir. Həqiqətən də bu müəyyənləşdirmək istəyi insan təfəkküründə bir sıra inanclar, vərdişlər, adət və ənənələr yaratmışdır.

İnsan təbiət və cəmiyyətindəki hadisələrlə daha yaxın və emosional ünsiyyət yaratdıqca, onun baxışları və zövqü də müəyyən istiqamətdə formalaşır, onu yeniləşməyə doğru irəliləməyə məcbur edir.

Azərbaycan xalqının mənəvi-mədəni varlığı, milli taleyi və tarixi ilə bağlı bir sıra ciddi əyintilər məhz vulqar sosiologizm, şəxsiyyətə sitayiş və durğunluq dövründə baş verib. Təkcə bunu qeyd etmək lazımdır ki, iki on il müddətində xalqın əlifbası iki dəfə dəyişib. Nəticədə təkcə torpağımız yox, əlifbamız da iki yerə parçalanıb. İki əlifbalı bir xalq! – dünyada ikinci belə fenomen yoxdur. Əlifba bizim təkcə tariximizi yox, coğrafiyamızı da iki yerə bölüb. Yalnız indiimzlə keçmişimiz arasında yox, Şimalımızla Cənubumuz arasında da Araza çevrilib.

Hansının – əlifbanın, yoxsa Arazın? Biri daha zirehli keçilməz sərhədlə ayırdığı barədə hətta mübahisə etmək olar, axı onlardan biri torpaqdan, ikincisi-mənəviyyatdan keçir! Birincisini qılıncla tarix, ikincini-qələmlə özümüz yaratmışıq (60, s.101).

Qeyd etmək lazımdır ki, mədəniyyəti insanın ictimi varlıq kimi inkişafı ilə bağlayaraq belə bir sual vermək olar ki, bu inkişaf nədən ibarətdir və nə ilə ölçülür? Burada əsas göstərici yəqin ki, insanın təbiətə, başqa insanlara və özünə münasibətinin xarakteri ola bilər. Nəticədə mövcud münasibətlər nə qədər inkişaf etsə, nə qədər universal olsa, insan özü də bir o qədər inkişaf etmiş, universal olar, mədəniyyətin daha yüksək pilləsinə yüksələ bilər. Deməli, həyata keçirilən ictimai

fəaliyyətin subyekti bütün tarixi prosesin subyekti olan insanın tələbat, qabiliyyət səviyyəsi öz əksini mədəniyyətdə tapır.

Ümumiyyətlə, tarixin ilkin mərhələlərində insan özünü təbiətdən tam ayırmır, istifadə etdiyi alətləri, vasitələrinin məhdudluğu ucbatından ondan birbaşa asılı olur. Fərdin mədəni inkişaf məhdudluğu burada özünün mədəni həyatın xüsusiyyətindən keçmişin, hazırki dövrü üzərində hakim olmasını güman edən nəçilikdə, insanların bu və ya digər tarixi birlik (nəsil, tayfa, icma) çərçivəsində yaşamasının lokal (yerli, təcrid olunmuş, xüsusiləşmiş) xarakterində maddi və mənəvi fəaliyyətdə dəqiq ifadə edilmiş fərdi başlanğıcın olmasında özünü göstərir. İnsanın burada da praktik iştirakçı kimi (bu mənada da mədəni iştirakçı kimi) çıxış etməsinə baxmayaraq, onun fəaliyyəti təbiət tərəfindən yaradılmış obyektiv və subyektiv şəraitdən, daha doğrusu əməkdən qabaq onun təbii zəmini kimi, mövcud olan kimi çıxış edir. İnsanın buradan da praktik iştirakçı kimi (bu mənada da mədəni iştirakçı kimi) çıxış etməsinə baxmayaraq, onun fəaliyyəti hələ bir çox cəhətdən, təbiət tərəfindən yaradılan, başqa sözlə zəhmətdən qabaq onun zəmini kimi mövcud olan obyektiv və subyektiv şəraitlə məlum olur.

Yalnız ictimai istehsalın sonrakı inkişafı nəticəsində ön plana insanın təbiətdən deyil, tarixən yaranmış şəraitdən, yəni əvvəlki əməyin nəticəsindən asılılığı çıxır. Əmək prosesində təbiət qüvvələrini ictimai məhsuldar qüvvələrə çevirən insan öz fəaliyyətini mədəni zəmin əsasında qurur. İnsan özü isə sırf təbii varlıq xüsusiyyətləri üzərində yüksəlir və ictimai-istehsalat fəaliyyətinin əsl subyekti olur.

Ünsiyyətin cəmiyyət üçün ən yuxarı formaları ilk növbədə onun özünün yaratdığı sosial, tarixi, inqilabi və vətənpərvərlik ənənələridir. Bura rəsmi dövlət bayramları, tarixi bayramlar, xatirə günləri, görkəmli şəxslərin ad günləri və s. daxildir. Həmin formalı ünsiyyət tədbirləri rəsmi şəkildə təşkil olunur. Şübhəsiz, onların təşkil olunmasında əsasən hakimiyyətin,

mövcud rejimin və ya ictimai birliyin maraqları üstünlük təşkil edir. Buna görə də hakimiyyət kütləni özü ilə həmrəy etmək, onu daima öz təsiri altında saxlamaq məqsədi ilə insanları kütləvi ünsiyyətə cəlb etmək imkanlarını əldən vermir. Məlum məqsədə görə də, belə ünsiyyət tədbirlərində əsas təşkilatçı hakimiyyət olur. Ayrı-ayrı fərdi keyfiyyətlər kütlənin real şüur səviyyəsinə enir. Onlar kütləni idarə edən insanların düşünüb hazırladığı plana itaət edir, verilən əmrlərə tabe olurlar.

Ümumiyyətlə, məhz qeyd olunan səbəbə görə kommunizm rejimi dövründə süni şəikldə olsa da bir çox adət və ənənələr yaradılmışdır. Lakin, hakimiyyət tərəfindən təşkil olunmuş bu bayram tədbirləri xalqın sosial maraqlarına uyğun gəlmirdi. Hər halda idarə, müəssisə rəhbərləri vasitəsilə geniş xalq kütləsi bu təbliğat məkanına cəlb edilir, onların şüuruna təsir olunurdu.

Deməli, ziddiyyətli cəmiyyətlərdə insan əməyinin ictimai məhsuldar qüvvələrinin və nəticə etibarilə insanın özünün ictimai fəaliyyət subyekti kimi inkişafı zəhmətkeş fərdlərin əksəriyyətinin inkişafı ilə dərin ziddiyyət təşkil edir, insana yad və düşmən olan qüvvə forması alır. İctimai qüvvələrin insanı əsarət altına alan və istismar edən, şəxsiyyətini tapdalayan qüvvəyə çevrilməsi ziddiyətli cəmiyyətində və düzgün olmayan hökmranlığı şəraitində son həddə çatır. Tarixin bu mərhələsində mədəni inkişafın sosial məhdudluq forması bundan ibarətdir. Paradoksal vəziyyət yaranır: mədəniyyət özünün antoqonist formasında öz-özünü inkar edir, çünki özünün insani məzmunu ilə ziddiyyətə rastlaşır.

Ancaq hümanistlərin əsl insan tarixi adlandırdığı tarixi mərhələdə – ümumbəşəri cəmiyyət adlandırdığı mərhələdə mədəni inkişaf insanın azad və kamil şəxsiyyət kimi, təbiətə, başqa insanlara və özünə fəal münasibət bəsləyən insan kimi varlığının təzahürü olur.

Qeyd etmək lazımdır ki, mədəniyyətin insanın özünün universal inkişafı kimi ümumtarixi mənası əyani şəkildə özünü

göstərir. Bu isə insanın yaratdığı ictimai qüvvələrin və münasibətlərin bütün məcmuyunun inkişafı ilə bilavasitə uyğun gəlir.

Ümumiyytələ, mədəniyyətin ümumi tarixi inkişaf perspektivləri nəzərə alınmaqla olan fikirlər onun izahında eyni dərəcədə əsassız ifratçılıqlardan qaçmağa şərait yaradır. Həmin ifratçılıqlar həm marksaqədərki, həm də müasir dövrün təfəkkürü üçün səciyyəvidir. Qeyd olunan ifraçtılıqlardan biri – mədəniyyətin reallıqdan uzaq kateqoriya kimi mücərrəd traktovkasıdır. O, insanların müxtəlif tarixi mərhələlərdə və müxtəlif ictimai şəraitlərdə mədəni həyat xüsusiyyətlərinə məhəl qoymur, müxtəlif ictimai-iqtisadi formasiyaların, xalqların mədəniyyətləri arasındakı prinsipial fərqləri ört-basdır edir və i.a. Bu halda mədəniyyət haqqında, onun nə zamanda yaradılması, kimə xidmət etməsi, qarşısına hansı məqsədlər qoyması nəzərə alınmadan danışılır. Digər ifratçılıq mədəniyyətin müxtəlif formalarının, xüsusiyyətlərinin (mütləqləşdirilməsi), bəşəriyyətin mədəni inkişafında vəhdətin, varisliyin, ümumiliyin inkar edilməsidir. Bunun sayəsində mədəniyyət müstəqil, bir-birindən təcrid olunmuş, hər bir əlaqədən məhrum "lokal" hissələrə parçalanır. Bu da mədəni plyuralizmin təsdiqinə, ən məxtəlif mədəniyyətlərin eyni əhəmiyyətə malik olması fikrinin bəyənilməsinə, mədəniyyətin inkişaf ideyalarının dağılmasına, onun bütün insanlar üçün çox mühüm olan sərvətlərdən və nailiyyətlərdən ibarət ümumbəşəri hal kimi başa düşülməsinin inkarına səbəb olur.

Azərbpaycan müstəqilik əldə etdikdən sonra mədəniyyət mərkəzləri üzərindən nəzarət götürüldü.

Lakin, Sovet dövrünün mənəvi tərbiyə sahəsindəki fəaliyyətini birtərəfli şəkildə heçə endirmək də haqsızlıq olardı. Mədəniyyətin təkamülünə daha çox üstünlük verən bu cəmiyyətdə böyüməkdə olan nəslin tərbiyə problemi ön plana çəkilirdi. Məktəbdənkənar tərbiyə müəssisələri yaradılır, hər bir gəncin yaradıcılıq potensialını və istedadını üzə çıxartmaq üçün dərnək və birliklər meydana gəlirdi. Bu da əsasən

cəmiyyətin daxilində işsizlik probleimnin olmasından, əmək kollektivlərində sağlam mənəvi mühitin mövcudluğundan, məktəblə mədəniyyət müəssisələrinin qarşılıqlı əlaqələrinin olmasından, asudə vaxt büdcəsinin yaradıcılıq meyllərinə balanslı şəkildə uyğunlaşdırılmasından irəli gəlirdi. Hamı bilir ki, mədəni asudə vaxt şəxsiyyətin hərtərəfli, ahəngdar inkişafı, istirahət, sağlamlığın möhkəmləndirilməsi və fiziki inkişafı, ictimai iş və təhsil, elm, texnika və mədəniyyət sahəsində qabiliyyətin inkişafı, bədii yaradıcılıq, yoldaşlıq ünsiyyəti və uşaqların tərbiyəsi üçün istifadə edilən istehsaldan kənar əhəmiyyətli bir vaxtın hissəsidir (103, s.160).

Mədəniyyətin belə mürəkkəb, çoxplanlı və müxtəlif səviyyəli strukturu ona cəmiyyətdə bir sıra sosial funksiyaları həyata keçirməyə imkan verir.

Mədəniyyətin anlamaq funksiyası, qnoseoloji funksiyasıdır. Ümumiyyətlə, mədəniyyət insanın, təbiətin kortəbii qüvvələri və cəmiyyət üzərində hökmranlıq dərəcəsinin, eləcə də insanın özündə "insanlığın" inkişaf dərəcəsinin müəyyən ölçüsüdür. Mədəniyyət vəhdətdə götürülmüş bütün ictimai şüur formalarını əhatə edərək, dünyanın dərk olunması və mənimsənilməsinin tam mənzərəsini yaradır. Şübhəsiz, mədəniyyət dünya haqqında biliklərin məcmuyu kimi izah olunmur, lakin sistemləşdirilmiş elmi biliklər onun mühüm elementlərindən biri kimi çıxış edir. Bu, müasir dövrdə elmi-texniki nailliyyətlərin genişlənməsi və elmin, mədəniyyətin bütün növlərini birləşdirdiyi və ona təsir göstərdiyi amilə çevrilməsi ilə əlaqədar olaraq özünü daha aydın göstərir.

Göründüyü kimi mədəniyyət insanın ətraf aləmi dərk etməsi dərəcəsini yalnız səciyyələndirmir. Cəmiyyət, xalq, millət özünü bütövlükdə mədəniyyətdə, onun bütün növlərində və mədəniyyət vasitəsilə dərk edir. Bu zaman mədəniyyət nəinki bütün ictimai şüur formalarını onların vəhdətində və tamlığında (inkişaf dərəcəsini) meydana çıxarır, həm də

insanların praktiki fəaliyyətində təzahür edən bacarıq və vərdişlərinin səviyyəsini aydın şəkildə göstərir.

Dövlət quruluşunun və onun ictimai-siyasi mühitinin dəyişməsi mədəni ünsiyyət vasitələrinin də yeni elmi-nəzəri əsaslarının işlənməsini aktuallaşdırmışdır. Söhbət ondan gedir ki, quruluşun dəyişməsi ilə əlaqədar olaraq mədəni-maarif müəssisələrinin işində deformasiya gedir. Həmin deformasiyanı aradan qaldırmaq və ünsiyyəti bilavasitə insanların maraq və ehtiyaclarına uyğun şəkildə qurmaq üçün ilk növbədə, kommunist rejimindən qalmış ideoloji və siyasi məhdudiyyət prinsiplərindən uzaqlaşmaq lazımdır. Əslində elə buna görə də bu problemin elmi həlli, xüsusilə mədəni-maarif müəssisələrində mədəni ünsiyyət mexanizminin işlənib, tətbiq edilməsi bu gün olduqca aktualdır. Eyni zamanda Azərbaycanın dünya mədəniyyətinə inteqrasiya olunması üçün beynəlxalq nümunələrin öyrənilməsi və müxtəlif mədəni ünsiyyət vasitələrinin ölkəmizdə tətbiqi öz elmi aktuallığını bir daha təsdiqləyir. Bu gün milli mədəniyyəti yaşatmaq, onu inkişaf etdirib gələcək nəsillərə düzgün çatdırmaq hər bir kulturoloqun əsas vəzifədir.

Texnoloiji fəaliyyət faktorunu nəzərə almamaq şərtilə mədəniyyət aşağıdakı vasitələrlə çıxış edir. Birinci, dərketmə; ikincisi, davranışın idarə olunması; üçüncüsü, dəyərlər sisteminin qiymətləndirilməsi.

Qeyd etmək lazımdır ki, zaman faktorunun nəzərə alınması mədəniyyətin ən vacib funksiyasıdır. Burada tarixi varislik, sosial irsliyin nəsildən-nəslə ötürülməsi mühüm rol oynayır. Bu mənada mədəniyyət, ənənəvi varislik formalarının əvəzinə meydana çıxır. Varisliyin bu formaları ibtidai cəmiyyətdə hakim olsa da, indi də ailə səviyyəsində öz varlığını saxlayır.

Mədəniyyət, həmçinin insanın evristik məqsədlərinin yerinə yetməsinə: onun yeniliyi dərk etməyin daha məhsuldar formalarını axtarmasına, sosial həyatın yeni yollarının və metodlarının tapılmasına, insanın təbiətin kortəbii qüvvələri üzərində hökmranlığının güclənməsinə şərait yaradır.

Tarixi varislik, sosial təcrübənin ötürülməsi funksiyası ilə əlaqədardır. Çox vaxt bunu informasiya funksiyası kimi verirlər.

Cəmiyyətin sosial təcrübəni, "sosial irsiyyəti" yeganə ötürmə mexanizmi mədəniyyət olaraq qalmaqdadır. İnsanın sosial keyfiyyətləri genetik proqramla ötürülmür. Cəmiyyətdə onun inkişafının hər bir mərhələsində obyektiv şərtləndirilmiş "sosial proqram" meydana gəlir. Maddi və mənəvi mədəniyyətin vəziyyəti öz əksini bu proqramda tapa bilir. O, "maddi olaraq texnologiya ilə, incəsənt abidələri, memarlıq, nəqliyyat vasitələri və digər "insaniləşdirilmiş" əşyalar ilə təqdim edilmişdir. Bu, həm də elmi və bədii ədəbiyyatlarda, rəngkarlıqda, musiqidə, hüquq noromalarında öz ifadəsini tapmışdır" (127, s.16). Mədəniyyət sayəsində sosial təcrübə həm bir nəsildən digər nəslə, həm də bir nəslin həyatı dövründə ölkələr və xalqlar arasında ötürülür və translyasiya olunur. Bu mühüm sosial funksiyanı yalnız mədəniyyət yerinə yetirə bilər. Mədəniyyət mürəkkəb işarə sistemidir. Bu sistem nəsillərin sosial təcrübəsini məfhumlarda və sözlərdə, riyazi simvollarda, elmi düsturlarda, mədəniyyətin xüsusiyyət təşkil edən dillərində, insan əməyinin məhsullarında (istehsal alətlərində, istehlak cisimlərində) qoruyub saxlayır, daha doğrusu o, insan haqqında, onun yaradıcılıq qüvvələri və imkanları haqqında, onun yaradıcılıq qüvvələri və imkanları haqqında "danışan" işarələrdir. Deməli, mədəniyyəti bəşəriyyətin "hafizəsi" adlandırmaq olar. Lakin qeyd etmək lazımdır ki, mədəniyyət təkcə bəşəriyyətin sosial təcrübəsinin toplandığı "yer" deyil, onun fəal işlənməsi, ictimai qruplara məhz şəxsiyyət tipinin formalaşdırılması üçün lazım olan informasiyanın seçilməsi vasitəsidir.

İnsanların bir-biri ilə ünsiyyətə girməsinin əsas səbəblərindən biri də müxtəlif aktual informasiyalara yiyələnmək tələbatı ilə bağlıdır. Hələ lap qədim zamanlardan informasiya mübadiləsi, insan cəmiyyətində xüsusi yer tutmuş, şəxsiyyətlər

arasındakı ünsiyyətin, yaxınlaşmanın əsas vasitələrindən birinə çevrilmişdir. Eramızdan əvvəl V əsrdə yaşamış sofistlər mücərrəd şəkildə olsa da informasiya mübadiləsinin ünsiyyətə təsirini kommunikasiya prosesi ilə əlaqələndirməyə çalışmışlar. Bəsit formada olsa da onlar kommunikasiyanı üç mühüm aspektə bölmüşlər. Bu bölgüyə görə:

1) Kommunikativ əlaqələr insanlar arasında mövcud olan əlaqələr və onların bir-birinə qarşılıqlı təsirindən ibarətdir;

2) İnsanlar arasında əmələ gələn kommunikativ əlaqələr özbaşına, təsadüfən yaranmış, əslində o, mühitdən, şəraitdən asılıdır və müəyyən səbəblərlə bağlıdır;

3) Kommunikativ əlaqə hər iki tərəfin yalnız xeyri ilə nəticələnmir. Tərəflərdən biri bu əlaqədən az və ya çox dərəcədə zərər çəkə bilər.

Bununla yanaşı qədim yunan filosofu Sokratın fikrincə, kommunikasiya insanın özünüdərketməsinə də kömək edir, onu təminatlı dərəcədə istiqamətləndirir.

Kommunikasiya prosesinin baş verməsi informasiya mübadiləsi yaratmaq istəyən iki tərəfin hissi, əməli fəaliyyətindən asılıdır. Təbii ki, onların hər ikisinin içində rəylər, məlumatlar yığımı mövcuddur və tərəflər bu rəy və məlumatları bir-biri ilə ünsiyyət yaratmaqla aşkarlaya bilirlər. Belə bir vəziyyətdə hər iki tərəf ünsiyyətin həm obyektinə, həm də subyektinə çevrilirlər (103, s.161).

İnformasiyanın ötürmə vasitəsi yalnız mənəvi mədəniyyət əşyaları deyil, həm də maddi mədəniyyət əşyalarıdır. Hər bir istehsal alətinin, yaxud istehlak əşyasının funksional əhəmiyyəti vardır, o, insanın bu və ya digər tələbatını ödəməklə, eyni zamanda insan haqqında, öz dövrünün ictimai münasibətləri haqqında müəyyən informasiya daşıyıcısıdır. Tədqiqatçılar qeyd edirdilər ki, ictimai praktika prosesində əşya "insan əşyası, yaxud insan tərəfindən əşyalaşdırılımış olur" (138, s.121). Ötən əsrlərdə yaşamış insanların sosial münasibətləri

haqqında insanın yaratdığı əşyalara və cisimlərə əsasən mühakimə yürütməsi təbii olmuşdur.

Mədəniyyətin informasiyası, funksiyası onun kommunikativ funksiyası ilə qırılmaz surətdə əlaqədardır. İnsan maddi və mənəvi mədəniyyət abidələrində həkk olunmuş informasiyanı dərk etməklə, bu abidələri yaratmış insanlarla dolayı və ya vasitəli ünsiyyətə girir.

İnsanlar arasında ünsiyyət vasitəsi birinci növbədə şifahi dildir. Söz insanları bütün ideoloji və mədəni fəaliyyətinin bütün proseslərini müşayiət edir. Dil, birinci növbədə ədəbi dil bu və ya digər milli mədəniyyətə yiyələnməyin "açarıdır". Lakin insanlar ünsiyyət prosesində həm də incəsənətin spesifik dillərindən (riyazi, fiziki, kimyəvi və digər simvollar və düsturlardan) istifadə edirlər.

Rasionallığın və emosionallığın harmonik əlaqələndirilməsi zərurəti insanın mahiyyət qüvvələrinin başlıca komponentləridir və təhsilin, mədəniyyətin mərkəzi vəzifəsidir. Mədəniyyətin yeni prinsiplərinin həyata tətbiqində "harmoniya" anlayışı əsas yer tutur. Harmoniyasız cəmiyyət mədəniyyətsiz cəmiyyətə bərabərdir. Harmoniya cəhətdən inkişaf etmiş insan, ən mühüm inteqrativ keyfiyyətlərə malik olur ki, bu da insanlar arasında ahəngdar münasibətlərin inkişafına imkan verir.

Elmi-texniki inqilab əsrində insanların ünsiyyət prosesləri xeyli genişlənmiş və mürəkkəbləşmişdir. Əgər tarixin keçən dövrlərində birbaşa, bilavasitə ünsiyyət dolayı ünsiyyətə nisbətən üstünlük təşkil edirdisə, hazırda texniki vasitələrin köməyi ilə həyata keçirilən dolayı ünsiyyət hakim mövqe tutur. Kütləvi informasiya vasitələrinin (mətbuat, radio, televiziya, kino, dram və videoyazılar və s.) meydana gəlməsi mədəniyyətin yayılmasında mühüm amil olmuşdur. Lakin cəmiyyətin həyatında bu vasitələrin rolu, onların hansı qrupun əlində olmasından və hansı mədəniyyəti yaymasından asılıdır. Qərb nəzəriyyəçiləri mədəniyyətin işarə sisteminin rolunu mütləqləşdirirlər, ona real gerçəklikdə heç bir analoqu olmayan sərbəst

sistem kimi subyektivist nəzərlərlə baxırlar. Hətta mədəniyyətə sosial vərəsə və sosial ünsiyyət kimi baxan Avropa filosfları və sosioloqları (məsələn, A.Veber, B.K.Malinovski, E.Mepir, R.Linton, P.E.Park) onu şərti rəmzlərin məcmuyu kimi düzgün olmayan şəkildə şərh edirlər.

Mədəniyyət həm də cəmiyyətin müəyyən təbəqəsinin normalar sistemi və insanların fəaliyyətinin bütün sahələrinə (əmək, məişət, şəxsiyyətlərarası münasibətlər sahəsi) tələblər sistemi kimi çıxış edərək nizamlayıcısı, normativ funksiya yerinə yetirir.

Ziddiyyətli cəmiyyətdə bu və ya digər mədəni hadisə müxtəlif təbəqələrin nümayəndələri tərəfindən müxtəlif şəklində dəyərləndirilir. Bu, heç də yuxarıda göstərildiyi kimi, obyektiv qiymət vermək imkanlarını inkar edə bilməz. Bununla yanaşı mədəniyyətin bəzi sərvətləri mədəniyyətin ümumbəşəri başlanğıcını əks etdirərək müxtəlif insanların tələbatını ödəyə bilər.

Mədəniyyətin nizamlayıcı funksiyası onun strukturundan olan əxlaq və hüquq kimi normativ sistemlərlə qorunur. Bu və ya digər ictimai qrupun və ya şəxsiyyətin davranışının və fəaliyyətinin müəyyən sosial mənəvi normalar və prinsiplərə uyğunluq dərəcəsini qiymətləndirmə xarakteristikası ilə çıxış edən mədəniyyət insanın ictimai həyatın müxtəlif sahələrində gündəlik davranışını qaydaya salır.

Mədəniyyət cəmiyyətin modernləşdirilməsində fundamental rol oynayır və dərin sosial-iqtisadi transformasiyaların generatoru funksiyasını yerinə yetirir. Bu hər şeydən əvvəl, mədəniyyətin sosiuma xas olan spesifik prinsiplərinin inkişafına kömək edir, ikinci tərəfdən müəyyən sivilizasiya çərçivəsində etno-tarixi bütövlüyü təmin edir. İnteqrasiya prosesləri, müxtəlif xalqların və dövlətlərin həyat tərzlərinin universallaşması həm lokal, həm də qlobal sivilizasiyaların təkamülünə yardımçı olur. Ümumiyyətlə, dünya sivilizasiyası bəşəriyyətin tarixində müəyyən mərhələdir və insanların tələbatlarına

cavab verir. Dünya sivilizasiyasının bir-birini əvəz etməsi, tarixi tərəqqinin irəliyə doğru hərəkətinin, bəşəriyyətin öz inkişafının ifadəsi kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, dərketmə fəaliyyəti informasiya mübadiləsinin əsas komponentlərindəndir. Həmin fəaliyyət növü də ünsiyyət prosesində iki istiqamətdə inkişaf edir. Birinci mərhələ informasiyanın bir-birinə ötürülməsi və mənimsənilməsi prosesidir. İnformasiyanın bir-birinə ötürülməsi əsasən fərdiləşdirilmiş ünsiyyət prosesində baş verir. Ancaq həmin informasiyanın çatdırılması prosesi mühazirə, disput, tədbirlər, dərnək məşğələləri zamanı da görünür. Hər iki halda informasiya büdcəsi artır. Eyni zamanda mübadilə olunur. İnformasiyanın mübadiləsi isə yeni müzakirələrin, diskussiyaların yaranması üçün mövzular meydana gətirir. Hər bir fərdin yeni evristik fəaliyyəti formalaşır. Yəni, informasiya mübadiləsi təfəkkürü dərinləşdirir, yeni biliklərin əldə olunmasının həm də evristik fəaliyyət mühitini yaradır.

Mədəniyyətin sosial məzmununu və mənasını əks etdirən başlıca sistem (əməlgətirici funksiyası) onun humanist funksiyasıdır. Yuxarıda qeyd edilən funksiyalar ona tabedir və əslində onun modifikasiyalarıdır. Mədəniyyətin vəzifəsi bu və ya digər qrupun (bütövlükdə cəmiyyətin) mənafeyinə və tələblərinə uyğun gələn müəyyən şəxsiyyət tipini formalaşdırmaqdır. Ziddiyyətli cəmiyyətdə mədəniyyətin bu insanyaradıcı funksiyası əslində təhrif olunmuş şəkildə təzahür edir. Mədəniyyət şəxsiyyətin oyuncağa çevrilməsi vasitəsi olur. Keçmiş dövrlərin mədəniyyəti həmin ictimai münasibətlərinə kor-koranə uyğunlaşan şəxsiyyətin düşüncəsiz konformistin və istehlakçının formalaşmasına imkan verir.

Kulturologiyanın humanist funksiyasının həyata keçirilməsi üçün müstəqil cəmiyyətlərdə geniş meydan açılır. Bu zaman hərtərəfli inkişaf etmiş harmonik şəxsiyyətə ictimai tələbat özünü geniş surətdə göstərir. Milli mədəniyyətinin məqsədi nəinki mədəni sərvətləri istehlak edən, həm də onun

yaradılmasında fəal iştirakçı adamın sosial, fəal, yarıdıcı şəxsiyyətinin formalaşmasından ibarətdir. Milli-ümumbəşəri mədəniyyət heç də insanların müəyyən sosial mühitə uyğunlaşması demək deyil, bu, şəxsiyyətin fəal həyat mövqeyini formalaşdırma, ətraf aləmi dəyişdirə bilən şəxsiyyət tərbiyələndirmə vasitəsi kimi təzahür edir.

Ümumiyyətlə, ünsiyyət insanın emosional vəziyyətinin ən vacib xüsusiyyətidir. Ünsiyyət bir qayda olaraq incəlikdən kobudluğa, məhəbbətdən nifrətə qədər emosionallığa malikdir. Buna görə də, ünsiyyət prosesində insanlar bir-biri ilə sadəcə məlumat, informasiya mübadiləsi etmir, eyni zamanda bir-birinə öz münasibətlərini də bildirirlər. Nəticədə, qarşılıqlı ünsiyyətdə olan insanların ətrafında onlar üçün arzu olunan və vacib sayılan xüsusi mühit yaranır.

Lakin, ünsiyyətdə, olarkən insan özünə, hərəkətlərinə, kənardan başqalarının gözü ilə baxmağı da bacarır. Öz fəaliyyətini görüb təhlil etmək bacarığı hər bir fərdə öz hərəkətlərini qiymətləndirmək, vaxtında öz səhvlərini düzəltmək şəraiti yaradır.

Mədəniyyətin ən maraqlı, ən lazımlı humanist funksiyası zidd, lakin üzvi surətdə əlaqədar proseslərin: şəxsiyyətin sosiallaşdırılması və fərdiləşdirilməsi proseslərinin vəhdətində özünü büruzə verir. Sosiallaşdırılma prosesində insan ictimai münasibətləri mənimsəyir, onu öz şəxsiyyətinin daxili mahiyyətinə, öz sosial keyfiyyətlərinə çevirir. Ancaq bu münasibətləri hər bir şəxs özünəməxsus: təkrar olmayan formada mənimsəyir. Müstəqil cəmiyyətlərdə sosiallaşdırılma prosesi eyni zamanda şəxsiyyətin fərdiyyətləşdirilmə prosesidir. Mədəniyyət sosiallaşdırmanı və şəxsiyyətin fərdiyyətləşdirilməsini təmin edən xüsusi ictimai mexanizmdir.

Mədəniyyətin cəmiyyətdə əsas funksiyaları xüsusi rola malikdir. Şübhəsiz, belə bir qəti bölgü onun öyrənilməsinin münasib olmasına imkan verir. Real həyatda bu funksiyalar qarşılıqlı təsirdə və möhkəm əlaqədədirlər. Yeni cəmiyyətin

əsas, yeganə məqsədi yeni tip insanın – hərtərəfli, harmonik inkişaf etmiş Azərbaycan cəmiyyəti qurucusu şəxsiyyətinin formalaşmasıdır.

Mədəniyyət anlayışı olduqca mürəkkəb və çoxsahəli faktor olub, bəşəriyyətin varlığını səciyyələndirir. Ümumiyyətlə, mədəniyyətin ümumi tərifləri mühüm rol oynayır. Burada təsvirçilik, antropoloji dəyərləndirmə, normativ, tarixi, funksional, simvolik, germeneftik, psixoloji, didaktik və sosioloji növlər mühüm rol oynayır. Hər bir növ, mədəniyyətin müxtəlif cəhətlərini göstərə bilir. Bütün bunlar mədəniyyətin mahiyyətini açır, onun rolunu və hərtərəfli funksiyasını göstərir.

## MƏDƏNİYYƏT SİYASƏTİNİN RASTLAŞDIĞI ÇƏTİNLİKLƏR

Azərbaycanda mədəniyyət sektoru 90-cı illərin əvvəlində və ortalarında ölkəni təlatümə gətirən dərin iqtisadi və siyasi böhranın, habelə yüksək səviyyədə işsizliyin ciddi təsiri altında olmuşdur. Biz buna, həmçinin keçmiş sovet mədəniyyət orqanlarının həddən artıq mərkəzləşdirilmiş olmasını və onların avtoritarizmini, habelə keçmiş SSRİ respublikalarının özünəməxsusluğu və mədəni hüquqlarının müəyyən "bayram əhval-ruhiyyəsində" təqdim edilməsinə baxmayaraq, həmişə ikinci planda durması faktını da əlavə etməliyik.

Ənənəvi QİYŞ bazarının dağılmasından sonra bütün sabiq sovet respublikalarını bürüyən böhran iqtisadiyyatı nə vəziyyətə saldısa, mədəniyyət də o vəziyyətə düşdü. Daha həssas sfera, ideoloji təzyiq predmeti və partiyanın bilavasitə diqqət mərkəzində olduğundan mədəniyyət Azərbaycanda və digər sovet respublikalarında partiya aparatının güclü təsirinə məruz qalırdı; bu aparat mədəniyyətin hər bir sahəsi üçün yaradılmış geniş təsisatlar şəbəkəsinə nəzarət edir, beləliklə, mədəniyyət müəssisələri arasında bircinsli məcburi əlaqə və o cür də ənənəvi mərkəzləşdirilmiş büdcə tipləri müəyyənləşdirirdi. Müstəqillik əldə edildikdən sonra, bu sistem də təbii olaraq dağıldı və hər bir respublika artıq indi tamamilə müxtəlif olan tələbatlara – demokratik təsisatların qurulması, qanunun aliliyi, insan hüquqlarına hörmət və mədəni rəngarəngliyə uyğun islahatçı mədəniyyət siyasəti yaratmaq məcburiyyətində qaldı. Bunun üçün isə heç bir milli qanunvericilik mövcud deyildi. Lakin əsasən keçid dövrünün iqtisadi çətinlikləri və Dağlıq Qarabağ uğrunda Ermənistanla münaqişə ucbatından mədəniyyətə ayrılan büdcə xeyli az olsa da, əsas qənaət ondan ibarətdir ki, mədəniyyətin marginallaşma risqi ilə üzləşdiyi digər ölkələrdən fərqli olaraq, Azərbaycanda mədəniyyət cəmiyyətin, ölkənin özünəməxsusluğunun və onun gələ-

cək inkişafının vacib hissəsi hesab edilir və burada ona əyləncə və bəzək vasitəsi və yaxud faydalı ritorika aləti kimi baxılmır.

Eyni zamanda Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapa bilməməsi Azərbaycan mədəniyyətinin inkişafına əngəl törədən ən böyük problem olaraq qalmaqdadır. 1988-ci ildən başlayaraq Ermənistanın işğalçılıq siyasəti nəticəsində Dağlıq Qarabağ və ona bitişik olan Kəlbəcər, Ağdam, Laçın, Cəbrayıl, Qubadlı, Zəngilan və Füzuli rayonları – Azərbaycan torpaqlarının 20 faizi işğal edilmişdir. İşğal olunmuş ərazilərdən qovulan qaçqınların və məcburi köçkünlərin sayı bir milyon nəfərdən çox olmuşdur. İşğal olunmuş ərazilərdə yaşayış evləri, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı çoxlu sayda mədəniyyət müəssisələri qalmışdır: 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 22 muzey və onların filialları, 4 rəsm qalereyası, dünya əhəmiyyətli 13, ölkə əhəmiyyətli 242 və yerli əhəmiyyətli 434 tarix və mədəniyyət abidələri. Onların arasında 11 və 15 arşınlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonundakı Gəncəsar və Xudavənd məbədləri (hər ikisi XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndindəki məqbərə (XIV əsr) kimi ümumdünya əhəmiyyətli 6 memarlıq və 7 arxeoloji abidə, habelə Azərbaycanın musiqi beşiyi olan qədim Şuşa şəhər qoruğu vardır. Dövlət mədəniyyət siyasətinin ümdə vəzifəsi Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq, mədəni informasiya müharibəsində ədalətin zəfər çalmasına nail olmaqdan ibarətdir.

Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra respublika ilk illər çoxsaylı daxili və xarici problemlərlə üzləşmiş və mürəkkəb dövlət quruculuğu dövründən keçməli olmuşdur. Xalqın tələbi ilə ölkə rəhbərliyinə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayıdışından sonra ölkədə daxili siyasi sabitlik bərpa edilmiş və onun gələcək inkişafının strategiyası və əsas istiqamətləri müəyyənləş-

dirilmişdir. Həmin andan etibarən Azərbaycanın dövlət həyatının bütün sahələri, o cümlədən mədəniyyət sahəsi üzrə dövlət siyasətinin müəyyən olunması və inkişaf etdirilməsi tarixində yeni mərhələ başlanmışdır. Azərbaycan Respublikasının mədəniyyət siyasəti öz müstəqlliyinə son dövrlərdə yenidən qovuşmuş bir dövlətin ümumi siyasətinin tərkib hissəsidir. Dövlət quruculuğu, iqtisadiyyat və sosial sahələrdə köklü dəyişikliklərə səbəb olan siyasi rejimin transformasiyası mədəni proseslərin məzmununa və dinamikasına bilavasitə təsir göstərimşdir (10, № 11, s.5).

Keçid dövründə mədəniyyət siyasəti. Mədəniyyət siyasəti, Avropa Şurasının "Çərçivədən kənar" məruzəsinə uyğun olaraq, "mədəniyyət sahəsində dövlət tədbirləri üçün ümumi çərçivələr kimi müəyyən edilir. Bu tədbirlər milli hökumətlər və yerli hakimiyyət orqanları və yaxud onların agentlikləri tərəfindən qəbul edilə bilər. Mədəniyyət siyasəti dəqiq müəyyən olunmuş məqsədlər tələb edir. Bu məqsədlərin gerçəkləşməsi üçün planlaşdırmanı həyata keçirməni və dəyərləndirməni mümkün edən mexanizmlər mövcud olmalıdır" (139). Bu, həmçinin fəlsəfə, dünyagörüşü və mədəniyyəti ümumi inkişafın bir göstəricisi kimi yenidən nəzərdən keçirməyə kömək edən bir sıra orta və uzunmüddətli vəzifələr deməkdir.

Azərbaycanda mədəniyyət siyasətinin inkişafı haqqında ilk bəyanat bundan ibarətdir ki, Mədəniyyət və Turizm Nazirliyi öz siyasətini, son on illiklərdə əksər Avropa ölkələrində rəhbər tutulan əsas prinsipləri nəzərə alaraq və onları ölkənin reallıqları ilə müqayisə edərək müəyyənləşdirir. Üç əsas prioritet müəyyənləşdirilmişdir: mədəni və tarixi irsin qorunması (bu, mədəniyyət təsisatlarının bütün infrastrukturunu özündə əks etdirir); yaradıcılığın himayə edilməsi, mədəniyyətin insan inkişafı amili kimi dərk edilməsi və qəbul olunmasının gücləndirilməsi.

Hökumətin və Mədəniyyət və Turizm Nazirliyinin bu prioritetlərə nail olunması və onların həyata keçirilməsi üçün yaradılan təsisatların bütöv məqsəd və fəaliyyət sahələri bunlardır: alternativ maliyyə mənbələri axtarışı, mədəniyyət sahəsində inzibatçılığa dair treninqlər, mədəni inkişaf strategiyalarının işlənib hazırlanması, xeyriyyəçi mədəniyyət fondunun təsis edilməsi.

Qanunvericilik tədbirləri ilə yanaşı mədəni islahatların həyata keçirilməsində nəzərəçarpacaq nailiyyətlərin əldə edilməsinə və onların dəstəklənməsinə səbəb ola biləcək sahələrdən biri də maliyyələşmə məsələsidir. Müharibə və qaçqınlarla əlaqədar situasiyanın hələ də həll olunmaması səbəbindən ölkədə daha da dərinləşən iqtisadi çətinliklər nəticəsində mədəniyyətə ayrılan büdcə yeni şərtlərin gerçəkləşməsi üçün kifayət edəcək səviyyədən xeyli aşağıdır. Ölkədə mədəniyyətin maliyyələşməsi 95% dövlət büdcəsi hesabına baş verir və mədəniyyət müəssisələri tərəfindən yaradıla və istifadə oluna bilən və heç zaman ümumi büdcənin 1%-dən artıq olmayan məhdud kateqoriyalı ekstra büdcə fondlarından başqa son dərəcə az sayda əlavə maliyyə ehtiyatları mövcuddur. Mədəniyyət haqqında Qanuna uyğun olaraq illik büdcənin ilbəil artması göz qabağındadır, lakin buna baxmayaraq, büdcənin artması ilə infilyasiya səviyyəsi arasındakı fərqi müəyyənləşdirmək çox çətindir. Bununla belə, məsələn, abidələrin bərpası ilə bağlı 2001-ci ildə büdcənin, demək olar ki, iki dəfə artması hadisəsində olduğu kimi, sektorlar üzrə nəzərə çarpacaq differensiya meydana çıxır ki, bu da mədəniyyət siyasətindəki dəyişiklikləri əyani nümayiş etdirir.

Maliyyə dəstəyinin modernləşdirilməsi yolunda ən böyük əngəl tarixən təşəkkül tapmış büdcə strukturudur və o, keçid dövrü ərzində dəyişməz olaraq qalmışdır. Ancaq, bununla bərabər, həmin vəziyyət büdcə dekonsentrasiyasının inkişafı baxımından yaxşı əlamətdir, çünki bu halda büdcənin 75-80%-i yerli səviyyədə bölüşdürülür və bu barədə qərar yerli

hakimiyyət orqanları və rayon mədəniyyət şöbələri tərəfindən qəbul edilir.

Mədəniyyət müəssisələrinin (muzeylərin, kitabxanaların, mədəniyyət evlərinin) büdcəsi hələ də üç kateqoriyaya bölünür: əmək haqları və sosial ödəmələr; binaların icarə, təmir və qulluq haqları; incəsənət əsərlərinin (bu siyahıda musiqi əsərləri yoxdur, amma güman edirik ki, onlar həmin siyahıya daxil ediləcəkdir), habelə kitabxana fondları üçün kitabların və dövri mətbuatın satın alınması. Üçüncü kateqoriya ümumi büdcənin ən aşağı faizinə malikdir və 10%-dən yuxarı olmur. Bu, yerli hakimiyyət orqanları tərəfindən idarə edilən müəssisələr üçün də xarakterikdir, bu səbəbdən yerli təşəbbüs və layihələr üçün çox az yer qalır.

Qayğı və diqqətə möhtac olan digər bir sahə vergi siyasətidir. 2002-ci ilin yanvarında vergi məcəlləsində islahatların həyata keçirilməsinə əngəl törədən və hətta bəzi mədəniyyət müəssisələrinin mövcudluğunu təhlükə altında qoyan dəyişikliklər edilmişdir. Bu vaxta qədər mövcud olan vergi normaları, rüb ərzində maliyyə dövriyyəsi 21 000 ABŞ dollarını keçməyən nisbətən kiçik mədəniyyət müəssisələrini ƏDV və gəlir vergisi ödəməkdən azad edirdi və yalnız ən böyük və ən vacib mədəniyyət müəssisələri 18% ƏDV və 27% gəlir vergisi ödəməli idilər. Heç şübhəsiz ki, bu da onlar üçün çox ağır idi. Dövriyyə səviyyəsini 6300 ABŞ dollarına endirən yeni normaların qəbul edilməsindən sonra isə, hətta bu vaxta qədər özlərini güclə qoruyub saxlayan kiçik müəssisələr belə indi bağlanmaq təhlükəsi ilə üzləşiblər. Belə bir şəraitdə və həm də bundan asılı olmayaraq Nazirlik mədəniyyət müəssisələrinin ƏDV ödəməkdən tamamilə azad olunmasını təmin edən yeni vergi normaları haqda sorğu vermişdir. Bu dəyişikliklərin qəbul edilməsi və dərc olunması halında, ƏDV-dən azad edilmə, fikrimizcə, ən münasib hal kimi qiymətləndirilə bilər.

Bürokratik ətalət və ixtisaslaşmış ştatla bağlı böhran nəticəsində daha da mürəkkəbləşən belə bir situasiyada hələ də nazirliyin həm maliyyə məsələlərilə bağlı "təminedici", həm də teatrların repertuarları kimi peşə məsələlərilə bağlı mərkəzləşdirilmiş qaydada qərarlarından hədsiz asılılıq mövcuddur.

Mədəniyyət sektorunda çalışan adamların – artistlərin, yazıçıların və yaxud inzibatçıların əmək haqları, hətta orta aylıq əmək haqqı səviyyəsi ilə müqayisədə xeyli azdır; bu da mütəxəssislərin həmin sahəni tərk etmələrinə və ixtisaslı işçi tapılmasında çətinliklər yaranmasına səbəb olur. Bəzi müəssisələr və kateqoriyalarla bağlı yaranmış vəziyyəti yaxşılaşdırmaq üçün ölkə Prezidentinin "Azərbaycan Simfonik Orkestrinin fəaliyyətini yaxşılaşdırmaq haqqında", "Yaradıcı xadimlərin fərdi pensiyalarla təmin edilməsi haqqında", "Qırmızı Kitaba daxil edilən gənc istedadların fərdi təqaüdlərlə təmin edilməsi haqqında", "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının sosial təminatı haqqında", "Gənc yazıçıların fərdi təqaüdlərlə təmin edilməsi haqqında" fərmanları dərc olunmuşdur. Habelə, Prezidentin "Dövlət mükafatları haqqında" fərmanı mövcuddur.

Mədəniyyət sahəsində xarici investisiyalar, maliyyə dəstəyi və birgə müəssisələr təşviq olunur. Ölkənin mədəniyyət siyasətinə daimi əsasda öz töhfəsini verən iki qeyri-hökumət təşkilatı mövcuddur: Soros Fondu və Avrasiya Fondu. Mədəniyyət və Turizm Nazirliyinin Bakıda sektoral strategiyasını dəstəkləməklə yanaşı, onlar, həmçinin mədəniyyət sahəsində qeyri-hökumət təşkilatlarını, ayrı-ayrı artistlərin və gənclərin layihə ərizələrini və s. maliyyələşdirən əsas təminedici təşkilatlardır. Ədliyyə Nazirliyi tərəfindən mədəniyət sahəsində 80 QHT qeydə alınsa da, Mədəniyyət və Turizm Nazirliyi onları maliyyə cəhətdən himayə etmir. Ancaq eyni zamanda, o bu vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqələri genişləndirmək və onları birgə layihələrə cəlb etmək

niyyətində olduğunu bəyan etmişdir. Digər ölkələrdə olduğu kimi, qapalı cəmiyyətdən açıq cəmiyyətə keçid zamanı əhəmiyyətli rol oynayan belə təşkilatlar hökumət strukturları ilə ictimai institutlar, icmalarla individuumlar arasında mühüm əlaqə mexanizmi vəzifəsini yerinə yetirirlər.

Mədəniyyət üzrə ekspertləri belə hesab edirlər ki, "müəssisələrdə, mədəniyyət xadimlərində, əhalinin müxtəlif təbəqələrində və sektorlarda, Bakıda və əyalətlərdə, şəhərlərdə və xırda icmalarda, azlıqlarda, yaşlı və cavan adamlarda, müxtəlif təhsil səviyyəsinə malik adamlarda və s. və mövcud olan tələb və gözləmlər arasında heç bir əks təsirə malik olmayan siyasət işləyib hazırlamaq üçün mədəniyyət siyasəti də iqtisadi və siyasi dəyişiklərə cəld uyğunlaşa biləcək dərəcədə çevik və dinamik olmalıdır. Yalnız bütün sektorları və insanları əhatə edən peşəkar araşdırmalar və qiymətləndirmələr qanunvericiliyin, maliyyələşmənin yaxşılaşdırılmasından başlayaraq, müəssisələrin gücləndirilməsi və nəhayət, müvafiq anlaşma və iştirak iqliminin yaradılmasına qədər, islahatları davam etdirmək üçün gözəl bünövrə yarada bilər (139).

## Siyasi və iqtisadi sistem dəyişikliklərinin mədəniyyət sahəsindəki təzahürləri

Postsovet məkanında müstəqilik əldə etmiş respublikalar üçün bir çox sahələrdə çətinliklər var idi. Bunlardan ən əsası mədəniyət siyasətinin düzgün qurulması idi. Bu baxımdan Azərbaycan Respublikası daha çox çətinliklərə məruz qalan bir ölkə idi. Ölkənin geocoğrafi relyefi, Avropa və Asiyanın qovuşduğu məkanda yerləşməsi müxtəlif maraqların toqquşmasına və sonda Azərbaycana xarici müdaxilənin artmasına şərait yaradırdı. Eyni zamanda ölkənin daxilində sovet ideologiyası ilə silahlanmış bəzi adamlar da mövcud şəraiti düzgün qiymətləndirə bilmirdilər. Onlar hadisələrə hələ də "bəlkə də qaytardılar" düşüncəsi ilə liberal münasibət göstərirdilər. Daha bir qrup isə hadisələri qabaqlayaraq emosional vəziyyət yaradir, əhalini kütləvi şəkildə küçələrə, mitinqlərə çağırırdılar. Beləliklə, ölkədə ictimai-siyasi vəziyyət sürətlə dəyişir, qeyri-sabit şərait hökm sürürdü. Hadisələr öz çevikliyi ilə insanların hadisələri qavrama imkanlarını çox-çox qabaqlamışdı. İctimai şüuru formalaşdırıb, onu hadisələrin çevikliyinə qarşı qoya bilən bir baza mövcud deyildi. Belə olan halda respublikada mədəniyyət siyasətini qurmaq, onu həyata keçirmək olduqca çətin idi.

Belə bir vaxtda Azərbaycana xarici müdaxilə və təzyiqlər çoxalmışdı. Xalqımız böyük bir bəla ilə üzbəüz idi. Azərbaycanın varlığı təhlükə altında idi. Dağlıq Qarabağ məsələsi özü ilə böyük bir fəlakət gətirirdi. Ermənistanın təcavüzü davam edirdi. Azərbaycanın torpaqları bir-birinin ardınca işğal olunurdu. Günahsız insanlar qətlə yetirilirdi, öldürülürdü, şikəst olurdu. Qaçqınların sayı çoxalırdı. Ermənistandan, Dağlıq Qarabağdan, işğal olunmuş ərazilərdən adamlar qaçıb ölkənin içərilərinə pənah gətirirdilər. Çoxları da yollarda itib-batırdı. Şəhərlər, kəndlər dağılırdı. İnsanlar maddi, mənəvi, psixoloji iflasa uğrayırdı. Min illər boyu xalqın yaratdığı maddi mədəniyyət abidələri məhv edilirdi.

İşğal olunmuş ərazilərdə çox sayda mədəniyyət müəssisələri qalmışdır. 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 4 rəsm qalareyası, 762 memarlıq və arxeoloji abidələr. Onların arasında 11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonundakı Qanzasar və Xudavənd məbədləri (XII əsr), Ağdam rayonunun Dorbatlı kəndindəki məqbərə (1314-cü il) kimi dünya əhəmiyyətli 5 memarlıq və 7 arxeoloji abidə, həmçinin Azərbaycan xalqının milli musiqi beşiyi olan qədim Şuşa şəhər qoruğu və Azıx mağarası vardır.

Ancaq bu, ermənilərin xalqımızın başına gətirdikləri vəhşiliyin tam siyahısı deyil. Azərbaycan Milli Elmlər Akademiyasının alimlərinin apardıqları tədqiqatlardan aydın olur ki, müasir Ermənistan ərazisində qədim İrəvan xanlığına aid olan 1585 məscid, 23 mədrəsə-məktəb, Zəngəzur və İçmiəzdin mahallarına aid isə 830 məscid, 1394 mədrəsə-məktəb və külli miqdarda digər mədəniyyət abidələri dağıdılmış, “Cuqa” qəbiristanlığı kimi qədim olan 500-dən çox qəbristanlıq yer üzündən tamamilə silinmişdir. Başqa bir mənbəyə əsasən işğal olunmuş ərazilərimizdə 387 tarixi, 474 memarlıq, 213 arxeolojiabidə qalmışdır, onlardann 249 tarixi, 201 memarlıq, 5 arxeoloji abidə məhz Şuşada yerləşir (79, № 5, s.31; №11, s. 3).

Kənardan göstərilən təcavüzlə yanaşı, ölkənin daxilində də bir xaos baş verirdi. Separatçı qüvvələr belə bir situasiyadan istifadə edərək ölkəni parçalamaq həddinə gətirib çıxarmışdılar. Xarici qüvvələrin bilavasitə təsiri ilə separatçı dəstələr silahlı terror yoluna düşmüşdülər. Cənubda Talış-Muğan Respublikası kimi bədnam bir qurum hazırlanırdı. Şimalda sadvalçılar Şimal rayonlarəının parçalanmasına cəhd göstərirdilər. Gəncədə, Qazaxda və başqa regionlarda xanlıq iddiasına düşüb quberniyalar yaratmaq istəyənlər peyda olmuşdu. Daxildən və xaricdən irticaçı qüvvələr birləşib Azərbaycanın məhvı planlarını həyata keçirməyə çalışırdılar.

Azərbaycan məhv olmaq təhlükəsi ilə üzləşdiyi belə bir zamanda müxtəlif siyasi partiyaların sayı artırdı. Onların sayı artdıqca hər birinin öz mövqeyi yaranırdı. Siyasi partiyaların sayı artdıqca hər birinin də öz mənafeyi yaranırdı. Bu da respublikada qarşıdurma yaradırdı. İnsanlar biri-birinə etibar etmirdilər, öz qüvvələrini düşmənə qarşı yönəltmək əvəzinə, bir-birinə qarşı yönəldib özləri-özlərinə ziyankarlıq verirdilər. Adını "milli ordu qoyan xırda-xırda silahlı dəstələr quldurluq və soyğunçuluq edirdilər, günahsız adamların qanını axıdırdılar. Gün olmazdı ki, neçə-neçə gəncin ölüm xəbəri gəlməsin. Ölkə bir tərəfdən xaos içində idi, digər tərəfdən yasxanaya dönmüşdü, çörək tapılmırdı, gündəlik məişət malları çətin əldə olunurdu, enerji qıtlığı isə bir tərəfdən insanları sıxırdı. Xəstəlik, səfalət, yoxsulluq, dağıntı ölkəni başına götürmüşdü. Qanunlar işləmirdi. Çox çətin bir vəziyyət yaranmışdı.

Ölkədəki dağıntılar, pozuculuq, pərakəndəlik, başlı-başınalıq insanları vətəndaş müharibəsi, qardaş qırğını həddinə gətirib çıxarmışdı. Sərbəst hərəkət etmək, evdən bayıra çıxmaq probleme çevrilmişdi. İnsanlar çox zaman hara gəldi baş götürüb getmək fikri ilə nəfəs alırdılar. Mənəvi həyat pozulduqca təsərrüfat da pozulurdu, iqtisadiyyat dağılırdı.

Belə bir vəziyyətin yoluna qoyulması çox çətin idi. Çünki cəmiyyətdə baş vermiş pərakəndəliyin, dağıntının, inamsızlığın, mənəvi iflasın qarşısını almaq üçün insanlarda sabahkı günə inam yaratmaq lazım idi, onların arasında münasibətləri bərpa etmək lazım idi, vətəndaş həmrəyliyi yaratmaq lazım idi, milli birlik yaratmaq lazım idi. Azərbaycan xalqına məxsus tarixi, milli münasibətləri və ənənələri bərpa etmək zərurəti qarşıda dururdu. Bunları etmədən cəmiyyəti iflasdan qurtarmaq mümkün deyildi.

Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasətinin həyata keçirilməsində əsas çətinliklərdən biri də qloballaşmadır. Müstəqilliyə qədəm qoymuş gənc bir dövlət üçün qloballaşma adı altında milli-mənəvi dəyərlərinin sıxışdırılması, onun məhvi-

nə gətirib çıxara bilər. Qloballaşma beynəlxalq aləmdə labüd olan bir proses kimi həyatımızdan yan keçə bilməz. Bir şərtlə ki, bu prosesdən ümumi inkişafımız üçün səmərəli istifadə edə bilək.

Müstəqilliyimizin ilk illərində qloballaşmanın zərərli təzahürləri açıq-aşkar hiss olunmaqda idi. Kazinoların, diskotekaların, bəzi televiziya və şou-biznes proqramlarının ifrat fəallığı mənəvi dəyərlərimizin mövcudluqunu şübhə altına qoyurdu. Qloballaşma, cəmiyyətdə gedən prosesin təzahürünə çevrilmişdi. Cəmiyyətin bütün sahələrinə sirayət edən bu prosesin sədası (həm müsbət, həm də mənfi) mədəniyyətdə daha çox özünü biruzə verirdi.

Ümumilikdə, mədəniyyət fenomeninin mahiyyətinə, təbiətinə, onun yeni iqtisadi şəraitdə düçar olduğu yerinin müəyyənləşdirilməsi probleminə müasir dövrdə yenidən baxılması, mədəniyyət sahəsində mövcud vəziyyətin düzgün qiymətləndirilməsi üçün bütövlükdə keçmiş ittifaq respublikaları qarşısında duran problemlərə kompleks halda yanaşmaq lazımdır. Çünki respublikamızda mövcud olan mədəniyyət müəssisələrinin əsası sovet ideologiyasının bərqərar olduğu bir dövrdə qoyulmuşdur. Daha doğrusu bu müəssisələr həmin dövrün bəhrəsidir. Ona görə də müasir ictimai-siyasi şəraitdə mədəniyyət müəssisələrinin vəziyyətindən və mədəniyyətimizin problemlərindən bəhs edərkən bir neçə mühüm amili nəzərə almalıyıq: ölkənin müharibə vəziyyətində olmasını, torpaqlarımızın iyirmi faizinin düşmən tapdığında olmasını, bir milyondan artıq qaçqının olmasını, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid mərhələsinin çətinliklərini, dövlət büdcəsindən sosial-mədəni sahəyə ayırmaların ehtiyacları tam ödəmək səviyyəsində olmamasını və s. Əlbəttə bu amillərin siyahısını daha da artırmaq olar. Buna görə də bu qədər çətinliklərə məruz qalmış bir sahənin bütün problemlərini birdən-birə həll etmək mümkün deyil. Bu, hətta uzunmüddətli və çox ağır bir işdir (94, s.350).

## Mədəniyyət müəssisələrinin fəaliyyəti, əhalinin mədəni həyatda iştirakı və yaradıcılığın dəstəklənməsi

Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanmasını və inkişafını, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarəolunmasını, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyənləşdirən "Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunu" mədəniyyət müəssisələrinin idarəedilməsi və iqtisadiyyatının da əsas müddəalarını və təməl prinsiplərini özündə ehtiva edir. Bu qanun mədəniyyət idarələrinin, təşkilatlarının və müəssisələrinin idarəedilməsində bütün xalqların mədəni özünəməxsusluğunun mənbəyi olan şifahi xalq yaradıcılığının, adət-ənənələrin qorunmasını, mədəni sərvətlərin yaradılması, artırılması və yayılmasını, yaradıcı işçilərin sosial müdafiəsinin təmin olunmasını ən mühüm vəzifə kimi qarşıya qoyur (92, s.3).

Dünya sosializm sisteminin dağılması nəticəsində mədəniyyət sahəsində dövlət siyasətinə və mədəniyyətin maliyyələşdirilməsinə yenidən baxılması zəruriliyinin, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı sisteminə keçidin reallaşdığı bir dövrdə mədəniyyət siyasəti sahəsində məsuliyyətin əhəmiyyətli bir hissəsi mədəniyyət işçilərinin üzərinə düşür. Mədəniyyət müəssisələrinin idarəedilməsi prosesində meydana çıxan çətinliklər bu məsuliyyətin ağırlığını daha da artırır. Belə ki, imperiya ideologiyasının mənəviyyatımıza vurduğu zərbələrin, siyasi həyatımızdakı təbəqələşmənin elmə, mədəniyyətə tətbiq olunmasının, mənəvi dəyərlərimizin ideoloji zəmində saf-çürük edilməsinin ağrı-acıları nəticə etibarilə bu gün də hiss edilməkdədir. İttifaq respublikaları arasında uzun illər mövcud olmuş mədəni-iqtisadi əlaqələrin qırılması qanunauyğun şəkildə bütün

respublikaları demək olar ki, eyni problemlərlə üzləşdirdi. Lakin qərəzli siyasət nəticəsində müharibə vəziyyətinə gətirilmiş müstəqil Azərbaycanın bu problemlərdə payı ikiqat artıq oldu (92, s.4).

Azərbaycan mədəniyyətinin inkişaf perspektivlərini müəyyən etməyə çalışarkən sivil dünyanın mədəni təcrübəsi ilə yanaşı mədəniyyətimizin yaxın keçmişdəki vəziyyətini təhlil etməyə də ehtiyac duyulur. Əgər bu vaxta qədər mədəniyyət müəssisələrinin strukturunda yaxşılığa doğru əhəmiyyətli dəyişikliklər nəzərə çarpmırsa, onlar öz fəaliyyətlərini faktik olaraq əsasən sovet dövründəki forma və vasitələrlə həyata keçirməyə çalışırlarsa, yeni fəaliyyət mexanizmləri hələ heç nəzəriyyə formasında da hazır deyilsə, onda bu təhlilin zəruriliyi daha qaçılmaz olur. Digər tərəfdən erməni işğalının mədəniyyətimizə gətirdiyi bəlaları da nəzərdən qaçırmaq olmaz. Belə ki, işğal olunmuş ərazilərdə mədəniyyət sərvətlərimiz talanmış, maddi və mənəvi mədəniyyət abidələrimiz dağıdılmışdır. Ermənilər təcavüz nəticəsində 500 tarixi artixektura abidəsini, 100-dən çox arxeoloji obyekti, 22 muzey, 4 şəkil qalereyası və 808 klub müəssisəsini, 927 kitabxana, 85 musiqi məktəbi, 10 park, 4 dövlət teatrı və 2 konsert müəssisəsini planlı surətdə məhv etmiş, yaxud özününküləşdirmişlər (92, s.5). Belə bir vəziyyət mədəniyyət müəssisələrinin idarəedilməsi və iqtisadiyyatının təşkili ilə bağlı həlli müşkül olan bir sıra ciddi problemlər meydana çıxartdı.

Mədəniyyət müəssisələrinin üzləşdiyi çətinliklər içərisində şəxsi və işgüzar keyfiyyətləri müasir tələblərə cavab verəcək ixtisaslı kadrlar qıtlığı da başlıca əngəllərdəndir. Çünki, Mübariz Süleymanlının təbirincə desək, “yalnız mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanılmasını və inkişafını, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasını, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə

formalarını müəyyən edən "Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunu"nun əsas müddəalarını həyata tətbiq edəcək, onu öz əməli fəaliyyətləri ilə reallaşdıracaq, bu qanunun işlək mexanizmini yaradacaq mütəxəssislər ordusu formalaşdırılacağı təqdirdə Azərbaycan mədəniyyətinin inkişafından, mqəsədyönlü perspektivlərindən danışmaq olar. Belə bir məsuliyyətli vəzifənin həlli bütün səlahiyyətli dövlət və hökumət strukturları, qurulmları ilə yanaşı təhsil müəssisələrinin keyfiyyət göstəricilərindən, tədris proqramlarının, dərsliklərin və s. səviyyəsindən də çox asılıdır" (92, s.6).

İndiyədək respublikamızda mədəniyyət fəaliyyətinin tənzimlənməsi məqsədi daşıyan bir sıra qanunların qəbulu sevindirici haldır. Mədəniyyət müəssisələrinin iqtisadiyyatı və idarəedilməsinə birbaşa və ya dolayısı ilə aidiyyatı olan qanunlar bütövlükdə mədəniyyətimizin gələcək perspektivlərinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Dövlətə məxsus mədəniyyət sərvətlərindən, bu sərvətlərin və milli mədəniyyətin inkişafı, mühafizəsi, təbliği və artırılması ilə məşğul olan mədəniyyət müəssisələri şəbəkəsindən, mədəniyyəti idarə edən orqanlardan, milli-mədəni əmlakın bərpası, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məşğul olan digər dövlət mədəniyyət təsisatlarından ibarət olan Azərbaycan Respublikasının dövlət mədəniyyət sistemi məhz bu qanunlar çərçivəsində fəaliyyət göstərir. Dövlət mədəniyyət sisteminə daxil olan bir təsisat kimi bütün mədəniyyət müəssisələri də fəaliyyətlərində bu qanunları rəhbər tutmalı, idarəetmə prosesini həmin qanunlar vasitəsilə tənzimləməlidir (92, s.6-7).

Digər mədəniyyət təsisatları kimi mədəniyyət müəssisələri də mülkiyyət formasından asılı olaraq dövlət büdcəsindən, yerli büdcələrdən, xüsusi mülkiyyətçinin vəsaitləri, habelə özlərinin fəaliyyətindən əldə edilmiş gəlirlər və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmamış digər mənbələr hesabına maliyyələşdirilir. Hazırda ölkədə müxtəlif tipli cəmi

3275 klub müəssisəsi mövcuddur. Bu müəssisələrdə 8236 kollektiv və qrup müxtəlif fəaliyyət növlərini həyata keçirir. Həmin klubların 107 517 iştirakçısı vardır.

Avropa Şurasına təqdim edilmiş Milli Məruzədə deyilir ki, mədəniyyət müəssisələri və mədəniyyət aləmi ilə bağlı öz rol və məsuliyyətini gələcəkdə yenidən nəzərdən keçirmək üçün Mədəniyyət və Turizm Nazirliyinin yaxşı imkanları mövcuddur. Mərkəzləşdirilmiş qaydada ümumi "təmin etmək/həyata keçirmək", bilavasitə idarə etmək və pul ayırmaq funksiyasını yerinə yetirmək əvəzinə, tədricən həyata keçirilən desentralizasiya nəticəsində o, gələcəkdə öz rolunu dəyişdirməyə, islahatların, mədəniyyət siyasətinin və mədəniyyəti himayənin əlaqələndiricisinə çevrilməyə müvəffəq ola bilərdi. Müəssisələrin saxlanılması ilə bağlı təbii tələbat və arzular həmişə mövcuddur, lakin onlar özlərini və öz funksiyalarını yenidən tapmalı, öz auditoriyalarını müəyyənləşdirməli, bununla bərabər nə təklif etdikləri ilə nə tələb olunduğu arasında uyğunluğun mövcudluğuna əmin olmalıdırlar. İctimaiyyət üçün öz cazibədarlığını itirən muzeylərlə bağlı situasiya belədir və bunun nəticəsi olaraq onları ziyarət edənlərin sayı dramatik şəkildə azalır, çünki onlar müasir siyasət tələblərinə, məsələn, cəmiyyətin tələbatlarına cavab verən proqramlara ləng uyğunlaşırlar. Bu hadisə, həm də son onilliklərdə çoxlu yeni muzeylərin açılması faktına baxmayaraq baş verir.

Dövlət kitabxanalarının ən mühümlərində informasiyalara kompüter vasitəsilə yol tapmaq imkanı mövcud olmasına baxmayaraq, onaların vəziyyətində də bu hal müşahidə olunur. Cəmiyyətlə daha yaxşı münasibətlərin qurulması, cəmiyyətin tələbatlarının müəyyən edilməsinə gətirib çıxaran tədqiqatlar aparılması, gənclər üçün təhsil proqramları, ictimai birliklərin resurs mərkəzləri kimi yeni fəaliyyət xüsusiyyətlərinə yiyələnmələri kitabxanaların rolunun yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

Məktəblərdəki rəssamlıq təhsili də daxil olmaqla, xeyli yaxşı inkişaf etmiş ənənəvi proqramların mövcud olmasına baxmayaraq, gənclərin mədəni tələbatları zəif tədqiq edilmişdir. Azərbaycanın demoqrafik strukturunda gənclər çox böyük faiz nisbətinə malikdirlər; mədəniyyət sektoru və onun müəssisələrinin bu yeni publikanın tələbatlarına uyğun olmaması təhlükəsi mövcuddur. İslahatlar prosesi bu amili də nəzərə almalı olduğuna görə, nazirlik çərçivəsində "vəzifə qrupu" yaradılmasını tövsiyə edirik; bu qrup gənclərin arzu və istəklərini ən dolğun şəkildə cavablandırmaq üçün onların mədəniyyətdə iştirakı məsələlərini və tələbatlarını öyrənəcəkdir. Gənc istedadların müəyyən edilməsi və dəstəklənməsinə yönəldilən "Azərbaycan uşaqları" dövlət proqramı bu mənada müsbət reaksiyanı əks etdirir.

Azərbaycan musiqi mədəniyyətini maliyyələşdirən xüsusi fondlar mövcud deyildir. Ayrı-ayrı fondlar bütövlükdə mədəniyyətlə, o cümlədən musiqi ilə bağlı olan bəzi layihələrin gerçəkləşməsinə yardım göstərirlər. Onların arasında "Azərbaycan Mədəniyyətinin Dostları" Fondu xüsusilə seçilir, bu fondun köməyi ilə "İpək Yolu" Bakı Beynəlxalq Klassik Musiqi Festivalı, rus baletinin ulduzları Vyaçeslav Qordeyev və Nadejda Pavlovanın qastrolları, Rəşid Behbudov və Müslüm Maqomayevin yubiley gecələrinin, Azərbaycanda Yaponiya Mədəniyyəti Günlərinin keçirilməsi kimi mədəniyyət tədbirləri təşkil olunmuşdur. Bununla yanaşı Fond "Azərbaycan – İrs" jurnalının nəşrini həyata keçirir və ayrı-ayrı nəşrləri maliyyələşdirir. Onun maliyyələşdirdiyi son nəşrlərdən biri S.Abdullayevanın "Azərbaycan xalq musiqi alətləri" (Bakı, 2000-ci il) kitabı olmuşdur. Açıq Cəmiyyət İnstitutu (Soros Fondu) da vaxtaşırı bəzi musiqi tədbirlərini maliyyələşdirir və Mədəniyyət Nazirliyi ilə birlikdə müxtəlif layihələri həyata keçirir.

Not və musiqişünaslıq ədəbiyyatının nəşri işində mürəkkəb vəziyyət yaranmışdır. Musiqişünaslıq əsərlərinin böyük bir hissəsi müəlliflərin öz vəsaiti, çox nadir hallarda isə

sponsorların qoyduqları vəsait hesabına nəşr olunur. Ötən on il ərzində bəzi müəlliflər Azərbaycan musiqisi problemlərinə həsr olunmuş tədqiqatlarını, kiçik tirajla da olsa, nəşr edə biliblər ki, bu da mövcud musiqi ədəbiyyatının zənginləşməsinə qiymətli töhfə olmuşdur.

1999-cu ildə Azərbaycanda ilk dəfə olaraq, peşəkar musiqi jurnalının – Bəstəkarlar İttifaqının təsis etdiyi "Musiqi dünyası" toplusunun işıq üzü görməsi diqqətəlayiq bir hadisə oldu. Bu, rüblük, elmi-pedoqoji, tənqidi-publisistik, mədəni-maarif jurnalı müasir Azərbaycan musiqisi problemlərinin müzakirəsinə geniş yer verir, oxucuları müxtəlif ölkələrdən olan alimlərin ən yeni axtarışları ilə tanış edir. İnternetdəki xüsusi saytı sayəsində jurnal ən geniş oxucu kütləsinin malı olmuşdur.

Digər bir dövri nəşr Bakı Musiqi Akademiyasının "Şərqi" jurnalıdır. İldə iki dəfə nəşr olunan bu jurnal ölkənin musiqi həyatında baş verən ən maraqlı hadisələri işıqlandırmaqla yanaşı, əsasən tələbəlik həyatına, musiqi pedaqogiyasının aktual problemlərinə diqqət yetirir.

Səsyazma studiyalarının sayı son illərdə xeyli artmışdır, ancaq onlar əsasən populyar musiqi nümunələrinin yazılması üzrə ixtisaslaşmışlar. Azərbaycanda yüksək peşəkarlıq səviyyəsinə malik mütəxəssislərin olmasına baxmayaraq, lazımi texniki avadanlığın yoxluğu klassik musiqi nümunələrinin keyfiyyətli şəkildə yazıya alınmasını çətinləşdirir. Bu səbəbdən CD-lərin çoxu xaricdə buraxılmışdır. Belə ki, altı diskdən ibarət "Klassik Azərbaycan musiqisi" "AMOCO" neft şirkətinin və "Azerbaijan International" jurnalının iştirakı ilə ABŞ-da, Fərəc Qarayevin CD-si Belçikada, Firəngiz Əlizadəninki İsveçrədə nəşr edilmişdir.

Bu gün Azərbaycanın musiqi mədəniyyəti qarşısında ciddi problemlər durur və bu problemlərin həlli üçün musiqi sənətinin vəziyyətinə cavabdehlik daşıyan bütün institut və təşkilatların öz səylərini birləşdirməsi tələb olunur. Dövlətin musiqi sənəti sahəsində mədəniyyət siyasətinin əsas

istiqamətləri kimi aşağıdakıları göstərmək olar: yaradıcı potensialın qorunub saxlanması, musiqi kadrlarının başqa fəaliyyət sahələrinə, ölkənin hüdudlarından kənara axını prossesinin zəifIədilməsi, musiqiçilərin onlara layiq əmək haqqı ilə təmin edilməsi; bəstəkarların yaradıcılığının stimullaşdırılması, janrların bərabər həddə inkişafının təmin edilməsi, daha istedadlı müəlliflərin əsərlərinə sifariş sisteminin qaydaya salınması; orjinal kredit forması kimi peşəkar musiqi yaradıcılığına dövlət qrantlarının ayrılması sisteminin yaradılması (istedadlı uşaqlar üçün xüsusi təqaüdlər, yaradıcılıq mübadiləsinin genişləndirilməsi, müsabiqələr keçirilməsi və s.); müvafiq hüquqi mexanizmlər (vergi siyasəti, müəllif hüququna dəqiq riayət edilməsi) vasitəsilə musiqi bazarının dövlət tənzimlənməsinin təmin edilməsi; musiqi menecerləri dövlət institutunun formalaşdırılması; bütün dünya musiqi mədəniyyətinin yalnız ən yüksək bədii nümunələrini nümayiş etdirən xüsusi telekanalın ("Mədəniyyət" kanalı) yaradılması; musiqi mədəniyyətinin inkişafı üçün regional proqramların işlənib hazırlanması; ən yeni poliqrafik bazaya malik xüsusi musiqi nəşriyyatının yaradılması; klassik Azərbaycan musiqisi nümunələrinin yazılması və bərpası üçün müasir texniki avadanlıqla təchiz olunmuş səsyazma studiyasının yaradılması; ölkənin mədəni həyatının sabitlik "qovşaqlarının" yaradılması – müntəzəm olaraq beynəlxalq festivalların, o cümlədən müasir musiqi, caz və muğam musiqisi festivallarının, müsabiqələrin keçirilməsi; konsert fəaliyyətinin canlandırılması və xarici konsert firmaları ilə əlaqələrin sahmana salınması üçün festivallar, müsabiqələr və baxışlar haqqında açıq məlumat bankının formalaşdırılması; uşaqlara ünvanlanan yüksək bədii keyfiyyətə malik musiqi əsərlərinin yaradılması və yayımı üçün ən əlverişli şəraitin formalaşdırılması.

Azərbaycanın ənənəvi musiqi mədəniyyəti janr və forma rəngarəngliyini canına hopduran çoxplanlı bir hadisədir.

Azərbaycan xalq incəsənəti ta qədimdən iki əsas xətt üzrə: əmək, mərasim, məişət nəğmələri, kollektiv və solo rəqslər və xalq teatrı janrlarından ibarət olan folklor məcrası və muğamları, xalq mahnılarını ifa edən aşıq və xanəndələrin yaşatdığı şifahi ənənəli peşəkar musiqi sənəti məcrası ilə inkişaf etmişdir.

90-cı illərdən etibarən Azərbaycanın musiqi mədəniyyətinin infrastukturunda müəyyən dəyişikliklər baş vermişdir. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi müxtəlif növ sənətlərin əlaqələndirilməsini həyata keçirir, respublika əhəmiyyətli teatr-tamaşa və konsert müəssisələrinə bilavasitə rəhbərlik edir, kitabxana fondlarını zənginləşdirmək üçün musiqili dram və bədii əsərləri, teatrların və yaradıcı kollektivlərin repertuarına salınmaq üçün musiqi əsərlərini satın alır. Mədəniyyət Nazirliyi beynəlxalq festivallar, müsabiqələr keçirir, yubiley gecələri və görkəmli hadisələrə həsr olunmuş konsertlər təşkil edir. Xarici ölkələrlə fəal əməkdaşlıq edir, Mədəniyyət Günləri keçirir, mədəni əməkdaşlıq çərçivəsində yaradıcı kollektivləri qastrollara göndərir və başqa ölkələrdən gəlmiş kollektivləri və solistləri qəbul edir. Mədəniyyət Nazirliyi musiqi məktəblərinə metodiki kömək göstərir, tədris proqramları və dərsliklərin yaradılmasında təşkilati işlərlə məşğul olur.

Azərbaycanda musiqinin inkişafına xidmət edən bir sıra ictimai təşkilatlar fəaliyyət göstərir. Bunlardan biri üzvlərinin sayı 164 nəfər olan "Azərbaycan Bəstəkarlar İttifaqı"dir. İttifaqın nəzdində bu bölmələr fəaliyyət göstərir: musiqili səhnə əsərləri bölməsi, simfonik musiqi bölməsi, kamera musiqisi bölməsi, mahnılar bölməsi, musiqi tənqidi bölməsi və s. Azərbaycan Bəstəkarlar İttifaqı öz üzvləri haqda informasiyalar toplayır, öz imkanları daxilində onların yaradıcılıq və şəxsi xarakterli müxtəlif problemlərinin həllinə kömək edir. Bu təşkilata üzvlük artıq peşə karyerasının zəruri elementi hesab olunmur.

“Azərbaycan Musiqi Xadimləri İttifaqı”nın əsas vəzifələrinə müxtəlif müsabiqələrə və festivallara səfərlərin təşkilində musiqiçilərə və musiqi kollektivlərinə köməklik göstərmək, ölkədə müxtəlif müsabiqələr keçirmək, məişət problemlərinin həllində musiqiçilərə yardım göstərmək daxildir.

1995-ci ildə təşkil edilən “Yeni Musiqi” cəmiyyəti isə yeni şəraitdə geniş beynəlxalq əlaqələr qurmağa, Azərbaycan musiqisini dünya arenasında təbliğ etməyə çalışır. “Yeni Musiqi” Cəmiyyəti Azərbaycanı İSCL və ACL-də təmsil edir, ən yeni musiqi ilə bağlı müxtəlif festival layihələrini həyata keçirir, Azərbaycan musiqiçiləri ilə tanınmış xarici ifaçılar və nəşriyyatlar arasında vasitəçilik edir.

Azərbaycanda bir yaradıcılıq ittifaqı nümunəsi kimi özünüidarəetmə prinsipi ilə fəaliyyət göstərən təşkilat Azərbaycan Aşıqlar Birliyidir. Qeyd etmək lazımdır ki, bu qeyri-dövlət təşkilatı 1984-cü ildən Azərbaycan Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Respublika Aşıqlar Birliyinin davamçısıdır. Aşıqlar Birliyinin fəaliyyətini ümumi şəkildə nəzərdən keçirərkən, hər şeydən əvvəl onu qeyd edək ki, həmin təşkilat bu, son dərəcə mürəkkəb dövrdə yeni şəraitə uyğunlaşmaqda kifayət qədər çeviklik göstərə bilir. Maliyyə ehtiyatlarının məhdudluğuna baxmayaraq, Birlik rəhbərliyi onlarla tədbir, o cümlədən müasir dövrün ən məşhur aşıqlarının yaradıcılıq, keçmişin görkəmli ustad aşıqlarının isə xatirə gecələrini keçirmişdir. Birliyin nəzdində iki aşıq ansamblı fəaliyyət göstərir, xalq yaradıcılığı problemini işıqlandıran “Ozan” qəzeti nəşr edilir. Aşıqlar Birliyi həmçinin qonşu dövlətlərin (İran, Türkiyə) dastan ustadları ilə mədəni əməkdaşlığının yaradılması və inkişaf etdirilməsi istiqamətində də müəyyən iş aparır. İran aşıqları ilə xüsusilə sıx yaradıcılıq əlaqələri qurulmuşdur.

Mənşəyilə ta qədim dövrlərə gedib çıxan Azərbaycan təsviri sənət ənənələri özündə neçə-neçə nəsillərin bədii təcrübəsini yığıb saxlamışdır. Buraya Qobustan və Abşeron

mağaralarındakı mezolit və neolit dövrlərinə aid qayaüstü rəsmlər, zəngin bəzəyə malik əmək alətləri və məişət əşyaları, öz gözəlliyi və rəngarəngliyilə nadir olan xalçaçılıq sənəti, zərgərlik əşyaları və s. daxildir. Həmçinin öz nəfisliyi və zərifliyi ilə seçilən memarlıq abidələrini – məscidləri, məqbərələri, sarayları və kaşı naxışlarını da xatırlamamaq mümkün deyil. Bədii yaradıcılıq prossesi tarixində Azərbaycan miniatür rəssamlığı və onun görkəmli nümayəndələri Sultan Məhəmməd və Mirzə Əlinin yaradıcılıqları unikal bir tarixi hadisədir.

Bütün bunlar Azərbaycan xalqının bədii mədəniyyətinin özünəməxsus "genofond"unu yaratmış, onun zəngin irsini təşkil etmişdir. Həmin irs XIX əsrin ortalarından yeni tendensiyalarla daha da dolğunlaşmışdır. Məhz bu dövrdə, güclənməkdə olan Rusiya – Azərbaycan bədii və mədəni əlaqələrinin güclənməsinin təsiri altında incəsənətdə tədricən keyfiyyət dəyişiklikləri baş verdi və bu da milli incəsənətdə yeni realist xüsusiyyətlərin meydana çıxması ilə nəticələndi. Bu dövrün əsas nümayəndələri kimi istedadlı fırça ustaları Mirzə Qədim İrəvani, Mir Mövsüm Nəvvab, şair və rəssam Natəvan və bir çox digərləri çıxış edirdi.

Azərbaycan təsviri sənətində növbəti keyfiyyət dəyişiklikləri XX əsrin əvvəllərində baş verdi: həmin dövrdə bu sənətin inkişafında yeni növ, janr və formaların, başlıcası isə demokratik satirik qrafika və dəzgah rəngkarlığının meydana gəlməsi prossesini müşahidə etmək olar.

Artıq 1910-cu ildə təsviri sənətin əhali arasında populyarlaşdırılması işi aparılırdı: rus rəssamlarının sərgiləri keçirilirdi. 1912-ci ildə isə "Bakı Rəssamları Cəmiyyəti" təşkil olmundu.

Azərbaycan rəssamlıq məktəbinin yaranmasında onun rus rəssamlıq ənənələri ilə əlaqələri mühüm rol oynadı. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində bir çox rus realist rəssamları Azərbaycanda oldular və yerli milli ənənələrə böyük maraq göstərərək, onlardan özlərinə məxsus tərzdə əsərlərində istifadə etdilər. Digər tərəfdən, bu əməkdaşlıq bir çox cəhətdən

yerli rəssamlıq məktəbinin, əsasən də təsviri sənət sahəsində, yaradıcı şəkildə yeniləşməsinə səbəb oldu. 1920-ci illərin sonlarında Bakıda açılan rəssamlıq məktəbi peşəkarlığın inkişafında böyük rol oynadı və xeyli istedadlı rəssam yetişdirdi. Onların arasında Tağı Tağıyev, Mikayıl Abdullayev, Böyük Ağa Mirzəzadə, Səttar Bəhlulzadə və s. kimi bir çox böyük rəssamlar vardı. İndi rəssamların mənimsədikləri əsas üslub istiqaməti realistlik, yeni həyat gerçəkliyinin həqiqi, real obrazlarda interpretasiyası idi. Məhz bu, realist tendensiya Azərbaycan təsviri sənətində bir çox onilliklər ərzində aparıcı istiqamət olaraq qalmışdır.

1920-ci ildən, sovet hakimiyyəti qurulduqdan sonra respublikada incəsənət sahəsində təşkilati quruculuq işlərinə başlanıldı və bu iş 1932-ci ildə Azərbaycan Sovet Rəssamları İttifaqının yaradılması ilə başa çatdı.

Azərbaycan rəssamları (eləcə də bütün Rusiyada və digər milli məktəblərdə) öz əsas vəzifələrini zəhmətkeş xalqın həyatını doğru-düzgün təsvir etməkdə görürdülər. Lakin, milli rəssamlıq ənənələrinin əsas cəbbəxanası dekorativ-tətbiqi sənətlə, yəni öz məğzi etibarı ilə qeyri-realist ifadə vasitələri ilə bağlı olduğuna görə, həm rəngkarlıqda, həm də heykəltəraşlıqda dərhal ustalıq – həyat gerçəkliyini realist baxımdan gerçək formalarda əks etdirmək bacarığı məsələsi meydana çıxdı. Buna paralel olraq, milli incəsənətin özünəməxsusluğu məsələsi, müzakirə edilməyə başladı ki, bu da faktiki olaraq, əsas problem kimi 1990-cı illərə qədər davam etdi.

1930-cu illərin ortalarında Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (ADRM) tədris-pedaqoji işin yenidən qurulması baş verdi, bunun da nəticəsində onun bir çox məzunu Moskva və Leninqrad (indiki Sankt-Peterburq) şəhərlərinin ali məktəblərinə ezam edildi.

Başqa sözlə, sovet dövrünün Azərbaycan təsviri sənəti Sovet İttifaqında həyata keçirilən bədii siyasətə tamamilə cavab verirdi, yəni həmin illərdə icazə verilən yeganə bədii

istiqamətdə – sosializm realizmi çərçivəsində inkişaf edirdi. Əslində, bu istiqamətin elə bir xüsusi, yalnız ona xas olan cəhətləri yox idi. Onun yeganə spesifik xüsusiyyəti ciddi ideoloji yönümlülüyə malik olması idi. "Sosialist həyat tərzi"nin üstünlüyünü nümayiş etdirməyən hər bir əsər düşmənçilik, dövlət qurluşu üçün təhlükə kimi qiymətləndirilirdi. Belə bir vəziyyət bütövlükdə bütün ölkədə və bütün milli respublikalarda hökm sürürdü.

Belə ideoloji təzyiqin milli incəsənətin taleyinə yalnız mənfi təsir göstərdiyini də söyləmək olmaz. Azərbaycan mədəniyyətinin 70 illik sovet dövrü tarixində işıqlı səhifələr də az deyil. Bu, böyük sənət adamlarının – incəsənətdə realist istiqamətin həqiqi müdafiəçilərinin yaradıcılığı deməkdir. Onlar sosializm realizmi sahəsində əldə etdikləri nailiyyətlərlə səmimi qəlbdən fəxr edirdilər və bu nailiyyətlər çox vaxt realist yaradıcılığın həqiqətən yüksək keyfiyyətli bədii nümunələri idi. Bu dövrün Azərbaycan incəsənətinin, xüsusilə də rəssamlığın fəxr edəsi çox şeylər vardır və bu gün Dövlət İncəsənət Muzeyinin divarlarını bəzəyən o dövrə aid istedadlı əsərlərin sayı o qədər də az deyil. Artıq yuxarıda adlarını çəkdiyimiz sənətkarlarla yanaşı həmin dövrdə Salam Salamzadə, Mahmud Tağıyev, Xalidə Səfərova, Əyyub Məmmədov, Toğrul Sadıqzadə, parlaq "60-cı illər" nəslindən isə Tahir Salahov, Toğrul Nərimanbəyov, Rasim Babayev, Asəf Cəfərov, Nadir Əbdürrəhmanov kimi istedadlı fırça ustaları yetişmişdir.

Heç şübhəsiz ki, Azərbaycan rəngkarlığında o dövrdə hakim olan ideologiyanı prinsip etibarı ilə qəbul etməyən və bu səbəbdən hakimiyyət orqanlarının rəğbətini qazanmayan rəssamlar da olmuşdur. Onların özlərini bilərəkdən "sosialist qurluşu"nun heç də az olmayan imtiyazlarından məhrum etdiklərindən danışmaq artıq olardı, amma məhz bu sənətkarların sənətdə "ideologiyadan uzaq" mövqeləri 1980-ci illərin ortalarındakı məlum siyasi dəyişikliklərdən sonra aparıcı mövqeyə çevrildi. Belə rəssamlar arasında ilk növbədə Əşrəf Murad-

oğlunun, Cavad Mircavadovun, Kamal Əhmədovun adlarını çəkmək lazımdır.

Bu gün Azərbaycan təsviri sənəti dolğun, yetkin və çoxşaxəli bir fenomen kimi çıxış edir və onu parlaq orjinal bir hadisə kimi fərqləndirən xarakterik struktur xüsusiyyətlərinə malikdir. Bu sənətdə dünya praktikasında mövcud olan bütün əsas bədii istiqamətlər təmsil olunmuşdur. Rəngkarlıqda realist tendensiya öz "sağlam", hər cür yalançı pafosdan uzaq məcrasına qovuşmuşdur. Primitivizm, ekspressionizm, abstraktsionizm kimi bir çox digər istiqamətlər də onunla dinc "yanaşı yaşayır". 1990-cı illərin sonlarında rəngkarlıq həyatına qədəm qoyan gənc rəssamlar konseptual incəsənətin müxtəlif növlərini mənimsəyirlər ki, bunlar da, heç şübhəsiz, ənənəvi texnikalardan fərqli olaraq daha ciddi maliyyə və mənəvi dəstək tələb edir. Həmin növlər müasir yaradıcılığın Lend-Art, installasiya, fotoqrafiya və Video-Art, aksiya, performans və s. kimi növlərini əhatə edir.

Heç şübhəsiz ki, bu gün rəssamlar öz düşüncə və bədii ideyalarını gerçəkləşdirməkdə sərbəstdirlər. Həmçinin, heç şübhəsiz ki, (bunu qeyd etmək çox vacibdir!) tarixilik baxımından bu, istənilən xalqın incəsənətinin inkişafı taleyində ən mühüm andır. Lakin bu qədər uzun illər boyu həsrətində qaldığımız və arzuladığımız demokratik azadlıqların təsdiqi, cəmiyyətin həyatına heç də təkcə müsbət dəyişikliklər gətirməmişdir.

Sosializmin inkaredilməz üstünlüklərindən biri mədəniyyət və incəsənət xadimlərinin maliyyə cəhətdən dövlət tərəfindən dəstəklənməsi idi. Rəssamlar üçün bu, onların Rəssamlar İttifaqının hesabına saxlanılan (və bu gün də saxlanılmaqda davam edir!) emalatxanalarla pulsuz təmin edilməsi, sərgilərin müntəzəm keçirilməsi, sistematik olaraq Mədəniyyət Nazirliyi, dövlət muzeyləri, Bədii Fond tərəfindən rəsm əsərlərinin satın alınması, nəhayət rəssamların planlı, müntəzəm surətdə təkcə ölkənin daxilinə deyil, həm də xarici ölkələrə yaradıcılıq ezamiyyətinə göndərilməsi və "dövlət əhəmiyyətli" mövzulara

həsr olunmuş əsərlərin yaradılmasına dövlət sifarişləri sisteminin həyata keçirilməsi demək idi. Bütün bu "nemətlərin" əvəzi (əvvəldə də qeyd edildiyi kimi) ciddi senzura və əsərlərdə "ideoloji əhəmiyyətin" vurğulanması kimi ağır tələbin yerinə yetirilməsilə ödənilirdi.

Artıq 10 ildir ki, rəssamların həyat fəaliyyətini təmin edən "qida sistemi" çökmüşdür və indi onların uğurlarının yeganə təminatçısı istedad və "əlahəzrat təsadüf" olmuşdur. Başqa sözlə, sənət dünyasında təbii seçim baş vermişdir: ortabablar, hər şəraitə uyğunlaşanlar haçansa çox nüfuzlu olan bu sahələri tədricən tərk edirlər və bu günkü Azərbaycan rəssamlıq məktəbinin simasını yalnız əsl ustalar, əsl istedadı olanlar, "öz ordenlərinin cəngavərləri" müəyyən edirlər.

Hazırda Azərbaycan Rəssamlar İttifaqının 800-ə yaxın üzvü vardır. Əvvəllər olduğu kimi, burada rəngkarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət, monumental incəsənət, qrafika və tənqid bölmələri fəaliyyət göstərir. Əvvəlki kimi yenə də rəssamlara İttifaqın tabeliyində olan iki qalereyada öz sərgilərini pulsuz təşkil imkanı verilir. Lakin, hər halda sərgilərin tam şəkildə təşkili üçün, heç olmazsa afişaların, dəvətnamələrin və ən yaxşı halda, kataloqların çapı üçün əlavə vəsait lazımdır.

Mədəniyyət Nazirliyinin tabeliyində olan sərgi salonlarında, hər şeydən əvvəl, S.Bəhlulzadə adına Sərgi Salonunda və R.Mustafayev adına Dövlət İncəsənət Muzeyinin zallarında yubileylərə həsr olunan və plan üzrə sərgilər pulsuz təşkil edilir. Muzeyin fəal sərgi fəaliyyətini xüsusilə qeyd etmək istərdik: təkcə ötən il ərzində burada 22 sərgi keçirilmişdir. Mədəniyyət Nazirliyinin tabeliyində cəmi 26 şəkil qalereyası və iki sərgi salonu vardır. Bunlara yuxarıda adı çəkilən S.Bəhlulzadə adına Sərgi Salonu, «İçəri şəhər» Bədii Sərgi Salonu, Azərbaycan Respublikası Dövlət Şəkil Qalereyası, Gəncə, Şamaxı, Lənkəran və s. kimi rayon mərkəzlərində yerləşən 25 qalereya daxildir.

Dövlət büdcəsindən ayrılan vəsait hesabına Mədəniyyət Nazirliyi həm yaxın, həm də uzaq xaricdə xeyli sayda sərgi təşkil etmişdir. Onlardan, hər şeydən əvvəl, Azərbaycan rəssamlarının Rusiya Federasiyasında (Moskva), Ukraynada (Kiyev), Amerika Birləşmiş Ştatlarında, Avstriyada (Vyana) Azərbaycan Respublikası Mədəniyyət Günləri çərçivəsində keçirilən sərgilərini qeyd etmək lazımdır. Bu növ tədbirlərin ən axırıncılarından biri Azərbaycan rəssamlarının Strasburqda keçirilən və Azərbaycanın Avropa Şurasına daxil olmasının bir illiyinə həsr edilən sərgisidir.

Həmçinin bir sıra Azərbaycan rəssamlarının (Fərhad Xəlilovun, Vidadi Nərimanbəyovun, Teymur Məmədovun, Ədalət Qaranın, Namiq Dadaşovun, Sakit Məmmədovun) Mədəniyyət Nazirliyinin bilavasitə dəstəyi ilə Fransada, İtaliyada, İsveçdə, Türkiyədə və Rusiyada keçirilən fərdi sərgilərini də qeyd etmək lazımdır.

Mədəniyyət Nazirliyi tərəfindən öz növbəsində Azərbaycanda Rusiya Federasiyasından (onlardan ən maraqlılarının – Azərbaycanda Rusiya Federasiyası Mədəniyyəti Günləri çərçivəsində keçirilən "Dövlət Tretyakov Qalereyası Fondlarından" adlı rus avanqard rəssamlığına həsr olunmuş sərgini, "Rus naxışları" baş örtükləri və rus qobeleni sərgilərini, nəhayət rus rəssamı Nikas Safronovun fərdi sərgisinin adlarını burda ayrıca qeyd etmək istərdik), habelə digər MDB ölkələrindən (məsələn, gürcü rəssamı Tengiz Caparidzenin fərdi sərgisi) gətirilən sərgilər himayə edilmiş və keçirilmişdir.

Hər bir ölkənin tarixi kimi bizim tariximiz də, həm faciəvi, həm də sevincli unudulmaz hadisələrlə doludur. Onları daim xatırlamaq, böyüməkdə olan gənc nəslə yaxşı tanıtmaq müqəddəs borcumuzdur. Mədəniyyət Nazirliyi Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə hər il 20 yanvar, Xocalı faciəsi qurbanlarının xatirəsinə, həmçinin Novruz bayramına və Müstəqillik Gününə həsr olunmuş sərgilər keçirir.

Mədəniyyət Nazirliyi gənc rəssamları da unutmur, axı Azərbaycan incəsənətinin sabahını məhz onlar müəyyən edirlər. Gənc istedadların əsərlərindən ibarət sərgilər ABŞ-da, İsveçdə, Yaponiyada, İranda, Türkiyədə, Fransada nümayiş etdirilmişdir. Gənc rəssamların çoxu dəfələrlə beynəlxalq müsabiqələrdə iştirak etmiş, vətənə priz və mükafatlarla qayıtmışlar. Məsələn, 13 yaşlı Tamara Məmmədova ABŞ-da, İsveçdə və Yaponiyada keçirilən sərgilərdə qızıl medallar almışdır.

Mədəniyyət Nazirliyi özəl sektorla da əlaqə saxlayır. Bakıda bir sıra özəl şəkil qalereyaları fəaliyyət göstərir, onların arasında Bakı İncəsənət Mərkəzi, eləcə də "Abşeron" və "Qız qalası" qalereyaları öz fəallığı ilə xüsusilə seçilir. Belə ki, 1994-cü ildən başlayaraq, Bakı İncəsənət Mərkəzində hər il "Azərbaycan bu gün" plakatı üzrə milli müsabiqə keçirilir. Bu müsabiqənin baş sponsoru "UNOKAL-Khazar" neft şirkətidir. Mədəniyyət Nazirliyinin nümayəndəsi bu müsabiqənin münsiflər heyətinin daimi üzvüdür.

1998-ci ildə Bakıda Azərbaycan Fotoqraflar İttifaqı yaradıldı: o öz sıralarında həm peşəkarları, həm də həvəskarları birləşidirir. İttifaq hər ay sərgi-müsabiqələr keçirir, tanınmış xarici fotoqraflarla fəal əməkdaşlıq əlaqələri saxlayır, birgə layihələrdə iştirak edir. İttifaq yarandığı andan xeyli məhsuldar fəaliyyət göstərmişdir. Belə ki, 10 fərdi sərgi təşkil olunmuş, habelə məşhur fotoqraf Jozef Kudelkanın iştirakı ilə 2 beynəlxalq seminar keçirilmişdir. 2000-ci ildə 11 Azərbaycan fotoqrafı "World press foto" kimi nüfuzlu beynəlxalq müsabiqənin mükafatlarına layiq görülmüşdür.

Tətbiqi sənət sahəsində bu və ya digər layihələr əsasən müxtəlif fond və firmaların dəstəyilə həyata keçirilir. Onlardan Azərbaycan Açıq Cəmiyyət İnstitutunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Təsviri sənətin inkişafına dövlət dəstəyinə gəldikdə isə, bu dəstək sərgi fəaliyyəti ilə yanaşı rəssamlıq təhsili sahəsinə

yönəldilmişdir. Uzun illərdir ki, Uşaq Şəkil Qalereyası fəaliyyət göstərir və o, uşaqların bədii tərbiyəsində əsas mərkəz hesab olunur. 2000-ci ildə Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bədii fakultələri bazasında Rəssamlıq Akademiyası yaradılmışdır. İndi bu təhsil ocağının qarşısında bədii təhsil sisteminin yenidən təşkili və yeniləşdirilməsi sahəsində ciddi vəzifələr durur. Bunu təkcə ölkədə yaranmış vəziyyət deyil, həm də bədii yaradıcılığa getdikcə daha çox qeyri-ənənəvi, bəzən hətta gözlənilməz texnologiyaların fəal tətbiq edildiyi dünya praktikası tələb edir.

Rəssamlıq kadrlarının yetişdirilməsi ilə yanaşı Mədəniyyət Nazirliyi, iqtisadi vəziyyətin çətinliklərinə baxmayaraq, imkan daxilində rəssamların işlərini satın almağa davam edərək, onlara maddi yardım da göstərir. Belə ki, Mədəniyyət Nazirliyi Azərbaycan rəssamlarının 2000-ci il ərzində 44, 2001-ci ildə 49 əsərini satın almışdır. Belə əsər müəllifləri arasında həm yaşlı, həm də cavan nəslin nümayəndələri vardır.

• Azərbaycanda təsviri sənətin gələcək inkişafı və dəstəklənməsinin ən vacib problemlərindən biri Müasir İncəsənət Muzeyinin yaradılmasıdır. Dövlət İncəsənət Muzeyi XX əsr incəsənəti (rəngkarlıq, qrafika, heykəltəraşlıq) əsərlərinin kifayət qədər böyük kollegiyasına malikdir və onların bir qismi ekspozisiyalarda nümayiş etdirilir. Lakin akademik yönümlüyü səbəbəindən bu muzey müasir bədii praktikada yaranmış vəziyyəti olduğu kimi tam şəkildə əks etdirmir və etdirə bilməz də. Bununla bərabər həqiqətən parlaq və orijinal bir fenomen olan müasir Azərbaycan incəsənətinin nümunələri özəl kolleksiyalara (daha çox xarici ölkələrdəki), yaxud da rəssamların emalatxanalarına səpələnmişdir. İşləməyən zavodlar, fabriklər və s. kimi qeyri-ənənəvi ekspozisiya yerlərinə diqqət yetirmək lazımdır.

• Müasir Azərbaycan İncəsənəti Albomunun nəşri də aktual problemlərdən biridir; belə bir albomun varlığı yuxarıda adı çəkilən muzeyin yoxluğunu qismən əvəz edə və müasir

incəsənətin ən parlaq nümunələrinin populyarlaşmasına kömək edə bilər.

• Dövlət siyasətinin əsas vəzifələrindən biri ölkənin mədəni həyatında bölgələrin bərabər inkişafına və iştirakına yönəldilməlidir.

• Yüksək peşəkarlıq səviyyəsinin qorunub saxlanması və fikir mübadiləsi üçün Azərbaycan rəssamlarının yaxın və uzaq xarici ölkələrin ən yaxşı ali məktəblərində daimi təcrübə keçmələri və təhsil almaları sistemi yaradılmalıdır.

• Maliyyə dəstəyinin təmin edilməsi, müxtəlif tətbiqi sənət formalarının gündəlik həyata tətbiqi məqsədilə yeni binaların bədii tərtibatı və dizaynı üçün məcburi ayırmalar (1%-ə qədər) haqqında qanun işlənib hazırlanmalıdır.

• Estetik tərbiyə və bədii zövqün inkişaf etdirilməsi məqsədilə məktəb proqramlarına dünya mədəniyyətinin, dizaynının, xalq sənəti peşələrinin öyrənilməsi üzrə məcburi fənn daxil edilməlidir.

Kökləri etibari ilə tarixin ən dərin qatlarına gedib çıxan sənətkarlıq növlərinin xeyli hissəsi indiyə kimi öz mövcudluğunu davam etdirir. Xalçaçılıq, daş oymaçılığı, ipəkçilik, misgərlik, zərgərlik, şəbəkəçilik kimi ənənəvi sahələr də sənət peşələrinin əsasını təşkil edir. Ölkədə sənayenin inkişafı ənənəvi peşə sənətlərinin ixtisar prossesinə təsir etmişdir. Ancaq, buna baxmayaraq qeyd etmək lazımdır ki, bir sıra spesifik peşə sənəti məhsullarına daimi tələbatla bağlı olaraq, Şəkidə, Bakıda, Qazaxda və Azərbaycanın digər şəhərlərində qədim peşə ənənələrini qoruyub saxlayan hələ çox ustalar vardır.

Son illərdə Mədəniyyət və Turizm Nazirliyi xalq-tətbiqi sənətinin inkişafına xüsusi diqqət yetirir. Xalq sənəti nümunələri üzrə üç dəfə respublika sərgi-müsabiqəsinin keçirilməsi buna parlaq sübutdur. Bu sərgilərin keçirilməsində məqsəd bütün çoxcəhətliliyilə birlikdə Azərbaycan xalq tətbiqi sənətinin daha tam mənzərəsini yaratmaq olmuşdur: burada

Azərbaycanın hər yerindən xalçaçılıq, zərgərlik, ağac oymaçılığı, metalişləmə, bədii tikmə nümunələri, xalq musiqisi alətləri nümayiş etdirilmişdir. Həmin tədbirlərin keçirilməsi, bəzi növləri artıq itib-batmaq həddində olan xalq tətbiqi sənətinin inkişafı üçün, heç şübhəsiz, güclü stimul olmuşdur.

Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəz (əvvəlki adı Respublika Xalq Yaradıcılıq Evi olmuşdur) həmişə müxtəlif ənənəvi mədəniyyət sahələrinin hərtərəfli tənzimlənməsində əlaqələndirici rolunu oynamışdır. Məhz Xalq Yaradıcılığı Evi əməkdaşlarının ötən əsrin 30-40-cı illərində intensiv axtarışları sayəsində Azərbaycanın müxtəlif bölgələrinin qiymətli folklor nümunələri toplanmış və nəşr edilmişdir. Sonrakı illərdə Xalq Yaradıcılığı Evi həm yerli, həm də beynəlxalq xarakterli çoxsaylı festivilların, baxışların, müsabiqələrin keçirilməsinin təşəbbüsçüsü kimi çıxış etmişdir. Bu tədbirlər, heç şübhəsiz, bəzən müəyyən siyasi xəttin təbliği və təşviqi aləti olsa da, bütövlükdə xalq yaradıcılığının müxtəlif janrlarının inkişafını stimullaşdırır, ənənəvi incəsənətin mövcud vəziyyətinin bütöv mənzərəsini yaratmağa imkan verir, Azərbaycanın müxtəlif bölgələrinin xalq yaradıcılığı evlərilə, rayon mədəniyyət şöbələrilə əlaqələri həyata keçirir, onların nəzdində fəaliyyət göstərən xalq musiqisi kollektivlərinin attestasiyasını keçirir, lazım gəldikdə isə onlara metodik yardım göstərirdi. Əldə edilən məlumatlara görə respublikanın rayonlarında yaranmış ağır iqtisadi vəziyyətlə əlaqədar bəzi kollektivlər öz fəaliyyətlərinə xitam versələr də onların çoxu həm respublikada, həm də onun hüdudlarından kənarda aktiv yaradıcı fəaliyyətlə məşğul olur.

İfaçiliq sənəti – yaradiciliğin dəstəklənməsi məsələlərindən bəhs edərkən isə qeyd olunmalıdır ki, bu gün Azərbaycan təsviri sənəti dolğun, yetkin və çoxşaxəli bir fenomen kimi çıxış edir və onu parlaq orjinal bir hadisə kimi fərqləndirən xarakterik struktur xüsusiyyətlərinə malikdir. Bu sənətdə dünya praktikasında mövcud olan bütün əsas bədii istiqamətlər təmsil olunmuşdur. Rəngkarlıqda realist tendensiya öz "sağlam", hər

cür yalançı pafosdan uzaq məcrasına qovuşmuşdur. Primitivizm, ekspressionizm, abstraktsionizm kimi bir çox digər istiqamətlər də onunla dinc "yanaşı yaşayır". Heç şübhəsiz ki, bu gün rəssamlar öz düşüncə və bədii ideyalarını gerçəkləşdirməkdə sərbəstdirlər. Həmçinin, heç şübhəsiz ki, tarixilik baxımından bu, istənilən xalqın incəsənətinin inkişafı taleyində ən mühüm andır. Lakin bu qədər uzun illər boyu həsrətində qaldığımız və arzuladığımız demokratik azadlıqların təsdiqi, cəmiyyətin həyatına heç də təkcə müsbət dəyişikliklər gətirməmişdir.

Azərbaycanda peşəkar teatr yaranmamışdan əvvəl çoxəsrlik xalq teatrı ənənələri mövcud olmuşdur. Bütpərəstlik, dini, folklor-musiqi və ədəbi rəqs motivlərini özündə əks etdirən meydan tamaşaları bu teatrın məğzini və başlıca dəyərini müəyyən edirdi. Məhz, mayası fəal improvizasiyaya əsaslanan, müəyyən hallarda isə dini-mərasim təsəvvürləri elementlərinə malik xalq teatrı XIX əsr maarifçilərinə yeni teatrın əsasını qoymaq imkanı verdi. Həmin dövrdə Azərbaycan cəmiyyətinin mədəni həyatında baş verən mütərəqqi tendensiyalar özünü bir çox sahələrdə, o cümlədən teatr sənətində də büruzə verirdi. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan ziyalılırının o dövrkü təşəbbüsləri səhnə sənətilə məşğul olmağa o qədər də maraq göstərməyən ənənəvi islam cəmiyyəti şəraitində meydana çıxmışdı.

Klassik milli dramaturgiyanın əsasını qoyan Mirzə Fətəli Axundovun pyesləri Azərbaycanda dünyəvi teatrın yaranmasında həlledici rol oynamışdır. Onun 1873-cü ildə Bakıda, məşhur maarifçilər Həsənbəy Zərdabi və Nəcəfbəy Vəzirovun təşəbbüsü ilə səhnəyə qoyulan "Lənkəran xanının vəziri" və "Hacı Qara" pyesləri təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində ilk dramaturji tamaşalar olmuşdur.

Bütün Şərqdə Avropa üslublu musiqili teatr janrının əsasını görkəmli bəstəkar, publisist və ictimai xadim Üzeyir

Hacıbəyovun "Leyli və Məcnun" operası (1908-ci il) və "Arşın mal alan" operettası (1913-cü il) qoymuşdur.

Teatr tamaşaları təkcə, o zaman quberniya mərkəzi olan Bakıda deyil, həmçinin Quba, Şəki, Şuşa, Naxçıvan kimi əyalət şəhərlərində, habelə qonşu quberniyalarda – xeyli azərbaycanlı əhalinin yaşadığı Tiflis (Tbilisi) və İrəvan (Yerevan) şəhərlərində oynanılırdı. Teatr repertuarı yerli müəlliflərin, o dövrün ən vacib problemlərinə toxunan pyesləri ilə daim zənginləşdirilirdi. Rusiyada və Avropada təhsil almış gənclər xarici klassiklərin əsərlərini fəal surətdə tərcümə edir və dünya dramaturgiyası nümunələrini tamaşaya qoyurdular. O dövrün kanonlarına uyğun olaraq qadın rollarını kişi aktyorlar oynayırdılar, tamaşaların rejissurası və tərtibatı da cəlbedici deyildi. Bununla belə, Azərbaycanda yeni tipli, Avropa ənənələrini öz canına hopduran, amma öz milli xüsusiyyətlərindən də imtina etməyən teatrın yaranma prossesi durmadan davam edirdi.

Azərbaycan Demokratik Respublikasının mövcud olduğu qısa dövrdə (1918-1920) milli özünüdərk dalğası xeyli gücləndi. Cəmiyyət həyatının bütün sahələrində, o cümlədən teatr sahəsində əhəmiyyətli hadisələr baş verdi. İlk demokratik respublika hökuməti pərakəndə halda fəaliyyət göstərən teatr truppalarını birləşdirərək 1919-cu il oktyabrın 24-də dövlət teatrı yaratdı.

Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi görkəmli dramaturqların yaradıcılığı peşəkar teatrın inkişafına yeni təkan verdi. Onların dramaturgiyası parlaq aktyorlar pleyadasının meydana çıxmasına səbəb oldu. Onların arasında Hüseyn Ərəblinski, Abbas Mirzə Şərifzadə, Sidqi Ruhulla və b. kimi görkəmli sənətkarlar var idi.

Sovet dövründə Azərbaycan teatrı öz peşəkarlıq səviyyəsini sürətlə artıraraq milli mədəniyyətin ayrılmaz hissəsinə çevrildi və geniş əhali kütləsinin maariflənməsində, sonrakı mərhələlərdə isə estetik baxışların formalaşmasında, ümumbəşəri dəyərlərin təbliğində əhəmiyyətli rol oynadı.

İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra teatr partiyanın ideoloji təbliğat maşını üçün o qədər də maraqlı olmadı, əvvəlcə kino, sonra isə televiziya onu sıxışdırmağa başladı.

1991-ci ildə dövlət müstəqilliyinin bərpa olunması milli teatrın inkişafı üçün geniş perspektivlər və yeni imkanlar açdı. Bununla yanaşı keçid dövrünə xas olan dağıdıcı prosseslər, həm sosial-ictimai, həm də fərdi xarakterli köhnə təsəvvürlərin alt-üst olması mədəniyyətin bu sahəsinin inkişafına mənfi təsir göstərdi. 90-cı illərin əvvəllərində özünüidarəetmə prinsiplərinin mexaniki surətdə teatr fəaliyyəti sahəsinə tətbiq edilməsinə cəhd göstərilməsi yaranmış vəziyyəti tam sabitləşdirə bilmədi. Bu çətinlikləri dəf etmək üçün bütün sosial-mədəniyyət sahəsində köklü dəyişikliklər həyata keçirilməsi, menecmentin yeni bazar mexanizmlərinin işlənib hazırlanması və tətbiq edilməsi tələb olunur.

Hazırda Mədəniyyət Nazirliyi sistemində 26 dövlət teatrı vardır: Dövlət Akademik Opera və Balet teatrı, 13 dram teatrı, Musiqili Komediya Teatrı, Musiqili Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, 5 kukla teatrı, Poeziya Teatrı, Pantomima Teatrı, Dövlət Sirki.

Milli teatrlarla yanaşı ölkədə mədəni dözümlülük siyasətinə uyğun olaraq Azərbaycanda yaşayan azsaylı xalqların dillərində tamaşalar hazırlayan teatrlar da fəaliyyət göstərir. Bunlara misal olaraq, ilk növbədə, əsası və hələ 1923-cü ildə qoyulmuş S.Vurğun adına Rus Dram Teatrının, Ləzgi Teatrının (1992), Qax rayonunun Əlibəyli kəndində fəaliyyət göstərən Gürcü xalq teatrının adlarını çəkmək lazımdır.

Son illərdə bələdiyyə teatrları və özəl teatrlar, studiyalar, özəl antreprizlər fəaliyyət göstərməyə başlamışdır.

Keçid dövründə teatr prossesini stabilləşdirmək, teatr şəbəkəsinin planauyğun və məhsuldar fəaliyyətini təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi bütün mövcud maliyyə, təşkilati və yaradıcı imkanlarını səfərbərliyə almışdır. Son illərdə büdcə vəsaiti hesabına 120-dən çox yeni tamaşa

hazırlanmışdır: bu tamaşalar arasında Şekspir, Şiller, Molyer, Hüqo, Bomarşe, Eduard de Filippo, habelə Füzuli, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı və başqalarının adları ilə təmsil olunan xarici və milli dramaturgiya nümunələri mövcuddur. Həmin müddət ərzində nazirlik 213 orjinal pyes, 92 tərcümə işi, 9 opera (onlardan 5-i uşaqlar üçündür), 12 musiqili komediya, 13 müzikl və 2 balet əsəri satın almışdır.

Dağlıq Qarabağ münaqişəsi nəticəsində dörd dövlət teatrı öz fəaliyyətini məcburi köçkün şəraitində davam etdirməyə məcbur olmuşdur. İrəvan və Şuşa teatrları müvəqqəti olaraq Bakıda, Füzuli teatrı Sumqayıtda, Ağdam teatrı isə Bərdədə yerləşdirilmişdir. Ciddi maddi itkilərə məruz qalan bu teatrların iş rejimini bərpa etmək məqsədilə Mədəniyyət Nazirliyi dövlət sifarişləri verməklə onların tamaşalarını sistematik olaraq maliyyələşdirir.

Dövlət sifarişi teatrlarına maliyyə yardımının əsas formasıdır. O, tamaşa layihələrinin seçilməsini nəzərdə tutur, bu seçim zamanı təklif olunan layihələrdən yaradıcı planda ən perspektivli işlərə üstünlük verilir. Dövlət sifarişlərilə təkcə paytaxt teatrları təmin edilmir. Praktiki olaraq, ölkədə fəaliyyət göstərən hər bir teatr müəssisəsi hər il dövlət tərəfindən maliyyələşdirilən tamaşa hazırlamaq imkanına malikdir. Praktika göstərir ki, bu cür dəstək forması bu gün teatr ustalarının öz yaradıcı ideyalarını səhnədə genişləndirə bilmələri üçün ən əlverişli şərait yaratmağa imkan verir. Özəl sponsorların tamaşaları maliyyələşdirməyə cəlb edilmələri təşviq olunur.

Teatrların tövsiyələri və təklifləri əsasında hər il onlarla yerli müəllifin əsəri satın alınır, xarici dramaturqların pyesləri Azərbaycan dilinə tərcümə etdirilir və s. Qeyd etmək lazımdır ki, repertuar siyasəti teatr kollektivlərinin tamamilə öz ixtiyarındadır. Kontrakt əsasında çalışan teatr rəhbərləri də (direktor, bədii rəhbər), öz növbəsində, teatrlarının yaradıcı və bədii-texniki heyətilə müqavilə əsasında əməkdaşlıq edirlər.

Keçid dövründə dövlətin üzləşdiyi iqtisadi çətinliklər teatrların maddi-texnika bazasının tam təminatına imkan vermir. Bununla əlaqədar, bir sıra teatrlarda geniş miqyaslı təmir-bərpa işlərinin həyata keçirilməsini nəzərdə tutan "Azərbaycanda dünyəvi peşəkar teatrın yaradılmasının 125 illiyi haqqında" prezident fərmanı xüsusi əhəmiyyət kəsb edir. Ən qədim teatr müəssisələrindən biri olan Musiqili Komediya Teatrının yeni binası tikilmiş, Milli Dram və digər teatrların binaları təmir edilmişdir, Dövlət Filarmoniyası binasının bərpası üzrə əsaslı işlər görülür.

Maliyyə çatışmazlığına baxmayaraq, festival-qastrol fəaliyyəti davam etdirilir. Qonşu Rusiya, Türkiyə və Gürcüstanla bağlanmış müqavilələrə əsasən teatr tədbirləri mübadilə edilir. Təkcə 2001-ci ildə Azərbaycanın teatr kollektivləri Ankarada, Sankt-Peterburqda və İzmirdə keçirilən beynəlxalq teatr festivallarında iştirak etmişlər. Milli teatr festivalları, ölkə daxilinə qastrol səfərləri təşkil olunur. Bizim rejissorların xarici teatrların fəaliyyətində iştirak etməsi beynəlxalq əməkdaşlığın yeni formasına çevrilmişdir.

Muzey müəssisələrinin fəaliyyətindən danışarkən isə qeyd edilməlidir ki, Azərbaycanda muzey yaradılmasına ilk dəfə XIX əsrin sonlarında Nehrəm kəndində məktəb muzeyi təşkil edildiyi dövrdə cəhd göstərilib.

XX əsrin əvvəlində Bakıda Xalq Məktəbləri Müdiriyyəti nəzdində Pedaqoji muzey fəaliyyət göstərirdi. Elə həmin illərdə Ümumrusiya Texnika Cəmiyyətinin Bakı filialı nəzdində qapalı muzey yaradıldı. Burada müxtəlif mövzular ("Neft", "Şamaxı zəlzələsi" və s.) üzrə eksponatlar nümayiş etdirilirdi.

Azərbaycan Demokratik Respublikasının mövcudluğu dövründə (1918-1920) Bakıda Müstəqillik Muzeyi yaradılmışdı. Muzey 1919-cu il dekabrın 7-də açılmışdı və öz fəaliyyətini Azərbaycan parlamentinin binasında həyata keçirirdi. 1921-ci ilin mayında Azərbaycan Dövlət Muzeyi yaradıldı; muzeyin ilk müsafirləri arxeologiya, tarix, etnoqrafiya, təbiət

şöbələri ilə tanış olurdular. Sonralar muzeydə incəsənət şöbəsi də açıldı.

20-ci illərdə respublikanın bir çox şəhərlərində – Gəncədə, Naxçıvanda, Şəkidə, Lənkəranda tarix-diyarşünaslıq muzeyləri yaradılmağa başladı. Azərbaycan Dövlət Muzeyinin müvafiq şöbələri əsasında Azərbaycan Dövlət Teatr Muzeyi (1934-cı il), Azərbaycan Dövlət İncəsənət Muzeyi (1936-cı il) yaradıldı, Azərbaycan Dövlət Muzeyinin özü isə Azərbaycan Tarix Muzeyi adı altında yenidən təşkil olundu (1936-cı il). 1939-cu ildə dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi münasibətilə Bakıda Nizami adına muzey yaradılması haqqında hökumət qərarı qəbul edildi. Beləliklə, 1945-ci ildə Nizami adına Ədəbiyyat Muzeyi açıldı. 1940-cı ildən Bakıda Bakı Xalq Təhsili Muzeyi fəaliyyət göstərir. 1967-ci ildə hökumət qərarı ilə respublikada Dövlət Musiqi Mədəniyyəti Muzeyi (Bakı ş.), Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi (Bakı ş.), Diyarşünaslıq Muzeyi (Zaqatala ş.), Diyarşünaslıq Muzeyi və unikal Çörək Muzeyi (Ağdam ş.) və digər muzeylər yaradıldı.

70-ci illər Azərbaycanda muzey şəbəkəsinin daha sürətli inkişafı ilə əlamətdar oldu ki, bu da Azərbaycana rəhbərlik edən Heydər Əliyevin fəaliyyəti və şəxsi təşəbbüslərilə bağlı idi. Bu dövrdə və sonrakı onilliklərdə Azərbaycanın görkəmli incəsənət və ədəbiyyat xadimlərinə həsr olunan yeni-yeni xatirə muzeyləri açılmaqda davam edirdi. Belə ki, 1975-ci ildə Səməd Vurğun və Üzeyir Hacıbəyovun, 1982-ci ildə Bülbül, Cəfər Cabbarlı və Nəriman Nərimanovun xatirə muzeyləri açılmışdır. Azərbaycan muzeylərinə metodiki kömək göstərmək məqsədilə muzey işi üzrə Respublika Elmi-Metodik Kabineti təşkil olunmuşdur (1980-cı il); həmin kabinetin əməkdaşları həm paytaxt muzeylərinə, həm də Azərbaycanın rayonlarına səfərlər etməklə əyalət muzeylərinə metodiki məsləhətlər verirlər. 1980-cı ildə hökumət qərarına uyğun olaraq, demək olar ki, respublikanın bütün iri rayonlarında

(Ağcabədi, Göyçay, Zərdab, Şəmkir, Ucar və s.) tarixdiyarşünaslıq muzeyləri, habelə Zəngilanda Daş Heykəllər Muzeyi, Lerikdə Uzunömürlülər Muzeyi və s. yaradıldı. 1972-ci ildə Bakıda Azərbaycan Xalçası və Tətbiqi Sənəti Dövlət Muzeyi açıldı. Həmin muzeydə qiymətli tarixi eksponatlar: tunc dövrünün arxeoloji abidələri, XII əsrə aid saxsı qab, XVII əsrə aid xalça və xalçaçılıq məlumatları, XIX əsrə aid bədii tikmə və milli geyimlər və bir çox başqa əşyalar saxlanılır. Muzeyin kolleksiyalarından ibarət sərgilər dünyanın 50-dən çox ölkəsində, o cümlədən İngiltərədə, Hollandiyada, İsraildə, Hindistanda, İranda, İspaniyada, İtaliyada, Kubada, Portuqaliyada, Rusiyada, Türkiyədə, Fransada və s. nümayiş etdirilib. Qeyd etmək lazımdır ki, muzey beynəlxalq simpoziumlar, konfranslar və s. keçirmək yolu ilə milli mədəni irsin təbliği sahəsində böyük iş görür.

İncəsənət Muzeyinin nəzdində 1957-ci ildən fəaliyyətə başlayan bərpa emalatxanası 1982-ci ildə qiymətli muzey əşyaları və qədim əşyaların elmi bərpa mərkəzi statusu almışdır; o, respublika muzeylərinə və əhaliyə bərpa və konservasiya işləri üzrə geniş spektrdə xidmət göstərir.

90-cı illərdə Azərbaycanda baş verən sosial-siyasi hadisələrin, ideoloji dəyişikliklərin nəticəsi olaraq muzeylərin sayı və tematikasında da müəyyən dəyişikliklər baş verdi. Belə ki, Ateizm Muzeyi Din Tarixi Muzeyi ilə əvəz olundu. Sovet dövrünün siyasi xadimlərinə həsr olunmuş muzeylər bağlandı. Məsələn, Lenin, Fialetov, Kirov adına muzeylər və s. əvəzinə Azərbaycanda demokratik hərəkat tarixinə, müstəqillik uğrunda mübarizəyə həsr edilən yeni muzeylər yaranır. Məsələn, "İstiqlal" muzeyi (1991-ci ildə yaradılıb). Keçid dövrünün çətinliklərinə baxmayaraq, muzey şəbəkəsi genişlənməkdə davam edir. Son on il ərzində 21 yeni muzey açılmışdır.

1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universitetində "Muzey və Mədəniyyət işi" kafedrası yaradılmış və tələbələrə "Muzey işi və mədəniyyət abidələrinin

qorunması" ixtisası tədris edilməyə başlanmışdır. 1992-ci ildə İKOM-un Azərbaycan milli komitəsi yaradılmışdır və bu komitə həmin vaxtdan muzeylərin işində fəal iştirak edir. İKOM milli komitəsinin sədri və üzvləri İKOM-un İcraiyyə Komitəsinin iclaslarında iştirak edir, profil üzrə İKOM komitələrinin beynəlxalq konfranslarında məruzələr oxuyurlar; bunlarla yanaşı "İKOM-Azərbaycan" bülleteninin bir neçə nömrəsi nəşr olunmuşdur, maliyyə çətinliyi ucbatından hazırda həmin bülletenin nəşri dayandırılmışdır. Hazırda Azərbaycan Respublikasında 146 muzey və 30 şəkil qalereyası vardır. 146 muzeydən 138-i (21 filial da daxil olmaqla) Mədəniyyət Nazirliyinin, 4 muzey Milli Elmlər Akademiyasının, qalanları isə digər nazirlik və idarələrin tabeliyindədir. Muzeylərin əsas fondu 1.150.936 eksponatdan ibarətdir.

Muzeylərin profil üzrə bölgüsü aşağıdakı kimidir: Tarixi və kompleks (diyarşünaslıq) muzeylər (82); Ədəbiyyat muzeyləri (25); İncəsənət üzrə muzeylər (23); Elm və texnologiya muzeyləri (6); Memarlıq abidə-muzeyləri (4); Təbiət tarixi muzeyi (1). Mədəniyyət və Turizm Nazirliyi muzeylərlə bağlı işində "Muzeylər haqqında" Qanunu və "Azərbaycan Respublikasının dövlət muzeylərində saxlanan muzey əşyalarının uçotu və saxlanması üzrə Təlimatlar"ı (Bakı, 1996-cı il) əldə rəhbər tutur, həmçinin muzey işi üzrə Elmi-Metodiki Kabinetin tövsiyələrinə və metodik vəsaitlərinə əsaslanır.

Muzeylərin profil üzrə bölgüsü aşağıdakı kimidir:

| | |
|---|---|
| Tarixi və kompleks (diyarşünaslıq) muzeylər | 82 |
| Ədəbiyyat muzeyləri | 25 |
| İncəsənət üzrə muzeylər | 23 |
| Elm və texnologiya muzeyləri | 6 |
| Memarlıq abidə-muzeyləri | 4 |
| Təbiət tarixi muzeyi | 1 |
| Cəmi | 146 |

Ən iri muzeylər aşağıdakılardır:

- R.Mustafayeva adına Azərbaycan Dövlət İncəsənət Muzeyi (əsas fondu – 14 525 eksponat);
- Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi (əsas fondu – 9823 eksponat);
- Azərbaycan Dövlət Tarix Muzeyi (əsas fondu – 255 375 eksponat);
- "Şirvanşahlar Sarayı" Dövlət Memarlıq Tarixi Xatirə Kompleksi (əsas fondu – 21 391 eksponat);
- C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi (əsas fondu – 116 783 eksponat);
- Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi (əsas fondu – 31 284 eksponat);
- Nizami adına Azərbaycan Ədəbiyyatı Dövlət Muzeyi (əsas fondu – 59 275 eksponat).

Azərbaycanın bütün muzeylərində 2 228 nəfər çalışır. Onlardan 900 nəfəri mühafizəçi, elmi əməkdaş, ekskursiyaçıdır.

Azərbaycan Mədəniyyət Nazirliyi və İKOM-un milli komitəsi işğal olunmuş ərazilərdə qalan muzeylərin və onların eksponatlarının taleyi ilə bağlı YUNESKO qarşısında dəfələrlə məsələ qaldırmışdır. Bu məqsədlə problemin öyrənilməsi üçün YUNESKO-nun Azərbaycana iki missiyası göndərilmiş (1994, 1995-ci illərdə) və bunun da nəticəsi olaraq YUNESKO baş direktorunun müavini işğal olunmuş ərazilərdə mədəni dəyərlərin müdafiə edilməsinə çağıran müraciət imzalanmışdır. Həmçinin YUNESKO-nun yardımı və onun loqosu altında qəsb olunmuş qiymətli muzey əşyalarının bəzilərinin təsvirini və onlar haqda informasiyaları əks etdirən liflet nəşr olunmuşdur.

İşğal edilmiş ərazilərdəki muzeylərin öz binalarından, demək olar ki, bütün kolleksiyalarından, təsərrüfat inventarından və sərgi avadanlıqlarından məhrum olmalarına baxmayaraq, onlar hüquqi vahid kimi ləğv edilməmiş, ştatları isə olduğu kimi saxlanmışdır. "Qaçqın muzeylər"in öz toplayıcı və s. fəaliyyətlərini davam etdirə bilmələri üçün onların Mədəniyyət

Nazirliyi tərəfindən maliyyələşdirilməsi davam etdirilir; bu muzeylərə müvəqqəti yer ayrılmış və onların işçilərinə əmək haqqı ödənilir (buna görə də həmin muzeylər Mərkəzi Statistika İdarəsi və Mədəniyyət Nazirliyi məlumatlarında yer alır).

Bəzi vacib problemləri muzeylər sponsor cəlb etmək, qrant almaq yolu ilə həll edə bilirlər. Sponsor rolunda əsasən xarici şirkətlər və səfirliklər, Soros Fondu – Açıq Cəmiyyət İnstitutu, YUNESKO, BMT, habelə yerli şirkətlər və sahibkarlar çıxış edirlər, hərçənd iqtisadi çətinlik və mədəniyyətə sponsorluqla bağlı vergi güzəştləri haqqında qanunun olmaması səbəbindən yerli sponsorlar xaricilərə nisbətən muzeylərə daha az və daha gec-gec kömək göstərirlər. Bütövlükdə, bu yardım o qədər də böyük deyil və muzey işinin ümumi inkişafına müsbət təsir göstərə bilməz.

Mədəniyyət Nazirliyi muzeylərlə bağlı işində "Muzeylər haqqında" Qanunu və "Azərbaycan Respublikasının dövlət muzeylərində saxlanan muzey əşyalarının uçotu və saxlanması üzrə Təlimatlar"ı (Bakı, 1996-cı il) əldə rəhbər tutur, həmçinin muzey işi üzrə Elmi-Metodiki Kabinetin tövsiyələrinə və metodik vəsaitlərinə əsaslanır.

Muzeylərin əsas fondlarını təşkil edən bütün əşyalar bütün muzeylərdə mövcud olan eyni tipli daxil olma kitablarında (və yaxud Baş İnventar kitablarında) qeydə alınmışdır. Bu günə qeydə alınmış muzey vahidlərinin sayı 1 151 000-dir. Hələlik heç bir muzeydə kompüter məlumat bazası yoxdur. Ən iri, aparıcı paytaxt muzeyləri onun yaradılması işinə başlayırlar. Yaranmış iqtisadi vəziyyətin çətinliyi, xüsusilə də muzeylərə ayrılan maliyyə vəsaitinin ümumiyyətlə kifayət qədər olmaması səbəbindən yalnız paytaxt muzeyləri (heç də hamısı yox) kompüterlə (bir və ya iki ədəd) təchiz edilmişdir. Kompüter texnikasına malik muzeylərdə ondan, bir qayda olaraq, cari, inzibati və fond işləri üçün istifadə edilir. Ekspozisiyalarda isə hələlik kompüterdən istifadə olunmur. Üç aparıcı muzey İnternetə qoşulmuş və onların öz Web saytları vardır (Azərbay-

can Musiqi Mədəniyyəti Dövlət Muzeyi, "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət Tarixi-Memarlıq Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi).

Bütövlükdə, muzeylər texniki cəhətdən kifayət qədər təchiz edilməmişdir. Bu səbəbdən, temperatur – nəmlik rejiminə riayət edilməsi, sərinləşdirici sistem yaradılması, xüsusi işıqlandırma imkanı, eləcə də onların bir çoxunun mühafizə və yanğın əleyhinə siqnalizasiyası yoxdur. Muzeylər nəqliyyat vasitələri, müasir qablaşdırma materialları və taradan məhrumdur, onların çoxunun fond anbarları ağzınadək doludur və avadanlıqları çatışmır.

Muzeylərin yalnız bir qisminin öz nəşrləri və reklam məhsulları vardır. Bazar iqtisadiyyatı şəraitində muzeylər vəsait əldə etmənin (fundraisinq) üsullarını mənimsəyirlər. Muzeylərin göstərdikləri xidmətlərin spektri genişləndirilir (Mədəniyyət nazirinin əmri ilə yaradılan xüsusi komissiya vasitəsilə incəsənət əşyalarının ekspertizasını həyata keçirmək, suvenir məhsullarının satışı ilə məşğul olmaq və s.).

Bəzi vacib problemləri muzeylər sponsor cəlb etmək, qrant almaq yolu ilə həll edə bilirlər. Sponsor rolunda əsasən xarici şirkətlər və səfirliklər, Soros Fondu – Açıq Cəmiyyət İnstitutu, YUNESKO, BMT, habelə yerli şirkətlər və sahibkarlar çıxış edirlər, hərçənd iqtisadi çətinlik və mədəniyyətə sponsorluqla bağlı vergi güzəştləri haqqında qanunun olmaması səbəbindən yerli sponsorlar xaricilərə nisbətən muzeylərə daha az və daha gec-gec kömək göstərirlər. Bütövlükdə, bu yardım o qədər də böyük deyil və muzey işinin ümumi inkişafına müsbət təsir göstərə bilməz.

Muzeylərin sərgi fəaliyyəti muzeyin öz kolleksiyalarından təşkil olunan və onun özündə nümayiş etdirilən, müxtəlif muzeylərin kolleksiyalarından toplanan, xaricdəki Azərbaycan muzeylərinin eksponatlarından təşkil olunan və Azərbaycanda nümayiş etdirilən xarici tematik sərgiləri əhatə edir. Son dövrdə Azərbaycandakı ən mühüm xarici sərgilərə "Tretyakov

Qalereyasından seçmələr" sərgisini (23 gün ərzində bu sərgiyə 20 min adam baxmışdır), rəssam Nikas Safronovun fərdi sərgisini (1997-ci il), üç israilli qadın rəssamının işlərindən ibarət sərgini (1999-cu il), İran tətbiqi sənəti sərgisini (2000-ci il) misal göstərmək olar. Milli sərgilərin də tematikası rəngarəng olmuşdur. Məsələn, İncəsənət Muzeyi son illərdə xeyli sərgi təşkil etmişdir. Onların arasında yubileylərilə əlaqədar ustad rəssamların fərdi sərgiləri, gənc rəssamların sərgisi, "Azərbaycan qaçqınları. Avtoportret" foto sərgisi, "Yəhudilər Azərbaycanda" sərgisi, "Kitabi-Dədə Qorqud"un 1300 illiyinə həsr olunmuş sərgi, muzeylərin kolleksiyaları əsasında təşkil olunan rus avanqard incəsənəti sərgisi və s. kimi sərgilər vardır.

Rayon (əyalət) muzeyləri də müəyyən sərgi və maarifləndirmə işi aparır. Onlar Azərbaycanın Milli Müstəqillik Gününə, 20 yanvar – Şəhidlərin Xatirəsi Gününə, ədəbiyyat, elm və incəsənət korifeylərinin yubileylərinə, Milli Musiqi Gününə, 8 mart Beynəlxalq Qadınlar Gününə, Ana Dili Gününə və s. həsr olunmuş tədbirlər və sərgilər keçirirlər.

1996-cı ildə musiqi muzeyi (Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi) nəzdində orta əsrlərə aid rekonstruksiya edilmiş musiqi alətlərində çalan 12 nəfərlik ansamblın yaradılması muzey işi praktikasında diqqətəlayiq yenilik kimi qiymətləndirilə bilər.

Muzeylərin gələcək fəaliyyət prioritetləri aşağıdakılardır:

- mərkəzləşdirilmiş kompüter məlumat bazasının yaradılması, İnternet vasitəsilə muzey əşyaları və muzeylərin fəaliyyəti haqqında maksimum informasiya əldə etmək imkanının təmin edilməsi;
- muzey kolleksiyalarının komplektləşdirilməsi işinin gücləndirilməsi;
- muzeylərin tərtibatının keyfiyyətinin müasir tələblərə uyğun olaraq yüksəldilməsi;

• muzey praktikasında yeni texniki vasitələrin tətbiqinin sürətləndirilməsi;

• muzey işçilərinin peşəkarlığının və muzeylərdə xidmət səviyyəsinin yüksəldilməsi;

• muzeylərdə marketinqin inkişaf etdirilməsi;

• əlillərlə işə böyük diqqət yetirilməsi;

• hər vəchlə diqqətin muzey işçilərinin əmək haqlarının artırılması, onların sosial müdafiəsi problemlərinə yönəldilməsi və muzey işçisi peşəsinin nüfuzunun qaldırılması;

• mədəni turizmdə muzeylərin rolunun artırılması;

• yeni iş formaları axtarışı;

• muzeylərdə mühafizə və təhlükəsizlik sisteminin möhkəmləndirilməsi;

• Azərbaycan muzeyləri arasında əlaqələri möhkəmləndirmək məqsədilə İKOM-un milli komitəsi nəzdində muzeylərarası şuranın yaradılması (Azərbaycan Muzeyləri İttifaqı).

Muzeylərin ölkənin bütün mədəni irs spektrinə istiqamətlənməsi və kollektiv təcrübənin muzey ekspozisiyaları sistemi vasitəsilə yayılması əhalinin sosial fəallığını, onların sosial əhəmiyyətli problemlərin həllinə diqqətini artırır və Azərbaycanın adekvat imicinin yaranmasına kömək edir.

Kitabxana işinin tarixinin öyrənilməsi də mədəniyyət sahəsindəki umumi mənzərənin obyektiv təhlilinə köməklik göstərmiş olar. Belə ki, Azərbaycan ərazisində ilk kitabxanalar ən erkən dövlət qurumlarının meydana gəldiyi dövrlərdə mövcud olmuş, V əsrdə isə Qafqaz Albaniyasında 52 hərfdən ibarət alban əlifbası yaradılmışdır. Bunun sayəsində bir çox kitablar alban dilinə tərcümə edilmiş, kilsə və məktəblərdə kiçik kitabxanalar təşkil olunmuşdur. VII əsrdə Azərbaycan ərəblər tərfindən zəbt edildikdən sonra isə məscid və mədrəsələrdə kitabxanalar meydana gəldi. Orta əsrlərdə Azərbaycanda bir neçə növ – saray, dini, xüsusi elmi və şəxsi kitabxanalar mövcud idi. Saray kitabxanaları arasında Şirvanşahlar Sarayının kitabxanasını (XII əsr), Təbriz kitabxanalarını

(XIII əsr), Ağqoyunlu, Qaraqoyunlu və Səfəvilər dövlətlərinin saray kitabxanalarını (XIV- XVI əsrlər) qeyd etmək lazımdır. Saray kitabxanaları arasında XIV əsrdə Azərbaycanın görkəmli dövlət xadimi böyük sərkərdə Şah İsmayıl Xətai tərəfindən yaradılan Təbriz saray kitabxanası çox mühüm yer tutur. 1522-ci ildə Şah İsmayıl Xətai kitabxana işi haqqında dövlət fərmanı imzalamışdır. Bu dövrün dini kitabxanaları arasında Ərdəbildəki Şeyx Səfi rəsədxanasının kitabxanası, elmi kitabxanalar arasında isə fondunda 400 000-dən çox kitab olan Marağa rəsədxanasının (XIII əsr) kitabxanası xüsusilə mühüm yer tutur. Nizami, Xətai, Bəhmənyar, Xətib Təbrizi, Əbu Vəfa, Qətran Təbrizi və s. kimi görkəmli şair və alimlərin şəxsi kitabxanaları olması haqqında məlumatlar mövcuddur.

XIX əsrin 40-cı illərindən başlayaraq, Azərbaycanda yeni milli ictimai kitabxanalar, habelə bir çox görkəmli simaların şəxsi kitabxanaları meydana gəlməyə başladı. Bunlara misal olaraq, Abbasqulu Ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun kitabxanalarını göstərmək olar. XIX əsrin ikinci yarısında ictimai-kütləvi kitabxanalar və qiraətxanalar meydana gəldi. 1859-cu ildə Şuşada, 1868-ci ildə Gəncədə, 1887-ci ildə Bakıda ictimai kitabxanalar açıldı. 1887-ci ildə Bakıda üç kitabxana var idi. XIX əsrin sonlarında Bakıda neft sahəsi işçiləri üçün texniki ədəbiyyat kitabxanaları yaradılmağa başladı. 1905-1907-ci illərdə Azərbaycan milli mədəniyyətinin inkişafı üçün çalışan ziyalılar, inqilabın təsiri altında xeyriyyə cəmiyyətləri təşkil edir, kitab nəşrini yaymağa çalışır, kitabxana və qiraətxanalar açırdılar.

Azərbaycan Demokratik Respublikası dövründə (1918-1920-ci illər) M.Ə.Sabir adına Kitabxana və Bakı Dövlət Universitetinin kitabxanası yaradılmışdır. 1920-ci ildə Azərbaycanda 965 məktəb kitabxanası vardı. Bakı və onun ətraf rayonlarında 50-yə yaxın, rayon və kəndlərdə isə 100-dən çox kitabxana fəaliyyət göstərirdi.

Bütün çətinliklərə baxmayaraq, sovet hakimiyyətinin ilk illərində mədəniyyət, xüsusilə də kitabxana işi sahəsində ciddi tədbirlər həyata keçirilmişdir.1920-1925-ci illərdə Kitabxana Kollektoru və Kitab Palatası yaradıldı, bu təşkilatlar kitabxana işinin inkişafında böyük rol oynadı. 1926-cı ildən kitabxanalar dövlət büdcəsindən maliyyələşdirilməyə başladı. Respublikada ümumi kitab fondu 905100 nüsxə kitabdan ibarət olan 108 ictimai kitabxana fəaliyyət göstərirdi. 1934-cü ildə kitabxanaların ümumittifaq siyahıya alınması keçirildi. Siyahıya almanın nəticələrinə görə Azərbaycanda 2037 kitabxana vardı. 1947-ci ildə filologiya fakultəsi nəzdində kitabxanaşünaslıq şöbəsinin açılması ali təhsilli kitabxanaçılar hazırlanması işinin təməlini qoydu. 1950-1955-ci illərdə kitabxana işinə ayrılan vəsaitlərin xeyli artırılması nəticəsində kitabxanaların maddi-texniki bazası möhkəmləndirildi, onların kitab fondları xeyli zənginləşdirildi. Faktlara müraciət edək: əgər 1950-ci ildə Azərbaycanda 2290 kitabxana var idisə (ümumi kitab fondu 4 230 100 nüsxə), 1955-ci ildə onların sayı 2394-ə çatdırılmışdı (ümumi kitab fondu 9 614 200 nüsxə). 1958-ci ildə Azərbaycanda 5776 kitabxana vardı və onların ümumi kitab fondu 20 mln. nüsxədən artıq idi. Onlardan 2583-ü ictimai kitabxanalar idi. 60-cı illərdə kitabxana şəbəkəsi inkişaf etməkdə davam edirdi. 1960-1965-ci illər ərzində respublikanın 45 rayonunda ictimai kitabxanalar üçün 78 bina tikilib istifadəyə verilmiş, şəhər kitabxanalarının sayı 70-ə çatmışdı. Bu dövrdə M.F.Axundov adına Dövlət Kitabxanası öz fəaliyyətilə xüsusi olaraq seçilirdi. Bütün kitabxanaların metodik mərkəzi kimi o, kitabxanaşünaslıq və biblioqrafiya sahəsində böyük elmi-metodiki və elmi-tədqiqat işləri aparırdı.

1970-ci illərdə Mədəniyyət Nazirliyinin mərkəzləşdirilmiş kitabxana sistemi yaradıldı. Bu prosses 80-ci illərdə təkmilləşdirildi və davam etdirildi. Həmçinin Respublika Elmlər Akademiyası kitabxanalarının mərkəzləşdirilməsi də böyük əhəmiyyət kəsb etdi. 1970-80-ci illərdə kitabxana işi

sahəsində bir çox mürəkkəb problemlər öz həllini tapdı. Bu problemlər arasında aşağıdakıları ayrıca qeyd etmək lazımdır: ictimai kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi və onun vaxtaşırı təkmilləşdirilməsi, kitabxanaların informasiya-məlumatlandırma fəaliyyətinin inkişafı ilə əlaqədar onların funksiyalarının xeyli genişləndirilməsi, kitabxana fondlarının formalaşdırılması prossesinin əsaslı şəkildə yaxşılaşdırılması, kitabxanaşünaslıq və biblioqrafiya sahəsində elmi-tədqiqat işlərinin gücləndirilməsi, müxtəlif kitabxana sistemlərinin fəaliyyətinin əlaqələndirilməsi və s. Beləliklə, 80-ci illərin sonlarında Azərbaycanda ümumi kitab fondu 114 milyon nüsxədən artıq olan 9548 kitabxana fəaliyyət göstərirdi. Bu dövrdə Azərbaycanda baş verən sosial-siyasi və iqtisadi dəyişikliklər mövcud kitabxanaları tamamilə yeni şərtlərə uyğun olaraq fəaliyyət göstərməyə məcbur etdi.

1991-ci ildə Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdi. Təkcə siyasi, iqtisadi sahələrdə deyil, həmçinin mədəniyyət, təhsil, ideologiya sahələrində də ciddi islahatların həyata keçirilməsi üçün böyük imkanlar açıldı. Yeni iqtisadi şəraitdə əhalinin informasiyaya marağının artması kitabxanalara müraciət edənlərin sayının çoxalmasına səbəb oldu. 1997-ci illə müqayisədə 1999-cu ildə onların sayı 17% artdı. Tədricən yerlərdə kitabxanalar əhalinin informasiya ilə təmin edilməsində əhəmiyyətli rol oynayan mədəni mərkəzlərə çevrildilər. Ancaq kitabxanaların yeni nəşrlərlə təmin edilməsi başlıca problem olaraq qalırdı. Kitabxanaların komplektləşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlər xeyli az idi. Bütün bu sadalananlar kitabxana işi sahəsində dövlət səviyyəsində köklü dəyişikliklərin həyata keçirilməsi üçün lazımi tədbirlər görülməsini tələb edirdi. 1999-cu ildə Milli Məclis "Kitabxana işi haqqında" qanun qəbul etdi. Ölkənin mədəni həyatında mühüm rol oynayan bu qanun kitabxana işi sahəsində dövlət siyasətinin əsaslarını müəyyənləşdirildi, dövlət fəaliyyətinin mühüm sahəsi kimi kitabxana işinin təşkili

və idarə olunmasının əhəmiyyətini bir daha təsdiq etdi. Yeni iqtisadi və ictimai münasibətlər sistemində kitabxanaların inkişafı, onların maliyyələşdirilməsi və kitab fondlarının mühafizəsi işində həmin qanunun rolu çox yüksəkdir. Belə bir fakt xüsusi əhəmiyyət kəsb edir ki, qanunda kitabxana fondlarının komplektləşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin mütəmadi olaraq artırılması nəzərdə tutulmuşdur. Bundan əlavə, hüquqi və fiziki şəxslərin respublika ərazisində müxtəlif dövlət və özəl mətbələrdə çap etdirdikləri nəşrlərin nüsxələrini məcburi qaydada kitabxanalara təqdim etmələri sisteminin yaradılması da böyük əhəmiyyətə malikdir. Bu addım nəşr məhsullarının arxiv fondunun yaradılması üçün xüsusilə vacibdir.

2001-ci il yanvarın 1-nə Azərbaycan ərazisində müxtəlif idarə və nazirliklərin tabeliyində təxminən 10 minə yaxın kitabxana fəaliyyət göstərir. Onlardan 4313-ü Mədəniyyət Nazirliyi sisteminə daxildir. Milli Kitabxana, Milli Elmlər Akademiyası və Bakı Dövlət Universitetinin elmi kitabxanaları respublikada ən iri kitabxanalardır. Mədəniyyət Nazirliyinin ictimai kitabxanalar şəbəkəsi isə ən geniş şəbəkədir. Bu gün Mədəniyyət Nazirliyi sistemində respublika əhəmiyyətli 4 kitabxana, 74 mərkəzi şəhər və rayon kitabxanası fəaliyyət göstərir. Hazırda hər 700 nəfərə bir stasionar kitabxana düşür. Mədəniyyət Nazirliyi sisteminə daxil olan kitabxanaların fondlarında 35,9 milyon nüsxə kitab vardır.

Bütün bu çətinliklərə baxmayaraq, respublikada kitabxana işi öz inkişafını davam etdirir. Oxuculara kitabxana işinin yeni forma və metodları təqdim edilir. M.F.Axundov adına kitabxanada internet zalı fəaliyyət göstərir. Oxucular onları maraqlandıran informasiyaları operativ əldə etmək imkanı qazanmışlar. Onlar müasir tipli kompüterlərin köməyilə dünyanın ən iri kitabxanalarının fond və kataloqlarında mövcud olan materiallardan yararlana bilirlər. Soros Fondu – Açıq Cəmiyyət İnstitutunun sponsorluğu sayəsində artıq 7 mərkəzi şəhər və rayon

kitabxanasında regional informasiya mərkəzlərinin yaradılması sahəsində iş aparılır. Bakı, Əli Bayramlı və Gəncə şəhərlərinin, Lənkəran, Bərdə, Şamaxı və Quba rayonlarının mərkəzi kitabxanaları ümumdünya İnternet şəbəkəsinə qoşulacaqdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası bütövlükdə çox geniş kitabxana şəbəkəsinə malikdir. Bu gün bu kitabxanalar ölkədə sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsində, o cümlədən torpaq, təhsil və mülkiyyət sahələrində islahatlar keçirilməsində mühüm rol oynayır. Onlar ümumtəhsil səviyyəsinin yüksəlməsinə, peşəkar kadrların hazırlanmasına, demokratiyanın inkişafına və qanunun aliliyini təmin edən vətəndaş cəmiyyətinin formalaşmasına kömək edir. Bununla yanaşı, kitabxana sisteminin köklü surətdə təkmilləşdirilməsi tələb olunur. Buna nail olmaq üçün aşağıdakı tədbirləri həyata keçirmək lazımdır:

- bütün kitabxanaların pasportlaşdırılması;
- kitabxana fondlarının latın qrafikalı Azərbaycan əlifbasında olan kitablarla komplektləşdirilməsi;
- kitabxanaların maddi-texniki bazasının inkişaf etdirilməsi və təkmilləşdirilməsi;
- kitabxanaların iş təcrübəsində müasir informasiya texnologiyalarından istifadə edilməsi;
- ölkə kitabxanaları arasında mərkəzləşdirilmiş kompüter sistemi əlaqəsinin yaradılması;
- milli inteqral kitabxana informasiya sisteminin və milli katoloqlaşdırma standartının yaradılması;
- ölkə kitab fondunun bərpa edilməsi və onun mühafizəsi üçün lazımi qədər vəsaitin ayrılması;
- yeni ədəbiyyatların alınması üçün lazımi vəsaitin ayrılması;
- kitabxanaların beynəlxalq, reyonlararası və idarələrarası əməkdaşlığın inkişaf etdirilməsi;
- Dövlət Kitab Palatasının fəaliyyətinin bərpa edildməsi.

Lakin bu günə qədər kitabxana işinə ayrılan büdcə vəsaitinin həcmi xeyli az olaraq qalır. Əgər 80-ci illərdə mədəniyyətə ayrılan büdcə vəsaitinin 30-40%-i kitabxana işinin inkişafına yönəldilirdisə, 1990-cı illərin ortalarında bu məbləğ 12-13%-ə bərabər olmuş, hazırda isə 15-18% təşkil edir. Kitabxana işçiləri çox az əmək haqqı alan işçilər kateqoriyasına daxildir. Yeni ədəbiyyatların alınmasına ayrılan məbləğlərin az, yeni kitabların qiymətlərinin isə yüksək olması ona gətirib çıxarmışdır ki, əksər kitabxana fondlarının yeniləşməsi kifayət dərəcədə olmur. Maddi-texniki bazanın zəifliyi və əmək haqqının az olması səbəbindən kadrların işdən getməsi kitabxana işinin təşkilində ciddi problemlər yaradır.

Mədəni həyatda iştirak barədə məlumatlar ölkədə əhalinin yaşayış səviyyəsini, siyasi və iqtisadi vəziyyəti əks etdirən ən vacib göstəricilərdən biridir. Bu məlumatlar mədəniyyətin inkişafının strateji planlaşdırılmasında və büdcənin tərtib edilməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, statistik məlumatlar müntəzəm olaraq toplansa da, mədəniyyət sahəsində sosioloji tədqiqatlar aparılması praktikası hələ kifayət dərəcədə işlənib hazırlanmamışdır. Bu faktı nəzərə alan Mədəniyyət və Turizm Nazirliyi xüsusi olaraq Milli Məruzə üçün SİAR sosial və marketinq tədqiqatları mərkəzinə “Mədəniyyətdə iştirak” mövzusunda araşdırma sifariş vermişdir. Həmin icmal əsasən mədəniyyət industriyaları – televiziya, kinematoqrafiya, radio, kompüter texnologiyası, qəzet və kitab buraxılışı sahələrindəki mövcud vəziyyəti əks etdirir. Burada Mədəniyyət Nazirliyinin Elmi-Metodiki Mərkəzi tərəfindən təqdim edilən informasiyalar nazirliyin mədəniyyət müəssisələrinin məlumatları əsasında hazırlanmışdır. Həmçinin Mərkəzi Statistika İdarəsinin əsas mədəniyyət mərkəzlərinə gələnlərin sayının dinamikasını əks etdirən məlumatlar da daxil edilmişdir.

Həm bu icmala, həm də Mərkəzi Statistika İdarəsinin məlumatlarına istinadən deilə bilər ki, televiziya gündəlik

həyata o qədər dərindən nüfuz etmişdir ki, müasir cəmiyyətin mövcudluğunu onsuz təsəvvür etmək mümkün deyil. Bunu bir sıra amillərlə izah etmək olar: televiziya zəruri informasiya mənbəyidir, ictimai rəyin formalaşmasına təsir vasitəsidir, nəhəng kommersiya bazarıdır və nəhayət, daha ucuz, bəlkə də ən ucuz yolla əldə edilən mədəni istirahətdir. Beləliklə, gözlənildiyi kimi, respondentlərin, demək olar ki, hamısı (97%) televiziyaya baxdıqlarını bildirmişlər. Bundan əlavə televiziyaya baxma tezliyi, təqribən həftədə 7 gündür. Qeyd etmək lazımdır ki, televiziyaya münasibətdə əhəmiyyətli dəyişikliklər SSRİ dağıldıqdan, müstəqil Azərbaycanın televiziya bazarında özəl telekanallar meydana gəldikdən sonra baş vermişdir. Hazırda 18 telekanal öz verilişlərini ölkə ərazisinə yayımlayır. Bu kanallardan əlavə tamaşaçılar öz istəklərinə əsasən kabel və ya sputnik televiziyasına qoşula bilərlər.

Son illər ərzində ölkədə baş verən sosial-siyasi dəyişikliklər ictimai həyatın bütün sahələrində olduğu kimi kinematoqrafiyaya da öz təsirini göstərmişdir. Fərəhli haldır ki, kinematoqrafiya Azərbaycanda hələ də öz əhəmiyyətini qoruyub saxlayır. Əhalinin təxminən yarısı (46%) müntəzəm olaraq müxtəlif videofilmlərə baxır. Tamaşaçıların filmlərin seçilməsində üstünlük verdikləri başlıca amil filmlərin janrıdır (36%). Azərbaycanda bu ya komediya (24%), ya da tarixi janr (18%) ola bilər. Paytaxt ümumi mənzərədən bir qədər fərqlənir: burada daha çox üstünlük verilən janr melodramdır (17%). Qeyd etmək lazımdır ki, Azərbaycanda filmlərin yayımı ilə məşğul olan mağazaların xeyli hissəsi xarici filmlər təklif etsələr də, əhalinin böyük bir hissəsi (44%) milli filmlərə baxmağa üstünlük verir, bu da ölkədə kinematoqrafiyanın gələcəyinə nikbin baxmağa imkan verir.

İcmalın məlumatlarına uyğun olaraq meydana çıxan mənzərə bu gün Azərbaycanda radionun da sürətlə inkişaf etdiyini göstərir. Ölkə əhalisinin 43%-i müntəzəm olaraq radioya qulaq asır. Ölkədə radionun populyarlığını belə bir fakt da sübut edir

ki, Azərbaycan əhalisi həftədə orta hesabla altı gün öz radiosundan istifadə edir. Beləliklə, həm iş (42%), həm də istirahət (45%) günlərində radio dinləmə reytinqi axşam saat 18:01-dən 22:00-dək ən yüksək həddə çatır. Ölkə əhalisinin fikrinə görə ən cəlbedici radio verilişləri musiqili veriləşlərdir, onların arasında isə ən çox üstünlük verilən milli pop musiqisidir.

Kompüter texnologiyası ilə bağlı məsələdən danışarkən, qeyd etmək lazımdır ki, Azərbaycan insanının həyatına kompüter 90-cı illərin ortalarından başlayaraq daxil olub və cəmisi bir neçə il ərzində biznesin və gündəlik həyatın ayrılmaz elementinə çevrilib. Gənclərin kompüter texnologiyasına və İnternetə böyük maraq göstərməsi onları müasir həyatın zəruri tərkib hissəsinə çevirib. Belə ki, icmalın nəticələrinə görə hazırda ölkə əhalisinin 13%-i müntəzəm olaraq kompüter texnologiyasından istifadə edir. Bundan əlavə, gözlənildiyi kimi, paytaxtda (16%) kompüterdən istifadə səviyyəsi regionlardakından (9%) yüksək olmuşdur. Daha fəal istifadəçilərin gənclər olduğunu da qeyd etmək lazımdır. İnsanların beynəlxalq informasiya şəbəkəsinə daim artmaqda olan marağı Azərbaycan cəmiyyətindən də yan keçməyib. Belə ki, kompüter texnologiyasından istifadə edən respondentlərin 59%-i İnternetdən müntəzəm olaraq istifadə etdiklərini bildirmişlər. Başlıca internet istifadəçiləri 15-39 yaşlı insanlardır. İnformasiya texnologiyasının gur inkişafı kompüterə gələcəkdə Azərbaycan cəmiyyətinin əhəmiyyətli bir tərkib hissəsi kimi baxmaq imkanı verir.

Müasir Azərbaycanda qəzetlər öz populyarlığına görə televiziyadan sonra gələn ikinci KİV vasitəsidir. İcmal zamanı alınan nəticələr göstərir ki, əhalinin yarısından çoxu (52%) müntəzəm olaraq qəzet oxuyur. Bu məsələdə paytaxt sakinləri (69%) kənd əhalisini (32%) xeyli qabaqlayır. Qəzet oxucularının yarıdan çoxu (53%) qəzet bazarında əldə edilə bilən müxtəlif adda qəzetlərin çoxluğundan müəyyən dərəcədə məmnun qaldıqlarını bildirmişlər. Azərbaycan oxucularının

əldə edə bildikləri müxtəlif qəzetlər tamamilə müxtəlif maraqları, məqsədləri, ideya və mövqeləri əks etdirir. Belə bir vəziyyət ona gətirib çıxarır ki, müxtəlif iqtisadi, sosial-ictimai və siyasi məqsədlərə xidmət edən qəzetlər tez-tez bir-birinə zidd olan informasiyalar dərc edirlər; bu da oxucuların qəzetlərə olan etibarına dərhal təsir göstərir. Belə ki, ictimai rəy sorğusunun nəticələrinə görə respondentlərin 60%-i qəzet məlumatlarını etibarlı saymır.

Kitab oxuma, heç şübhəsiz ki, qəzet və jurnal oxumaqdan fərqlidir və öz spesifik xüsusiyyətlərinə malikdir. Sovet dövründə mütaliə intellektual yaradıcılıq formalarından və "əyləncə bazarı"nın yoxluğu şəraitində bütün yaşlardan olan insanların ən sevimli məşğuliyyətlərindən biri idi. Necə deyərlər, "qalın jurnallar" oxumağı da, faktiki olaraq, kitab mütaliəsinə bərabər tutmaq olardı, çünki həmin jurnallarda müntəzəm surətdə ən maraqlı milli və xarici ədəbiyyat nümunələri çap olunurdu.

90-cı illər müxtəlif sosial irəliləyişlərlə əlamətdar oldu və onlar da öz növbəsində oxucu mühitində nəzərə çarpacaq dəyişikliklər doğurdu. Kitab mütaliəsi öz yerini, hazırda gündəlik hadisələrin əsas arenasına çevrilən dövri mətbuat mütaliəsinə təslim etdi.

Klassik ədəbiyyata, ciddi müasir nəsr əsərlərinə indi yalnız intellektual elita, yaşlı və orta nəsil müəyyən maraq göstərir. Kitab bazarı sürətlə "yumşaq üzlüklü" ədəbiyyat – detektivlər, melodramlar, trillerlər tərəfindən zəbt olunur. Azərbaycan oxucuları üçün ən populyar janr belletristikadır (58%). Real tarixi hadisələri təsvir edən ədəbiyyat nümunələri və elmi-kütləvi ədəbiyyat da onların diqqətini çəkir. Soruşanların böyük bir hissəsi (40%) kitab seçimində onlar üçün başlıca amilin mütaliənin məqsədi olduğunu qeyd etmişlər. Sorğuya cəlb edilən oxucuların əksəriyyəti evlərində öz kitabxanaları olduğunu bildirmişlər (68%). Belə adamların sayı paytaxtda, rayonlarda olduğundan xeyli çoxdur (müvafiq ola-

raq 77% və 55%). Ev kitabxanalarında olan kitabların sayı orta hesabla 260-a bərabərdir. İctimai rəyin öyrənilməsi göstərdi ki, hazırda ictimai kitabxanalara, əsasən, təhsil alan gənclər müraciət edir. Qeyd etmək lazımdır ki, həm Bakıda, həm də rayonlarda yaşayan və ictimai kitabxanaların xidmətindən istifadə edən oxucular həmin kitabxanalardan əldə edə bildikləri kitabların çeşid müxtəlifliyindən müəyyən dərəcədə məmnundurlar (55%).

Statistik məlumatları yekunlaşdıraraq bir daha vurğulamaq istəyirik ki, hazırda Azərbaycanda 27 teatr vardır, onlardan 4-ü işğal edilmiş ərazilərdən köçürülmüşdür. Ağdam, Şuşa, Füzuli teatrları Bakıda və Sumqayıtda öz fəaliyyətlərini davam etdirir, Xankəndi teatrı isə praktiki olaraq öz varlığına son qoymuşdur. Göstərilən il ərzində bütün teatrlarda cəmi 4258 (o cümlədən kənd əhalisi üçün 477) tamaşa oynanılmış və bu tamaşalara 925 400 tamaşaçı baxmışdır. İl ərzində 102 yeni tamaşa qoyulmuş, 7 tamaşanın nümayişi bərpa edilmişdir.

Hal-hazırda Azərbaycanda mövcud olan 146 muzeydən 138-i Mədəniyyət Nazirliyinin tabeliyindədir. Göstərilən dövrdə fərdi ziyarətçilərin sayı 597 676, ekskursiya qrupları tərkibində gələnlərin sayı isə 644 697 nəfər olmuşdur. Cəmi 29 903 ekskursiya, 1285 sərgi təşkil olunmuş, 3140 mühazirə oxunmuşdur.

Mədəniyyət Nazirliyi sisteminə daxil olan 4 313 kitabxanaya oxucuların 2 804 070 dəfə gəlişi qeydə alınmışdır. Onlardan 1065-i yaşı 15-dən az olan uşaqların payına düşür.

Ölkədə müxtəlif tipli cəmi 3275 klub müəssisəsi mövcuddur. Bu müəssisələrdə 8236 kollektiv və qrup müxtəlif fəaliyyət növlərini həyata keçirir. Həmin klubların 107 517 iştirakçısı vardır.

1990-1999-cu illərdə muzey, teatr və kitabxanalara gələnlərin sayı (Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən).

| | 1990 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Muzeylərin sayı | 124 | 128 | 136 | 135 | 145 | 145 | 150 | 152 | 153 |
| Muzeyə gələnlərin sayı | 1154 | 2027 | 2290 | 1595 | 1543 | 1635 | 1502 | 1377 | 1235 |
| Teatrların sayı (peşəkar) | 20 | 22 | 24 | 26 | 26 | 26 | 26 | 26 | 26 |
| Tamaşaçıların sayı | 1376 | 1372 | 1587 | 1459 | 1201 | 744 | 801 | 842 | 853 |
| Kitabxanaların sayı | 4605 | 4909 | 4890 | 4872 | 4794 | 4644 | 4608 | 4522 | 4382 |
| Kitabxanalara gələnlərin sayı (min nəfər) | 4145 | 3246 | 3141 | 3107 | 3031 | 2962 | 2967 | 2881 | 2899 |

Təhlillərdən və statistik məlumatlardan da göründüyü kimi mədəniyyət müəssisələrinin dövlət mədəniyyət sisteminin tərkib hissəsi kimi başlıca vəzifəsi milli mədəniyyət sərvətlərinin, dünya mədəniyyəti nümunələrinin etibarlı şəkildə toplanıb qorunaraq gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, Azərbaycan xalqının adət və ənənələrinə bağlı, milli, mənəvi və mədəni, bəşəri dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir (92, s. 56).

## Qloballaşma və mədəni inteqrasiya şəraitində mədəniyyətin maliyyələşməsi və milli-mənəvi dəyərlərin mühafizəsi problemi

Bu gün qloballaşmaya ümumi mənada dünyalaşma və ya qlobal inteqrasiya kimi tərif verilir: "Qloballaşma ölkələr arasındakı iqtisadi, sosial və siyasi əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin inanc və görüşlərin tanınması, millətləırarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır" (115, s.8). Başqa bir ifadə ilə qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin, milli hüdudları aşaraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütünlük və uyğunlaşma adı altında birləşməsidir. Bu o deməkdir ki, həyatımızın elə bir sferası yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. Son düvrlər dünya iqtisadiyyatında qloballaşma prosesi daha sürətli və gözədəyəndir. Bu zəmində dünya ölkələrinin sərbəst şəkildə dünya bazarına inteqrasiya olunması və bunun üçün lazım olan şərtlərin daha da əlverişli edilməsidir. Qloballaşan dünyada dövlətin sabaha hansı siyasətlə getməsi, hansı maraqları güdməsi birmənalı qarşılanmır. Çünki qloballaşma prosesləri milli mədəniyyətin imkanlarını məhdudlaşdıraraq bilavasitə mədəni siyasətə təsir göstərir. Bəşəriyyət özünün salamat qalması, planetimizin qorunub saxlanılması məqsədilə iqtisadi, siyasi, milli-etnik problemlərin birlikdə həll edilməsinin zəruriliyini artıq dərindən dərk edir.

Qloballaşma mahiyyət etibarilə dünya dövlətlərinin bütövlüyünün, mədəni iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan götürülməsinə xidmət etməlidir. Təbii ki, bu gün qloballaşmanın bir çox ölkələr üçün yaratmış olduğu problemlər bizi çox narahat edir. Çünki bu problemlər bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin dünyanın inkişaf təcrübəsinin öyrənilməsini, yaradıcılıq əlaqələrinin genişləndi-

rilməsini zərurətə çevirir. Müasir dünya tərəfindən dərk edilən və etirazlarla qarşılanan neqativ təzahürləri siyasi və iqtisadi mənafelərin güdüldüyü, qloballaşmanın üzdə olmayan məqsədləri də vardır ki, son nəticədə mədəni tərəqqiyə dağıdıcı zərbə vurur. Qloballaşma mədəniyyət sahəsində də qeyd edilən mənafelərə xidmət etdiyi təqdirdə bəşəriyyət böyük fəlakətlərlə qarşılaşa bilər. Siyasi sahədə qloballaşma milli dövlətçiliok, milli-mənəvi dəyərlər problemi ilə qarşılayır. Milli özünüdərk, milli ləyaqət siyasi qloballaşmanın əsas problemidir. İnteqrasiya prosesinin qaçılmaz olduğu bir zamanda milli-mənəvi əxlaqi və tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı və maraq daha da artmışdır. Çünki qloballaşmanın ziddiyyətli gedişatından doğan bu zərurət cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdir. Buna görə də biz milli-mənəvi dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmadan özünü müdafiə vasitəsinə çevirməliyik. Yalnız birgə səmərəli fəaliyyət nəticəsində mədəniyyətəl milli özünəməxsusluğu, milli-mədəni dəyərləri qorumaq və mühafizə etmək mümkündür (115, s.9).

Bir tərəfdən respublikamızda milli və bəşəri dəyərlərin sintezini, dünya təcrübəsinə inteqrasiyanı təmin edən mühitin formalaşdırılması yönündə həyata keçirilən islahatlar dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmağa şərait yaradır. Digər tərəfdən sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrədilməsini, kompleks təlim-tərbiyə sisteminin qurulmasını, yaradıcılıq əlaqələrinin genişləndirilməsini zərurətə çevirir. Şübhəsiz ki, inteqrasiya prosesinin qaçılmaz olduğu bir dövrdə milli-mənəvi və əxlaqi-tərbiyəvi dəyərlərimizin qorunmasına qayğı daha da artırılmalıdır. Bu zərurət cəmiyyət həyatının bütün sahələrini – iqtisadiyyatı, siyasəti və mədəniyyəti əhatə edən qloballaşmanın ziddiyyətli gedişatından, onun görünən və görünməyən

tərəflərinin mövcudluğundan doğur.

Şübhəsiz ki, Azərbaycan Respublikası dünya birliyinin üzvü kimi bu inteqrasiya proseslərindən təcrid oluna bilməz. Deməli, bu gün kənar təsirlər qarşısında milli-mənəvi dəyərlərimizin mühafizəsi probleminə daha ciddi fikir verilməlidir. Ona görə də biz bu dəyərləri aşınmalardan qorumalı, milli mədəniyyətimizi millətin qloballaşmanın mənfi təzahürlərindən özünü müdafiə vasitəsinə çevirməliyik.

***Qloballaşma şəraitində beynəlxalq sosial-mədəni siyasətin vəzifələri***




(58, s 76)

Mədəniyyət sahəsində özünü tənzimləmə metodları tətbiq edilməli, prioritetlər aydınlaşdırılmalı və maliyyələşdirilməlidir. Yalnız birgə səmərəli fəaliyyət nəticəsində milli mədəniyyətin özünəməxsusluğunu, milli-mədəni dəyərləri qorumaq, mühafizə etmək mümkündür.

Bu mənada mədəniyyət sahəsində vergi siyasəti mədəniyyətə vəsait və investisiya cəlb edilməsində əsas mexanizmlərdən biridir. 2001-ci il yanvarın 1-dən Azərbaycan Respub-

likasının yeni Vergi Məcəlləsi qüvvəyə minmişdir. Bu qanunun ən mütərəqqi cəhəti sadələşdirilmiş sistem üzrə vergi tətbiq olunmasıdır. Yeni vergi məcəlləsinin 219.2 bəndində deyilir: "Sadələşdirilmiş sistem üzrə vergi ödəyən müəssisələr ƏDV, gəlir vergisi, torpaq vergisi, əmlak vergisi ödəyicisi deyillər". Əvvəlki üç ay ərzində 100,0 mln manatdan (təxminən 21 min ABŞ dolları) az dövriyyəyə malik olan müəssisələr sadələşdirilmiş sistem üzrə vergi ödəyirlər. Sadələşdirilmiş sistem üzrə vergi norması dövriyyə məbləğinin 2%-ni təşkil edir.

İqtisadiyyatda keçid dövrünü yaşayan bütün ölkələrdə olduğu kimi Azərbaycanın da vergi qanunvericiliyi özünün təşəkkül mərhələsindədir. Bu sahədə axtarışlar heç də həmişə və dərhal müsbət nəticə vermir. Belə ki, 2002-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə indiyədək 100-dən çox dəyişiklik və əlavələr edilib; onlardan biri sadələşdirilmiş sistem üzrə vergiylə bağlıdır. Sadələşdirilmiş sistem üzrə vergi ödənilməsi üçün əvvəlki üç aylıq dövriyyə həddi 30.0 mln. manata (təxminən 6300 ABŞ dolları) endirilib. Bu dəyişikliklərin qəbul edilməsi onunla nəticələndi ki, ƏDV və gəlir vergisi ödəyən mədəniyyət təşkilatlarının sayı kəskin surətdə artdı və bu da onların vəziyyətini xeyli pisləşdirdi.

Lakin, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 10 sentyabr 2002-ci il tarixli fərmanına uyğun olaraq 2003-cü il yanvarın 1-dən aşağıdakılar nəzərdə tutulur: vergi növləri üzrə hədlərin azaldılması; vergilərin sahələr və regionlar üzrə dərəcələrə ayrılması; sadələşdirilmiş vergi sisteminin tətbiq dairəsinin genişləndirilməsi; sosial sığorta haqlarının azaldılması. Bütün bu tədbirlər mədəniyyət sahəsində vergi sisteminin gələcəkdə daha da inkişaf etdiriləcəyinə əsas verir.

Mədəniyyətin maliyyələşməsi üzrə son illərin məlumatlarını təhlil edərək isə, aşağıdakı əsas nəticələri çıxarmaq olar:

1. Respublika büdcəsində bütövlükdə mədəniyyətin maliyyələşmə payı, o cümlədən mədəniyyətə, incəsənətə və abidələrin bərpasına ayrılan xərclər son dərəcə azdır (burada dövlət büdcəsinin özünün həcmini də nəzərə almaq lazımdır);

2. İncəsənət nümunələrinin satın alınmasına və kitabxana fondlarının zənginləşdirilməsinə buraxılan vəsaitlər minimal həcmdədir;

3. Mərkəzi səviyyədə pullu xidmətlər son dərəcə azdır, regionlarda isə, demək olar ki, tamamilə yoxdur (burada büdcədənkənar vəsaitlər nəzərdə tutulur).

4. Mərkəzi səviyyədə mədəniyyət müəssisələri tərəfindən investisiyaların cəlb olunması və qrant alınması kifayət qədər deyil və son dərəcə nadir xarakter daşıyır, regional səviyyədə isə bunlar ümumiyyətlə yoxdur;

5. Mədəniyyət sahəsində vergi siyasəti kifayət qədər çevik deyil. Mədəniyyətin maliyyələşməsi məsələsinin əsas perspektivləri və həlli yolları, fikrimizcə, aşağıda təklif edilən bütöv tədbirlər kompleksinin həyata keçirilməsindən asılıdır: dövlət büdcəsində bütövlükdə mədəniyyətə ayrılan xərclərin həcmini daim artırmaq və bu payı 5 – 6%-ə çatdırmaq; abidələrin bərpasına ayrılan xərcləri artırmaq; mədəniyyət layihələrinə ayrılan xərcləri artırmaq; incəsənət əsərlərinin satın alınmasına və kitabxana fondlarının zənginləşməsinə yönəldilən xərc maddələrini smetaya daxil etmək (bu, bütün xərclərin ən azı 25%-ni təşkil etməlidir); dövlət büdcəsindən maliyyələşməni saxlamaqla, eyni zamanda ilk növbədə 3-cü qrup xərclərinin dəstəklənməsinə yönəldilən büdcədənkənar daxil vəsaitlərin daxil olmasını artırmaq; həm mərkəzi, həm də regional səviyyədə mədəniyyət müəssisələrinin investisiyalar cəlb etməsinə və qrantlar almasına nail olmaq. Bütün bunların həyata keçirilməsi üçün vergi məcəlləsində bir sıra güzəştlər tətbiq edilməli və ilk növbədə, əvvəllər olduğu kimi, mədəniyyət sahəsi ƏDV-dən azad olmalıdır.

Azərbaycan Respublikasında mədəniyyətin maliyyələşməsi keçid iqtisadiyyatı dövrünü yaşayan bütün ölkələrdə mövcud olan eyni tendensiyalara malikdir. Büdcə maliyyələşməsi ölkədə mədəniyyətin başlıca maliyyələşmə mənbəyidir. Bu vəziyyət respublikada mədəni irsi qoruyub saxlamağa, bazar iqtisadiyyatına keçid kimi çətin bir dövrdə mədəniyyət işçilərini sosial cəhətdən mümkün qədər qorumağa imkan verir. Ölkə büdcəsində mədəniyyətə ayrılan xərclərin payına nəzər salmazdan əvvəl, bu faktı qeyd etmək lazımdır ki, 2001-ci il üçün bütün dövlət büdcəsi təxminən 1 milyard ABŞ dolları həcmində olmuşdur. 1997-2001-ci illərdə büdcədən mədəniyyətə ayrılan xərclərin strukturu isə aşağıdakı kimi olmuşdur:

| İllər | 1997 | 1997 | 1998 | 1998 | 1999 | 1999 | 2000 | 2000 | 2001 | 2001 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | mln. manat | % | mln. manat | % | mln. manat | % | mln. manat | % | mln. manat | % |
| Respublika büdcəsi | 3194369,0 | 100 | 3796847,3 | 100 | 3969040,8 | 100 | 3930934,5 | 100 | 4595000,0 | 100 |
| Mədəniyyət, incəsənət, kütləvi informasiya vasitələri | 89002,6 | 2,78 | 103114,8 | 2,71 | 89755,3 | 2,26 | 99810,4 | 2,53 | 111098,2 | 2,42 |
| Mədəniyyət. incəsənət və abidələrin bərpası | 48348,1 | 1,51 | 57808,9 | 1,52 | 51628,8 | 1,30 | 56762,2 | 1,44 | 61314,0 | 1,33 |

Büdcədən mədəniyyətə ayrılan vəsaitlər ümumi büdcə həcminin 2,5%-ə qədərini təşkil edir. Amma bu xərcləri ayrı-ayrı fəaliyyət sahələri üzrə nəzərdən keçirərkən, məlum olur ki, konkret olaraq mədəniyyət, incəsənət və abidələrin bərpasına düşən pay orta hesabla ildə 1,5 faizdir. Beləliklə, biz mədəniyyətin maliyyələşməsində iki münasibətlə üzləşirik: bütövlükdə mədəniyyətə ayrılan xərclər və Mədəniyyət və Turizm Nazirliyinin ixtiyarında olan xərclər. Aşağıdakı cədvəldə göstərilənlər bu məsələ ilə daha ətraflı tanış olmaq imkanı verir. 1997-2001-ci illərdə fəaliyyət sahələri üzrə mədəniyyətə ayrılan xərclərin strukturu:

57808,9

| | 1997 | 1997 | 1998 | 1998 | 1999 | 1999 | 2000 | 2000 | 2001 | 2001 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | mln. manat | % | mln. manat | % | mln. manat | % | mln. manat | % | mln. manat | % |
| Mədəniyyət və kütləvi informasiya vasitələrinə ayrılan respublika büdcəsi, o cümlədən: | 89002,6 | 100 | 103114,8 | 100 | 89755,3 | 100 | 99810,4 | 100 | 111098,2 | 100 |
| Mədəniyyət, incəsənət və abidələrin bərpası | 48348,1 | 54,3 | 57808,9 | 56,0 | 51628,8 | 57,5 | 56762,2 | 56,9 | 61314,0 | 55,2 |
| Radio və televiziya | 32828,8 | 36,9 | 38032,5 | 36,9 | 30223,9 | 33,7 | 34798,8 | 34,9 | 38739,1 | 34,9 |
| Mətbuat və s. | 3675,7 | 4,1 | 5123,4 | 5,0 | 5902,6 | 6,6 | 6049,4 | 6,0 | 8045,1 | 7,2 |
| Kinematoqrafiya | 4150,0 | 4,7 | 2150,0 | 2,1 | 2000,0 | 2,2 | 2200,0 | 2,2 | 3000,0 | 2,7 |

Mədəniyyətə ayrılan büdcə xərcləri payının faiz göstəricilərinin Avropa ölkələrindəki göstəricilərlə müqayisəli təhlili büdcə həcmlərinin hədsiz dərəcədə fərqli olması səbəbindən gerçək vəziyyəti əks etdirmir. Bundan əlavə, Azərbaycan Respublikasında mədəniyyət 95%-dən çox büdcə hesabına maliyyələşirsə, Avropa ölkələrində bu maliyyələşmənin bir çox başqa, alternativ mənbələri də mövcuddur.

Aşağıdakı cədvəldə 1997-2001-ci illərdə mədəniyyətə və incəsənətə mərkəzi və regional səviyyələrdə ayrılan büdcə xərclərinin strukturu verilmişdir. Qeyd etmək lazımdır ki, mədəniyyətə ayrılan büdcə xərclərinin son illərdə desentralizasiyası nəticəsində bu vəsaitlərin 75-80%-i respublikanın regionlarında bölüşdürülür. Yerli icra hakimiyyəti orqanları rayon mədəniyyət şöbələrilə birlikdə respublikanın regionlarında (rayonlarında) mədəniyyətə ayrılan xərclərin strukturunu mü-əyyən edirlər. Burada onu da qeyd etmək lazımdır ki, rayonlarda subyektiv amil çox güclüdür, çox şey yerli icra hakimiyyəti rəhbərindən asılıdır və keçirilən monitorinqlərin də göstərdiyi kimi mədəniyyətə münasibət rayonlar üzrə xeyli fərqli ola bilər.

Mərkəzləşdirilmiş xərclərin əsas hissəsi paytaxtın – Bakı şəhərinin payına düşür. Bundan əlavə, büdcə vəsaitlərinin daim çatışmazlığı şəraitində, ilk növbədə əsasən Bakıda yerləşən respublika əhəmiyyətli təşkilatlar maliyyələşdirilir.

1997-2001-ci illərdə mədəniyyətə və incəsənətə mərkəzi və regional səviyyələrdə ayrılan büdcə xərclərinin strukturu:

| İllər | 1997 | 1997 | 1998 | 1998 | 1999 | 1999 | 2000 | 2000 | 2001 | 2001 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | mln. manat | % | mln. manat | % | mln. manat | % | mln. manat | % | mln. manat | % |
| ədəniyyət, incəsənət və abidələrin bərpasına Cəmi: | 48348,1 | 100 | 57808,9 | 100 | 51628,8 | 100 | 56762,2 | 100 | 61314,0 | 100 |
| Mərkəzləşdirilmiş xərclər | 8202,9 | 17,0 | 11817,8 | 20,4 | 11584,8 | 22,4 | 12064,5 | 21,3 | 15364,1 | 25,0 |
| Regional xərclər | 40145,2 | 83,0 | 45991,1 | 79,6 | 40044,0 | 77,6 | 44697,7 | 78,7 | 45949,9 | 75,0 |

Cədvəldən də göründüyü kimi 1999-cu il istisna edilməklə həm bütövlükdə, həm də mərkəzi və regional səviyyələrdə mədəniyyətə ayrılan xərclərin daim artması müşahidə olunur; bu da mədəniyyət haqqında qanuna uyğundur.

Mərkəzləşdirilmiş xərclərin yüksək faiz təşkil etməsi onunla izah olunur ki, respublika əhəmiyyətli 4 kitabxana və 15 muzeyin saxlanması, 14 teatrın dotasiyası, mərkəzləşdirilmiş tədbirlərin keçirilməsi, dram, musiqi və təsviri incəsənət əsərlərinin satın alınması, mədəniyyət abidələrinin bərpası və yenilərinin yaradılması, xarici ölkələrdə müxtəlif tədbirlərin keçirilməsi və s. üçün lazım olan xərclər onlara daxildir. Aşağıdakı cədvəldə üç il üçün bu xərclərin strukturu əyani şəkildə nümayiş etdirilmişdir.

| İllər | 1999 | 2000 | 2001 |
|---|---|---|---|
| Mərkəzləşdirilmiş xərclər üzrə dövlət büdcəsi, min manatla cəmi: o cümlədən: | 13584754 | 14264531 | 18364125 |
| Kitabxanalar | 819691 | 866901 | 1022028 |
| Muzeylər | 1225820 | 1270125 | 1437536 |
| Teatr-tamaşa müəssisələri | 4776000 | 6185000 | 7388000 |
| Mərkəzləşdirilmiş tədbirlər | 3966954 | 2934000 | 4156500 |
| Bərpa işləri | 500000 | 500000 | 1000000 |
| Kino | 2000 000 | 2200000 | 3000000 |
| Digər mədəniyyət müəssisələri | 296289 | 308502 | 360061 |

Mədəniyyət və Turizm Nazirliyinin istifadə etdiyi xərclərin xeyli hissəsi teatr-tamaşa müəssisələrinin dotasiyasına yönəldilir. Təxminən 25%-i mədəniyyət layihələrinin geniş spektrindən, bədii, musiqi və dram əsərlərinin satın alınmasından və s. ibarət olan mərkəzləşdirilmiş tədbirlərə sərf olunur.

Qeyd etdiyimiz kimi regional səviyyəli xərclərin böyük bir qismi Bakının payına düşür. Aşağıdakı cədvəldə Bakı şəhərinin büdcəsində mədəniyyətə ayrılan büdcə xərcləri (min manatla) və onların strukturu verilir.

| İllər | 1999 | 2000 | 2001 |
|---|---|---|---|
| Bakı şəhərinin büdcəsi | 339.345.450 | 350.652.716 | 393.710.453 |
| Mədəniyyətə ayrılan xərclər (min man.) və onların Bakı şəhər büdcəsinə faiz nisbəti, o cümlədən: | 13.009.057 3.83% | 12.307.632 3.51% | 12.935.913 3.29% |
| Kitabxanalar | 262.409 | 305.969 | 299.116 |
| Muzeylər | 336.211 | 938.023 | 430.521 |
| Teatr-əyləncə müəssisələri | 871.500 | 776.100 | 670.079 |
| Mərkəzləşdirilmiş tədbirlər | 655.241 | 607.938 | 234.356 |
| Musiqi məktəbləri | 10.735.785 | 9.582.985 | 11.197.064 |
| Mərkəzi aparat və digər mədəniyyət müəssisələri | 147.911 | 96.617 | 104.777 |

Beləliklə, paytaxt büdcəsində mədəniyyətə ayrılan xərclər 3,5% təşkil edir. Xərclərin strukturunda onların böyük bir

qismi – 80%-dən çoxu musiqi təhsilinin payına düşür. 6 – 7%-i teatr-əyləncə müəssisələrinə sərf olunur, kitabxana və muzeylərə sərf olunan xərclər isə mədəniyyətə ayrılan xərclərin ümumi məbləğinin 6 – 7%-dən çox olmur.

Qeyd etmək lazımdır ki, mədəniyyətə ayrılan büdcə xərclərinin son illərdə desentralizasiyası nəticəsində bu vəsaitlərin 75-80%-i respublikanın regionlarında bölüşdürülür. Yerli icra hakimiyyəti orqanları rayon mədəniyyət şöbələrilə birlikdə respublikanın regionlarında (rayonlarında) mədəniyyətə ayrılan xərclərin strukturunu müəyyən edirlər. Burada onu da qeyd etmək lazımdır ki, rayonlarda subyektiv amil çox güclüdür, çox şey yerli icra hakimiyyəti rəhbərindən asılıdır və keçirilən monitorinqlərin də göstərdiyi kimi mədəniyyətə münasibət rayonlar üzrə xeyli fərqli ola bilər.

Mərkəzləşdirilmiş xərclərin əsas hissəsi paytaxtın – Bakı şəhərinin payına düşür. Bundan əlavə, büdcə vəsaitlərinin daim çatışmazlığı şəraitində, ilk növbədə əsasən Bakıda yerləşən respublika əhəmiyyətli təşkilatlar maliyyələşdirilir.

Mərkəzləşdirilmiş xərclərin yüksək faiz təşkil etməsi onunla izah olunur ki, respublika əhəmiyyətli 4 kitabxana və 15 muzeyin saxlanması, 14 teatrın dotasiyası, mərkəzləşdirilmiş tədbirlərin keçirilməsi, dram, musiqi və təsviri incəsənət əsərlərinin satın alınması, mədəniyyət abidələrinin bərpası və yenilərinin yaradılması, xarici ölkələrdə müxtəlif tədbirlərin keçirilməsi və s. üçün lazım olan xərclər onlara daxildir. Mədəniyyət Nazirliyinin istifadə etdiyi xərclərin xeyli hissəsi teatr-tamaşa müəssisələrinin dotasiyasına yönəldilir. Təxminən 25%-i mədəniyyət layihələrinin geniş spektrindən, bədii, musiqi və dram əsərlərinin satın alınmasından və s. ibarət olan mərkəzləşdirilmiş tədbirlərə sərf olunur.

1997-ci ilin oktyabrından etibarən büdcə vəsaitlərinin xərclənməsi Maliyyə Nazirliyinin təsdiq etdiyi smetalar əsasında xəzinədarlıq vasitəsilə həyata keçirilir; həmin smetalarda büdcə vəsaitlərinin maddələr üzrə xərclənməsi

göstərilir ki, bu da Maliyyə Nazirliyinin rayon xəzinədarlıqlarına pulların xərclənməsini dəqiq uçota almaq və ona nəzarət etmək imkanı verir. Qeyd etmək lazımdır ki, həmin maddələrin və yarımmaddələrin sayı otuzdan çoxdur. Onların sayca bu qədər çoxluğu mühasiblərin işini çətinləşdirir və bir çox etirazlar doğurur. Şərti olaraq, bu xərc maddələrini üç blokda qruplaşdırmaq olar: birinci blok – əmək haqqı, sosial və digər ödənişlər; ikinci blok – binaların və otaqların saxlanması üzrə kommunal, icarə, təmir və s. xərcləri; üçüncü qrupa isə muzey və kitabxana fondlarını zənginləşdirmək üçün yeni incəsənət əsərləri və kitabların satın alınmasına, Azərbaycan mədəniyyətinin xaricdə təbliği ilə bağlı tədbirlərin keçirilməsinə, kitab nəşrinə, müxtəlif layihələr üçün vəsait ayrılmasına və s. xidmət edən maddələri daxil etmək olar.

Bu gün büdcə xərclərinin əsas məqsədi mədəniyyət müəssisələrini qoruyub saxlamaq və onların işçilərinin sosial müdafiəsini təmin etməkdir. Eyni zamanda, üçüncü qrup üzrə xərclər təxminən 10%-ə bərabərdir və hətta bəzən bundan da azdır. Mədəniyyətin əsas funksiyalarına nəzər salarkən, aydın olur ki, faktiki olaraq yaradıcılığa deyil, qoruyub saxlamaq funksiyasına üstünlük verilir. Axı məhz bu xərc bloku mədəni dəyərlərin qorunub saxlanılması və zənginləşdirilməsi məqsədlərinə xidmət edir. Mədəniyyətin bu qədər cüzi ölçüdə maliyyələşdirilməsi halında incəsənət əsərlərinin satın alınması, yeni bədii əsərlər üçün sifariş verilməsi, müəlliflərin stimullaşdırılması və kitabxana fondlarının zənginləşdirilməsi üçün minimal vəsait xərclənməsi tendensiyasının davam etdirilməsi qaçılmaz olaraq milli mədəniyyətin ümumi vəziyyətinin pisləşməsinə gətirib çıxaracaqdır.

Bütövlükdə, belə bir faktı təsdiq etmək lazım gəlir ki, keçid dövründə ölkədə mədəniyyətin maliyyələşdirilməsi çoxlu problemlərə malikdir. Onlardan biri əmək haqqının aşağı səviyyədə olması və bununla bağlı mütəxəssislərin iş yerlərini tərk etmələridir. 2001-ci ildə mədəniyyət sahəsində çalışanların

orta əmək haqqı 59.883 manata (təqribən 13 ABŞ dolları), mədəni-maarif müəssisələri işçilərininki – 52.090 manata (təqribən 11 ABŞ dolları), teatr-tamaşa müəssisələri işçilərininki isə 104.776 manata (təqribən 22 ABŞ dolları) bərabər olmuşdur.

Bu sahədə, heç şübhəsiz, ən müsbət amil kimi respublika prezidentinin mədəniyyət işçilərinin sosial şəraitinin yaxşılaşdırılmasına yönəldilən ayrı-ayrı fərman və sərəncamlarını qeyd etmək lazımdır:

– "Azərbaycan simfonik orkestrinin fəaliyyətinin yaxşılaşdırılması tədbirləri haqqında", № 701, 02.12.97;

– "Azərbaycan Respublikasının mədəniyyət və incəsənət xadimlərinə fərdi pensiyalar verilməsi haqqında", № 714, 22.12.97;

– "Qırmızı Kitab"a daxil edilən gənc istedadlara prezident təqaüdü verilməsi haqqında", № 662, 13.09.97;

– "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında", № 281, 06.12.99;

– "Azərbaycan Respublikasının gənc yazıçılarına fərdi təqaüdlər verilməsi haqqında", № 277, 06.12.99;

– "Azərbaycan Dövlət Xor Kapellası işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında", № 432, 02.06.2000;

– "Azərbaycan Dövlət Rəqs Ansamblı işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında", № 819, 15.10.2001;

– "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında", № 707, 08.05.2002;

– "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin təsis edilməsi haqqında", 11.06.2002.

Mənəvi planda isə hökumət mükafatları sistemi əhəmiyyətli rol oynayır. Prezidentin 22 may 1998-ci il tarixli "Azərbaycan Respublikasının fəxri adları haqqında" Fərmanına uyğun olaraq, görkəmli mədəniyyət xadimlərinə fəxri adlar (xalq

yazıçısı, xalq şairi, xalq artisti, xalq rəssamı, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi) verilir.

Mədəniyyətin maliyyələşməsinin alternativ mənbələri, ilk növbədə, büdcə və təsərrüfat təşkilatlarının özlərinin qazandığı büdcədənkənar vəsaitlərdir. Buraya muzeylərin, sərgi salonlarının və kitabxanaların pullu xidmətləri daxildir. Ancaq bu vəsaitlər o qədər cüzidir ki, mədəniyyətə, incəsənətə və abidələrin bərpasına ayrılan büdcə maliyyəsinin ümumi məbləğinin 1%-dən də azına bərabərdir. Müvafiq icra orqanları əlavə vəsait cəlb etmək üçün milli mədəniyyət fondları yaradırlar. Yerli özünüidarə orqanları, ictimai birliklər, hüquqi və fiziki şəxslər də bu məqsədlə mədəniyyətin maliyyələşdirilməsi üçün müxtəlif fondlar yarada bilərlər. Maliyyə mənbəyi tapılması probleminin həlli metodlarından biri özəlləşdirmədir, yəni mədəniyyət sahəsinin idarə olunmasının şəxsi əllərə verilməsidir. Mədəniyyət sferasına bütövlükdə nəzər saldıqda aydın olur ki, özəlləşdirmə, əsasən dövri mətbuat, kitab məhsulu, teleradio verilişləri, audiokaset və lazer diski istehsalı, konsertlərin təşkili sahəsində şou biznes və təsərrüfat xarakterli digər mədəniyyət obyektlərini əhatə edib. Bununla belə, özəlləşdirmə, kifayət qədər maliyyə qoyuluşu tələb edən kinoistehsalı və kinoprokat sahələrinə, praktiki olaraq, toxunmayıb. Özəlləşdirmə ilə bağlı qoyulan bir sıra məhdudiyyətləri də qeyd etmək lazımdır. Özəlləşdirmə predmetinə çevrilə bilməyən mədəniyyət obyektlərinin bütöv bir siyahısı mövcuddur. Buraya dövlət muzeyləri, kitabxanaları, qalereyaları, tarixi abidələri, beynəlxalq əhəmiyyətli mədəniyyət obyektləri və s. aiddir. Mədəniyyət industriyalarının gələcək mümkün inkişaf yollarından biri xarici sərmayənin bu sahəyə cəlb edilməsidir. Belə əməkdaşlığa və mədəniyyət industriyaları sahəsinə sərmayə qoyuluşuna Kinematoqraflar İttifaqı ilə “İTİL” özəl ingilis firmasının müştərək kinoprokatla məşğul olan “Azerbaijan International Cinema Company” birgə müəssisəsini misal göstərmək olar; həmin

birgə müəssisə "Azərbaycan" kinoteatrını ən yeni tələblərə uyğun bərpa etmiş və avadanlıqlarla təchiz etmişdir.

Respublika əhəmiyyətli obyektlərin gələcək inkişafını təmin etmək məqsədilə əlavə vəsait cəlb edilməsinin daha bir uğurlu nümunəsi kimi Azərbaycan Dövlət Opera və Balet Teatrının iş təcrübəsini göstərmək olar; teatrın öz fəaliyyətini tam gücü ilə davam etdirə bilməsi üçün hami şura təşkil edilmiş və onun tərkibinə AGIP, AMOCO, ARCO, BP, HSBS British Bank, MOBIL, SHELL, TEXAKO, Wicklow Group və başqaları kimi iri beynəlxalq şirkətlərin nümayəndələri daxil olmuşlar.

Mədəniyyət xadimlərini himayə sistemində qrant nisbətən yeni anlayışdır. 1998-ci ildə Azərbaycan Respublikasında "Qrant haqqında" qanun qəbul edilmişdir; bu qanun qrantların verilməsi, alınması və istifadəsilə bağlı iqtisadi və hüquqi münasibətləri tənzimləyir. Mədəniyyət xadimlərinə real yardım göstərən fondlar arasında Soros Fondu və Avrasiya Fondunun adlarını çəkmək lazımdır. Onların fəaliyyəti yaxın və uzaq xarici ölkələrlə qarşılıqlı rəssam, musiqiçi, sənətşünas mübadiləsinin dəstəklənməsinə yönəldilmişdir. Bu fondların səfərlər üçün ayırdığı qrantlar sayəsində mədəniyyət xadimlərinin xarici seminarlarda, konfranslarda, festivallarda iştirak, sosial elmlər, o cümlədən kulturologiya və sənətşünaslıq üzrə tədqiqatlar aparmaq imkanları genişlənmişdir. Belə ki, məsələn, Avrasiya Fondu M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında beynəlxilq kompüter sistemi qovşağının və Cənubi Qafqazın informasiya işçiləri və kitabxanaçıları üçün Regional İxtisasartırma Mərkəzinin yaradılmasına qrant ayırmışdır. 2002-ci ildə Yaponiya hökumətinin ayırdığı qrant hesabına Dövlət Simfonik Orkestri üçün 300 000 ABŞ dolları məbləğində yeni musiqi alətləri alınmışdır.

Ümumiyyətlə, təhlillərdən belə ümumiləşdirici nəticəyə gəlmək mümkündür ki, son illərin çətinlikləri ilə yanaşı Azərbaycanın dünyaya mədəni inteqrasiyası şəraitində

mədəniyyətin maliyyələşməsi probleminin həlli istiqamətində ümidverici proseslər müşahidə edilməkdədir. Və bu proseslər fonunda milli-mənəvi dəyərlərin mühafizəsi məsələsi də daima dövlət rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Bu da ondan irəli gəlir ki, müstəqilliyinin bərpasından ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyi getdikcə möhkəmləndirilməkdə, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir. Dövlətçiliyin təməlinin, milli varlığın özülünün, əsasının mədəniyyətə bağlı olduğunu aydın dərk edən görkəmli siyasət və mədəniyyət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyev rəhbərlik etdiyi bütün illərdə milli-mənəvi dəyərlərimizə həmişə qaygı ilə yanaşmış və bununla bağlı bəyanatlarla çıxış etmiş, qanunlar imzalamışdır (14; 15; 43; 45; 47). O, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi ruhda tərbiyələndirirməyin dövlətimiz, xalqımız qarşısında ən zəruri, həlli qaçılmaz vəzifələr olduğunu 13 avqust 2001-ci il tarixli bəyanatında da söyləmişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir" (15, 13 avqust 2001-ci il).

## MƏDƏNİYYƏT SİYASƏTİNİN EFFEKTİVLƏŞMƏ, SƏMƏRƏLILƏŞMƏ PERSPEKTIVLƏRI

Azərbaycanda mədəniyyət siyasətinin kəmiyyət və keyfiyyət baxımından perspektivlərinin təhlilinə keçməzdən öncə "mədəniyyət", "cəmiyyət" və "sosial" məfhumlarını və bunların bir-biriləri ilə olan əlaqələrini nəzərdən kecirməyi lazım bilirik. Ralph Linton və Melville T.Herskovitsə görə, "mədəniyyət" insanların həyat şəklidir; "cəmiyyət" isə müəyyən bir həyat şəklini sürdürən fərdlərin təşkilatlanmış bütünüdür, bir sistemdir. "Sosial" hadisələr insanın insanla və ya qrupla olan əlaqələrini; bu əlaqələrin struktur, funksiya və mərhələlərini (zaman içərisində inkişafını) əhatə edər. "Mədəniyyət" deyimi sənət, elm, texnoloji, fəlsəfə və b. kimi sahələr ilə, sosial təşkilatlanmanın və bunun forma və qaydalarını, bir kəlmə ilə, bütün həyat tərzini əhatə edir (109, s.1). Əhməd bəy Ağaoğlunana görə də "Mədəniyyət həyat tərzi-yaşam tərzidir" (95, s. 58).

Sosial inkişaflar sosial strukturlarda, yəni sosial xarakter və münasibət örnəklərindəki inkişafdır. Bu inkişaf, dəyərlər, normalar, statuslar, rollar, rəmzlər və bütün mədəniyyət məhsulları üzərində nəticələr verir. A.L.Kroeber və Talcott Parsonsa görə, geniş mənası ilə "mədəniyyət", insan davranışına və bu davranış yolu ilə gətirilən əsərlərə forma verən dəyər, fikir və digər rəmzləşmiş məna sistemlərinin, dövredilən və yaradılan mahiyyət və örnəkləridir. (109, s.1). Buna qarşılıq cəmiyyət və ya sosial sistem yuxarıda ifadə edildiyi kimi, fərdlər və topluluqlararası münasibətlərin nizamıdır. Ancaq bu nizam da mədəniyyətin hətta çox önəmli bir parçasıdır. Mədəniyyət qədəmlərinin sosial hadisə ilə çox yaxından əlaqəsi açıqdır. Mədəniyyət dəyişmələri sosial dəyişməyi, sosial dəyişimlər də mədəniyyət dəyişmələrini doğurur (109, s.2).

İnsan fəaliyyətlərində dəyişmə həm sosial, həm də mədəniyyət ünsürlərini ehtiva etməkdədir. Bu halda mədəniyyəti bir seçkinlər qrupunun (elitanın) istehsal etdiyi – yaratdığı, topladığı, mühafizə etdiyi əsərlərin və biliklərin məcmusundan ibarət saymaq xətadır. Mədəniyyət ehtiyacı bilik qazanmaq, müəyyən bir həyat şəklini tələb etmək və onu təmin edəcək ünsürləri inkişaf etdirmək, anlaşma və xəbərləşmə tələbatlarını ifadə edir.

Mövzu baxımından önəmli olan sosial dəyişmənin ünsürlərinə və mədəniyyətlə əlaqələrinə gəldikdə qeyd edilməlidir ki, bu dəyişmə də müxtəlif sosial quruluş və müəyyən dəyərlərlə bağlıdır. Dəyişmə amillərindən başlıcası bunlardır: iqtisadi amil; elm və texnologiya; demoqrafik təsir; müxtəlif əhali kateqoriyalarındakı dəyər dəyişiklikləri; ideoloji amillər; liderlik amili; siyasi amil; təhsil; kütləvi informasiya; sosial fəaliyyətlər; xarici dünya təsirləri; planlaşdırma və b.

Göründüyü kimi, bir cəmiyyətdə dəyişmə və inkişaf istiqamətində göstərilən səylər bir çox sosial-mədəni amillərindən təsirlənməklə bərabər onlara da təsiretmə durumundadır (109, s.3)

Bu amillərə Azərbaycanın mədəniyyət siyasətində də mühüm əhəmiyyət verilməkdədir. Azərbaycan Respublikası Milli Məclisinin daimi komissiyaları haqqındakı Qanunun müvafiq maddələri buna parlaq nümunədir. Belə ki, Elm və təhsil məsələləri daimi komissiyasına dair 15-ci maddədə deyilir: "Elm və təhsil məsələləri daimi komissiyası elm və təhsil sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı daimi komissiyadır. Elm və təhsil məsələləri daimi komissiyası: elm, texnika, təhsil, peşə hazırlığı, ixtiraçılıq və patent hüququ, informatika və informasiyanın mühafizəsi sahələrinə aid qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir; dil, din, kütləvi informasiya sahələri üzrə qanun layihələrini hazırlayır və ya

təqdim olunmuş qanun layihələrinə dair rəy verir; Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində elm və təhsil sahələrinə aid məsələlərə dair rəy verir" .

Maddə 16. Mədəniyyət məsələləri daimi komissiyasına dair 16-cı maddədə isə qeyd olunur ki: "Mədəniyyət məsələləri daimi komissiyası mədəniyyət və mədəni sərvətlərin mühafizəsi sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı daimi komissiyadır. Mədəniyyət məsələləri daimi komissiyası: mədəniyyət, o cümlədən dil, ədəbiyyat, incəsənət, muzey, teatr, kino, dizayn, memarlıq, şəhərsalma, kitabxanaçılıq, arxiv işi, habelə mədəni sərvətlərin mühafizəsi sahələrinə dair qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir; dil, din, kütləvi informasiya sahələri üzrə qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir; Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi sədrinin tapşırığı ilə qanun və qərar layihələrində mədəniyyət məsələlərinə dair rəy verir" (139).

## Azərbaycan mədəniyyəti və dünya mədəniyyətinin inkişaf mərhələləri. Siyasi mədəniyyət

Dünya tarixinin müxtəlif dövrlərində insanlar müxtəlif cür həyat sürmüşlər. İnsanların maddi həyatı dəyişidikcə, ictimai quruluşları da, şüur və həyat tərzi də, buna uyğun olaraq insanlar özləri də təbəddülata uğramışlar. Onların arasında tarixi inkişafla, cəmiyyətdə baş verən dəyişiklilklərin xarakterilə şərtlənən fərq öz təcəssümünü mədəniyyətdə tapa bilmişdir. Mövcud olan hər bir tarixi dövr cəmiyyətin xüsusi formasıdır. Buna görə hər bir xalqın öz mədəniyyətinə uyğun həyat tərzi olmuşdur. Çox vaxt bütün dövrlər və xalqlar üçün həlledici rolu öz adlarına yox, həmin təbii şəraitin adına yazırdılar, onu ilahiləşdirir, dini sitayiş, həqiqi pərəstiş obyektinə çevirirdilər. İbtidai zamanlardan əsasını götürən çoxsaylı mifoloji və dini pərəstiş obyektləri insanların təbiətdən bilavasitə asılılığının göstəricisidir. İnsanlar təbiətə xüsusi insani xassələr verirdilər, təbiətin şüurlu, iradəli olmasını, hadisələrin gedişini qabaqca müəyyənləşdirə bilməsini fikirləşirdilər. Mədəni xassələrin təbiət hadisələrinə və proseslərinə aid edilməsi insanın təbii mühitdən hələ tam asılı olmasının sübutudur.

Mədəniyyət fenomeninə kulturoloji yanaşmanın mənası bundan ibarətdir ki, o, özündə maddi və mənəvi istehsalın nəticələrini əks etdirir. Mədəniyyət ictimai tələbatı ödəmək üçün əsrlər boyu bəşəriyyət tərəfindən yaradılan və yaradılmaqda olan maddi və mənəvi sərvətlərin məcmusudur, bu sərvətlərin istehsalı, istehlakı yayılması və qorunması prosesidir.

Kulturologiyada mədəniyyət sosial təbiətə malik olan və sosial münasibətlərdə ifadə edilən əşyaların, ideyaların, dəyərli təsəvvürlərin, mənəvi-əxlaqi ünsürlərin, estetik aləmin yaradılması, mənimsənilməsi, saxlanılması və yayılmasına istiqamətlənən mürəkkəb dinamik hadisə kimi araşdırılır. Müxtəlif elmlər – fəlsəfə, tarix, sənətşünaslıq, etnoqrafiya və

kulturologiya mədəniyyəti "öz predmeti" hesab etsə də, cəmiyyətşünaslığı hər şeydən əvvəl, cəmiyyətin fəaliyyəti və inkişafı, cəmiyyətin fəaliyyəti və inkişafında mədəniyyətin yeri və rolu maraqlandırır. Mədəniyyət sosiumda baş verən hər bir dəyişikliyə dəqiq münasibət bildirir və xeyli sosial prosesləri fopmalaşdırmaqla həmin dəyişikliyə müəyyən təsir göstərir.

Mədəniyyətin tarixi bəşəriyyət tarixi kimi qədimdir. Həmin termindən müstəqil əhəmiyyət kəsb etmək etibarilə daha tam şəkidə XVII əsrdə istifadə olunmuşdur. Tanınmış alman tarixçisi S.Pufendorfun (1632–1694) formalaşdırdığı mədəniyyət anlayışı, ümumiyyətlə, insanı, xüsusilə ictimai təsisatları, paltarı, dili, elmi, əxlaqi özündə birləşdirir. Bunlar isə zəka və adətlərlə istiqamətlənir. Mədəniyyətə aid fikirlərini İ.Herder (1744–1803) və Adelunq (1732–1806) həmin nəzəri çərçivədə şərh edirdilər. Eyni zamanda ümumi mədəniyyət anlayışının tərkib hissəsi olan siyasi mədəniyyət anlayışını elmə məhz XVIII əsrdə alman filosofu Herder gətirmişdir.

Yalnız məşhur ingilis antropoloqu E.B.Teylorun "bəşəriyyətin qədim tarixinin kəşfi" adlı əsərinin meydana çıxması ilə (1866) mədəniyyət anlayışı elmi cəhətdən əsaslandırıldı. O, həmin əsərdə bəşər mədəniyyətinin ibtidai inkişaf mərhələsini tədqiq edərək mədəniyyət anlayışının başlıca müddəalarını formalaşdırdı. E.B.Teylor həmin kitabının ardınca yazdığı "İbtidai mədəniyyət" kitabında isə mədəniyyət anlayışını daha geniş və əhatəli elmi məzmunla zənginləşdirərək göstərir ki, insanın təbiəti, psixologiyası və təfəkkürü etibarilə eynidir, elə buna görə də müxtəlif xalqların mədəniyyəti vahid və eyni yollarla tərəqqi tapır. Teylor belə hesab edirdi ki, çoxsaylı ictimai hadisələr, primitiv və sivilizasiyalı xalqların adətləri, imkanları oxşardır və ya eyniliyi ilə xarakterizə olunur. O, mədəniyyəti müəyyən inamlardan, adətlərdən, vərdişlərdən, alətlərdən, paltardan, əxlaqdan, incəsənətdən, mülkiyyət qaydalarından ibarət olan sosial bütövlük kimi qiymətləndirirdi. Teylorun mədəniyyətə dair baxışlarına

maarifçilər didaktik və maarifçi mövqedən yanaşaraq mədəniyyəti cəmiyyətdən təcrid edilmiş muxtar sahə kimi əsaslandırmaqla onu cəmiyyətə qarşı qoyurdular. Bu fikir müasir kulturologiya üçün qəbul edilməzdir. Çünki mədəniyyətin özü spesifik sosial sistemdir, cəmiyyətdə mövcud olan, cəmiyyətlə qarşılıqlı əlaqə kəsb edən xüsusi sosial fenomendir.

Klassik alman fəlsəfəsində mədəniyyət qeyri-həqiqi gerçəkliyin sahəsi (İ.Kant) və ya ruhun müstəqilliyi və azadlığı kimi (İ.Fixte) müəyyənləşdirilir. Kant qeyd edirdi ki, insan mədəniyyətə qeyri-həqiqi gerçəklikdən daxil olur.

D.Bidney mədəniyyət anlayışına aid təsəvvürlərindəki səhv cəhətləri tipolojiləşdirərək: 1) Pozitiv, 2) Normativ, 3) Metafizik, 4) Kulturoloji, 5) Naturalist formada qruplaşdırır.

Mədəniyyətə dair müasir təsəvvürlərin formalaşmasına F.Boasa, Rut Benedikt (1887–1948), A.L.Kreber (1876–1960) və V.Malinovski mühüm təsir göstərmişdir. V.Malinovskinin funksionalizm nəzəriyyəsi bu baxımdan daha əhəmiyyətlidir. Yuxarıda adlarını qeyd etdiyimiz tədqiqatçılarla yanaşı mədəniyyətin öyrənilməsinə A.R.Redklif Braun, A.Kazo, A.Krayt, sosial antropoloqlardan R.Firt və M.Fortes diqqətəlayiq əsərlər yazmışlar (136., s.108).

Tədqiqatçılar mədəniyyəti müxtəlif mövqelərdən qiymətləndirirlər. Lakin bütün hallarda həmin sosial fenomen yalnız insanların fəaliyyətinin nəticəsi deyil, eləcə də üsulu kimi dəyərləndirilir. Mədəniyyət probleminin görkəmli müasir tədqiqatçısı A.İ.Arnoldov onu konkret tarixi inkişaf kəsb edən mənəvi sərvətlər sistemi, cəmiyyətin mənəvi potensialı, insanların yaradıcılıq prosesi və insanlar arasında müəyyən münasibətlərin ifadəsi kimi nəzərdən keçirir. M.S.Kaqan mədəniyyəti insanların fəaliyyəti nəticəsində meydana çıxan hadisə, mənəvi mədəniyyəti isə onun tərkib hissəsi kimi təhlil edir. G.A.Baller qeyd edir ki, mədəniyyət yalnız maddi və mənəvi sərvətləri edyil, həm də bəşər tarixinin hər bir mərhələsi üçün səciyyəvi olan mədəniyyətin yaradılması və

istifadə olunması metodunu, müəyyən əmək vərdişlərini, təhsil ənənələrini, eləcə də yaradılan sərvətlərin yayılması və mübadiləsinin təşkili formalarını, onların saxlanılmasını və sairəni əhatə edir. Danilo J.Markoviç mədəniyyətlə cəmiyyətin qarşılıqlı əlaqəsi mexanizminin açılmasına, əmək və mədəniyyətin bir-birini qarşılıqlı şərtləndirməsinə, mədəniyyətlə sivilizasiyanın spesifik, fərqli cəhətlərinin üzə çıxarılmasına xüsusi dtqqət yetirir (123, s.24).

V.E.Davidoviç, Ö.A.Jdanov və başqalarının tədqiqatlarında mədəniyyət fəaliyyət üsulu (texnologiyası) kimi araşdırılır. L.N.Koqanın fikrincə mədəniyyət sosial sistemin fəaliyyəti üçün əhəmiyyət daşıyan ünsürlərin məcmusudur (125, s.76-80).

Mədəniyyət probleminin elmi təhlili ilə əlaqədar çoxsaylı tədqiqatların mövcudluğuna baxmayaraq mədəniyyətin perdmetilə bağlı başlıca nəzəri-metodoloji prinsiplər hələ kifayət qədər hərtərəfli şərhini tapmamışdır. Bu mənada bir neçə başlıca prinsipial müddəaların müəyyənləşdirilməsi zəruridir.

Birincisi, mədəniyyəti cəmiyyətin mənəvi sahəsinin ən mühüm sistemli keyfiyyəti kimi əsaslandırılan tədqiqatlçıların mövqeyi xüsusilə diqqətəlayiqdir (138, s.165-183). Bu baxımdan cəmiyyət və mədəniyyət anlayışlarının nisbəti bütöv və hissənin deyil, bütöv ilə keyfiyyətin nisbəti kimi izah edilir. Mədəniyyətin keyfiyyətli inteqrativ hadisə kimi müəyyənləşdirilməsi böyük mənaya malikdir. Bu isə öz növbəsində mədəniyyətin təsir gücünü, ictimai həyatın bütün sahələrində fəaliyyətini göstərir.

İkincisi, mədəniyyət həmişə yaradıcı fəaliyyətlə bağlı olmaqla onun həm maddi həm də mənəvi tərəfi insan zəkasının səciyyələndirilməsinin ayrılmaz hissəsi kimi mövcuddur və o, ən mühüm problemlərin həllində böyük dəyişdirici qüvvə kimi çıxış edir.

Üçüncüsü, kultulogiyada mədəniyyətə maddi və mənəvi sərvətlərin məcmusu kimi baxmaq məqsədəuyğundur. Bu

yanaşmada sərvətlər və ya tələbatlar bir-birinin əvəz edilməsi kimi başa düşülmür, eləcə də sərvətlərə adi səviyyədə deyil, sistemli münasibət bildirilir. Bununla bağlı belə bir təsəvvür yarana bilər ki, mədəniyyət məhz müsbət hadislərə aid edilməlidir. Elə isə bəs mənfi sərvətlər hara şamil olunmalıdır?

Dördüncüsü, mədəniyyət anlayışını müəyyənləşdirərkən nəzərə almaq lazımdır ki, estetik komponent (estetiklik) insanın dünyaya sərvətli münasibətlərinin və insanların fəaliyyət sahəsinin spesifik təzahürüdür.

Nəhayət, mədəniyyətin sosiologiyası belə bir nöqteyi nəzərdən çıxış edir ki, mədəniyyət mədəni-tarixi prosesin subyekti olmaq etibarilə, ictimai fərdlərin özünü reallaşdırması sahəsi kimi fəaliyyət göstərməsinə, bir tərəfdən cəmiyyətin inkişafına istiqamətlənən hadisə, digər tərəfdən isə hər bir fərdin özünün mənəvi aləminin formalaşmasını və təkmilləşməsini şərtləndirən xüsusiyyət kimi diqqət yetirilməlidir. Cəmiyyətin mənəvi mədəniyyəti onun mənəvi həyatı ilə qırılmaz əlaqəyə malikdir və bir-birilə qarşılıqlı surətdə bağlıdır. Mənəvi mədəniyyət nə qədər çox inkişaf etmiş olarsa, mənəvi həyat da bir o qədər zəngin olar. Eyni zamanda mənəvi həyatın inkişafı mənəvi mədəniyyətin zənginləşməsini şərtləndirir. Bir sözlə, mədəniyyətdə insanın sosial-şəxsiyyət keyfiyyətləri ifadə olunur və möhkəmlənir.

Mədəniyyət ictimai fəaliyyətin tərəflərindən biri hesab olunur. Elə buna görə onun təzahürünün xüsusi üsulları mövcuddur. Başqa sözlə, mədəniyyət ictimai tərəqqinin ölçüsüdür, humanist məqsədlərin təcəssüm dərəcəsidir və mənəvi sərvətlərin birləşməsinin xüsusi formasıdır. Elə bu mənada mədəniyyətin spesifik sosial sistem kimi təhlili hər şeydən əvvəl, mədəniyyət və cəmiyyətin nisbəti məsələsinin aydınlaşdırılmasını tələb edir.

Çağdaş kulturologiyada və mədəniyyət nəzəriyyəsində mədəniyyət və cəmiyyət arasındakı münasibətlərin müəyyənləşdirilməsi ilə bağlı müxtəlif baxışlar hökm sürür.

Həmin baxışlar iki istiqamətdə diqqəti cəlb edir. Birinci istiqamətə görə mədəniyyət özünəməxsus müstəqil bütövlük kəsb etdiyi üçün, onu cəmiyyətdən asılı olmayan sistem kimi öyrənmək zərurəti ortaya çıxır. Məlum təsəvvür müasir kulturoloji nəzəriyyələrdə öz ifadəsini tapır. İkinci istiqamətin tərəfdarı isə cəmiyyətə mədəniyyətin hər şeyi əhatə edən konteksti kimi baxırlar. Lakin belə halda da cəmiyyət və mədəniyyət anlayışları eyniləşdirilmir. Belə nəzəri konsepsiya çərçivəsində etiraf olunur ki, cəmiyyət və mədəniyyət tam eynilik təşkil edə bilməz. Çünki müəyyən mədəniyyət hətta hər hansı dərəcədə konkret cəmiyyətin məhsulu olmasa da, o özündə universal sərvətləri saxlayır, həm də elə sərvətləri ki, mədəniyyətin öz çərçivəsindən kənara çıxmağı bacarır. Cəmiyyət və mədəniyyət belə bir mənada da fərqləndirilə bilər ki, bu fenomen həyat tərzinin özü və müəyyən cəmiyyətin mövcudluğu kimi qeyd olunur. Həmin nəzəri-kulturoloji kontekstdə cəmiyyət mədəniyyətlə eyniləşdirilə bilməz, çünki mədəniyyət insanın mənəvi aləimnin məhsulu olmaqla ona imkan verir ki, öz gündəlik həyatından kənara çıxa bilsin.

Bütövlükdə mədəniyyət şəxsiyyətin və xalqların fərdi intellktinin, yaradıcılıq potensialının göstəricisidir. Təsadüfi deyil ki, hər bir xalqın və şəxsiyyətin xarakterik xüsusiyyətlərinə, daxili dünyasının mənzərəsinə və potensial imkanlarına bələd olmaq istəyənlər birinci növbədə onun yaratmış olduğu mədəni sərvət əsərlərinə və abidələrinə müraciət editrlər. Çünki mədəniyyət yaradan xalq (şəxsiyyət) eyni zamanda bu prosesdə özü formalaşır. Ona görə də xalqın xarakteri onun öz əsərində –mədəniyyətində üzə çıxır (84, s.9).

Müasir kulturologiyada “cəmiyyət” və “mədəniyyət” kateqoriyalarının işlədilməsi axırıncının bütöv fenomen kimi başa düşülməsi zərurətindən irəli gəlir. Müasir Polyak alimi Z.Bauman “Mədəniyyət və cəmiyyət” kitabında mədəniyyətlə cəmiyyətin semantik və genetik əlaqələrini qeyd etmiş və göstərmişdir ki, bunların nisbəti “xüsusinin ümumi

kompleksinin hər bir səviyyəsində tədqiqi" kimi tədqiq olunmalıdır. "Bütöv" anlayışını əsas götürməklə o, mövcud məsələnin təhlilində "sistem" anlayışından istifadə edir. Bu, həmin tədqiqatçıya imkan verir ki, mədəniyyət anlayışını həm sistem, həm də məcmu (müəyyən ünsürlərin toplusu mənasında) kimi tədqiq etsin. "Bütöv" və "sistem" kateqoriyalarının başlıca əhəmiyyəti kompleksində Z.Bauman mədəniyyət və cəmiyyəti iki bütöv kimi müəyyənləşdirir və belə qənaətə gəlir ki, "simvolların" təzahürü və bunların "nitq" şəklində təsisatlaşması mədəniyyət sahəsi ilə cəmiyyət sahəsini praktiki və nəzəri baxımdan fərqləndirməyə zəruri imkan verir.

Funksionalizm nəzəriyyəsinin görkəmli nümayəndəsi Tolkott Parsonsa görə cəmiyyət və mədəniyyətin həddini göstərən "mədəniyyət sistemləri" və xüsusi "ictimai sistemlər" mövcuddur. Bunlar yarımsistemlər kimi səciyyələnməklə cəmiyyəti müəyyənləşdirirlər. O, belə hesab edir ki, cəmiyyət və mədəniyyət eyni mənalı olmasalar da onları empirik yolla fərqləndirmək qeyri-mümkündür. Mədəniyyətin və cəmiyyətin nisbətinə dair belə baxışlara Qordon Olportun nəzəri mülahizələrində də təsadüf olunur. O, iddia edir ki, mədəniyyət sistemi özündə şəxsiyyətə təsir göstərən ənənəvi anlayışları və sərvətləri birləşdirir, eyni zamanda hər hansı şəxsin digərləri ilə qarşılıqlı fəaliyyətdə bu sərvətləri yaratması ictimai sistemi əmələ gətirir.

Mədəniyyət cəmiyyətin yaranmasından sonra təşəkkül tapan ictimai fenomendir. Mövcud sosial sistemin tarixən meydana çıxan sosial normalarının və sərvətlərinin məcmusu onun mədəniyyətini yaradır. Mədəniyyət müxtəlif sosial sistemlərə və şəxsiyyətə münasibətdə obyektiv amil kimi çıxış edir. Eyni zamanda insanlar öz sosial və mədəni əhatəsinin bu və ya digər cəhətlərini, mövcud sosial sistemin mədəniyyətini yaradır, müdafiə edir və dəyişdirirlər. Nəticədə mədəniyyət mövcud ictimai yarımsistemlərin və ya sosial birliklərin norma

və sərvətlərinin sistemi kimi fəaliyyət göstərir, inkişaf edir və dəyişilir, eləcə də insanların norma və dəyərlərini dəyişdirir.

Kulturologiya spesifik sosial sistem olmaq etibarilə mədəniyyətin inkişafında bir neçə başlıca qanunauyğunluğu dəqiqləşdirilir:

– Mədəniyyət tipinin təbiət və cəmiyyət həyatının süni şəraitindən asılılığı və onun bu şəraitə əks təsiri;

– Mədəniyyətin inkişafında varislik. Bu müvəqqəti (vertikal) və məkan daxilində (horizontal), pozitiv (bu və ya digər mədəni ənənələrin davamı) və neqativ (əvvəlki mədəni təcrübəni inkar etmək) şəkildə olur;

– Mədəniyyətin inkişafında qeyri bərabərlik. Bu, iki aspektdə ifadə olunur; a) mədəniyyətin çirklənməsi və tənəzzülü dövrü ilə üst-üstə düşmür (məsələn, iqtisadiyyatda). Mədəniyyətin öz növləri qeyri-bərabər inkişaf edir.

Məsələn, bu gün bədii mədəniyətin yüksək səviyyədə inkişafını təsdiq ediriksə bunu siyasi mədəniyyətə aid edə bilmərik və ya ekoloji partlayış vəziyyətini inkar etmək mümkün deyildir.

– Mədəni prosesdə şəxsiyyətin rolu danılmazdır.

– Mədəniyyətin inkişafında və fəaliyyətində elmin və texnikanın yeri diqqətəlayiqdir. Bunar mədəni sərvətlərin istehsalı və yayılmasında yeni imkanlar açır. Mədəniyyət anlayışında insan yaradılan yox, yaradan, xarici şəraitə, əhatə olunduğu aləmə passiv şəkildə deyil məhz, dəyişdirici tarixi subyekt kimi təcəssüm olunur. Adi dildə və elmdə uzun müddət "mədəniyyət" termini insan fəaliyyətinin nəticələrinin məcmusu kimi işlədilmişdir (təbiət hadisələrindən fərqli olaraq) və buna görə obyektiv əsasa malikdir. Beləliklə, mədəniyyətin yalnız təbiətdən deyil, eləcə də cəmiyyətdən fərqləndirilməsi zərurəti meydana çıxır. Məhz bu əsasda spesifik sosial sistem kimi mədəniyyətin tədqiqinin, onun cəmiyyətdə yeri və ictimai həyatla qarşılıqlı fəaliyyəti mexanizminin öyrənilməsi daha qətiyyətlə həyata keçirilmişdir.

Mədəniyyət insanların qarşılıqlı fəaliyyətinin mühüm mexinazmi kimi formalaşır, qrupların, birliklərin qarşılıqlı fəaliyyəti prosesində onların birliyinin və bütövlüyünün saxlanmasına kömək edir.

Kulturologiyada mənəvi, əxlaqi və estetik sərvətlər təcəssüm olunduğu halda, sivilizasiya insan üçün utilitar, xarici və ikinci dərəcəli mahiyyət daşıyır. Osvald Şpenqler "Avropanın süqutu" (1918) əsərində tarixin morfologiyası (qədim, orta, yeni əsrlər) ideyasına qarşı çıxır və sivilizasiyaya belə tərif verir: "Sivilizasiya son dərəcə xarici və son dərəcə süni vəziyyətlərin elə məcmusudur ki, insanlar inkişafın axırıncı mərhələsinə çatmağa qabildirlər" (102, s.41). O, özündən əvvəlki təriflərə qoşularaq sivilizasiyada səkkiz mədəniyyət vahidinin mövcudluğu ideyasını irəli sürür: Roma mədəniyyəti, Misir mədəniyyəti, Asur-Babilstan mədəniyyəti, Hind mədəniyyəti, Ərəb mədəniyyəti, Meksika mədəniyyəti və Qərbi Avropa mədəniyyəti.

L.Toynbinin sivilizasiyaya dair görüşləri isə bir növ tamamlanmamış və ya diffuziyalı hesab oluna bilər. Bu alimin nəzəriyyəsinə görə bir sivilizasiyanı digərindən ayırmaq çətinliklə mümkündür. A.Toynbi ümumi sivilizasiya anlayışına xeyli sivizilasiyanı, eləcə də çoxlu millətləri, dövlətləri və ictimai iqtitsadi formasiyanı əhatə edən bir sivilizasiyanı aid edir. A.Veberə görə mədəniyyət və sivilizasiya qarşılıqlı fəaliyyətilə səciyyələnir. O, mədəniyyətin genezisinə dair baxışlarında mədəniyyətlə sivilizasiyanın qarşılıqlı fəaliyyətində üç cəhətin təzahürünü nəzərə çatdırır: sosial proses, sivilizasiyalı proses, mədəni hərəkat. Bunların qarşılıqlı fəaliyyətində və qarşılıqlı nüfuz etməsində həm də funksiyaları üzə çıxır. A.Veberin mədəniyyətlə sivilizasiyanın həddini müəyyənləşdirmək cəhdindən, ümumiyyətlə, onun mürəkkəb müqayisəli təhlilindən belə qənaətə gəlmək olur ki, mədəniyyət cəmiyyətin və sivilizasiyanın konkret formalaşmasında mühüm ünsür kimi səciyyələnir. A.Veber belə nəticəyə gəlir ki, sosial proses,

sivilizasiyalı proses və mədəni hərəkat bir-biri ilə daim dinamik münasibətlərdə davam edir.

Ümumiyyətlə, sivilizasiya hər şeydən əvvəl, maddi və texnoloji proseslə bağlılıq kəsb etmiş, öz əsasında yüksək bəşəri sərvətləri təcəssüm etdirmişdir. Mədəniyyət insanla təbiət, insan və cəmiyyət, insanla insan arasında münasibətlər sistemidir.

İnsanlar onların həyatında çox şeyin özlərindən, öz fiziki və mənəvi fəallıqlarından, əmək fəaliyyətlərindən asılı olduğunu dərk etdikcə, mədəniyyət haqqında ilk təsəvvürlər yaranmağa başladı. Əldə edilən məhsulun allahların mərhəmətindən deyil, torpağın becərilmə keyfiyyətindən asılı oldğunu başa düşmək, səcdə obyekti olan təbiət ilə onun dəyişdirilməsi və yaxşılaşdırılması nəticəsi olan mədəniyyət arasında fərq qoymaq üçün zərurəti yaranırdı. Mədəniyyət aləmində hər bir əşayaya və ya hadisəyə təbiət qüvvələrinin və olduqca böyük fövqəltəbii qüvvələrin təsir nəticəsi deyil, insanların özlərinin təbiətin bilavasitə verdiyi şeyləri təkmilləşdirməyə, becərməyə, dəyişdirməyə yönəldilmiş səylərinin nəticəsi kimi baxılır. Mədəniyyət insanın özü ilə özünün yaratdığı arasındakı fərq kimi dərk edilir. Deməli, mədəniyyətin kəşfində insanın özünün özündən, öz əmək fəaliyyətindən, özünün yaradıcı məhsuldar qüdrətindən asılılığını dərk etməsi özünü göstərir.

Varlıq sahəsinin mövcudluğu nə təbii zərurətdən, nə də ilahi qismətindən yox, müstəqil və azad varlıq sayılan insanın fəaliyyəti nəticəsində determinə olunur. İnsanı yaradıcı surətdə quruculuq qüvvələri mənbəyi hesab edən yeni dövrün şüuru, həmin qüvvələrin təsirindən yaranan "sahəni", mədəniyyət sahəsinin ümumi şəkildə təsvirini vermişdir. Mədəniyyət aləmi – yalnız insanın özünün meydana gətirdiyi aləmdir. Mədəniyyətdə insan yaradılan canlı kimi deyil, yaradıcı məxluq kimi xarici və ondan asılı olmayan şəraitin təsirinin passiv obyekti deyil, özü dəyişdirə və yenidən qura bilən bir subyekt kimi təqdim olunur.

Mədəniyyəti ancaq fərdlərin daxili səbəblərdən mənəvi inkişaf sahəsi kimi şərhetmənin tam tərsi olan, onların fəal-praktik varlıq kimi mövcudluğunun əsl inkişafının sahəsi kimi nəzərdən keçirir. Aydın olur ki, mədəniyyət həm maddi, həm də mənəvi formalar daxil olmaqla insanların bütün ictimai fəaliyyət sahəsini əks etdirir. Deməli, hazırda mədəniyyətə, ancaq mənəvi həyat hadisələri və prosesləri aid edilirsə, bu nəzəri mülahizələrdən çox ənənə ilə aydınlaşdırılır. Ənənənin özünün də tənqidi dərk olunması vacibdir.

Deməli, mədəniyyətin başlıca vəzifəsi, insanın ictimai fəaliyyət subyekti kimi inkişafıdır. Mədəniyyətin obyektləri ən geniş mənada, təbiət və cəmiyyətdir (bura insanın özü, onun mənəvi aləmi də daxildir).

Ümumi mənada mədəniyyətin tam sisteminin strukturunu da iki böyük sahəyə ayırmaq lazımdır: insanın təbiəti dəyişdirmək prosesində onun dəyişilməsi ilə bağlı olan maddi mədəniyyət, insanın mənəvi aləminin və sosial varlığının dəyişməsi ilə əlaqədar olan mənəvi mədəniyyət.

Dövlət mədəniyyət siyasətinin səmərəliliyi ruhi mədəniyyət sahəsinin ideoloji, texnoloji və təşkilatı səviyyələrdə idarəetmə sistemlərinin səmərəliliyindən asılıdır. Əgər idarətetmənin məqsədi mədəniyyətin bütün sahələrinin ahəngdar, qarşılıqlı surətdə əlaqəli inkişafıdırsa, onda onun əsas fəaliyyət sahəsi – mədəniyyətin müasir, "mənəvi istehsalın" əsas qüvvəsini təşkil edən təhsil, elm və incəsənət kimi aparıcı sahələrin tənzimlənməsidir. Bundan ötrü dövlət hüquqi, təşkiltat və maddi vasitələrdən istifadə edir (81, s.19).

Mədəniyyətə dair bölgü, əlbəttə, şərti və nisbidir. Real həyatda mədəniyyətin vahid sisteminin bütün bu elementləri sıx qarşılıqlı əlaqədədir və bir-birinə qarşılıqlı təsir göstərir. Mədəniyyətin müasir inkişaf dövründə bu daha aydın təzahür edir. Elmi-texniki inqilab qanunauyğun surətdə maddi və mənəvi mədəniyyətin getdikcə daha böyük inteqrasiyasına səbəb olur. Əvvəla mənəvi mədəniyyətin maddi tərəfinin rolu

və əhəmiyyəti durmadan artır (kütləvi informasiya və təbliğat vasitələri, mətbuat, radio, televiziya, kino inkişaf edir, televizor, maqnitofon, tranzistorlu radioqəbuledici, videokasetlər kimi mədəniyyətdən evdə istifadə vasitələri meydana çıxır), digər tərəfdən maddi mədəniyyətdə onun mənəvi tərəfləri böyük rol oynayır (istehsal "elmiləşir", tədricən cəmiyyətin bilavasitə məhsuldar qüvvəsinə çevrilir, istehsalat estetikasının rolu artır və s.). Maddi və mənəvi mədəniyyətlərin qovuşuğunda elə ictimai hadisələr (dizayn, elmi tədqiqat və o onun nəticələri, istehsalat təlimi və s.) baş verir ki, onları təkcə maddi mədəniyyətə, yaxud yalnız mənəvi mədəniyyətə aid etmək olmaz. Bütün bunlar mədəniyyətin ictimai hadisə kimi bütövlüyünü sübut edir.

Bu vacib zərurətin səbəbi əvvəla kulturoloji konsepsiya üçün prinsipial əhəmiyyətə malikdir. Həmin mədəniyyət onun idealist konsepsiya tərəfdarlarının iddiası kimi cəmiyyətin yalnız mənəvi həyatı ilə deyil, ictimai həyatın bütün sahələri ilə üzvü əlaqədədir. İnsan birinci növbədə əmək sayəsində formalaşır və inkişaf edir. Maddi mədəniyyətin "insanyaradıcı" mahiyyəti və onun əsası kimi kulturoloji tərəfdən hərtərəfli əsaslandırılmışdır.

Sonra, mədəniyyətin bu iki sahəsinin hər biri insanın ictimai varlıq kimi inkişafına xüsusi təsir göstərir. İnsanların maddi-dəyişdirici fəaliyyətinin məqsədi (bu fəaliyyət prosesində, əlbəttə, insanlar da inkişaf edir, onların təcrübəsi, bilikləri, bacarıqları zənginləşir) hər şeydən əvvəl, müəyyən maddi tələbatları ödəmək, bunun üçün lazımi maddi nemətlər istehsalıdır. Mənəvi fəaliyyət sahəsində məhsulları bu və ya digər qrupun xeyrinə müəyyən insanın formalaşdırılması məqsədlərinə xidmət edən mədəniyyət sahəsində isə "insanyaradıcı" funksiya başlıca və əsas funksiyaya çevrilir. Deməli, mənəvi mədəniyyətin xüsusən bütün mədəniyyət sistemində yerini və rolunu aydınlaşdırır. Məhz bu sahədə keçmiş zamanlardan bəri, mədəni fəaliyyəti həyata keçirmək

üçün geniş institut və müəssisələr şəbəkəsi (teatrlar, muzeylər, konsert salonları, sonralar isə klublar, kinoteatrlar və s.) mövcuddur. Həmin sahədə peşəkar mədəni fəaliyyətlə məşğul olan insanların böyük dəstəsi fəaliyyət göstərir. Nəhayət, mənəvi sərvətlər mədəniyyətin digər struktur elementlərinin sərvətlərindən köklü surətdə seçilir.

Maddi mədəniyyətin xüsusiyyəti odur ki, o nə cəmiyyətin maddi həyatına, nə maddi istehsalata, nə də maddi dəyişdirici fəaliyyətə bənzəmir. Maddi mədəniyyət bu fəaliyyəti onun insanın inkişafına təsiri baxımından xarakterizə edir. İnsanın qabiliyyətini, yaradıcılıq imkanlarını, istedadını tətbiq etməsinə onun nə dərəcədə imkan verməsini, həqiqi qüvvələrini nə qədər həyata keçirməsini təzahür etdirir. Bu mənada, mədəniyyət əgər təsərrüfat, istehsal xarakteri daşıyırsa, o əşya ilə örtülür, ona maddi mədəniyyət kimi baxmaq olar. Deməli, insan maddi sərvətləri yaratmaqla öz biliyini, təcrübəsini, idealını və s. maddiləşdirir.

Beləliklə, maddi və mənəvi mədəniyyət mürəkkəb hadisələrdir. Maddi mədəniyyətə əmək mədəniyyəti, istehsal mədəniyyəti, məişət mədəniyyəti, təbii mühitə münasibət mədəniyyəti (ekoloji mədəniyyət) aiddir. Mənəvi mədəniyyət daha mürəkkəbdir. Ona idrak mədəniyyəti (biliklərə yiyələnməklə və elmi fəaliyyətlə, daha doğrusu, elm və maarif sahələri ilə bağlı olan), əxlaq mədəniyyəti və estetik mədəniyyət daxildir. Mədəniyyətin mühüm tərkib hissələrindən biri sosial-siyasi mədəniyyətdir. O ictimai siyasi münasibətlərin dəyişməsi prosesində insanın qüvvələrinin inkişafını göstərir. Sosial-siyasi mədəniyyət heç də siyasi şüurla məhdudluşmır, onun çərçivəsində insanların siyasi biliklərini və duyğularını, siyasi əqidələrini və siyasi fəaliyyətin özünün mədəniyyətini, insanların dəyişdirici fəaliyyətini və sosial idarəetməsini ayırmaq olar.

Siyasi mədəniyyət ümumi mədəniyyət anlayışının komponentlərindən biridir. Mədəniyyət anlayışının digər

tərəfləri isə maddi və mənəvi mədəniyyətdir. Siyasi mədəniyyətin məzmunu və strukturu barədə əhatəli və düzgün təsəvvürə yiyələnmək üçün “mədəniyyət” anlayışının, xüsusilə, mənəvi mədəniyyətin mahiyyətinin qısa təhlili lazımdır. İctimai inkişafın hər bir müəyyən konkret mərhələsi mədəniyyətin yeni tarixi tipini yaradır. Cəmiyyətin tarixi inkişaf mərhələləri yeniləşdikcə mədəniyyətin məzmunu da dəyişir və təkmilləşir. Mədəni tərəqqi prosesi yalnız maddi və mənəvi sərvətlərin toplanması mənasında başa düşülməməlidir. Bu proses həm də bəşər mədəniyyətinin irəliyə doğru inkişafı, insanların tarixən təşəkkül tapan mənəvi fəaliyyətinin təkmilləşməsi və yetkinləşməsi kimi çıxış edir. İnsanların mənəvi fəaliyyətinin nəticələrəini əhatə edən mənəvi mədəniyyət maddi mədəniyyətlə əlaqə daşıyır. Mədəniyyətdə ictimai həyatın zənginliyi ifadə olunur. Mədəniyyət ictimai tələbatı ödəmək üçün əsrlər boyu bəşəriyyət tərəfindən yaradılan və yaradılmaqda olan maddi və mənəvi sərvətlərin, dəyərlərin məcmuyudur. Ancaq mədəniyyət insanların fəaliyyətinin nəticəsi deyil, o həm də əməli dəyişdirici fəaliyyət prosesidir. Tədqiqatçılar mənəvi mədəniyyəti müxtəlif mövqedən qiymətləndirirlər. Məsələn, mədəniyyət probleminin görkəmli tədqiqatçılardan biri olan A.İ.Arnoldov mənəvi mədəniyyəti konkret tarixi inkişaf kəsb edən mənəvi sərvətlər sistemi, cəmiyyətin mənəvi potensialı, insanların yaradıclıq prosesi və insanlar arasında müəyyən münasibətlərin ifadəsi kimi nəzərdən keçirir. M.S.Kaqan mədəniyyəti insanların fəaliyyəti nəticəsində meydana çıxan hadisə, mənəvi mədəniyyəti isə onun tərkib hissəsi kimi təhlil edir. Əlbəttə, mədəniyyət spesifik mənəvi fəaliyyətin məhsulu olmaq etibarilə son nəticədə mənəvi xarakter daşıyır.

Hegelə gəldikdə o, mədəniyyətin predmetini yalnız cənnətin qanunlarını öyrənməklə məhdudlaşdırırdı. İncəsənətin mənşəyi və mahiyyətini idealist mövqedən izah edən Hegel onu “mütləq ruhun” inkişaf mərhələsinin məhsulu hesab edildi.

Eyni zamanda, Hegel göstərirdi ki, incəsənəti elmin köməyi ilə təhlil etmək olar. "Estetikaya dair mühazirələr"ində Hegel göstərir ki, "estetikanın predmeti gözəllik səltənətindən, dəqiq desək, incəsənət sahəsindən, daha dəqiqi isə məhz bədii yaradıcılıqdan ibarətdir". Hegelə görə "estetika" – incəsənətin fəlsəfəsi, "bədii yaradıcılığın fəlsəfəsidir".

Hegel mədəniyyəti yalnız və yalnız incəsənətin, bədii yaradıcılığın fəlsəfəsi adlandırdıqda səhfə yol verir. Habelə, Hegel bütün təbiət sahəsini, gerçək aləmin gözəlliyini mədəniyyətin tədqiqat dairəsindən çıxarır. Lakin Hegelin mədəniyyət nəzəriyyəsinin xeyli müsbət ünsürləri vardır (121, s.7).

Bütövlükdə, mədəniyyət yalnız maddi və mənəvi sərvətlərin məcmuusu olmadığı kimi, mənəvi mədəniyyət də ancaq mənəvi sərvətlərin toplusundan ibarət deyildir. Mənəvi mədəniyyət nəinki yaradılan və yaradılmaqda olan mənəvi sərvətlərin məcmusunu və istehsalını, mövcud cəmiyyətin əvvəlki inkişaf mərhələsindən mədəni irs kimi saxladığı sərvətləri, həmçinin mənəvi sərvətlərin yayılması və istehlakını özünə aid edir. Mədəniyyət müəssisələrini, təhsil sistemini və kütləvi informasiya vasitələrini özündə birləşdirir. Mədəniyyət müəssisələri və kütləvi informasiya vasitələri mənəvi mədəniyyətin istehsalı, yayılması və saxlanmasında mühüm rol oynayır (125, s.97).

G.A.Baller haqlı olaraq qeyd edir ki, mədəniyyət yalnız maddi və mənəvi sərvətləri deyil, həm də bəşər tarixinin hər bir mərhələsi üçün səciyyəvi olan mədəniyyətin yaradılması və istifadə olunması metodunu, müəyyən əmək vərdişlərini, təhsil ənənələrini, eləcə də yaradılan sərvətlərin yayılması və mübadiləsinin təşkili formalarını, onların saxlanmasını və s. əhatə edir.

Mənəvi mədəniyyət bu və ya digər dərəcədə ictimai həyatın bütün sahələrində nəzərə çarpır. Lakin mənəvi mədəniyyət daha əhatəli, geniş və çoxcəhətli şəkildə mənəvi həyat sferasında öz əksini tapır. Mənəvi mədəniyyət cəmiyyətin

mənəvi həyatının inkişaf etməkdə olan keyfiyyətcə müəyyən tipi kimi çıxış edir.

Mənəvi mədəniyyət həmçinin, bu və ya digər sosial sistemdə formalaşan şəxsiyyətin mənəvi aləminin də şərtləndirir. Hər bir cəmiyyətin mənəvi həyatı həmin cəmiyyətdə mənəvi mədəniyyətin inkişaf dərəcəsi və nailiyyətləri ilə səciyyələnir. Mənəvi mədəniyyət mənəvi həyatın bütün mədəni nəticələrini özündə birləşdirir. Deməli, "mənəvi həyat" və "mənəvi mədəniyyət" anlayışları bir-birinin sinonimi kimi çıxış etmir. Mənəvi həyat daha geniş anlayışdır, mənəvi mədəniyyət onun çox mühüm tərəflərindən biriidir. Həmin anlayışlar ümumi məzmununa görə bir-birinə uyğun gəlsələr də mədəniyyət mənəvi həyatdan sistemliliyi, nizama salınmış strukturu, tərtibatı və normaya düşmüş vəziyyəti ilə fərqlənir.

İnsanın mənəvi tarixi prosesin subyekti kimi fəaliyyət göstərməsinə bir tərəfdən cəmiyyətin inkişafına istiqamətlənən hadisə kimi, digər tərəfdən isə hər bir fərdin özünün mənəvi aləminin formalaşmasını və təkmilləşməsini şərtləndirən xüsusiyyət baxımından diqqət yetirilməlidir.

Mürəkkəb ictimai fenomen olan mənəvi mədəniyyətin təhlilinə birtərəfli deyil, kompleks yanaşmaq tələb olunur. Mənəvi mədəniyyət mənəvi sərvətlərin, ideyaların, biliklərin, görüşlərin, əxlaqi və fəlsəfi sərvətlərin, təhsilin, elmin, incəsənətin və s. məcmuudur. Mənəvi mədəniyyət ideyaların, görüşlərin mexaniki məcmuyu kimi çıxış etmir. O, həm də şəxsiyyətin düşüncə tərzinin, təfəkkür mədəniyyətinin, əməli davranışının formalaşmasında mühüm rol oynayır.

Əsrlərdən bəri inkişaf edib gələn sənət növləri sistemini bəşər dühası nə səbəbə yaratmışdır? Bəşəriyyət nədən bədii mədəniyyət təfəkkürünün daha da mürəkkəbləşməsi və dərinləşməsinə ehtiyac duyur? Sənətin bir yox bir çox formalarda, növlərdə janrlarda meydana gəlməsi təşəkkülü hansı tələbatdan doğmuşdur?

Bütün bu suallar sənət növləri və janrların uzun inkişaf tarixi boyu filosofları, estetikləri, sənətşünasları, sənətkarların özlərini düşündürmüş, onların ən müxtəlif daban-dabana zidd mülahizələr və fikirlər irəli sürməsinə səbəb olmuşdur. Aristotelin, Nizaminin, Əfşarın, Didronun, Kantın, Hegelin, Çernişevskinin, Axundovun və o cümlədən zəmanəmizin bir çox filosofları və estetiklərinin əsərlərində sənət növlərinin meydana gəlməsi, mövcudiyyət səbəbləri, bir-birinə olan münasibətləri və xassələrinə dair dərin fikirlər söylənmiş, konseptual səciyyə daşıyan baxışlar əsaslandırılmışdır.

Cəmiyyətin mənəvi mədəniyyəti onun mənəvi həyatı ilə qırılmaz əlaqəlidir və bir-birilə qarşılıqlı təsirə malikdir. Mənəvi mədəniyyət nə qədər çox inkişaf etmiş olarsa, mənəvi həyat da bir o qədər zəngin olar. Eyni zamanda mənəvi həyatın inkişafı mənəvi mədəniyyəti zənginləşdirir. Bir sözlə, mədəniyyət insanın fəaliyyətinin komponentidir, onun həyatının müxtəlif tərəflərini təmin edən fəaliyyət sisteminin tərkib hissəsi və şərtidir.

Ümumi mədəniyyət anlayışına aid olan mənəvi mədəniyyətlə yanaşı, siyasi mədəniyyət də mənəvi həyat hadisəsidir. Mənəvi həyatın bütövlüyünü və zənginliyini təmin edən amillər sırasında siyasi mədəniyyət spesifik yer tutur. Ümumbəşəri mədəniyyətin tərkib hissəsi olmaq etibarilə siyasi mədəniyyət haqqında ilk təsəvvür hələ qədim Şərq ölkələrində, Yunanıstanda və Romada meydana gəlmişdir. Qədim Çinin mütəfəkkir filosofu Konfutsi, antik Yunanıstan fəlsəfi fikrini ensiklopedik zəka sahibləri Platon, Aristotel və başqaları siyasi mədəniyyətin məzmunu və bəzi ünsürləri barədə maraqlı fikirlər söyləmişlər. Siyasi mədəniyyət anlayışını elmi ədəbiyyata ilk dəfə XVIII əsrdə alman filosofu İ.Herder gətirmişdir. Bununla belə siyasi mədəniyyətlə bağlı olan siyasi hadisələr haqqında nəzəriyyə məhz XX əsrin ortalarında təşəkkül tapmışdır. Siyasi mədəniyyət nəzəriyyəsinə sanballı elmi töhfə Amerika alimləri Almont, Verba, ingilis Rous,

alman tədqiqatçısı Fon Boyme, fransız nəzəriyyəçisi Dyuverje və başqalaı tərəfindən bəxş edilmişdir. Siyasi mədəniyyət termininin siyasi elmi kateqoriyası kimi Qərb ədəbiyyatında ilk dəfə Amerika politoloqu Almont tərəfindən istifadə olunmuşdur. Bu politoloqun fikrincə siyasi mədəniyyət hər bir siyasi sistemin spesifikliyini əks etdirən siyasi fəaliyyət istiqamətinin xüsusi tipidir.

Siyasi mədəniyyət probleminə dair ən əhəmiyyətli fikirlər Amerika politoloqları Almont və Verbanın "Vətəndaş mədəniyyəti" kitabında irəli sürülmüşdür. Bü kitabda qeyd olunur ki, "siyasi mədəniyyət mövcud sosial sistemin üzvlərinin fərdi mövqelərinin və fəaliyyət istiqamətlərinin məcmusudur, siyasi fəaliyyətin əsasını təşkil edən və həmin fəaliyyəti mənalandıran subyektiv sahədir. Fərdi fəaliyyət istiqamətləri özündə bir sıra ünsürləri, ilk növbədə idraki fəaliyyət istiqamətini müəyyənləşdirir. Digər sözlə, o, siyasi obyektlər və ideallar haqqında dürüst və yanlış bilikləri, siyasi obyektlər barədə mülahizə və rəyləri əks etdirir. Almont və Verbanın fikrincə, eləcə də bəzi digər tədqiqatçıların mülahizəsinə görə siyasi mədəniyyət özündə mənəvi həyatın elə ünsürlərini təcəssüm etdirir ki, bunlar siyasi fəaliyyət istiqamətinin daha sabit məcmusunu səciyyələndirir.

Elmi ədəbiyyatda siyasi mədəniyyətə çoxsaylı mövqedən yanaşılır, ona müxtəlif mənalı təriflər verilir. Siyasi mədəniyyət fenomeninə müasir politoloqlar psixoloji, kompleks (ümumiləşdirici), normativ, evristik, sosial-psixoloji və aksioloji mövqelərdən diqqət yetirirlər.

Q.Almondun konsepsiyası kimi səciyyələnən psixoloji yanaşma siyasi mədəniyyəti sosial siyasi obyektlərə və proseslərə istiqamətlənən psixoloji aspekt kimi əks etdirir.

D.Merfiq, R.Takker və L.Dittmirin görüşlərini əks etdirən kompleks, ümumiləşdirici yanaşma siyasi mədəniyyəti siyasətdə baş verənlərlə məhdüdlaşdırır. D.Merfiqə görə siyasi mədəniyyət siyasi sistemlə eynilik təşkil edir. R.Takkerin

fikrincə siyasi mədəniyyət, siyasi münasibətlərdən ibarətdir və spesifik məzmuna malik deyildir.

Normativ yanaşmada siyasi mədəniyyət siyasi sistem tərəfindən qəbul edilən siyasi davranış normaları və nümunələri kimi səciyyələndirilir. Bu fikri daha çox L.Pay və D.Pol əsaslandırır.

Evristik konsepsiyaya görə siyasi mədəniyyət arzu olunan davranışın hipotetik (fərziyyəyə əsaslanan) normativ modelidir (S.Xantiqton).

Sosial-psixoloji mövqe isə siyasi mədəniyyəti ölçüyə salınmış davranış norması kimi səciyyələndirir. Belə mövqeyə görə siyasi mədəniyyətin məzmununu obyektiv sosial amillər müəyyənləşdirir.

Aksioloji nöqteyi nəzər siyasi mədəniyyəti müəyyən qaydalardan ibarət olan dəyərlərin məcmusu kimi qiymətləndirir və ona həm müsbət, həm də mənəvi dəyərləri aid edir.






(58,s 59-62)

Politoloqların müəyyən qismi haqlı olaraq siyasi mədəniyyətin formalaşmasında mənəvi həyatın mühüm ünsürü olan siyasi şüurun roluna xüsusi üstünlük verirlər. Siyasi mədəniyyətin məzmununun əhatəli və dürüst öyrənilməsi siyasi şüurun mahiyyətinin izah olunması məqsədəuyğunluğunu şərtləndirir. Bununla əlaqədar qeyd etmək vacibdir ki, siyasi şüur mədəniyyətin formalaşmasının ən mühüm ünsürü kimi çıxış edir. Qneseoloji baxımdan siyasi şüur siyasi elmin başlıca anlayışları və kateqoriyaları ilə sıx bağlıdır. Siyasi şüur, siyasi mədəniyyətin yüksək mərhələsidir. Onun inkişaf etmiş formasıdır. Siyasi şüur, siyasi davranışın subyektiv mexanizminin səmərəli əsası və cəmiyyətin siyasi sisteminin subyektiv fundamenti kimi çıxış edir. Dünya miqyasında bütün tədqiqatçılar tərəfindən siyasi şüur siyasətin psixi ifadəsinin məcmusu, siyasətin subyektiv komponenti və müxtəlif şəraitlərdə çoxcəhətli səviyyədə təzahür edən ictimai şüur variantı kimi qiymətləndirilir.

Dünya siyasi elmində siyasi şüurun subyekti əsasən üç səviyyədə araşdırılır. Birinci səviyyədə aktual siyasi məzmun daşıyan məsələlərə dair cəmiyyətin kütləvi şüuru kimi nəzərdən keçirilir (122, s.148-156). Kütləvi siyasi şüur cəmiyyətin siyasi mədəniyyətinin tipini və səviyyəsini müəyyən edir, siyasi davranışın daha tipik və kütləvi variantını şərtləndirir. İkinci səviyyədə siyasi şüur siyasətlə bağlı olan böyük (sosial siniflər, milli etnik birliklər, əhalinin müxtəlif

qrupları və təbəqələri) və kiçik (siyasi elita, hərbi hökümət xuntası, hakim partiyanın siyasi bürosu, təzyiq qrupu tipi olmaq etibarilə müxtəlif lobbi birlikləri və s.) qrupların siyasi fəallığının məcmusu kimi səciyyələnir (126, s.33-34).

Üçüncü səviyyədə siyasi şüur, siyasəti müxtəlif cür dərk edən, onu az və ya çox dərəcədə dəqiq qiymətləndirən və siyasi planda məqsədyönlü fəaliyyət göstərən şəxsiyyətin, "siyasi fərdin xarakteri və keyfiyyəti baxımdan başa düşülür".

Cəmiyyətin siyasi şüurunda insanların praktiki fəaliyyəti ilə bu fəaliyyətin sosial şəraiti arasındakı nisbət öz əksini tapır. Siyasi şüur dövlət hakimiyyətinin mahiyyətini dərk etmək tələbatı kimi meydana gəlmişdir. Dövlət hakimiyyəti isə hər şeydən əvvəl, müxtəlif sosial qrupların mənafeyini ifadə edir. Deməli, siyasi şüur dövlət hakmiyyyətinə münaisbətdə sosial iqtisadi və ictimai münasibətəlrini əks etdirir. İqtisadi və sosial mənafelərin bilavasitə belə şərtlənməsi siyasi şüurun spesifikliyini doğurur və bu zəmində xüsusi siyasi mənafe formalaşır. Siyasi şüur ictimai şüurun digər tərəflərinə nisbətən iqtisadi bazis-lə daha sıx bağlıdır. Bu ondan irəli gəlir ki, siyasi şüur, daha doğrusu, onun yüksək səviyyəsi olan siyasi ideologiya iqtisadi bazislə dolayısı deyil, birbaşa əlaqə kəsb edir. Lakin bu əlaqənin özü də sosial qrupların mənafeyindən asılıdır. Qeyd etmək vacibdir ki, cəmiyyətin siyasi şüuru yekcins ola bilməz. Çünki o, bütün sosial qrupların və təbəqələrin dövlətə münasibətlərini, sosial qruplar arasındakı qarşılıqlı münasibətlər sahəsini əhatə edir. Gerçəkliyin siyasi cəhətdən düzgün qiymətləndirilməsi mövcud sosial sistemdəki fərdlərin və qrupların konkret vəziyyətindən asılıdır.

Hər bir sosial qrupun real vəziyyəti dövlət hakimiyyətinə münasibətdə spesifik fərqlər kəsb etdiyinə görə bu hakimiyyət uğrunda mübarizədə daim siyasi mənafelərin toqquşması nəzərə çarpır. Elə buna görə də dövlət hakimiyyətinin təşkili siyasi təfəkkürün mərkəzi problemidir. Siyasi mənafeələr obyektiv xarakterə malik olduğuna görə hər bir adam açıq və

ya üstüörtülü şəkildə onun daşıyıcısı kimi çıxış edir. Özündə kəskin sosial ziddiyyətləri əks etdirən siyasi mənafeələr bütün cəmiyyətlərin həyatına nüfuz etmək qabiliyyətinə malikdir. Siyasi mənafelər hər bir tərəfdən sosial fəallığa malik olan bütün təşkilatların, birliklərin, fəaliyyətinin əsasını təşkil edir. Digər tərəfdən isə cəmiyyətdə sosial toqquşmaları şərtləndirir.

Kant insan hissinin rolunu mütləqləşdirir və göstərirdi ki, sənət insanın daxili duyğularını, təfəkkür, seyr duyğusu kimi qabiliyyətlərinin müəyyən yaradılıcıq sahələrinə proyeksiya edilməsidir. Kanta görə poeziya insanın təfəkkür qabiliyyətinin, plastik sənətlər seyr etmə qabiliyyətinin, musiqi isə duyğu qabiliyyətinin törəmələridir. Kanta görə bədii sənət növləri yalnız və yalnız mənəvi qabiliyyətlərin məşğuliyyət forması, əyləncə və oyunudur.

Sənət bölgüsündə obyektiv amilə əsaslananların da hamısının mütləq materialist olduqlarının güman etmək düz olmazdı. Məsələn, Hegel obyektiv idealist idi. O, sənətin müxtəilif növlərinin özünəməxsusluqlarını və bənzərsizliklərini inikas predmetindən, yəni oybektiv amildən çıxış edərək izah edirdi. Lakin Hegel bu obyektiv amili və onun inikası olan sənət əsərinin özünü mütləq ideya ilə bağlayırdı. Maddi aləmin, təbiətin, cəmiyyətin özünü mütləq ruhun törəməsi kimi götürürdü, incəsənətin özünü ideyanın təcəssüməndə müəyyən mərhələ adlandırırdı.

Əlbəttə, siyasi şüurun məzmununun müəyyənləşdirilməsi yalnız sosial mənafeələr meyarı ilə məhdudlaşmır. Siyasi şüurun öyrənilməsinin mühüm funksional istiqaməti həm də onun adi və nəzəri-ideoloji formalarının tədqiq olunmasında üzə çıxır. Siyasi şüurun bu formalarının məzmunu barədə müəyyən təsəvvürə malik olmaq, siyasi mədəniyyətin mahiyyətini dərk etməyə xidmət edir. Heç də təsadüfi deyidir ki, sosial fəlsəfəyə və siyasi elmə dair ədəbiyyatda siyasi şüurun bu iki formasının – adi-praktiki (siyasi psixologiya) və ideoloji-nəzəri (siyasi ideologiya) siyasi şüurun öyrənilməsinə

mühüm diqqət yetirir. Belə maraq siyasi mədəniyyət anlayışının məzmununun məqsədyönlü tədqiqi baxımdan vacib və əhəmiyyətlidir. Adi praktiki siyasi şüur özündə sistemləşdirilmiş görüşləri və təsəvvürləri, o cümlədən müxtəlif sosial qrupların hisslərini və əhval-ruhiyyəsini, məsələn, həmrəyliyini, düşmənçiliyini və s. əks etdirir. Nəzəri ideoloji siyasi şüur isə sosial qrupların, millətlərin, dövlətin köklü mənafeələrini ifadə edən görüşlər, ideyalar sistemidir, cəmiyyətin necə təşkil olunmasına, onun dövlət quruşunun xarakterinə və hansı siyasəti həyata keçirməsinə dair baxışlar sistemidir.




(58, s.67)

Adi praktiki siyasi şüur insanların əməli fəaliyyətindən, sosial təcrübəsindən hasil olmaqla kortəbii surətdə meydana gəlir. Həmin şüur emosiyalardan və dəyişməkdə olan sosial təcrübədən asılı olaraq çox hallarda sabit xarakter daşımır. Adi siyasi şüurda təzahür edən müəyyən tiplər siyasi təfəkkürün mükəmməl şəkildə formalaşmasına mane olur. Hər hansı sosial qrupun adi siyasi şüuru gündəlik həyatda necə təzahür edirsə, hakimiyyətə münasibətdə də bu cür nəzərə çarpır. Adi siyasi şüurun məzmunu zəkanın ümumiləşdirici fəaliyyətində geniş tarixi perspektivdən, nəzəri düşüncə tərzindən və fəlsəfi kateqoriyalardan məhrumdur. Bununla yanaşı adi şüur məhz obyektiv sosial gerçəklikdən birbaşa asılı olduğu üçün onun

gündəlik məzmunu özündə təmsil etdiyi sosial qrupun siyasi ideologiyasının ruşeymlərini də əks etdirir.

Siyasi şüurun məzmunu barədə qeyd etdiyimiz mülahizələr bütövlükdə siyasi mədəniyyət anlayışının mahiyyətini və funksiyalarını düzgün başa düşməyə xidmət edir. Unutmaq olmaz ki, siyasi mədəniyyətin formalaşması hər şeydən əvvəl siyasi şüurun tərbiyə olunması prosesidir.

Sənət növlərinin təsnifini verərkən zaman və məkan anlayışlarını əsas götürmək daha münasib və məqsədəuyğundur, zira dərin nəzəri köklər və ümumiləşdirmələr daha geniş əhatə dairəsinə malikdir.

Sənətləri üç zümrəyə – zaman, məkana görə ayırmağın fəlsəfi əsası da möhkəmdir, çünki zaman və məkan materiyanın iki əsas varlıq formalarıdır, hər bir sənət əsəri isə şeydir, perdmetdir, maddi, oybektiv reallıqdır.

Son nəticədə sənətin zümrələrə, növlərə bölgüsünün zərurəti və ciddi əhəmiyyəti ondan irəli gəlir ki, hər bir sənət növünün xasəslərini, ümumi və xüsusi cəhətlərini insanın mənəvi inkişafında oynadığı rolu, bəşərin mədəni tərəqqisində inteqrasiya, sintez yollarını (bunu da xatırlayaq ki, bəşəriyyətin gerçəkliyi, həyatı ilk estetik duyuş, qavrayış və nisbi idrak mərhələsində də sənət sintetik bir mahiyyətdə olmuşdur) daha dərindən, əsaslı və geniş şəkildə meydana çıxarıb tədqiq etməyə və müəyyən hökmlər çıxarmağa imkan verir (120, s.158).

Ümumiyyətlə, mədəniyyət sisteminin əsas sahələrindən hər biri insanların bütöv fəaliyyəti ilə üzvi surətdə əlaqədardır. Şəxsiyyətin, qrupların, yaxud bütövlükdə cəmiyyətin mədəniyyəti haqqında biz ilk növbədə onların real fəaliyyətinin insanın inkişafına nə dərəcədə (və hansı istiqamətdə) təsir göstərməsinə, hansı şəxsiyyət tipi formalaşdırmasına, hansı sərvətlər (maddi və ya mənəvi) yaratmasına görə izahat veriirk. Ona görə mədəniyyəti yalnız insanların ictimai şüuruna müncər etmək, ümumiyyətlə, düzgün deyildir. "İnsanlar, söhbət əsil, fəaliyyət göstərən insanlardan gedir, onların məhsuldar

qüvvələrinin müəyyən inkişafı və bu inkişafa uyğun üunsiyyət ilə, ünsiyyətin ən uzaq formaları da daxil olmaqla şərtlənən təsəvvürlərinin ideyalarının və i.a. yaradıcılarıdırlar" (127, s.14). Məsələn, insanın əxlaq mədəniyyəti haqqında, birinci növbədə, onun davranışında hansı əxlaqi prinsiplərin və normaların reallaşmasına görə və bu davranışın nə dərəcədə əxlaqi olmasına görə müzakirə aparırıq. Eyni şeyi mədəniyyətin digər növlərinə də müvafiq olaraq deyə bilərik. Ancaq bu heç də mədəniyyətin özünün substansional əsası yoxdur deməkdir. İnsanın həm maddi və həm də mənəvi fəaliyyəti növlərinin nəticəsi o zaman mədəniyyət faktı ola bilər ki, onun əsil qüvvələri mədəni sərvətlərdə və normalarda maddiləşsin. Onlar mədəniyyətin strukturunun substansional elementləridir. Eyni zamanda, mədəniyyət strukturuna onun elə funksional elementləri də daxildir ik, onlar mədəni fəaliyyət prosesinin özünü, onun tərəflərini, aspektlərini səciyyələndirir. Mövcud sərvətlər və normalar istehsalıdır, onların qorunması, bölüşdürülməsi, mübadiləsi və istehlakıdır.

Tərəqqinin müxtəlif tarixi formalarının konkret müqayisəsi üçün elmi ölçülər işlənib hazırlanmalıdır ki, onlarla mədəniyyət sahəsində keyfiyyət dəyişikliklərinə, mədəni istehsalın köhnə tipindən yeni tipinə keçməklə əlamətdar hadisələrə obyektiv qiymət vermək mümkün olsun. Bu zaman nəzərə almaq lazımdır ki, ictimai varlığın dialektikası sosial münasibətlərin, sosial mədəni təsisatların insanın təbii mühitlə əlaqələrinin dəyişdirilməsini zəruri edir. İnsanların sosial mədəni həyat fəaliyyətinin bu cür dəyişdirilməsi bu həyat fəaliyyətində hansı proseslərin mütərəqqi, hansılarının isə qeyri-mütərəqqi olmasına verilən qiymətin dəyişdirilməsini şərtləndirir. Zəruri dəyişikliklər müxtəlif amillərdən, məsələn, insanların real həyat fəaliyyətinin onlar üçün münasib və arzu edilən xarakteristikalar haqqında təsəvvürlərindən asılıdır.

Elmi idrakın analitik və müqayisəli prinsipi mədəniyyətin tərəqqisinin diferensiyalı kriterlər sistemini yaratmağa və

onlardan hər birinin təsir sahəsini müəyyənləşdirməyə imkan verir.

Dekorativ tətbiqi sənətlə dəzgah incəsənəti arasındakı formalar bədii yaradıcılıq təcrübəsində çox tez-tez istifadə edilir. Burada süjetli pannolar, qobolenlər, platonlar, dekorativ heykəllər və başqa formalar memarlıq nümunələrinin müəyyən hissəsini təşkil edir və onu təkrarlayır. Lakin bəzən həmin formalara ayrıca olaraq, müstəqil bədii əsərlər kimi də baxılır.

Dekorativ-tətbiqi sənət əsas etibarilə özülü xalq yaradıcılığından alır. Dekorativ tətbiqi sənətdə ornamentin böyük əhəmiyyəti vardır. O, dekorativ tətbiqi sənət əsərlərini bəzəyir, memarlıqda və başqa dekorativ sənət sahələrində geniş surətdə istifadə edilir. Ornamentin ümumi üslub nişanələri bu və ya başqa bir xalqın təsviri sənət mədəniyyətinin xüsusiyyətləri ilə müəyyən olunur. Onun müəyyən tarixi dövr ərzində müəyyən sabitliyi və aydın ifadə edilmiş milli xarakteri vardır. Ayrı-ayrı hallarda ornamentin xassəsi onun bəzədiyi əşyanın həcmindən, ölçüsündən, formasından və materialından asılı olur. Adətən ornament naxışlarının ünsürləri bitki və həndəsə motivlərindən ibarətdir. Bir çox hallarda ornament motivlərində heyvan və insan rəsmlərinə də rast gəlmək olur. Belə hallarda rəsmlər ümumiləşdirilmiş şəkildə özünü göstərir, yəni bu rəsmlər həndəsiləşdirilir, şərtiləşdirilir.

Cəmiyyətin mədəni inkişaf səviyyəsi cəmiyyətdə yaradılmış mənəvi sərvətlərin həcmi ilə, yayılma miqyası və insan tərəfindən mənimsənilmə dərinliyi ilə müəyyən olunur. Mənəvi sərvətlərin yaradılması, yayılması və istifadə olunması üsulları isə cəmiyyətin sosial-mədəni təşkililə bağlıdır. Mənəvi həyatın dəyişməsi və inkişafı özünü birinci növbədə mədəni sərvətlərin yaradılması, mübadilə edilməsi, bölgüsü və istifadə olunması üsullarını dəyişməsi və inkişafı kimi göstərilir.

Mənəvi mədəniyyətin müxtəlif sferalarının daha harmonik inkişafını təmin edən cəmiyyət mədəni tərəqqi yolunda müvəf-

fəqiyyətlə irəliləyir. Bu mədəni inkişafın zəruri kriterilərindən biridir.

Tərəqqinin bir mühüm ölçüsü də insanların mədəni sərvətlərə cəlb edilməsində sosial bərabərliyə nail omlaq dərəcəsidir. Bu, cəmiyyətin sosial-mədəni təsisatlarının strukturunda öz əksini tapır.

Bu bir faktdır ki, tarixi insanlar yaradır. Cəmiyyətin mədəni inkişaf tempi, onun vüsəti və səmərəliyi ona cəlb olunmuş insanların yaradıcı fəallığının dərəcəsindən, onların əhatə dairəsinin böyüklüyündən asılıdır. Buna görə də mədəni tərəqqinin ən mühüm ölçülərindən biri xalqın tarixi prosesdə şüurlu iştirak dərəcəsi ilə, onun mənəvi fəaliyyətə cəlb olunma dairəsi ilə əlaqədardır. Xalqın əsl tarixi yaradıcılığı, mənəvi əsarətin və onu doğuran səbəblərin aradan qaldırılmasına qarşı dura bilən mədəniyyət yaratmaq qabiliyyəti sürətlə inkişaf edir.

Ümumiyyətlə, mədəni tərəqqinin məzmunu şəxsiyyətin inkişafı və formalaşması ilə bağlıdır, onun mühüm göstəricisi cəmiyyətdə insanın yaradıcılıq qüvvəsinin və qabilliyyətinin, onun sosial fəallığının daha tam şəkildə təzahür etməsi üçün imkanların olmasıdır. Ona görə mədəni tərəqqi öz əksini əvvəla, insanın mənəvi cəhətdən dolğun həyatını, onun intellektual və emosional qüvvələrinin inkişafını təmin edən real şəraitdə, ikincisi, şəxsiyyətin mənəvi aləminin özündə, onun mənəvi tələbatının genişliyində və müxtəlifliyində, yaradıcılıq potensialında, istedadında görür. Öz növbəsində mənəvi sərvətlərin insana təsirinin xarakteri və intensivliy mədəniyyətin şəxsiyyətə təsiri ilə bağlıdır.

Azərbaycanda qədim dövrlərdən bəri daşoyma, rəngli kaşı, bədii metal, zərgərlik, dulusçuluq, bədii parça, xalçalıq, bədii şüşə, toxuma, bədii tikmə, ağacoyma, şəbəkə, camlıq, rizəkarlıq kimi dekorativ-tətbiqi sənət sahələri nəsildən-nəsilə keçərək öz milli forma və bədii xüsusiyyətlərini davam və inkişaf etdirmişdir.

Sovet hakimiyyəti illərində ənənəvi sənət sahələrinin mütərəqqi tərəfləri inkişaf etmiş, sosialist dövrünün tələblərinə uyğunlaşmış milli formalar zənginləşdirmiş və dekorativliyi daha da kamilləşdirmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətinin bir çox sahələri sənaye əhəmiyyəti kəsb etmiş və kütləvi surətdə istehsal olunan əşyalar xalqımızın məişətini bəzəmişdir. Belə əsərlər utilitar əhəmiyyəti ilə yanaşı emosional təsir qüvvəsinə də malik xalq kütlələrinin estetik tələbatına cavab verir, incəsənət əsəri kimi insanların tərbiyəsində iştirak edir.

İnkişaf etməkdə olan müstəqil cəmiyyətdə mədəni tərəqqinin mühüm səciyyəvi əlaməti onun kompleksliyidir.

Maddi və mənəvi mədəniyyətin bütün sahələrinin (siyasi, hüquqi, mənəvi, estetik, bədii və s.) harmonik inkişafı, cəmiyyətin mənəvi həyatının bütün sahələrinin daim keyfiyyətcə təkmilləşməsi, mənəvi mədəniyyətin fəaliyyət göstərməsi, onun daha da zənginləşməsi, və inkişafı, xalqın mədəni səviyyəsinin daim yüksəlməsi, onun mənəvi tələbatının, mədəni ehtiyaclarının, mənəvi sərvətlərin bölgüsündə bərabərlik, onların ən geniş xalq kütlələri üçün açıq olması sayəsində cəmiyyətin bütün mədəni nailiyyətlərindən xalqın mənafeyi üçün, humanist məqsədlər üçün istifadə sayəsində daha əhatəli ödənilməsidir.

## Azərbaycanla inkişaf etmiş dünya dövlətlərinin mədəniyyət siyasətlərinin müqayisəli təhlili

Dünya ölkələrinin təcrübəsi göstərir ki, milliyyətindən, irqindən, dinindən, cinsindən və siyasi partiya mənsubiyyətindən asılı olmayaraq bütün xalqı və vətandaşları birləşdirən güclü milli ideya olmasa heç bir ölkənin, o cümlədən Azərbaycanın milli təhlükəsizliyi etibarlı ola bilməz. Milli təlükəsizlik təkcə xarici düşməndən qorunmağı deyil, eyni zamanda daxildə birlik əsasında dövlətin inkişafını və tərəqqisini təmin etməlidir. Məhz "müstəqillik", "azərbayzançılıq", "vətənçilik", "öncə vətəndir", "öncə Azərbacandır" – kimi səmərəli ideyalar tarixi köklərə söykənir. Bu ideyalar Azərbaycan dövlətinin təhlükəsizliyinin və vətəndaşlarinin tərəqqisinin mökəm təməl daşlarından birini təşkil edə bilər.

Milli ideologiya hər bir xalqın milli maraqlarını, milli mənafeyini, milli və tarixi ənənələrini, milli düşüncəsini, milli psixologiyasını və milli dünyagörüşünü ifadə edən baxışlar sistemidir. Hər bir xalqın milli ideologiyasında, şübhəsiz ki, onun milli mənafeyi və milli maraqları aparıcı yerdə durur. Bu milli mənafe və maraqların içərisində milli və tarixi ənənələr yaşayır. Eyini zamanda, milli ideologiyaların bazasında ümummilli düşüncələri birləşdirən milli psixologiya dayanır. Milli ideologiyanın bütün daxili mexanizmi milli dünyagörüşü formalaşdırır. Hər bir milli ideologiya, bütövlükdə, öz xalqına və millətinə xidmət edir. Hər bir milli ideologiyada onun xidmət etdiyi xalqın obrazı canlanır. Milli ideologiya, şübəsiz ki, hər bir xalqda birdən-birə yaranmır və birdən-birə bütövlənib sistem təşkil edə bilmir. Milli ideologiyalar, tarixi dövrlərdən və mərhələlərdən keçərək formalaşır, bütövləşir və səbitləşir. Milli idiyologiyasının ilkin rüşeymi xalqın həyatında, mənəvi varlığında, məişətində və psixologiyasında milli ideyalar şəkilində canlanır. Milli ideologiyalar xalqın istək və arzularını, mənəvi kefiyətlərini, əqidə və inamlarını, əxlaqi məziyyətlərini

və davranışlarını, sosial həyat tərzinin ən ümumi əlamətlərini özündə əks etdirir. Milli ideyalar hər bir insan cəmiyyətində və kollektivlərində mövcuddur. Ayrı-ayrı kollektivlərdə və insan cəmiyyətlərində mövcud olan ideyalar zaman keçdikcə, insan kollektivləri ümumiləşdikcə, bütövləşdikcə ümumxalq ideyalarına çevrilir.

Müasir dünyanın hər bir ölkəsində milli ideallara söykənən mədəniyyət siyasəti ümumdövlət siyasəti sistemində çox mühüm yer tutur, çünki mədəniyyət sisteminin düzgün qurulmasından cəmiyyətin normal həyat tərzi, xalqın rifahı, sosial sahələrin inkişafı, dövlətin tərəqqisi və sair vacib amillər asılıdır.

Mədəniyyət sahəsində siyasət digər sahələrlə, o cümlədən iqtisadiyyat və siyasətlə sırf bağlıdır. Məsələn, iqtisadiyyatı zəif, əhalinin yaşayışının və elmi potensialının səviyyəsi aşağı olan ölkələrdə, proqressiv mədəniyyət siyasətini uğurla reallaşdırmaq mümkün deyil və əksinə mədəniyyət siyasəti zəif olan ölkədə intellektual inkişaf ləngiyir. Bu da öz növbəsində istehsalatın effektivliyini əldə etməkdə məhdudiyyət yaradır. İqtisadi effektivliyin artması bilavasitə elmin nailiyyətlərindən, onlarla bağlı olan yeni texnologiyalardan, habelə insanların təhsil səviyyəsi və mənəvi mədəniyyətindən asılıdır. Deməli, mədəniyyət sisteminin inkişafı, mütərəqqi mədəni dəyərlərin vətəndaşlar arasında yayılması, mədəni əməkdaşlığın həyata keçirilməsi və xalqın mədəni irsinin qorunub saxlanması üşün digər sosial sahələrin nə dərəcədə inkişaf etməsi çox vacibdir.

Sosial həyatın dinamik inkişafı, dünya xalqlarının elmdə və s. sahələrdə əldə etdikləri nailiyyətlərin nəticəsində yüksək templə yeni bəşər mədəniyyəti formalaşır. Dünyada baş verən qloballaşma prosesi xalqların bir-birinə yaxınlaşmasını, mədəni əlaqələrin genişlənməsini və həmçinin hər bir ölkənin digər ölkələrin mədəniyyət siyasəti sahəsində yeniliklərdən, əldə olunan uğurlardan, öz mədəniyyətinin ənənələrini və xüsusiyyətlərini itirməmək şərtilə bəhrələnməsini nəzərdə tutur.

BMT, YUNESKO, Avropa Şurası kimi beynəlxalq təşkilatlar mədəniyyətin inkişafı, beynəlxalq mədəniyyət siyasətinin formalaşmasına yardım məqsədilə müxtəlif konfranslar təşkil edir, qərarlar qəbul edirlər. 1982-ci ildə Mexiko-Sitidə mədəniyyət siyasəti üzrə Ümumdünya konfransı keçirilmişdi. Bu konfransda mədəniyyətə artıq mənəvi, maddi, intellektual, hissi elementlər kompleksi və bəşəri inkişafın əsas amili kimi baxış formalaşmışdı. Konfransın qərarlarına əsaslanaraq, 1986-cı ildə BMT-nin Baş Assambleyası 1988-1997-ci illərdə BMT və YUNESKO-nun himayəsi altında mədəniyyətin Ümumdünya inkişaf onilliyinin keçirilməsini qərara almışdı (18.s.27).

Bununla cəmiyyətin tərəqqisində, insanların həyat şəraitinin yaxşılaşdırılmasında, dünyada sülhün bərqərar olmasında, qlobal, o cümlədən ekoloji problemlərin həllində mədəniyyətin mühüm rolu bir daha təsdiqləndi. BMT tərəfindən 2000-ci il mədəniyyət ili elan edildi. Bu yaxınlarda YUNESKO-da mədəniyyət və inkişaf üzrə ümumdunya komissiyası yaradıldı. 2001-ci il və XXI-ci əsrin birinci onilliyi sivilizasiyaların dialoqu şüarı altında keçəcəyi qərara alındı. 1997-ci ildə Avropa Şurasının mədəniyyət siyasəti üzrə şöbəsinə xidmət edən "Mədəniyyət siyasətini tədqiqi və inkişafı ittifaqı" yaradıldı. Bu ittifaq mədəniyyət siyasətinə dair materialları toplayır və dünya dövlətlərinin dövlət və qeyri-hökumət strukturları və təşkilatları arasında yayır. 1998-ci ildə Avropada 40-dan artıq mədəniyyət təşkilatını birləşdirən Forum təsis olundu. Forum mədəniyyət siyasətində əməkdaşlığın genişlənməsinə xidmət edir, müxtəlif xalqlar arasında mədəni mübadiləni təmin edən körpü roplunda çıxış edir. Avropa ölkələrinin mədəniyyət siyasətinin həyata keçirilməsində vacib rol oynayan mühüm informasiya və məlumatları təmin etmək məqsədilə 1997-ci ildə Avropa Şurasının Strasburq sammitində Avropa Kommitəsi tərəfindən yeni informasiya texnologiyaları üzrə Avropanın siyasətinin

Bəyənnaməsi layihəsi işlənilib – hazırlandı və Avropa Şurası bu Bəyənnaməni qəbul etdi (18,s.28-29).

Avropa Şurası və digər təşkilatlar vətəndaş cəmiyyətinin inkişafına, kulturoloji tədqiqatların aparılmasına köməklik etmək üçün dünyanın bir çox ölkəsindən alimlərin iştirakı ilə müxtəlif konfranslar, seminarlar təşkil edir. 1995-ci ildə Stokholmda mədəniyyət siyasətinin və ictimai inkişafın istiqamətləndirilməsi məsələlərinə həsr olunmuş Avropa dövlətlərinin hökumətlərarası konfransı keçirilmişdi. Həmin il İsveçdə mədəniyyət siyasətinə dair sualları müzakirə etmək məqsədilə Avropa ölkələrinin mədəniyyət nazirləri müşavirəyə toplaşmışdılar. 1999-cu ilin noyabrında Norveçdə mədəniyyət siyasəti sahəsində tədqiqatlara dair Beynəlxalq konfrans keçirildi. Dünyanın 22 ölkəsindən 150 alimin iştirakı ilə keçirlən konfransda mədəniyyət siyasətindəki problemlərlə yanaşı müasir dövrdə mədəniyyətin artan rolu müzakirə edilirdi. BMT-nin İnkişaf Proqramının sifarişi ilə bir qrup müstəqil ekspert tərəfindən bəşər inkişafının qlobal problemləri üzrə məruzələr hazırlanır. Proqram dünyanın 174 geridə qalmış ölkəsinə müxtəlif problemləri həll etməyə köməklik edir (139; 161).

Bütün bu beynəlxalq təşkilatların məqsədi, müstəqil demokratik prinsplərə əsaslanan, qlobal problemləri həll edə bilən, insanlar arasında hummnist, proqrssiv dəyərlərin yayılmasını, həmçinin söz azadlığını təmin edən yeni mütərəqqi beynəlxalq mədəniyyət siyasətinin formalaşdırılmasıdır. 2000-ci ildə BMT-nin dövlət hökumətləri başçılarının sammitində mədəniyyətlərin dialoquna və harmonizasiya prinspləri əsasında dünya mədəniyyətinin qurulması məsələsi irəliu sürüldü. 2000-ci ildə Milleniuma dair BMT-nin Beynəlxalq Konfransında bu suallar daha dolğun müzakirə edilib konkretləşdirilmişdir. Dünyanın 105 ölkəsindən 500 qeyri-hökumət təşkilatların rəhbərlərinin iştirakı ilə keçirilən konfrans dünyada sülh üzrə Beynəlxalq və dinlərarası

Federasiya və qeyri-hökumət təşkilatların Ümumdünya Assosiasiyası tərəfindən təşkil olunmuşdu (81,s.181).

ABŞ, Yaponiya və Avropanın bir sıra ölkələri mədəniyyət siyasəti sahəsində böyük nailiyyətlər əldə etmişlər. Bu ölkələrin təcrübəsi Azərbaycanın mədəniyyət siyasətinin formalaşmasında çox gərəkli olardı. Qabaqcıl ölkələrdə mədəniyyət siyasətinin düzgün qurulması və istiqamətləndirilməsi nəticəsində insanların həyat şəraiti yaxşılaşmış, intellektual səviyyəsi artmış, mədəniyyətin bütün sahələrində inkişaf müşahidə olunmuşdur. Qeyd olunan ölkələrdə əldə olunan uğurlar çoxillik təcrübədən doğur. Hələ 1986-cı ildə Avropa Şurası Avropa ölkələrində Mədəniyyət siyasətinin qısa proqramını yaymışdı. Əlbəttə, bu dövrlərin mədəniyyət siyasəti ideal deyil, lakin digər ölkələrdən fərqli olaraq Avropa ölkələrinin, ABŞ-ın, Yaponiyanın mədəniyyət siyasəti daha mütərəqqi üsullarla həyata keçirilir.

Ötən əsrin 80-ci illərində alimlər Avropa ölkələrində mədəniyyət siyasətininin tipologiyasını aşağıdakı kimi müəyyənləşdirmişlər:

1. Siyasi hakimiyyət və bütün hakimiyət rəmzləri. Parisdə cəmləşdirilmiş Fransanın Mədəniyyət Nazirliyinin spesifik modeli. Nazir özü tez-tez birbaşa mədəni həyata qarışır. Fransanın mədəniyyət siyasəti modeli həmçinin bu və ya digər dərəcədə mədəniyyəti bazardan qoruyur. Fransanın dövlət strukturları mədəniyyət üçün öz üzərlərinə böyük məsuliyyət götürür.

2. Müdaxilə etməmək prinsirinə əsaslanan model. Bu prinsipin mahiyyəti hökumətin mədəniyyət siyasətinə çox açıq qarışmamasından ibarətdir. İncəsənət işləri üzrə Şura deyilən bir qurum vardır ki, o da yarıhökumət birliyidir. Bu Şura ancaq ən yüksək bədii keyfiyyətlərə birinci dərəcəli əhəmiyyət verməklə kifayətləınir. Onu çox vaxt hədsiz elitarlıqda günahlandırırlar. Mədəniyyət sahəsinə müdaxilə etməmək prinsipi əsasən Böyük Britaniyada yayılıb. Bir sözlə

mədəniyyət idarələrinə və yaradıcı işçilərə maliyyə yardımının verilməsi Böyük Britaniyada, Fransa və Skandinaviya ölkələrində nisbətən azdır.

3. Bütün dünya alimləri məsuliyyətin böyük bir hissəsinin regional səviyyəyə həvalə edildiyi alman qeyri-mərkəzləşdirilmiş və federal modeli təsvir edirlər. Bu modelə uyğun olaraq hökumət orqanları mədəniyyət işçilərinə və mədəniyyət müəssisələrinə böyük qayğı göstərir. Həmin modelin tətbiqi nəticəsində regional və bələdiyyə səviyyələrində ifaçılıq, incəsənət idarələri şəbəkəsi çox yaxşı inkişaf edib.

4. Skandinaviya ölkələrinin mədəniyyət siyasəti modelinin əsas amilləri korporativlik, eqalitarizm (əmlakın bərabər bölüşdürülməsinə əsaslanan prinsip) və rifahdır. Bu ölkələrdə mədəniyyətin dövlət tərəfindən müdafiə səviyyəsi yüksəkdir, artistlər də, digər yaradıcı insanlar da öz üzərində dövlət məmurlarının dəstəyini hiss edirlər.

Avropa ölkələrində mədəniyyət siyasətinin belə modelləri mövcuddur, lakin göstərdiyimiz bu modellər gerçəkliyin çox sadə əksidir. Hər bir ölkə öz milli maraqlarına, milli mentalitetinə və digər amillərə uyğun mədəniyyət siyasətini formalaşdırıb, həyata keçirir (64,s.102-103).

İndi isə, dünyanın qabaqcıl dövlətlərinin mədəniyyət siyasəti sistemindəki xüsusiyyətlərinə nəzər salaq. İlk olaraq Amerika mədəniyyətinə diqqət yetirək. Amerika çoxmillətli ölkədir. ABŞ-da yaşayan müxtəlif millət və xalqların mədəniyyətlərin sintezi nəticəsində burada multi mədəniyyət formalaşmışdı. Dövlət Amerikada yaşayan hər bir millətin nümayəndələrinə öz milli mədəniyyətini ifadə etmək üçün şərait yaratmışdır. Avropadan Amerikaya köçən xalqlar, icmalar dindar olublar. Onlar bütün icmanın nümayəndələrinin eyni dinə mənsub olmasını istəyirdilər. Müxtəlif gizli icmalar dövlətin din nməsələlərinə qarışmasının əleyhinə idi. İlk növbədə Amerikada iki böyük icma – ingilis-şotland-irland və alman icmaları mövcud idi. Sonralar XIX əsrdə burada

assimlyasiya prosesi başlandı. II Dünya müharibəsindən sonra Amerikaya Afrikadan, Asiyadan, Cənubi Amerikadan və digər yerlərdən yeni emiqrant nəsli köçməyə başladı. Hər ölkənin emiqrantları Amerikaya öz mədəniyyətlərini gətirdi.

Müasir Amerika mədəniyyəti müxtəlif mədəniyyət tiplərinin, mədəni dəyərlərin, mentalitetlərin xüsusiyyətləri ilə səciyyələnir. Və belə mürəkkəb şəraitdə mədəniyyət siyasətinin düzgün parametrlərini seçmək çox çətindir. Məsələn, bəzi insanlar Amerika məktəblərində dərslərin bir neçə dildə aparılmasının leyhinədirlər. Lakin digər qrup insanların fikrincə bu mümkün deyil, çünki ABŞ-da yüzdən artiq dil mövcuddur.

Mədəniyyətin inkişafında dövlətə müxtəlif idarələr köməklik edir. Bundan əlavə, bu posesdə qeyri-hökümət təşkilkatları və imkanlı şəxslər iştirak edirlər. Onu da qeyd etmək lazımdır ki, ABŞ-da mədəniyyət nazirliyi mövcud deyil və ölkədə mədəniyyətin inkişafı ilə məşğul olan və qrantlar vasitəsilə fəaliyyət göstərən bir sıra təşkilatlar var. Qrantlar verən milli təşkilatların əsası 1965-ci ildə ABŞ prezidenti Conson adminstrasiyası dövründə qoyulmuşdu. Bu qrantlar haradan götürülür? Əvvəlcə dövlət banka pul vəsaiti qoyur və həmin məbləğdən gələn faizlər mədəniyyətin maliyyələşdirilməsinə sərf olunur. Alınan faizlərin həcmi banka qoyulan məbləğin həcmindən asılıdr.

Amerikada mədəniyyət müəssisələri hamı üçün açıq və çox vaxt pulsuz olur və bu təkcə dövlət hesabına başa gəlmir. 1849-cu ildə Amerika tarixinin öyrənilməsinin proqramları üçün cənab Smitson dövlətə incəsənət əsərlərindən ibarət böyük kolleksiya və külli miqdarda pul vermişdi. Həmin “Smitson institutlaşması” yarımdövlət təşkilatıdır, lakin burada çalışan insanlar, dövlət işçiləri sayılırlar. “Smitson institutlaşması” təşkilatı qrantlar vasitəsilə yox, mədəniyyət abidələrinin və dəyərlərinin qorunub saxlanılması proqramları üzrə işləyirlər (18, s.98-99).

Məlumdur ki, mədəniyyətin yayılması vasitələrindən biri radio və televiziyadır. ABŞ-da radio və televiziya yarananda özəl idi. Yenə də imkanlı şəxslərin maliyyə köməyi hesabına bu KİV-lər inkişaf etməkdədir. Amerikada radio və televiziyanın populyarlaşmasının səbəblərindən biri yayımlanan mədəniyyət proqramları olub. Hal-hazırda ölkədə özəl televiziya kanalları fəaliyyət göstərir, ancaq təkcə hansısa təşkilatların və ya varlı şəxslərin hesabına yox, dövlət strukturları da bu işə köməklik edirlər.

ABŞ-ın Oreqona ştatında mədəniyyət siyasətinin formalaşdırılması çox mürəkkəb prosesdir. Digər ştatlarla müqayisədə əhalisi nisbətən az (üç milyon) olan Oreqonada mədəniyyət sistemində problemlər az deyil. Amerikanın hər ştatında mədəniyyətin inkişafının problemləri ilə məşğul olan xüsusi şuralar fəaliyyət göstərir. Oreqonada bu şura müxtəlif təşkilatların, ayrı-ayrı insanların təkliflərini və qrantları qəbul edir. Lokal səviyyədə keçirilən bu işdə minlərlə insan iştirak edir. Mədəniyyət siyasətinin həyata keçirilməsi prosesində bu şuralar bütün maliyyə resurslarının yığılması, bölüşdürülməsi və istiqamətləndirilməsi, həmçinin özəl təkliflərin qəbul edilməsi və mədəniyyətin təbliği ilə məşğuldur. Oreqona ştatında bu işlər adi insanlar səviyyəsində aparılır, lakin burada mədəniyyət sahəsində çalışan bir qrup insanlar var. Maraqlısı odur ki, mədəniyyət siyasətinin formalaşdırılmasına və həyata keçirilməsinə köməklik edən bu adamlar varlı və məşhur insanlardır.

Beləliklə, Amerikada mədəniyyət siyasəti mürəkkəb sistemdir. Onun qurulmasında və reallaşdırılmasında şuralar, vətəndaş qrupları yaxından iştirak edirlər. Mədəniyyət siyasəti üzrə təşkilatların işi yalnız ştat səviyyəsində deyil, o cümlədən şəhər və yerli səviyyələrdə aparılır (18, s.101).

Mədəniyyət siyasətinin həyata keçirilməsi vergi sistemi ilə sıx bağlıdır. Demək olar ki, vergi siyasəti vasitəsilə ABŞ dövləti konqres tərəfindən idarə edilir. Amerikanın vergi

kodeksində 501S maddəsi var. Həmin maddəyə əsasən 501S adlı siyahı tutulub. Bu siyahıda vergilərdən azad olunan təşkilatların növləri əks olunub. Buraya humanitar və ya digər faydalı fəaliyyətlə məşğul olan təşkilatlar daxildir. Bu maddə mədəniyyət sisteminin inkişafına kömək edir, insanları və özəl təşkilatları stimullaşdırır. Belə ki, bu sahədə xeyriyyəçiliklə məşğul olan və ya onun inkişafına digər vasitələrlə yardım edən şəxslər və təşkilatlar vergilərdən azad olunurlar.

Amerikada mədəniyyət siyasətinin həyata keçirilməsində bir sıra institutlaşmalar (MET, MOMA, Koçran, Metropoliten muzeyi) iştirak edir. Belə növ institutlaşmalar ölkənin hər yerində fəaliyyət göstərirlər. İnsanlar bu prestijli qurumlara etibar edirlər. Buna və öz gücünə arxalanan institutlaşmalar fond kimi çıxış edərək, təşkilatlardan, müəssisələrdən, firmalardan və fərdi şəxslərdən mədəniyyətin inkişaf etdirilməsi üçün vəsait toplayırlar. ABŞ-da ayrı-ayrı institutlarla işləyən təşkilatlar da var.

Amerikada varlı insanlar, maqnatlar var. Maqnatlar çox vaxt öz fondlarını yaradıb mədəniyyət siyasətinə yardım edirlər. Karneqi fondunun, Ford fondunun, Bill Qeytsin fondunun və digər maqnatların fondlarının mədəniyyət siyasəti üzrə şuraları fəaliyyət göstərir. Şuralar haraya nə məbləğdə pulun xərclənməsi həlli ilə məşğuldur. Amerikada mədəniyyət siyasəti çox böyük əhəmiyyət kəsb edir. 2000-ci ildə Ağ evdə mədəniyyətə həsr olunmuş konfrans keçirilmişdi. Konfransda qeyd olundu ki, mədəniyyət siyasətlərinin əsas xüsusiyyəti Amerika mədəniyyətinin nümayişi və təbliğindən ibarətdir.

Mədəniyyətin təbliği təkcə Amerikanın yox, hər bir dövlətin mədəniyyət siyasətində mərkəzi yer tutmalıdır. Məhz mədəniyyət xalqları bir-birinə yaxınlaşdırır. ABŞ-la Çin arasında 20-30 il ərzində soyuq münasibətlər mövcud idi. Lakin sonralar mədəniyyət sahəsində əməkdaşlığın ğüclənməsi sayəsində iki ölkə arasında normal münasibətlər quruldu.

Fransanın mədəniyyət siyasəti Amerika mədəniyyət siyasətindən bir qədər fərqlənir. ABŞ-da olduğu kimi, Fransada da mədəniyyət siyasətini həyata keçirəndə, xarici ölkələrlə mədəni əlaqələrə mühüm yer ayrılır. Fransanın ölkədənkənar mədəniyyət siyasəti müvafiq dövlətin mədəniyyət siyasətindən və mədəni əməkdaşlığı hansı üsullarla saxlanılmasının istəyindən aslıdır və əsasən həmin ölkələrin Xarici İşlər Nazirliyi və ya qeyri-hökumət təşkilatları ilə həyata keçirilir. Fransanın səfirliyinin nümayəndəliyi olan ölkədə mütləq səfirlikdə mədəniyyət şöbəsi açılır, mədəniyyət üzrə müşavir təyin olunur. Bəzi ölkələrdə isə Fransa mədəniyyət mərkəzləri təşkil edilib (18, s.109).

Fransa başqa ölkələrdə öz mədəniyyət siyasətini quranda müəyyən müddət üçün müxtəlif layihələr həyata keçirir. Layihənin müddəti bitəndən sonra onun nəticələri qiymətləndirilir və layihənin uğurlu olub-olmaması müəyyənləşdirilir. Fransa dövləti xarici mədəniyyət siyasətində layihələrin tətbiqini daha effektiv sayır. Layihələrin incəlikləri iki ölkənin nümayəndəlikləri arasında müzakirə olunur və dövlətlərarası qarşılıqlı anlaşılmanı asanlaşdırır. Bu layihələr çox vaxt dövlət tərəfindən layihələşdirilir və müxtəlif təşkilatların bu işdə iştirakı çox böyük əhəmiyyət kəsb edir.

Layihələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün Fransadan ekspertlər, bu işin mütəxəssisləri göndərilir. Yerli nümayəndələr isə Fransaya layihəni dərindən öyrənmək və staj keçmək üçün dəvət olunurlar. Fransada təhsil alan peşəkar mütəxəssislər ölkəyə qayıdıb, layihənin reallaşmasında öz biliklərini tətbiq edirlər. Bəzən layihədə iştirak edən tələbələr təqaüdlə təmin olunurlar.

Fransa dövləti öz mədəniyyət sistemində Azərbaycanla mədəni əməkdaşlığa mühüm yer ayırır. Fransanın ölkəmizdəki səfirliyində əməkdaşlıq və mədəniyyət şöbəsi, bundan əlavə Fransa haqqında informasiya mərkəzi fəaliyyət göstərir. Azərbaycan müstəqil olandan sonra Fransa ilə əlaqələr inkişaf

etməyə başladı. Bu əlaqələr nəticəsində Azərbaycan diplomatları, siyasi xadimləri və jurnalistləri Fransa tərəfindən təşkil olunmuş kurslarda bu ölkənin siyasi təcrübəsi, o cümlədən mədəniyyət siyasətinin xüsusiyyətləri ilə tanış olmaq üçün şans əldə etdilər.

Fransa dövləti Azərbaycanla təhsil sahəsində də əməkdaşlıq edir, bu əsasən ölkəmizdə fransız dilinin tədrisi ilə bağlıdır. Bu layihə üçün Fransadan Azərbaycana müəllimlərin göndərilməsi, fransız dilində dərsliklərin çap edilməsi və rayonlarda məktəblərin açılması nəzərdə tutulurdu. Digər maraqlı layihə – jurnalistlər üçün Regional kəsilməz təhsil mərkəzinin təsis edilməsidir. Bu layihə çərçivəsində təkcə Azərbaycan jurnalistləri deyil, eyni zamanda Qafqazın digər regionlarından, Orta Asiyadan və Türkiyədən jurnalistlərin iştirakı ilə müasir jurnalistika texnalogiyaları ilə tanış olması planlaşdırılırdı. Layihə üzərində iş 2001-ci ildə başlanıb (18, s.111).

Avropanın digər qabaqcıl ölkəsi olan Norveçin mədəniyyət siyasəti xeyli inkişaf etmişdir. Norveçin mədəniyyət siyasətini səciyyələndirən xüsusiyyətlər aşağıdakılardır:

– Norveçin mədəniyyət siyasəti sistemində bərabərlik prinspi mühüm yer tutur. Bunun üçün dövlət ümummilli səviyyədə, mədəniyyəti inkişaf etdirmək məqsədilə xüsusi müəssisələr yaradır. Norveçdə eqalitarizm siyasəti yaradıcı işçilərə də tətbiq edilir. 70-ci illərdən sonra bu ölkənin yaradıcı insanları üçün qrantlar və digər yardım növləri müəyyənləşdi. Norveçdə "zəmanətli minimal gəlir" tətbiq edilir ki, bu da yaradıcılıqla məşğul olan 520 işçiyə verilir, yəni çox vaxt təqaüdə çıxan artistlər və digər yaradıcı insanlar bu gəliri alırlar.

– Norveçdə və Avropanəın bir çox ölkələrində hökumət mədəniyyət siyasətinin inkişafı üçün külli miqdarda pul ayırır. Məsələn Norveçin hakimiyyət orqanları incəsənət müəssisələrinin xərclərinin 70-90 faizini öz üzərinə götürür. Lakin Böyük Britaniyada hökumət teatrların, simfonik orkestrlərin xərclərinin yalnız 40-50 faizini ödəyir. Avropa ölkələrində

Böyük Britaniyadan savayı mədəniyyət sahəsinin özəl təşkilatlar və ya varlı şəxslər tərəfindən maliyyələşdirilməsi o qədər də geniş yayılmayıb, o cümlədən Norveçdə də.

– Norveçdə mədəniyyət həyatını təşkil edən bir çox səlahiyyətli idarələr və təşkilatlar mövcuddur. Layihələr çərçivəsində müxtəlif tədbirlər həyata keçirilir. Norveçdə dövlətdən maliyyələşdiyindən teatr müəssisələri ənənəvi olaraq Norveç aktyorlarını daimi işə götürür, çünki dövlət məmurları işə qəbul edir. Fransada və Böyük Britaniyada vəziyyət tamam başqadır. Fransız və Britaniya aktyorları adətən muzdla işləyirlər. Onlar tez-tez açıq əmək bazarında müxtəlif iş təklifləri ilə işsizlik arasında tərəddüd etməli olurlar.

– Norveç mədəniyyət siyasəti modelinin digər vacib amili korparativlikdir. Yəni Norveçdə xüsusi Qeyri-hökumət təşkilatları mövcuddur, hansılar ki, mədəniyyət siyasəti həyata keçirilən zaman dövlətlə əməkdaşlıq edirlər. Fransa və Britaniyada, Norveçdən fərqli olaraq bu tip müəssisələr böyük nüfuza malik deyil.

– Norveç hökuməti mədəniyyət siyasətində qeyri-mərkəzləşməyə meyillidir. 70-80-ci illərdə bələdiyyə müəssisələrində mədəniyyət üzrə inzibati orqanlar yaradılırdı. Bunlar mədəniyyət siyasətinin inkişafı üçün çox uğurlu fəaliyyət göstərir. 90-cı illərin əvvəllərindən inzibati orqanların əhəmiyyətliliyi zəiflədi, lakin bu müəssisələr bu gün mədəniyyət siyasətində vacib rol oynayırlar. Norveçə mədəni eynilik xasdır. Məsələn, bu ölkədə 90-cı illərəqədək yeganə dövlət televiziya kanalı mövcud idi. Mədəniyyətin bir çox sahəsi bir milli təşkilatın təsiri altındadır. Digər ölkələrdə isə eyni mədəni sahəyə çoxlu sayda kiçik müəssisələr xidmət göstərir (18, s.105).

Səciyyəvi xüsusiyyətlərin təhlilindən belə nəticəyə gəlmək olar ki, Norveçdə (ümumiyyətlə Skandinaviya ölkələrində) başqa ölkələrə nisbətən, dövlət strukturları mədəniyyət siyasətinin reallaşmasına daha çox dəstək verir. Böyük Britaniyada müdaxilə etməmək prinspi çox böyük əhəmiyyət

kəsb edir. Yəni mədəniyyət dünyası siyasət dünyasından ayrı olmalıdır. Fransada isə əksinə mədəniyyət naziri mədəniyyət sahəsində bütün işlərə müdaxilə edir. Skandinaviya ölkələri bu iki vəziyyət arasındadır. Norveç mədəniyyət siyasətini fərqləndirən xüsusiyyət – mədəniyyət işçilərinə fərdi yanaşma metodudur. Bu məqsədlə həmin işçilər üçün ödəmələr sistemi yaradılır. Norveçdə mədəniyyət siyasəti çox geniş anlayışdır. Buraya idman, ictimai-mədəni fəaliyyət sahələri aiddir. Norveç dövləti öz mədəniyyət siyasətində mədəni əməkdaşlığa böyük yer ayırır. Son illər ərzində Azərbaycanla Norveç arasında mədəni əlaqələr möhkəmlənib, müxtəlif layihələr çərçivəsində bir çox mədəni tədbirlər həyata keçirilir.

Norveç mədəniyyət siyasətinin modeli çox effektiv inkişaf edib və bu nöqteyi-nəzərdən başqa dövlətlərin mədəniyyət siyasəti formalaşması prosesində çix faydalı və maraqlı ola bilər.

Yaponiyanın da mədəniyyət siyasəti böyük maraq doğurur. O, cəmiyyətin ruhi zənginləşməsinə, xalqın rifahına və Yapon mədəniyyətinin dünyada daha geniş yayılmasına və tanınmasına yönəldilib. Yaponiya mədəniyyət siyasətinin xüsusiyyətləri aşağıdakı kimi xarakterizə etmək olar (18, s.114):

Milli xüsusiyyətlərin qorunması və inkişafı. Bu mədəni xüsusiyyətlər yapon mədəniyyət tarixini düzgün anlamaq üçün vacib mədəni göstəricilərlə səciyyələnir. Yaponiyada mədəni xüsusiyyətlərin qorunub saxlanmasına və gələcək nəsillərə çatdırılmasına böyük diqqət yetirilir.

Mədəni irsin qorunması haqqında qanuna əsasən, Yaponiya hökuməti mədəni xüsusiyyətləri aşağıdakı kateqoriyalara ayırır; Milli xəzinə; Vacib Mədəni xüsusiyyətlər; Tarixi İncəsənət yerləri; Təbii Monumentlər. Yapon dövləti milli mədəni irsin qorunub saxlanılması məqsədilə müxtəlif işlər görür – incəsənət əsərlərini bərpa edir, onları saxlıayır, tarixi əsərləri satın alır, arxeoloji qazıntıları təşkil edir.

Bu proseslərə insanlarda maraq oyatmaq üçün hökumət müxtəlif tədbirlər həyata keçirir. Məsələn, qoruma üsullarını

daha rəngarəng edir, xüsusi qeydiyyat sistemlərini tətbiq edir. Həmin tədbirlər Yaponiyanın mədəni keyfiyyətlərinə (teatr, musiqi və sənətkarlıq inciləri), xalq mədəniyyətinin xüsusiyyətlərinə və gələcəkdə mədəniyyət sahəsində peşəkarların hazırlanmasına diqqət yönəltməyə imkan verir.

Yaponiyanın milli muzeyləri kolleksiyalarını nümayiş etdirir, incəsənət sahəsində ən vacib tədqiqatlar aparır, muzeylər milli irsin qorunmasında iştirak edir. Milli teatr Kabuki, Noh və Bunraku kimi teatrlar ənənəvi Yapon mədəniyyətini təmsil edib, gələcək üçün peşəkar mütəxəssislər yetişdirir. Yeni Milli Opera Teatrı rəqs sənəti və teatr ifaçılığının müasir səviyyəsini təqdim edir, opera müğənniləri üçün xüsusi tədris proqramları hazırlayır.

Milli Mədəni Xüsusiyyətlərin Tədqiqat İnstitutu mədəniyyət xüsusiyyətlərinə dair tədqiqat işləri aparır, beynəlxalq mədəni əməkdaşlıq layihələrində iştirak edir. Milli Dilin Tədqiqi İnstitutu akademik tədqiqatlar aparır və "xalq həyat dilinə", yəni Yapon dilinə dair araşdırmalarla məşğul olur.

Yapon dövləti dövrün tələblərinə cavab verən və dilin istifadəsinə həsr olunan nəşrlərə diqqət yetirərək, onları öyrənir. Hökumət həm də "xalqın həyat dilinin" daha da təkmilləşdirilməsi üçün doğma dildə yazını öyrənir. Son illər ərzində Yapon dilinə maraq güclənib, bir çox əcnəbilər bu dili öyrənir, o cümlədən azərbaycanlılar da. Bununla əlaqədar hökumət Yapon dilinin öyrənilməsinə yardım siyasəti həyata keçirir.

İncəsənət sahəsinin dəstəklənməsi üçün dövlət tərəfindən elə şərait yaradılmalıdır ki, incəsənət adamları və incəsənət təşkilatları sərbəst yaradıcı fəaliyyətlə məşğul ola bilsinlər və xalqın hər bir nümayəndəsi mədəni fəaliyyətdə iştirak edə bilsin. Yaponiyanın mədəniyyət siyasəti elə qurulub ki, hökumət yaradıcı insanlara dəstək verir, mədəni imkanları zənginləşdirən hər növ fəaliyyətə yardım edir. Bundan əlavə Yaponiyada İncəsənət fondu var. Fond özəl sektor və milli

maddi yardımlar hesabına maliyyələşir və incəsənət sahəsinin inkişafına kömək edir.

Yaponiyada Müəlliflik Hüquqları Mərkəzinin yaradılması müxtəlif informasiya texnalogiyalarının inkişafının nəticəsi kimi meydana çıxan müəlliflik hüquqlarının və onların müdafiəsinin zəruriyyəti ilə bağlıdır. Müəlliflik hüquqlarının verilməsi üzrə ölkənin hər regionunda hər il yeni idarələr yaradılır. Yaponiya digər ölkələrdə, xüsusilə də Asiya ölkələrində müəlliflik hüququ sisteminin yaradılması zamanı müxtəlif layihələrdə iştirak edir. Yaponiya Ümumdünya İntellektual Mülkiyyət Təşkilatı elektron kommersiyanın və internetin inkişafı nəticəsində meydana çıxan müəllif hüququ barədə yeni qaydaların formalaşması haqqında beynəlxalq nəşrlərə məlumat verir (18, s.116).

Hal-hazırda Yaponiyada mədəni mübadilənin həyata keçirilməsi prosesinə Xarici İşlər Nazirliyinin Mədəniyyət Departamenti və Təhsil Nazirliyinin Elm və Beynəlxalq Əlaqələr Bürosu rəhbərlik edir. Yuxarıda göstərilən nazirliklərin və onlarla birləşən iki ictimai korparasiyanın (Yapon fondunun və Yaponiya Elmə Yardım Cəmiyyətinin) əsas funksiyaları tələbələr, müəllimlər və tərbiyəçilər daxil olmaqla təhsil mübadiləsinin, alimlər və tədqiqatçılar daxil olmaqla akademik mübadilənin, incəsənət xadımlərinin, incəsənət əsərlərinin və incəsənət üzrə vizual və ifacılıq proqramlarının sponsorluğu daxil olmaqla maddi xarakterli mədəni mübadilənin YUNESKO ilə, Cənub-Şərqi Aciya ölkələrinin Təhsil Nazirlikləri və digər beynəlxalq mədəniyyət təşkilatları ilə koperasiya çərçivəsində çoxtərəfli mədəni mübadilənin təmin edilməsindən ibarətdir. Yaponiyada mədəni mübadilənin həyata keçirilməsində Beynəlxalq Yaponiya Evi, Yapon Beynəlxalq Mübadilə Assosiasiyası, Hoso Bunka Fondu, Yoida Beynəlxalq Təşkilat Fondu və digər 500-dən artıq özəl təşkilatlar və fondlar iştirak edir.

Yaponiyada mədəniyyət siyasəti və beynəlxalq mədəni mübadilə Meydzi restovrasiyasından başlayaraq artıq 150 il mövcuddur. Bu illər ərzində Yaponiyanın mədəniyyəti xeyli inkişaf etmişdir. Yapon mədəniyyət siyasətinin modeli və ölkənin bu sahədə əldə etdiyi təcrübə başqa ölkələr, o cümlədən Azərbaycan üçün faydalı və gərəkli ola bilər.

Qabaqcıl dünya ölkələrində dövlətin yeritdiyi düzgün, mütərəqqi mədəniyyət siyasətinin nəticəsi sosial inkişaf və ümumi rifah yüksəlir, mənəvi dəyərlərin qorunub saxlanılması və həyat səviyyəsinin artması təmin olunur. 1997-ci ildə 174 ölkənin iştirakı ilə insan potensialının inkişaf indeksi üzrə aparılan tədqiqatda Kanada birinci, ondan sonra sırailə Norveç, ABŞ, Yaponiya və Belçika yer tutub (100,s.181). Əlbəttə bu göstəricilər, həmçinin bu ölkələrdə həyta keçirilən proqressiv mədəniyyət siyasətinin nəticəsidir.

Mədəniyyət siyasəti hər bir dövlətdə insan potensialının yüksəlişinə, elmi və intellektual qüvvələrin inkişafına və ən əsas "ruhi istehsalın" güclənməsinə səbəb olmalıdır. Dünyanın qabaqcıl ölkələrinin mədəniyyət sahəsindəki nailiyyətlərinə və ümuni yaşayış səviyyəsinə baxdıqda, demokratik dövlətlərdə mədəniyyət siyasətinin düzgünn qurulmasını iddia etmək olar. Eyni zamanda, mədəniyyət siyasəti reallaşanda meydana çıxan bəzi çatışmazlıqlar bu ölkələrin həyata keçirtdiyi mədəniyyət siyasətinin o qədər də ideal olmadığını göstərir. Bütün mədəniyyət siyasətləri modellərinin müsbət və mənfi cəhətlərini düzgün qiymətləndirmək ölkəmiz üçün çox vacibdir. Bu ölkələrin təcrübəsindən istifadə edərək, milli-mədəni xüsusiyyətlərimizi nəzərə alaraq, Azərbaycanda mütərəqqi, dünya standartlarına cavab verən mədəniyyət siyasətini formalaşdırmaq çox əhəmiyyətlidir.

Ölkəmizdə müstəqil dövlətin və azad cəmiyyətin formalaşması prosesi ictimai həyatın bütün sahələrində – hüquqda, iqtisadiyyatda, təhsildə, mədəniyyətdə baş verən köklü dəyişikliklərlə bərabər ğedir. Bu islahatları davam

etdirmək üçün sabit siyasi şərait, sosial sahənin inkişafı üçün dövlət tərəfindən əlavə maliyyələşdirmə, müvafiq qanunvericilik sisteminin yaradılması, qeyri-hökumət və xarici təşkilatların köməyi lazımdır. Azərbaycanda mədəniyyət siyasətinin inkişafının hazırki vəziyyəti və gələcək perespektivləri bu dəyişikliklərin mahiyyətindən, onun həyata keçirilmə mexanizmindən asılıdır.

Başqa ölkələrdə olduğu kimi bizim ölkədə də mədəniyyət siyasətinin inkişafina, onun cəmiyyətdə yeni rolunun formalaşmasına ehtiyac duyulur. Xususən ona görə ki, Azərbaycan üçün mədəniyyət siyasəti anlayışı digər qabaqcıl dövlətlərlə müqayisədə yenidir. Bu gün islahatlar cəmiyyətin özünün həvəsini və istəyini göstərir. İnsanlar getdikcə mədəniyyətin təkcə mənəvi deyil, həm də tərəqqi üçün çox önəmli olduğu-nu, onun beynəlxalq münasibətlərin qurulmasında, millətlərarası münaqişələrin qarşısının alınmasında və qlobal problemlərin həll edilməsindəki rolunun zəruriliyini başa düşürlər.

## Mədəniyyət siyasətinin tənzimlənməsində yerli və beynəlxalq təşkilatların rolu

Azərbaycan müstəqiliyini bərpa etdikdən sonra beynəlxalq mədəni əlaqələr yeni xarici siyasətin başlıca amillərindən birinə çevrildi. Bu siyasətin əsas məqsədləri xarici ölkələrlə qarşılıqlı anlaşma və qarşılıqlı inam münasibətlərini möhkəmləndirməkdən, onlarla bərabərhüquqlu və qarşılıqlı faydalı olan tərəfdaşlığı inkişaf etdirməkdən, ölkəmizin dünyada obyektiv şəkildə tanınmasını təmin etməkdən ibarət olmuşdur. Bir çox mədəniyyət sahələrində baş verən demokratikləşmə prosesləri beynəlxalq münasibətlərdə də öz əksini tapmışdır.

Bu gün Azərbaycan Respublikası 30-dan artıq beynəlxalq və regional təşkilatın üzvüdür. ATƏT (1992-ci ilin yanvar ayından), BMT (Birləşmiş Millətlər Təşkilatı – 1992-ci ilin mart ayından), İƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı – 1992-ci ildən, Avropa Bərpa və İnkişaf Bankı (1992-ci ildın), Dünya Bankı (1992-ci ildən), Ümumdünya Səhiyyə Təşkilatı (1992-ci ilin oktyabr ayından), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (1992-ci ildən), MDB (Müstəqil Dövlətlər Birliyi – 1993-cü ilin sentyabr ayından), YUNİSEF (1993-cü ildən), İNTERPOL (1993-cü ildən), Beynəlxalq Olimpiya Komitəsi (1993-cü ildən), Beynəlxalq Qırmızı Xaçvə Qırmızıı Aypara Federasiyası (1993-cü ildən), GÖUAM (1997-ci ildən), Avropa Şurası (2001-ci il yanvarın 25-i) və başqa bu kimi təşkilatların adını çəkib misal gətirmək olar.

2002-ci ilin iyulunda GÖUAM-a üzv olan ölkələrin mədəniyyət nazirləri bu ölkələrin mədəni əməkdaşlığı haqında müqavilə imzalayıblar.

Azərbaycanın mədəniyyət siyasətinin qiymətləndirilməsinə Avropa Şurasına üzv olan kimi, o vaxtkı Mədəniyət Nazirliyinin sorğusundan sonra başlanılmışdır. Bu proses Avropa Şurasının Mədəniyyət Siyasəti və Fəaliyyəti Departamentinin təşəbbüsü ilə üç Qafqaz ölkəsi – Azərbaycan, Ermənistan və

Gürcüstan üçün hazırlanan STEYC layihəsinin tərkib hissəsidir. Avropa Şurası ilə mədəni əlaqələr beynəlxalq əlaqələrin ümumi həcmində əsas yerlərdən birini tutur. Azərbaycanın bu təşkilata 2001-ci ilin yanvar ayının 25-dən üzv olmasına baxmayaraq, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi Avropa Şurasının Mədəniyyət Komitəsi ilə fəal əməkdaşlığa hələ 1999-cu ildən, ölkə mədəniyyət sahəsində Avropa Konvensiyasını imzaladıqdan (1997-ci il) dərhal sonra başlamışdır. 2000-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi "Avropada mədəniyyət siyasəti: əsas fakt və tendensiyaların kompendiumu" layihəsində iştirak etmişdir. 2001-ci ildən isə ölkəmiz Avropa Şurasının Mədəniyyət Saiyasəti departamenti tərəfindən irəli sürülən regional "STEYC" layihəsinin iştirakçısıdır. Üç ilə hesablanan bu layihənin əsas məqsədi Cənubi Qafqaz ölkələrində yeni mədəniyyət siyasətini dəstəkləməkdir. Layihənin əsas mərhələlərindən biri yerli ekspertlərin öz avropalı həmkarları ilə birlikdə Azərbaycan Respublikasının "Mədəniyyət siyasəti haqqında milli məruzəni" yazıb hazırlamaqdır. Layihə şçərçivəsində mədəniyyət məsələləri üzrə Milli debatlar, kadr hazırlığı, və s. nəzərdə tutulmuşdur. Azərbaycan həmçinin "Mədəniyyət və münaqişələrin qabaqcadan öyrənilməsi" layihəsində iştiraka böyük önəm verir.

Bundan əlavə Azərbaycan Respublikası 1996-cı ildə Avropa Birliyi ilə tərəfdaşlıq və əməkdaşlıq sahələrində müqavilə imzalamışdır və 1994-cü ildən etibarən NATO-nun "sülh naminə tərəfdaşlıq proqramında iştirak edir.

Azərbaycan beynəlxalq münasibətlər sistemində normativ fəaliyyətin işlənib hazırlanmasına xüsusi diqqət yetirir. Belə ki, son on il ərzində Azərbaycan ölkələr arasında tammiqyaslı və təhlükəsiz mədəni mübadilə üçün böyük əhəmiyyət kəsb edən və yerinə yetirilməsi yalnız müasir beynəlxalq hüquq

normalarına riayət etməklə mümkün olan bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur:

– İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (1966-cı ilin dekabr ayının 19-da qəbul olunub) 1992-ci ilin iyul ayının 21-də Azərbaycan Respublikası ona qoşulmuşdur.

– Silahlı münaqişələr zamanı ümumdünya mədəni irsin irsin qorunması haqqında YUNESKO Konvensiyası və Protokolu (1954-cü ilin may ayının 14-də qəbul olunub) 1993-cü ilin aprel ayının 21-də Azərbaycan Respublikası ona qoşulmuşdur.

– Ümumdünya mədəni v təbii irsin qorunması haqqında YUNESKO Konvensiyası (1972-ci ilin noyabr ayının 16-da qəbul olunub) 1993-cü ilin dekabr ayının 6-da Azərbaycan Respublikası ona qoşulmuşdur.

– Mədəniyyət haqqında Avropa Konvensiyası (1954-cü ilin dekabr ayının 19-da qəbul olunub) 1997-ci ildə Azərbaycan Respublikası ona qoşulmuşdur.

– Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası (1992-ci ilin yanvar ayının 16-da qəbul olunub) 1999-cu ilin oktyabr ayının 20-də Azərbaycan Respublikası ona qoşulmuşdur.

– Mədəni dəyərlərin qeyri-qanuni gətirilməsi, aparılması və mülkiyyət hüququnun dəyişdirilməsinin qadağan edilməsinə və abaqcadan ödənilməsinə yönəldilən tədbirlər haqqında Konvensiya (1970-ci ildə qəbul olunub) 1997-ci ilin sentyabr ayının 30-da Azərbaycan Respublikası ona qoşulmuşdur.

– Birgə Kino haqqında Avropa Konvensiyası (1992-ci ilin oktyabr ayının 2-də qəbul olunub) 1999-cu ilin oktyabr ayının 28-də Azərbaycan Respublikası ona qoşulmuşdur.

Azərbaycan mədəniyyət sahəsində, yəni xarici mədəniyyət siyasəti istiqamətində, xüsusilə qeyd etmək lazımdır ki, YUNESKO (Birləşmiş Millətlərin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə təşkilatı), TÜRKSOY (Türk Mədəniyyət və

Sənətləri Ortaq Yönətimi), İSESKO (Təhsil, elm, mədəniyyət məsələləri üzrə islam təşkilatı – Azərbaycan Respublikası 1992-ci ildən başlayaraq bu təşkilat ilə sıx əməkdaşlıq edir) və digər bu kimi nüfuzlu beynəlxalq təşkilatlarla habelə bu beynəlxalq təşkilatların müvafiq qurumları ilə uğurlu sıx əməkdaşlığı həyata keçirir. Azərbaycanda yeni mütərəqqi mədəniyyət siyasətinin formalaşması üçün bu beynəlxalq təşkilatların fəaliyyət təcrübələri qiymətli mənbədir.

Yaxşı məlumdur ki, bir neçə il bundan əvvəl Qız Qalası (XII əsr) və Şirvanşahlar sarayı ilə birgə 2000-ci ildə "İçəri şəhər" tarix memarlıq kompleksi, Suraxanıda "Atəşgah" məbədi (XVIII əsr), Naxçıvanda Möminə Xatun (1186-cı ildə inşa edilib) və Qarabağlar türbəsi (XII əsrin sonu XIII əsrin əvvəlləri), Qobustan və s. tarix və memarlıq abidələri YUNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilmişdir ki, bu siyahıda da cəmi 690 obyekt vardır. 2002-ci ilin payızında həmin təşkilatın xüsusi komissiyası Bakıya səfər edərək, qoruğun vəziyyəti ilə tanış olub və hesabat hazırlayıb. 2003-cü ilin iyul ayında həmin hesabat əsasında İçərişəhər təhlükədə olan abidələr sırasına daxil edilib.

Mədəni irsin qorunub saxlanması sahəsində bir çox ölkələrin iş təcrübəsi öyrənilir. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində çalışan Azərbaycan mütəxəssisləri ardıcıl olaraq YUNESKO, İKOMOS, İKKROM və digər beynəlxalq təşkilatların keçirdiyi konfrans və sessiyalarda iştirak edirlər.

BMT çərçivəsində təhsil elm və mnədəniyyət məsələləri üzrə YUNESKO (1992-ci ilin iyun ayının 3-dən Azərbaycan YUNESKO-nun tamhüquqlu üzvü oldu) təşkilatının Baş Konfransının 29-cu sessiyasının 59 saylı qətnaməsinə uyğun olaraq "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər 1997-ci ildən başlayaraq bir sıra ölkələrdə (doğma Azərbaycan, Fransa, Almaniya, Türkiyə, Türkmənstan, Rusiyada və b.) türkdilli dövlət başçılarının,

dünya qorqudşünaslarının, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətinin iştirakı ilə təntənəli surətdə qeyd edilmişdir.

Bundan əlavə YUNESKO-nun xəti ilə xalqımızzın dahi mütəfəkkiri və şairi Məhəmməd Füzulinin (1494-1556) (Azərbaycan, İran, İraq, Türkiyə 1994-cü ilin noyabr ayının 1-2-si, Rusiya və Fransada) 500 illik və görkəmli bəstəkarı Qara Qarayevin (1918-1982) 80 illik yubileyləri böyük təntənə ilə qeyd edilmişdir. Türkiyədə yüksək səviyyədə keçirilən "Füzuli 500" poeziya günləri Azərbaycan-Türkiyə mədəni əlaqələrinin daha da genişləndirilməsinə imkan yaratdı.

2001-ci ilin oktyabr ayının 4-də isə YUNESKO-nun iştirak proqramına uyğun olaraq dahi Azərbaycan alimi Nəsrəddin Tusinin (1201-1274) 800 illik yubileyi qeyd edilmiş və bu məqsədlə Şamaxı Astrofizika rəsədxanasında beynəlxalq elmi konfrans keçirilmişdir. Bundan başqa onun məşhur "Təhriri-Öqlidis" ("Evklidin şərhi") əsəri kitab şəklində dərc edilmişdir. 15 oktyabr-3 noyabr 2001-ci il tarixində keçirilmiş YUNESKO baş Konfransının 31-ci sessiyasızamanı azərbaycanlı alim, məşhur şərqşünas Mirzə Məhəmmədəli Kazımbəyin (1802-1870) 200 illik yubileyinin qeyd edilməsi YUNESKO-nun 2002-2003-cü illər üzrə dahii şəxsiyyətlərin yubileylərinin qeyd edilməsi siyahısına daxil edilmişdir. Ötən ildə Parisdə YUNESKO-nun salonlarının birində dünya şöhrəti qazanmış sənət əsərlərindən olan "Əcəmi" xalçasının və s. nümayişii doğma Azərbaycanımızın dünya xalçaçılığı və xalçaşünaslığının əsl mərkəzi kimi tanınmasına imkan yaratdı (6, s.54).

2002-2003-cü illər ərzində YUNESKO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" proqramı çərçivəsində geniş fəaliyyət aparılmışdır. Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Siyasəti Şöbəsi Milli Elmlər Akademiyası və YUNESKO üzrə Azərbaycan Milli Komissiyası ilə birgə Azərbaycan muğamının qorunmasına və inkişafına istiqamətləndirilmiş Fəaliyyət Proqramı tərtib

edilmişdir. 2002-ci ilin əvvəllərində Azərbaycan muğamı Ümumdünya Şah Əsərləri Siyahısına daxil edilmək üçün YUNESKO katibliyinə təqdim edilmişdir. Belə gərgin və məqsədyönlü fəaliyyətin nəticəsində 2003-cü ilin noyabr ayının 7-də Azərbaycan muğamı YUNESKO-nun "Bəşəriyyətin və qeyri-maddi irsin şah əsərləri" siyahısına daxil edilmişdir. Bu fakt mədəniyyətimizin böyük qələbəsi kimi qeyd olunmalıdır.

YUNESKO-nun Baş Konfransının 30-cu sessiyasının qərarına əsasən 21 fevral "Beynəlxalq Ana Dili Günü" 2000-ci ildən YUNESKO çərçivəsində qeyd edilməyə başlamışdır. 2000, 2001, 2002-ci illərdə bu əlamətdar hadisə ilə əlaqədar, Milli Komissiyanın müraciətinə uyğun olaraq, Respublikanın Təhsil, Mədəniyyət və Turizm Nazirlikləri və digər müvafiq idarə və Təşkilatları bir sıra tədbirlər həyata keçirmişlər.

YUNESKO çoxtərəfli beynəlxalq təşkilat olduğu üçün bu təşkilat vasitəsilə müxtəlif ölkələrin qarşılıqlı əməkdaşlığına şərait yaranır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası təhsil, elm və mədəniyyət sahələrində müxtəlif ölkələr ilə YUNESKO vasitəsilə və birbaşa onun özü ilə güniş təcrübə mübadiləsi apara bilmişdir.

Beləliklə, əgər Avropa Şurasında 45 ölkə təmsil olunmuşdursa, Azərbaycan YUNESKO ilə bütün dünya ilə mədəni inteqrasiya imkanları əldə etdi.

Mədəniyyətimizin inkişafında və dost-qardaş ölkə Türkiyə və digər türkdilli dövlətlərlə mədəni əlaqələrin genişləndirilməsində TYRKSOY təşkilatı daxili və xarici siyasət kursundan, dövlət quruluşlarının siyasi oriyentasiyasından asılı olmayaraq, türkdilli dövlətlərin mədəniyyət sahəsində regional əməkdaşlığını həyata keçirir. Türk Mədəniyyət və İncəsənətinin Birgə İnkişafı Üzrə Beynəlxalq təşkilat (TÜRKSOY) 1992-ci ildə Azərbaycan Respublikası, Qazaxstan, Türkiyə, Özbəkstan, və Türkmənstan respublikası Mədəniyyət Nazirlərinin İstambul və Bakı şəhərlərində keçirilən görüşləri, toplantısı zamanı əldə olunmuş razılıq

əsasında yaradılmışdır. TÜRKSOY-un fəaliyyət mərkəzi kimi Türkiyənin paytaxtı Ankara şəhəri seçilmişdir. Bir müddət keçdikdən sonra Başqırdstan və Tatarstan Respublikalarının mədəniyyət nazirlikləri də bu təşkilatın mədəni işbirliyinə qoşulmuşlar. "TÜRKSOY-un yaradıəlması və onun fəaliyyət prinsipləri haqqında müqavilə" bu ölkələr tərəfindən 1993-cü ilin iyul ayının 12-də Qazaxstan Respublikasının keçmiş paytaxtı Alma-Ata şəhərində imzalanmışdır.

TÜRKSOY təşkilatı Türkdilli Dövlət Birliyinin ən əsas özəklərindən biridir. TÜRKSOY-un xətti ilə türkdilli ölkələrdə Azərbaycanın zəngin mədəniyyətini nümayiş etdirmək üçün Azərbaycan Mədəniyyəti Günləri keçirilir. Onu qeyd edək ki, TÜRKSOY təşkilatını türkdilli ölkələrin YUNESKO-su adlandırırlar. TÜRKSOY nadir təşkilatdır. O, türk mədəniyyəti və dininin daşıyıcısı olan ölkələrin və xalqların birləşməsi prinspi əsasında bu ölkələrin dövlət strukturlarının siyasi mövqeyindən, daxili və xarici siyasətindən asılı olmayaraq mədəniyyət və incəsənətlər sahəsində əməkdaşlığı həyata keçirir.

Beynəlxalq aləmdə bu təşkilatın tanınmasının göstəricilərindən biri 1996-cı ilin iyun ayının 8-də Türkiyənin İstambul şəhərində TÜRKSOY və YUNESKO arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilənin bağlanmasıdır ki, həmin sənəddə mədəniyyət və incəsənət, təhsil və elm sahələrində onların fəaliyyətinin əlaqələndirilməsini nəzərdə tutur. Bu da türkdilli ölkələrin və xalqların tarixi və mədəni irsinin saxlanması və zənginləşməsi, onların intellektual və mənəvi sərvətlərinin artırılması, insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir.

Türkiyə Cümhuriyyəti ilə mədəni əlaqələrin genişlənməsində Atatürk mərkəzinin də böyük rolu var. Belə ki, Azərbaycanda Atatürk mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 9 mart 2001-ci il tarixi sərəncamı verilmişdir. Burada deyilir: "Türk dünyasınınn böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti

Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə qərara alıram: 1) Azərbaycanda Atatürk Mərkəzi yaradılsın; 2) Müəyyən edilsin ki, Azərbaycan Respublikasının prezidenti Atatürk Mərkəzinin sədridir; 3) Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbərinə tapşırılsın ki, Atatürk Mərkəzinin statusu, strukturu və ştat vahidlərini müəyyən etməklə onun Nizamnaməsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; 4) Dövlət Əmlak Nazirliyi Bakı Şəhər İcra hakimiyyəti ilə birlikdə Atatürk Mərkəzi üçün bina ayırılması məsələsini bir ay müddətində həll etsin; 5) Azərbaycan Respublikasının Nazirlər Kabineti bi sərəncamdan irəli gələn digər məsələləri həll etsin. (139; 143; 1444; ).

Beləliklə, 2003-cü ilin aprel ayının 10-da memarlıq baxımından olduqca gözəl bir binada tarixi hadisə – Azərbaycanda Atatürkün evinin (Atatürk Mərkəzinin) təntənəli açılış mərasimi keçirilmişdir. Mərkəzin əsas məqsədi Atatürk irsinin, tarixi xidmətlərinin dərindən öyrənilməsi, araşdırılması, təbliğ olunması və bu biliklərin yeni nəslə çatdırılmasıdır.

Təşkilatın fəaliyyət dairəsinə türkdilli ölkələr arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsi, türkdilli ölkələrin ümumi mənəvi dəyərlərinin, tarixi irsinin, mədəniyyət və incəsənət əsərlərinin, ənənəvi idman və xalq oyunları növlərinin inkişafı və təbliği, opera və balet sənəti sahəsində festival müsabiqələrin təşkili, sərgilərin, vernisajların, və türkdilli ölkələrin təsviri və plastik sənətinin inkişafına yönəldilən digər tədbirlərin təşkili, mədəniyyət, incəsənət, təhsil sahələrində beynəlxalq və milli təşkilatlarla, ictimai strukturlar və hərəkatlarla qarşılıqlı əlaqə yaradılması və s. daxildir.

## Mədəni dünyanın "Mədəniyyət siyasəti" anlayışı və YUNESKO və Avropa Şurası qərarlarının ümumi çərçivəsi

YUNESKO qərarlarının ümumi çərçivə sənədlərinə dair mənbələrdən öyrənirik ki, 2 aprel 1998-ci ildə Stokholmda keçirilən YUNESKO-nun toplantısında, üzv ölkələr tərəfindən hazırlanan və 7 aprel 1998-ci il tarixində təsdiq edilən "İnkişaf üçün mədəniyyət siyasətləri fəaliyyət planı" sənədində və 6 avqust 1998-ci ildə Mexikoda keçirilən "Mədəniyyət siyasətləri dünya konfransı"nda qəbul edilən son bəyanatında deyilir ki, mədəniyyət sadəcə sənət və ədəbiyyat sahələrini deyil, eyni zamanda "həyat tərzlərini, təməl insan haqq və özgürlüklərini, dəyər sistemlərini, ənənələri və inancları da əhatə edir".

YUNESKO-nun bəyanatına diqqətlə baxıldığında, mədəni fərqliliklərin, demokratik bir mühit içində təməl insan haqq və özgürlükləri çərçivəsində, birlikdə və sülh şəraitində yaşaması və milli inkişafda bu harmoniya içindəki fərqliliyin səfərbər edilə bilməsi idealına söykəndiyini görməkdəyik.

Çox təbii olaraq burada iki problem ortaya çıxmaqdadır: Birinci problem həm milli hüdudlar daxilindəki mədəni fərqlililərin qorunması və həm də milli bütünlüyün mühafizə edilməsi problemidir. İkinci problem, milli mədəniyyətlərin, qloballaşma qarşısında qorunaraq inkişaf etdirilirkən, fərqli milli mədəniyyətlərin dünyəvi-bəşəri bir mühit içərisində beynəlxalq arenada birlikdə yaşamalarının və irəliyə doğru inkişaflarının təmin edilməsidir.

Hər iki problem də eyni çətinliyi əks etdirməkdədir: "Fərqlilik içərisində harmoniya, ya da harmoniya içərisində fərqlilik". Heç şübhəsiz, belə bir "paradoksal paradiqma" ancaq həqiqi bir "demokratiya mədəniyyəti" içərisində həyata keçirilə bilər. Halbuki keçmiş Sovetlər Birliyi və xüsusilə, keçmiş Yuqoslaviya örnəkləri, fərqliliklərin milli hüdudlar daxilində ahəngdar qorunmasının çətinliyini göstərməkdə, qloballaşmanın milli mədəniyyətləri yoxedici təsirləri isə, eyni

problemin, yəni fərqli mədəniyyətlərin harmoniya içində yaşamasının, beynəlxalq platformada təmin edilməsinin nə qədər çətin bir ideal olduğuna işarə etməkdədir.

Mövzuya tarixi aspektdən baxıldıqda öyrənirik ki, Madrid müqaviləsinin qüvvəyə minməsilə birlikdə mədəniyyət mövzusu, cəmiyyət səviyyəsində daha ciddi şəkildə araşdırılmağa başlanmışdır. Madrid Müqaviləsilə Roma Müqaviləsinə əlavə edilən 128-ci maddə, cəmiyyətin üzv ölkələr arasında mədəni əməkdaşlığını dəstəkləməkdə, bundan başqa Avropa xalqlarının mədəniyyət və tarixlərini tanıtmağı hədəflədiyini də müəyyənləşdirməkdədir. Bununla yanaşı, Avropa mədəni mirasının qorunmasının, ticari olmayan mədəni alış-veriş və artistik, ədəbi və təsviri sənət əsərləri yaradılmasının; başda Avropa Şurası olmaqla mötəbər beynəlxalq təşkilatlar və üçüncü ölkələrlə əməkdaşlığının hədəfləndiyi də Müqavilədə bildirilməkdədir. Bu sahələrdəki fəaliyyətlər, Şura tərəfindən, ortaq qərar üsuluna görə və Bölgələr Komitəsinə danışıldıqdan sonra qəbul edilir. Bundan başqa Şura, Komissiyanın verdiyi tövsiyələri də yekdilliklə qəbul edir (118).

XX yüzilin 90-cı illərindən bəri mədəniyyət sahəsində cəmiyyət səviyyəsində müxtəlif proqramlar həyata keçirilməkdədir. “Kaleidoscope” (Avropada mədəni fəaliyyətlər və artistik yaradıcılığın dəstəklənməsi), “Ariane” (kitablar və oxuma) və “Raphael” (mədəni mirasın qorunması və inkişaf etdirilməsi) bu proqramlar arasındadır. Bununla yanaşı Avropa cəmiyyəti, 1985-ci ildən bəri üzv ölkələr tərəfindən təşkil edilən “Avropa Mədəniyyət Şəhəri” təşəbbüsünü də dəstəkləməkdədir. Cəmiyyətin irəli sürdüyü təşəbbüslərin bütünlüyünü təmin etmək məqsədilə 14 fevral 2000-ci il tarixində 2000–2004-cü illəri əhatə edən “Culture 2000” başlıqlı bir çərçivə proqramı qəbul edilmişdir. Buna paralel olaraq cəmiyyətin iqtisadi və sosial siyasətləri çərçivəsində fərqli fəaliyyətlər də (sənət adamlarına dəstək

olunması, Avropa mədəni sənayesinin inkişafı və s.) göstərilməkdədir (144).

Hazirda 186 ölkə katibliyi Parisdə yerləşən YUNESKO-nun üzvüdür. BMT-nin təhsil, elm və mədəniyyət məsələri üzrə fəaliyyəti son dərəcə müxtəlifdir. Onun fəaliyyətinə savadsızlığın ləğv edilməsindən başlayaraq, ali məktəblərdə hər bir ölkəyə çox gərəkli olan yüksək ixtisaslı mütəxəssis kadrlarının hazırlanmasına qədər bütün təhsil formaları daxildir. Bundan əlavə insanların mənəvi həyat xəzinəsi olan mədəniyyətlərin və mədəni proseslərin, ümumbəşəri sivilizasiya dəyərlərinin dirçəlişi və çoxaldılması, dünya xalqlarının həyat təcrübəsinin və dəyərlərinin rəngarəngliyi, kütləvi informasiya vasitələrindən istifadə olunması və onların inkişaf etdirilməsi yolu ilə cəmiyyətinn sərvətinə çevrilən yeni biliklər, ideyalar, eksperimentlər və uğurlar barədə ihformasiya mənbələri də buraya daxildir.

YUNESKO-nun proqram sənədlərinin başlıca məqsədi müasir dünya problemlərinin öyrənilməsinə yardım etmək və bu elmi təməl üzərində beynəlxalq birliyin qlobal xarakterli problemlərin aradan qaldırılmasında səylərin birləşdirilməsi, bütün xalqların mənafeyi naminə elmi-texniki potensialın genişləndirilməsi əsasında inkişafın və tərəqqinin təmin olunması, insanların ictimai və beynəlxalq həyatda daha geniş və bərabər hüquqlu iştirakına tələbatın dərk olunması üçün şəraitin yaradılması, xalqlar arasında əsl qarşılıqlı anlaşmanın bərqərar edilməsi, onların hüquqlarına və insan hüquqlarına hörmət olunması, bütün xalqların gələcəyinin ümumiliyinin və sülh işini hər vasitə ilə möhkəmləndirməyi zəruriliyinin dərk edilməsi üçün əlverişli mühitin yaradılmasına yardım göstərməkdən ibarətdir. YUNESKO-nun fəaliyyətində aşağıdakılar nəzərdə tutulur:

I. Təşkilat ilk növbədə YUNESKO-nun nizamnamə vəzifəsindən – "ədalətə, qanunçuluğa və insan hüquqlarına hamılıqla hörmətin təmin edilməsi naminə xalqın təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və

təhlükəsizliyin möhkəmləndirilməsinə yardım etmək" – çıxış edərək əsas fəaliyyət istiqamətləri və formaları sırasında bu məqsədlə beynəlxalq sazişlər bağlamağı tövsiyyə edir.

II. Beynəlxalq aktların işlənib hazırlanması və daxil edilməsi, prosesində onların üç kateqoriyası ayırd edilir:

– YUNESKO-nun Baş konfransının qəbul etdiyi konvensiya və tövsiyyələr.

– Baş konsulun qəbul etdiyi digər sənədlər: bəyənnamələr, nizamnamələr, qətnamələr, qaydalar, prosedurlar.

– Dövlətlərin YUNESKO-nun təklikdə və ya digər beynəlxalq təşkilatlarla birgə çağırdığı konfranslarının qəbul etdiyi sənədlər.

III. Daha sonra buna müvafiq olaraq YUNESKO-nun işləyib hazırladığı beynəlxalq aktların hüquqi səviyyəsi müəyyən edilir.

Beynəlxalq səviyyədə normativ fəaliyyət YUNESKO-nun konkret işinin həyata keçirilməsi formalarından birudir. YUNESKO-ya məxsus əsas konkret fəaliyyət formaları: hökumət və ya yüksək səlahiyyətli ekspertlər səviyyəsində nümayəndəli forumların-konfransların, simpoziumların və müşavirələrin keçirilməsi, araşdırılan məsələlər üzrə ən yeni nailiyyətlərin toplandığı beynəlxalq elmi tədqiqatların təşkili: nəşriyyat və papulyarlaşdırma fəaliyyəti, ölkələrə və regionlara intellektual və humanitar xarakterli operativ elmi-texniki yardım göstərilməsi ilə bir sırada durur.

Bütün bu kompleks fəaliyyət sahəsində YUNESKO-nun adına BMT sistemində "ideyalar labaratoriyası", onların günüratoru, bütün beynəlxalq birliyin və hər bir dövlətin istifadə etməsi üçün qabaqcıl təcrübənin toplayıcısı kimi nadir bir rol təsbit olunmuşdur. Təşkilatın səlahiyyət sahələrini geniş əhatə edən müxtəlif hüquqi səviyyəli beynəlxalq-hüquqi normativ aktların işlənib hazırlanması onun konkret işinin əsas formalarının ümumi sırasında duraraq, insan zəkası və etikası sahəsində fəaliyyətinin nizamnamə məqsəd və vəzifələri ilə,

dövlətlərin daxili tələbatları, dövlətlərarası əlaqələr və beynəlxalq birlik həyatının tendensiyaları ilə üzvi surətdə birləşmişdir. YUNESKO-dakı normayaratma məhz belə beynəlxalq xarakterli "labaratoriya" prosesidir.

1948-ci ilə aid ilk aktdan 1992-ci ilə qədər baxılmış son aktlaradək YUNESKO-nun himayəsi ilə beynəlxalq nizamlanmaya dair 68 sənəd – konvensiyalar və sazişlər, onlara dair protokollar, tövsiyyələr, bəyənnamələr, hazırlanmış, müzakirə və qəbul edilmişdir. Təşkilatın himayəsi ilə işlənib hazırlanmış və qəbul edilmiş beynəlxalq nizamlama aktlarında onun səlahiyyətində olan aşağıdaki məsələlər əhatə olunmuşdur:

Təhsil sistemində qəbul edilmiş aktlarda ayrı-seçkilik əleyhinə seçki və praktikanın, sülh, beynəlxalq qarşılıqlı anlaşma, insan hüquqlarına hörmət ruhunda tərbiyənin əsasları qeyd edilir. Müəllimlərin peşə və sosial müdafiəsi prinsiplərinə dair tövsiyyələr verilmiş, bədən tərbiyəsi və idman məsələləri üzrə konsepsiyalar elan edilmişdir. Dünyanın bütün regionları həmin regionlarda tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin müəyyən ekvivalentliliyinin bərqərar edilməsi üçün prinspial əsasların tanınması haqqında sazişə gəlmişlər.

Təbiət elmləri və sosial elmlər sahəsində beynəlxalq aktlar elmi-tədqiqat işçilərinin statusuna, irqə və irqi xurafata münasibətə, təbiəti mühafizə tədbirlərinin bəzi məsələlərinə, habelə beynəlxalq əhəmiyyətli sosial aspektlər nəzərə alınmaqla, urbanizasiya sahəsində konkurslar keçirilməsinə aiddir.

Mədəniyyət sahəsində mövzu dairəsi xüsusilə genişdir. Buraya ilk növbədə qlobal xarakterli aktlar – ümumdünya mədəni və təbii irsin mühafizəsi və silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında aktlar; beynəlxalq mədəni əməkdaşlıq prinsplərini, xalq kütlələrinin mədəni həyata töhfə verilməsində rolunu, yaradıcı işçilərin vəziyyətini müəyyənləşdirən ən mühüm məsələlərə dair aktlar; tarixi ansamblların qorunub saxlanması və mühafizəsi, daşınar

mədəni dəyərlərin, hərəkət edən təsvirlərin problemlərinə dair nizamlama; təhsil, elm və mədəniyyət xarakterli materialların mübadiləsi, mədəni dəyərlərin beynəlxalq mübadiləsi qaydaları və onların qanunsuz olaraq ölkəyə gətirilməsinin, çıxarılmasının və mülkiyyət hüququnun başqasına verilməsinin qarşısını almağa dair tədbirlər; kütləvi informasiya vasitələrinə (istər onların sülh və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsi, istərsə də peyklər vasitəsilə verilişlərin mədəni mübadilə məqsədilə istifadə edilməsi baxımından) aid əsas prinsplər haqqında sənədlər; muzeylərin hamı üçün açıq olması, arxeoloji qazıntıların aparılması, hər hansı bir iş yerinə yetirilərkən mədəni dəyərlərin qorunub saxlanması məsələlərinə dair meyarların ehtiva olunduğu tövsiyyələr daxildir.

Kitab və rəsmi sənəd nəşrləri ilə beynəlxalq mübadilə məsələlərinin müəlliflik hüququ və ona yaxın olan bəzi hüquqların qorunması və nəhayət, təhsil, elm, mədəniyyət və informasiyanın bir sıra sahələrində statistikanın standartlaşdırılmasının həyata keçirilməsi məsələlərinin tənzimləndiyi digər sahələrə dair aktlar da var.

Adı çəkilən beynəlxalq aktlardan savayı, təşkilatın onun nizamnaməsi əsasında rəhbər və icraedici xarakterli müvafiq strukturların iş qaydasını, digər beynəlxalq təşkilatlarla və üzv-dövlətlərin YUNESKO işləri üzrə milli komissiyaları ilə və i. a. əlaqələri tənzimləyən qüvvədə olan çoxsaylı normativ sənədləri var.

Azərbaycan Respublikası istiqlaliyyət əldə etdikdən sonra (1992-ci ilin iyunun 3-də) Birləşmiş Millətlər Təşkilatının maarif, elm və mədəniyyət məsələləri üzrə təşkilatı – YUNESKO-nun üzvü olmuşdur.

BMT, YUNESKO, Avropa Şurası kimi beynəlxalq təşkilatlar mədəniyyətin inkişafı, beynəlxalq mədəniyyət siyasətinin formalaşmasına yardım məqsədilə müxtəlif konfranslar təşkil edir, qərarlar qəbul edir. Avropa Şurası və digər təşkilatlar vətəndaş cəmiyyətinin inkişafına, kulturoloji tədqiqatların apa-

rılmasına köməklik etmək üçün dünyanın bir çox ölkəsindən alimlərin iştirakı ilə müxtəlif konfranslar, seminarlar təşkil edir. 1995-ci ildə Stokholmda mədəniyyət siyasətinin və ictimai inkişafın istiqamətləndirilməsi məsələlərinə həsr olunmuş Avropa dövlətlərinin hökumətlərarası konfransı keçirilmişdi. Həmin il İsveçdə mədəniyyət siyasətinə dair sualları müzakirə etmək məqsədilə Avropa ölkələrinin mədəniyyət nazirləri müşavirəyə toplaşmışdılar. 1999-cu ilin noyabrında Norveçdə mədəniyyət siyasəti sahəsində tədqiqatlara dair Beynəlxalq konfrans keçirildi. Dünyanın 22 ölkəsindən 150 alimin iştirakı ilə keçirilən konfransda mədəniyyət siyasətindəki problemlərlə yanaşı müasir dövrdə mədəniyyətin artan rolu müzakirə edilirdi.

BMT-nin İnkişaf Proqramının sifarişi ilə bir qrup müstəqill ekspert tərəfindən bəşər inkişafının qlobal problemləri üzrə məruzələr hazırlanır. Proqram dünyanın 174 geridə qalmış ölkəsinə müxtəlif problemləri həll etməyə köməklik edir (81, s.178-179).

Bütün bu beynəlxalq təşkilatların məqsədi müstəqil demokratik prinsplərə əsaslanan, qlobal problemləri həll edə bilən, insanlar arasında humanist, proqrssiv dəyərlərin yayılmasını, həmçinin söz azadlığını təmin edən yeni mütərəqqi beynəlxalq mədəniyyət siyasətinin formalaşdırılmasıdır. 2000-ci ildə BMT-nin dövlət hökumətləri başçılarının sammitində mədəniyyətlərin dialoquna və harmonizasiya prinspləri əsasında dünya mədəniyyətinin qurulması məsələsi irəli sürüldü. 2000-ci ildə Milleniuma dair BMT-nin Beynəlxalq Konfransında bu suallar daha dolğun müzakirə edilib konkretləşdirilmişdir. Dünyanın 105 ölkəsindən 500 qeyri-hökumət təşkilatların rəhbərlərinin iştirakı ilə keçirilən konfrans, dünyada sülh üzrə Beynəlxalq və dinlərarası Federasiya və qeyri-hökumət təşkilatların Ümumdünya Assosiasiyası tərəfindən təşkil olunmuşdu (181, s.181).

## Dövlətin mədəniyyət siyasətinin həyata keçirilməsində Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyəti

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 yanvar 2006-cı il tarixli Fərmanı ilə həmin vaxta qədər fəaliyyət göstərən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi ləğv edilmiş, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi əsasında Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2006-cı il tarixli 393 nömrəli Fərmanı ilə Mədəniyyət və Turizm Nazirliyi haqqında əsasnamə təsdiq edilmişdir. Mədəniyyət və Turizm Nazirliyi mədəniyyət, incəsənət, turizm, tarix və mədəniyyət abidələrinin qorunması, nəşriyyat, kinematoqrafiya sahələrində dövlət siyasətini tənzimləyən icra hakimiyyəti orqanıdır. Nazirlik əsasən dövlət büdcəsindən maliyyələşir. Bakı şəhərində yerləşir. Nazirliyin ölkə prezidenti tərəfindən təsdiq edilmiş əsasnaməsi bu dövlət qurumunun fəaliyyətinin əsas istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili məsələlərini müəyyən edir.

Hazırda Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyət dairəsinə 28 teatr, 6308 tarix və mədəniyyət abidəsi, 1 sirk və 12 konsert müəssisəsi, 3985 kitabxana, 2708 klub, 189 dövlət muzeyi (filiallarla birlikdə), 234 uşaq musiqi, incəsənət və rəssamlıq məktəbi, 33 rəsm qalereyası və sərgi salonu, 21 dövlət qoruğu, 60 mədəniyyət və istirahət parkı, 1 zoopark, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz, 4 asudə vaxt Mərkəzi, 6 təsərrüfat təşkilatı, "Azərbaycanfilm" də daxil olmaqla 7 film istehsalı studiya, 134 şəhər və rayon kinoteatrı, Dövlət Film Fondu (Naxçıvan filialı ilə birlikdə), Respublika Kitabxana Kollektoru, bir qəzet ("Mədəniyyət"), iki jurnal ("Mədəni-maarif" və "Pəncərə") redaksiyası, Dövlət Turizm İnstitutu, Bakı Xoreoqrafiya Məktəbi, Mədəniyyət İşçilərinin

İxtisasartırma Mərkəzi, Mingəçevir Turizm Kolleci, Milli Kulinariya Mərkəzi, 62 şəhər və rayon mədəniyyət və turizm şöbəsi, Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi, Bakı, Gəncə, Sumqayıt şəhər turizm idarələri, Şəki Atçılıq Mərkəzi, Bakı Turizm İnformasiya Mərkəzi, Bakı Turizm İnformasiya Mərkəzi, Lənkəran Uşaq düşərgəsi daxildir (139).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən bu sahəyə böyük diqqət və qayğı göstərilmiş, mədəniyyət və turizm işçilərinin əmək haqları artırılmış, mədəni-sosial, maddi-texniki bazanın tamamilə yenidən qurulması prosesinə start verilmiş, teatr, kino, kitabxana işi, abidələrinin qorunması sahələrində dövlət başçısının fərmanları, sərəncamları verilmiş, Dövlət proqramları işləməyə başlamışdır.

Turizmin inkişafı istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Nazirlik dövlətlərarası müqavilələrə uyğun olaraq Avropa, Asiya və İslam ölkələri, ABŞ və Latın Amerikası ilə beynəlxalq mədəniyyət proqramlarını həyata keçirir. Nazirlik çoxtərəfli əməkdaşlıq çərçivəsində BMT, MDB, GUAM, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı, YUNESKO, Dünya Turizm Təşkilatı, TÜRKSOY, İSESKO və digər beynəlxalq qurumlar vasitəsi ilə Azərbaycan mədəniyyətini dünyada təbliğ edir, eyni zamanda dünya mədəni sərvətlərinin ölkəmizdə tanıdılması sahəsində əhəmiyyətli proqramlar həyata keçirir (139).

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturu nazir, üç nazir müavini, nazirin aparatı və şöbələrdən ibarətdir. Belə ki, Teatr sektoru, Musiqi sektoru, Təsviri sənət və dekorativ sənət sektoru, Dövlət əhəmiyyətli tədbirlərin təşkili və yaradıcı gənclərlə iş sektorundan ibarət "İncəsənət şöbəsi"; Regionlarla iş sektoru, Muzey işi sektoru, Kitabxana sektoru, Klub və parklarla iş, xalq yaradıcılığı və milli kulinariyanın təbliği sektorundan ibarət "Mədəniyyət siyasəti şöbəsi"; "Kinematoqrafiya şöbəsi"; Abidələrin mühafizəsi sektoru, Bərpa-layihələndirmə və ekspertiza sektoru

və Mədəni sərvətlər (qoruqlar) sektorundan ibarət "Mədəni irs şöbəsi"; Daxili turizmin inkişafı sektoru, Tədqiqat işləri, statistika və lisenziyalaşdırma sektoru, Xarici turizm sektoru, Turizmin marketinqi və təbliğatı sektorundan ibarət "Turizm şöbəsi"; Nəşriyyat sektoru, İnformasiya və reklam sektorundan ibarət "Nəşriyyat, reklamın təşkili və informasiya şöbəsi"; Təhsil sektoru və Elmi-metodiki sektorundan ibarət "Elm və təhsil şöbəsi"; Beynəlxalq əlaqələr və protokol sektoru, Beynəlxalq təşkilatlarla əməkdaşlıq və proqramlar sektorundan ibarət "Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsi" (Beynəlxalq əlaqələr və mədəniyyət proqramları şöbəsinin əsas funksiyaları Rəhbərliyin göstərişinə əsasən Azərbaycan Respublikasının xarici mədəniyyət və turizm siyasətinin həyata keçirilməsinə dair təkliflərin işlənib hazırlanması və həyata keçirilməsidir); habelə, Kadrlar şöbəsi, İqtisadiyyat şöbəsi, Maliyyə və uçot şöbəsi, İnvestisiya və texniki proqramlar şöbəsi, Analitik təhlil və proqram təminatı şöbəsi, Ümumi şöbəni özündə birləşdirir.

Hüquq sektoru – nazirlik üzrə verilmiş əmr, sərəncam və qərar layihələrinin rəhbərliyə təqdim edilməzdən əvvəl qanuna müvafiqliyini yoxlayıb rəy verir; Hüquq mahiyyətli sənədləri işləyib hazırlayır və ya hazırlanmasında iştirak edir; Müvafiq sahə üzrə normativ-hüquqi aktların hazırlanmasında iştirak edir; Nazirliyin şöbə və sektorlarına, tabelikdə olan idarə və təşkilatlara hüquqi yardım göstərir; Müqavilə, maliyyə, icra və əmək intizamının möhkəmləndirilməsi, mülkiyyətin mühafizəsinin təmin edilməsi üzrə tədbirlərin hazırlanmasında və yerinə yetirilməsində iştirak edir; Azərbaycan Respublikasının Qanunlarına, Nazirlər Kabinetinin qərarlarına və digər normativ-hüquqi aktlara əlavə və dəyişikliklərin edilməsini təmin edir; Məhkəmə və digər orqanlarda etibarnamə ilə nazirliyin maraqlarını müdafiə edir; Təqdim edilmiş iddialara müvafiq cavablar hazırlayır; Qüvvədə olan qanunlar barəsində idarə, müəssisə və təşkilatların işçilərinə məsləhətlər verir;

Əmək və icra intizamına riayət edilməsi, normativ-hüquqi aktların və digər hüquq xarakterli məsələlərin kollegiyada müzakirəsində iştirak edir.

Teatr sektoru – razılaşdırılmış səlahiyyət çərçivəsində “Teatr” bölümü üzrə şöbənin fəaliyyətinin təşkili, dəqiq daxili nizam-intizamın və sağlam iqlimin yaradılması üçün, bu sahəyə dair sənədlərin keyfiyyətli və vaxtında işlənib hazırlanmasını həyata keçirir. Sektorun kurasiyasına daxil olan obyektlər aşağıdakılardır: Dövlət Akademik Milli Dram Teatrı, S.Vurğun adına Dövlət Rus Dram Teatrı, Dövlət Gənc Tamaşaçılar Teatrı, A.Şaiq adına Dövlət Kukla Teatrı, “Yuğ” Dövlət Dram Teatrı, Dövlət Pantomima Teatrı. Musiqili teatrlara (Azərbaycan Dövlət Opera və Balet Teatrı, Dövlət Musiqili Komediya Teatrı) nəzarəti “Musiqi” sektoru ilə birgə həyata keçirir. Teatr-tamaşa sənəti ilə bağlı məktub və təkliflərin, analitik məlumatların, hesabatların, digər sənədlərin toplanıb ümumiləşdirilməsini və rəhbərliyə təqdimini təmin edir.

Bu sektor teatr üzrə İncəsənət şöbəsinin nəzdində yaradılan və fəaliyyət göstərən ictimai qurumların – Şura və Birliklərin, ekspert qrupların, yaradıcılıq laboratoriyaları və emalatxanalarının təşkilində iştirak edir. Teatr sənətinin bütün janrlarında yaradılan yeni əsərlərlə tanış olur, bədii cəhətdən dəyərli peşəkarlıq baxımından kamil əsərlərin seçilməsinə və ya alınmasına, ayrı-ayrı bədii kollektivlərin repertuarına salınmasına dair təkliflər verir, Azərbaycan dramaturgiyası ilə məşğul olan istedadlı gənclərin yetişməsinə lazımi zəmin yaradır, bu işi tənzimləməkdə yaxından iştirak edir. Digər ölkələrdə yaranan Azərbaycan Mədəniyyəti cəmiyyətləri və mərkəzləri ilə əməkdaşlığı və əlaqələri həyata keçirir. Mədəniyyət və Turizm Nazirliyi sistemində Dövlət teatr-tamaşa, onlara xidmət edən istehsalat müəssisələrinin və bölmələrinin yaradıcılıq-istehsalat fəaliyyətini təşkil və tənzim edir. “Teatr” sektoru üzrə beynəlxalq əlaqələr və mübadiləyə dair tövsiyələr hazırlayır və rəhbərliyə təqdim edir. “Teatr” sektoru üzrə Beynəlxalq, Regional

və Respublika festivallarının, müsabiqələrin, baxışların hazırlanması və keçirilməsini təşkil edir. Dövrü mətbuatda milli teatr sənətinə dair məqalələri, informativ materialları təhlil edib rəhbərliyə təqdim edir. İncəsənətin müvafiq sahələri üzrə Yaradıcılıq İttifaqları və birliklərlə, müstəqil qurumlarla, Mədəniyyət və Turizm Nazirliyi sistemindən kənarda yaradılan bədii təşkilat və kollektivlərdə əməkdaşlığın yaradılmasına köməklik edir. “Teatr” sektoru üzrə ilin (yarımilin, rübün) yekunlarına dair hesabatları tərtib edib rəhbərliyə təqdim edir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ədəbi-dram əsərlərinin Dövlət Satınalma Komissiyasının işində yaxından iştirak edir.

Musiqi sektoru – razılaşdırılmış səlahiyyət çərçivəsində “Musiqi” bölümü üzrə şöbənin fəaliyyətinin təşkili, dəqiq daxili nizam-intizamın və sağlam iqlimin yaradılması üçün, bu sahəyə dair sənədlərin keyfiyyətli və vaxtında işlənib hazırlanması üçün məsuliyyət daşıyır. Sektorun kurasiyasına daxil olan obyektlər aşağıdakılardır: Azərbaycan Dövlət Filarmoniyası, Dövlət Orqan və Kamera Zalı, Azərbaycan Dövlət Mahnı Teatrı, Azərbaycan Dövlət Muğam Teatrı, Heydər Əliyev adına Saray, Azərbaycan Dövlət Uşaq Filarmoniyası. Musiqili teatrlarla nəzarəti Teatr sektoru ilə birgə həyata keçirir (Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Komediya Teatrı).

Musiqi sənəti ilə bağlı məktub və təkliflərin, analitik məlumatların, hesabatların, digər sənədlərin toplanıb ümumiləşdirilməsini və rəhbərliyə təqdimini təmin edir:

– “Musiqi” sektoru üzrə şöbənin daxili strukturunda çalışan əməkdaşların fəaliyyətini səlahiyyəti çərçivəsində təşkil edir. Şöbədə işgüzar məhsuldar rejimin və sağlam atmosferin yaranması üçün cavabdehdir. “Musiqi” sektoru üzrə İncəsənət şöbəsinin nəzdində yaradılan və fəaliyyət göstərən ictimai qurumların – Şura və Birliklərin, ekspert qrupların, yaradıcılıq laboratoriyaları təşkilində iştirak edir. Musiqi sənətinin bütün

janrlarında yaradılan yeni əsərlərlə tanış olur, bədii cəhətdən dəyərli peşəkarlıq baxımından kamil əsərlərin seçilməsinə və ya alınmasına, ayrı-ayrı bədii kollektivlərin repertuarına salınmasına dair təkliflər verir, Azərbaycan musiqi sənətinin müxtəlif sahələrində istedadlı gənclərin yetişməsinə lazımi zəmin yaradır, bu işi tənzimləməkdə yaxından iştirak edir.

Mədəniyyət və Turizm Nazirliyi sistemində konsert müəssisələrinin, onlara xidmət edən istehsalat bölmələrinin yaradıcılıq-istehsalat fəaliyyətini təşkil və tənzim edir. "Musiqi" sektoru üzrə beynəlxalq əlaqələr və mübadiləyə dair tövsiyələr hazırlayır və rəhbərliyə təqdim edir. Sektor səlahiyyəti çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyini müxtəlif, o cümlədən beynəlxalq səviyyələrdə təmsil edir, musiqi sənətinin vəziyyəti və inkişafı ilə bağlı danışıqlarda, müzakirələrdə, görüşlərdə iştirak edir. Mədəniyyət və Turizm Nazirliyi kollegiyasının iclaslarında məsələlərin müzakirəsi üçün sənədlər hazırlayır, sektorun mövqeyini və marağını təmsil edir.

– "Musiqi" sektoru üzrə Beynəlxalq, Regional və Respublika festivallarının, müsabiqələrin, baxışların hazırlanması və keçirilməsini təşkil edir. Dövrü mətbuatda musiqi sənətinə dair məqalələri, informativ materialları təhlil edib rəhbərliyə təqdim edir. İncəsənətin müvafiq sahələri üzrə Yaradıcılıq İttifaqları və birliklərlə, müstəqil qurumlarla, Mədəniyyət və Turizm Nazirliyi sistemindən kənarda yaradılan musiqi qurumları və kollektivlər ilə əməkdaşlığın yaradılmasına köməklik edir. "Musiqi" sektoru üzrə ilin (yarımilin, rübün) yekunlarına dair hesabatları tərtib edib rəhbərliyə təqdim edir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin musiqi əsərlərinin Dövlət Satınalma Komissiyasının işində yaxından iştirak edir. Dövlət sifarişi yolu ilə alınan musiqi əsərlərinin müəllifləri ilə müqavilələrin hazırlanmasında tövsiyə və təkliflərini verir, onları nazirliyin rəhbərliyinə təqdim edir. Dövlət sifarişi yolu ilə musiqi əsərləri üçün

bağlanan müqavilələr barəsində təklif və tövsiyələrini verir, onları nazirliyin rəhbərliyinə təqdim edir.

Azərbaycan Bəstəkarlar İttifaqı və Azərbaycan Musiqi Xadimləri İttifaqı, Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, EA Memarlıq və İncəsənət İnstitutunun müvafiq şöbəsi, Azərbaycan Milli Konservatoriyası və onun nəzdində fəaliyyət göstərən İncəsənət Gimnaziyası, Bakı Musiqi Kolleci, eləcə də Bülbül adına orta ixtisas musiqi məktəbi, Naxçıvan, Sumqayıt, Gəncə, Şəki, Ağdam, Şuşa musiqi texnikumları, Lənkəran Humanitar Kolleci ilə əlaqələri həyata keçirir.

Təsviri sənət və dekorativ sənət sektoru – Dövlət Rəsm qalereyaları və sərgi salonlarının yaradıcılıq-istehsalat fəaliyyətini istiqamətləndirmək və təşkil etmək məqsədilə sektor əməkdaşları arasında iş bölgüsü aparır və onların fəaliyyətinə nəzarət edir. Təsviri və dekorativ sənət sektorunun səmərəli fəaliyyəti və nüfuzunun qorunması üçün məsuliyyət daşıyır. Sektorun daxili strukturunun, onun tabeçiliyində olan müəssisələrin iş prosesinin təkmilləşdirilməsinə dair tövsiyələr hazırlayır və tədbirlər görür.

– Sektorda hazırlanan bütün sənədləri imzalayır, peşə səviyyəsi baxımından onların keyfiyyətli olmasına və faktların dürüstlüyünə görə cavabdehdir. Nazirliyin rəhbərliyi tərəfindən verilən tapşırıqların operativ və dəqiq icrasını təmin edir. Sektora daxil olan məktub və təklifləri, ərizələrin, şikayətlərin operativ və obyektiv baxılmasını, onlarla bağlı lazımi tədbirləriin görülməsini təmin edir.

– Mədəniyyət və Turizm Nazirliyinin, o cümlədən incəsənət şöbəsinin xətti ilə keçirilən irimiqyaslı tədbirlərin, yubileylərin, festivalların və müsabiqələrin, incəsənət bayramlarının təşkili və keçirilməsində fəal iştirak edir. Sektor səlahiyyəti çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyini müxtəlif, o cümlədən beynəlxalq

səviyyələrdə təmsil edir, təsviri sənətin vəziyyəti və inkişafı ilə bağlı danışıqlarda, müzakirələrdə, görüşlərdə iştirak edir.

– Mədəniyyət və Turizm Nazirliyi kollegiyasının iclaslarında məsələlərin müzakirəsi üçün sənədlər hazırlayır, sektorun mövqeyini və marağını təmsil edir. Təsviri sənət profilli ali və orta ixtisas təhsil ocaqları və elmi tədqiqat institutları ilə, kütləvi informasiya vasitələri ilə, milli radio və televiziya şirkəti, qəzet və jurnalların redaksiyaları ilə əməkdaşlığı təmin edir. Rəssamlar İttifaqı ilə əlaqələrin qurulmasını təmin edir. Dövlət sifarişi yolu ilə alınan təsviri sənət əsərlərinin müəllifləri ilə müqavilələrin hazırlanmasında tövsiyə və təkliflərini verir, onları nazirliyin rəhbərliyinə təqdim edir. Dövlət sifarişi yolu ilə təsviri sənət əsərləri üçün bağlanan müqavilələr barəsində təklif və tövsiyələrini verir, onları nazirliyin rəhbərliyinə təqdim edir. Təsviri və dekorativ sənət sektorunun müdirinin şəxsi kurasiyasına Azərbaycan Dövlət Rəsm Qalereyası və Bədii Sərgi Salonu daxildir.

Dövlət əhəmiyyətli tədbirlərin təşkili və yaradıcı gənclərlə iş sektoru – razılaşdırışlmış səlahiyyət çərçivəsində sektor üzrə şöbənin fəaliyyətinin təşkili, ciddi nizam-intizama riayət, sağlam mühitin yaradılması və qorunması, şöbənin bu sahəsinə dair sənədlərinin keyfiyyəti və vaxtında işlənib hazırlanması üçün şəxsi məsuliyyət daşıyır, sektorda çalışan əməkdaşların fəaliyyətini səlahiyyəti çərçivəsində təşkil edir.

Sektorun kurasiyasına daxil olan fəaliyyət sahəsi: Dövlət əhəmiyyətli tədbirlərin təşkili və yaradıcı gənclərlə iş.

Dövlət əhəmiyyətli tədbirlərin təşkili və yaradıcı gənclərlə bağlı məktubların, təkliflərin, analitik məlumatların, hesabatların, digər sənədlərin ümumiləşdirilməsini və rəhbərliyə təqdim edilməsini təmin edir. Azərbaycan milli mədəniyyətini xarici ölkədə təmsil edəcək bədii kollektivlərin və incəsənət xadimləri sırasında gənclərin müəyyən olunmasında iştirak edir. Dövlət əhəmiyyətli tədbirlərin hazırlanması, teatr, musiqi, təsviri sənət, ədəbi yaradıcılıq sahəsində fəaliyyət göstərən

gənclər üçün münbit şəraitin yaradılması, onların çalışdıqları sahələrdə inkişaf yollarının axtarılıb tapılmasına görə məsuliyyət daşıyır. Sektor üzrə Beynəlxalq, regional və respublika festivallarının, müsabiqələrin, baxışların hazırlanması və keçirilməsini təşkil edir. Yaradıcı gənclərin istedadlarının üzə çıxarılması, onların beynəlxalq səviyyədə təmsil olunması üçün, bu sahədə mübadilələrə dair tövsiyyələr hazırlayır və rəhbərliyə təqdim edir. Yaradıcı gənclərin özlərini ifadə və təsdiqləri üçün, əlverişli yaradıcılıq mühitinin formalaşdırılması məqsədilə tədbirlər təşkil edir. İstedadlı gənclərin üzə çıxarılması məqsədilə Gənclər və İdman Nazirliyi, Təhsil nazirliyi sistemində fəaliyyət göstərən müvafiq şöbə və bölmələrlə birgə tədbirlər planı hazırlayıb həyata keçirir. İncəsənətin müvafiq sahələri üzrə Yaradıcılıq ittifaqları və birliklərlə, müstəqil qurumlarla əməkdaşlığın yaradılmasını təmin edir. Dövlət əhəmiyyətli tədbirlərin təşkili və yaradıcı gənclərlə iş üzrə ilin (yarımilin, rübün) yekunlarına dair hesabatları tərtib edib rəhbərliyə təqdim edir. Dövlət əhəmiyyətli tədbirlərin təşkili və yaradıcı gənclərlə iş sahəsində fəaliyyət göstərir.

Mədəniyyət sahəsində elmi-praktik baza yaratmaq məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müavini Sevda Məmmədəliyevanın təşəbbüsülə nazirlikdə mədəniyyət siyasəti şöbəsi yaradılmışdır. Bu şöbə beynəlxalq təşkilatlar və elmi institutlarla (Avropa Şurası, UNESKO, Avropa İttifaqı, MDB ölkələrinin mədəni əməkdaşlıq üzrə Şurası, TÜRKSOY) əməkdaşlıq əsasında mədəniyyət sahəsində yeni siyasət işləyib hazırlayan elmi laboratoriya kimi fəaliyyət göstərmişdir. 1999-cu ildən başlayaraq, S.Məmmədəliyevanın bilavasitə iştirakı ilə mədəniyyət siyasəti sahəsində bir sıra milli və beynəlxalq elmi proqramlar işlənib hazırlanmışdır. Onların sırasında "Azərbaycan Mədəniyyətinin Dövlət Strateji İnkişaf Proqramı", "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı" mühüm yer tutur. S.Məmmədə-

liyeva mədəniyyət sahəsində beynəlxalq elmi layihələrin koordinatorudur. Bunlardan Avropa Şurasının Mədəniyyət Komitəsi və Mədəniyyət Siyasəti üzrə Bonn Müqayisəli Tədqiqat İnstitutu (ERİCarts) ilə birlikdə həyata keçirilmiş "Azərbaycanda mədəniyyət siyasəti: əsas fakt və təmayüllərin kompendiumu" elmi layihəsi xüsusi qeyd olunmalıdır. Bu layihə əsasında hazırlanmış "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" elmi icmalı internet saytında (www.culturalpolicies.net) yerləşdirilmişdir. Kompendiumun onlayn versiyası 2002-ci ildə Kaliforniya Universitetinin "Sosial elmlər sahəsində ən yaxşı işə görə" mükafatına layiq görülmüşdür.

Avropa Şurasının "Stage" regional layihəsinin mühüm mərhələsi olan "Mədəni siyasət üzrə milli məruzə"nin müəlliflərindən biri S. Məmmədəliyevadır. Məruzə Avropa Şurası tərəfindən nəşr edilmiş, internet saytında yerləşdirilmişdir. (http://"culture.coc.int/Restricted/cccult/enq/2002/ CDAİLT (2002) 28A_E_Azeri. doc). Milli Məruzənin təqdimatı Avropa Şurasının Mədəniyyət üzrə Rəhbər Komitəsinin iclasında (Strasburq, 2001) və Bakı şəhərində keçirilən Milli debatlarda (2002) olmuşdur. Bu sənədin müstəsna əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin iştirakçılara müraciətində qeyd edilmişdir.

S.Məmmədəliyeva Avropa Şurasının "Münaqişənin mədəniyyət vasitəsilə aradan qaldırılması" və "Kiyev Təşəbbüsü", həmçinin UNESKO-nun "Mədəni çeşidlilik", "GUÖAM ölkələrinin mədəniyyət üzrə observatoriyası" proqramlarının milli koordinatorudur. S.Məmmədəliyeva 1999-cu ildən Avropa Şurasının Mədəniyyət üzrə Rəhbər Komitəsinin üzvü, Mədəniyyət üzrə Komitənin bütün iclaslarının iştirakçısıdır. O, Komitənin Strasburqda keçirilən iclaslarında, Fransa, Rusiya, Portuqaliya, İsveçrə, Xorvatiya, Almaniya, Yunanıstan, Hollandiya, Türkiyə və s. ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda çoxsaylı məruzələrlə çıxış edir. Bu konfrans və simpoziumların

nəticələri üzrə materiallar nəşr olunmuşdur. 2007-ci ildə Avropa Şürasının Mədəniyyət üzrə Rəhbər Komitəsinin Bürosunun üzvü seçilmişdir. Sosial fəlsəfə və kulturologiya sahəsində tanınmış alim olan S.Məmmədəliyeva bir çox beynəlxaq və respublika səviyyəli elmi forum, dəyirmi masa, seminarların iştirakçısıdır. 120-dən çox elmi işlərin, o cümlədən 9 kitabın müəllifidir. Azərbaycan mədəniyyətinin inkişafının elmi bazasının yaradılması üçün onun son illərdə nəşr edilmiş əsərləri – "Azərbaycanda mədəniyyət siyasəti" (elmi icmal, 2002), "Azərbaycanın mədəniyyət siyasəti" (Avropa Şurasının "Stage" layihəsi əsasında, 2003), habelə "Qloballaşma dövründə mədəniyyət" (2004), "Mədəniyyət və insan" (2005) monoqrafiyaları xüsusi əhəmiyyət kəsb edir. Əbülfəs Qarayevin rəhbərliyi altında "Xoşməramlı səfir", "Mədəniyyətimizin və mədəni incilərimizin hamisi", "Kitabxanalar biliklər cəmiyyətində" və "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" kitabların tərtibatçısı olmuşdur (http://www.mct.gov.az).

Keçid dövrünün təhlili verən Avropa Şurası ekspertlərinin hesabatlarında da Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikasının dövlət mədəniyyət siyasətinin uğurla həyata keçirilməsində müstəsna rolu vurğulanmaqdadır.

## Təhsil və elm sahəsində Azərbaycanın mədəniyyət siyasətinin məqsədləri

Mədəniyyət sahəsində təhsil, treninqlər və tədqiqatlardan bəhs edərkən, öncə belə bir cəhəti vurğulamaq istəyirik ki, mədəniyyət və incəsənət sahəsində təhsilin Azərbaycanda çoxəsrlik tarixi var. Hazırda isə respublikada ibtidai musiqi, rəssamlıq və xareoqrafiya təhsili verən 274 uşaq musiqi, rəssamlıq, incəsənət məktəbi vardır. Bu məktəblərdə təhsil müddəti 4 ildən 7 ilə qədərdir (rəssamlıq – 4 il, xoreoqrafiya – 5 il, musiqi – 7 il). Onların arasında musiqi məktəbləri çoxluq təşkil edir, respublikada 227 musiqi məktəbi var. Bu məktəblərdə uşaqlar klassik (fortepiano, skripka, violonçel, fleyta, klarnet, qaboy, truba, tuba, valtorna, faqot, zərb alətləri) və xalq (tar, kamança, nağara, qarmon, balaban və s.) çalğı alətlərində çalmağı, həmçinin klassik və xalq nəğmələri ifaçılığını öyrənirlər.

İncəsənət məktəblərində (respublikada onların sayı 44-ə çatır) musiqi şöbəsilə yanaşı, rəssamlıq və xoreoqrafiya şöbələri də vardır. Musiqi, rəssamlıq və incəsənət məktəbləri 99,4% büdcədən maliyyələşir, valideynlərin ödədiyi haqq 0,6%-dən artıq olmur. Valideynlər hər şagird üçün ayda 385 manat, təxminən 0,08 ABŞ dolları ödəyirlər. Beləliklə, uşaq musiqi, rəssamlıq və incəsənət məktəblərində bir uşağın illik təhsili ailəyə 1 ABŞ dollarından az məbləğə başa gəlir.

Respublikada mədəniyyət və incəsənət sahəsi üzrə mütəxəssislər hazırlayan 16 orta ixtisas məktəbi var (11 musiqi tədris müəssisəsi, 3 mədəni-maarif texnikumu, incəsənət kolleci və xoreoqrafiya məktəbi).

Musiqi texnikumları (Azərbaycan Dövlət Musiqi Kolleci də daxil olmaqla, respublikada 8 belə məktəb var) klassik və xalq çalğı alətlərində ifaçılar, musiqi və incəsənət məktəbləri üçün müəllimlər hazırlayır.

Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən İncəsənət Kollecində gələcəyin rəngkarları, qrafikaçıları, hey-

kəltəraşları və müxtəlif profilli (xalçaçılıq, moda, teatr dekorasiyası və dekorativ tətbiqi sənət üzrə) rəssamları təhsil alırlar.

Mədəni-maarif texnikumlarında kulturologiya və bədii yaradıcılıq, muzey işi və abidələrin mühafizəsi, dekorativ-tətbiqi sənət və kitabxana işi ixtisasları üzrə təlim keçilir. Bu texnikumlarda həmçinin, məktəbəqədər tərbiyə müəssisələri, musiqi məktəbləri üçün tərbiyəçilər və müəllimlər hazırlayan musiqi şöbələri vardır. Orta ixtisas tədris müəssisələri üçün üç illik (orta təhsil əsasında) və dörd illik (əsas təhsil bazasında) təlim kursları müəyyən edilmişdir.

Respublikanın bəzi orta ixtisas təhsili məktəbləri peşə təlimi siklinin fasiləsizliyilə fərqlənir, belə məktəblərdə ibtidai və orta ixtisas təhsili bir yerdə təlim edilir. Bu cür məktəblərə Bülbül adına Orta İxtisas Musiqi Məktəbi, Bakı Musiqi Akademiyası nəzdindəki Orta İxtisas Musiqi Məktəb-Studiyası, Milli Təhlükəsizlik Nazirliyinin Orta İxtisas Musiqi Məktəbi və respublikada yeganə balet və xalq rəqsləri artistləri hazırlayan Bakı Xoreoqrafiya Məktəbi aiddir.

İbtidai və orta təhsili bir yerdə təlim edən tədris müəssisələrində təhsil müddəti 11-12 ildir. Respublikanın orta ixtisas təhsili müəssisələrində təhsil pulsuzdur və yaxşı qiymətlə oxuyan tələbələrə təqaüd verilir.

Azərbaycanda mədəniyyət və incəsənət sahəsilə bağlı ali təhsili Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası verir. Həmçinin ölkənin bəzi universitetlərində mədəniyyət müəssisələrində işləmək üçün kadrlar hazırlayan fakultələr mövcuddur.

Bakı Musiqi Akademiyasında bəstəkarlar, musiqişünaslar, xor dirijorları, klassik və xalq çalğı alətləri ifaçıları və vokalistlər ali təhsil alırlar. Xüsusilə vurğulamaq lazımdır ki, Bakı Musiqi Akademiyasının məzunları beynəlxalq arenada həm pedaqoq, həm də ifaçı kimi yüksək qiymətləndirilirlər. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti teatr,

kino, televiziya, estrada sahəsində mütəxəssislər (rejissorlar, aktyorlar, senaristlər, operatorlar, teatrşünaslar, kinoşünaslar), xoreoqrafiya, muzey işi və abidələrin mühafizəsi, kulturologiya, təsviri və dekorativ-tətbiqi sənət mütəxəssisləri, xalçaçılıq, sənaye qrafikası, reklam üzrə rəssamlar, modelyerlər, dizaynerlər və s. hazırlayır. Rəssamlıq Akademiyasında rəngkarlıq, qrafika, heykəltəraşlıq, memarlıq, dekorativ tətbiqi sənət, teatr dekorasiyası, təsviri sənət tarixi və nəzəriyyəsi üzrə mütəxəssislər, interyer, xalçaçılıq, reklam, dizayn, moda üzrə rəssamlar ali təhsil alırlar. Azərbaycan Memarlıq və Tikinti Universiteti gələcəyin memarlarını yetişdirir. Bakı Dövlət Universiteti isə ölkədə "Kitabxanaşünaslıq və biblioqrafiya" ixtisası üzrə mütəxəssis yetişdirən yeganə ali təhsil müəssisəsidir.

Ölkənin bəzi universitetlərində (Azərbaycan Dövlət Pedaqoji Universitetində, Naxçıvan Pedoqoji Universitetində, Gəncə Dövlət Universitetində, Lənkəran Dövlət Universitetində) ümumtəhsil məktəbləri üçün nəğmə və rəsm müəllimləri hazırlayan incəsənət şöbələri vardır. Naxçıvan Pedoqoji Universitetində həmçinin musiqişünaslar, fortepiano və xalq çalğı alətləri ifaçıları hazırlanır. Kommersiya tipli təhsil müəssisələri olan Qərb Universitetində (dizayn və dekorativ-tətbiqi sənət) və "Xəzər" Universitetində (dizayn) də incəsənət şöbələri mövcuddur. Ali təhsil müəssisələrində təhsil pullu və pulsuzdur. Təlim prosesində yaxşı nəticələr göstərən tələbələrə təqaüd verilir.

Təhsilin dərəcəsindən asılı olaraq ali tədris müəssisələrində təlim 4-6 il sürür. 4 il təhsil alan tələbələrə bakalavr dərəcəsi verilir. Yaxşı qiymətləri olan və magistr dərəcəsi almaq istəyənlər magistraturaya daxil olur və burada da 2 il oxuyurlar. Elmi dərəcə almaq istəyənlər öz təhsillərini üç il ərzində aspiranturada davam etdirə bilərlər.

Uzun illər təşəkkül tapmış təhsil strukturu – çoxpilləli təlim sistemi, milli təhsilin keyfiyyətli əsaslar üzərində qurulmuş olması mədəniyyət və incəsənət sahələri üçün yüksək səviyyəli

peşəkar kadrlar hazırlamaq imkanı verir. Lakin bu sahədə müəyyən problemlər də mövcuddur. Belə ki, ölkədəki iqtisadi durum təhsil sahəsinə də öz təsirini göstərmişdir: ən yaxşı ali məktəb müəllimləri, ən yaxşı mütəxəssislər əmək haqqının aşağı olması səbəbindən ya respublikanın hüdudlarından kənarda işləmək, ya da pedoqoji fəaliyyətdən əl çəkib, daha yüksək əmək haqqı ödənilən digər işlərdə çalışmaq məcburiyyətindədirlər. Bu isə, əlbəttə ki, mədəniyyət və incəsənət sahəsində də kadr hazırlığı səviyyəsinə öz təsirini göstərir.

Azərbaycanın regionlarında mütəxəssis hazırlığı səviyyəsinin kifayət qədər peşəkar olmadığını da qeyd etmək lazımdır. Tədris planlarının, proqram və pedoqoji metodlarının mərkəzləşdirilmiş qaydada təsdiq olunmasına baxmayaraq, respublikanın rayonlarında yerləşən tədris müəssisələrində mədəniyyət və incəsənət sahəsində təlimin səviyyəsi Bakı məktəblərində olduğundan nəzərə çarpacaq dərəcədə geri qalır. Bu vəziyyət paytaxtdan uzaqda yerləşən regionların sosial-iqtisadi durumu ilə izah olunur.

Mədəniyyət və incəsənət sahəsində mütəxəssis hazırlayan tədris müəssisələrinin müxtəlif tabeçilikdə olmasını da mövcud problemlərin sırasına daxil etmək olar. Mədəniyyət sahəsi üçün kadr hazırlayan bütün tədris müəssisələrinin Mədəniyyət Nazirliyinin tabeliyində olduğu keçmiş sovet respublikalarından fərqli olaraq, Azərbaycanda mədəniyyət və incəsənət sahəsində yalnız ibtidai təhsil verən tədris müəssisələri Mədəniyyət və Turizm Nazirliyi sisteminin tərkibindədir. Belə ki, uşaq musiqi, rəssamlıq, incəsənət məktəbləri və ölkədə yeganə olan xoreoqrafiya məktəbi Mədəniyyət və Turizm Nazirliyinin, orta ixtisas və ali məktəblər – texnikumlar, kolleclər, akademiyalar və universitetlər isə Təhsil Nazirliyinin tabeliyindədir.

Mədəniyyət və incəsənət sahəsində təhsil sisteminin bütün həlqələri üzərində vahid rəhbərliyin olmaması, tədris müəssisələrinin işini əlaqələndirməyə, habelə son nəticədə Mədəniyyət və Turizm Nazirliyi sistemində işləmək üçün mütəxəssis

hazırlayan orta ixtisas və ali təhsil müəssisələrinin tədris-metodika fəaliyyətinə bu nazirliyin nəzarət etməsinə imkan vermir. Respublikanın mədəniyyət sahəsində mövcud olan problemlərə, sözün geniş mənasında incəsənət təhsilinin spesifik xüsusiyyətlərinə dərindən bələd olmadan, müasir kadr hazırlığı tələblərinə tam cavab verə biləcək tədris prosesini təşkil etmək mümkün deyildir.

1966-cı ildən mədəniyyət işçilərinin respublika hazırlıq və ixtisasartırma kursu fəaliyyət göstərir; bu kursda Mədəniyyət və Turzm Nazirliyi sistemində çalışan işçilər bütün kateqoriyalar üzrə (rayon, şəhər mədəniyyət şöbələrinin müdirləri, teatrların, konsert müəssisələrinin, mərkəzləşdirilmiş kitabxana sistemlərinin, muzeylərin, uşaq musiqi, rəssamlıq, incəsənət məktəblərinin, klubların, mədəniyyət evlərinin, şəkil qalereyalarının və s. rəhbərləri və digər əməkdaşları) öz ixtisaslarını artırırlar. İldən-ilə kurs dinləyicilərinin kontingenti və kateqoriyaları artır.

Milli sənətşünaslıq sahəsində elmi-tədqiqat mərkəzi Azərbaycan Milli Akademiyasının Memarlıq və İncəsənət İnstitutudur. Bu institutun vəzifələrindən biri qədim dövrlərdən bu günə kimi Azərbaycan incəsənətinin tarixi və nəzəriyyəsini öyrənməkdir. Bu vəzifə prinsip etibarilə 1980-cı illərin ortalarında yerinə yetirilib. Həmin dövrdə üç cildlik "Azərbaycan incəsənəti tarixi" çapa hazırlanıb. Bir çox alimin çoxillik kollektiv əməyinin bəhrəsi olan bu əsər Azərbaycanda memarlığın, şəhərsalmanın, təsviri, dekorativ-tətbiqi və musiqi sənətinin, eləcə də musiqi folklorunun inkişaf tarixini vahid dövlətlərə bölmə əsasında birləşdirib. Milli mədəniyyət və incəsənətin bundan sonrakı tədqiqi, fikrimizcə, iki istiqamətdə aparılmalıdır. Birincisi, bədii yaradıcılığın bütün növ və janrları əhatə edilməklə Azərbaycanın ümumi incəsənət tarixi yaradılmalıdır. İkincisi, Azərbaycan incəsənətinin etnokultur identifikasiyasına, onun mənşəyi probleminin həllinə, inkişaf stadiallığına, qlobal sivilizasiya proseslərində onun rolu və

yerinin müəyyən edilməsinə yönəldilən kulturoloji tədqiqatların spektrini genişləndirmək və dərinləşdirmək lazımdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin memarlıq və incəsənət tədqiqatları sahəsində əlaqələndirici mərkəz funksiyasını həvalə etdiyi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu bu gün məhz belə bir problematika işləyib hazırlayır. İnstitutun uzun illər ərzində formalaşmış güclü kadr potensialına malik olması bu fundamental tədqiqatların öhdəsindən gəlməyə kömək edəcəkdir.

Mədəniyyət və incəsənət sahəsində fundamental tədqiqatlar, tədris-metodiki xarakterli araşdırmalar həmçinin ali təhsil ocaqlarında – Bakı Musiqi Akademiyasında, Mədəniyyət və İncəsənət Universitetində, Rəssamlıq Akademiyasında, Memarlıq və Tikinti Universitetində aparılır.

Təhsil və elm sahəsində Azərbaycanın mədəniyyət siyasətinin məqsədləri aşağıdakılardır:

– mövcud təhsil müəssisələri şəbəkəsinin, bütün çoxpilləli peşə təhsili sisteminin qorunub saxlanılması və inkişaf etdirilməsi;

– istedadlı uşaqların üzə çıxarılması və himayə edilməsi üçün “Azərbaycan Uşaqları” dövlət proqramının yaradılması: müsabiqələr, festivallar, sərgilər keçirilməsi, beynəlxalq festivallarda iştirak üçün qarant ayrılması, xüsusi istedada malik uşaqlar üçün təqaüd ayrılması;

– mədəniyyət və incəsənət sahəsində gənc istedadların xaricdə təhsilinə vəsait ayrılması;

– müxtəlif kateqoriyalı mədəniyyət işçiləri üçün hazırlıq və ixtisasartırma sisteminin təkmilləşdirilməsi;

– müxtəlif mədəniyyət və incəsənət sahələrində çalışan gənc alimləri dəstəkləmək üçün proqram yaradılması;

– elmi tədqiqatların stimullaşdırılması: qrantlar, mükafatlar ayrılması, konfranslar, seminarlar keçirilməsi, əsərlərin nəşr edilməsi.

## **Ali təhsilli kadr hazırlığı məsələləri**
*(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyəti nümunəsində)*

Bu gün Azərbaycan mədəniyyəti öz tarixi ənənələri və müasir nailiyyətlərilə qabaqcıl dünya ölkələri səviyyəsinə qalxmışdır. Mədəniyyətimizin belə bir inkişafı və tərəqqisində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin layiqli yeri vardır. 85 illik tarixə malik olan bu universitetdə Azərbaycan incəsənətinin böyük korifeyləri təhsil almış və həmin məzunların böyük əksəriyyəti məhz bu universitetdə çalışmışlar. Bu şərəfli inkişaf yolunda mədəniyyət və incəsənət xadimləri yüksək nailiyyətlər əldə etmiş, yaradıcılıq uğurları qazanmışlar. Sözsüz ki, müasir mərhələdə konkret olaraq yalnız kulturoloji təhsilin vəziyyəti və perspektivlərindən danışılsa belə 85 illik tarixi yolun ümumi mənzərəsinə toxunmaqdan ötmək mümkün deyil. Çünki Azərbaycanda kulturoloji təhsil yeni bir pillə, beynəlxalq təcrübədən mənimsənilmiş bir forma olsa da, mahiyyətcə mədəniyyətimizin tarixi təkamülünün məntiqi yekunundan ibarətdir. Daha doğrusu kulturoloji təhsil nə qədər müstəqillik dövründə təşəkkül tapıbsa, bir o qədər tarixin məhsulu, təbii və qanunauyğun prosesin, milli maarifçiliyimizin nəticəsidir. Əslində kulturoloji təhsili forma və məzmunca fərqləndirmək doğru olmazdı. Çünki həm şəkilcə, həm də mahiyyətcə milli olan hər bir fenomen eyni zamanda həm bəşəridir, həm də beynəlmiləldir (25, s.6-10).

Azərbaycan elmi fikrində mədəniyyət və incəsənətimizin problemlərinə daha əvvəllər də diqqət yetirilmişdir və bu məsələnin təhsil sistemi ilə əlaqələndirilməsi və təkmilləşdirilməsi prosesinin 85 illik tarixi vardır. Azərbaycanın müstəqilliyinə qovuşması isə institut rəhbərliyi qarşısında yeni vəzifələr qoymaqla yanaşı, həm də onların icrası üçün yeni imkanlar açmışdır. Belə ki, 1991-ci ildə Azərbaycan SSR Nazirlər Soveti çoxprofilli ixtisaslar üzrə kadr hazırlığını və

struktur dəyişikliklərini nəzərə alaraq tədris müəssisəsinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti adlandırılması haqqında 76 saylı qərar verir.

1997-2001-ci illərdən etibarən universitetdə "Xoreoqrafiya sənəti", "Aşıq sənəti", "Solo oxu", "Kulturologiya" kimi daha doqquz yeni ixtisas üzrə kadr hazırlığına başlanılıb.

1945-2001-ci illər ərzində ali məktəb 30-a yaxın ixtisas üzrə 9897 nəfər ali təhsilli mədəniyyət mütəxəssisi hazırlayıb. 2000-ci ildə universitetin təsviri sənət üzrə iki fakültəsinin 15 ixtisası əsasında Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yaradılması faktı, təhsil müəssisəsinin son illərdəki fəaliyyətinin keyfiyyət göstəricisidir. Bu gün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəinki Azərbaycanın, hətta Mərkəzi Asiya və Cənubi Qafqazın ən böyük bədii təmayüllü ali məktəbidir.

Böyük elmi-pedaqoji və yaradıcılıq imkanları olan universitet xarici ölkələrin bir sıra ali məktəblərilə ikitərəfli və çoxtərəfli işbirliyi müqavilələri bağlamış və əlaqələr yaratmışdır. Universitet 372 üzvü olan Avropa İncəsənət Universitetləri Liqasının — ELIA-nın həlledici səsə malik, tam hüquqlu üzvüdür. Tədris müəssisəsi TEMPUS-TASIS və UNESKO-ASCHBERG proqramlarına qoşulub. Biz inanırıq ki, böyük elmi və yaradıcılıq potensialına malik sənətkarlar acağı bundan sonra da özünün yaratdığı mütərəqqi ənənələrə arxalanaraq nəinki milli, həmçinin ümumbəşər mədəniyyəti üçün yüksək ixtisaslı mütəxəssislər yetişdirəcək, daha yüksək nailiyyətlər əldə edəcək.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) Azərbaycanda mədəniyyət və incəsənətin əksər sahələrində yüksək səviyyəli mütəxəssis hazırlayan, geniş yaradıcılıq imkanlarına, elmi-metodiki bazaya malik olan yeganə ali təhsil müəssisəsidir.

Hazırda ADMİU-da 7 fakültə, hazırlıq şöbəsi və təkmilləşdirmə dekanlığı var. ADMİU 29 kafedrası, eləcə də

əsaslı kitabxanası, geniş bədii və texniki imkanlara malik tədris teatrı, kompüter mərkəzi, müasir avadanlıqla təhciz edilmiş nəşriyyat-poliqrafiya mərkəzi, idman klubu və bir çox digər qurumları olan ali təhsil ocağına çevrilmişdir. Gənclər burada aktyor, rejissor, kino və televiziya operatoru, menecer, müğənni, teatrşünas, kinoşünas, nəçriyyat-poliqrafiya içşisi, beynəlxalq mədəni əlaqələr üzrə ekspert və digər ixtisaslara yiyələnir.

ADMİU-da müxtəlif xarici ölkələrdən gəlmiş çoxlu sayda əcnəbi tələbə də təhsil alır. ADMİU-nun əsas inzibati və tədris korpusları Bakı şəhəri, İnşaatçılar prospekti 9 ünvanında yerləşir. Bundan baçqa ADMİU-nun şəhərin müxtəlif rayonlarında ayrı-ayrı tədris korpusları, nəşriyyat-poliqrafiya mərkəzi, Tədris teatrı, yataqxanası və digər strukturları vardır.

Kulturologiya fakültəsi. ADMİU-nun böyük nəzəri fakültələrindən biridir. Əsasi 1959-cu ildə "Mədəni-maarif işi" fakültəsi kimi qoyulmuşdur. Fakültə dörd kafedranı özündə birləşdirir: Mədəniyyətşünaslıq; Muzeyşünaslıq; Tətbiqi kulturologiya; İqtisadiyyat və informatika. Fakültə aşağıdakı ixtisalar üzrə kadr hazırlayır:

Bakalavr pilləsində: Beynəlxalq mədəni əlaqələr; Mədəniyyət meneceri; Bədii yaradıcılıq; Muzey işi və abidələrin mühafizəsi; Turizm və mədəni servis xidməti; Kulturoloq; Tətbiqi incəsənət.

Magistr pilləsində: Mədəniyyətşünaslıq; Muzeyşünaslıq; Beynəlxalq mədəni münasibətlər.

Fakültənin nəzdində müasir avdanlıq ilə təchiz edilmiş kompüter mərkəzi, metodiki kabinələr və laboratoriyalar fəaliyyət göstərir.

Aktyor sənəti fakültəsi ADMİU-nun tarixən ilk yaradılmış fakültələrindəndir. Hələ 1923-cü ildə Bakida açılmış teatr məktəbində eyni adlı fakültə fəaliyyət göstərirdi. 1945-ci ildə bu fakültə yeni yaradılmış teatr institutunun əsas fakültəsinə çevrildi. Yaradıcılıq ənənələri ADMİU-nun yaradıcılıq salnaməsi ilə sıx bağlı olan Aktyor sənəti fakültəsi (1923-1992)

bir müddət Teatr və kino sənəti fakültəsi (1992-2002) adlanmiş, 2002-ci ildən sonra isə Aktyor sənəti fakültəsi adını daşıyır. Fakültədə altı kafedra fəaliyyət göstərir: Səhnə danışığı; Aktyor və rejissor sənəti; Vokal; Musiqili teatr sənəti; Xoreoqrafiya sənəti və səhnə plastikası; Estrada sənəti; Bədən tərbiyəsi və idman. Fakültə aşağıdakı ixtisalar üzrə kadr hazırlayır:

Bakalavr pilləsində: Dram teatrı və kino aktyoru; Musiqili teatr aktyoru; Estrada aktyoru; Xareoqafiqa sənəti. Magistr pilləsində: Aktyor sənəti; Xoreoqrafiya sənəti.

Aktyor sənəti fakültəsi nəzdində universitetin klubu və akt zalı fəaliyyət göstərir. Burada tələbə elmi konfransları, seminarlar, müxtəlif bədii tədbirlər və konsertlər keçirilir. Universitet klubu səhnəsində müəllim və tələbələrin yaradıcılıq – plan işləri, diplom tamaşaları göstərilir.

Rejissor sənəti fakültəsi ADMİU-nun rejissorluq və operatorluq ixtisaslrını birləşdirir. Fakültə əvvəllər Bədii yaradıcılıq fakültəsi adlanmışdır. 2001-ci ildən etibarən Rejissor sənəti fakültəsi adlanir. Rejissor sənəti fakültəsi dörd kafedradan ibarətdir. Teatr rejissorluğu; Kütləvi tədbirlər və tamaşalar rejissorluğu; Televiziya rejissoru; Kino rejissoru. Fakültə aşağıdakı ixtisalar üzrə kadr hazırlayır: Bakalavr pilləsində: Teatr kollektivinin rejissoru; Kütləvi tədbirlər və tamaşalar rejissoru; Dram rejissoru; Televiziya rejissoru; Kino rejissoru; Estrada rejissoru; Musiqili teatr rejissoru; Kino operatoru. Magistr pilləsində: Kütləvi tədbirlər və tamaşalar rejissoru; Teatr rejissoru; Kino rejissoru.

Fakültədə müəllimlərin, məzunların və tələbələrin yaradıcılıq işlərinin qorunub saxlandığı tədris kinoarxivi vardır. Kinoarxiv hər il 50-dən yuxarı yeni bədii, sənədli və tədris filmi qəbul edir. Rejissor sənəti fakültəsi həmçinin müasir avadanlıqla təchiz edilmiş foto-kinolaboratoriyaya malikdir.

Sənətşünaslıq fakültəsi ADMİU-nun çoxprofili nəzəri fakültələrindən biridir. Fakültə 1991-ci ildə Teatrşunaslıq

fakultəsi zəminində təşkil edilmişdir. Fakultə altı kafedranı özündə birləşdirir: Teatrşunaslıq; Kinoşünaslıq; Ədəbiyyat və Azərbaycan dili; Bədii yaradıcılıq; Xarici dillər; Sosial-siyasi elmlər. Bakalavr Pilləsində: Teatrşünaslıq; Kinoşünaslıq; Ədəbi yaradıcılıq və ekran dramaturgiyası; Nəşriyyat işi və magistr pilləsində: Teatrşünaslıq; Kinoşünaslıq; Ədəbi yaradıcılıq və ekran dramaturgiyası; Kitabşunaslıq ixtisasları üzrə kadrlar hazırlanır.

ADMİU-da musiqi sənəti zəngin ənənələrə malikdir. Ayrıca bölmə kimi isə "Musiqi sənəti" fakültəsi 2001-ci ildə yaradılmışdır. Fakultə beş kafedranı özündə birləşdirir: Musiqişunaslıq; Musiqi fənləri və dirijorluq; İnstrumental ifaçılıq; Muğam sənəti; Estrada və populyar musiqi. Fakultənin bakalavr (Solo oxuma; Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri; İnsturimental ifaçılıq; Aşıq sənəti; Estrada müğənnisi; Musiqişunaslıq) və magistr pilləsində (Musiqişünaslıq; İnstrumental ifaçılıq ( xalq çalğı alətləri); Solo oxuma; Xalq çalğı alətləri dirijoru) müxtəlif ixtisaslar üzrə kadrlar hazırlanır.

Rəssamliq fakültəsinin nisbətən yaxin keçmişdə təşkil edilməsinə baxmayaraq ADMİU-da rəssamliq ixtisaslari, eləcə də təsviri incəsənət tarixinin tədris edilməsi zəngin ənənələrə malikdir. Bu ənənələrin əsasi ötən əsrin 60-ci illərindən başlanir. O dövrdə Nazirlər Kabinetinin əmri ilə o zamankı M.A.Əliyev adina İncəsənət İnstitutunda rəssamliq fakültəsi yaradilmişdi. Sonrakı illərdə Rəssamliq fakültəsi sürətlə inkişaf etmiş, onun material-texniki bazasi və ixtisaslar şəbəkəsi xeyli genişlənmişdir. Qeyd etmək lazimdir ki, ADMİU uzun müddət Azərbaycanda rəngkarliq, qrafika, heykəltaraşliq və sənətşünasliq ixtisaslari üzrə ali təhsil verən yeganə təhsil müəssisəsi olmuşdur. Hazırda fakültəyə aşagidaki kafedralar daxildir: Rəsm və rəngkarliq kafedrası; Dekorativ-tətbiqi sənət; Sənətşünasliq.

Fakültədə yeddi ixtisas (Təsviri sənətin tarixi və nəzəriyyəsi; Teatr – dekor sənəti (səhnəqrafiya); Televiziya və

kino rəssamı; Xalçaçı rəssam; Reklamçı rəssam; Dizayner rəssam; Qrim sənəti və dekorativ kosmetoloq) üzrə kadr hazılığı aparılır.

Müasir tələblərə cavab verən yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlamaq məqsədi ilə 1994-cü ildə Universitetdə aspirantura şöbəsi yaradılmışdır. Bu, elmi kadrlar hazırlanması işində universitetin imkanlarını ciddi şəkildə artırmışdır. ADMİU-nun şəbəkəsinin genişləndirilməsi sonrakı illərdə də həyata keçirilmişdir. 1997-2001-ci illər ərzində burada "xoreoqrafiya sənəti", "aşıq sənəti", "solo-oxu", "kulturoloq" kimi daha 9 yeni ixtisas yaradılmışdır. 2003/2004-cü tədris ilində ADMİU-da "Beynəlxalq mədəni əlaqələr" və "Nəşriyyat-poliqrafiya işi" ixtisasları üzrə kadr hazırlığına başlanılmışdır. Növbəti 2004/2005-ci tədris ili üçün burada "Teatr-dekor", "Təsviri sənət tarixi və nəzəriyyəsi" və "Turizm işi" ixtisasları təsis edilmişdir. 2003-2007-ci illər ərzində bu ali məktəb 40-a yaxin ixtisas üzrə 12.662 nəfər ali təhsilli mədəniyyət və incəsənət mütəxəssisi hazırlamışdır.

1999-cu il dekabrın 1-dən etibarən ADMİU-nun nəzdində namizədlik dissertasiyalarının müdafiəsi üzrə N 02.091-№li İxtisaslaşdırılmış Dissertasiya Şurası fəaliyyət göstərir. ADMİU-nun İxtisaslaşdırılmış Dissertasiya Şurası Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın təlimatına müvafiq olaraq genişləndirilmiş tərkibdə doktorluq dissertasiyalarının müdafiəsini təşkil etmək səlahiyyətinə də malikdir. ADMİU-nun nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış Dissertasiya Şurasının sədri, əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyevdir. 2006-cı ildə ADMİU-da yeni tərkibdə Dissertasiya Şurası təsdiq edilmişdir. ADMİU-nun İxtisaslaşdırılmış Dissertasiya Şurası bir qayda olaraq aşağıdakı ixtisaslar üzrə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsini təşkil edir: Teatr sənəti; Kino, televiziya və digər ekran sənətləri; Təsviri və dekorativ-tətbiqi sənətlər; Mədəniyyətin tarixi və nəzəriyyəsi.

## Qeyri-hökumət təşkilatlarının Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardımı
*("Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının fəaliyyəti kontekstində)*

Müasir texnogen bəşəriyyətdə ruhi-mənəvi mədəniyyətin inkişafına qlobal, regional və lokal problemlərin effektiv həllinə xidmət edən ən vacib bir məsələ kimi baxılır. Ruhi-mənəvi mədəniyyət mütərəqqi cəmiyyət və dövlətlərin əsas dayaq sütunudur. Onun möhtəşəm rolu ondan ibarətdir ki, hətta maraqlarda, mentallıqda və ənənələrdə olan fərqlərə baxmayaraq, o yalnız şəxsiyyətlərarası səviyyədə deyil, həm də milli, regional və qlobal miqyasda güclü birləşdirici faktor kimi çıxış edir. Onun inkişafın məqsədlərini və yollannı təyin edən maraqlara müsbət təsir etmək qabiliyyəti mədəni fərqlərin ağıllı istifadəsinə və ziddiyyətləri yaradıcı, qurucu məcraya döndərməyə imkaıı verir. XX əsrin kulturoloji şüuru və bununla əlaqəli olan inkişafm əsas məqsədi kimi insana yeni baxış bəşəriyyətin daha yaxşı gələcəyi, yeni humanistik sivilizasiya yaratmaq yolunda təbiətin və insanın dəyişdirilməsinin universal əsası kimi ruhi mədəniyyət qarşısında çox geniş imkanlar açır (18, s.94).

Mədəniyyətdən kənarda insanm inkişafı mümkün deyil, çünki mədəniyyət – insan tərəfindən təbiətin, onun özünün və cəmiyyətin dərk olunması və dəyişdirilməsi, öz həyat və fəaliyyətinin qorunub-saxlanması və yaxşılaşdınlması məqsədilə onıın mahiyyət xarakterli qiivvələrinin reallaşması prosesidir. Tarixin, arxeologiyanın, antropologiyamn, entoqrafiyamn, fəlsəfənin, məntiqin, psixologiyanm, linqvistikanın, filologiyanın, incəsənətşünaslığın, sosiologiyanın və digər elmlərin nailiyyət və metodlanna əsaslanan kulturoloji analiz göstərir ki, yüksək ruhi-mənəvi mədəniyyət – insanların bütün problemlərinin həllinin açarı, milli təhlükəsizliyin və rifahm əsasıdır._Bu, insanın və cəmiyyətin xilasının, inkişafının və

çiçəklənməsinin yeganə yoludur. Yüksək mədəniyyətli insan hər bir ölkənin başlıca milli sərvətidir. İnsanların mədəni səviyyəsinin aşağı vəziyyətində maddi rifah, zəngin təbii ehtiyatlar insanın sosial (18, s.6) inkişafında gözlənilən nəticələri vermir, xoşbəxtliyi təmin etmir.

Avropa Şurası ekspertlərinin Azərbaycan mədəniyyəti ilə bağlı hesabatlarında deyilir ki, mədəniyyət sahəsi ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən qeydə alınmış 80 QHT mövcud olmasına baxmayaraq, vətəndaş cəmiyyətlərilə əlaqələr hələ də çox zəifdir. Yerli hakimiyyət orqanları ilə münasibətdə də vəziyyət bu cürdür. Gələcəkdə vətəndaş cəmiyyətlərinin və yerli hakimiyyət orqanlarının mədəniyyət sektorunun inkişafında rolu çox vacib olacaqdır. Bu sahədə araşdırmalar və eksperimentlər aparmaq məqsədilə vətəndaş cəmiyyətləri və yerli hakimiyyət orqanları üçün mədəniyyətlə bağlı elə pilot layihələri tövsiyə edirik ki, onlar regionların birində işlənib hazırlansın və inkişaf etdirilsin, iştirak və qərarların qəbulu baxımından mədəniyyətin yenidən nəzərdən keçirilməsinə (nəzəri deyil, praktik və tətbiqi axarda) yönəldilsin. Biz Nazirliyin gələcəkdə QHT ilə əlaqələrini genişləndirmək və onları birgə layihələrə cəlb etmək niyyətini yüksək qiymətləndiririk. Yeni, məsələn, icma incəsənəti, incəsənət və inkişaf, incəsənət və şəhərlərin dirçəlişi, incəsənət və səhiyyə, incəsənət və gənclik kimi fəallıq sahələri tədqiq edilməlidir.

Ekspertlərin hesabatlarında həmçinin qeyd edilir ki, art-menecment və mədəniyyətin idarə olunması üzrə treninqlərə böyük ehtiyac vardır. Biz, milli və yaxud yerlərdə yaradılan QHT-lər və Avropa təşkilatlarının dəstəyi ilə, bütün mədəniyyət sektorlarında islahatların həyata keçirilməsində başlıca vasitə olacaq insanlar da daxil edilməklə, həmin sahələrdə işçi ştatı üçün treninqlər təşkil olunmasını tövsiyə edirik.

Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım baxımından qeyri-hökumət təşkilatlarının fəaliyyəti mühüm əhəmiyyət kəsb edir ki, bunlar içərisində

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının rolu xüsusilə qeyd edilməlidir. "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası mədəniyyət sahəsində respublikada yeni tipli çoxşaxəli ilk qeyri-hökumət təşkilatıdır. Assosiasiya respublika ziyalılarının görkəmli nümayəndələrinin təşəbbüsü, Azərbaycan Elmlər Akademiyası tərəfindən dəstəklənən tarix elmləri doktoru Fuad Məmmədovun kulturoloji konsepsiyası əsasında 1990-cı ilin aprel ayında yaradılmışdır. Assosiasiyanın missiyası Azərbaycanda sosial-mədəni tərəqqiyə, elmin, təhsilin və maarifin, ilk növbədə kulturologiyanın inkişafına elmi yardım göstərməkdən, Azərbaycan elmini və mədəniyyətini xaricdə təbliğ etməkdən ibarətdir (88, s.78-79).

Assosiasiyanın əsas məqsədlərindən biri dünya mədəniyyətinin və sivilizasiyasının mütərəqqi tarixi inkişaf təcrübəsini sistemli kulturoloji şəkildə tədqiq etmək və onu Azərbaycan cəmiyyətinin və dövlətinin demokratikləşməsi və modernləşdirilməsi, eləcə də beynəlxalq mədəni əməkdaşlıq üçün yaradıcı şəkildə istifadə etməkdir. Assosiasiyanın fəaliyyətinin elmi əsasları, mədəniyyətə sülhü, intellektual və sosial tərəqqini təmin edən insanın yaradıcı həyat fəaliyyəti kimi baxan müasir kulturoloji konsepsiya və metodologiya üzərində qurulmuşdur.

Assosiasiya Azərbaycanın milli mənafeyinə və modernləşməsinə olan tələbata əsaslanaraq, sistemli kulturoloji tədqiqatlar əsasında mədəniyyət sahəsində mütərəqqi islahatların həyata keçirilməsi üzrə mədəniyyətin idarəedilməsi üçün nəzərdə tutulmuş praktiki tövsiyələr hazırlayır. Assosiasiya dünya və Azərbaycan mədəniyyətinin və sivilizasiyanın tarixi və nəzəriyyəsi üzrə bir sıra monoqrafiyalar, kitablar və məcmuələr, yüzlərlə elmi məqalələr dərc etmişdir. Nəşr olunmuş əsərlərdən, süsusilə, "Kulturologiya" dərs vəsaitini, "Kulturologiya effektiv həyata və fəaliyyətə aparan yol kimi" monoqrafiyasını, "Norveçin mədəniyyəti dünya sivilizasiyası kontekstində", "Azərbaycanda yeni mədəniyyət siyasətinə

yardım", "Sülh mədəniyyəti nədir?", "Dönüş mərhələsində qlobal idarəetmə: dəyişən dünyada sülhün qorunmasına innovasiya yanaşmaları" kitablarını, "Mədəniyyət və cəmiyyət", "Mədəniyyət və Azərbaycan gəncləri" məcmuələrini göstərmək olar (88, s.78-79).

Assosiasiyanın çap etdirdiyi kitablar "Humay" və "İntellekt" Milli İctimai mükafatları ilə təltif edilmişdir, Rusiyanın Pedaqoji və Sosial Elmlər Akademiyası və "İntellektual İnkişaf Problemləri" Beynəlxalq Elmlər Akademiyası tərəfindən yüksək qiymətləndirilmişdir. Onlardan bəziləri Azərbaycanda istifadə edilməklə yanaşı BMT-nin, ABŞ-ın Konqresinin, Roma Klubunun, Sorbonn və İNALKO (FRANSA), Rusiyanın, Almaniyanın, Böyük Britaniyanın, Kanadanın, Bolqarıstanın, İtaliyanın, eləcə də dünyanın müxtəlif ölkələrinin müasir alimlərinin şəxsi kitabxanalarında da istifadə edilir (88, s.78-79).

2000-ci ildə Assosiasiya Avropa Şurasının mədəniyyət siyasəti üzrə məlumatlar bazasına daxil edilmiş və BMT-nin nəzdində fəaliyyət göstərən Qeyri-hökumət təşkilatlarının Ümumdünya Assosiasiyasına üzv qəbul edilmişdir. Assosiasiyanın 100-ə qədər üzvü Sülhün səfiri ("Ambassador for Peace") beynəlxalq fəxri adla təltif edilmişdir (88, s.78-79).

1990-cı ildən fəaliyyət göstərən "Mədəniyyət və cəmiyyət" adlı daima fəaliyyət göstərən kulturoloji seminar çərçivəsində, Bakıda və Azərbaycanın rayonlarında əhalinin müxtəlif təbəqələrindən minlərlə mütəxəssisin və dinləyicinin və xarici mütəxəssislərin iştirak etdiyi 200-dən artıq elmi və maarifləndirici seminar, konfrans, dəyirmi masa, fokus qrup, treninq keçirilmişdir (88, s.78-79). Assosiasiya sosial-mədəni tərəqqinin, sülhün, mədəniyyətin idarəedilməsinin və beynəlxalq əməkdaşlığın inkişafına yönəlmiş bir sıra layihələr yerinə yetirmişdir. Onlardan ABŞ-dan, Rusiyadan, Yaponiyadan, Fransadan, Norveçdən olan mütəxəssislərin iştirakı ilə həyata keçirilmiş "Azərbaycan Respublikasında

üçüncü sektor" (Bakı, 1996), "Demokratiya mədəniyyəti və BMT" (Bakı, 1997), "Norveç mədəniyyəti dünya sivilizasiyası kontekstində" (Bakı, 2000), "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" (Bakı, 2001), "Sülh və qlobal idarəetmə mədəniyyəti" (Bakı, 2003) və başqalarını qeyd etmək olar (88, s.78-79).

Kulturologiya sahəsində tədqiqatların genişləndirilməsi və milli mədəniyyətin demokratikləşdirilməsi məqsədi ilə 90-cı illərin sonunda assosiasiya tərəfindən Kulturoloqlar Cəmiyyəti, Vətəndaş Cəmiyyətinin Beynəlxalq Mədəniyyət Forumu, eləcə də Azərbaycan QHT Forumu təsis edilmişdir (88, s.78-79).

Müasir dünya sivilizasiyasında, kulturologiya elminin metodologiyası və nailiyyətləri əsasında hazırlanmış, demokratik dövlətlərin mədəniyyət siyasəti – stabil, effektivli iqtisadiyyatı və sosial cəhətdən zəngin orta sinifi olan, rəqabətə dözümlü, təhlükəsiz, hüquqi dövlətin qurulması üçün ən önəmli şərtdir.

Azərbaycan Respublikasının yeni mədəniyyət siyasətinin düzgün və daha effektivli, milli maraqlarımıza uyğun olması üçün, hər şeydən öncə, onun əsasında sovet dövründən qalmış məhdud anlayış yox, müasir kulturologiya elminin bəhrəsi olan, "tam sosial sistem", "ikinci süni təbiyət" kimi dərk olunan geniş elmi anlayış durmalıdır (131; 139). Bu baxımdan yeni mədəniyyət siyasəti intellektual, mənəvi-etik, dövlətçilik, hüquqi, idarəetmə, hərbi, istehlak, məişət, ictimai və beynəlxalq münasibətlər mədəniyyətimizin sürətlə inkişafına təkan verməlidir. Mahiyyətcə sosial-mədəni siyasət olaraq, mədəni irsin qorunmasına, bədii mədəniyyətin, istehsalat mədəniyyətinin, məişət mədəniyyətinin, səhiyyə, ekologiya, fiziki mədəniyyət, idman, turizm, kitab nəşri və insan həyatının digər fəaliyyət sahələrinin inkişafına yardım etməlidir.

Mədəniyyət siyasəti məsələləri ilə məşğul olan tədqiqatçıların, xüsusilə də professor Fuad Məmmədovun mövzu ilə bağlı ümumiləşdirilmiş qənaətlərinə istinadən deyilə

bilər ki, Azərbaycanın sosial-mədəni inkişafı aşağıdakı mühüm problemlərin həlli ilə şərtlənir:

– Milli mədəniyyətimizin mükəmməlliyi Azərbaycanda insan tələbatlarının təmin olunması və şəxsiyyətin potensial qabilyətlərinin sosial reallaşdırılması üçün əlverişli şəraitin yaradılması ilə bağlıdır. Bunun həyata keçirilməsi, ölkəmizdə təhlükəsiz, harmonik sosial mühitin yaradılması üçün, vətəndaşlarımızın bacarıqlarının hərtərəfli inkişafını təmin edən imkanların genişləndirilməsi, mədəniyyətin sosial qurumlarının ardıcıl islahatları və modernləşdirilməsi, insanların şüurunun mütərəqqi mənada dəyişdirilməsi tələb olunur (131; 139).

– Elitar mədəniyyətin inkişafını təmin edən və onun dövlətin qüdrətini artıran nailiyyətlərini təbliğ edən, eyni zamanda kütlə, əyləncə mədəniyyətinin etik və estetik səviyyəsini yüksəldə biləcək, kulturoloji proqram və layihələr vasitəsi ilə cəmiyyətin ümumi mədəni səviyyəsi, intellektual, mənəvi və estetik cəhətdən, davamlı yüksəldilməsi prosesi təmin olunmalıdır.

– Uşaqların ailə və sosial tərbiyyəsi və təhsilində, uşaq ədəbiyyatı və incəsənətində, uşaq təşkilatları və düşərkələrində aparılan tədbir və oyunlarda zəngin milli və bəşəri mədəniyyətin ən dəyərli nailiyyətləri təbliğ edilməli, o dəyərlərə rəğbət və məhəbbət hissləri formalaşdırılmalıdır.

– Kütləvi informasiya vasitələrinin, peşəkar mədəniyyətlərin təkmilləşdirilməsi, televiziya və radio verilişləri, jurnal və qazetlərin dərc olunan materiallarında intellektual mədəniyyətin inkişafının və ənənəvi mənəvi dəyərlərin təbliğinin təmin edəilməsinə daha böyük diqqət yetirilməlidir.

– Milli mədəniyyətimizin yaradıcıları olan ziyalılarımız – alimlər, müəllimlər, incəsənət xadimləri və mütəxəssislərin (birinci növbədə, intellektual, mənəvi, bədii, hüquqi və idarəetmə mədəniyyətinin inkişafını təmin edən mütəxəssislərin)

həyat və fəaliyyətlətləri üçün əlverişli təşkilatı, maddi və mənəvi şərait yaradılmalıdır.

– Mədəniyyət siyasəti vətənin sosial-mədəni tərəqqisi yolunda xidmətləri olan, onun müdafiyəsi yolunda fədakarlığ göstərən bütün şəxsiyyətlərin - ziyallıların və qəhrəmanlarının xatirəsisnin əbədiləşdirilməsini təmin etməlidir.

– Mədəniyyət siyasəti dövlətimizin milli ideologiyası və təhlükəsizliyi strategiyası, milli-mədəni irsimizin əsasında, təkcə vətənpərvərlik tərbiyyəsi sistemində yox, ümumiyyətlə xalqımızın həyat tərzi və üslubunda, reklamda, modalarda, əyləncə və xidmətlər sahəsi və sairədə mənəvi dəyərlərimizin, estetik zövqün, yüksək mədəniyyət normalarının formalaşdırılmasına kömək göstərməlidir.

– Sosial-mədəni tərəqqiyə istiqamətlənmiş proqram və layihələrinin hazırlanması, müvafiq insan, təhsil, elm, maliyyə, iqtisadi, təşkilatı, hüquqi vəsaitlərin müəyyən edilməsini, ümumi və xüsusi kulturoloji tədqiqatların, təhsil və maarifin əlaqələndirilməsini, sosial-mədəni fəaliyyət subyektlərinin əməkdaşlıq və partnyorlıq fəaliyyətinin daha yüksək səviyyədə təşkil olunmasını, mədəniyyət müəssisələrinin effektivli monitorinqini tələb edir (131; 139).

Kulturologiya sahəsində təcrübəli ekspertlərin fikrincə mədəni inkişafın uğurlu idarəolunması aşağıdakı vəzifələrin həll oluması ilə əlaqəlidir:

– Azərbaycan cəmiyyətinin sabit daxili inkişafını və dövlətimizin qloballaşma şəraitində rəqabətə dözümlülüyünü təmin edən insan kapitalının inkişafı, şəxsiyət və liderlərin formalaşdırılması ilə;

– Xalq kütlələri tərəfindən innovativ mədəniyyətin yüksək qavramaq səviyyəsini, gənclərin və uşaqların intellektual inkişafını və tərbiyəsini təmin edən effektivli dövlət və qeyri-hökumət kulturoloji-maarif sisteminin yaradılması ilə;

– Milli incəsənətin davamlı inkişafı və mədəni irsin qorunması ilə;

– Cəmiyyətin ruhi (əqli və mənəvi) və maddi mədəniyyətinin modernləşdirilməsi ilə;

– Dünyanın aparıcı ölkələri ilə mədəni mübadilənin inkişafı və genişlənməsi ilə;

– Ölkənin mədəni potensialının, cəmiyyətin sosial texnologiyalarının və sosial mədəniyyət sistemlərinin, informasiya, rabitə, şəhərqurma, təbabət, ekologiya mədəniyyəti, demokratiya və vətəndaş cəmiyyəti mədəniyyəti, hüquqi və siyasi mədəniyyət, idarəetmə və parlamentarizm mədəniyyətinin inkişafının təmin olunması ilə (131; 139).

Kulturologiya elminin nailiyyətləri, dünya sivilizasiyasının inkişaf təcrübəsinin təhlili milli mədəniyyətimizin inkişafında yeni prioritetlərin seçilməsini zəruri etmişdir. Bu istiqamətlər – intellektual, mənəvi, hüquqi və idarəetmə mədəniyyətləridir.

Müvafiq maddi şərait olduğu zaman intellektual mədəniyyət, dövlətin strateji prioritetinə, istehsalat qüvvələrinin, təbiətin və cəmiyyətin mütərəqqi dəyişdirilməsinin, insanın tələb etdiyi həyat nemətlərinin baş amilinə çevrilir.

Etik mədəniyyət (mənəviyyat, xoş niyyət, insaniyyət, inam və iradə) olmadan, intellektual mədəniyyət təkcə yaradıcı yox, həmçinin cəmiyyət üçün təhlükəli dağıdıcı qüvvə ola bilər. Etik mədəniyyət təkcə insan münasibətlərinin dəyərli tənzimləyicisi yox, həmçinin mövcud qanunların icrasının təminedicisi və hüquqi mədəniyyətin mənəvi əsası rolunu oynayır.

Hüquqi mədəniyyət ictimai münasibətləri tənzimləyən, insan hüquqlarının müdafiəsini, cəmiyyətin sosial, siyasi və iqtisadi həyatının təhlükəsizliyini təmin edən çox vacib bir amildlr (131; 139).

İdarəetmə mədəniyyəti siyasi və iqtisadi tərəqqini, davamlı sosial inkişafı, xalqın rifahı və həyat keyfiyyətinin yuksəlməsini təmin edən dövlətin strateji fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının rəqabətədözümlülüyü və təhlükəsizliyi üçün kulturologiya elminin strateji əhəmiyyəti baxımından, dövlətin mədəniyyət siyasəti çərçivəsində:

– Azərbaycan mədəniyyətinin modernləşməsinə və daha yaxşı gələcəyə istiqamətlənmiş mədəniyyət inkişafının Milli Onilliyinin kulturoloji layihəsinin hazırlanması, respublikada və xarici ölkələrdə planlaşdırılmış şəkildə keçirilməsi;

– Azərbaycanın bütün ali təhsil müəssisələrinin proqramlarına 144 saat həcmində "Dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi" (Kulturologiya) fənninin daxil edilməsi;

– Ölkənin ali məktəblərinin qəbul imtahanları proqramına kulturologiya üzrə testlərin daxil edilməsi;

– Respublikanın ali təhsil müəssisələrində milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi kabinetləri, laboratoriyaları və kafedralarının açılması;

– Mədəniyyətşünaslıq fənninin orta və ibtidai təhsil sistemi tədris proqramlarına daxil edilməsi;

– Bakıda kulturologiya üzrə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üçün elmlərarası Dissertasiya Şurasının yaradılması;

– Bütün səviyyəli məmurlar üçün kulturologiya və idarəetmə mədəniyyəti üzrə kulturoloji treninqlərin təşkil olunması, mükəmməl kulturoloji bilikləri olan gənc mütəxəssislərin rəhbər vəzifələrə daha fəal cəlb edilməsi;

– Azərbaycanda mədəniyyətin demokratikləşdirilməsinə, yüksək məişət, istehsal, hüquqi, millətlərarası, siyasi, sosial mədəniyyət standartlarının formalaşmasına istiqamətlənən, əhalinin mədəni maariflənməsinin xüsusi kulturoloji proqramının işlənməsi və reallaşdırılması;

– Azərbaycanın rayonları və Bakıda xüsusi kulturologiya məktəblərinin təşkil olunması;

– Azərbaycan Milli Elmlər Akademiyası tərkibində Kulturologiya İnstitutunun yaradılması;

– Kulturologiya sahəsində beynəlxalq tələblərə cavab verən ekspertlərin hazırlanması üçün Bakıda Beynəlxalq Dünya Mədəniyyəti Universitetinin açılması;

– Dünya mədəniyyəti və sivilizasiyasının inkişafı problemləri üzrə Bakıda beynəlxalq kulturoloji konqresslər, simpoziumlar, kollokviumlar və görüşlərin, mütəmadi olaraq keçirilməsi;

– Respublika televiziyasında əhalinin ümumi mədəni səviyyəsinin yüksəlməsinə, milli və dünya mədəniyyətinin nəzəriyyəsi, təcrübəsi və tarixi sahəsində cəmiyyətin kulturoloji biliklərinin dərinləşdirilməsinə yönəlmiş "Mədəniyyət və cəmiyyət" adlı xüsusi kulturoloji maarifləndirici proqramın açılması;

– Respublikanın təşkilat və müəssisələri üçün dünya mədəniyyəti və sivilizasiyasının tarixi-nəzəri problemləri üzrə daim fəaliyyət göstərən kulturoloji lektoriyaların təşkili;

– Azərbaycaın rayonlarında demokratik mədəniyyət mərkəzlərinin yaradılması;

– Təhsil və mədəniyyət üzrə milli hesabatlar, fəaliyyətlərin koordinasiyası və dövlət strukturları ilə qeyri-hökumət mədəniyyət təşkilatlarının ümumi milli maraqlar üzrə səmərəli əməkdaşlığının həyata keçməsi üçün kulturologiya və mədəni siyasət problemləri ilə məşğul olan Azərbaycan Mədəniyyət fondu, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası və digər aparıcı qeyri-hökumət təşkilatlarına göndərilməsi;

– Azərbaycan mədəniyyətinin demokratikləşdirilməsi və modernləşdirilməsi proseslərinin kulturoloji ekspertizası və milli monitorinqinin keçirilməsi ilə bağlı proqramlar və layihələrin həyata keçirilməsi nəzərdə tutulmalıdır (131; 139).

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının araşdırmalarında gəlinən qənaətlərə görə milli maraqlarımız və beynəlxalq təcrübənin əsasında qurulmuş dövlət mədəniyyət siyasətinin təmin olunması məqsədi ilə Azərbaycan Respublikasının qanunvericiliyində aşağıdakı təminatlar məqsədəuyqun hesab olumalıdır:

– Azərbaycanın ruhi (əqli və mənəvi) mədəniyyəti sistemində intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətin prioritet inkişafı;

– Ölkənin sosial-siyasi mədəniyyətinə, demokratiyanın aparıcı mədəni dəyərləri olan şəxsiyyətə hörmət, məsuliyyət mədəniyyəti və dürüstlüyün inkişafına xüsusi fikir verilməsi;

– Ziyalıların, ən əvvəl alim, müəllim və həkimlərin sosial təminat və ictimai statusunun yüksəldilməsi;

– Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılması, bütün təhsil pillələrində, ümumi və xüsusi kulturoloji təhsilin inkişafı üçün hüquqi şərait və prioritetlərin yaradılması;

– İntellektual mədəniyyətin – elm və təhsilin hərtərəfli inkişafa istiqamətlənən dövlət kulturoloji proqramının hazırlanıb həyata keçirilməsi, kütlələr arasında elmi biliklərin genişləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, əhalinin kulturoloji maariflənməsi üzrə dövlət sisteminin yaradılması, eləcə də Azərbaycan vətəndaşlarının maraq və mədəniyyətlərinin harmonizasiyası;

– Respublikanın məmur və siyasətçiləri arasında vətəndaş məsuliyyəti mədəniyyətinin inkişaf etdirilməsi, onların milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi sahəsində elmi biliklərinin artırılması, habelə demokratik idarəetmə mədəniyyəti texnologiyalarına yiyələnməsinə yardım edilməsi;

– Monopolizm və korrupsiyanın aradan qaldırılması, yoxsulluqla mübarizədə dövlət siyasətini dəstəkləmək, rəhbər işçilərin reytinqini keçirməyə imkan verən, onların fəaliyyətinin şəffaflığını təmin edən, ölkədə sosial-siyasi stabilliyin əldə edilməsi maraqlarına cavab verən demokratik idarəetmə sisteminin ictimai monitorinqinin həyata keçirilməsi;

– Yüksək mədəni potensiala (peşəkar və etik), demokratik idarəetmə mədəniyyəti sahəsində zəruri biliklərə və dövlət quruculuğunun müxtəlif sahələrində onu geniş təbliğ etmək bacarığına malik rəhbərlərin demokratik seçilməsi təcrübəsinin genişləndirilməsi (131; 139).

Avropa Şurası ekspertlərinin Azərbaycan mədəniyyəti ilə bağlı hesabatlarında deyilir ki, biz Mədəniyyət və turizm

Nazirliyinə məsuliyyətinin bilavasitə nə olması və onun harada qurtarması məsələlərini əks etdirən ümumi sənəd formasında təlimat kitabçası buraxmağı tövsiyə edirik. Bu təlimatlar, həmçinin QHT ilə əməkdaşlıq metodlarını və mədəniyyət sahəsində islahatların həyata keçirilməsində sonuncuların rolu ilə bağlı baxışları əhatə etməlidir. Hökumət və Mədəniyyət və Turizm Nazirliyi mədəniyyətin maliyyələşməsinə dair qayğıkeş qanunvericilik və dövlət strategiyası müəyyən etməlidir. Bu o deməkdir ki: Birdəfəlik qərarlar çıxarmaq (məsələn, bəzi müəssisələr və yaxud kateqoriyalar üzrə maaşların artırılması) əvəzinə ölkə üzrə orta aylıq əmək haqqı həddinə nisbətən xeyli aşağı müvafiq sektorlarda əmək haqlarının sektoral qaydada artırılması barədə düşünülməlidir; Sərbəst və açıq müsabiqə yolu ilə, xüsusilə də kino, nəşriyyat, ifaçılıq sənəti sahəsində müəssisələrə deyil, layihələrə, eləcə də teatrlar, mədəniyyət mərkəzləri və QHT-lər (beynəlxalq maliyyələşdirilməsinin tətbiqi də daxil olmaqla müxtəlif tərəfdaşlıq layihələrində) kimi özəl mədəniyyət müəssisələrinə maliyyə dəstəyi göstərilməsinə imkan verən daha sərbəst büdcə normaları müəyyən edilməlidir; Şəffaflığın ifadəsi kimi müstəqil mütəxəssislər bürosunun qərarına əsasən də maliyyə yardımı göstərilməlidir; Biznes aləmi tərəfindən himayədarlığın təşviqi üçün sponsorluq haqda qanunvericilik qəbul edilməlidir; Vergi güzəştləri və yaxud ƏDV-dən azad olunma tətbiq edilməlidir; Mədəniyyət müəssisələrinə dəstək assosiasiyaları (məsələn, Muzey Dostları Assosiasiyası və s.) yaratmaq imkanı verən qanun dəyişiklikləri edilməlidir; belə assosiasiyalar digər vəzifələrlə yanaşı müxtəlif layihələr üçün əlavə maliyyə mənbəyi rolunu oynaya bilərlər. Bu cür tədbirlər həm də mədəniyyət aləminin iştirakını və etibarını yaxşılaşdıracaqdır.

## Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mədəniyyət konsepsiyasında varislik faktoru

Danilmaz bir tarixi faktdır ki, sovet hakimiyyəti illərində nailiyyətlərimiz də olmuşdu, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Lakin bunlar kommunist ideologiyasının rəhbər və istiqamətverici rolunu tanımaq şərtilə əldə edilmişdi. Çünki başqa cür düşünmək belə olmazdı. Milli-mənəvi dəyərlər, soykökə qayıdışla bağlı hər hansı müstəqil ideyalarla çıxış etmək sadəcə olaraq qadağan idi (11, s.293-294).

Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də SSRİ-nin dağılması ərəfəsində Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının elan eldilməsi ilə Azərbaycan yenidən itirilmiş istiqlaliyyətini özünə qaytarsa da, istər daxili, istərsə də xarici siyasətində əsl müstəqilliyə nail ola bilmədiyi kimi, dövlət səviyyəsində milli- mənəvi dəyərlərin qorunması və yaşadılması üçün də əslində heç bir iş görülmürdü. Nəticədə ölkəmizin ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olundu, bir milyondan artıq qaçqın və məcburi köçkünlərimiz çadırlarda ağır vəziyyətdə yaşamağa məcbur edildi, ölkəni seperatçılıq meylləri bürüdü, hakimiyyət böhranı vətəndaş müharibəsinə səbəb oldu. Azərbaycanın başının üstünü yenidən öz müstəqillyini itirmək təhlükəsi aldı.

Belə bir ağır şəraitdə xalqın təkidi və tələbi ilə 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə bütün bu neqativ hallara son qoyaraq hər cür separatçılıq meyllərini aradan qaldırdı, ölkədə ictima-siyasi sabitliyi bərqərar etdi, iqtisadiyyatı fəalkətli vəziyyətdən qurtarmaq üçün islahatlar proqroamını işləyib hazırladı və həyata keçirməyə başladı. Ölkənin təbii sərvətlərindən xalqın faydalanması üçün inkişaf etmiş dövlətlərlə çoxsaylı neft müqavilərinin bağlanmasına, Ermənistanla müharibədə atəşkəs

əldə edilməsinə nail oldu. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması şərtilə Ermənistanla müharibəyə son qoymaq üçün fəal sülh siyasəti yeritmək mövqeyini bütün dünyaya bildirdi. Həmin siyasət dünya birliyində, beynəlxalq təşkilatlarda yaxşı qəbul edildi. Hazırda dünyanın ən aparıcı dövlətləri Azərbaycanın mövqeyini dəstəkləyir və onu müdafiə edir.

Bütün məsələlərdə olduğu kimi, milli-mənəvi dəyərlər məsələsinə münasibətdə də Heydər Əliyevin mövqeyi aydın və qəti oldu: "Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyvata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir" (11, s.295-296).

Müstəqillik illərində biz dövlət başçımızın bu dəyərli tövsiyyələrini rəhbər tutaraq mili-mədəni irsimizi, tarixmizi, milli sənətimizi ideoloji buxovlardan və qadağalardan xilas etmək yolunda çox uğurlu addımlar ata bilmişik.

Azərbaycan milli-mənəvi dəyərlərinə yiyələnməklə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi Heydər Əliyev tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Dövlət başçısı bu məsələdən bəhs edərkən belə deyirdi: "Gənclərimiz milli ruhlda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Maraqlıdır ki, Heydər Əliyev tariximizdən bəhs edərkən onu

mənəviyyatımızla sıx əlaqədə görür və göstərir ki, bütün mərhələlərdə xalqımızın tarixinin əsasını təşkil edən yüksək mənəviyyat olmuşdur və keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran da, bizim üçün nümunə edən də onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır (11, s.295-296).

Heç şübhəsiz ki, milli-mənəvi dəyərlərimizin mənimsənilməsində doğma dilimizin rolu olduqca möhtəşəmdir. Doğrudan da, sovet hakimiyyəti, bütün milli dillər kimi Azərbaycan dilinə münasibətdə də böyük ədalətsizliklərə yol verilmiş, ayrı-ayrı vaxtlarda isə Azərbaycan dilinin qanuni hüququnun özünə qaytarılması üçün göstərilən cəhdlər Moskvanın ciddi müqavimətinə düçar olurdu. Azərbaycanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul olunarkən, orada Azərbaycan dilinin dövlət dili statusu təsbit olunmuşdu. Eyni zamanda Sovetlər İttifaqının ümumi dili – rus dili hakm dil olduğundan Azərbaycan dilinin respublikada dövlət dilinə çevrilməsi yolunda çoxlu maneələr meydana çıxmışdı. Ancaq müstəqillik illərində bilavasitə dövlət başçımızın hərtərəfli qayğısı sayəsində Azərbaycan dilinin bütün hüquqları özünə qaytarıldı, eyni zamanda doğma dilimiz barədə AXC-Müsavat hakimiyyəti dövründə yol verilmiş əllaməliklərə son qoyuldu. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumu əsasında qəbul olunmuş ilk Konstitusiyasında (maddə 21) təsbit olundu ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

İslam dininin bəşəriyyətə bəxş etdiyi mənəvi dəyərlərin əhəmiyyətindən və onların öyrənilməsinin vacibliyindən bəhs edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin hələ 1996-cı il fervların 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda söylədiyi fikirlər bu gün üçün də çox aktual səslənir. "Bizim konstitusiyamıza görə

ölkəmizdə dünyəvi dövlət qurulur, din dövlətdən ayrıdır. Təbiidir ki, bütün dünyəvi ölkələrdə bu belədir. Bu, heç kəsdə təəccüb doğurmasın. Bu, bizim dinə münasibətdə başqa bir mövqe tutmağımızı göstərmir. Ancaq gənclərimizin islam dininin mənimsənilməsi üçün, hesab edirəm ki, lazımi tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhval-ruhiyyəsini aşılamaq istəyirlər və bunlar da bizim gənclərin tərbiyəsinə zərər vurur. Ona görə də islam dininin məktəblərdə tədris olunması, hesab edirəm ki, günün tələblərindən biridir və bu barədə Təhsil Nazirliyi, müvafiq təşukilatlar düşünməlidirlər, lazımi tədbirlər görməlidirlər. Yəni bizim gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt yol verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək islam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsinin zədələnməsinə gətirib çıxarsınlar" (47, 3 fevral 1996).

Bizə elə gəlir ki, bu gün dini təbliğat sahəsində baş verən xoşagəlməz hallar ona görə özünə müəyyən dərəcədə də olsa yer tapa bilmişdir ki, dövlət başçımızın çox vaxtında gördüyü bu təhlükənin kifayət qədər çeviklikIə qarşısının alınması üçün lazımi tədbirlər görülməmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli-mənəvai dəyərlərimizə, onların öyrənilməsinə və təbliğ olunmasına böyük əhəmiyyət verməklə yanaşı, Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış etmək məsələsini daim diqqət mərkəzində saxlayırdı. Məhz müstəqililik illərində dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin dövlət başçımızın təşəbbüsü ilə keçirilmiş 500 illik yubileyi əsl poeziya bayramına, milli mədəniyyətimizin bayramına, digər tərəfdən isə Azərbyacan dövlətçiliyinin, Azərbaycan müstəqilliyinin bayramına çevrildi. Müxtəlif ölkələrdən, YUNESKO-dan bu yubileyə gələn insanlar Füzuli poeziyası vasitəsilə Azərbaycanı

tanımış, onun xalqının milli-mənəvi dəyərlərini yüksək qiymətləndirmiş, bu xalqın həqiqətlərini dünyaya çatdırmaq üçün səylərini əsirgəməmişdir.

Fikrimizcə, prezident Heydər Əliyevin müstəqillik dövründəki fəaliyyəti ilə əvvəlki rəhbərlik dövründəki fəaliyyəti arasındakı sıx məntiqi əlaqəni, dialektik vəhdəti isbat etməyə ehtiyac yoxdur. Tarixi faktların ən böyüyü isə bu idi ki, dünya sosializm sisteminin və böyük Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır. Heydər Əliyevin doğma xalqı qarşısında ən böyük xidmətlərindən biri də bu idi ki, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Yaxın keçmişdə Azərbaycan xalqının başında qüdrətli bir siyasətçi dururdu – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan Heydər Əliyev başçılıq edirdi Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bilirdi!

Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi

ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Qurtuluş deməkdir! Azərbaycan dövlətçiliyi və prezident Heydər Əliyevin qətiyyəti 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qəsdləri zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə şəhid olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi.

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır. Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrilmişdir. Heydər Əliyevin xarici siyasət sahəsində ən mühüm uğurlarından biri də budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu. Hazırda Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvüdür, Heydər Əliyev isə bütün türk dünyasının müdrik yolgöstərəni, zəmanəmizin Atatürkü adını qazanmışdır! Müstəqil Azərbaycan dövlətinin islam dünyasındakı nüfuzu da getdikcə artmaqdadır. Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatların üzvüdür.

Azərbaycanın Avropa Şurasındakı uğurları göz qabağındadır. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğurur. Bununla yanaşı, İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının büro üzvü seçilməsi və vitse-prezidenti kimi yüksək vəzifəyə layiq görülməsi Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artdığını sybut edən daha bir parlaq faktdır.

Zəmanəmizin qüdrətli siyasətçisi Heydər Əliyevin özünün ölkəmiqyaslı qəbullarından tutmuş beynəlxalq miqyaslı görüşlərə, yüksək səviyyəli danışıqlarınadək hər yerdə, hər an Azərbaycan həqiqətini dünyaya yayırdı. İndi Azərbaycan, vaxtilə ona qarşı yaradılmış beynəlxalq informasiya blokadasını yarmışdır. Dünya Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan həqiqətini qəbul etməyə başlamışdır. Heydər Əliyev vaxtilə onun öz qayğısı sayəsində Moskva, Leninqrad və başqa şəhərlərin ali məktəblərində təhsil almış, özü də Azərbaycanın müxtəlif bölgələrini təmsil edən gənclərin qabaqcıl bir dəstəsini Prezident Aparatına, müxtəlif dövlət strukturlarına toplayıb onlara idarəçilik qaydaları öyrətdi, gələcəyin yeni, qüdrətli Azərbaycanı üçün hazırladı!

Ümumdünya tarixinin dahi şəxsiyyətlərindən biri olan Heydər Əliyevin layiqli varisi İlham Əliyevin rəhbərlik etdiyi müasir Azərbaycan, habelə bütün dünyanın 60 milyonluq azərbaycanlıları dirçəliş yolundadır. Azərbaycan xalqı yaxın gələcəkdə Böyük Azərbaycanın intibahını gözləyir. Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın yeni prezidenti, həm də dünya azərbaycanlılarının yeni lideridir. Azərbaycanın yeni prezidenti İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarınının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri vardır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. İlham Əliyev YAP-ın I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərir.

İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində, qısa müddət ərzində, Azərbaycan idmanı ayağa qaldırılmış, dünya şöhrətli qazanmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi

qələbəsidir. İlham Əliyev uzaqgörən dövlət xadimi və siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Onun təşəbbüsü ilə təkcə paytaxt Bakıda deyil, eyni zamanda regionlarda (Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Quba) da olimpiya idmanı-sağlamlıq komplekslərinin tikilib istifadəyə verilməsi, idmanın müxtəlif sahələrinin inkişafı üçün güclü maddi-texniki baza yaradılması xalqın sağlam gələcəyinə yönəlmiş müdrik siyasətin parlaq təzahürləridir. Hazırda Azərbaycanın beynəlxalq yarışlarda, idmanın müxtəlif sahələrində ön mövqelərə çıxması, Bakının dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevrilməsi Azərbaycanın şöhrətini daha da artırır, onun beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Bu günlərdə Pekində keçirilən Yay Olimpiya Oyunlarında idmançılarımızın uğurlu nəticələr göstərmələri, vətənə qızıl, gümüş və bürünc medallarla dönmələri, İlham Əliyevin gənclər siyasətinin ən böyük nailiyyətlərindən biridir.

İlham Əliyev beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. O, Azərbaycan nümayəndə heyətinin başçısı, yaxud üzvü kimi ABŞ, İngiltərə, Türkiyə, Fransa, Rusiya, Ukrayna, İsveçrə, Qazaxıstan, Özbəkistan, Slovakiya, Polşa, Gürcüstan və b. ölkələrdə rəsmi səfərlərdə, o cümlədən dövlət səfərlərində olmuş, bir çox beynəlxalq konfrans və konqreslərdə məruzələrlə çıxış etmişdir. İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir.

İlham Əliyev 2003-cü ilin və 2008-ci ilin Prezident seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident

İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi prezident fərmanı ilə 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur. Prezident İlham Əliyev ölkədə insan haqları və azadlıqlarının daha dolğun təmin olunmasını daim diqqət mərkəzində saxlayır.

İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi". Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır. Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur. Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik

daxili islahatlar və uzaqgörən, məqsəqyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilməkdədir.

İlham Əliyev, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamları (12 yanvar 2004-cü il), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir.

Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mədəniyyət konsepsiyasının İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycan Respublikasının mədəniyyət siyasətinin mütərəqqi və təminatlı perspektivlərindən xəbər verməkdədir.

# MƏDƏNİYYƏT SİYASƏTİ SAHƏSİNDƏ NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR

Müasir dünyanın hər bir ölkəsində mədəniyyət siyasəti ümumi dövlət siyasəti sistemində çox mühüm yer tutur, çünki cəmiyyətin normal həyat tərzi, xalqın rifahı, sosial sahələrin inkişafı, dövlətin tərəqqisi və sair vacib amillər mədəniyyət sisteminin düzgün qurulmasəından asılıdır. "Soyuq müharibə"nin başa çatması və dünya sosializm sisteminin dağılması, keçmiş sovet respublikalarının müstəqil dövlətlər kimi beynəlxalq arenaya çıxması və öz xarici siyasət prioritetlərini özləri təyin etməsi – bütün bunlar mədəniyyət sahəsində beynəlxalq münasibətlərin yeni formada qurulmasına birbaşa təsir göstərdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq mədəni əlaqələr yeni xarici siyasətin başlıca amillərindən birinə çevrildi. Bu siyasətin əsas məqsədləri xarici ölkələrlə qarşılıqlı anlaşma və qarşılıqlı inam münasibətlərini möhkəmləndirməkdən, onlarla bərabərhüquqlu və qarşılıqlı faydalı olan tərəfdaşlığı inkişaf etdirməkdən, ölkəmizin dünyada obyektiv şəkildə tanımasını təmin etməkdən ibarət olmuşdur. Gənc müstəqil dövlətin imicinin formalaşmasında milli mədəniyyət öz təsirliliyi və inandırıcılığı ilə, siyasətdə və iqtisadiyyatda qazanılan nailiyyətlərdən heç də az rol oynamamışdır.

Bir çox mədəniyyət sahələrində baş verən demokratikləşmə və desentralizasiya prosesləri beynəlxalq münasibətlərdə də öz əksini tapmışdır. Bir çox xarici ölkələrlə regional və şəhərlər səviyyəsində əlaqələr nəzərə çarpacaq dərəcədə güclənmişdir; ayrı-ayrı kollektivlər və artistlər bu sahədə tam müstəqillik əldə etmişlər. Artıq beynəlxalq əlaqələrin daha da güclənməsini məhdudlaşdıran yeganə amil maliyyə məsələsi olmuşdur. Lakin, sürətlə liberallaşma beynəlxalq mədəni əlaqələr sahəsinə təkcə müsbət deyil, həm də mənfi təsir göstərmişdir. Təəssüflər olsun ki, ayrı-ayrı kollektivlər və artistlər tərəfindən xaricə aparılan mədəniyyət məhsulu heç də həmişə özünün ən yaxşı nümunələri ilə təmsil

olunmur. Bu sözləri eyni zamanda qarşılıqlı olaraq xaricdən gətirilən mədəni ixrac məhsulları haqqında da söyləmək olar.

Mədəniyyət və Turizm Nazirliyinin 5 il üçün statistik məlumatları bu sahədə baş verən keyfiyyət dəyişikliklərinin xarakterik dinamikasını nümayiş etdirir. Mədəni əlaqələr tədricən inkişaf edərək, tək-tək mədəni tədbirlər və qastrollarla yanaşı uzunmüddətli birgə layihələrə geniş yer ayıran mədəni əməkdaşlığa keçir.

Əməkdaşlığın ənənəvi forması ikitərəfli əlaqələrdir. Belə ki, təkcə son illər ərzində Rusiya Federasiyası, Çin Xalq Respublikası, Böyük Britaniya, Polşa Xalq Respublikası, Türkiyə Respublikası, Rumıniya, Özbəkistan Respublikası, Gürcüstan Respublikası, Yunanıstan, Bolqarıstan, Moldova, Qazaxıstan Respublikası, İtaliya ilə mədəni əməkdaşlıq haqqında hökumətlərarası saziş bağlanmış, Rusiya Federasiyası, Başqırdıstan Respublikası, Belarus Respublikası, Çin Xalq Respublikası, İran İslam Respublikası, Gürcüstan Respublikası, Ukrayna, Türkiyə Respublikası, Qırğızıstan və s. ilə isə mədəni əməkdaşlıq haqqında nazirliklər-arası sazişlər və protokollar imzalanmışdır.

Beynəlxalq fəaliyyətin yeni və ən məhsuldar forması çoxtərəfli əməkdaşlıqdır. Müstəqil dövlət kimi çox qısa bir müddət ərzində mövcud olmasına baxmayaraq, Azərbaycan YUNESKO, Avropa Şurası, İCEKO, TÜRKSOY, MDB-nin Mədəni Əməkdaşlıq Şurası, GÖUAM və s. kimi beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində əlaqələr qura bilmişdir.

Azərbaycan 1992-ci ildə YUNESKO-nun üzvü olmuşdur. Ötən müddət ərzində YUNESKO ilə birlikdə dahi Azərbaycan şairi Füzulinin 500 illik yubileyinin keçirilməsi, görkəmli bəstəkar Qara Qarayevin 80 illiyinin bayram edilməsi, "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi kimi əhəmiyyətli beynəlxalq aksiyalar həyata keçirilmişdir. YUNESKO-nun Ümumdünya İrs Mərkəzi, Mədəni İrs Şöbəsi və Mədəniyyətlərarası Dialoq Şöbəsi ilə Azərbaycanın əlaqələri nəzərə çarpacaq dərəcədə güclənmişdir. Bunun nəticəsi olaraq, azərbaycanlı mütəxəssislər

müntəzəm surətdə xaricdə keçirilən beynəlxalq konfranslarda, seminarlarda və simpoziumlarda iştirak edir, həmçinin YUNESKO-nun müxtəlif miqyaslı tədbirləri üçün ev sahibi rolunu oynayırlar.

TÜRKSOY təşkilatı daxili və xarici siyasət kursundan, dövlət qurluşlarının siyasi oriyentasiyasından asılı olmayaraq, türkdilli dövlətlərin mədəniyyət sahəsində regional əməkdaşlığını həyata keçirir. Türk Mədəniyyəti və İncəsənətinin Birgə İnkişafı üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası və Özbəkistan Respublikası mədəniyyət nazirlərinin 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilən görüşləri zamanı əldə edilən razılıqlar əsasında yaradılmışdır. “TÜRKSOY-un yaradılması və onun fəaliyyət prinsipləri haqqında Müqavilə” bu ölkələr tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Alma-ata şəhərində imzalanmışdır. Təşkilatın fəaliyyət dairəsinə türkdilli ölkələr arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsi; türkdilli ölkələrin ümumi mənəvi dəyərlərinin, tarixi irsinin, mədəniyyət və incəsənət əsərlərinin, ənənəvi idman və xalq oyunları növlərinin inkişafı və təbliği; teatr, musiqi, opera və balet sənəti sahəsində festival və müsabiqələrin təşkili; sərgilərin, vernisajların və türkdilli ölkələrin təsviri və plastik sənətinin inkişafına yönəldilən digər tədbirlərin təşkili; mədəniyyət, incəsənət, təhsil sahələrində beynəlxalq və milli təşkilatlarla, ictimai strukturlar və hərəkatlarla qarşılıqlı əlaqə yaradılması və s. daxildir. TÜRKSOY çərsivəsində türkdilli dövlətlərin mədəniyyətinin inkişafı üçün xeyli dərəcədə faydalı olan çoxlu tədbirlər keçirilmişdir.

1996-cı il iyulun 8-də İstambul (Türkiyə) şəhərində “TÜRKSOY ilə YUNESKO arasında qarşılıqlı əməkdaşlıq haqqında Müqavilə” imzalanmışdır; həmin müqavilə bu təşkilatların mədəniyyət, incəsənət, təhsil və elm sahələrində

türkdilli ölkələrin və xalqların tarixi və mədəni irsinin qorunub saxlanılması və zənginləşdirilməsinə, onların intellektual mənəvi sərvətlərinin çoxaldıldmasına, insan hüquqları və azadlıqlarının müdafiəsinə yönəldilən fəaliyyətini əlaqələndirməyi nəzərdə tutur. 2002-ci ilin iyulunda GÖUAM-a üzv olan ölkələrin mədəniyyət nazirləri bu ölkələrin mədəni əməkdaşlığı haqda müqavilə imzalayıblar.

Azərbaycan beynəlxalq münasibətlər sahəsində normativ fəaliyyətin işlənib hazırlanmasına və gücləndirilməsinə xüsusi diqqət yetirir. Belə ki, son 10 il ərzində Azərbaycan ölkələr arasında tam miqyaslı və təhlükəsiz mədəni mübadilə üçün böyük əhəmiyyət kəsb edən və yerinə yetirilməsi yalnız müasir beynəlxalq hüquq normalarına riayət edilməklə mümkün olan bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Həmin konvensiyalar aşağıdakı cədvəldə verilmişdir.

Azərbaycanın qoşulduğu mədəniyyətə dair konvensiyalar:

| Konvensiyanın adı | Qəbul olunduğu il | Azərbaycanın ona qoşulduğu il |
|---|---|---|
| İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt | 19 dekabr 1966-cı il | 21 iyul 1992-ci il |
| Silahlı münaqişələr zamanı ümumdünya mədəni irsinin qorunması haqqında YUNESKO Konvensiyası və Protokolu | 14 may 1954-cü il | 21 aprel 1993-cü il |
| Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında YUNESKO Konvensiyası | 16 noyabr 1972-ci il | 6 dekabr 1993-cü il |
| Mədəniyyət haqqında Avropa Konvensiyası | 19 dekabr 1954-cü il | 1997-ci il |
| Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası | 16 yanvar 1992-ci il | 20 oktyabr 1999-cu il |
| Mədəni dəyərlərin qeyri-qanuni gətirilməsi, aparılması və mülkiyyət hüququnun dəyişdirilməsinin qadağan edilməsinə və qabaqcadan önlənilməsinə yönəldilən tədbirlər haqqında Konvensiya | 1970-ci il | 30 sentyabr 1997-ci il |
| Birgə Kino İstehsalı haqqında Avropa Konvensiyası | 2 oktyabr 1992-ci il | 28 oktyabr 1999-cu il |

Azərbaycanın 1996-2000-ci illər ərzində beynəlxalq mədəni əməkdaşlığının illər üzrə bölünmüş formaları:

| | Tədbirlərin adları | 1996 | 1997 | 1998 | 1999 | 2000 | Cəmi | % |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Qastrollar | 5 | 4 | 8 | 6 | 2 | 25 | 9,88 |
| 2 | Festivallarda iştirak | 16 | 11 | 9 | 16 | 14 | 66 | 29,09 |
| 3 | Beynəlxalq sərgilərdə iştirak | 2 | 2 | 2 | 2 | 2 | 10 | 3,95 |
| 4 | Beynəlxalq konfranslarda iştirak | 3 | 2 | 3 | - | 5 | 13 | 5,14 |
| 5 | Yubileylərdə iştirak | 3 | 2 | 3 | - | 5 | 13 | 5,14 |
| 6 | İşçi səfərlər | 3 | 7 | 10 | 5 | 2 | 27 | 10,67 |
| 7 | Müsabiqələrdə iştirak | 6 | 6 | 4 | 13 | 4 | 33 | 13,04 |
| 8 | Beynəlxalq görüş və yığıncaqlarda iştirak | 1 | 2 | 1 | 1 | - | 5 | 1,98 |
| 9 | Beynəlxalq seminar və simpoziumlarda iştirak | 7 | 9 | 6 | 7 | 14 | 43 | 17,00 |
| 10 | Kurslar və təcrübə keçmə | 2 | - | 1 | 4 | 4 | 11 | 4,35 |
| 11 | Mədəni əməkdaşlıq haqqında nazirliklərarası saziş və protokollar | - | - | - | 2 | 2 | 4 | 1,58 |
| 12 | Beynəlxalq protokollarda iştirak | 4 | 5 | 3 | 1 | 2 | 15 | 5,93 |
| | Cəmi | - | - | - | - | 1 | 1 | 0,39 |

Xarici mədəniyyət siyasətinin yeni və ən əhəmiyyətli prioritetlərindən biri xaricdə yaşayan həmvətənlərin mədəniyyət mərkəzləri və cəmiyyətləri ilə əlaqə saxlamaqdır. Son məlumatlara görə dünyanın çox ölkələrində – Rusiyada, Ukraynada, Birləşmiş Ştatlarda, Türkiyədə, Böyük Britaniyada, İsveçdə, Kanadada, Hollandiyada, İspaniyada, Fransada, Danimarkada, Belçikada, Norveçdə, Almaniyada, Avstraliyada, Estoniyada, Latviyada, Litvada, Qazaxıstanda, Türkmənistanda, Gürcüstanda, Qırğızıstanda, Özbəkistanda, Moldovada və Belorusda təxminən 100 belə təşkilat fəaliyyət göstərir. Onların bir çoxunun təmsilçiləri 2001-ci ilin noyabrında Bakıda keçirilən Ümumdünya Azərbaycanlılarının Birinci Qurultayında iştirak etmişlər. 2002-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradılmışdır.

Bu gün mədəniyyət, siyasət və iqtisadiyyatla birlikdə Azərbaycanın xarici siyasət fəaliyyəti mexanizmini müəyyən edən klassik amillər triadasını təşkil edir. Xarici siyasətdə mədəniyyətin xüsusi çəkisinin durmadan artması, xarici mədəniyyət siyasətinin məqsəd və vəzifələrinin, forma və istiqamətlərinin, prioritet və mexanizmlərinin öz əksini tapa biləcəyi kompleks konsepsiya yaratmağı tələb edir.

## Mədəniyyət industriyaları: kitab nəşri, mədəniyyətə dair xüsusi dövri nəşrlər, mətbuat, kino, radio, televiziya və multimediya-şəbəkə layihələri

Kütləvi şəkildə özəlləşdirilmə ilə bərabər ciddi böhrana da məruz qalan mədəniyyət industriyaları – kinematoqrafiya, nəşriyyat, mətbuat, audio-video və fonoqram məhsulları öz nəhəng potensialları və perspektivləri sayəsində özəl sektorla tərəfdaşlıq yaradılmasının ən cəlbedici nümunəsinə çevrilə bilər. Buraya bir neçə il bundan əvvəl xüsusi növ kimi mövcud olmayan yeni texnologiyaları da əlavə edə bilərik: gələcəyin industriyaları olan turizm, əyləncə, istirahət və maraqlı məzmun və yaradıcı ideyalar tələb edən digər yüksək texnologiyalar.

İnkişafı dövlət tərəfindən dəstəklənən və idarəçiliyi Mədəniyyət və Turizm Nazirliyinə verilən kinematoqrafiya və nəşriyyat sahələri istisna edilməklə bütün digər sahələr müstəqildir və dövlət tərəfindən maliyyələşdirilmir.

Soros Fondunun maliyyə dəstəyi və onunla əməkdaşlıq şəraitində Mədəniyyət və Turizm Nazirliyi mədəniyyət industriyaları bazarını, müəllif hüquqlarının qorunması problemlərini öyrənməyə təşəbbüs göstərərək və həmin sahələrdə sosioloji tədqiqatlar apararaq, "Azərbaycanda mədəniyyət industriyaları: bu günkü vəziyyət və inkişaf perspektivləri" layihəsini həyata keçirməyə başlamışdır.

Azərbaycanda 18 dövlət və özəl televiziya kanalı fəaliyyət göstərir: burada həmçinin sputnik və kabel televiziyası da mövcuddur. Azərbaycan dilindəki kanallardan başqa 4 türk və 3 rus kanalı vardır; müvafiq sərhədlərə yaxın yerlərdə İran, erməni və gürcü kanallarını da seyr etmək mümkündür. Yaxın vaxtlarda mədəniyyət kanalı açılmalıdır. Dövlət senzurası bu yaxınlarda ləğv edilib, amma hələ də mürəkkəb lisenziyalaşdırma mexanizmi mövcuddur. Prezident Aparatı nəzdində İctimai Şura həm televiziya, həm də radio verlişlərinin translyasiyası üçün lisenziya verir.

Nəşriyyat açmaq üçün də lisenziya almaq tələb olunur. Azərbaycanda 49 nəşriyyat və 65 mətbəə vardır; bunların bir qismi dövlət, bir qismi isə özəl müəssisələrdir. Sovet dövründə kifayət qədər nəşr olunmayan Azərbaycan müəlliflərinin əsərlərinin, habelə uşaq kitablarının nəşri dövlət siyasətinin nəşriyyat sahəsində prioritetlərindən biridir. Rəsmi olaraq 1991-ci ildə təkrar qayıdılan latın əlifbası oxucuların bölünməsinə səbəb olmuşdur; məsələn, gənclər yalnız latın qrafikasında, 30 yaşına qədər olan oxucular həm latın, həm kirildə, 30 yaşından böyük olanlar isə yalnız kirildə çap olunmuş mətnləri oxuya bilirlər. Kitabxanaların kitablarla adekvat təmin edilməsində bu faktor diqqətə alınmalıdır.

Kinoindustriya son illər ərzində maliyyə qıtlığı ucbatından ciddi problemlərlə qarşılaşmışdır. 1991 və 1993-cü illər arasında ildə orta hesabla 15 film, 1994-1998-ci illərdə 8-ə qədər film çəkildiyi halda, kino istehsalı elə acınacaqlı vəziyyətə düşmüşdür ki, 1998-ci ildən sonrakı dövrdə demək olar ki, tammetrajlı film istehsal olunmamışdır; doğrudur, bu müddət ərzində, ölkədə mövcud olan 20 müstəqil studiya bir sıra qısametrajlı sənədli filmlər istehsal etmişdir. Bu vəziyyəti nəzərə alanda, Mədəniyyət və Turizm Nazirliyinin bu sektora yeni təkan və impuls vermək məsuliyyətini nə üçün müvəqqəti olaraq öz üzərinə götürdüyü aydın olur. Hazırda Kinematoqrafçılar İttifaqı ilə Britaniya şirkəti İTİL-in birgə yaratdığı Azərbaycan Beynəlxalq Kino Şirkəti bu sahədə ən müsbət nümunədir. Dövlət Kino Fondu və Film Arxivinin yaradılması da gözəl təşəbbüsdür.

Ölkə üçün yeni sahə olmasına baxmayaraq, yeni texnologiyalar burada çox intensiv start götürmüşdür. 2000-ci ildə dövlət, özəl sektor və vətəndaş cəmiyyətlərinin vəsait qoyuluşu ilə yaradılan və Dünya Bankı tərəfindən maliyyələşdirilən Azərbaycan İnkişaf Portalı mədəniyyət və incəsənət sahəsi ilə bağlıdır. YUNESKO və Yaponiya hökuməti “İpək Yolu Rəqəmliləri” adlı iri multmediya

layihəsini dəstəkləyir, Soros Fondu isə Şirvanşahlar Sarayına dair multmediya kompakt diskin nəşr olunmasını maliyyələşdirməklə yanaşı, mədəniyyət müəssisələrinə və nəşriyyatlara öz veb-saytlarını yaratmaqda kömək edir. Mədəniyyət Nazirliyi irs, mədəni və bədii tədbirlərə dair saytları olan mədəniyyət portalı yaratmağı planlaşdırır.

Tarixi mənbələr təsdiqləyir ki, Azərbaycanda kitab mədəniyyəti ta qədim dövrlərdən mövcud olmuşdur. Kitab nəşrinin ən vacib ünsürlərindən olan yazı və əlifba Azərbaycanda bir neçə tarixi inkişaf mərhələsi keçmişdir. Hələ eramızdan əvvəlki dövrlərdə respublikamızın ərazisində mixi yazılardan istifadə olunmuşdur. Əcdadlarımız olan qədim türklər isə eramızın ilk əsrlərində Orxon-Yenisey, qədim uyğur və s. əlifbalardan istifadə etmişlər. V əsrin birinci yarısında alban əlifbası meydana gəlmişdir. Bitkin inkişaf yolu keçmiş hər bir xalqın arixində olduğu kimi Azərbaycan xalqının da mənəvi sərvət xəzinəsində ən şərəfli yerlərdənbirini əlyazma kitabları tutur. Azərbaycanda əlyazma kitablarının inkişafı kağız istehsalının geniş vüsət alması ilə bağlı olmuşdur. Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Təbriz şəhərində VIII-XIII əsrlərdə kağız istehsal edən karxananın meydana gəlməsi bir çox qədim abidələrin və dəyərli əsərlərin yazıya köçürülməsinə güclü təkan vermişdir.

Çox təəssüflər olsun ki, ərəb istilasına (VIII əsr) qədər və ərəb xilafəti dövründə yaradılan əlyazma kitabları müxtəlif səbəblər üzündən günümüzə qədər gəlib çatmamışdır.

Günümüzə qədər gəlib çatan ən qədim əlyazma kitabının, Təbərinin "Quranın şərhi" əsərinin üzü 1220-1225-ci illərdə köçürülmüşdür. Hazırda həmin əlyazma kitabı Paris Milli Kitabxanasında saxlanılır. XIII əsrdə üzü köçürülən əlyazma kitablarından Nizami Gəncəvinin "İskəndərnamə"si (1233) Tehranda şəxsi kitabxanada, "Sirlər Xəzinəsi" (1239) Londonun "İndiya Offis" kitabxanasında, Xətib Təbrizinin "Şərhi-divani-həman" (1256), Əlaəddin Cüveyninin "Monqol

tarixi" (1290) və İbn Behtuşinin "Mənafil əl-heyvan" (1297-1298) kitabları dünyanın digər kitab xəzinələrində saxlanılır.

Sonrakı dövrlərdə də Azərbaycan müəllifləri tərəfindən yaradılan elmi və bədii əsərlərin həm aftoqrafları, həm də müxtəlif xətt növlərində üzü köçürülmüş nüsxələri dünyanın bir çox kitab xəzinələrinin qiymətli sərvətinə çevrilmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda dünya kitabxanaları və muzeylərində Nizami Gəncəvinin "Xəmsə" əsərinin 792, Fizulinin əsərlərinin isə 800-ə qədər nüsxəsi hifz olunur. Azərbaycanın ən böyük mənəvi sərvətlərindən biri olan və 1300 illiyini 2000-ci ildə qeyd etdiyimiz "Kitabi-Dədə-Qorqud" dastanının XV-XVI əsrlərdə yazıya köçürülmüş ən nadir nüsxələri Drezden və Vatikan kitabxanalarının bəzəyidir.

Mətbəə üsulu ilə çap edilən ilk Azərbaycan kitabı isə görkəmli alim Nəsrəddin Tusinin 1594-cü ildə İtaliyanın Roma şəhərində, "Mediçi" mətbəəsində ərəb dilində çap olunan "Təhriri Oqlidis" əsəri olmuşdur. Həmin kitab 1657-ci ildə latın dilinə çevrilərək Londonda da nəşr edilmişdir.

Azərbaycan kitabının mətbəə üsulu ilə xarici ölkələrdə çapı sonrakı dövrlərdə də davam etdirilmişdir. XVII əsr tarixçisi milliyyətcə azərbaycanlı olan Oruc Bəy Bayatın "İranlı Don Juanın kitabı" İspaniyanın o vaxtkı paytaxtı Valyadoliddə (1604), İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsi fransız dilində Varşavada (1835), A.Bakıxanovun "Qanuni-Qüdsi" əsəri fars (1831) və rus (1844) dillərində Tiflisdə, M.Kazımbəyin "Türk-tatar dillərinin qrammatikası" əsəri Kazan (1839) və Sankt-Peterburqda (1846), N.Tusinin "Əxlaqi-Nasiri" əsəri Bombeydə (1851), M.Ş.Vazehin şerlər kitabı Berlində (1851) çap olunmuşdur. Azərbaycanın özündə isə müasir çap üsulu ilə kitab nəşrinə XIX əsrin sonlarında təşəbbüs göstərilmişdir. XIX əsrin sonları – XX əsrin əvvəllərində Azərbaycanda ilk müasir mətbəələr meydana gəlmişdir. 1889-cu ildə Bakıda 5 mətbəə və 1 tipolitoqrafiya var idisə, 1900-cu ildə burada artıq 16 mətbəə fəaliyyət göstərirdi.

Kitab nəşri işi Azərbaycanda sovet hakimiyyəti dövründə daha geniş vüsət tapdı. Kitab nəşri işinin ən güclü ideoloji silahlardan biri olduğunu yaxşı dərk edən kommunistlər respublikada nəşriyyat işi ilə bağlı sahələri dərhal milliləşdirdilər. Mətbuat və nəşriyyat işlərinə rəhbərlik etmək üçün 1920-ci ilin may ayında Xalq Maarif Komissarlığında Azərbaycan Mətbuat Mərkəzi təşkil edildi. 1923-ci ildə nəşriyyatların fəaliyyətinə nəzarəti gücləndirmək məqsədilə Ədəbiyyat və Nəşriyyat Komitəsi təsis olundu. 1924-cü ildə Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr" yaradıldı və kitab nəşri işi ilə yanaşı kitab ticarəti də ona tapşırıldı. Bu nəşriyyat fəaliyyətinin ilk illərində bədii ədəbiyyat və uşaq kitabları nəşr edirdi.

Artıq Sovet hakimiyyətinin ilk illərində – 1920-1926-cı illərdə Azərbaycanda 779 adda 4 milyon nüsxədən çox kitab nəşr olunmuşdu. Sovet dövrünün sonrakı illərində də respublikada kitab nəşri işinin dinamikası yüksələn xətt üzrə inkişaf etmişdir:

| İllər | Ad sayı | Tiraj. min nüsxə |
|---|---|---|
| 1970 | 1075 | 9932,3 |
| 1975 | 1180 | 11290,1 |
| 1980 | 1226 | 11778,5 |
| 1985 | 1428 | 15518,9 |
| 1990 | 1458 | 14280,4 |

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra özəl nəşriyyat və nəşriyyat-poliqrafiya müəssisələri əmələ gəlməyə başladı. Nəşriyyat-poliqrafiya fəaliyyətinə dövlət nəzarəti zəiflədi və 1998-ci ildə senzura tamamilə aradan qaldırıldı. Dövlət nəşriyyatlarına dövlət təminatı xeyli azadıldı.

İlk dövrdə həm dövlət, həm də özəl nəşriyyatların fəaliyyətində müəyyən canlanma hiss olunurdu. Lakin bu canlanma çox da uzun sürmədi. Bazar iqtisadiyyatına keçidlə bağlı üzə çıxan problemlər kitab nəşri işinə də öz mənfi təsirini göstərdi. Əhalinin alıcılıq qabiliyyətinin ildən-ilə aşağı

düşməsi, kənardan gətirilən kağız və digər poliqrafiya materiallarının qıtlığı, eləcə də dövlət təminatından məhrum olan nəşriyyatların bazar iqtisadiyyatına keçid dövründə çeviklik göstərə bilməməsi ölkədə kitab nəşri işinin xeyli zəifləməsinə səbəb oldu.

| İllər | Ad sayı | Tiraj. min nüsxə |
|---|---|---|
| 1992 | 559 | 8 953,0 |
| 1993 | 585 | 9 443,1 |
| 1994 | 375 | 5 537,5 |
| 1995 | 498 | 3 592,2 |
| 1996 | 542 | 2 672,6 |
| 1997 | 500 | 2 669,4 |
| 1998 | 450 | 2 350,0 |

Hazırda Azərbaycanda kitab nəşrinin üç səciyyəvi xüsusiyyəti diqqəti cəlb edir.

1. Bəzi kitabların nəşri dövlət tərəfindən maliyyələşdirilir. Buraya ibtidai sinif dərslikləri, görkəmli şəxsiyyətlərin və tarixi hadisələrin yubileyləri ilə bağlı nəşrlər daxildir. Dərsliklər istisna edilməklə, belə nəşrlərin xüsusi çəkisi çox azdır.

2. Bir çox kitablar müəlliflərin öz vəsaitləri hesabına çap olunur. Bu cür kitablar əksəriyyət təşkil edir.

3. Bir qisim kitablar isə sponsorların, eləcə də xarici şirkət və səfirliklrin vəsaiti hesabına çap olunur.

Son dövrlərdə nəşr edilən kitabların tirajı hədsiz dərəcədə kiçikdir. 60-80-ci illərdə bədii əsərlər orta hesabla 20-30 min nüsxə, elmi kitablar isə 3-7 min nüsxə tirajla nəşr olunurdusa, indi bədii kitabların tirajı əksər hallarda 500-1000 nüsxə, elmi kitabların tirajı isə 300-500 nüsxə olur.

Azərbaycanda kitab nəşri işinin zəifləməsinə, tirajların xeyli aşağı düşməsinə başqa bir obyektiv amil də mənfi təsir göstərir. Bu amil əlifba dəyişikliyi ilə bağlıdır. Son əsrdə Azərbaycanda əlifba üç dəfə dəyişib. 1929-cu ildən ərəb əlifbasından latın qrafikasına, 1939-cu ildən kirill əlifbasına

1992-ci ildən isə təkrar latına keçilməsi kitab nəşri işində də böyük çətinliklər törətmişdir.

Hazırda Azərbaycanda oxucu kütləsi üç qrupa bölünür:

1. Həm kirill, həm də latın qrafikasında sərbəst oxuya bilənlər. Bunların xüsusi çəkisi olduqca azdır və buraya hər cür yaş qrupundan oxucu daxildir;

2. Yalnız kirill əlifbasında sərbəst oxuyanlar. Oxucuların böyük bir hissəsini təşkil edən, bu qrupa demək olar ki, 30 yaşından yuxarı bütün oxucular daxildir.

3. Yalnız latın qrafikasında sərbəst oxuyanlar. Bu qrupa isə bu gün müxtəlif təhsil müəssisələrində təhsil alan bütün gənc oxucular daxildir.

Respublika Prezidentinin "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" fərmanına uyğun olaraq 2001-ci ilin avqustundan bütün nəşrlər, o cümlədən dövri mətbuat latın qrafikasına keçmişdir.

Azərbaycanda kitab nəşri "Nəşriyyat işi haqqında" qanunla və bir sıra digər qanunların müvafiq maddələri ilə tənzimlənir. İstənilən şəxs "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəşriyyat aça bilər. Nəşriyyat-poliqrafiya fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya almaq lazımdır. Lisenziyanı müəyyən rüsum ödəməklə əvvəllər Mətbuat və İnformasiya Nazirliyindən almaq olardı. Hazırda çap məhsulu istehsalına lisenziya verilməsi tamamilə ləğv edilmişdir. Bu gün Azərbaycanda 85 nəşriyyat və nəşriyyat-poliqrafiya müəssisəsi fəaliyyət göstərir. Onların əksəriyyəti ölkənin paytaxtı Bakıda yerləşir. Gəncə və Naxçıvanda 2, Sumqayıt və Qəbələdə 1 nəşriyyat mövcuddur.

Sovet dövründə nəşr olunan kitabların xeyli hissəsini kütləvi-siyasi ədəbiyyat təşkil edirdi. Bununla yanaşı digər ədəbiyyatların – elmi, bədii, uşaq və s. kitabların da nəşrinə ciddi fikir verilirdi. 70-80-ci illərdə kitab sektorunun müxtəlif sahələrində ixtisaslaşan müəssisələr yaradılmışdı. Belə ki,

dərsliklərin və digər tədris-pedoqoji ədəbiyyatların nəşri ilə əsasən “Maarif” nəşriyyatı, bədii əsərlərin nəşri ilə “Azərnəşr” və “Yazıçı” nəşriyyatları, uşaq və gənclər üçün ədəbiyyatın nəşri ilə “Gənclik” nəşriyyatı, plakat, fotoalbom, incəsənətə dair əsərlərin nəşri ilə “İşıq” nəşriyyatı, elmi əsərlərin nəşri ilə isə “Elm” nəşriyyatı məşğul olurdu.

Həmin illərdə xarici ölkələrin ədəbiyyat nümunələrinin nəşrinə də xeyli diqqət yetirilirdi. 80-ci illərdə “Gənclik” nəşriyyatı hər bir cildi 40 min nüsxə tirajla 53 cildlik “Dünya Uşaq Ədəbiyyatı Kitabxanası” seriyasını nəşr edib başa çatdırmışdı. “Yazıçı” nəşriyyatı isə 100 cildlik “Dünya Ədəbiyyatı Kitabxanası” seriyasının nəşrinə başlamış və bu seriyadan 30-dan çox kitab nəşr etmişdi. İqtisadi tənəzzül ucbatından həmin seriyanın nəşri sonralar dayandırıldı.

Sovet dövründə mədəniyyətin müxtəlif sahələrinə aid 4 adda jurnal, 1 adda qəzet nəşr olunurdu. “Azərbaycan”, “Ulduz” jurnalları və “Ədəbiyyat və İncəsənət” qəzeti Azərbaycan Yazıçılar İttifaqı, “Qobustan” toplusu Teatr İşçiləri İttifaqı, “Mədəni-Maarif işi” jurnalı isə Mədəniyyət Nazirliyi tərəfindən nəşr edilirdi.

| № | Nəşrin adı | Tirajı | Dövriliyi | Növü |
|---|---|---|---|---|
| 1. | “Ədəbiyyat və İncəsənət” | 50 000 | həftəlik | qəzet |
| 2. | “Azərbaycan” | 70 000 | aylıq | jurnal |
| 3. | “Ulduz” | 40 000 | aylıq | jurnal |
| 4. | “Qobustan” | 5 000 | rüblük | toplu |
| 5. | “Mədəni-Maarif işi” | 10 000 | rüblük | jurnal |

Hazırda mədəniyyətə dair xüsusi dövri nəşrlərin sayı Sovet dövrünə nisbətən çoxalmış, həmin nəşrlərə “Xəzər” jurnalı, “Mədəniyyət” qəzeti, “Musiqi dünyası”, “İncəsənət” topluları kimi bir neçə nəşr əlavə olunmuşdur. Mədəniyyətə dair xüsusi nəşrlərin əksəriyyəti yaradıcılıq birliklərinin orqanı kimi fəaliyyət göstərir:

Bu gün “Azərbaycan”, “Ulduz”, “Xəzər”, “Qobustan” jurnalları və “Ədəbiyyat” qəzetinə Yazıçılar Birliyi büdcə vəsaiti hesabına maliyyə yardımı göstərir. Bəstəkarlar İttifaqının “Musiqi dünyası” və Rəssamlar İttifaqının “İncəsənət” nəşrləri isə satışdan gələn vəsaitlər hesabına maliyyələşdirilir. Mədəniyyətə dair xüsusi dövri mətbuat orqanlarının sayca artmasına baxmayaraq, onların tirajı Sovet dövrü ilə müqayisə edilməyəcək dərəcədə azdır. Belə ki, Sovet dövründə spesifik nəşr sayılan aylıq “Mədəni-Maarif işi” jurnalı, rüblük “Qobustan” toplusu kimi nəşrlər 5-10 min nüsxə, populyar nəşrlər olan aylıq “Azərbaycan” və “Ulduz” jurnalları, həftəlik “Ədəbiyyat və İncəsənət” qəzeti 40-50 min nüsxə tirajla çap olunurdusa, bu günkü nəşrlərin əksəriyyətinin tirajı 500 nüsxədir. Burada yalnız Mədəniyyət və Turizm Nazirliyinin nəşrləri olan “Mədəni-Maarif” və “Mədəniyyət” qəzetləri istisna təşkil edir. Onların abunə yolu ilə toplanan tirajı 1500-2500 nüsxə arasında dəyişir.

| № | Nəşrin adı | Tirajı | Dövriliyi | Növü |
|---|---|---|---|---|
| 1. | “Ədəbiyyat” | 2000 | həftəlik | qəzet |
| 2. | “Mədəniyyət” | 2000 | həftəlik | qəzet |
| 3. | “Azərbaycan” | 1000 | aylıq | jurnal |
| 4. | “Ulduz” | 500 | aylıq | jurnal |
| 5. | “Xəzər” | 500 | iki aydan bir | jurnal |
| 6 | “Mədəni-Maarif” | 2000 | aylıq | jurnal |
| 7 | “Musiqi dünyası” | 500 | rüblük | toplu |
| 8 | “Qobustan” | 500 | rüblük | toplu |
| 9 | “XXI əsr” | 500 | rüblük | jurnal |

Sovet dövründə kitab yayımı vahid sistemə malik idi. Keçmiş Mətbuat və İnformasiya Nazirliyinin “Azərkitab” Kitab Ticarəti İdarəsi şəhər yerlərində, “Azərittifaq”ın “Kəndkoopkitab” Kitab Ticarəti İdarəsi kənd yerlərində kitab satışı ilə məşğul olurdu. Kitabxana Kollektoru respublikadakı kitabxanaları kitabla təmin edirdi. Bazar iqtisadiyyatına keçid

dövründə bu sistem iflasa uğradı. "Azərkitab"ın mağazalarının əksəriyyəti özəlləşdirildi və öz profilini dəyişdi.

Bazar iqtisadiyyatına keçidlə bağlı yuxarıda sadalanan çətinliklərə və qüsurlara baxmayaraq, müstəqillik dövründə Azərbaycanda kitab nəşri sahəsində az da olsa müəyyən nailiyyətlər müşahidə edilir.

Bu gün kitab yayımı ilə ya nəşriyyatların, ya da kitab müəlliflərinin özləri məşğul olurlar. Nəşriyyatların, demək olar ki, heç birinin ("Azərnəşr" və "Gənclik" istisna edilməklə) öz mağazası yoxdur. Marketinq və reklam işi sıfır dərəcəsindədir. Özəl kitab satışı mərkəzləri olduqca azdır və onların nəşriyyatlarla əlaqələri son dərəcə zəifdir. Nəşriyyat-poliqrafiya fəaliyyəti sahəsində isə özəl sektor xeyli möhkəmlənib və onun işində hiss ediləcək canlanma yaranıb. 90-cı illərin əvvəllərində fəaliyyətə başlayan özəl mətbələrin çoxu bu gün xeyli təkmilləşdirilmiş poliqrafiya bazasına malikdirlər. Belə ki, özəl mətbələr, bəzi hallarda öz məhsuldarlığına, maddi-texniki və kadr bazasına görə dövlət nəşriyyatlarını üstələyirlər. Hazırda Azərbaycanda özünün kiçik poliqrafiya bazası olan yüzdən çox müəssisə vardır.

Poliqrafiya avadanlıqlarının keyfiyyəti nəşriyyatlar arasında rəqabətin mühüm amilinə çevrilir, bu səbəbdən yerli nəşriyyatlar tez-tez xarici mətbələrə müraciət edirlər.

Digər tərəfdən yüksək keyfiyyətlə çap olunmuş kitabların meydana çıxması, yerli poliqrafçıları günün bu vacib tələbləri ilə ayaqlaşmağa sövq edir. Yerli poliqrafiya müəssisələrinin "Kitabi-Dədə-Qorqud"un, Aşıq Ələsgərin yubileyilə bağlı çap etdiyi kitablar, irihəcmli "1500 ilin oğuz şeri", ikicildlik "Min ilin yüz şairi" adlı Azərbaycan şeri antologiyaları, "Azərbaycanca-ingiliscə lüğət" və s. poliqrafiq icra keyfiyyəti baxımından xarici nəşrlərdən o qədər də geri qalmır.

Bu gün Azərbaycanda kitab nəşri işinin inkişafında ölkədə fəaliyyət göstərən xarici şirkətlər və beynəlxalq humanitar fondlar da müəyyən rol oynayırlar. Onlar xüsusilə uşaq

ədəbiyyatının, ümumtəhsil məktəbləri üçün alternativ dərs vəsaitlərinin, hüquqi-siyasi və iqtisadi ədəbiyyatın, tərcümə ədəbiyyatının nəşrinə sponsorluq etməklə kitab nəşri işinə əhəmiyyətli dərəcədə yardım göstərmiş olurlar. “Ayna Mətbu Evi”nin “Ekson” neft şirkətinin sponsorluğu ilə nəşr etdiyi beşcildlik “Uşaq Ensiklopediyası”, digər nəşriyyatların Soros Fondunun həyata keçirdiyi “Addım-addım”, “Təhsil” və digər proqramlar üzrə nəşr etdiyi onlarla kitab buna misal ola bilər.

Müasir Azərbaycan müəlliflərinin – Anarın, Elçinin, Bəxtiyar Vahabzadənin, Maqsud İbrahimbəyovun, Rüstəm İbrahimbəyovun, Çingiz Abdullayevin və b. əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmiş və xaricdə nəşr olunur.

Əsası XIX əsrin sonları – XX əsrin əvvəllərində “Əkinçi” qəzeti və “Molla Nəsrəddin” jurnalı kimi nəşrlərlə qoyulan azad Azərbaycan mətbuatı ənənələri ölkə müstəqillik qazandıqdan sonra yenidən bərpa olundu. Azərbaycanda mətbuatın sürətli inkişafı məhz iyirminci yüzilliyin son iyirmi ilinə təsadüf edir; bu inkişaf həm KİV-in sayında, həm də onların keyfiyyət səviyyəsində özünü göstərmişdir. Azərbaycanda ilk müstəqil nəşrlər (postsovet səviyyəsində) 80-ci illərin sonlarında meydana çıxdı. Dövlət mətbuatının qarşısını ala bilmədiyi informasiya aclığı özəl qəzetlərin işinə yaradı və onların bir çoxu tamamilə reklamsız çıxmalarına baxmayaraq, demək olar ki, elə ilk sayılarından gəlirli olmağa başladılar.

Rəsmi məlumatlara görə 2001-ci il aprel ayının əvvəlinə Azərbaycanda 522 kütləvi informasiya vasitəsi qeydə alınmışdır. Onların 374-ü qəzet, 114-ü jurnal, 26-cı informasiya agentliyi, 9-u teleradio şirkətidir. Ölkədə həmçinin 49 nəşriyyat, 65 mətbəə fəaliyyət göstərir. Öz statusuna və istiqamətinə görə Azərbaycanın qəzet bazarını aşağıdakı kimi təsnif etmək olar: hökumət nəşrləri (idarə; ümummilli-dövlət); partiya nəşrləri (müxalifət; hökumət tərəfdarı); müstəqil nəşrlər (informasiya-analitik; reklam; ixtisaslaşdırılmış; bulvar). Hökumət qəzetləri həm məzmunu, həm də forması ilə seçilir.

Hökumət qəzetlərinin ən bariz nümunələri "Azərbaycan", "Xalq qəzət" və "Respublika" qəzetləridir. Bu qəzetlər öz xərclərinin müəyyən qismini reklam və abunə haqqı ilə özləri ödəsələr də, əsasən dotasiya hesabına fəaliyyət göstərir. Partiya mətbuatının ən parlaq təmsilçiləri kimi bir-birinə zidd siyasi düşərgələrə mənsub olan iki qəzetin adını çəkmək olar: "Yeni Azərbaycan" və "Yeni Müsavat" qəzetləri.

Azərbaycanın dünya cəmiyyətinə inteqrasiyasının güclənməsi, müasir Azərbaycan jurnalistikasında aparıcı mövqedə duran müstəqil kütləvi informasiya vasitələrinin rolunu artırır. Reklam bazarı və çap məhsullarının özəl yayım şəbəkəsi inkişaf etmişdir. Bu da bir çox nəşrlərə özünümaliyyələşdirmə və hətta gəlir qazanmaq səviyyəsinə çatmaq imkanı vermişdir. Dərc edilən məlumatların seçilməsinə heç bir ideoloji məhdudiyyət qoyulmadığı üçün bu müstəqil nəşrlər, bir qayda olaraq, informasiya ilə zəngin olur. Müstəqil nəşrlər arasında ən populyar və oxunaqlı hesab olunanlar bunlardır: "Zerkalo", "Эхо", "525-ci qəzet".

1990-cı ilədək Azərbaycanda yalnız dövlət informasiya agentliyi "Azərinform" (sonralar adı "AzərTac" olaraq dəyişdirilib) fəaliyyət göstərirdi. 1990-cı ilin oktyabrında ölkədə bir qrup jurnalist tərəfindən yaradılan ilk müstəqil informasiya agentliyi – "Turan" fəaliyyət göstərməyə başladı. 1991-ci ilin əvvəlində daha bir müstəqil agentlik "ASSA-İradə" yaradıldı, 1992-ci ildən etibarən isə informasiya bazarının bu sahəsi gur inkişaf dövrünə qədəm qoydu. Agentliklər arasında dövlət agentliyi "AzərTac" ən geniş təşkilati struktura və ən güclü texniki bazaya malikdir. Onun abunəçiləri hökumət KİV-i, xarici diplomatik nümayəndəliklərdir. "AzərTac"ın ABŞ-da, Almaniyada, Türkiyədə, İranda, Rusiyada və bir sıra postsovet məkanı ölkələrində xüsusi müxbirləri vardır. Ötən il "AzərTac" internetdə öz səhifəsini açmışdır.

Bu gün Azərbaycanda ən aparıcı informasiya agentliyi "Turan" hesab olunur. 1996-cı ildən başlayaraq, müstəqil eks-

pertlərin rəyinə görə "Turan" hər il ən yaxşı informasiya agentliyi adına layiq görülür. Agentlikdə siyasət, iqtisadi araşdırmalar, mədəniyyət şöbələri, analitik bölmə, habelə "Turan-Energy" struktur bölməsi fəaliyyət göstərir. İnternetdə öz səhifəsi var, həmin səhifədəki kodlaşdırılmış informasiyalardan yalnız agentliyin abunəçiləri istifadə edə bilir. "Turan"ın informasiyalarından Röyter, Frans-Press, Assoşeyted Press, DPA, Bi-Bi-Si və b. yararlanır. KİV-lər, dövlət strukturları, diplomatik missiyalar, beynəlxalq təşkilatlar, yerli və xarici firma və şirkətlər "Turan"ın elektron nəşrləri və bülletenlərinin abunəçiləridir.

Azərbaycanın informasiya bazarında daha çox tanınmış digər agentliklər "Trend", "Azərpress", "Şərq", "Em-Pi-Ay" və "Azadinform"dur. Hələ kifayət qədər yeni olmalarına baxmayaraq, onların hamısı artıq təşəkkül tapmış struktura, peşəkar repartyor kollektivinə, heç də pis olmayan texniki bazaya malikdir. KİV-lər, ictimai və siyasi təşkilatlar, xarici diplomatik elçiliklər, müxtəlif şirkətlər və firmalar bu agentliklərin abunəçiləridir. Həmin agentliklər operativ xəbər məhsulları ilə yanaşı iqtisadi və sosial problemlərə dair tematik və analitik bülletenlər də buraxırlar. Müstəqil informasiya agentliklərinin ən başlıca problemi maliyyə problemidir. Onları daim öz abunəçilərini itirmək təhlükəsi gözləyir, çünki iqtisadi çətinliklər ucbatından həmin abunəçilər bəzən informasiya məhsulunun haqqını belə ödəmək iqtidarında olmurlar. Məhz bu səbəbdən son illərdə yaranan onlarla informasiya agentliyindən yalnız bir neçəsi özünü təsdiq etdirə bilib.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin "KİV-in inkişafına dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" 5 sentyabr 2002-ci il tarixli fərmanı, xüsusilə vaxtında verildi. Həmin fərmanda söz və informasiya azadlığını möhkəmləndirmək, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasını gücləndirmək və onların azad inkişafını təmin etmək məqsədilə KİV-in inkişafı layihələrinə 3 milyard manat kredit ayrılması nəzərdə tutulur.

Son illərdə Azərbaycanda söz azadlığının inkişafında və Cənubi Qafqazın KİV-ləri arasında regionlararası əlaqələrin qurulmasında Azərbaycan Jurnalistlər Birliyi, "Yeni Nəsil" Jurnalistlər Birliyi, Jurnalistlərin Müstəqil Həmkarlar İttifaqı, Azərbaycan Mətbuat Fondu, "Ruh" Jurnalistlərin Hüquqlarını Müdafiə Komitəsi, Azərbaycan Qadın Jurnalistləri Assosiasiyası və s. kimi peşəkar jurnalist birlikləri, xüsusilə diqqətəlayiq rol oynamışlar və oynamaqda davam edirlər.

Azərbaycan, milli kinematoqrafiyasının tarixi XIX əsrdə başlayan çox az ölkələrdən biridir. 1898-ci ildə bakılı fotoqraf A.Mişon yerli mövzuda bir neçə sənədli süjet və bir yumoristik oyun kinozarisokası çəkmiş və onları elə həmin il avqustun 2-də xüsusi təşkil edilmiş kinoseansda tamaşaçılara numayiş etdirmişdir. Həmin gün milli kinematoqrafiyanın doğum günü sayılır və prezident fərmanına uyğun olaraq Azərbaycan kinosu bayramı kimi hər il qeyd edilir.

Ötən əsrin başlanğıcında, Bakı bölgəsini neft "çaxnaşması" bürüdüyü dövrlərdə burada xarici kinofirmalarının ("Pate", "Pirone", "Firma" və b.) filialları fəaliyyət göstərir, yüngül oyun süjetləri çəkilirdi. 1910-cu ildə Azərbaycanda 14 kino salonu fəaliyyət göstərirdi. Özü də onların bir çoxu xüsusi olaraq bu məqsəd üçün tikilmiş binalarda yerləşirdi. Əyalətlərdə səyyar kinoqurğulardan istifadə olunurdu. Milli kino tarixində ən mühüm dönüş nöqtələrindən biri İ.Musabəyovun eyni adlı romanı əsasında çəkilən "Neft və milyonlar səltənətində" bədii filmi olmuşdur. Bu filmdə baş rolu görkəmli Azərbaycan aktyoru H.Ərəblinski ifa etmişdir.

Sovet dövründə hakim kommunist partiyası kinoya zəhmətkeşlərin tərbiyəsində ən vacib element kimi baxırdı və bütün kinematoqrafiya sahələri dövlətin ixtiyarında idi. Bununla bərabər, çəkilən filmlərin tematikası və ideya istiqaməti də incəsənətin mahiyyətinin sosialistcəsinə dərki kanonlarına cavab verməliydi. Müvafiq olaraq, kinematoqrafiya idarələri həm SSRİ-də göstərilmək üçün xarici filmlərin

alınmasında, həm də kinoteatrların repertuarlarının formalaşdırılmasında da bu prinsipə riayət edirdilər. Çox nadir istisnalar isə yalnız mövcud qaydaların mövcudluğuna xidmət edirdi.

Azərbaycan kinematoqrafçılarının, məlum mənada ümumən qəbul olunmuş partiya və dövlət tənzimlənməsilə məhdudlaşdırılan ideya-bədii axtarışları, bir qayda olaraq, ümumittifaq tendensiyaları məcrasından kənara çıxa bilmirdi. Bununla bərabər, milli kino müəyyən dərəcədə öz simasını formalaşdıra, öz yaradıcılıq dəst-xətlərinin orjinallığı, kino dilinin özünəməxsusluğu ilə seçilən bir sıra istedadlı kino ustaları yetişdirə bilmişdir. Bu dövrdə digər filmlərlə yanaşı xalqın "sitayiş" obyektinə çevrilən bir neçə unikal kino filmlər ("Arşın mal alan", "O olmasın, bu olsun" və b.) yaradıldı. Bu filmlər azərbaycanlıların neçə-neçə nəslində milli özünüdərkin möhkəmləndirilməsinə özünəməxsus tərzdə təsir göstərməkdə davam edir.

Azərbaycanda yeganə kinostudiya olan "Azərbaycanfilm" sovet hakimiyyətinin son dövründə Dövlət Kino Komitəsinin və SSRİ Mərkəzi Televiziyasının sifarişilə ildə 7-8 bədii film çəkirdi. Bundan əlavə, sənədli (ildə 20-25) və animasiya (ildə 2-3) filmləri də çəkilirdi. Bütövlükdə, kino meydana gəldiyi andan bu günə kimi Azərbaycanda 240-a yaxın tammetrajlı və 50-dən çox qısametrajlı bədii film, 120-dən çox sənədli, yüzə yaxın cizgi filmi və s. çəkilmişdir. 60 bədii filmin dublyajı üçün büdcə vəsaiti ayrılırdı. Kino kommersiya üsuluna keçəndən sonra məlum oldu ki, öz miqyası etibarı ilə çox da böyük olmayan kino bazarı xarici filmlərin Azərbaycan dilinə tərcümə edilməsinə maddi şərait yaratmır. Dövlət dilinin inkişafı ilə bağlı geniş dövlət proqramı çərçivəsində onun tətbiq sahələrinin genişləndirilməsi məqsədilə hazırda xarici filmlərin dublyajının bərpası üçün ciddi səy göstərilir. Dövlət televiziyasında və özəl telekanallarda filmlərin Azərbaycan dilinə dublyaj praktikası həyata keçirilməyə başlamışdır.

Sovet dövründə SSRİ-nin, o cümlədən Azərbaycanın bütün kinoteatrlarında nümayiş etdirilmək məqsədilə xarici filmlərin

satın alınması dövlət tərəfindən maliyyələşdirilirdi. Dövlət büdcəsi vəsaiti hesabına kinoteatrlar tikilir və təmir olunur, kinotexnologiyası avadanlıqları alınır, kənd yerlərində kinoteatr şəbəkələri saxlanılırdı.

Azərbaycanda kinoteatrlara gələnlərin sayı 1985-ci ildə özünün ən yüksək zirvəsinə çatmış (66,1 milyon nəfər) və sonrakı illərdə tədricən aşağı düşməyə başlamışdır (cədvələ bax). 1990-cı ildən etibarən isə bu mənfi tendensiya daha da kəskinləşmiş və nəticədə həmin sahə tamamilə çökmüşdür. Bu da mərkəzləşmiş qaydada (Moskvadan) filmlərin təmin edilməsinə və bu məqsədlər üçün dövlət büdcəsindən vəsait ayrılmasına son qoyulması ilə bağlı olmuşdur. Həmin dövrdən də kənd kino şəbəkələrinin, kinoproyeksiya aparatlarının dəyişdirilməsi və kinoteatrların təmiri işlərinin dövlət tərəfindən maliyyələşdirilməsi dayandırıldı. Xüsusilə də kənd yerlərində stasionar və səyyar kino qurğularının fəaliyyəti pozuldu.

Azərbaycanda kinoqurğularının və kino salonlarına gələnlərin sayı (Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən):

| Göstəricilər | 1990 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|---|---|
| Kino qurğularının sayı | 2164 | 956 | 906 | 790 | 696 | 677 | 671 | 632 |
| O cümlədən: | | | | | | | | |
| Şəhərlərdə | 661 | 352 | 346 | 315 | 301 | 296 | 293 | 271 |
| Kənd yerlərində | 1503 | 604 | 560 | 475 | 395 | 381 | 378 | 361 |
| Kino salonlarına gələnlərin sayı (min nəfər) | 30195 | 1607 | 583 | 293 | 221 | 193 | 122 | 140 |
| O cümlədən: | | | | | | | | |
| Şəhərlərdə | 13072 | 1296 | 383 | 167 | 123 | 125 | 102 | 91 |
| Kənd yerlərində | 17123 | 311 | 200 | 126 | 98 | 68 | 20 | 49 |

Onu da qeyd etmək lazımdır ki, kino tamaşaçılarının sayı barədə statistik məlumatlarda sovet dövründə geniş, – özü də bir qayda olaraq bu sayın şişirdilməsi istiqamətində təhriflərə yol verilirdi: iki seriyalı filmin hər bir tamaşaçısı iki tamaşaçı kimi sayılırdı. Əgər 2-3 kinojurnaldan ibarət uzadılmış proqram da nümayiş etdirildisə, həmin göstərici bir vahid də artırılırdı. Kapitalist ölkələrinin filmlərinə baxan tamaşaçıların sovet filmləri üzrə hesabata salınması praktikası geniş yayılmışdı (bu ideoloji göstərici – yerli sovet filmlərinə baxan tamaşaçıların sayı ən mühüm göstərici hesab olunurdu və kənd kino mexanikindən tutmuş respublikanın mərkəzi kinematoqrafiya idarələrinin rəhbərlərinə qədər bütün kino şəbəkəsi və kinoprokat işçilərinin mükafatlandırılması sistemi və onların mənəvi stimullaşdırılması bu göstəriciyə əsaslanırdı). Artıq heç nəyə yaramayan bu “fəndgir” statistikanın təbii olaraq ləğv olunması da statistik “çöküşün” səbəblərindən biridir.

90-cı illərin əvvəllərində prokat üçün alınan yeni filmlər, o cümlədən Azərbaycanda çəkilmiş yeni filmlər sayca çox az olduğundan ekranların ehtiyacını onlarla ödəmək mümkün deyildi. Dövlət kino prokatı fondundakı köhnə filmlər də məlum səbəblərə görə işə yaramırdı. Prokatda olan xarici filmlərin lisenziya müddəti başa çatmışdı. Belə bir şəraitdə bu biznes sahəsi ilə məşğul olmağa cəhd göstərən bir neçə özəl firma yarandı, amma onlar əhəmiyyətli filmlərin alınması, geniş reklam edilməsi və s. üçün kifayət qədər vəsaitə malik olmadıqlarından, həmçinin tamaşaçıların sayının durmadan azalması səbəbindən tezliklə öz fəaliyyətlərini dayandırdılar. 35 mm-lik lentlərdə yeni filmlərin daxil olmaması ucbatından kinoteatrların bir qismi indi də öz fəaliyyətini videoproyektorlar vasitəsi ilə kino film nümayiş etdirməklə məhdudlaşdırmağa məcbur olmuşdur.

Əhalinin maddi imkanlarının kifayət qədər olmaması biletlərin orta hesabla 0,2-0,5 dollara bərabər olan qiymətini artırmağa imkan vermir. Yalnız Bakıdakı “Azərbaycan”

kinoteatrı istisna təşkil edir, burada biletlərin qiyməti 2,5-4,2 dollar həddindədir. Eyni zamanda bəzi kateqoriyadan olan tamaşaçılar (hərbiçilər, qaçqınlar, əlillər və s.) kinoseanslara pulsuz baxmaq hüququndan istifadə edirlər. Bu gün fəaliyyətini davam etdirən kinoteatrlar öz istismar xərclərini yalnız film nümayişindən alınan gəlirlə ödəmək iqtidarında deyillər. Bu səbəbdən əlavə gəlir mənbəyi əldə etmək üçün öz otaqlarını icarəyə vermək praktikası hər yerdə geniş yayılmışdır.

Kinoteatrlar şəbəkəsinin dirçəlişi onların modernizasiyası və tamaşaçıların komfort, keyfiyyətli xidmət haqqında müasir təsəvvürlərinə cavab verən şəraitin yaradılması, habelə kinoteatrların müasir kinoproyeksiya aparatları və səsləndirmə sistemlərilə təchiz edilməsi üçün xeyli maliyyə vəsaiti tələb olunur. Bu gün dünya standartlarına cavab verən yeganə kinoteatr nümunəsi kimi özünə lazımi texniki, repertuar və digər şəraitlər yaratmış olan Bakıdakı "Azərbaycan" kinoteatrının (Azərbaycan–Britaniya birgə müəssisəsi bu kinoteatrın modernizasiyasına xeyli vəsait qoymuşdur) fəaliyyəti sübut edir ki, kino biznesinə maliyyə vəsaiti qoyulması ölkədə gəlir gətirmək perspektivlərinə malikdir.

Kommersiya potensialından məhrum, lakin kinematoqrafiya irsi baxımından müstəsna dərəcədə vacib olan kino sahələrinə milli filmlərin ilkin materiallarının qorunub saxlanılması və dünya kinosu nümunələri kolleksiyasının komplektləşdirilməsi aiddir. Bu məqsədlə hökumət sərəncamına əsasən 1993-cü ildə Dövlət Film Fondu yaradılmış, onun yerləşdirilməsi və fəaliyyəti üçün bina və büdcə vəsaiti ayrılmışdır. 2000-ci ildə Azərbaycan DFF (keçmiş SSRİ respublikaların iki arxivindən biri kimi) Beynəlxalq Kino Arxivləri Federasiyasına (FİAF) üzv qəbul olunmuşdur.

Bir neçə ildir ki, Azərbaycan kino ensiklopediyasının yaradılması üzərində iş aparılır; iri həcmli nəşr özündə milli kinoya dair məlumatlarla yanaşı, dünya kinematoqrafiyasının

tarixi və onun görkəmli şəxsiyyətləri haqqında ətraflı informasiyaları əks etdirəcəkdir.

1991-ci ildən dövlət kino təşkilatları özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərir. Azərbaycanda kino sənayesinin indiki vəziyyətini ölkədə son on ildə yaranmış "keçid dövrü" iqtisadiyyatı (inzibati-plan iqtisadiyyatından bazar iqtisadiyyatına) kontekstində nəzərdən keçirmək lazımdır. Bu, eyni dərəcədə həm film istehsalı, həm də onların yayımı sahələrinə aiddir.

İndi Azərbaycanda kino istehsalının yeganə maliyyə mənbəyi dövlətdir. Dövlət bunu dövlət studiyalarına – bədii filmlər üçün "Azərbaycanfilm", sənədli filmlər üçün "Salnamə" və "Yaddaş", animasiya filmləri üçün isə "Azərbaycanfilm", "Debüt" və b. studiyalara dövlət sifarişi verməklə həyata keçirir.

Son illərdə çəkilən filmlərin sayca az olmasına baxmayaraq, onlar fəal surətdə beynəlxalq festival fəaliyyətinə cəlb olunurlar. Son 5-6 il ərzində xeyli Azərbaycan filmi onlarla beynəlxalq kino festivalında iştirak etmiş, bir sıra mükafatlara, o cümlədən əsas prizlərə layiq görülmüşlər. Bu, film yaradıcılarının kifayət qədər yüksək peşə səviyyəsinə malik olduqlarını və bu filmlərdə milli təkrarsızlığın və orjinal üslubun qorunub saxlanılmasına nail olunduğunu sübut edir. Artıq ənənəyə çevrilmiş Bakı "Şərq-Qərb" beynəlxalq kinofestivalı getdikcə öz nüfuzunu artırır; ildə bir dəfə keçirilən bu festivalın təşkilatçısı təqribən əlli ildir öz sıralarında yaradıcı kino işçilərini birləşdirən Azərbaycan Kinematoqrafçılar İttifaqıdır. Azərbaycan kinosunun kadr potensialı kifayət qədər yüksəkdir və o, əsasən müxtəlif illərdə, dünyanın ən yaxşı kino məktəblərindən birində – ÜDKİ-də, habelə Moskvadakı Ali Kino Rejissorları və Senaristləri Kurslarında ali kinematoqrafiya təhsili almış mütəxəssislərdən ibarətdir. Bununla yanaşı, belə bir fakt ciddi narahatçılıq doğurur ki, son

on il ərzində digər xarici kino məktəbləri bir yana, ÜDKİ-ni yalnız bir nəfər Azərbaycan nümayəndəsi bitirmişdir.

Ölkədə əsas kino ixtisasları üzrə təlim təşkil edilmişdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində gənclər rejissor, operator, senarist, rəssam, aktyor diplomları alırlar.

Hazırkı dövrdə Azərbaycanın film istehsalında yaranmış vəziyyətin təhlili göstərir ki, kinoda özəl sektorun inkişafına yeni təkan vermək lazımdır. Ölkə artıq bazar iqtisadıyyatı yolunu seçmişdir və buna görə də dünya kinematoqrafiya təcrübəsi tətbiq olunmalı və burada yaranmış praktikaya uyğunlaşdırılmalıdır. Kinematoqrafiyanın dövlət tərəfindən idarə olunması strukturunda baş verən dəyişikliklər nəticəsində birgə kino istehsalına böyük diqqət yetirilməyə başlanmışdır.

Kinoteatrlar şəbəkəsinin dirçəlişi, onların modernizasiyası və tamaşaçıların komfort, keyfiyyətli xidmət haqqında müasir təsəvvürlərinə cavab verən şəraitin yaradılması, habelə kinoteatrların müasir kinoproyeksiya aparatları və səsləndirmə sistemlərilə təchiz edilməsi üçün xeyli maliyyə vəsaiti tələb olunur. Bu gün dünya standartlarına cavab verən yeganə kinoteatr nümunəsi kimi özünə lazımi texniki, repertuar və digər şəraitlər yaratmış olan Bakıdakı "Azərbaycan" kinoteatrının fəaliyyəti sübut edir ki, kino biznesinə maliyyə vəsaiti qoyulması ölkədə gəlir gətirmək perspektivlərinə malikdir.

"Kinematoqrafiya haqqında" qanun ölkənin parlamenti – Milli Məclis tərəfindən 1998-ci ildə qəbul edilib. Qanunda milli kinematoqrafın qorunub saxlanılmasına dair dövlət təminatı qaydaları təsbit olunub. Bu qanun həmçinin, kinematoqrafçıların yaradıcılıq azadlıqları hüququnu, onların müxtəlif hüquqlarının qorunmasını bəyan edir və bir çox digər müddəalardan ibarətdir.

Ölkə parlamenti "Filmlərin birgə istehsalı haqqında" Avropa Konvensiyasını, həmçinin MDB çərçivəsində kino sahəsində əməkdaşlıq haqqında sazişi təsdiq etmişdir. Bundan

əlavə, "Müəlliflik və əlaqəli hüquqlar haqqında" qanun qəbul edilmişdir (1997). Bu qanun müəllif hüquqlarının pozulması hallarına daha çox məruz qalan audiovizual sahədə də beynəlxalq hüquq normalarına uyğundur. Bütövlükdə, mövcud hüquqi baza Azərbaycana müvafiq dövlətlərarası konvensiyalara qoşulmaq imkanı, beynəlxalq təşkilatlara isə Azərbaycanı öz tərkiblərinə daxil etmək üçün əsas vermişdir.

Geniş əhatəli qanunvericilik normalarının yaradılmasına baxmayaraq, audiovizual sahədə müəlliflik hüququna kifayət dərəcədə riayət edilmir. Ekspert müşahidələri göstərir ki, Azərbaycan bazarında mövcud olan video məhsulların ən azı 95%-i qeyri-qanunidir. Musiqi əsərlərinin lentə yazılması bazarında da təxminən belə bir vəziyyət hökm sürür. Özü də bu işlə məşğul olan yerli istehsalçılar artıq video məhsullarını qəbul edilmiş zahiri parametrlərə bu və ya digər dərəcədə müvafiq şəkildə hazırlamağı, o cümlədən onların müdafiə elementlərini (qoloqramma və s.) imitasiya etməyi bacarırlar. Buna baxmayaraq, bu məhsulların təsvir və səs keyfiyyəti heç bir texniki tələblərə cavab vermir.

Heç də bütün sahələrdə stabilliyə və təsirliliyə nail olunmadığı "keçid iqtisadiyyatı" dövründə intellektual mülkiyyət hüququnun qorunması bir çoxları üçün o qədər də ciddi iş hesab edilmir və onun həyata keçirilməsi üçün inzibati, hüquqi, maliyyə və s. xarakterli tədbirlər görülməsi lüzumsuz sayılır. Eyni zamanda heç də az əhəmiyyət kəsb etməyən belə bir vəziyyəti də nəzərə almaq lazımdır ki, yeni dəyərlər şkalasına hələ tam şəkildə uyğunlaşa bilməyən ictimai şüurun özü də elə həmin "keçid" vəziyyətindədir. Hüquq-mühafizə orqanları işçilərinin müəllif hüquqları və intellektual mülkiyyət haqqında hüquqi cəhətdən kifayət qədər məlumatlı olmamalarının, bundan əlavə audiovizual məhsulların adi istifadəçisi olan əhalinin bu məsələnin mahiyyəti barədə çox zəif biliyə malik olmasının bir səbəbi də elə bundadır. Əhalinin böyük bir qismində belə bir qəti inam kök salıb ki, bu cür məsələlərin

qayğısına bu yaxınlara qədər audiovizual məhsulların təkbaşına istehsalçısı və yayıcısı olan dövlət qalmalıdır.

Kinoteatrlara gələnlərin sayının azalmasının bir səbəbi də video bazarında hökm sürən "qaydasız oyun"lardır. Video kaset satışı ilə məşğul olan mağazaların əksəriyyəti ardı-arası kəsilmədən respublikaya gətirilən və burada çoxaldılan lisenziyasız, bu səbəbdən də qiyməti ucuz videokasetlərdən istifadə edir. Digər tərəfdən, kinoprokatın dağılmasına, praktik olaraq, televiziyadakı "piratçılıq" səbəb olmuşdur. Bir neçə il əvvəl bu piratçılıq absolyut xarakter daşıyırdı. Praktiki olaraq, əks-səda doğurmuş hər hansı bir qərb filminin prokatını həyata keçirmək cəhdi dərhal uğursuzluğa düçar olurdu, çünki telekanallar həmin filmi az qala dünya premyerası günündə nümayiş etdirirdilər. Hüquq mədəniyyəti səviyyəsinin artması ilə telekanallarda qeyri-qanuni nümayiş etdirilən filmlərin xüsusi çəkisi xeyli azaldı. Ancaq heç kim bu cür faktların tamamilə aradan qalxdığına təminat verə bilməz: yerli televiziya bazarında xarici film müəlliflərinin hüquqlarına riayət olunmaması hələ də davam edir.

Bütövlükdə, son 5-6 il ərzində kino salonlarındakı tamaşaçı azlığı televiziya vasitəsilə uğurlu şəkildə kompensasiya edilir. Metr və desimetr diapozonlarında fəaliyyət göstərən ən iri telekanalların hər biri gün ərzində 3-5 bədii film nümayiş etdirir. Əgər Azərbaycanda, kino proqramları əsasən xarici filmlərdən tərtib edilən belə kanalların sayının 10-dan az olmadığını nəzərə alsaq və regional televiziya strukturlarını da onlara əlavə etsək, cəsarətlə belə bir qənaətə gəlmək olar ki, kino tamaşaçılarının sayı heç də azalmamış, hətta güclü surətdə artmışdır.

Mütəxəssislər kino sahəsəinin perspektivləri baxımından aşağıdakı təklifləri irəli sürürlər: kino istehsalı üçün vəsait çatışmazlığını nəzərə alaraq xarici kapitalın birgə layihələrə cəlb edilməsi yolu ilə film yaradılması tendensiyasının genişləndirilməsi; kino sahəsinin bazar iqtisadiyyatı dəyişiklikləri məcrasına daha fəal cəlb olunması, kinematoqrafiyanın bütün

sahələrində özəl sektorun xüsusi çəkisinin artırılmasına şərait yaradılması; bu da öz növbəsində kinoya qoyulan vəsaitlərin özünü doğrultma səviyyəsinin artmasına səbəb olacaqdır; kinematoqrafiyanın maddi-texniki bazasını möhkəmləndirmək və perspektivli layihələrin realizasiyası üçün dövlət ayırmalarının, bank kreditlərinin cəlb olunması; iflasa uğramış kino obyektlərinin uzunmüddətli icarəyə verilməsi və ya ayrı-ayrı müəssisələrin özəlləşdirilməsi formasında onların rekonstruksiyasına özəl investorların, o cümlədən xaricilərin vəsait qoymalarına imkan verilməsi; milli kinematoqrafda nəsillər arasında ardıcıllığın qırılması təhlükəsini aradan qaldırmaq məqsədilə istedadlı gənclərin xaricdə əsas kino ixtisaslarına yiyələnə bilmələri istiqamətində tədbirlər görülməsi; audiovizual məhsullardan istifadənin qaydaya salınmasına yönəldilən tədbirlərin işlənib hazırlanması və praktikada tətbiq edilməsi.

Azərbaycanda özəl FM radiostansiyaları da inkişaf etmişdir: bir qayda olaraq bu radioların veriliş diapozonları Bakı və ona yaxın regionların ərazisi ilə məhdudlaşır. Buna baxmayaraq, bu stansiyaların, əsasən musiqili-əyləncəli xarakter daşıyan proqramları getdikcə daha çox auditoriyanı özünə cəlb edir, radiostansiyalara reklam xidməti göstərmək və bununla da öz fəaliyyətlərini davam etdirə bilmələri üçün vəsait qazanmaq imkanı yaradır. Dövlət radiosu öz verlişlərini sutkada 17-18 saat ərzində iki ümummilli proqramda gerçəkləşdirir. Bundan əlavə, həmin proqramlar gün ərzində ərəb, fars, fransız, ingilis və b. dillər də daxil olmaqla bir neçə dildə xaricə kiçik həcmdə verilişlər translyasiya edir.

Sovet dövründən fərqli olaraq, xarici radiostansiyaların ("Azadlıq", "Amerikanın səsi", "Bi-Bi-Si" və b.) Azərbaycan və rus dillərində verilişləri respublika hüdudlarında qəbul edilən radio dalğalarında sərbəst translyasiya edilir.

Azərbaycanda televiziya verilişlərinin tarixi 50-ci illərin ortalarından başlayır: həmin dövrdə bütün sovet ərazisində mərkəzi və respublika televiziya şirkətlərinin (studiyalarının, o

vaxt onlar belə adlanırdı) yaradılmasına başlanmışdı. Teleqəbuledicilər son dərəcə az idi və onlara malik olanların mənzilləri dərhal qonşular üçün kluba çevrilirdi; SSRİ vətəndaşlarına xas kollektivçilik ruhunda tərbiyə edilmiş bu adamlar hər gün oraya toplaşıb texnikanın yeni möcüzəsi – televiziyada verilən verilişlərə tamaşa edirdilər. Ölkənin partiya rəhbərləri əllərinə nə qədər güclü bir ideoloji silah düşdüyünü çox tezliklə başa düşdülər və sonrakı 30-35-ci il ərzində SSRİ-də televiziya kommunist əxlaqının başlıca təbliğatçısına və burjua dəyərləri və kapitalist həyat tərzinin kəskin ifşaçısına çevrilirdi.

1992-ci ildə Azərbaycanda televizorların sayı 1,5 mln-a çatmışdı, yəni hər bir ailənin evdə, əsasən sovet istehsalı olan televizoru vardı. Sonrakı dövrlər üzrə müvafiq statistik hesabatlar aparılmamışdır. Görünür, həmin dövrdən bazar iqtisadiyyatına keçilməsilə əlaqədar müxtəlif ölkələrdən cürbəcür markalı televizorların respublikaya axması, onların uçota alınmasını qeyri-mümkün etmişdir; amma hər halda onların sayı xeyli artmışdır və indi bir çox mənzillərdə iki, bəzən isə hətta üç televizor vardır. Son 5-6 il ərzində sputnik vasitəsilə ötürülən teleproqramları, xüsusilə də dil eyniliyi səbəbindən türk kanallarını qəbul edə bilmək üçün əhalinin fərdi qurğulardan istifadəsi geniş inkişaf etmişdir. Özü də "çanaq"ların sayı paytaxtda və digər şəhərlərdə paralel şəkildə artır. Bundan əlavə, onların sayı kənd yerlərində də kifayət qədər böyükdür. Onlar əsasən İranla sərhəd olan cənub regionlarında geniş yayılmışdır. 90-cı illərin ortalarında qonşu ölkədə sputnik televiziyasından istifadə olunması rəsmən qadağan ediləndə, bu qurğular sərhəddin bu tayına axdı və yerli əhali onları ucuz qiymətə əldə etdi. Əyalət yerlərində sputnik TV-lərdən istifadə edənlərin sayının artmasına, həmçinin Bakıdakı əsas ötürücü stansiyaların rele rabitə xətlərilə ölkənin dərinliklərinə ötürülən tele təsvirlərin mərkəzdən uzaqlaşdıqca keyfiyyətcə pisləşməsi də təsir göstərir.

Kabel televiziyası ölkədə geniş yayılmamışdır. 90-cı illərin əvvəllərində meydana çıxan və mikrorayonlarda ayrı-ayrı mənzillərin sakinlərinə xidmət edən yerli şəbəkələr tezliklə öz fəaliyyətini dayandırmalı oldu. Bunun da səbəbi çoxsaylı yerli və xarici telekanalların hamılıqla qəbul edilən efirdə veriliş verməyə başlamaları idi, çünki bu proqramlara baxmaq üçün əlavə haqq ödəmək lazım deyildi. Kabel televiziya kanalları az sayda da olsa, yalnız Bakı şəhərinin bəzi bahalı mehmanxanalarında öz fəaliyyətini davam etdirir. Sputnik TV və fərdi deşifratorlar (dekoderlər) vasitəsilə xarici kanallara pullu baxış paytaxtda və ona yaxın bölgələrdə həyata keçirilir. Televiziya bazarının bu seqmentində xaricilərin – kanadalıların, türklərin və rusların iştirakı ilə üç şirkət fəaliyyət göstərir.

Azərbaycanda televiziya bazarının təhlil edilməsi (mass-mediya mənasında) bu sahədə, eləcə də digər sahələrdə ciddi sosioloji tədqiqatların yoxluğu ucbatından xeyli çətindir. Azsaylı yerli reytinq sorğularının nəticələri obyektiv mülahizələr irəli sürməyə imkan vermir. Televiziya kanallarının reklam və digər fəaliyyətlərilə bağlı maliyyə göstəricilərinin gizli saxlanılması da hər hansı bir tendensiyanın və nəticənin üzə çıxarılmasına mane olur.

Azərbaycan televiziya bazarında yerli dövlət və özəl şirkətlərlə yanaşı türk və rus kanalları fəaliyyət göstərir. Özü də türk və rus kanalları bütöv televiziya günü rejimində transliyasiya edilir. Bu vəziyyət ictimaiyyətin bir qismində müəyyən narazılığa səbəb olur, onlar belə hesab edirlər ki, yaranmış praktika milli maraqlarla daban-dabana ziddiyyət təşkil edir. Hərçənd, reklam bazarının yenidən bölüşdürülməsilə bağlı versiya da mövcuddur, çünki əzəldən Azərbaycanda populyar olan Rusiya kanalları tamaşaçı auditoriyasının xeyli hissəsini özünə cəlb edir. Sərhəd rayonlarında İran, Gürcüstan və Ermənistan kaanallarını sabit şəkildə tutmaq olur.

Televiziya verilişləri fəaliyyəti 2000-ci ildə qəbul edilən "Kütləvi İnformasiya Vasitələri haqqında" qanunla və

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il tarixli "KİV-ə dövlət qayğısının gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə tənzimlənir.

Azərbaycanda 2001-ci ilin ortalarında dövlət idarəetmə strukturunda baş verən böyük islahatlar çərçivəsində KİV-in, o cümlədən elektron vasitələrin fəaliyyətinin lisenziyalaşdırılması sistemində müəyyən dəyişikliklər edilir. Bu funksiyanı yerinə yetirməklə məşğul olmuş Mətbuat və İnformasiya Nazirliyinin yerinə ölkə prezidentinin adminstrasiyası nəzdində İctimai Şura yaradılır. Onun funksiyaları Avropa Şurasının tövsiyələrinə uyğun olaraq müəyyənləşdirilir, bu təşkilatın nümayəndələri ölkənin televiziya bazarında yaranmış vəziyyəti diqqətlə öyrənmişlər. Bütün ölkə ərazisini əhatə edən əsas dövlət kanalı informativ və bir qədər ağır mədəni-bədii siyasət yürütməklə məşğul olan və bu sahədə çoxdan formalaşmış rəsmi orqandır. İnformasiya buraxılışlarının tematik strukturu uzun illərdir dəyişməz qalır, yalnız əmək qabaqcılları haqda süjetlərdən ibarət olan xəbər bloku indi bölgə müxbirlərinin, hökumət qərarlarının müzakirələrinə həsr olunan çansıxıcı telehesabatlarından ibarət saysız-hesabsız seriallarla əvəz edilmişdir. Kanalın mədəniyyət-əyləncə və ictimai-siyasi simasını çoxlu növ və janrları əhatə edən öz proqramları müəyyənləşdirir.

Özəl telekanallardan fərqli olraq, dövlət TV-nın proqramları qərb filmlərinin bolluğu ilə ağırlaşdırılmamışdır. Buna baxmayaraq, hər gün verilən Cənubi Amerika serialları onun da repertuarında özünə möhkəm yer tutmuşdur. Azərbaycan dünyəvi ölkədir və islam onun ictimai həyatında əhəmiyyətli rol oynamır. Televiziyada, o cümlədən özəl televiziyada müsəlman dininin təbliği, tamaşaçıların böyük əksəriyyətinin kifayət qədər maraq göstərməməsi səbəbindən məhdud xarakter daşıyır. Dövlət televiziya şirkəti strukturunda az həcmdə sənədli videofilmlər və teletamaşalar istehsalı ilə məşğul olan birliklər vardır. Dövlət televiziyasının fəaliyyətinin maliyyələşdirilməsi büdcə ayırmaları hesabına həyata keçirilir. Onun

reklam fəaliyyətilə müqavilə əsasında kommersiya strukturu məşğul olur. Həmçinin, Naxçıvan Muxtar Respublikasının tərkibinə daxil olan altı inzibati rayona kiçik həcmli verilişlər yayan (axşam vaxtları1,5-2 saat) dövlət kanalı da mövcuddur.

1991-ci ildən etibarən Bakıda ilk özəl kanal meydana çıxandan sonra dövlət televiziyası öz inhisarçı mövqeyini itirməyə başladı və qətiyyətlə demək olar ki, öz auditoriyasının xeyli hissəsini qoruyub saxlaya bilmədi. Və buna, digər bazarlar kimi yeni iqtisadi münasibətlərə cəlb olunan televiziya bazarını bürüyən təbii proseslərin nəticəsi kimi baxmaq lazımdır. Paytaxtda 4 özəl şirkət (ANS, SPACE, Lider, "Azad Azərbaycan"), iri şəhərlərdə (Gəncə, Sumqayıt, Lənkəran, Quba, Xaçmaz və b.) və bəzi digər şəhərlərdə də həmçinin yerli televiziya şirkətləri fəaliyyət göstərir. Onların bir çoxu efir tezliyi üçün hakimiyyət orqanlarından alınan rəsmi icazəyə malik deyillər, amma bu onların bəzilərinə tamamilə rahat şəkildə veriliş verməkdə heç bir maneəçilik törətmir. Son beş ildə Azərbaycanda Amerikanın, inkişaf etməkdə olan ölkələrdə özəl televiziyanın inkişafına yardım göstərən "İnternyus" teleşirkətinin nümayəndələri fəaliyyət göstərir. Onun təmənnasız yardımı ilə yerli teleşirkətlər öz texniki cəbbəxanalarını zənginləşdirirlər. Bundan əlavə, "İnternyus" onlara nümayiş etdirilmək üçün, pulsuz olaraq, əsasən humanitar xarakterli televiziya proqramları verir. "İnternyus" 1999-2000-ci illərdə həyata keçirilən birdəfəlik iri kampaniya çərçivəsində gənc Azərbaycan rejissorlarının böyük bir qrupuna öz senariləri üzrə sənədli filmlər çəkə bilmələri üçün şərait yaratmış və həmin filmlərin istehsal xərclərini tamamilə ödəmişdir. "İnternyus"un qonşu Cənubi Qafqaz ölkələrində də nümayəndəlikləri mövcuddur. Bundan istifadə edən şirkət birgə verlişlərin hazırlanması və Gürcüstan, Ermənistan və Azərbaycan efirinə buraxılması işini qaydaya salmışdır. Pullu reklam, bəzi proqramlar üçün isə sponsor yardımı özəl kanalların əsas maliyyə mənbəyi olaraq qalır, hərçənd sponsor yardımı da

reklam xidmətlərinin ödənilməsinin bir qədər başqa, şəkli dəyişdirilmiş forması kimi çıxış edir. Özəl telekanalların paytaxtda, sayca olmasa da, hər halda keyfiyyətcə gur inkişafı televiziya bazarında rəqabət mühitinin yaranması ilə bağlıdır. Bu prosses hələlik periferiyaya yayılmamışdır. Tamaşaçı uğrunda mübarizə (bu isə reklam, daha dəqiq desək reklam verənlərin maliyyə vəsaiti və bundan irəli gələn üstünlüklər uğrunda mübarizə deməkdir) gənc teleşirkət sahibkarlarını daim yeni formalar axtarıb tapmağa, bütün profillər üzrə ən yaxşı mütəxəssisləri işə cəlb etməyə, texniki imkanlarını təkmilləşdirməyə məcbur edir. Bu da onların bəzilərinə bir sıra parametrlər, xüsusilə də hadisələrə operativ reaksiya vermək, proqram siyasətinin çevikliyi, dizayn sahəsində dövlət kamalını üstələməyə imkan verir. Özəllər həmçinin interaktiv televiziya metodlarını tətbiq edirlər.

Əyləncə proqramlarının bolluğu da diqqəti cəlb edir. Doğrudur, onlar heç də həmişə yüksək keyfiyyətli olmur və çox vaxt tamaşaçı auditoriyasının tələbkar olmayan hissəsinin zövqünü oxşayır, amma bu istiqamətdə də keyfiyyət artımı tendensiyasını müşahidə etmək olar. Özəl sahibkarlar nə qədər güclü, başqa zamanların tanımadığı bir təsir vasitəsinə malik olduqlarını yaxşı başa düşür və bu səbəbdən cəmiyyət qarşısında ciddi məsuliyyət daşıdıqlarını unutmurlar, respublika qanunları da onlara bu işdə yardım göstərir. Ümidverici haldır ki, öz auditoriyalarını genişləndirməyə çalışarkən, televiziya kanalları söz azadlığı hüququndan necə gəldi istifadə etmirlər, onların bir çoxunun ictimai-siyasi yönümü isə xeyli dərəcədə plüralist xarakter daşıyır və bütövlükdə cəmiyyətdəki çeşidli əhval-ruhiyyələri əks etdirir.

Bəzi ölkələrdə milli kinematoqrafın himayə edilməsi siyasəti çərçivəsində televiziyada xarici kino məhsullarının nümayişinə qoyulan kvota sistemi Azərbaycanda yoxdur. Bu səbəbdən özəl kanalların kino repertuarında başlıca yeri Amerika filmləri tutur. Özəl kanallar bədii filmlərin istehsalı

ilə məşğul olmurlar, bu da teatr və kino əsərlərinin yaradılmasına tələb olunan maliyyə vəsaiti həcmlərinin onlar üçün əlçatmaz olması ilə izah edilməlidir.

Bakıdakı özəl kanalların əksəriyyəti özündə habelə radiostansiyalar, qəzetlər və jurnalları birləşdirən mediya qruplarına daxildir. Bununla belə telekanallar bu holdinqlərin əsas tərkib hissəsi olaraq qalır.

90-cı illərin əvvəlindən etibarən Azərbaycanda bütün sahələrdə, o cümlədən mədəniyyət industriyaları sahəsində yeni texnologiyalar gur inkişaf etməyə başladı və qlobal internet şəbəkəsində şəbəkə layihələrinin işlənib hazırlanmasına başlanıldı. Həmin layihələr çərçivəsində Azərbaycan mədəniyyətinin yaranması və inkişafı tarixinə həsr olunmuş veb saytlarının da yaradılması nəzərdə tutulurdu. Mədəniyyət sahəsində ilk şəbəkə layihələrindən biri Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə İntrans şəbəkəsinin birgə yaratdığı http://www.culture.az veb saytı oldu. Həmin saytda nazirliyin özü və onun strukturuna daxil olan müəssisələr haqqında informasiyalar təqdim edilir.

Əlbəttə, ilk saytlar istifadəçilərin kütləvi tələbatına hesablandığından layihələrin əksəriyyəti Azərbaycan ifaçılarının musiqi arxivlərinin şəbəkədə yerləşdirilməsinə yönəldilmişdi. “azərinet” Birliyi http://www.azerimp3.com saytı yaratmışdı. 2001-ci ilin yayında xeyli yeniləşdirilən və əlavələr edilən bu saytda həm estrada (pop, rep), həm də klassik xarakterli mahnılar və kompozisiyalar, habelə caz kompozisiyaları və Azərbaycan klassik musiqi mədəniyyətinin muğam kimi çox vacib elementini tapmaq olar. Azərbaycan “İnternetində” (“Azərinet”də) musiqi arxivlərinin toplandığı və sistemləşdirildiyi bir neçə şəbəkə layihəsi həyata keçirilmişdir. Onların arasında http://www.bakililar.az və http://www.azerimusics.com kimi saytlar vardır.

1998-ci ildən etibarən peşəkar səviyyədə tərtib edilən, müəyyən janr çərçivələrinə uyuşan, tam şəkildə fəaliyyət gös-

tərən, bədii dəyərlərə, estetik zövqə, məna dolğunluğuna malik olan və getdikcə daha geniş nüfuz qazanan, yalnız Azərbaycanda deyil, həmçinin bütün dünyada peşəkarların diqqətini cəlb edən saytların yaranması fəal inkişaf etməyə başlamışdır. Bu kateqoriyada ən perspektivli və uğurlu saytlar, heç şübhəsiz, "Musiqi Dünyası" jurnalı tərəfindən yaradılan layihələrdir. Diqqətəlayiq hadisədir ki, bu saytların yaradılması, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirdiyi IATP (Internet Training and Access Program) proqramı tərəfindən dəstəklənmişdir. Adı çəkilən saytlar arasında: "Musiqi dünyası" jurnalının http://musigi-dunya.az saytı; http://composers.musigi-dunya.az; http://diskografiya.musigi-dunya.az on-layn katoloqları və xatirə saytları – görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevə həsr olunmuş http://gara-garayev.musigi-dunya.az saytı və tanınmış caz bəstəkarı və pianoçu V.Mustafazadəyə həsr olunmuş http://vagif.musigi-dunya.az . saytı vardır. Azərbaycan incəsənətinə həsr olunmuş http://azeripaint.aznet.org; "Azərbaycan İnterneşnl" jurnalının http://azer.com; Azərbaycan rəssamlarının 1800-dən çox əsərinin toplandığı http://azgallery.org; Azərbaycan dili və ədəbiyyatına həsr olunan http://azeri.org; Musiqi Mədəniyyəti Muzeyinin http://www.citisight.com/baku/musculture.html; Azərbaycana dair turist soraq kitabçası http://5c.azeri.com/travel/culture.html saytlarını və həmçinin bəzi digər layihələri də öz məna bitkinliyi və tərtibat peşəkarlığı baxımından yuxarıda adı çəkilən saytlara aid etmək olar.

Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin yaradıcılığına həsr olunmuş fərdi səhifələrin yaradılması tendensiyasını da qeyd etmək lazımdır. Bu saytların əksəriyyəti informasiya təsvirinin yüksək səviyyəsi, musiqi, foto və video arxivlərin mövcudluğu, həmçinin onlara müraciət edənlərin sayca çoxluğu ilə seçilir.

Fərəhli haldır ki, Azərbaycanda 2000-ci ildən etibarən İnternetdə mədəniyyət və incəsənətin inkişafı məsələlərinə mühüm yer ayrılan birgə Azərbaycan Portal İnkişafı layihəsi həyata

keçirilməyə başlanmışdır. Ümumdünya Bərpa və İnkişaf Bankı tərəfindən maliyyələşdirilən bu layihə Azərbaycan cəmiyyətinin üç sektorunun – dövlət, özəl və vətəndaş cəmiyyəti sektorlarının qarşılıqlı fəaliyyəti əsasında həyata keçirilir. Sayt http://www.gateway.az ünvanında yerləşir və bir çox mütəxəssislərin rəyinə görə müəyyən müddətdən sonra bir növü Azərbaycan internetinin "mərkəzi"nə çevriləcəkdir. Portalda müxtəlif ictimai həyat sahələrinə dair materiallar, xəbərlər, həmçinin "azərinet"in böyük baza resursları təmsil olunmuşdur.

Fərəhləndirici faktlardan biri də son iki ildə "azərinet"də müxtəlif qəzet və jurnalların çox sayda keyfiyyətli saytlarının meydana çıxmasıdır.

Veb saytları yaradılması prossesinə dövlət strukturları da fəal qoşulmuşdur. Azərbaycan Respublikası Prezidentinin http://www.president.az; demək olar ki, bütün nazirlik və dövlət komitələrinin, Azərbaycan Respublikası səfirliklərinin (bunların arasında Azərbaycanın ABŞ-dakı (158) və Rusiya Federasiyasındakı (159) səfirliklərinin saytlarını ayrıca qeyd etmək istərdik) saytları yaradılmışdır. Bütün bunlar bilavasitə demokratikləşmə, şəffaflıq və dövlət strukturları haqda informasiyalara yol tapılması meyllərini əks etdirir.

Azərbaycanın özündə yaradılan layihələrlə yanaşı mədəniyyət sahəsində bir neçə beynəlxalq şəbəkə layihəsi də mövcuddur. Onlardan ən mühümü Avropa Şurası və "ERİKarts" Mədəniyyət Sahəsində Müqayisəli Tədqiqatlar İnstitutunun (Bonn, Almaniya) "Avropada Mədəniyyət siyasəti: əsas faktların və tendensiyaların kompendiumu" birgə layihəsidir. Azərbaycanın Mədəniyyət Nazirliyi 1999-cu ildən həmin layihədə iştirak edir.

Mədəniyyət industriyaları gələcəkdə inkişaf üçün böyük potensiala malikdir. Rahat idarə edilə bilən bu sahə yaxşı təminat və mədəniyyət aləmi ilə tərəfdaşlığın müdafiə olunması şəraitində qarşılıqlı faydalı münasibətlər üçün zəmin yarada bilər.

## Milli-mənəvi irsin qorunması ilə bağlı görülən tədbirlər və bu sahədə beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq

"Keçmişi bilmək gələcəyi dərk etməyin ən yaxşı yoludur" və Puşkinin çox gözəl ifadə etdiyi kimi, irs – "yaddaşın işığı"dır. Puşkin habelə, "mövsümlərin və zamanların bir-birinin ardınca dəyişməsi, sülalələrin süqutu və doğuluşunun bir-birini əvəz etməsi ilğımı arasından unudulan və sonrakı dövrləri bir-birinə birləşdirən güc (keçmiş tikililərin)" barədə yazıb, məhz bu gücün "yarısı milli şüuru təşkil edir, çünki millətin simpatiyası məhz burada cəmləşmişdir".

Azərbaycanlılar öz tarixi irslərilə çox fəxr edirlər və heç şübhəsiz, onların buna haqqı vardır. Bu irs bütün ölkə üzrə Qobustandakı mezolit dövrünün qayaüstü rəsmlərindən, atəşpərəstlərin Bakı yaxınlığındakı "Atəşgah" məbədindən, Şirvanşahlar Sarayı və bütövlükdə İçəri Şəhərdən (orta əsrlər Bakısı), Kiş kəndindəki alban kilsəsindən, Şəki qalası və Xan sarayından, birinci neft yüksəlişi zamanı Bakıda tikilən gözəl binalardan tutmuş tarixi irsin digər çoxsaylı gözəl və diqqətəlayiq şəhər nümunələrinə, qala və məscidlərə, kilsə, məbəd və milli tikililərə qədər polietnik və çox mədəniyyətli keçmişin bütün daşıyıcılarını əhatə edir.

İrs həmçinin muzey və kitabxanaların kolleksiyalarını, ənənəvi mədəniyyəti əhatə edir və Pyer Noranın qeyd etdiyi kimi, təkamül konsepsiyasını özündə əks etdirir və bu konvensiya mədəniyyət, yaddaş, şüurla bağlı qeyri-maddi dəyərləri mümkün qədər daha çox özünə daxil etmək məqsədini güdür. Başqa sözlə, o elə zərif və kövrək bir fabrikadır ki, icmaların mayasını yoğurur və onları bir-birinə birləşdirir. Ölkələrin keçmişində, keçid dövründə darmadağın edilən məhz bu kövrək fabrika gələcəyin sabit inkişafının açarı və mərkəzidir. Nə üçün? Ona görə ki, cəmiyyət yalnız sosial birlik, kollektiv iradə və könüllü iştirak yolu ilə irəli gedə və öz gələcəyini qura bilər.

İtaliya hökumətilə əməkdaşlıq zəminində Dünya Bankı və YUNESKO tərəfindən nəşr olunan, mədəniyyət və maliyyə dünyaları arasında körpü yaratmaq məqsədilə 1998-ci ildə Florensiyada keçirilən beynəlxalq konfransın ideya və tövsiyələrini yekunlaşdıran “Sabit inkişaf üçün yeni mədəniyyət strategiyalarına doğru” adlı broşürdə belə bir müraciət var: inkişaf yaradıcı iştirak prosesini əks etdirməlidir və bu mənada mədəniyyətin rolu bundan sonra danıla bilməz. YUNESKO tərəfindən həyata keçirilən bu yeni yanaşma üsulu, həmçinin Avropa Şurasının “Çərçivədən kənar” tədqiqatlarının mərkəzi konsepsiyasını təşkil edir (139).

1998-ci ilin aprel ayının 10-da “Tarix və mədəniyyət abidələrinin qorunması” haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir. Tarix və mədəniyyət abidələri – arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar, xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir. Burada deyilir ki, tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Abidələr daşınar (səyyar) və daşınmaz (stasionar) ola bilər. Daşınar abidələr muzeylərdə, arxivlərdə, fondlarda, sərgilərdə və digər münasib yerlərdə, daşınmaz abidələr əksər hallarda arxeoloji və memarlıq abidələri olmaqla, olduğu və inşa edildiyi yerlərdə qorunur.

Bu Qanunda qeyd edilir ki, Azərbaycan xalqının zəngin milli mədəniyyətinin qorunub saxlanması dövlətimizin ən mühüm vəzivələrindən biridir. Mədəni sərvətlərin qorunub saxlanması və istifadəsi problemləri ölkənin əsas Qanununda – Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır: “Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır”(9, s.24)

Hər bir xalqın mədəni irsi onun milli yaradıcılıq potensialının etibarlı göstəricisidir. Mədəni irsin qorunması və inkişaf etdirilməsi ümumilikdə cəmiyyətin inkişafının və bütün sahələrdə yüksək nailiyyətlər əldə etmək cəhdlərinin ayrılmaz bir hissəsidir. Tarix və memarlıq abidələri, muzeylər, kitabxanalar və arxivlər mədəni irsi mühafizə edən ən mühüm mədəniyyət ocaqlarıdır.

Azərbaycan keçid dövrü şəraitində, mədəniyyət sahəsində kəskin tənəzzüllə üzləşmişdir. Bir çox kütləvi mədəniyyət mərkəzlərinin ( müzeylər, kitabxanalar, parklar, teatr və konsert zalları) əsaslı bərpasına və modernləşdirilməsinə ehtiyac duyulur. İncəsənət sahəsində tənəzzülün və mədəni irsin itməsinin cəmiyyətə təsiri istənilən halda iqtisadi inkişaf üzrə qarşıya qoyulan məqsədlərlə heç cür müqayisə edilə bilməz. Bu baxımdan hökumət, yoxsulluğun azaldılması məqsədləri çərçivəsində incəsənət sahəsində tənəzül meyllərinin qarşısının alınmasına və mədəniyyətin inkişaf etdirilməsinə yönəldilmiş əsas tədbirlər işləyib hazırlamalıdır.

Mütəxəssislərin fikrincə, hökumət yoxsulluğun azaldılması ilə bağlı məqsədlərə öz təsirini iki əsas istiqamətdə göstərməlidir: mədəni irsə və mədəniyyətin gələcək inkişafına qayğının artırılması. Hazırda mədəniyyət sahəsində çalışan işçilərin əmək haqları çox aşağı səviyyədədir. Buna görə də incəsənət tədris sahəsində çalışan müəllimlərin və dövlət mədəniyyət müəssisələrində çalışan işçilərin əmək haqlarının artırılması yolu ilə mədəniyyət işçilərinin yaşayış səviyyəsinin yaxşılaşdırılması təmin olunmalıdır.

Dünyanın bir çox ölkələrində bir qayda olaraq mədəni irsin qorunması, saxlanması və onun fundamental inkişafı dövlət siyasətinin tərkib hissəsi kimi, onun maliyyə vəsaitləri hesabına həyata keçirilir. Buna baxmayaraq mədəniyyətlə bağlı əlavə fəaliyyət sahələrinə özəl sektorun cəlb ilunması da həvəsləndirilə bilər. Buraya müxtəlif təlim proqramları bədii gecələrin, incəsənət tədbirlərinin və mədəniyyət mərkəzlərinə

ekskursiyaların təşkil olunması, nəqliyyat, informasiya texnologiyası və nəşriyyat eləcə də pərakəndə satış sahələri aiddir. Bundan əlavə bəzi mədəniyyət mərkəzləri özəl sektora idarəetməyə verilə bilər. Bütün bunlar hökumətin inkişaf strategiyasına tam uyğun olaraq, gəlir əldə etmə imkanlarının yaradılmasına birbaşa təsir göstərəcəkdir.

2003-cü ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müasir beynəlxalq təcrübəyə əsaslanan mədəniyyət siyasəti istiqamətində 2004–2008-ci illər üçün "Azərbaycan mədəniyyətinin Dövlət Strateji inkişafı proqramının" layihəsi hazırlanmışdır. Proqram Azərbaycan Respublikasında dövlət səviyyəsində aparılan mədəniyyət siyasətinin əsas istiqamətlərini müəyyən edir və "Mədəniyyət siyasətinin təminatı", "Mədəni irsin mühafizəsi", "Yaradıcılığın dəstəklənməsi" və "Mədəni mənafeylərin inkişafı" adlı 4 bölmədən, 20 fəsildən və Proqrama əlavə olunan "məqsədli layihələr cədvəli"ndən ibarətdir. Proqram müasir cəmiyyətdə mədəniyyətin rolunun yenidən dərk olunmasına, milli ideyanın inkişaf etdirilməsinə, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artırılmasına həsr olunmuşdur. Proqramın əsas məqsədi keçmişi qoruyub saxlamaq, indini dəstəkləmək və gələcək inkişaf üçün zəmin yaratmaqdır.

Xarici mədəniyyət siyasəti istiqamətində nazirliyin mədəniyyət siyasəti şöbəsi YUNESKO, Avropa Şurası, Avropa Birliyi, Türksoy, MDB və digər nüfuzlu beynəlxalq təşkilatların müvafiq qurumları ilə uğurlu əməkdaşlıq edir.

Təsadyfi deyildir ki, son illərdə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə Avropa Şurası arasında əməkdaşlıq çərçivəsində mədəniyyət siyasəti sahəsində bir sıra mühüm layihələr həyata keçirilir. Bunların arasında Avropa Şurasının Cənubi Qafqaz ölkələri üçün nəzərdə tutulmuş və 2000-ci ildən başlanılmış STEYC layihəsi xüsusi əhəmiyyət kəsb edir. Bu layihə çərçivəsində yerli və Avropa ekspertləri tərəfindən Azəprbaycanın mədəniyyət siyasətinə dair milli məruzə

Strasburqda keçirilən Avropa Şurasının Mədəniyyət üzrə rəhbər Komitəsinin toplantısında təqdim olunaraq Komitə tərəfindən yüksək qiymətləndirilmişdir. Layihənin son mərhələsi kimi, Məruzənin müzakirə edilməsi və mövcud problemlərin araşdırılması məqsədilə Mədəniyyət Naizrliyi ilə Avropa Şurası tərəfindən 23-24 iyun 2003-cü il tarixində Bakıda Milli Debatlar keçirilmişdir. Yüksək dövlət səviyyəsində təşkil olunmuş Milli Debatlar Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin iştirakçılara ünvanlanmış müraciətinin oxunması ilə başlanmışdır. İki gün davam edən tədbirin sonunda Azərbaycanın mədəniyyət siyasəti üzrə Bəyannamə qəbul olunmuşdur.

Eləcə də Avropa Şurasının STEYC layihəsi çərçivəsində bir sıra digər tədbirlər də həyata keçirilmişdir ki, bunlardan biri də "Şəhərlər üçün mədəniyyət siyasəti" proqramı olmuşdur. 16-22 iyun 2003-cü il tarixində Bakıda həyata keçirilən bu layihələdə İsveçrə və Türkiyədən olan mütəxəssislər və həmçinin Avropa Şurasının Mədəniyyət siyasəti və fəaliyyəti departamentinin nümayəndələri iştirak etmişlər. 2004-cü ilin sentybarın 18-dən 20-dək Türkiyənin Antalya şəhərində Türkiyə hakimiyyət orqanlarının dəvəti ilə STEYC Layihəsinin Üçüncü Nazirlər Kollokviumu keçirilmişdir. STEYC Layihəsinin üçillik nəticəsi kimi, "Azərbaycanda mədəniyyət siyasəti" adlı kitab yazılmış və Azərbaycan, ingilis və rus dillərində çapdan çıxmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət siyasəti şöbəsi Avropa Şurası və Almaniyanın Bonn şəhərində yerləşən "ERİKarts" elmi-tədqiqat institutu tərəfindən həyata keçirilən "Avropada mədəniyyət siyasəti: əsas təmayüllər və faktların Kompendiumu" beynəlxalq birgə layihəsində iştirakını davam etdirmişdir. Azərbaycan Respublikasının aid olan son faktlar və sənədlər təhlil edilib işlənilmiş və Avropa Şurasına təqdim olunmuşdur.

2002–2003-cü illər ərzində YUNESKO-nun “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri proqramı” çərçivəsində geniş fəaliyyət aparılmışdır. YUNESKO-nun Baş Direktoru, Baş direktorun müavini, qeyri-maddi irs departamentinin rəhbərliyi ilə nazirliyin nümayəndələri Parisdə və Bakıda bir sıra mühüm görüşlər keçirmişdir. Şöbə Milli Elmlər Akademiyası və YUNESKO üzrə Azərbaycan Milli Komissiyası ilə birgə Azərbaycan müğamının qorunmasına və inkişafına istiqamətləndirilmiş Fəaliyyət Planı tərtib etmişdir. Belə gərgin və məqsədyönlü fəaliyyətin nəticəsində 2003-cü ilin noyabr ayında Azərbaycan muğamı YUNESKO-nun “Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri” siyahısına daxil edilmişdir. Bu fakt konkret olaraq Mədəniyyət nazirliyi və bütövlükdə Azərbaycan mədəniyyəti üçün böyük qələbəsi kimi qeyd olunmalıdır.

1-6 iyun 2003-cü il tarixində YUNESKO üzrə Litva Milli Komissiyası və YUNESKO-nun Mədəniyyət siyasəti və mədəniyyətlərarası dialoq departamenti tərəfindən birgə təşkil olunmuş “Sivilizasiyalararası dialoq: Qafqaz” adlı regionlar-arası laiyhə çərçivəsində Vilnusda görüş keçirilmişdir. 11-14 may tarixində Stokholm şəhərində “Mədəniyyət sahəsində inkişaf məqsədilə siyasət” üzrə 1998-ci ilin Stokholm Hökümətlərarası konfransında qəbul edilmiş fəaliyyət Planının həyata keçirilməsinə həsr olunmuş “Stokholm+5” adlı YUNESKO ekspertlərinin Görüşü təşkil olunmuşdur. Görüşdə şöbə müdiri “Azərbaycada mədəniyyət siyasətinin institusional quruculuğu və inkişafi” mövzusunda çıxış etmişdir.

YUNESKO-nun 2002-2003-cü illər üçün Roqramı əsasında “GÜÖAM ölkələri arasında Şərq-Qərb mədəniyyətlərarası dialoq: Avropa-Qafqaz-Asiya mədəniyyət dəhlizinin yaradılması” adlı beynəlxalq görüş təşkil edilmişdir. Görüş Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna və Özbəkistan nümayəndələrinin iştirakı ilə 9-10 iyul 2003-cü il tarixində Bakıda keçirildi. Konfransın sonunda YUNESKO-nun mədəni

Müxtəliflik üzrə Universal Bəyannaməsi və onun fəaliyyət planında əks olunan prinsiplər nəzərə alınmaqla Bakı bəyannaməsi qəbul olundu.

9-14 oktyabr 2003-cü il tarixində Parisdə YUNESKO baş konfransının 32-ci sesiyası çərçivəsində Mədəniyyət məsələləri üzrə Komissiyanın görüşü keçirildi. MDB iştirakçı dövlətlərinin mədəni əməkdaşlıq üzrə Şurası ilə birgə fəaliyyət mədəniyyət siyasəti şöbəsinin prioritet istiqamətlərindən biridir. Həyata keçirilmiş tədbirlər sırasında Şuranın 1oktyabr 2003-cü ildə Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilmiş XIX-cu iclası və "Qloballaşma kontekstində post-sovet məkanında mədəniyyətlərarası dialoq" adlı beynəlxalq elmi-praktik konfransını göstərmək olar. 2004-cü ilin 18-19 noyabr tarixində Sankt-Peterburq şəhərində keçirilmiş MDB parlamentlərarası Assambleyasının mədəniyyət, informasiya, turizm və idman üzrə Daimi Komissiyası ilə MDB iştirakçı dövlətlərinin mədəniyyətin qanunvericilik təminatının öyrənilməsi və müqayisəli təhlili üzrə İşçi Qrupunun birgə iclası keçirildi.

Şöbə əməkdaşları Azərbaycan nümayəndə heyətinin tərkibində 2003-cü ilin 2-22 fevral tarixlərində Amerika Birləşmiş Ştatlarının "Beynəlxalq qonaqlar" proqramı çərçivəsində təşkil olunmuş "Kitabxanalar və onların ABŞ icmalarındakı rolu" tanışlıq səfərində iştirak etmişlər. 23-30 noyabr 2004-cü ildə Azərbaycan musiqi Şurasının Avropa Musiqi Şurasına qəbul edilməsi məqsədilə keçirilən görüşdə şöbə müdiri Bonn şəhərinə ezam edilmişdir. Görüş zamanı yeni milli təşkilatın məqsədləri, vəzifələri və strukturu, müasir Azərbaycan musiqi mədəniyyətində mövcud olan müxtəlif cərəyanlara həsr olunmuş təqdimetmə mərasimi keçirilmişdir (55, s.9-11).

1992-ci ilə qədər tarix və mədəniyyət abidələrinin qorunması ilə Mədəniyyət Nazirliyi nəzdində Abidələrin Mühafizəsi İdarəsi məşğul olurdu. 1992-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzdində 2000-ci ilədək

fəaliyyət göstərmiş olan Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası üzrə Dövlət Komitəsi yaradıldı. Respublika ərazisində yerləşən abidələrin mühafizəsi, bərpası və istifadəsi ilə bağlı bütün funksiyalar bu komitəyə həvalə olundu. Hadisələrin sonrakı inkişafı göstərdi ki, bu qərar son dərəcə yanlış olmuşdur. Abidələrin qorunması sahəsində kifayət qədər idarəçilik təcrübəsi olmayan bu yeni yaradılmış struktur, praktiki olaraq, əvvəlki işləri yox dərəcəsinə gətirib çıxardı. Komitə ləğv edildikdən sonra onun funksiyaları yenidən Mədəniyyət Nazirliyinə qaytarıldı və burada tarix və mədəniyyət abidələrinin mühafizəsi, bərpası və istifadəsi üzrə Baş İdarə təşkil olundu. Yerlərdə abidələrin vəziyyətinə nəzarət respublikanın bütün şəhər və rayonlarının icra hakimiyyətlərinin mədəniyyət şöbələri tərəfindən həyata keçirilir. Sovet dövründə həmçinin Tarix və Mədəniyyət Abidələrini Könüllü Mühafizə Cəmiyyəti yaradılmışdı, amma onun işi mühafizədən daha çox təbliğat və təşviqatla məhdudlaşırdı. Maliyyə vəsaitinin yoxluğu səbəbindən həmin cəmiyyətin fəaliyyəti son illər xeyli zəifləmişdir.

Dövlət mühafizəsinə götürülən "Abidələrin siyahısı" Nazirlər Kabineti tərəfindən 1968, 1981 və 1988-ci illərdə təsdiq olunmuşdur. Nazirlər Kabinetinin sonuncu dəfə təsdiq etdiyi siyahı, hüquqi cəhətdən ona bərabər tutulan əvvəlki siyahılar əsasında tərtib edilmişdir. Siyahıdan yalnız inqilabi və kommunist ideologiyası, həmçinin onların liderlərinin adları ilə bağlı bina və tikililərin adları çıxarılmışdır. Memarlıq, arxeologiya, monumental və bağ-park sənəti abidələrinin daxil edildiyi son siyahının məqsədlərindən biri abidələri əhəmiyyətlilik dərəcəsi üzrə qruplara bölməkdir: ümumdünya, dövlət və yerli əhəmiyyətli abidələr. Mövcud qanunvericiliyə əsasən ümumdünya və dövlət əhəmiyyətli daşınmaz abidələr özəlləşdirilə bilməz. Yerli əhəmiyyətli yaşayış binaları və onlardakı mənzillər isə özəlləşdirilə bilər. Belə hallarda bu evlərin və yaxud mənzillərin sahibləri ilə abidənin ilkin

simasının istənilən cür təhrifini qadağan edən mühafizə müqaviləsi bağlanır. Aşağıda son dəfə təsdiq edilmiş siyahıya uyğun olaraq dövlət mühafizəsinə götürülən tarix və mədəniyyət abidələrinin təsnifat cədvəli verilir.

Sonuncu siyahının əhəmiyyətini və onun tərtibi üzərində çalışan alim və mütəxəssislərin gərgin əməyini azaltmadan, qeyd etmək lazımdır ki, bu siyahının dəqiqləşdirilməsi üçün genişmiqyaslı tədqiqat işləri aparmaq lazımdır.

Bəzi abidələr qoruq strukturlarında mühafizə edilir. Hazırda Azərbaycanda 15 tarixi-memarlıq, tarixi-arxeoloji, tarixi-mədəni və tarixi-etnoqrafik qoruq vardır. Bir sıra arxeologiya, şəhərsalma və memarlıq abidələrinin əhəmiyyətini nəzərə alaraq, onları mühafizə və təbliğ etmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi yeni qoruqlar təşkil etmişdir. Bütün qoruqlar ikili tabeçiliyə malikdirlər, yəni Mədəniyyət və Turizm Nazirliyinə və yerli icra hakimiyyətinə tabedirlər. Qoruqların bu cür ikili tabeçiliyi onların idarə olunmasında böyük çətinliklər yaradır. Hazırda qüvvədə olan qanunvericiliyə görə qoruqlar Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılır. Təcrübə göstərir ki, ikili tabeçilik yerli icra hakimiyyəti tərəfindən maliyyələşdirilən qoruqların elmi və metodik idarəsini çətinləşdirir. Yerli icra hakimiyyətləri öz fəaliyyətlərini heç də həmişə Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırmırlar və bu da öz növbəsində abidələrin mühafizəsi işinə mənfi təsir göstərir.

Qanunda nəzərdə tutulmasına baxmayaraq, abidələrin mühafizə zonasının olmaması onların qorunmasında böyük problemlər doğurur. Abidələrin mühafizə zonasının müəyyən edilməsi ilə Mədəniyyət və Turizm Nazirliyi məşğul olur, amma yerli spesifik xüsusiyyətlər səbəbindən bu, çox mürəkkəb məsələdir. Mədəniyyət və Turizm Nazirliyi ölkənin bütün ərazisindəki abidələrin mühafizəsi üçün kifayət qədər səlahiyyətə və geniş mühafizə strukturuna malik deyil. Faktiki olaraq, bu funksiyaların yerinə yetirilməsilə yerli icra

hakimiyyəti nəzdindəki mədəniyyət şöbələrinin sayca o qədər də çox olmayan əməkdaşları məşğul olur.

Memarlıq abidələrindən istifadə problemi də həll olunmamış qalır. Bu gün bəzi memarlıq abidələrindən öz ilkin funksional təyinatlarına uyğun olaraq deyil, ancaq mənfəət götürmək üçün – restoran, kafe və s. kimi istifadə edilir. Bu cür istifadə zəruri kommunikasiya, bəzən isə yenidən planlaşdırma işləri tələb edir ki, bu da gec-tez abidələrin məhvinə səbəb olur. Amma bunlar bizim tarixi keçmişimizi əks etdirən maddi mədəniyyət nümunələridir. Bu nümunələrin hər biri bizdə ulu tariximizə, keşmişimizə iftixar hissi ilə baxmağa əsas verir. Buna görə də hər bir azərbaycan vətəndaşı, eləcə də müvafiq qurumlar tarix və mədəni abidələtin mühafizəsi, onlarən bərpası və təbliği üçün xüsusi səy göstərməlidir.

Azərbaycan Respublikası Konstitusiyasına görə tarix və mədəniyyət abidələrini mühafizə etmək hər bir vətəndaşın borcudur. Tarix və mədəniyyət abidələri Azərbaycan Respublikasının “Mədəniyyət haqqında” (6 fevral 1998-ci il), “Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında” (10 aprel 1998-ci il) qanunlarına, habelə “Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiya” (Paris, 1972-ci il), “Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası” (La-Valetta, 1992-ci il) kimi beynəlxalq sənədlərə uyğun olaraq mühafizə, bərpa və istifadə edilir.

Tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması keçmiş SSRİ-nin Ümumittifaq Mədəniyyət İnstitutu tərəfindən hazırlanmış vahid prinsip əsasında aparılıb. 1969-cu ildən tətbiq edilən bu sistem mövcud olan və yeni üzə çıxarılan hər bir abidənin hökmən öz pasportu və qeydiyyat vərəqəsi olmasını tələb edirdi və onlarda abidə haqqında ətraflı zəruri informasiyalar toplanırdı. Sovet dövründə bu sistemə 1500 abidə daxil edilmiş və pasport “almışdı”. Hazırda elektron pasportlaşdırma və kataloqlaşdırmanın yeni milli standartları işlənib hazırlanır.

Abidələrin mühafizəsi sahəsində mütəxəssislərin təhsili və hazırlanması ilə Memiarlıq və Tikinti Universiteti və Dövlət Mədəniyyət və İncəsənət Universiteti məşğul olur; burada müvafiq olaraq bərpaçı memarlar və abidələrin mühafizəsi mütəxəssisləri hazırlanır. Milli Elmlər Akademiyası sistemində Memarlıq və İncəsənət İnstitutu, Arxeologiya və Etnoqrafiya İnstitutu fəaliyyət göstərir; bu institutlarda mədəni irsin öyrənilməsi, aşkar edilməsi və tarixinə dair elmi tədqiqatlar aparılır. Milli Elmlər Akademiyasının nəzdində Tarix və Mədəniyyət Abidələri üzrə Elmi-Metodik Şura fəaliyyət göstərir.

Azərbaycan YUNESKO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə sıx əməkdaşlıq edir; 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi "İçərişəhər, Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə" Ümumdünya İrsi Siyahısına daxil edilmişdir. Gələcəkdə həmin siyahıya daxil edilmək üçün digər abidələrin (atəşpərəstlik məbədi "Atəşgah", "Qobustan" mədəni-tarixi qoruğu və Naxçıvandakı Möminə xatun, Gülüstan, Qarabağlar və ibn Hüseyr türbələri) sənədləri və yeni "tentativ vərəq" (ilkin siyahı) Ümumdünya İrs Mərkəzinə təqdim edilmişdir. Mədəni irsin qorunub saxlanılması sahəsində bir çox ölkələrin iş təcrübəsi öyrənilir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurulmuşdur. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində çalışan Azərbaycan mütəxəssisləri ardıcıl olaraq, YUNESKO, İKOMOS, İKROM və digər beynəlxalq təşkilatların keçirdiyi konfrans və sessiyalarda iştirak edirlər.

Bərpa və konservləşdirmə işləri əsasən dövlət büdcəsindən, yerli büdcədən ayrılan vəsait, habelə özəl şəxslərin, xarici və beynəlxalq təşkilatların dotasiyaları hesabına aparılır. Məsələn, Bakıdakı kiçik alman "Kirxa"sının ("Kapelhauz") bərpası tamamilə Almaniya hökuməti tərəfindən maliyyələşdirilmişdir. Norveçin qeyri-hökumət təşkilatlarının ayırdığı maliyyə vəsaiti

hesabına hazırda Şəki rayonunun Kiş kəndindəki V-VI əsrlərə aid alban xristian kilsəsində bərpa işləri aparılır.

1999-cu ildə Azərbaycan Hökuməti ilə Dünya Bankı arasında 7,5 milyon ABŞ dolları məbləğində uzunmüddətli kredit müqaviləsi imzalanmışdır: bu müqavilə çərçivəsində Şirvanşahlar Sarayı kompleksi ərazisindəki iqamətgahın ikinci mərtəbəsinin bərpası və Divanxananın konservləşdirilməsi, Qarabağlar kəndindəki XIV əsrə aid məqbərə və iki minarənin konservləşdirilməsi, Naxçıvanda XI əsrə aid Möminə Xatun məqbərəsinin konservləşdirilməsi və XVIII əsrə aid Şəki Xan Sarayının bərpası nəzərdə tutulmuşdur. Bu məqsədlə Mədəniyyət Nazirliyi nəzdində "Mədəni İrsin Dəstəklənməsi Layihəsi"nin realizasiyası ilə məşğul olan xüsusi qrup yaradılmış və bu qrup tərəfindən həmin işləri yerinə yetirəcək firmaların müəyyən edilməsi üçün tenderlər keçirilmişdir. Hazırda yuxarıda adı sadalanan bütün obyektlərdə bərpa işləri aparılır və müqavilə şərtlərinə əsasən xarici mütəxəssislər yerli bərpaçılara mütərəqqi konservləşdirmə metodlarını öyrədirlər.

Mütəxəssislərin fikrincə abidələrin mühafizəsi işini təkmilləşdirmək məqsədilə yaxın perspektivdə aşağıdakı vəzifələri həyata keçirmək lazımdır: mövcud siyahılar üzrə abidələrin tədqiq edilməsi və beynəlxalq standartlarla cavab verən yeni mükəmməl siyahının hazırlanması; tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması işinin başa çatdırılması; abidələrin elmi yolla işlənib hazırlanmış mühafizə şəbəkəsinin yaradılması; abidələrin istifadəsi proqramının yaradılması və bu proqramın onların mövcudluğu və mühafizəsi tələblərinə cavab verməsi; məqsədyönlü konservasiya və bərpa planının işlənib hazırlanması; mədəni irsin mühafizəsi və bərpası sahəsində təhsil sisteminin yaxşılaşdırılması; milli bərpa işləri istehsalı bazasının yaxşılaşdırılması və yaradılması; mədəni irsin mühafizəsi və bərpası sahəsində mövcud qanunvericiliyin təshih edilməsi; obyektlərin inkişaf

planının realizasiyası; gənc mütəxəssislərin Avropanın ali təhsil müəssisələrinə oxumağa göndərilməsi.

Avropa Şurasına təqdim edilmiş Milli Məruzədə deyilir ki, mədəniyyət sahəsində, o cümlədən milli-mənəvi irsin qorunması ilə bağlı dəyişikliklər yuxarıların əmri ilə deyil, reflektiv prosesin bir hissəsi kimi baş verir. Milli Məruzə və ekspertlərin icmalı da bu prosesin bir hissəsidir və onun gücləndirilməsinə ehtiyac vardır. Həmçinin, inkişaf və islahatların təmin olunması, baş verən dəyişikliklərin dinamik təkamül kimi təqdim edilməsi və xüsusilə də dəyişikliklərin aşağıdan yuxarı təşviq edilməsi və sürətləndirilməsi naminə bu prosesə daha çox iştirakçının cəlb edilməsi tələbatı mövcuddur.

Avropa Şurası ekspertlərinin hesabatlarında deyilir ki, biz azlıqlara dair milli proqramın həyata keçirilməsini davam etdirməyi və ölkənin mədəni çoxçeşidliliyinin inkişafına onların göstərdiyi xidmətlərin dəstəklənməsini tövsiyə edirik, həmçinin ölkənin hüdudlarından kənarda mövcud olan mədəniyyətlərə açılmanın başlıca vasitəsini görürük. Dünyanın bəzi ölkələri ilə bağlanan ikitərəfli sazişlər və post sövet respublikaları ilə ənənəvi münasibətlərlə bərabər, ölkənin beynəlxalq proqramlarda və layihələrdə güclənməkdə olan iştirakını alqışlayırıq. Azərbaycanın TÜRKSOY-da, – Türkdilli Ölkələrin Əməkdaşlıq Təşkilatında fəal iştirakı regional əməkdaşlığın yaxşı bir nümunəsidir. Azərbaycanın təklif edəsi çox şeyi vardır və buna görə də onun dünya ölkələrilə, xüsusilə də regiondakı qonşuları və digər Avropa dövlətlərilə əlaqələrini çoxaltmağa ehtiyacı vardır.

## Dövlət gənclər siyasətinin mədəni və mənəvi aspektləri

Azərbaycan Respublikasının mədəniyyət siyasətinin tərkib hissəsi olan gənclər siyasətinin prioritetlərindən biri budur ki, gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar: "Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmamılıdır, bizim milli dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir.

Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" (47, 3 fevral 1996).

Qanunların sivil dünya dövlətlərinin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünya demokratik qanunvericilik təsisatları tələblərinə uyğun hazırlanması üçün Azərbaycan Respublikası Prezidenti yanında 1996-cı ilin fevralında xüsusi hüquqi islahatlar komissiyası yaradılmışdır. Məlumdur ki, əvvəllər mövcud olan partiya-sovet ideologiyası prinsplərində və əsaslarında formalaşdıran cəmiyyətin mənəvi və mədəni həyatının inkişaf siyasəti qətiyyən indiki bizium cəmiyyətin can atdığı ictimai həyata uyğun gələ bilməzdi. Artıq cəmiyyətin hərtərəfli inkişafını, mənəvi mədəniyyətin əsl zənginlikləri sisteminin yaradılmasını tələb edən yeni baxışlar sistemi formalaşmaqda idi. Bütün bu əlamətdar hadisələrdən sonra Respublikanın öz milli mənafeyinə uyğun bir çox prioritet vəzifələr dururdu. Onlardan biri də Dövlət gənclər siyasəti ilə bağlı idi. Bu sahədə müstəqil suveren respublikamızın atdığı ilk addım Dövlət Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu oldu.

Bu dövrü xarakterizə edəndə görürük ki, ictimai-siyasi vəziyyətin mürəkkəb olduğu bir dövrdür. Bu illərdə Qarabağ uğrunda müharibənin şiddətli vaxtı idi. Gənclərimiz orduda vətən uğrunda vuruşurdular. Azərbaycan gənclərinin yeganə təsəllisi Azərbaycanın müstəqilliyi idi. İllərlə ürəklərdə yığılıb qalmış qübar, imperiyapərəst işğalçı qüvvələrə qarşı olan kin-küdurət, Azərbaycan gənclərini ən şəraitsiz vəziyyətdə belə, düşmənə qarşı amansız olmağa vadar edirdi. Hakimiyyətdə hər hansı siyasi qüvvənin olmasından asılı olmayaraq Azərbaycan gəncləri istər ölkə qarşısında, istərsə də öz şəxsi vicdanları qarşısında vəzifələrini yerinə yetirirdilər. Kommunist rejimi dövründə mövcud olan gənclər təşkilatları və onlar haqqındakı qanunlar artıq öz qüvvəsini itirmişdi.

Zəngin potensial enerjiyə malik gənclərin vahid Dövlət gənclər siyasəti haqqında Azərbaycan Respublikası Qanunu ətrafında birləşdirmək vacib idi. Bu Qanunun qəbul edilməsi mədəniyyət siyasətinin uğurlu yürüdülməsinə güclü təkan vermiş oldu. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanında isə "Gənclər siyasti haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qaunun tətbiq edilməsini təmin etmək məqsədi daşıyan 6 may 2002-ci il tarixli qərar verilmişdir.

Əlbəttə ki, Qanun dövlətin mədəni siyasətinin uğurlu başlanğıcı idi. Qanunda Azərbaycan Respublikası bütün cəmiyyətin mənafeyi naminə gənclərin potensialından daha dolğun istifadə edilməsi üçün sosial-iqtisadi, siyasi-hüquqi, təşkilati şərait və təminatlar yaratmaq məqsədi güdülür. Yeni qəbul edilmiş qanunda gənclər siyasətinin prinsipləri və məqsədləri müəyyən edilmiş, dövrün tələblərinə cavab verə biləcək müddəalar əlavə edilmişdir.

Dövlət gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu bu siyasətin həyata keçirilməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də əhalinin digər sosial

qrupları ilə gənclərin əsl hüquq bərabərliyinin təmin olunmasına yönəldilmiş hüquq və vəzifələr sistemini müəyyən edir.

Ümumi müddəalar; Gənclərin hüquqi və sosial müdafiəsi; Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsinin təşkilati əsasları; Azərbaycan Respublikasında gənclər təşkilatının fəaliyyəti və Azərbaycan Respublikasında dövlət gənclər siyasəti haqqında qanunun həyata keçirilməsi üçün təminatlar başlıqlı 5 fəsil və 21 maddədən ibarət olan Qanunda dövlət gənclər siyasətinin mahiyyəti və prinsipləri aşağıdakı kimi göstərilmişdir: Xalqın gələcəyini müəyyən edən xüsusi ictimai qrup kimi gənclərin özünəməxsus mənafe və ehtiyacları olduğunun etiraf edilməsi; Cinsindən, milliyyətindən, dilindən, dini etiqadından təhsilindən, sosiaıl mənşəyindən və siyasi baxışlarından asılı olmayaraq gənclərin cəmiyyətdə hüquq bərabərliyinə təminat verən hüquqi və sosial statusunun müəyyənləşdirilməsi; Gənclərin hərtərəfli sosial, mənəvi və fiziki inkişafına, onların hüquq və azadlıqlarının həyata keçirilməsinə təminat verən şəraitin yaradılması; Gənclərdə xalqın mənəvi irsinə və ənənələrinə, nəsillərin mənəvi əlaqəsinə qayğıkeş münasibətin tərbiyə edilməsi; Gənclərin azadlıq, hüquq və vəzifələrinin vəhdəti; Gənclərin sosial müdafiəsi üçün hüquqi və təşkilati təminatların yaradılması.

Gənclərdə xalqın mənəvi irsinə və ənənələrinə, nəsillərin mənəvi əlaqəsinə qayğıkeş münasibətlərin tərbiyə edeilməsi prinspindən göründüyü kimi Qanun tarixi varislik əsasında gənclərin mənəvi dəyərlərə istinadən öz fəaliyyət proqramlarını qurması tövsiyyə edilir. Gənclərin sahibkarlıq fəaliyyəti ön plana çəkilir, onlara bu sahədə güzəştlər nəzərdə tutulur.

Dövlət gənclər siyasəti haqqında Azərbaycan Respublikası prezidentinin fərmanında bildirilir ki, Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsində də gənclərin böyük xidməti olmuşdur. Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. 1988-ci ildə erməni

ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olmuşdur. 1990-cı il yanvarın 19-20-də sovet qoşunlarının Bakıda və respublikanın digər şəhər və rayonlarında törətdikləri qanlı hadisələrin qurbanları – ilk azadlıq şəhidləri də əsasən gənclər oldular.

1991 – 1993-cü illərdə respublikada gənclərin müxtəlif təşkilatları meydana çıxmağa başladı. O zaman respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meylləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif yönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başlamışdır. Məhz buna görə də üzümüzə gələn yeni əsrdə xalqımızın problemlərini müasir dünya kontekstində həll edə bilmək üçün Azərbaycan gənclərinin yenidən təşkilatlanması vacib idi. Bu məqsədlə müstəqil Azərbaycan Respublikasında gənclər hərəkatını əlaqələndirmək üçün 1994-cü il iyulun 26-da Azərbaycan respublikası prezidentinin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclər və idman nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilmiş, nazirliyin yerli strukturları formalaşmış, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər

təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görülmüş, bir sıra dövlət proqramları hazırlanmışdır.

1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsi respublikanın həyatında müstəsna əhəmiyyətə malik bir hadisə oldu. Forum müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində gənclərin fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu. 1997-ci il fevralın 1-də isə Azərbaycan Respublikası prezidentinin forum nümayəndələrinin bir qrupu ilə görüşündə forumdan keçən bir il ərzində görülmüş işlər təhlil olundu və gəncliklə bağlı əsas problemlərin həlli yolları müəyyən edildi. Respublika prezidentinin elə həmin gün imzaladığı sərəncamla fevralın 2-si Azərbaycan gəncləri günü elan edildi.

1999-cu ilin başlanğıcı da Azərbaycan gəncləri üçün əlamətdar oldu. Mart ayının 2-3-də Azərbaycan gənclərinin ikinci forumu keçirildi. O, birinci forumdan keçən üç il ərzində görülmüş işlərə yekun vurmaqla yanaşı, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə düşən böyük vəzifələri müəyyən etdi, respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclik problemlərinin həllinə yönəltməklə bağlı tövsiyələr verdi.

Bununla yanaşı, dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində həllini gözləyən bir sıra problem və məsələlər mövcuddur. Uşaq və gənclərlə işləyən kadrların hazırlanması, gənclərin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsi günün vacib məsələlərindəndir. Ayrı-ayrı dövlət hakimiyyəti və idarəetmə orqanlarının gənclərlə iş üzrə əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmalıdır. Gənclərin daha geniş təbəqələrinin dövlət idarəetmə işlərinə cəlb olunması sahəsində əlavə tədbirlərin görülməsinə və bunun üçün lazımi maliyyə vəsaitinin ayrıl-

masına ehtiyac vardır. Ölkə əhalisinin yarıdan çoxunu təşkil edən uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemləri həll etmək, onları yeni dövrün tələblərinə uyğun hazırlamaq kompleks tədbirlərin həyata keçirilməsini zəruri edir.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsini təmin etmək və dövlət orqanlarının diqqətini gənclərlə bağlı problemlərin həllinə yönəltmək məqsədi ilə Dövlət gənclər siyasəti haqqında Azərbaycan Respublikası prezidentinin fərmanında aşağıdakılar qərara alınır:

1. Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin;

2. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin nəzdində gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzi yaradılsın;

3. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzinin əsasnaməsini bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Nazirlər Kabinetinə təqdim etsin;

4. Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi dövlət gənclər siyasətinin həyata keçirilməsinin gedişi haqqında hər təqvim ilinin sonunda Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına arayış təqdim etsin. (157).

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin və dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planının yerinə yetirilməsinə nəzarət etsin.

Azərbaycan Respublikasinda dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağli respublikanın ictimai-siyasi həyatında və dövlət quruculuğunda gənclərin iştirakına dair tədbirlər planında aşağıdakılar nəzərdə tutulmuşdur: (157) Dövlət idarəetmə orqanlarında gənclərin məsul işlərə cəlb olunmasını təşkil etmək; Bələdiyyə seçkilərində gənclərin daha geniş təbəqələrinin iştirakını təmin etmək; Dövlət gənclər siyasətinin ən mühüm məsələləri üzrə təkliflər hazırlamaq və

gənclərlə işin vəziyyəti haqqında Azərbaycan Respublikasının Prezidentinə müntəzəm məlumat vermək üçün məşvərət orqanı kimi gənclərlə iş üzrə şuranın yaradılması; Gənclər təşkilatlarının proqram və layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsi layihələrində vəsaitlər ayrılmasının nəzərdə tutulması; Gənclər Təşkilatları Milli Şurasının, Respublika Uşaq Təşkilatının, Azərbaycan Skaut Assosiasiyasının daimi qərargahla təmin olunması; "Gənclər Sarayı" layihəsinin və binanın tikilməsi ilə əlaqədar təkliflərin hazırlanması; Gənclər, İdman və Turizm Nazirliyinin mətbu orqanlarının dövlət büdcəsindən qismən maliyyələşdirilməsi; Dövlət kütləvi informasiya vasitələrində gənclərin müntəzəm olaraq çıxış etməsi, öz yaradıcılıq potensiallarını gerçəkləşdirməsi üçün şəraitin yaradılması; Dövlət orqanları rəhbərlərinin gənclərlə vaxtaşırı görüşlərinin təşkil olunması; Yeniyetmələr və gənclər arasında cinayətkarlıq və narkomaniyaya qarşı profilaktik tədbirlərin gücləndirilməsi; Yeniyetmələr və gənclər arasında hüquqi maarifçiliyi təkmilləşdirmək üçün lazımi tədbirlərin hazırlanıb həyata keçirilməsi.

Elm və təhsil sahəsində: Gənclərlə işləyən kadrlar hazırlamaq və onların ixtisasını artırmaq. Gənclərin problemlərini öyrənmək, gənclər hərəkatında baş verən prosesləri təhlil etmək məqsədi ilə ali məktəblərin tədris proqramlarında müvafiq ixtisasların təmin olunması; İstedadlı şagird və tələbələrin üzə çıxarılması üçün fərdi tədris proqramlarının hazırlanması; Elmi tədqiqat müəssisələrində xüsusi nailiyyətlər əldə etmiş gənc alimlər üçün mükafat və təqaüdlərin təsis edilməsi; Beynəlxalq müsabiqələrdə, elmi konfranslarda istedadlı şagird və tələbələrin iştirakını təmin etmək üçün tədbirlərin görülməsi; Ali məktəblərin və elmi tədqiqat müəssisələrinin laboratoriyalarını müasir avadanlıqlarla təchiz etmək üçün beynəlxalq fondların və proqramların imkanlarından geniş istifadə edilməsi.

Ordu quruculuğu və hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində: Ordudan tərxis olunmuş gənclərin məşğulluğu ilə bağlı dövlət proqramının hazırlanıb həyata keçirilməsi; Təhsil müəssisələrində hərbi hazırlıq fənninin tədrisi səviyyəsini yüksəltmək üçün Azərbaycan dilində yeni dərsliklərin və əyani vəsaitlərin nəşr olunması; Orta məktəblərin hərbi hazırlıq dərslərinin maddi-texniki bazasının möhkəmləndirilməsi; Ümumtəhsil məktəblərində zabitlik peşəsinin təbliği və şagirdlərin ali hərbi məktəblərə seçilib göndərilməsi işinin təşkili; Respublikanın şəhər və rayonlarında hərbi-texniki dərnəklərin yaradılması və ya mövcud dərnəklərin işinin gücləndirilməsi.

İqtisadiyyat sahəsində: İstedadlı gənclərin müasir peşə və ixtisaslar üzrə inkişaf etmiş ölkələrdə təhsil almalarına, istehsalat təcrübəsi keçmələrinə şərait yaratmaq; Gənc fermer və sahibkarlara dövlət tərəfindən güzəştli kredit, məqsədli dotasiya və subsidiyaların ayrılması barədə təkliflərin hazırlanması; İxtisaslı kadrların işlə təmin olunması məqsədi ilə dövlət və qeyri-dövlət qurumlan tərəfindən ali məktəblərdə müsabiqələrin keçirilməsi.

Gənclərin sosial problemlərinin həlli sahəsində: Gənclər üçün Kompleks Məşğulluq Proqramının işlənib hazırlanması; Qaçqınların və məcburi köçkünlərin məskunlaşdıqları ərazilərdə yeni iş yerlərinin yaradılması, həmin iş yerlərinə xüsusən gənclərin cəlb olunması; Özəlləşdirilən müəssisə və təşkilatlardan azad olunmuş gənclərin yeni peşələrə yiyələnməsi və ixtisaslarının artırılması; Çadır şəhərciklərində, eləcə də məcburi köçkünlərin məskunlaşdıqları digər yaşayış məntəqələrində təhsillə bağlı xüsusi proqramların həyata keçirilməsi; Şəhid ailələrindən olan, qaçqın və məcburi köçkün tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılmasını nəzərdə tutan tədbirlərin həyata keçirilməsi; Çadır şəhərciklərində, eləcə də qaçqın və məcburi köçkünlərin məskunlaşdığı məntəqələrdə abituriyentlər üçün pulsuz test hazırlıq kurslarının təşkili; Azərbaycan

Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş gənclərin sosial, iqtisadi, hüquqi müdafiəsinin gücləndirilməsi üçün məqsədyönlü proqramların həyata keçirilməsi; İşğal olunmuş rayonların gənclər və idman idarələrinə əlavə ştat vahidlərinin verilməsi; Gənc əlillərin, xüsusilə torpaqlarımızın müdafiəsi zamanı əlil olanların pulsuz minik maşınları və mənzillərlə təmin olunması üçün əlavə tədbirlərin görülməsi; Müharibə iştirakçısı olan xəstə və əlil gənclərin psixoloji reabilitasiya və sağlamlıq mərkəzlərinin yaradılması; "Əlillərin Yaradıcılıq Evi"nin yaradılması; Azərbaycandan kənarda təhsil almış gənc mütəxəssislər üçün Yeni Yasamal yaşayış massivində inşa olunan 135 mənzilli binanın tikintisinin başa çatdırılması; "Gənc ailəyə yardım" xüsusi proqramının həyata keçirilməsi; İnvestisiyalardan gənclər arasında işsizliyin ləğv edilməsi üçün məqsədyönlü istifadə olunması.

Uşaq və yeniyetmələrin problemlərinin həlli sahəsində: Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması məqsədi ilə Dövlət Proqramının hazırlanıb qəbul edilməsi; Gənclər və İdman Nazirliyinin mərkəzi aparatında Uşaqlarla İş üzrə İdarənin yaradılması; Dövlət mülkiyyətində olan keçmiş pioner düşərgələrinin bazasında vahid "Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi"nin yaradılması; Uşaq yaradıcılıq mərkəzlərinin maddi-texniki bazasının gücləndirilməsi, onların nəzdində müxtəlif mədəni, elmi-texniki dərnəklərin təşkil edilməsi və ya mövcud dərnəklərin işinin canlandırılması; Uşaq və yeniyetmələr üzrə beynəlxalq standartlara uyğun statistika sisteminin hazırlanması.

Mədəniyyət sahəsində: İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən xüsusi dövlət proqramının hazırlanması; Mədəniyyət sahəsində yüksək nailiyyətlər qazanmış gənclərin mükafatlandırılması üçün müvafiq təkliflərin hazırlanıb Azərbaycan Respublikası Prezidentinə təqdim olunması; Dövlət Televiziya kanallarında

mədəniyyət sahəsində istedadlı gənclərin fəaliyyətinin geniş işıqlandırılması; Orta ümumtəhsil məktəblərində istedadlı uşaqların aşkar edilməsi və onların inkişaf etmələri üçün müsabiqələrin, olimpiadaların, festivalların keçirilməsi; Mədəniyyət sahəsində uğurlar qazanmış gənclərin beynəlxalq tədbirlərdə iştirakına şərait yaratmaq; Gənc və peşəkar kulinarların olimpiadalarının müntəzəm keçirilməsi.

Bədən tərbiyəsi və idman sahəsində: Gənclərin Vətənin müdafiəsinə hazırlanması məqsədi ilə müvafiq idman növlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi; Azərbaycan idmançılarının yüksək səviyyədə hazırlığını təmin etmək məqsədi ilə Gənclər, İdman və Turizm Nazirliyi nəzdində Respublika İdman Tibb Mərkəzinin yaradılması; Dənizkənarı Milli Parkın bərpası və yenidən qurulması baş planını hazırlayarkən ərazidə müvafiq idman qurğularının yaradılmasının nəzərdə tutulması; Gəncə, Lənkəran, Yevlax şəhərlərində və Şəmkir rayonunda fəaliyyət göstərən idman məktəblərinə məxsus idman qurğularının bərpası; Respublikada fəaliyyət göstərən bədən tərbiyəsi və idman qurğularının tikintisi, istismarı və icarəyə verilməsi ilə bağlı təkliflərin hazırlanması.

Gənclərin beynəlxalq əməkdaşlığı sahəsində: Beynəlxalq tədbirlərdə iştirak etmək üçün xarici dövlətlərə səfərə gedən gənclərə "Azal"a məxsus olan təyyarələrə biletlərin güzəştli qiymətlərlə satılması; Beynəlxalq əlaqələr qurmuş gənclər təşkilatları nümayəndələrinin diplomatiyanın əsaslarına yiyələnmələri üçün xüsusi kursların təşkili; Beynəlxalq gənclər təşkilatları və fondlarının Bakıda nümayəndəliklərinin açılmasına şəraitin yaradılması; Gənclər təşkilatlan fəallarının xarici ölkələrdə təhsil alması, təcrübə və ixtisasartırma kurslarına göndərilməsi üçün şəraitin yaradılması; Bakıda Dünya Azərbaycanlı Gənclərinin Konqresinin keçirilməsinə dair təkliflərin hazırlanması (157).

Gənclər və idman nazirinin müavini İntiqam Babayev bu haqda bildirir ki, ölkədə gənclərlə iş dövlət səviyyəsində qurulub. Ötən vaxtlar ərzində Azərbaycanda bir neçə nüfuzlu beynəlxalq tədbirlər keçirmişik. İlk dəfə olaraq Qərbi Avropadan kənarda – Azərbaycanda Avropa Gənclər Forumu keçirildi. Bu, Azərbaycana böyük etimad idi. Çünki dövlətin gənclər siyasətini Qərbi Avropa görür və qiymətləndirirlər (139). Prezident İlham Əliyevin istedadlı gənclərlə bağlı iki sərəncamı olub. Bir sərəncamla gənc istedadlar 300 manat həcmində təqaüd alırlar. Digər sərəncam isə həm yaşlı, həm də gənc nəsil üçün nəzərdə tutulur. Belə ki, gənc bəstəkar, rəssam və yazarlar üçün əlavə mükafatlar müəyyənləşib. Bu, öz-özlüyündə dövlət səviyyəsində əlavə stimul yaradır ki, gənclər yaradıcı işlərini həvəslə davam etdirsinlər. Sosial ipoteka gənc ailə və hərbi qulluqçular üçün nəzərdə tutulub.

Milli Məclisin deputatı Əkrəm Abdullayev də bu fikirdədir ki, Dövlətimiz gənclərin intellektual potensialının güclənməsi üçün bütün imkanları yaradıb. Ümummilli liderin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutmuşdur. Azərbaycan Prezidentinin 2007–2015-ci illərdə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamı gəncliyə göstərilən diqqətin parlaq təzahürüdür.

Təbii ki, gənclərin çoxsaylı problemlərinin həlli yeni yanaşma yolları tələb edir. Müasir ictimai-siyasi arenanın sürətli inkişaf mərhələsinə şahidlik etdiyimiz bir zamanda Azərbaycan gəncliyinin problemlərinə baxış prizması yenilənməlidir. 2007-ci ilin Gənclər ili elan olunması ilə dövlət və idarə strukturları növbəti dəfə bütün qapıların istedad və potensiala sahib gənclərimizin üzünə açıq olduğunu bariz olaraq göstərdi (139).

Təhsil nazirinin müavini Elmar Qasımova görə ölkənin təhsil sistemi dövlətin qayğısı nəticəsində sürətlə inkişaf edir. Əlamətdar hadisələrdən biri də budur ki, bütün ali

məktəblərimiz Boloniya prosesinə qoşulmaq üzrədir. Hal-hazırda xarici ölkələrdə dövlət xətti ilə 1000 nəfərdən artıq tələbə təhsil alır. Ancaq dövlət başçısının təsdiq etdiyi Proqrama əsasən 2015-ci ilə qədər 5 minə yaxın tələbənin xaricə təhsil almağa göndərilməsi gözlənilir. TQDK-nın keçirdiyi qəbul imtahanı nəticəsində ən yüksək bal toplanmış tələbələr bu proqramda iştirak edə bilir. Bundan əlavə, özü xarici dövlətlərin ali məktəblərinə daxil olan tələbələr bu proqramda iştirak edərək təhsillərini davam etdirə bilirlər (139).

Təhsil işçilərinə qayğı daim dövlət rəhbərliyinin diqqətindədir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ölkəmiz inkişaf etdikcə və maliyyə vəziyyəti yaxşılaşdıqca, müəllimlərin sosial durumun yaxşılaşması istiqamətində addımlar atılır. Hər il 1100 müəllim yüksək təminatla ucqar kənd rayonlarında işləməyə göndərilir (139).

Bu gün Azərbaycanda idarəetmə bacarığı ilə seçilən, intellektual, dünyagörüşlü yeni bir nəsil yetişməkdədir. Sevindirici haldır ki, bu gün gənclərin çoxu hələ on il bundan əvvəl Azərbaycanda çox az adamın bildiyi peşələrə yiyələniblər. Kompyuter şəbəkəsi inkişaf edib, xarici dillərə həvəs artıb.

Cəmiyyətdə gənclər təşkilatlarının rolu daha çox onların üzvlərinin sosial fəallığı ilə müəyyən edilir. Sosial fəallıq isə öz növbəsində bir çox amillərdən, ən əvvəl gənc nəslin sosial-iqtisadi vəziyyətindən və siyasi mövqeyindən asılıdır.

Ümummilli liderimiz Heydər Əliyev müsahibələrinin birində demişdir: “Azərbaycan müstəqil dövlət kimi bərqərar olduğu ilk mərhələdə, ötən əsrin 90-cı illərinin əvvəllərində gənclər siyasəti demək olar ki, ümumiyyətlə yox idi. Gənclərə heç bir diqqət göstərilmirdi, onların bir çoxu müharibədə həlak olmuş, çoxları lap gənc yaşlarından zərər çəkmiş, əlil olmuşdur. Bu bizim üçün sağalmaz yaradır və sakitləşməyən

ağrıdır... Buna görə də dövlətdə gənclər siyasətinin formalaşmasının birinci mərhələsi çox çətin idi. Üstəlik dövlətin gənclərlə ciddi surətdə məşğul olması üçün vəsait də yox idi. Azərbaycanda iqtisadi hərc-mərclik və dağıntı hökm sürürdü. Gənclər necə deyərlər yada düşmürdü. Lakin təxminən 1995-ci ildən Azərbaycanın iqtisadi və sosial həyatında sabitləşmənin başlandığı vaxtdan bu məsələyə böyük əhəmiyyət verilir. Gənclər İdman və Turizm Nazirliyi yaradılmışdır. Məncə heç də bütün ölkələrdə belə nazirlik yoxdur. Çoxsaylı gənclər təşkilatları yaradılmışdır. Beləliklə, gənclər həyatın bütün sahələrində iştirak edirlər. Parlamentdə də seçkilərdən-seçkilərə gənclərin sayı artır, dövlət idarəetmə orqanlarında da həmçinin. Bu isə çox müsbət meyardır, çünki bütün bu adamlar təxminən 20-30 ildən sonra ölkəmiz üçün məsuliyyət daşıyacaqlar” (47, 3 fevral 1996).

## Azərbaycanda turizmin inkişaf perspektivləri və mədəni-asudə vaxtin dəyərləndirilməsi

Bu gün turizm problemlərinin öyrənilməsi nəinki sosial-iqtisadi, hətta böyük mədəni-siyasi əhəmiyyət kəsb etməkdədir. Çünki, getdikcə daha çox mədəniyyət hadisəsinə çevrilməkdə olan turizm fenomeni artıq elmi-mədəni fikirdə bir kulturoloji proses kimi izlənilməkdə, araşdırılmaqda və dəstəklənməkdədir. Zaman ötdükcə dünyanı vahid bir insanlıq evi kimi qəbul edən və bəşəri dəyərləri önə çəkən qurum və təşkilatlar, fərd və cəmiyyətlər turizmin insan həyatının ayrılmaz bir tərkib hissəsi halına gəldiyini, iqtisadiyyatın, elmin və mədəniyyətin inkişafına təkan verən təsiredici bir gücə malik olduğunu etiraf etməkdədirlər. Turizmin bir mədəniyyət faktı, bəşəriyyətin təminatlı və təhlükəsiz gələcəyi üçün geniş perspektivlər açan bir kulturoloji proses kimi tədqiqi və təbliği problemləri indi həmişəkindən daha aydın dərk olunmaqdadır.

YUNESKO və Beynəlxalq Turizm Təşkilatının elmi və mədəni turizmə dair 1976-cı il Xartiyasının tövsiyələri, ÜTT-nin turizm sahəsində təşkil etdiyi 1980-ci il Manila Dünya Turist Konfransının bütün dünya dövlətlərinə müraciəti bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Manila Konfransı bəyan etmişdir ki, turizm sülhü və sabitliyi bərqərar edən, iqtisadi inkişafa təkan verən, insanların bir-birini anlamasının və millətlərarası əlaqələrin inkişafının mənəvi və intellektual əsası olmalıdır. Bu ideyanın gerçəkləşdirilməsi üçün Manila Konfransının tövsiyəsində göstərilir ki, gənclərin tədris proqramlarına, əldə edəcəkləri sənətdən asılı olmayaraq, turizmin öyrənilməsi əlavə olunsun. Bir məqam xüsusilə vurğulanmışdır ki, turizmin mənəvi və tərbiyəvi dəyərləri onun iqtisadi dəyərlərindən üstündür. İnsanların sağlam ruhda formalaşmasında və tərbiyə olunmasında turizmin rolu əvəzedilməzdir.

Eyni zamanda turizmin bütün inkişaf qanunlarını və xüsusiyyətlərini dərk etmək üçün onun sistem şəklində öyrənil-

məsi zəruridir. Ona görə ki, turizm elmi müxtəlif elmlərin (tarix, coğrafiya, marketinq, informasiya, planlaşdırma, iqtisadiyyat, idarəetmə, hüquq və s.) bir-birinə inteqrasiyası nəticəsində əmələ gəlmişdir.

YUNESKO-nun bir sıra sənədlərində elm, təhsil və mədəniyyətə, eləcə də turizmə yeni yanaşmalar ifadə edilməkdədir. Belə ki, YUNESKO-nun Baş direktoru Koyitiro Matsurrinin 2000-ci il mart ayının 14-də Berlindəki çıxışında elmi, mədəni və təbii irsə münasibətin perspektivləri nəzərdən keçirilmiş, mədəniyyət hadisəsi olan turizmdən elmin və sülhün tərəqqisi naminə istifadə edilməsinin zəruriliyi vurğulanmışdır. XXI əsrə istiqamətlənmiş bu yanaşma, elm, təhsil, mədəniyyət, idman və turizm sahəsində qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, eləcə də turizmin inkişafının mədəni sərvətlərin qorunmasına, təbliğinə və mədəni tərəqqiyə yönəldilməsi baxımından əhəmiyyətli bir kulturoloji konsepsiya kimi dəyərləndirilə bilər.

Turizmin inkişafı istiqamətində son illərdə yeni kəmiyyət və keyfiyyət dəyişiklikləri müşahidə edilməkdədir. Elmi və mədəni turizmə diqqət artırılmaqda, elmi ekspedisiyalar turizm sferası kimi qəbul edilməkdə və elmi turizmə XXI əsrin yeni fenomeni kimi yanaşılmaqdadır. Turizmdə elmi və mədəni dəyərlərin çəkisini artırmaq üçün YUNESKO “Elm – Mədəniyyət – Rekreasiya – Turizm – Təhsil” leytmotivini elmi strategiya kimi dəstəkləməkdədir.

“Mədəni və ya dərk edilmiş turizm”, “Turistik maraqların formalaşmasında mədəniyyət elementlərinin polu”, “Turizmdə mədəni-tarixi və təbii irsin qorunması və istifadəsi” mövzularına dair elmi tədqiqatlar mədəniyyəti turistik motivasiyaların əsas amili kimi təqdim edir.

Artıq bir danılmaz faktdır ki, turizm, son illərdə dünyanın, o cümlədən Azərbaycanın ən dəbdə olan sektorlarından birinə çevrilmişdir. Müasir dövrdə dünya əhalisinin təxminən 10%-i beynəlxalq turizm hərəkatına qatılmaqdadır. Ölkədaxili turizm proseslərinə qoşulan insanların sayı məsələsində isə əldə dəqiq

məlumatlar yoxdur. Digər tərəfdən turizmin dünya iqtisadiyyatı içərisindəki yeri də müntəzəm artmaqdadır. Aparılan araşdırmalar, yaxın illərdə turizmin dünya iqtisadiyyatının ən önəmli sektorlarından biri olacağını göstərməkdədir. Dünya Turizm Təşkilatının araşdırmaları, turizm proseslərinə qatılan insanların sayının və turizmin iqtisadi təsirlərinin daha da artacağını ortaya qoymaqdadır.

Digər tərəfdən, turizm son illərdə iqtisadi təsirləri ilə yanaşı, ətraf mühitə olan təsiri ilə də daha artıq gündəmdə olan və müzakirə edilən sektorlardan biridir. Turizmin daimi xarakter daşımayan bir yerdəyişdirmə prosesi olması və bu proseslərin dünya miqyasında getdikcə təmiz təbii mühitlərə doğru yönəlməsi, turizmlə ərtaf mühutin qaşılıqlı əlaqəsinə dair müzakirələri müntəzəm olaraq gündəmdə saxlamaqdadır.

Dünya hər gün ağlasığmaz və izlənilməsi çətin olan bir sürətlə dəyişməkdədir. Dünən əsas kimi qəbul etdiyimiz dəyişikliklər qısa bir müddətdə keçərsiz hala gəlməkdədir. Dünya tarixinin önəmli bir keçid məqamına şahidlik edirik. İnformasiya texnologiyaları inanılmaz bir sürətlə inkişaf etməkdə, dünya qlobal kənddən də artıq, bir evin otağı halına gəlməkdədir. Bütün bu inkişafların turizm sektoru və turizm fənni ilə əlaqəli məsələlərdən təsirsiz ötüşəcəyini gözləmək mümkün deyildir. Ta əvvəldən üzü bəri "qlobal bir sektor" olan turizm, dünyanın içində olduğu yeni nizamdan və bu nizamın müəyyənləşdiricisi və istiqamətləndiricisi olan amillərdən hər an təsirlənməkdə və dəyişikliyə uğramaqdadır.

Təbii ki, mütəşəkkil və düzgün turizm siyasətinin formalaşdırılması və bunun uğurlu surətdə həyata keçirilməsi heç də asan məsələ deyil. Çünki bu məsələdə, ölkənin yalnız turizm resurslarının və potensial imkanların olması hər şeyi həll etmir. Bu səbəbdəndir ki, kifayət qədər turizm resurları olduğu halda, ölkəmiz beynəlxalq aləmdə hələ də turizm regionu kimi tanına bilməmişdir. Yalnız son illərdə bu sektorun inkişafı üçün siyasi, iqtisadi və sosial-mədəni imkanlar

yarandığını nəzərə alsaq, gələcəkdə Azərbaycanda turizmin perspektivlərinə nikbin baxmaq olar. Xüsusilə də, son vaxtlar turizmin inkişafına yönəlmiş layihələr bu sahənin gələcəyinə ümidverici nəzərlərlə baxmağa imkan verir.

Azərbaycan Respublikasının turizm sahəsində siyasətinin əsas prinsipləri 1999-cu il iyun ayının 4-də qəbul edilmiş "Turizm haqqında Azərbaycan Respublikasının Qanunu"nda, 2002-ci ilin avqust ayında təsdiq olunmuş "Azərbaycan Respublikasında 2002 – 2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nda, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2004-cü ilin fevral ayında təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004 – 2008-ci illər) Dövlət Proqramı"nda və 2007 – 2017-ci illər üçün nəzərdə tutulmuş Dövlət Proqramında öz əksini tapmışdır. Azərbaycan Respublikasında qanunvericiliklə müəyyən edilmiş turizm siyasətinin mahiyyəti və əsas prinsipləri vətəndaşların istirahətə olan hüquqlarını müdafiə etməkdə, öz ölkəsində və xarici ölkələrdə sərbəst hərəkət etməsinə şərait yaratmaqda, ətraf mühitin qorunmasına dair tədbirlər həyata keçirməkdə, turizm sahəsində təhsil və maarifçilik fəaliyyətlərinə dəstək verməkdədir. Yeni iş yerlərinin açılması, milli gəlirlərin artması, beynəlxalq əlaqələrin genişlənməsi, tarixi abidələrin və turizm obyektlərinin qorunması və restavrasiyası kimi tədbirlər nəticədə mədəniyyətin inkişafına və insanların rifahının yaxşılaşdırılmasına təkan verir.

Turizmin inkişafında vacib amillərdən biri də bu sahədə kadrların hazırlanmasıdır. Turizm dinamik bir proses olduğu üçün turist bazarı çox dəyişkənlik göstərməkdədir. Belə bir dinamik və dəyişkən şəraitdə yalnız savadlı, yaxşı hazırlıqlı və təcrübəli kadrlar rəqabətə dözümlü turist məhsulu hazırlaya və sata bilərlər. Bu gün Azərbaycanda turizmin ayrı-ayrı sahələri, o cümlədən mədəni xidmət, istirahət və əyləncə, informasiya və kommunikasiya, nəqliyyat və yerləşdirilmə obyektləri üçün

işin texnologiyası ilə bağlı, həmçinin digər sahələr üzrə ixtisaslaşmış kadrlar hazırlığına böyük ehtiyac duyulmaqdadır.

Məhz ona görə də bu gün Azərbaycanın turizm sektorunda müşahidə edilən dəyişikliklər, qısa bir zaman müddətində öz təsirini turizm təhsili sahəsinə də göstərmişdir və bu sahədəki təhsil qurumlarının sayı getdikcə artmaqdadır. Artıq bu gün ali təhsil müəssisələrində turizm ixtisasları üzrə peşəkar kadr hazırlığı işinə ciddi fikir verilməkdədir. Bu sahədə ali təhsilli mütəxəssis hazirlığı ilə yanaşı, eyni zamanda elmi araşdırmalar aparılır, monoqrafiyalar və dissertasiyalar yazılır, dərsliklər nəşr edilir. Məsələn, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Turizm İnstitutunda həyata keçirilən kadr hazırlığı bu sahədə görülən işlər sırasında çox mühüm əhmiyyət daşımaqdadır. Lakin nəzəri biliklərin praktikaya tətbiqi üçün mütləq bu sahədə mövcud olan beynəlxalq elmi və praktik təcrübələr mənimsənilməli, ölkəmizin təbii, maddi və mədəni imkanları araşdırılmalı və bunların məqsədyönlü istifadəsi üçün layihələr hazırlanmalıdır. Və bu istiqamətdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində görülən işləri qənaətbəxş hesab etmək olar. Artıq bir neçə ildən bəri turizm sahəsində mütəxəssis hazırlığının müsbət nəticələri göz qabağındadır. Bu mənada Kulturologiya fakültəsinin Tətbiqi kulturologoya kafedrasında bir sıra elmi və pedaqoji nailiyyətlər qazanılmışdır. Turizm ixtisasları üzrə bir sıra fənlərdən proqramlar işlənilmiş, elmi-tədqiqat işləri yazılmış və “Turizmin əsasları” dərsliyi nəşr edilmişdir.

Milli Məclisin Sosial siyasət daimi komissiyasının sədr müavini Musa Quliyevin fikrincə Azərbaycanda turizmin inkişafı üçün böyük imkanlar var. Ən önəmli layihələrdən biri “Kurortlar və sanatoriyalar haqqında" qanun layihəsidir. Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafına, xüsusilə prezidentin tapşırıq və fərmanları ilə Azərbaycanın təbiətinin potensialından istifadə, ölkəyə turist axınının

yaxşılaşdırılması, Xəzərboyu ərazilərdə kurort, sanatoriya və digər istirahət yerlərinin yaradılması prosesinə ciddi diqqət yetirilir. Azərbaycanın digər turist ölkələrindən geri qalmayan gözəl təbiəti var.

Mədəni turizm də Azərbaycanda inkişaf sektoru kimi nəzərdən keçirilir, çoxtərəfli və ikitərəfli himayə, habelə xarici investorların layihə yardımları ilə dəstəklənir. Azərbaycanlılar turizmə məşğulluq yarada və gəlir gətirə biləcək inkişaf potensialı kimi baxırlar. Ölkədə zəngin muzey və rəsm qalereyaları, tarixi abidə və şəhərlər, məscidlər və kilsələr, məbədlər, irs parkları, karvansaralar, tarixin əbədiləşdiyi çoxlu yerlər vardır. Bu ölkə həmçinin güclü ənənəvi mədəniyyətə, adət və ənənələrə, hərarətli qonaqpərvərlik ruhuna malik, habelə uzun əsrlər boyu qədim ticarət yollarının üzərində yerləşmiş bir ölkədir. Azərbaycanda mədəni turizmin inkişafı, onun həm milli, həm də beynəlxalq səviyyədə cazibədar olması üçün bir sıra şərtlərin hökmən yerinə yetirilməsini tələb edir: zəruri infrastrukturlar yaxşılaşdırılmaqla yanaşı mədəni turizm yerlərinin (ətrafın, küçənin, reklamların) cazibədarlığı inkişaf etdirilməli; kifayət qədər təlim görmüş işçi heyətinə yiyələnməli; ziyarət ediləcək mənzərəli yerlər turist xidmətlərilə əhatə olunmalı, turistlər üçün görüşlər və oriyentasiya sistemləri (informasiya, tərcümə, bələdçilər, kataloqlar) inkişaf etdirilməli, turizm sahəsində kiçik və orta müəssisələrin sayca artması təşviq olunmalı; sovet hakimiyyəti dövründən sonrakı yeni milli irs şüurunun yayğınlaşmasına çalışılmalıdır.

Avropa Şurası ekspertlərinin Azərbaycan mədəniyyəti ilə bağlı hesabatlarında deyilir ki, mədəni turizm Azərbaycanın inkişafında ən mühüm dəyərlərdən və beynəlxalq səviyyədə ölkənin imicinin yayılması imkanlarından biridir. Ölkənin nəhəng turizm potensialının inkişafı baxımından biz aşağıdakıları nəzərdə tutmağı tövsiyə edirik:

– Milli mədəni turizm strategiyasını və onun meyarlarını inkişaf etdirmək;

– Turizmin inkişafı üçün zəruri olan infrastrukturlarla – yol, xidmət, elektrik şəbəkələrinin modernləşdirilməsi ilə bağlı nazirliklər arasında əməkdaşlıq yaratmaq;

– Mədəni məlumatlılığın, qiymətləndirmə və monitorin¬qin, Azərbaycan mədəni marşrutlarının və s. genişlənməsini təşkil etmək;

– İnformasiyalar yaymaq; tərcümələr, soraq kitabçaları, YUNESKO-nun Dünya İrsi haqqında məlumatlar, internetdə mədəni turizm və xəbərlər buraxılışı;

– Müəssisələr arasında əməkdaşlıq; özəl sektor tərəfindən dəstək və marketinq, layihələrin inkişafına dəstək, əməkdaşlıq və siyasət sferasında menecment;

– İctimai və özəl sponsorluğun dəstəklənməsi və genişləndirilməsi;

– Təşkilatçılığın inkişafı; məşğulluq üçün stimullar, əlaqələr, turizm məsələləri qrupu;

– Beynəlxalq marketinq; müxtəlif bazarların, mədəniyyət festivallarının və s. genişləndirilməsi və dəstəklənməsi;

– Zəngin Azərbaycan mədəniyyətinin spesifik xüsusiyyətlərinin inkişaf etdirilməsi;

– Ölkədəki çoxmədəniyyətliliyin və onun mədəni çoxçeşidliliyinin əhəmiyyətinin inkişaf etdirilməsi.

MDB ölkələrinin əksər vətəndaşları üçün Azərbaycana gələrkən viza almaq zərurəti yoxdur. Digər ölkə vətəndaşları xaricdəki Azərbaycan səfirliyində və yaxud Bakıdakı Heydər Əliyev beynəlxalq aeroportunda özəl şəxsdən və ya turist agentliyindən aldığı dəvət əsasında viza əldə etməlidir. Adi giriş-çıxış vizası üçün etibarlılıq müddəti 3 gündən 3 aya qədər müəyyən edilmişdir. Çoxdəfəli giriş-çıxış vizası üçün isə bu müddət 1 ilə qədərdir. Əgər viza bu müddət ərzində istifadə olunmazsa o, etibarsız hesab edilir. Qayıdış vizası 1 aya qədər olan müddətdə qayıdacaqları təqdirdə Azərbaycan Respublikasını tərk edən, şəxsi pasportu olan əcnəbilərin müraciəti ilə verilə bilər. Bu viza Azərbaycan Respublikasından çıxma

tarixindən keçən altı ay ərzində istifadə edilməzsə, öz etibarlılığını itirir.

Azərbaycanda qalmaq üçün viza müddətini uzatmaq istəyən əcnəbilər onların hal-hazırdakı vizalarında göstərilən müddətin bitdiyi vaxtdan əvvəl bunu etməlidir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsindən viza almaq üçün aşağıdakı sənədləri təqdim etmək lazımdır: Doldurulmuş viza üçün ərizə anket formasının bir nüsxəsi (ərizə anket formasının surəti də ola bilər); Pasport; Ərizə anket formasında pasport üçün nəzərdə tutulan ölçüdə şəkil; Rüsum ödənişi ilə bağlı qəbz; Qəbul edən tərəfin dəvət məktubu.

Azərbaycan Respublikasına gəlmək üçün viza olmadığı təqdirdə, təyyarə ilə gələn əcnəbilər Bakının H.Əliyev adına Beynəlxalq Hava Limanında qısa müddət ərzində adi giriş vizası ala bilər. Rüsum ödənişindən əlavə aşağıdakı sənədlər də tələb olunur: Doldurulmuş viza ərizə anket formasının bir nüsxəsi (ərizə anket formasının surəti də ola bilər); Pasport üçün nəzərdə tutulan şəkil və ya pasportun surəti.

Azərbaycanda sərbəst-asudə vaxtı dəyərləndirmə fəaliyyəti; mərkəzi və yerli idarələr, universitetlər, ictimai cəmiyyət təşkilatları vasitəsilə və fərdlərin özləri tərəfindən həyata keçirilməkdədir. Lakin təşkilatlar arasındaki koordinasiya, mütəxəssis personal və maliyyələşmə çatışmazlığı problemləri davam etməkdədir.

Gənclərin sərbəst vaxtında məlumat alması, bacarıqlarını artırmaları və peşə qazanmaları məqsədilə tərbiyələndirilməsi, küçə uşaqlarının və əlillərin cəmiyyətə qazandırılması məsələləri ilə bağlı səylər yetərsiz qalmaqdadır. Xüsusilə, gecəqondu qismində və ətraf yerlərdə bacarıq artırıcı və peşə qazandırıcı fəaliyyətlərlə bağlı problemlər aradan qaldırılmamışdır.

Bu problemlərlə yanaşı, qeyd edilməlidir ki, son vaxtlaq respublikamızda gənclərin asudə vaxtlarının səmərəli keçmə-

sinə dair bir sıra layihələr həyata keçirilməkdədir. Nümunə üçün deyək ki, bu yaxınlarda "Xəmsə" intellektual oyun təşkil olundu. Bu çempionatda ölkə üzrə 400 komanda iştirak etdi. Digər oyun isə kompüter oyunları idi. "Bu vətən bizimdir" yay düşərgələrinin də təşkil olunması gənclərin asudə vaxtlarının səmərəli keçməsi baxımından əhəmiyyətli olub.

Hazırda, dövlətin gənclər siyasəti haqqında proqramın icrası bütün sahələr üzrə davam etdirilməkdədir. Cənab İlham Əliyev prezident seçildikdən sonra dövlətin gənclər siyasəti yeni mərhələyə qədəm qoyub. Dövlətin gənclər siyasətilə bağlı əsas məqsədi mənəviyyatı möhkəm, əqidəli, vətənpərvər və eyni zamanda yüksək intelektə və geniş dünya görüşə malik olan gənc nəsil yetişdirməkdir.

# MƏDƏNİYYƏTƏ DÖVLƏT QAYĞISI VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ƏMƏLİ NƏTİCƏLƏRİ

## Azərbaycan Mədəniyyətinin Dostları Fondu və Heydər Əliyev Fondunun mədəniyyət sahəsində fəaliyyəti

Qloballaşma dövründə unikal və universal dəyərləri özündə birləşdirən, ictimai inkişafın xüsusi bir modeli – Azərbaycan modeli get-gedə geniş miqyas alır, bəşər ruhunun Azərbaycan mədəniyyəti adlı unikal bir məhsulu yayılır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva YUNESKO-nun 60 illiyinə həsr edilmiş “Sivilizasiyalararası dialoq” həftəsi çərçivəsində Parisdə keçirilmiş “Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların qovuşuğunda” adlı tədbirdəki çıxışında demişdir: “Azərbaycan zəngin mədəni irsi və ənənələri ilə fərqlənən qədim diyardır. Azərbaycan əsrlər boyu sivilizasiyalararası dialoqun aparılmasında mühüm rol oynamışdır. Ölkəmiz Şərqlə Qərbin qovuşduğu məkanda yerləşir. 1918-ci ildə Şərqdə ilk demokratik cümhuriyyət məhz Azərbaycanda yaradılmışdır. Bu, bütün islam aləmində Avropa tipli ilk parlament respublikası idi. Bununla bərabər, islam ölkələri arasında opera, balet, teatr, qadın məktəbləri, azad mətbuat, kişilər və qadınlar üçün bərabər seçki hüququ ilk dəfə məhz Azərbaycanda formalaşmışdır. Bu gün Azərbaycan Avropa dəyərlərini qəbul edən və getdiyi yolu tam dərk edən müasir ölkəyə çevrilmişdir. Uğurlu inkişafın mühüm amillərindən biri ondan ibarətdir ki, Azərbaycan dünyəvi dövlətdir, yüksək tolerantlığı ilə fərqlənən ölkədir” (80, s. 5).

Azərbaycan Mədəniyyətinin Dostları Fondu və Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki fəaliyyətini yüksək dəyərləndirən YUNESKO-nun baş direktoru Koişiro Matsuura demişdir: “Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva on il bundan öncə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu

yaratmış və həmin Fondun çərçivəsində böyük işlər görülmüşdür. Mən onun bu sahədəki fəaliyyətini izləyir və yaxından öyrənirdim. Mən gördüm ki, bu sahədə Mehriban xanımın xidmətləri əvəzsizdir... İndi o, nəinki Azərbaycanda, həm də regional miqyasda, hətta deyərdim ki, qlobal miqyasda fəaliyyət göstərir" (80, s. 3).

Həqiqətən də intellektual elitanın parlaq nümayəndəsi olan Mehriban xanım Əliyeva mədəniyyətin və biliklərin müxtəlif sahələri arasında, Şərq ilə Qərb arasında yeni perspektivli əlaqələr yaradır. Azərbaycanın birinci xanımı öz çıxışlarında ümumdünya miqyasında inkişafın müasir vektorunun dərk edilməsi şəraitində milli ənənələrin qorunub saxlanmasının zəruriliyini dəfələrlə qeyd etmişdir. Axı ənənə toxunulmaz sayılan norma, ideya və predmetlərin donub qalmış toplusu deyil. Biz ənənənin kreativliyini, onun müasir dövrün qlobal problemləri labirintində öz orijinal yolumuzu tapmağa imkan verən nəhəng yaradıcı potensialını nəzərdən qaçıra bilmərik.

Mehriban xanım Əliyevanın fəaliyyətinin qlobal xarakteri bizim mədəniyyətin inkişafın aparıcı amilinə və strateji resursuna çevrilməsinə şərait yaradır. Bu məsələdə ölkəmizdə yaradılan Heydər Əliyev Mərkəzi xüsusilə rol oynayacaqdır. Mərkəz bütün cəmiyyət miqyasında biliklərin idarə edilməsi funksiyalarını yerinə yetirməkdən əlavə, ölkəmizin informasiya, təhsil və mədəni məkanının vəhdətini qoruyub saxlamağa şərait yaradacaqdır. Multimədəniyyət ideyalarını təcəssüm etdirən bu Mərkəz dünyanın mədəni sərvətlərini özündə cəmləşdirməklə XXI əsrin çağırışlarına Azərbaycanın intellektual və mədəni cavabı olacaqdır. Millətin intellektual sərvətlərinin toplanması, qorunması, sistemləşdirilməsi və istifadəsi ilə bağlı çoxfunksiyalı bir təsisat olan Mərkəz Heydər Əliyevin unikal dövlət quruculuğu və mədəni quruculuq təcrübəsinə əsaslanan elitaların siyasi mədəniyyətini formalaşdırmaq məqsədini də qarşıya qoyacaq (80. s. 5-6).

İSESKO-nun xoşməramlı səfiri qismində nitqində Mehriban xanım demişdir: "Hazırda İslam Ölkələrinin Təhsil, Elm və Mədəniyyət Təşkilatı ilə Heydər Əliyev Fondu arasında əməkdaşlıq üçün çox geniş imkanlar mövcuddur. Bildiyiniz kimi, Heydər Əliyev Fondu yaradıldığı andan elmin və təhsilin inkişafını, milli mədəni irsimizin qorunub saxlanmasını özünün fəaliyyətinin prioritet istiqaməti kimi müəyyən etmişdir. Biz qısa müddətdə çoxsaylı layihələr həyata keçirmiş, böyük uğurlar qazanmışıq". Modernizmin və ənənəviliyin bənzərsiz sinergetizmi, universializm və milli qürur hissləri, tolerantlıq və dövlət mənafelərinin qorunmasında prinsipiallıq, alternativlərin nəzərə alınması və gələcəyin dəqiq strateji planlaşdırılması kimi xüsusiyyətləri ilə seçilən Azərbaycan siyasi mədəniyyəti Mehriban xanımın şəxsində özünün parlaq ifadəsini tapmışdır. Xarici ölkələrdən, o cümlədən Rusiyadan olan mütəxəssislərin fikrincə, baş redaktoru Mehriban xanım Əliyeva olan "Azərbaycan – İrs" jurnalı Azərbaycan mədəniyyətinin, ölkənin tarixinin həqiqi tükənməz mənbəyi, onun bir növ vizit vərəqidir.

Bizim gənclərin kulturologiyaya, dünya bədii mədəniyyətinə marağının artdığı dövrdə, Mehriban xanım Əliyeva öz fəaliyyətində dünyanın mədəni irsinə, mədəniyyət şedevrlərinə böyük diqqət yetirir (80, s. 7-10).

Azərbaycan Mədəniyyətinin Dostları Fondu 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Fond Azərbaycanın tarixini, mədəniyyətini, mədəni irsini Azərbaycanda, dünyada və beynəlxalq təşkilatlarda təbliğ edir.

Ümumdünya İnternet-veb məkanında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ictimai və xeyriyyəçilik fəaliyyətini əks etdirən yeni İnternet-sayt açılmışdır. Saytla www.mehriban-aliyeva.orq, habelə www.first-lady.az.-da tanış olmaq mümkündür. Sayt yüksək texnoloji proqram təminatı və İnternet texnologiyaları mütəxəssisləri qrupu tərəfindən hazırlanmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər

Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin, habelə Mehriban Əliyevanın şəxsi İnternet-saytlarını da həmin qrup yaratmışdır. Qrupun rəhbəri, texnika elmləri namizədi Telman Məmmədov AzərTAc-ın müxbirinə bildirmişdir ki, İnternet səhifəsi "Fəaliyyət", "Səfərlər", "Görüşlər", "Müsahibələr", "Çıxışlar", "Xeyriyyəçilik fəaliyyəti", "Ailə" və "Fotoalbom" bölmələrindən ibarətdir. Azərbaycan, rus və ingilis dillərində hazırlanmış İnternet-sayta daxil olanlar həmin bölmələrdə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini əks etdirən maraqlı materiallarla, habelə Azərbaycanın birinci xanımının tərcümeyi-halı ilə tanış ola bilərlər. Saytda Mehriban Əliyevanın ölkəmizdə mədəni irsin qorunması, Azərbaycan mədəniyyətinin bütün dünyada layiqincə təbliği, idmanın, xüsusilə də Respublika Gimnastika Federasiyasının prezidenti kimi gimnastikanın inkişafı sahəsində fəaliyyətinə həsr olunmuş məqalələr təqdim edilmişdir. Saytın yaradıcılarının fikrincə, burada Heydər Əliyev Fonduna həsr olunmuş bölmə xüsusi yer tutur. T.Məmmədov saytı hazırlayarkən lazımi informasiya təminatına görə Heydər Əliyev Fonduna, Azərbaycan Mədəniyyətinin Dostları Fonduna, Milli Olimpiya Komitəsinə, AzərTAc-ın rəhbərliyinə, "Respublika" qəzetinə, habelə Azərbaycan Gimnastika Federasiyasına minnətdarlığını bildirmişdir (162; 163).

Qeyd etdiyimiz kimi, 1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hal-hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunmuşdur. 1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan – İrs" jurnalını təsis etmişdir. 2002-ci ildə Mehriban Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmiş və həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirmişdir. Onun beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının Bədii Gimnastika üzrə 2003 və 2004-cü il Dünya Kuboku

yarışlarının və 2005-ci il Dünya Çempionatının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynamışdır. Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Heydər Əliyev Fonduna rəhbərlik edir. 2004-cü il may ayının 10-da Heydər Əliyev Fondunun rəsmi açılışı olmuşdur. 2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür. 2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir. 2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən Mehriban Əliyeva "İlin qadını" adına layiq görülmüşdür. 2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdür. Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu ölkəmizin təhsil sisteminin inkişafında xidmətlərinə, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə Mehriban Əliyevanı "2005-ci ilin adamı" elan etmişdir.

Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına,

təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban Əliyeva 2006-cı il noyabrın 24-də İSESKO-nun Xoşməramlı səfiri adma layiq görülmüşdür. Dünya Səhiyyə Təşkilatı (DST) İcraiyyə Komitəsinin 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə Mehriban Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə bu beynəlxalq təşkilatın mükafatına layiq görülmüşdür. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında Mehriban Əliyeva “Qızıl ürək” beynəlxalq mükafatına layiq görülmüşdür.

2004-cü ilin sentyabrında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu Təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində Xoşməramlı səfiri adına layiq görülmüşdür.

İxtisasca həkim olan Mehriban xanım mədəniyyət, təhsil və idman sahəsində geniş fəaliyyət göstərir. 1995-ci ildən etibarən rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə, Mehriban xanım Əliyeva ölkəsinin mədəni irsinin təbliğinin, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərmişdir. Azərbaycanın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə Mehriban xanım Əliyeva Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması təşəbbüsünü irəli sürmüşdür.

Mehriban xanım uşaqların problemlərinə də böyük qayğı ilə yanaşır. Onun bu sahədə həyata keçirdiyi xeyriyyəçilik fəaliyyəti Azərbaycanda uşaq evlərinin yeniləşdirilməsi və

müasirləşdirilməsi, musiqi məktəbinin açılması və diabetli uşaqların müalicəsi istiqamətində görülmüş işləri əhatə edir.

Mehriban xanım Əliyeva YUNESKO-nun Xoşməramlı səfiri kimi təşkilatın qeyri-maddi mədəni irsin, xüsusilə folklorun, ifaçılıq sənəti və xalq sənətkarlığının qorunması istiqamətindəki fəaliyyətini dəstəkləyir.

Heydər Əliyev Fondunun ərsəyə gətirdiyi "Üzeyir dünyası" və "Azərbaycan muğamı ensiklopediyası" layihələri Azərbaycan mədəniyyəti tarixində xüsusi bir hadisədir. Azərbaycanın musiqi mədəniyyəti tarixində xüsusi yeri olan, müasir Azərbaycan professional musiqi sənətinin və milli operanın banisi Üzeyir Hacıbəyliyə həsr olunmuş "Üzeyir dünyası" layihəsinə "Ömür salnaməsi", "Üzeyir Hacibəyli ensiklopediyası", "Bədii və publisistik əsərləri" kitabları, "Leyli və Məcnun", "Koroğlu", "O olmasın, bu olsun" operaları və musiqili komediyalarının klavir, libretto və CD-ləri daxildir.

"Ömür salnaməsi" kitabı Qulam Məmmədlinin Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən kitabı əsasında hazırlanmışdır. Nəşrin birinci hissəsində Üzeyir bəyin maraqlı həyatı və çoxsahəli yaradıcılığı konkret faktlarla işıqlandırılmışdır. Burada 60 illik dövrdə müxtəlif qəzet və jurnallardan, kitablardan, arxiv materiallarından götürülmüş faktlar və sənədlərdə Üzeyir Hacıbəylinin əsərləri, bu əsərlər barədə fikir və rəylər öz əksini tapmışdır. İkinci hissədə dahi bəstəkarın əsərləri və onun haqqında yazılan müxtəlif materiallar toplanmış, indiyədək üzeyirşünaslığa dair nəşr olunmuş əsərlərin tam biblioqrafiyası verilmişdir. Kitaba ön sözü Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva yazmışdır.

"Bədii və publisistik əsərləri" kitabında Üzeyir Hacıbəylinin operaları, musiqili komediyaları, satirik hekayələri, səhnəcikləri, felyetonları və məqalələri toplanmışdır.

"Azərbaycanın muğam ensiklopediyası" layihəsi isə Azərbaycan muğamına həsr olunan xüsusi nəşrdir. İki cilddən ibarət olan bu ensiklopediya həm muğamla bağlı ətraflı məlumatları özündə cəmləşdirir, həm də Azərbaycan muğamlarını müxtəlif xanəndələrin ifasında təqdim edir. "Muğam ensiklopediyası" kitabında, ümumilikdə, 1300-ə yaxın mətn, 200-dən çox şəkil vardır. Kitabın redaksiya heyətinin sədri və baş redaktoru Mehriban xanım Əliyevadır.

Keçən əsrin əvvəllərində ilk dəfə lentə alınan muğamlardan tutmuş 2007-ci il televiziya muğam müsabiqəsinin qaliblərinin çıxışlarına qədər 260 video və audio materiallar MP3 formatında 125 diskdən ibarət 5 albomda toplanmışdır. Burada təmsil olunan ustad və gənc xanəndələrin yaradıcılığı, muğam dəstgahları və digər əsərlər ilk dəfədir ki, bütün halda qədim muğam irsimizin dolğun mənzərəsini yaradır.

Azərbaycan mədəniyyətinin ölkədə və xaricdə daha geniş təbliğ olunması məqsədilə Mehriban xanım Əliyeva 1996-cı ildə Azərbaycan, rus və ingilis dillərində çap olunan "Azərbaycan-İrs" jurnalını təsis etmişdir. Jurnal artıq 16 dəfə dərc olunmuş və həmin buraxılışlar dünyanın bir sıra ölkəsində yayılmışdır. Jurnalda Azərbaycan tarixinə, mədəniyyətinə və incəsənətinə dair materiallar çap olunur.

Bu illər ərzində Mehriban xanım Əliyevanın rəhbərliyi altında Müslim Maqomayev, Fidan və Xuraman Qasımovalar və Rəşid Behbudov kimi Azərbaycan incəsənətinin ən gözəl xadimlərinin şərəfinə yubiley və xatirə gecələri təşkil olunmuşdur. Yubiley gecələrinin keçirilməsindən sonra Rəşid Behbudov (CD diski ilə) və Fidan və Xuraman Qasımovalarına həsr olunmuş "Azərbaycan-İrs" jurnalının xüsusi buraxılışları dərc olunmuşdur.

Müslim Maqomayevin səsinin bütün dünyada çoxsaylı pərəstişkarları vardır. Görkəmli müğənninin yaradıcılığının daha geniş təbliğatı məqsədilə Mehriban xanımın təşəbbüsü ilə Müslim Maqomayevin ifa etdiyi mahnıları, romansları,

operalardan ariyaları, kinofilmlərdən mahnıları yazılmış 5 diskli albom buraxılmışdır.

2008-ci il iyul ayının 6-da Azərbaycan Dövlət Filarmoniyasında Mədəniyyət və Turizm Nazirliyinin, Beynəlxalq Musiqi Şurası Azərbaycan Milli Komitəsinin nəşr etdirdiyi "Mədəniyyətimizin və mədəni incilərimizin hamisi" kitabının (80) təqdimatı keçirilmişdir. Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyətinə dair dövri mətbuat materiallarının (1995–2007-ci illər) toplandığı, Milli Elmlər Akademiyasının müxbir üzvü Sevda Məmmədəliyevanın tərtibçisi və redaktoru olduğu kitab YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın sözləri ilə açılır: "Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva on il bundan öncə Azərbaycan Mədəniyyətinin Dostları Fondunu yaratmış və həmin Fondun çərçivəsində böyük işlər görülmüşdür. Mən onun bu sahədəki fəaliyyətini izləyir və yaxından öyrənirdim. Mən gördüm ki, bu sahədə Mehriban xanımın xidmətləri əvəzsizdir.

İndi o, nəinki Azərbaycanda, həm də regional miqyasda, hətta deyərdim ki, qlobal miqyasda fəaliyyət göstərir".

Mərasim iştirakçıları əvvəlcə Mehriban xanımın mədəniyyətimizə qayğısını əks etdirən videofilmə baxmışlar.

Tədbiri açan Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Mehriban xanımın YUNESKO-nun xoşməramlı səfiri təyin olunduqdan sonra Azərbaycan mədəniyyətinin inkişafı, qeyri-maddi mədəni irsin, o cümlədən muğamın qorunması, təbliği, onun bəşəriyyətin inciləri siyahısına daxil edilməsi sahəsində böyük işlər gördüyünü vurğulamışdır. O demişdir ki, bu kitabda toplanmış materiallar Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun həyata keçirdiyi tədbirlərin yalnız bir qismini əks etdirir. Gənclərimiz

bu kitabdan bəhrələnməklə özləri üçün xalqımıza və ölkəmizə, Azərbaycanın xoşbəxt gələcəyinə xidmət örnəyi seçəcək, mənəvi fayda götürə biləcəklər. Nazir Azərbaycan Prezidentinin qayğısına cavab olaraq, mədəniyyət işçilərinin daha səylə işləyəcəklərini vurğulamış, təqdim olunan kitabın rus və ingilis dillərində də nəşrinin hazırlandığını bildirmişdir.

Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov, Yazıçılar Birliyinin katibi, xalq yazıçısı Çingiz Abdullayev, "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi"nin sədri Hicran Hüseynova, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, akademik Rasim Əfəndiyev, Milli Konservatoriyanın rektoru, xalq artisti Siyavuş Kərimi çıxışlarında Mehriban xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondunun gördüyü genişmiqyaslı işlərdən danışmışlar. Bildirilmişdir ki, Qobustan tarixi-bədii və İçərişəhər tarixi-memarlıq qoruqlarının YUNESKO-nun Dünya Mədəni İrs siyahısına salınmasında, oncildlik "Azərbaycan xalq musiqisinin antologiyası" adlı fundamental tədqiqat əsərinin 7 cildinin nəşrində, "Muğam-antologiya" layihəsi çərçivəsində Səfiyəddin Urməvinin "Şərəfiyyə risaləsi" və "Kitabi-ədvar", Fətullah Şirvaninin "Musiqi məcəlləsi" əsərlərinin çap olunmasında Mehriban xanımın şəxsi təşəbbüsü böyük rol oynamışdır. Hazırda onun rəhbərliyi altında "Muğam ensiklopediyası" hazırlanır, Muğam Mərkəzi inşa edilir. Xüsusi vurğulanmışdır ki, Mehriban xanımın şəxsiyyətinə, onun milli və ümumbəşəri mədəniyyətin tərəqqisi naminə fəaliyyətinə ictimai maraq çox yüksəkdir. Təqdim olunan kitab buna bir növ cavabdır. Nəşrdə yeddi bölmədə qruplaşdırılmış materiallarda ölkənin birinci xanımının tarixi keçmişimizə sədaqəti, xalqımızın milli-mədəni dəyərlərinə övlad qayğısı barədə geniş məlumat verilir. Burada Mehriban Əliyevanın əsl vətəndaş mövqeyini, çoxcəhətli fəaliyyətinin ölkəmizin hüdud-larından kənarda, o cümlədən nüfuzlu beynəlxalq təşkilatlarda

da çox yüksək qiymətləndirildiyini təsdiqləyən materiallara da geniş yer verilmişdir (163).

Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə muğam axşamı keçirilmişdir. 2005-ci ıı martın 21-də Novruz bayramı münasibətilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycan Mədəniyyətinin Dostları Fondu YUNESKO-nun dəstəyilə reallaşdırdığı "Muğam dəstgahları" layihəsi çərçivəsində muğam axşamı keçirmişdir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun "Muğam dəstgahları" layihəsi çərçivəsində 2005-ci il iyunun 8-də də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında növbəti muğam axşamı təşkil edilmişdir. Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirak etdiyi konsertdə cavan nəslə mənsub ifaçılar – respublikanın əməkdar artisti Aygün Bayramova və Zabit Nəbizadə çıxış etmişlər. Musiqisevərlər Aygün Bayramovanın ifasında "Şahnaz" və "Kəsmə şikəstə", Zabit Nəbizadənin oxuduğu "Çahargah" muğamlarını hərarətlə, dəfələrlə sürəkli alqışlarla qarşıladılar. Bu alqışlarda xanəndələri ustalıqla müşayiət edən tarzənlər Elçin Haşımov və Ələsgər Məmmədovun, kamança çalanlar Elnur Əhmədov və Xəyyam Məmmədovun, digər musiqiçilərin də payı vardı. Musiqi sənətimizin baş tacı olan muğamların qorunub saxlanması və təbliğinə son dövrdə göstərilən diqqət və qayğı həm ictimaiyyət, həm də incəsənət xadimləri tərəfindən çox böyük razılıqla qarşılanır və haqlı olaraq deyilir ki, "Muğamların keşiyində duranlar min yaşasın". Konsertdən sonra respublikamızın bir qrup tanınmış ağsaqqal sənətçisi Mehriban Əliyevaya yaxınlaşaraq, xalqımızın milli mədəniyyətinin misilsiz sərvəti olan muğamlarımızın dünyada təbliği sahəsində gördüyü işləri yüksək qiymətləndirdilər və ona dərin təşəkkürlərini bildirdilər (80, s.34-36).

Avqustun 25-də Suraxanıdakı qədim Atəşgah məbədində ölkəmizdə rəsmi səfərdə olan YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın, onun xanımının, YUNESKO-nun xoşməramlı səfirlərinin şərəfinə Azərbaycan incəsənət ustalarının iştirakı ilə böyük konsert olmuşdur. Qəsəbə sakinləri YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı hərarətlə, gül-çiçəklə qarşıladılar. Mehriban Əliyeva YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı və xanımını səmimiyyətlə qarşıladı. Hörmətli qonağa və xanımına gül dəstələri təqdim edildi. Geniş konsert proqramında səslənən mahnı və muğamlar, oynaq rəqs havaları qonaqlarda Azərbaycanın zəngin mədəniyyətinin mühüm qollarından biri haqqında əyani təsəvvür yaradırdı. Konsert boyu məbədin divarındakı geniş ekranda Azərbaycanın təbiətini, tarixi abidələrini əks etdirən sənədli kinokadrlar bu təəssüratı daha da gücləndirirdi.

Mədəniyyət naziri Polad Bülbüloğlu çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranm "Şöhrət" ordeni ilə təltif olunmasını böyük razılıq hissi ilə qarşılandığını vurğuladı, onu ölkəmizin elm, mədəniyyət, təhsil işçiləri adından təbrik etdi. Nazir YUNESKO-nun xoşməramlı səfiri, məşhur skripkaçı İvri Gitlisin ad günü olduğunu bildirərək, qocaman sənətçiyə təbriklərini yetirdi və onu səhnəyə dəvət etdi. İvri Gitlis öz qısa çıxışında avqustun 25-nin dünyanın bir çox tanınmış simalarının, gözəl sənətçilərin, məşhir insanların doğum günü olduğunu vurğuladı və dedi ki, bu insanlar içərisində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban xanım Əliyeva da var. Mehriban xanımı bütün xoşməramlı səfirlər, YUNESKO ailəsi adından təbrik edən İvri Gitlis onu musiqi ilə salamladı. YUNESKO-nun Baş direktoru Koişiro Matsuura bu konsertin onun və səfər yoldaşlarının qəlbində silinməz iz qoyduğunu, Azərbaycanın

zəngin tarixi və mədəniyyəti, musiqisi ilə daha dərindən tanış olmağa imkan yaratdığını söylədi, bu xoş anları onlara bəxş edən Mehriban xanıma öz minnətdarlığını, ad günü münasibətilə ən xoş arzularını bildirdi. Mehriban xanım Əliyeva xoş sözlərə və təbriklərə görə YUNESKO-nun Baş direktoruna təşəkkürünü bildirdi, ona Bakıya səfərini əks etdirən fotoalbom hədiyyə etdi (80, s.37)

Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən “Azərbaycan xanəndələri” adlı divar təqvimi (2005) buraxılmışdır. Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə işıq üzü görmüş bu nəfis tərtibatlı təqvimdə musiqi mədəniyyətimizin inkişafında, muğam sənəti və milli ifaçılıq tariximizdə böyük tol oynamış 12 görkəmli xanəndənin portreti təqdim olunmuşdur. Sənətdə öz məktəbini yaratmış həmin müğənnilər – Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Əbdülbaqi Zülalov (Bülbülcan), Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Məcid Behbudov, Hüseynqulu Sarabski, Seyid Şuşinski, Mirtuza Məmmədov (Bülbül), Zülfü Adıgözəlov, Xan Şuşinski haqqında həm də qısa bioqrafik məlumat verilmişdir.

Azərbaycan, rus və ingilis dillərində buraxılmış təqvim Mehriban xanım Əliyevanın bu il sentyabrın 9-da Parisdə ona YUNESKO-nun xoşməramlı səfiri adının təqdim edilməsi mərasimindəki çıxışında dediyi sözlərlə açılır: “Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da bu günə qədər qoruyub saxladığımız və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə yönəldilmişdir, YUNESKO-nun xoşməramlı səfiri kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə yönələcəkdir” (80, s. 47-48). Həmin il aprelin 8-də “Gülüstan” sarayında YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti

Mehriban xanım Əliyevanın "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" albomunun təqdimatı keçirilmişdir. YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mərasimi açaraq demişdir: "Hörmətli mərasim iştirakçıları! "Qarabağ xanəndələri" albomunun təqdimat mərasiminə xoş gəlmisiniz. "Qarabağ xanəndələri" albomu "Muğam-irs" layihəsinin ilk albomudur. Siz hər biriniz bu albomu hədiyyə olaraq almısınız. Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyük məsuliyyətlə hazırlaşmışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq. Bu ilin mart ayında YUNESKO-nun qərargahında xoşməramlı səfirlərin illik toplantısında bu albom təqdim olunmuş və çox böyük diqqət və maraq cəlb etmişdi. Mənim muğam ustaları ilə ilk görüşümdən çox az vaxt keçib, amma bu müddətdə kifayət qədər iş görülübdür. Artıq muğam dəstgahlarının Filarmoniyada səslənməsi bir ənənəyə çevrilibdir. Muğam Mərkəzinin inşası barəsində qərar qəbul olunub, muğam ensiklopediyası hazırlanır. Muğam sənətinə həsr olunmuş traktatlar tərcümə edilir və çapa hazırlanır. Bütün bu addımlar bizim birgə səylərimizin nəticəsidir. Mən bu gün Azərbaycanın bütün muğam ustalarına, sənətkarlarımıza, alimlərimizə, muğamı sevən hər bir insana çox dərin minnətdarlığımızı və hörmətimi bildirmək istəyirəm. Muğam artıq təkcə bizim Azərbaycanın yox, bütün dünyanın sərvətidir. Bizim məqsədimiz muğamı qorumaq, inkişaf etdirmək, muğamın gözəlliyini, onun dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaqdır. Bu yolda hər birimizə uğurlar arzulayıram (80, s.48).

2005-ci il dekabrın 14-də Heydər Əliyev Fondunda paytaxtın Dənizkənarı milli parkında yaradılacaq Beynəlxalq Muğam Mərkəzinin binasının layihəsi respublikamızın tanınmış ifaçılarının iştirakı ilə müzakirə olunmuşdur.

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva muğam ustalarını səmimiyyətlə salamlayaraq bildirdi ki, xalqımızın milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan muğam sənətimizin qorunub saxlanması, tədqiqi, öyrənilməsi, dünyaya tanıdılması, gələcək nəsillərə çatdırılması üçün Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr cəmiyyətdə böyük razılıq hissilə qarşılanır, nüfuzlu beynəlxalq təşkilatlarda, dünyanın bir sıra ölkələrində də çox geniş maraq doğurur. Bu ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin və YUNESKO-nun baş direktoru cənab Matsuuranın iştirakı ilə Milli parkda nadir musiqi məbədinin – Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulduğunu xatırladan Mehriban xanım, tikintinin eskiz və layihəsi, arxitekturası ilə bağlı respublikamızın ən məşhur muğam ifaçılarının fikirlərini öyrənmək istədiyini vurğuladı. İndiyədək 10 layihə təqdim olunduğunu, əsas diqqətin qədim milli və müasir arxitektura elementlərini birləşdirməklə musiqimizin əsas sütunu olan muğam sənətinin dərin fəlsəfəsini özündə təcəssüm etdirən bir kompleksin inşasına nail olmağı arzu etdiyini bildirən Fondun prezidenti, musiqi xadimlərini açıq, işgüzar fikir mübadiləsinə çağırdı (80, s.116-117).

Azərbaycan mədəniyyətinə dövlət qayğısından danışarkən vurğulamaq lazımdır ki, Bakıda, Dənizkənarı Milli Parkda YUNESKO-nun dəstəyi ilə yaradılan Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Mərasimə toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranı və xanımı Takaka Matsuuranı, bu beynəlxalq qurumun nümayəndə heyətinin üzvlərini hərarətli alqışlarla qarşıladılar.

Mərasimi Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu açaraq demişdir ki, bu gün biz milli ruhumuzun, təfəkkürümüzün ən bariz təcəssümü olan möhtəşəm muğam sənətimi-

zin qorunması istiqamətində növbəti və sözün əsl mənasında, tarixi hadisənin canlı iştirakçılarıyıq. Bu gün yeni bir musiqi məbədinin – Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulur. Tədbirin müstəsna əhəmiyyətini nəzərə alaraq, Mehriban xanımım dəvəti ilə ölkəmizə gəlmiş YUNESKO-nun Baş direktoru cənab Matsuura və xanımı, YUNESKO-nun dünyada tanınmış bir sıra xoşməramlı səfirləri bizimlədirlər. Xalqımızın canına, qanına hopmuş, daxili dünyasının ayrılmaz hissəsi olan muğam sənəti 2003-cü ildə YUNESKO-nun tərtib etdiyi "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilmişdir. Muğam aləmində Qarabağ muğam məktəbi xüsusi yer tutur və təsadüfi deyil ki, bu yaxınlarda Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə "Qarabağ xanəndələri" adlı çox nəfis bir albom buraxılmış və onun təntənəli təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın YUNESKO-nun xoşməramlı səfiri seçilməsi ilə muğamlarımızın qorunması və təbliği yeni vüsət tapmışdır. Məhz Mehriban xanımın təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyasında xalq musiqisi ifaçılarının silsilə konsertləri təşkil olunur, muğam ustaları ilə işgüzar görüşlər keçirilir. Azərbaycan mədəniyyətinə, incəsənətinə daim qayğı və diqqət göstərən Mehriban xanımın muğam ustalarına verdiyi dəstək onları ruhlandırır, yeni uğurlara səfərbər edir!

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev xalq musiqisinə, xüsusilə muğam sənətçilərinə daim qayğı göstərir. Muğamlarımızın yaşaması, qorunması və dünyada tanınması üçün bu gün təməlini qoyduğumuz Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam, muğam ifaçılarının böyük bir hissəsinin yüksək mükafatlara, fərdi təqaüdlərə, fəxri adlara layiq görülməsi buna sübutdur. İnanıram ki, Beynəlxalq Muğam Mərkəzi bu canlı və nadir sənətin bütün dünyada təbliği və tanınması, habelə tədqiqi və öyrənilməsi sahəsində nüfuzlu bir mədəniyyət ocağına çevriləcək və bizim

hamımız onun keçirəcəyi mötəbər tədbirlərin, konsertlərin, festival və simpoziumların iştirakçısı olacağıq (80, s. 140-141).

YUNESKO-nun Baş direktoru Koişiro Matsuuranın çıxışında bildirmişdir ki, mən bugünkü təməlqoyma mərasimində iştirakımdan dərin məmnunluq hissi duyuram. Sizinlə birgə bu mərasimdə iştirak etməyimdən çox şadam.

Yaradılacaq Beynəlxalq Muğam Mərkəzi, şübhəsiz ki, öz töhfəsini verəcəkdir. Mədəniyyət nazirinin dediyi kimi, 2003-cü ilin noyabr ayında Azərbaycan muğamının 28 əsəri qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu da YUNESKO-nun İkinci Bəyannaməsində əks olunmuşdur. Bildiyiniz kimi, bu ilin mart ayından sentyabr ayına qədər Yaponiyada beynəlxalq sərgi keçirilmişdir və mən orada qərar qəbul etdim ki, iyulun 27-də həmin sərgidə BMT günü qeyd olunsun.

BMT günü zamanı mən dünyanın qeyri-maddi mədəni irsi siyahısına daxil olan əsas musiqi əsərləri sırasında məhz Azərbaycan muğamının da səsləndirilməsi, təqdim olunması qərarına gəlmişdim və bu mərasim çox yaxşı təşkil edilmişdi.

Xanım Mehriban Əliyevaya mən xüsusi minnətdarlığımı bildirirəm ki, Azərbaycanın muğam ustalarından ibarət bir qrupun həmin vaxt Yaponiyaya göndərilməsinə öz yardımını göstərdi. Buna görə də ona ürəkdən minnətdaram. Orada muğamı dinləyən bütün yaponlar, ümumiyyətlə, digər ölkələrdən gəlmiş sərgi iştirakçıları bundan çox böyük və xoş təəssürat aldılar.

Mən bu gün buraya gəlməmişdən əvvəl İçərişəhərdə oldum. Onu da deyim ki, İçərişəhər də bu günlərdə dünyanın mədəni irsi siyahısına daxil edilmişdir. Bu təşəbbüs maddi mədəniyyət abidələrinin qorunmasına dair 1972-ci ildə qəbul olunmuş Konvensiya çərçivəsində qaldırılmışdır. Bu Konvensiya şifahi və qeyri-maddi mədəni irsə aid deyildir. Bunu nəzərə alaraq, YUNESKO 2003-cü ildə qeyri-maddi mədəni dəyərlərin qorunması ilə bağlı yeni bir Konvensiya qəbul etdi. Bu Konvensiyanın müddəalarına uyğun olaraq, Azərbaycan

muğamı da qeyri-maddi mədəni dəyərlərin biri kimi, həmin Konvensiyanın əks etdirdiyi siyahıya daxil olundu.

YUNESKO maddi və qeyri-maddi mədəni irslərin qorunmasında çox qətiyyətlidir, əzmlidir. Bu mənada adlarını çəkdiyim iki konvensiya hüquqi baxımdan çox mühüm sənədlərdir! (80, s. 142).

Azərbaycan Prezidenti İlham Əliyevin isə mərasimdəki nitqində söyləmişdir ki, mən sizi bir daha salamlayıram və bu gün Beynəlxalq Muğam Mərkəzinin təməl daşının qoyulması münasibətilə hamınızı ürəkdən təbrik edirəm. Bu gün böyük bayramdır. Muğam Azərbaycan mədəniyyətinin ən gözəl incisidir. Şübhə etmirəm ki, bu mərkəz qısa müddət ərzində tikilib başa çatdırılacaq, dünyanın ən yüksək standartlarına cavab verəcəkdir. Ümid edirəm ki, YUNESKO-nun Baş direktoru cənab Matsuura və dəyərli qonaqlarımız Muğam Mərkəzinin açılış mərasimində də bizimlə bərabər olacaqlar. Bu gün həqiqətən çox böyük bayramdır. Azərbaycan musiqisevərlərinin bayramıdır, muğam ustalarının bayramıdır və bütün Azərbaycan xalqının bayramıdır. Çünki nə qədər ki, muğam var, Azərbaycan xalqı da var.

Bu fürsətdən istifadə edərək, cənab Matsuuraya dərin minnətdarlığımı bildirirəm ki, onun şəxsi təşəbbüsü ilə Azərbaycanın milli irsinin, mədəni irsinin qorunması işində böyük işlər görülübdür. YUNESKO-nun vasitəsilə Azərbaycan öz mədəniyyətini dünya ictimaiyyətinə daha geniş şəkildə təqdim edə bilibdir. Ümid edirəm ki, gələcəkdə YUNESKO ilə Azərbaycan arasında gözəl əməkdaşlıq ənənələri yaradılacaqdır və möhkəmlənəcəkdir. Cənab Matsuuranın Azərbaycanın mədəni irsinin təbliğ olunmasında və YUNESKO tərəfindən qorunmasında müstəsna xidmətləri vardır və bu, Azərbaycanda yüksək qiymətləndirilir. Bu məqsədlə bu gün mənim sərəncamımla cənab Matsuura Azərbaycanın (s. 144) yüksək mükafatı – "Şöhrət" ordeni ilə təltif olunubdur.

YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti Mehriban Əliyevanın "Azərbaycan muğamları" layihəsi çərçivəsində həyata keçirdiyi islahatlar sözün həqiqi mənasında böyük bir hadisəyə çevrildi. Mədəni aləmdə baş verən bu xoşməramlı islahat və tədbirlər sənət adamlarını, xüsusilə muğam ifaçılarını ürəkdən sevindirdi. Bu ilin mart ayında M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında muğam axşamlarının təşkili və bu məbəddə muğam dəstgahlarının keçirilməsi artıq ənənəyə çevrilib. Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən Muğam ensiklopediyası yaranmaqdadır. Muğam sənətinə həsr olunmuş traktatlar tərcümə edilərək çapa hazırlanır. Dövlət başçısı tərəfindən Azərbaycan musiqisində və incəsənətində özünəməxsus xidmətləri olan ifaçıların əməyi mükafatlandırıldı (80, s.243-244).

Mehriban xanım Əliyeva AZTV-nin müxbirinə müsahibəsində demişdir ki, Beynəlxalq Muğam Mərkəzinin təməli qoyuldu və mən inanıram ki, bina inşa olunandan sonra bu Mərkəz bütün muğamsevərlər üçün doğma bir evə çevriləcəkdir. "Qarabağ xanəndələri" albomundan sonra biz muğam layihələri üzrə işlərimizi davam etdiririk. Bu ilin sonuna qədər muğam dəstgahları albomu işıq üzü görəcək, bir sıra muğam ustalarının kitabları və albomları çap olunacaqdır. Bir neçə qədim muğam traktatlarının tərcüməsi artıq başa çatıb və onlar da çapa hazırdır. Müasir fransız musiqişünası Cerardın əsəri də tərcümə olunub və o da çapa hazırdır. Bir sözlə, muğamla bağlı çox geniş layihələrimiz var. Yaxın gələcəkdə muğam ustaları ilə bir daha görüşmək fikrim var. Onlarla həm muğam mərkəzinin layihəsini müzakirə etmək, həm də gələcək planlarımız haqqında danışmaq istəyirəm. Azərbaycan musiqi sənətinin muğam kimi əhəmiyyətli olan başqa bir qolu da var, bu da aşıq sənətidir. Hesab edirəm ki, ona da diqqət artırılmalıdır. Muğamla yanaşı, aşıq sənətinin də YUNESKO-nun qeyri-maddi irs siyahısına salınması çox zəruridir.

Ümumiyyətlə, bizim mədəni irsimiz çox zəngindir, misal üçün meyxana sənəti. Bu sənətin qədimdə çox böyük ənənələri olub və bu gün də çox istedadlı davamçıları var. Amma bu sənətin fəlsəfəsi və tarixi yetərincə öyrənilməyibdir. Bir sözlə, hələ böyük işlər görmək lazımdır. (s. 338-339)

Mehriban xanım Əliyevanın "İzvestiya" qəzetinin müxbirinə müsahibəsində isə deyilir ki, (80, s. 348-367) Muğama dair müxtəlif albomlar buraxacağımızla yanaşı, muğam haqqında elmi işlərdən ibarət xüsusi seriya da hazırlayırıq. Buraya həm də orta əsrlərdə yaşayıb-yaratmış müəlliflər, eləcə də hələ 1980-ci illərdə muğama dair gözəl monoqrafiya buraxmış fransız tədqiqatçısı Dürinq kimi muğamın müasir tədqiqatçıları daxil olacaqlar. Təbii ki, istənilən belə layihə bir neçə dildə buraxılacaqdır. Muğam problemlərinə dair müxtəlif simpoziumlar, "dəyirmi masa"lar, qeyri-formal görüşlər keçirmək nəzərdə tutulur. "Qarabağ xanəndələri" albomunun təqdimatı göstərdi ki, belə layihələrə ehtiyac çox böyükdür.

Muğam ümumdünya irsidir, lakin indiyədək ona vahid yanaşmalar, köklərə müraciət, muğamın fəlsəfi aspektlərinin öyrənilməsi mövqelərindən baxılmamışdır. Biz Bakıda Beynəlxalq Muğam Mərkəzi tikmək fikrindəyik. Prezident artıq fərman imzalamışdır və düşünürəm ki, bu mərkəz regional layihələrdə son dərəcə mühüm rol oynayacaqdır.

## “Mədəniyyətlərarasi dialoq Avropa və onun qonşu regionlarinda davamli inkişafin və sülhün əsasidir” mövzusunda Avropa Şurasinin üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin Bakı konfransı

Son illərdə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə mədəniyyət və turizm sahələrinin inkişafı, dünya miqyasında təbliği üçün 100-dən çox Fərman və Sərəncam imzalamışdır. 2004-2008-ci illərdə bu istiqamətdə 71 beynəlxalq saziş və konvensiya imzalanmışdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mədəni irsimizin qorunması və dünya təbliği sahəsində məqsədyönlü fəaliyyət göstərir. Azərbaycan mədəniyyəti dünya mədəniyyətinin, habelə onun tərkib hissəsi olan islam mədəniyyətinin böyük daşıyıcılarından biri olduğuna görə, Bakı şəhəri 2009-cu il üçün “İslam mədəniyyətinin paytaxtı” elan edilmişdir. Bu baxımdan Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin Bakı konfransı, nəinki Azərbaycanın və Qərbin, eyni zamanda, Şərqin mədəni həyatında mühüm hadisədir. Bunu yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyevin bu il noyabrın 4-də imzaladığı Sərəncama əsasən, konfransın hazırlanması və keçirilməsini təmin etmək məqsədi ilə Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə Təşkilat Komitəsi yaradılmışdı.

Beləliklə, 2008-ci il dekabrın 2-3-də Bakıda, “Gülüstan” sarayında Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin “Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarda davamlı inkişafın və sülhün əsasıdır” mövzusunda iki günlük konfransı keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev konfransın açılışında iştirak etmişdir. Konfransda Avropa Şurasının üzvü olan, habelə müşahidəçi ölkələrin, Avropa Mədəniyyət Konvensiyasını imzalamış dövlətlərin, Avropanın qonşu regionlarını təmsil edən 10 ölkənin, habelə Avropa Komissiyasının və YUNESKO-nun, İslam Ölkələri

Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO), Ərəb Dövlətləri Liqası ölkələrinin Elm, Mədəniyyət və Təhsil Təşkilatının (ALEKSO) yüksək rütbəli rəsmiləri, müxtəlif fondların və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, ümumilikdə, 250-dən çox nümayəndə, o cümlədən 16 nazir, 18 nazir müavini, 10 beynəlxalq təşkilatın başçısı iştirak etmişdir.

Konfrans münasibətilə "Gülüstan" sarayının foyesində təşkil olunmuş sərgidə ölkəmizin qədim, zəngin mədəniyyəti barədə kifayət qədər dolğun təsəvvür yaradan eksponatlar – xalçalar, silah nümunələri, musiqi alətləri, xalq sənəti nümunələri nümayiş etdirilir. Respublikamızın turizm imkanlarını, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin mədəniyyət və incəsənətə göstərdiyi diqqət və qayğını göstərən fotoşəkillər qonaqlarda böyük maraq doğurmuşdur.

Sonra konfransın rəsmi açılışı oldu. Salona toplaşanlar Prezident İlham Əliyevi və Avropa Şurasının baş katibi Terri Devisi alqışlarla qarşıladılar.

Mədəniyyət naziri Əbülfəs Qarayev Avropa Şurası ilə Azərbaycanın birgə təşkil etdiyi konfransı açaraq dedi ki, müasir dövrdə sivilizasiyaların arasında dialoq qlobal səviyyədə bəşəriyyətin ən vacib ehtiyaclarından birinə çevrilmişdir. Bu konfrans müxtəlif xalqlar və dövlətlər arasında dialoqu möhkəmləndirməyə və daha da inkişaf etdirməyə yönələn fəaliyyətin bariz nümunəsidir.

Ölkəmizdə son illər çoxlu beynəlxalq forumların və mədəniyyətlərarası dialoqa həsr edilmiş tədbirlərin keçirilməsinin artıq ənənəyə çevrildiyini bildirən nazir dedi ki, bu beynəlxalq konfrans Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə dəstəyi və müvafiq göstərişi ilə təşkil olunmuşdur. Buna görə, Prezidentə təşəkkürünü bildirən Ə.Qarayev vurğuladı ki, Azərbaycan öz siyasətində mədəniyyətlərarası dialoqa böyük önəm verir və şəxsən dövlətimizin başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlər həm ölkəmizin

daxilində, həm də beynəlxalq aləmdə dialoqun səmərəli inkişafına böyük töhfələr vermişdir.

Avropa Şurasının üzvü olan, habelə müşahidəçi ölkələrin, Avropa Mədəniyyət Konvensiyasını imzalamış dövlətlərin, Avropanın qonşu regionlarını təmsil edən ölkələrin, Avropa Komissiyasının və YUNESKO-nun, İSESKO-nun, Ərəb Dövlətləri Liqası ölkələrinin Elm, Mədəniyyət və Təhsil Təşkilatının (ALEKSO) yüksək vəzifəli rəsmilərinin, müxtəlif fondların və qeyri-hökumət təşkilatlarının təmsilçilərinin, ümumən 250-dən çox nümayəndənin iştirak etdikləri konfransın ikinci iş günündə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın iştirakçılara müraciəti çatdırıldı. Müraciətdə vurğulanır ki, Şərqlə Qərbin qovuşuğunda yerləşən bir ölkə kimi çoxmədəniyyətli Azərbaycan mədəniyyətlərarası dialoqun inkişafına daim öz töhfəsini vermişdir. Fondun prezidenti əmin olduğunu bildirir ki, ölkəmizdə keçirilən konfrans mədəniyyətlərarası dialoqun təşviq olunmasında yeni bir mərhələnin başlanmasına, habelə Avropa və onun qonşu regionlarını təmsil edən dövlətlərin bu əməkdaşlıq prosesinə yaxından cəlb edilməsinə səbəb olacaqdır. Bu proses dialoq sahəsində daha çox praktik fəaliyyətləri özündə əks etdirəcək, həm dövlətlər, həm də beynəlxalq təşkilatlar arasında daha konstruktiv əməkdaşlığın yaranmasına gətirib çıxaracaqdır.

Konfransda tədbirin birinci gününün yekunları müzakirə olunmuşdur. Sonra Avropa Şurasının təmsilçisi xanım Qabriella Battaini-Draqoni konfransın yekunu kimi qəbul edilməsi nəzərdə tutulan Bakı bəyannaməsi haqqında məlumat vermişdir (164).

Mədəniyyətlərarası dialoqa dair yekdilliklə qəbul edilmiş Bakı bəyannaməsi ilk sənəddir ki, konkret mövzuya həsr olunur və gələcəkdə belə tədbirlərdə ona istinad ediləcəyi gözlənilir. Sənəd nəzəri cəhətdən Avropa Şurasının əvvəlki

təcrübələrinə əsaslansa da, ilk dəfə olaraq burada Avropa və ona qonşu regionlar arasında dialoqun praktik vasitələrlə həyata keçirilməsi nəzərdə tutulmuş, bu əməkdaşlıq prosesinin əsasının Bakıda qoyulması xüsusi vurğulanmışdır.

Bakı konfransının iştirakçıları mədəniyyət müxtəlifliyinin bəşəriyyətin ümumi irsi olduğunu bəyan edərək, mədəniyyətlərarası dialoqun davamlılığına tərəfdar çıxırlar. Bəyannamədə bildirilir ki, Bakı konfransı Avropa və ona qonşu regionlar arasında mədəni əməkdaşlığın gücləndirilməsinə imkan verəcəkdir.

Tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirən Avropa Şurası Nazirlər Komitəsinin İspaniyadan olan rəhbəri Gilyermo Koral Van Damm demişdir ki, Bakı konfransı mədəniyyətlərarası dialoqla bağlı ideyaların irəli sürülməsi və müzakirəsi baxımından mühüm mərhələ olacaqdır. Bəyannamənin ən mühüm cəhətlərindən biri odur ki, sənəddə mədəniyyətlərarası dialoqun genişləndirilməsi üçün əlaqələrin əhəmiyyəti xüsusi vurğulanmışdır. Sənəddə mədəni irsin qorunmasına da xüsusi diqqət yetirilmişdir.

Konfransın açılış mərasimində çıxış edən Prezident İlham Əliyev demişdir ki, biz bu gün müxtəlif ölkələrdən olan mədəniyyət nazirlərinin konfransını keçirməklə bir daha onu göstəririk ki, son illər ərzində Azərbaycan dini tolerantlıq, milli və etnik tolerantlıq məsələlərində çox böyük uğurlara nail olmuşdur. Əslində, bizim ölkəmizdə bütün insanlar müxtəlif dövrlərdə, ictimai-siyasi quruluşundan asılı olmayaraq, həmişə bir ailə kimi yaşamışlar. Burada bütün dinlərin nümayəndələri həmişə dostluq, qardaşlıq şəraitində yaşamışlar. Bir daha qeyd etmək istəyirəm ki, bu, bizim ölkəmizə xas olan çox mühüm bir amildir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, əlbəttə, millətlərarası münasibətlərə, milli və dini tolerantlığın möhkəmlənməsi işinə çox böyük diqqət verilmişdir. Bu gün Azərbaycan sözün əsl mənasında dostluq,

qardaşlıq məkanıdır. Burada bütün xalqlar, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Mən əminəm ki, Azərbaycanın bu istiqamətdə əldə etdiyi təcrübə çox önəmlidir.

Mən çox şadam ki, bu konfransda dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələr iştirak edirlər. Bildiyiniz kimi, konfrans Avropa Şurası ilə Azərbaycan tərəfindən təşkil olunmuşdur. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan səkkiz ilə yaxındır Avropa Şurasının üzvüdür. Bu dövr ərzində ölkəmizdə gedən siyasi və iqtisadi islahatlar, Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi nəticəsində Azərbaycan demokratik inkişaf baxımından çox sürətlə irəli getmişdir. Ölkədə aparılan siyasi və iqtisadi islahatlar, qanunun aliliyinin bərqərar olunması, Azərbaycanda mütərəqqi təcrübənin tətbiq edilməsi – bütün bunlar son illər ərzində baş vermiş mühüm hadisələrdir. Biz Avropa Şurası ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıqdan çox razıyıq. Əminəm ki, bu əməkdaşlıq gələcəkdə uğurla davam etdiriləcək və bizə əlavə imkanlar yaradacaqdır.

Eyni zamanda, bizim qonaqlarımızın arasında İslam Konfransı Təşkilatının üzvləri vardır. Biz buna da çox sevinirik və çox şadıq ki, bu gün Şərqlə Qərbin kəsişdiyi yerdə, Bakıda müxtəlif ölkələrdən müxtəlif dinlərin nümayəndələri iştirak edirlər. Biz buna çox böyük önəm veririk. Bunun çox böyük əhəmiyyəti var. Çünki indiki zamanda bir çox hallarda sivilizasiyalararası, mədəniyyətlərarası dialoqdan danışılır, ancaq bununla bərabər, dünyada gedən proseslər, əfsuslar olsun ki, bəzi hallarda gərginliyin artmasına gətirib çıxarır. Mən çox istəyirəm ki, bu gün Azərbaycanda başlanan Bakı prosesi mədəniyyətlər arasında olan dialoqun, dostluğun, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə öz dəyərli töhfəsini versin.

Bir sözlə, Azərbaycanın həm tarixi, həm coğrafi vəziyyəti, həm də müxtəlif beynəlxalq təşkilatlarda iştirakı, əlbəttə, bizim imkanlarımızı daha da genişləndirir. Mən əminəm ki, ölkəmizin uğurlu inkişafı bundan sonra da davam etdiriləcək və bu

inkişafı şərtləndirən təkcə siyasi, yaxud da iqtisadi islahatlar deyildir. Eyni zamanda, bayaq qeyd etdiyim kimi, Azərbaycanda hökm sürən çox gözəl ictimai-siyasi ab-hava, burada yaşayan bütün millətlərin hüquqlarının qorunması və hər bir insanın, hər bir millətin nümayəndəsinin Azərbaycanda rahat yaşamasıdır.

Bizim ölkəmizin çox zəngin və böyük tarixi vardır. Minilliklər bundan əvvəl Azərbaycanda insanlar yaşayıb yaratmışlar. Bunu əks etdirən tarixi abidələr Azərbaycan dövləti tərəfindən lazımınca qorunur. Biz öz mədəni və tarixi irsimizə çox bağlıyıq. Mədəni irsimizin qorunması üçün çox böyük işlər görürük. Azərbaycan xalqı əsrlər boyu müstəqillikdən məhrum idi. Biz yalnız qısa bir müddət ərzində öz taleyimizi özümüz müəyyən edirdik. Ancaq buna baxmayaraq, bizim tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız, ana dilimiz – bu amillər azərbaycanlıları bir millət kimi assimilyasiyadan qorudu və bu gün müstəqil ölkəmizdə Azərbaycan xalqı öz taleyinin sahibidir.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdə ölkədə vəziyyət həddindən artıq ağır idi. Həm siyasi böhran, həm iqtisadi böhran, həm də Ermənistanın Azərbaycana qarşı təcavüzü və bunun nəticəsində torpaqlarımızın bir hissəsinin işğal altına düşməsi – bütün bu amillər Azərbaycanda vəziyyətin nə qədər ağır və çətin olduğunu göstərir. Ancaq buna baxmayaraq, biz öz səylərimizlə, işimizlə, Azərbaycan xalqının iradəsi ilə bu çətin və ağır sınaqlardan şərəflə çıxdıq. Bu gün Azərbaycan, demək olar ki, tam şəkildə öz müstəqilliyini təmin edibdir. Azərbaycan müstəqil siyasət aparır. Biz həm iqtisadi, həm də siyasi sahədə çox böyük və əhəmiyyətli nailiyyətlərə nail olmuşuq.

Azərbaycan xalqı rahat yaşayır, təhlükəsizlik, sülh şəraitində yaşayır. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması və möhkəmlənməsi istiqamətində çox önəmli addımlar atılmışdır. Ölkəmizdə əsas inkişaf istiqamətləri ilə

əlaqədar cəmiyyətdə fikir ayrılığı yoxdur, əksinə, bizim cəmiyyətimiz ümumxalq amalları ətrafında birləşibdir: azərbaycançılıq fəlsəfəsi, müasirlik, öz tarixi köklərimizə, ənənələrimizə bağlılıq. Eyni zamanda, Azərbaycan dünyəvi dövlətdir. Azərbaycanda bütün dinlərin nümayəndələrinə çox böyük hörmət vardır. Yəni bizim ölkəmizi bu gün ictimai-siyasi baxımdan şərtləndirən amillər bunlardır.

Azərbaycanda dini və milli tolerantlığın, dözümlülüyün yüksək səviyyədə olması və bütün xalqların rahat, mehriban şəkildə yaşaması, əlbəttə ki, bizi daha da gücləndirir. Bax, bu amillər hər bir ölkənin inkişafı üçün çox vacibdir. Mən çox istəyirəm ki, bizim ölkədə bu vaxta qədər əldə olunan nailiyyətlər bundan sonra da uğurla davam etdirilsin. Bunu etmək üçün, əlbəttə ki, bölgədə sülh tam şəkildə bərqərar olunmalıdır...

Əziz dostlar! Mən sizi bir daha bu konfransın keçirilməsi münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm ki, biz bu konfransın keçirilməsinə Azərbaycanda çox böyük əhəmiyyət veririk. Əminəm ki, konfransın çox gözəl nəticələri olacaq və bu nəticələr hesabına mədəniyyətlərarası dialoqun möhkəmlənməsi prosesi daha da güclənəcəkdir.

Mən çox istərdim ki, bu gün başlanan "Bakı prosesi" uzunmüddətli olsun. Çox istərdim ki, bu konfransın keçirilməsindən sonra konkret mexanizmlər işlənilsin, konkret fəaliyyət planı hazırlansın. Belə tədbirlərin keçirilməsi həm Bakıda, həm də digər şəhərlərdə ənənəyə çevrilsin. ümid edirəm ki, sizin müzakirələriniz çox uğurlu olacaq və biz qarşımıza qoyduğumuz məqsədə çatacağıq. Sizin hamınızı bir daha ürəkdən salamlayır, konfransın işinə uğurlar arzulayıram! (165)

Sonra Avropa Şurasının baş katibi Terri Devisə söz verildi. O bildirdi ki, Bakı, Azərbaycan qeyri-adi bir məkandır. Bura tarix boyu müxtəlif mədəniyyətlərin qovuşma nöqtəsi, Şərq və Qərb, Şimal və Cənub arasında təbii bir körpü olubdur. Bu, çox xüsusi tədbirdir, çünki bu ilin may ayında Avropa Şurası

özünün mədəniyyətlərarası dialoqa dair “Ağ kitabı”nı yaradıbdır. Bu, əsas qanunlar sənədinin hazırlanmasından sonra nazirlər səviyyəsində ilk konfransdır və biz bunun necə həyata keçirilməsini düşünməliyik. Dialoqdan dialoq haqqında və dialoqa. Bu səbəbdən mən Azərbaycan Prezidenti cənab İlham Əliyev, Avropa Şurası Nazirlər Komitəsinin İspaniyadan olan rəhbəri, habelə YUNESKO, ALEKSO və İSESKO-dan olan hörmətli həmkarlarımla birgə burada olmağımdan çox məmnunam. Deməliyəm ki, mədəniyyətlərarası dialoq İspaniyanın sədrlik etdiyi Nazirlər Komitəsinin prioritet məsələlərindən biridir. Təsadüfi deyil ki, Bakıdakı konfrans bir həftədən də az bir müddət öncə İspaniyanın Avropa Şurasına sədrliyə başlamasından sonra keçirilən ilk tədbirdir. Biz burada təcrübə mübadiləsi aparmaq və birgə irəliləyişə nail olmaq üçün bir araya gəlmişik. Biz hamımız çoxmillətli cəmiyyətlərdə bu və ya digər yolla, mədəniyyətin müxtəlifliyinə daha da meyilliyik. Bir çox hallarda təbii müxtəliflik ətraf mühit üçün nə qədər vacibdirsə, mədəniyyət müxtəlifliyi də bəşəriyyət üçün bir o qədər vacibdir. Lakin biz hələ də bəzi hallarda milli, etnik, linqvistik stereotiplər haqqında düşünürük.

Davamlı mədəniyyətlərarası dialoq cəmiyyətlərimizin içərisində ehtiyac duyduğumuz bir sosial möhürdür. Bu dözümsüzlüyə, parçalanmaya və zorakılığa qarşı bir müalicə vasitəsidir. Dialoq təkcə ideologiya deyil, həmçinin müəyyən siyasi kontekstlərdən irəli gələn süni yanaşmalar üçün bir reseptdir. Lakin biz müxtəlifliyin dəyərləndirildiyinə və müxtəlif fərdlərin bir-biri ilə ümumi ünsiyyət qurduğuna və insanların dialoq aparmaq üçün imkanlarının olduğuna əmin olsaq, onda hamımız, gələcək nəsillər üçün qarşılıqlı hörmət, ədalət və təhlükəsizlik şəraitində daha yaxşı dünyada yaşamaq imkanı olar. Mədəniyyət bu istiqamətdə bir yardımçıdır.

Mədəniyyət hissiyyatımızı, bir-birimizi görmək, görüşmək və anlamaq qabiliyyətimizi qidalandırır və bu işdə ürəyimiz, idrakımız və bədənimiz əlaqəlidir. Bu səbəbdən, yaxşı qanunlar

bir çox bu cür mədəniyyətlərarası məkanlara və imkanlara şərait yaradır. Bizim yerində və spesifik olmağımız xüsusilə vacibdir. İnsanların bir-biri ilə ünsiyyət qurması həmişə yaxşıdır, lakin mədəniyyətlərarası dialoq beynəlxalq seminarlarda xeyriyyəçilik səviyyəsinə endirilməməlidir. Məqsəd real həyatda real insanlar arasında real problemlər haqqında dialoqun qurulmasına sövq etməkdir. Fəaliyyətimizin meyarları keçirilən beynəlxalq konfransların sayı və ya hazırlanan kitabçalarla deyil, insanların həyat tərzinə, evdə, məktəbdə, işdə, küçədə, məsciddə, kilsədə və ya sinaqoqda üzləşdikləri problemləri necə həll etdiklərinə təsir göstərməklə ölçülür. Mən bütün insanlar arasında bərabər hörmət, insan hüquqları, qanunun aliliyi və demokratik prinsiplər olmadan həyata keçməsi mümkün olmayan bu dialoqa cəlb edilməyinizi istəyirəm. Bu dəyərlər qarşılıqlı hörmət və anlaşmanı təmin edir və bu, dialoqun gücün arqumenti ilə deyil, arqumentin gücü ilə idarə olunmasını təmin etmək üçün çox əhəmiyyətlidir (164).

Sonra çıxış edən Avropa Şurası Nazirlər Komitəsinin İspaniyadan olan rəhbəri Gilyermo Koral Van Damm bildirdi ki, Bakıda keçirilən konfrans mədəniyyətlərarası dialoqla bağlı ideyaların irəli sürülməsi və müzakirəsi baxımından mühüm mərhələ olacaqdır.

Avropa Şurası Yerli və regional hakimiyyətlər konqresinin nümayəndəsi Farid Muxametşin Azərbaycanın Avropa strukturlarında fəal rolunu vurğuladı. O, mədəniyyətlərarası dialoqda fəallığın artırılmasının əhəmiyyətindən danışdı. Avropa Şurası Parlament Assambleyasının nümayəndəsi, Milli Məclisin deputatı Rafael Hüseynov çıxışında dedi ki, gələn il Avropa Şurasının 60 illiyidir. Azərbaycan isə bu təşkilatda 8 ildir təmsil olunur. "Mədəniyyətlərin ali məqsədi insanları və xalqları bir-birinə daha da yaxınlaşdırmaq üçün körpüdür" - deyən Rafael Hüseynov vurğuladı ki, dünyanın gələcək inkişafı məhz bu cür dialoq üzərində qurulmalıdır.

ALEKSO-nun baş direktoru Mongi Busnina rəhbərlik etdiyi təşkilatda 22 dövlətin təmsil olunduğunu dedi. O bildirdi ki, ALEKSO da mədəniyyətlərarası dialoqda mühüm nəticələr əldə etmişdir.

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri isə diqqəti Şərqlə Qərb arasında mədəni dialoqun əldə olunmasına cəlb etdi. Bildirdi ki, indi dünyanın vacib mövzularından olan bu məsələyə İSESKO da öz töhfələrini verir. Əbdüləziz bin Osman əl-Tüveycri mədəniyyətlərarası dialoqda xidmətlərinə görə Avropa Şurasının baş katibi Terri Devisin İSESKO-nun qızıl medalına layiq görüldüyünü bildirdi və medalı ona təqdim etdi.

YUNESKO-nun Mədəniyyət siyasəti və beynəlxalq dialoq bölməsinin direktoru xanım Katerina Stenou da Azərbaycanın zəngin mədəniyyətə malik olduğunu bildirdi. O vurğuladı ki, Avropa Şurasının üzvü olan ölkələrin mədəni dəyərləri dialoqun əldə olunmasında mühüm vasitədir.

Çıxış edənlər belə bir ümumi fikir söylədilər ki, Avropa və qonşu regionların mədəni inteqrasiyasına əsaslanan "Bakı prosesi" ölkələrarası dialoqun praktik inkişafı, yeni, real və səmərəli fəaliyyət mexanizminin müəyyənləşdirilməsi, müxtəlif sivilizasiyalar arasında mədəniyyətlərarası dialoqun təşviqinə yönələn tədbirlərin həyata keçirilməsi sahəsində müstəsna imkanlara malikdir.

Xüsusi vurğulandı ki, konfransın mövzusu, iştirakçıların tərkibi, əhatə etdiyi regionların miqyasına görə Avropa və İslam ölkələrinin tarixində mədəniyyətlərarası dialoq mövzusunda ilk beynəlxalq tədbirdir. Bu tədbirin uğurlu nəticələrindən asılı olaraq yaranacaq yeni format gələcəkdə beynəlxalq əhəmiyyətli tədbirlər üçün də nümunə ola bilər.

Daha sonra sonra konfransda nazirlərin "Mədəniyyətlərarası uyğunluqlar haqqında" mövzusunda "dəyirmi masa"sı keçirildi. Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Avropa Şurasının beynəlxalq mədəniyyətlərarası əla-

qələndiricisi xanım Qabriella Batteni-Draqoni, BMT-nin sivilizasiyaların ittifaqı ofisinin direktoru Mark Şuer və başqaları mövzu ilə bağlı fikirlərini açıqladılar. Onlar beynəlxalq mədəni əməkdaşlığın ən müxtəlif aspektlərinə nəzər salaraq vurğuladılar ki, Avropada və onun qonşu regionlarında davamlı inkişafın və sülhün təmin edilməsində mədəniyyətlərarası münasibətlərin imkanlarının araşdırılması zərurdir (164; 165).

Fasilədən sonra konfransın davamı olaraq, nazirlərin işçi qrupunun "Mədəniyyət siyasəti (proqramlar və təşəbbüslər) və mədəniyyətlərarası dialoq: müxtəlif mədəniyyətlərin idarəedilməsinə dair yeni konsepsiya" mövzusunda birinci, "İrs və mədəniyyətlərarası dialoq - hamımız birgə milli irsdən dünyəvi irsə doğru" mövzusunda ikinci iclasları oldu. Çıxış edənlər Bakı konfransının yüksək səviyyədə təşkil olunduğunu bildirərək söylədilər ki, bu tədbir Avropa mədəni proseslərində yeni bir istiqamətin – "Bakı prosesi"nin əsasını qoyacaqdır. Son on il ərzində mədəniyyətlərarası dialoq mədəniyyət məsələlərinə məsul olan nazirlərin, eləcə də hökumətlərin qarşısında prioritet məsələ kimi meydana çıxmışdır. İndi mədəni müxtəlifliyə qarşılıqlı hörmət və hüquqların qorunması elə bir prinsipə çevrilmişdir ki, mədəniyyətlərarası dialoqun qurulması üçün siyasətlər, proqramlar və yeni konsepsiyalar buna əsaslana bilər. Millətlərin bütün dəyərlərini göstərən milli irs xalqlar və insanlar arasında mədəniyyətlərarası dialoqa, habelə regionların davamlı inkişafına rəvac verən bir vasitədir.

## Nəticə

Müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının qarşısında yeni tarixi mərhələ: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi vəzifələr məqsədə çevrilmişdir. Deyilənlər ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını zəruri etmişdir ki, heç şübhəsiz, bu vəzifələrin həyata keçirilməsi prosesində dövlətin yeni mədəniyyət siyasətinə olan ehtiyac da özünü aşkar büruzə verdi. Lakin aktual və maraqlı olduğu qədər də mürəkkəb bir fenomen olan mədəniyyət sahəsində dövlət siyasəti yalnız nəzarətlə məhdudlaşmırdı. Burada nəzarətdən çox mədəniyyətə qayğı məsələsi prioritet təşkil edirdi. Həqiqətən də on yeddi illik müstəqillik dövründə dövlətin mədəniyyət sahəsinə həsr olunmuş qanun, qərar və konsepsiyaların mövcudluğu dediklərimizin sübutu ola bilər. Müstəqil inkişaf mərhələsində cəmiyyətin tərəqqisi mədəniyyət fəaliyyətinin bütün sahələrində, yaradıcılıq axtarışlarında və eksperimentə meyllərdə özünü daha bariz şəkildə göstərdi. Bu, mədəniyyət tarixinə münasibətdə, milli-mənəvi irsi mənimsəmək səyində, insanların fasiləsiz yaradıcılıq prosesində iştirakında özünü göstərir. Müstəqillik illərində Azərbaycanda dövlətin mədəniyyət siyasətində mənəvi dəyərlərə yüksək qiymət verilmiş, ona qayğı zərurəti ön plana çıxarılmışdır. Məhz belə bir mədəniyyət siyasəti nəticəsində Azərbaycan cəmiyyəti mədəni inkişaf vəzifələrinə uyğun gələn mədəniyyətin varislik prinsipini həm ümumsosial səviyyədə, həm də şəxsi səviyyədə göstərərək mədəniyyəti mənimsəmə prosesində fərdin dünyanı dərketməsinin, onun dərinliyi və zənginliyi ilə əks etdirməsinin, onun daha vacib hesab etdiyi mədəni sərvətər

kompleksinin mənimsənilməsinə ardıcıl, məqsədyönlü və tam münasibət göstərir.

Artıq bu gün müasir insanın mədəni irsə münasibətinin təkmilləşdirilməsi mədəni sərvətlərin həm şüurlu surətdə, həm də kortəbii mənimsənilməsinin mahiyyət və xüsusiyyətlərinin dərk edilməsilə bağlıdır. Kortəbii mədəni varislik bir sıra neqativ nəticələrə səbəb olur. Bu baxımdan o, keçmişdə çoxcəhətli əlaqələrin pozulmasına, bəzən isə bir sıra mədəni hadisələr haqqında biliyin tam itməsinə şərait yaradır. Digər tərəfdən keçimşin mənəvi potensialı ilə kortəbii, özbaşına ünsiyyət insanlarda mədəni irsə münasibətdə fetişizm ruhu yaradır. Deməli, mədəniyyətin bu və ya digər hadisəsinin həqiqi dəyərindən asılı olmayaraq, o sitayiş və şöhrətpərəstlik əşyasına dönür.

Mədəni sərvətləri qorumaq, onu bərpa etmək sahəsində mütərəqqi qüvvələrin birgə fəaliyyəti, beynəlxalq mədəni mübadilə onu göstərir ki, mədəni varislik insanların tarixi və etnik məhdudluqdan tədricən azad olmasına imkan verir. Dövlət siyasətində mədəni və mənəvi dəyərlərin kulturoloji mahiyyəti, mədəniyyətlərarası kommunikasiyalar və mədəni ünsiyyət ön planda durur, siyasi mədəniyyət inkişaf etdirilir. Azərbaycanın dövlət konsepsiyasında mədəni və mənəvi irsin qorunması zəruri məsələ kimi qoyulur və həll edilir. Burada önəmli olan vətənpərvərlik bir tərəfdən müəyyən tarixi-mədəni mühitdə doğma torpağa, sənətə və sənətkarlara, dilə, ənənələrə münasibətdir, digər tərəfdən isə o, estetik-siyasi məzmuna malikdir.

Azərbaycanın mədəniyyət siyasətində mədəni və mənəvi irsin qorunması vətənpərvərlik sayılır. Elə buna görə də estetik şüur insanın və vətənin vəhdətini, onun gözəlliyini çoxdan təsbit edərək, onu vətənpərvərlik tələbində ifadə etmişdir. Bu mürəkkəb, zəngin, tarixən dəyişkən sosial-estetik və əxlaqi-psixoloji haldır. Özünün obyektiv sosial məzmununa görə vətənpərvərlik praktik olaraq, müəyyən vətənlər çərçivəsində insanların ünsiyyətinə, yekdilliyinə, birliyinə kömək etməlidir. Öz fərdi-psixoloji mexanizminə görə o, dərin intim törəmədir, vətənin, mədəniyyətin taleyinə insanın şərik olması, onun vətənlə birləşməsi hissi və duyğusudur. Bu, daha aydın sübut edir ki, bir tərəfdən fərdlər

konkret tarixi sosial-mədəni mühiti mənimsəyir, onunla qovuşur, digər tərəfdən bu mühitin özü konkret fərdlərin ünsiyyətinin nəticəsidir.

İstiqlaliyyətimizin yenidən bərpasından sonrakı dövrdə belə bir gerçəklik bir daha təsdiqləndi ki, milli mədəniyyət, həm özünəməxsus ünsürləri, xüsusiyyəti mühafizə etmək və həm də müəyyən bir dinamizm içində dəyişmək surətilə varlığını qoruya bilir. Güclü bir mədəniyyətin həqiqi keyfiyyəti əsl xüsusiyyətini qətiyyətlə qoruyaraq dəyişə bilməsidir; milli xüsusiyyətidən böyük güzəştlərə getmədən yeni şərtlərə uyğunlaşma qabiliyyətini göstərə bilməsidir. Mədəniyyətün dinamik mahiyyəti və keyfiyyəti bu şəkildə anlaşılmalıdır. Belə olduqda milli mədəniyyət siyasətinin dəyişən şərtlərə uyğunlaşmaq məcburiyyəti daimi olacaqdır. Əsas xüsusiyyətini və Azərbaycanın milli hədəflərilə olan bağlılığını mühafizə edə bilməsi üçün isə (bir demokratiyada zəruri olan iqtidar dəyişmələrindən mütəəssir olmayacaq formada) müntəzəm bir tətbiqat şansına sahib olması zəruridir. Keçən illərdə iqtidarların, mədəniyyətin müxtəlif ünsürləri etibarilə tətbiq etdikləri dəyişik siyasətlər Azərbaycana sadəcə zaman itkisi bahasına başa gəlməmiş, eləcə də gənclərin (milli varlığımız baxımından milli, dini, ruhi-mənəvi və mədəni dəyərlərə səmimiyyət və sədaqətlə bağlı olan vətəndaş olaraq yetişdirmələrinin həyati zərurətə çevrildiyi dövrlərdə) milli xarakterimiz baxımından tərəddüdlər içinə düşmələrinə səbəb olmuşdur. Bu mənada, keçid dövrünün böhranlı vəziyyətlərinə yenidən sürüklənməmək üçün, milli hədəflər baxımından aparılacaq milli mədəniyyət siyasətinin siyasi iqtidar dəyişikliklərindən təsirlənməyəcək formada müntəzəm olaraq varlığını mühafizə etməsi və həyata keçirilmə qabiliyyətini qoruması şərtdir.

Mədəniyyət siyasətinin mühüm ideoloji vəzifəsi – Azərbaycan dövlətinin mütərəqqi inkişafı və onun gələcəyinin proqnozlaşdırılması üçün yeni imkanların yaradılması ilə bağlıdır. Bu vəzifələrin elmi cəhətdən əsaslı şəkildə həyata keçirilməsi üçün yeni mədəniyyət siyasəti kulturoloji elmlər əsasında formalaşdırılılmalıdır. Bunları nəzərə alaraq, milli maraqlarımıza

cavab verən dövlət mədəniyyət siyasəti elmin, təhsilin, incəsənətin, idarəetmənin, uğurlu daxili və xarici siyasətin tərəqqisi naminə, "yuxarıdan" (dövlət qurumları) və "aşağıdan" (professional qeyri-hökumət təşkilatları, alimlərin tədqiqatları) gələn yeniliklərin həyata keçirilməsi üçün əlverişli şərait yaratmalıdır.

Azərbaycan Respublikasının mədəniyyət siyasəti intellektual, mənəvi, bədii mədəniyyətlə yanaşı, şəxsiyyət, ailə və cəmiyyət mədəniyyəti, tibb və ekologiya, məişət və ünsiyyət, siyasət və istehsalat, insan hüquqları və mədəniyyət hüquqları, sülh mədəniyyəti, gender mədəniyyəti, demokratiya və vətəndaş cəmiyyəti mədəniyyəti, istehlak və ictimai münasibətlər, mədəni münaqişələrin aradan qaldırılması mədəniyyətinin inkişafı problemlərini daima diqqət mərkəzində saxlamalıdır. Mədəniyyət siyasətinin həyata keçirilməsini təmin edən mədəni inkişafın idarəolunması isə üç əsas problemlə bağlıdır: sosial-mədəni inkişafın srateji istiqamətlərinin müəyyən edilməsi və dövlət prioritetlərinin təsdiq olunması; ruhi-mənəvi, intellektual və maddi mədəniyyətin müxtəlif sahələri üçün mütəxəssislərin hazırlanması və tərbiyəsi, onların həyat və fəaliyyətləri üçün maddi-texniki və sosial şəraitin yaradılması; sosial-mədəni, o cümlədən, iqtisadi tərəqqinin təmin edilməsi məqsədi ilə, mövcud mütəxəssislərin və onların fəaliyyətinin nəticələrinin effektivli istifadə olunması.

Demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da mütərəqqi sosial-mədəni siyasətin başlıca prioritetləri – qanunun aliliyi və təkmilləşdirilməsi, vətəndaşların hüquqi savadı, qanunların icra mədəniyyətini təmin edən hüquqi mədəniyyət, peşəkarlıq və idarəetmə etikasını özündə birləşdirən idarəetmə mədəniyyəti, milli-mədəni və bəşəri dəyərləri əhatə edən etik mədəniyyət, elm və yüksək texnologiyalar, təhsil, maarif və informasiyanin inkişafına yönəlmiş intellektual mədəniyyətlə bağlıdır. Lakin əksər səviyyələrdə mədəniyyətə müsbət münasibət bəslənildiyini sübut edən faktlarla yanaşı, onu da qeyd edək ki, mədəniyyət rəsmi olaraq islahatlar siyahısına daxil edilməmişdir; bu da o deməkdir ki, mədəniyyət sferasının dövlət səviyyəsində

əlavə vəsaitlərə və beynəlxalq təşkilatların fondlarına yol tapmaq imkanı yoxdur.

Azərbaycan Respublikasının mədəniyyət strategiyası müxtəlif səviyyələrdə işlənib hazırlanır və həll edilir: Azərbaycan parlamentinin Mədəniyyət məsələləri üzrə daimi parlament komissiyası və Sosial qanunvericilik şöbəsi (qanunvericilik planında); Prezident Aparatının Humanitar siyasət şöbəsi; Nazirlər Kabinetinin Elm, mədəniyyət, milli təhsil və sosial məsələlər şöbəsi (burada büdcə planlaşdırılır); Mədəniyyət və Turizm Nazirliyi mədəni həyatın bütün sektorlarında islahatların işlənib hazırlanması və həyata keçirilməsinə məsuliyyət daşıyır.

Mədəniyyət və Turizm Nazirliyi səviyyəsində ikitərəfli proses gedir; bir tərəfdən bu, islahatların işlənib hazırlanması, desentralizasiya və dekonsentrasiya sahəsində müəyyən ilkin addımların atılması, digər tərəfdən isə əvvəllər müxtəlif idarələrin nəzdində müstəqil təşkilat kimi mövcud olan təsisatların bu yaxınlarda yenidən onun tabeçiliyinə verilməsilə bağlıdır. Tarixi abidələr, kinematoqrafiya və nəşriyyat komitələrinin ləğvi zamanı bu cür olmuşdur. Bu cür qərarlar, həmin sahələrin hamısında islahatların, son dərəcə kiçicik bir fərqlə, eyni zamanda həyata keçirilməsi zərurətindən doğmuşdur. Avropa Şurası ekspertlərinin hesabatlarında da vurğulandığı kimi, bütövlükdə, mədəniyyət konsepsiyası çarpaz sfera kimi, hələlik Azərbaycanda müvafiq əhəmiyyət qazanmamışdır ki, bu da mədəniyyət və incəsənətin cəmiyyətdə və iqtisadiyyatda daha tam rol oynamaq imkanlarını məhdudlaşır. Ekspertlərin gəldiyi qənaətlər belədir: mədəniyyətin özünün və sabit inkişafda, müsbət humanitar artımda, habelə incəsənətlə biznes arasında tərəfdaşlığın yaradılmasında onun rolunun ən yaxşı müdafiəsi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən digər hökumət strukturları ilə münasibətlərdə təməl strategiya kimi inkişaf etdirilməlidir. Bu, aşağıdakı nəticələrə gətirib çıxarmalıdır:

– Mədəniyyətin islahatlar sektoru kimi qəbul edilməsi;

– Mədəniyyətə əsaslanan sabit inkişaf layihələrinin qarşılıqlı faydalı situasiya kimi qəbul edilməsi;

– Mədəniyyətin alternativ maliyyə mənbələri üçün əlverişli şəraitin yaradılması;

– Mədəniyyətin dinamik obrazının yaradılması.

Mədəniyyət tarixi və nəzəriyyəsi qədim zamanlardan bugünədək bəşəriyyətin sosial-mədəni inkişafının əsas mərhələləri və qanunauyğunluqlarının öyrənilməsinə imkan verir ki, bu mənada kulturologiya elmi müxtəlif irq, xalq, etnos və millətlərin inkişaf etdiyi təbii coğrafi, bioloji, sosial və tarixi şəraitlərin dərk edilməsi və başa duşulməsi üçün vasitədir. Kulturologiya müxtəlif xalqların həyat tərzi, ənənələri, dinləri, psixologiyası, sosial təcrübəsi və xüsusiyyətlərini meydana çıxarır, müxtəlif ictimai-siyasi sistemlərin üstünlüyünü və çatışmazlığını, cəmiyyətin və dövlətin inkişafının təşkili və idarəedilməsi üsullarını göstərir. Bu imkanlar hesabına kulturologiya indi dövlət mədəniyyət siyasətinin vacib metodoloji əsası olaraq qalır. Kulturoloji biliklər olmadan, kulturoloji tədqiqatlarsız, Azərbaycanın üçüncü minililkdə milli-mədəni inkişaf proqramı və layihələri işlənmədən bütün səviyyələrdə dövlət idarəetmə sistemi effektiv ola bilməz. Təbii ki, burada milli mədəniyyətimizin mühafizəsi, tədqiqi və təbliği məsələlərinə xüsusi önəm verilməlidir ki, bu istiqamətdə görüləcək işlərdə aşağıdakılara diqqət yetirilməsi zəruridir:

1. Əvəzsiz və zəngin tariximizin bizə bəxş etdiyi ən qiymətli miras – milli mədəniyyətimiz milli varflığımızın təməli kimi dəyərləndirilməlidir. Mədəni fəaliyyət sahələrindəki hər bir ixtisasda aparılan araşdırmalar ilk növbədə dağınıq, sahibsiz və yox olma təhlükəsində olan bütün mədəniyyət ünsürlərinin sistemli bir formada toplanmasını təmin etməlidir.

2. Milli mədəniyyətimizin mühafizəsi – zəruri ikinci prinsipdir. Bir yandan milli mədəniyyət ünsürləri və fəaliyyət sahələrinin dəqiq və etibarlı səviyyədə qorunmasına diqqət edilirkən, digər yandan yabançı mədəniyyətlərin milli mədəniyyətimizə mənfi təsirinin qarşısının alınması üçün tədbirlər görülməlidir.

3. Milli mədəniyyətimizin yayılması üçün görüləcək işlər və tədbirlər böyük bir önəm daşmaqdadır. İnformasiya və mətbuat vasitələri, bütün radio və telekommunikasiya vasitələri bu

məqsədlə səfərbər edilməli, milli varlığımızın təməli olan milli mədəniyyətimiz ölkə daxilində bütün vətəndaşlarımıza mənimsədilməlidir.

4. Dünya millətləri arasında müstəsna bir dəyəri olan milli mədəniyyətimizin ölkə daxilində və xaricdə tanıdılmasına əhəmiyyət verilməsi zəruri olan bir xüsusdur. Təbliğat fəaliyyətləri ilə məşğul olan təşkilatların zəruri modern vasitələrə və kamil insan potensialına sahib olması təmin edilməli, ölkə daxilində və xaricdə təbliğati fəaliyyətlər konfranslarla, konqreslərlə, simpoziumlarla və s. həyata keçirilməlidir.

5. Əmanət aldığımız ən zəngin miras olan milli mədəniyyətimizi gələcək nəsillərə daha da zənginləşdirilmiş şəkildə ötürmək zərurəti, inkişaf fəaliyyətlərinə də diqqət yetirilməsini zəruri etməkdədir. Bu məqsədlə yaradıcı, qurucu mahiyyətdəki ictimai və fərdi səylər təşviq edilməli, yeni əsərlər ortaya qoyacaq qabiliyyətlərin kəşf edilməsi, yönəldilməsi, dəyərləndirilməsi üçün lazımi bütün tədbirlər görülməlidir.

6. Mədəni xidmətlərin təşkilatçılıq mövzusu prioritet vəzifələrdəndir. Müəssisələrdə təşkilati işlərə önəm verilməli, mədəni xidmət göstərəcək təşkilatlar arasında əməkdaşlığın yaradılmasına diqqət yetirilməlidir.

7. Mədəni xidmətlərlə yanaşı, mədəni fəaliyyətləri də ləyaqətlə həyata keçirə biləcək insan potensialı özünü hiss etdirən ən böyük ehtiyac olaraq görünməkdədir. Strateji məqsədlər daşıyan bu məsələ, Mədəniyyət və Turizm nazirliyi ilə ali təhsil müəssisələri tərəfindən ilk növbədə araşdırılacaq şəkildə planlaşdırılmalıdır.

8. İctimai həyatda hüququn aliliyi prinsipini mənimsədəcək fəaliyyətlərdə olmaq mədəni yüksəlişin təməl prinsiplərindəndir. Bu təməl hüquq və mədəniyyət əlaqəsini təmin edəcək formada inkişaf etdirmək üçün lazımi səylər göstərilməlidir.

Mövzunun araşdırılması belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan cəmiyyəti iqtisadi dəyişikliklərin doğurduğu misli görünməmiş mutasiyalara sürətli keçidlə üzləşməli və ona uyğunlaşmalıdır. Mədəniyyət, cəmiyyətin bu iri struktur dəyişikliklərinə daha yaxşı uyğunlaşa bilməsi üçün (siyasi,

iqtisadi və sosial xarakterli intensiv çağırışlar mühitində) ona dəstək verən bəlkə də ən başlıca vasitə ola bilər. Mədəniyyət siyasəti (çevik və istifadəçiyə yönəlik olduğu halda) cəmiyyətdə sabit həmrəyliyin yaradılması və qorunub saxlanılması üçün ciddi alət rolunu oynaya bilər. Mədəniyyət həyat keyfiyyətinə, icmaların təşəkkül tapmasına, vətəndaş cəmiyyətinin inkişafına xidmət etməklə yanaşı, tədricən bəşəriyyətin müsbət artım mənbəyinə çevrilir. Son onilliklərdə hökumətlər üçün, qanunvericilikləri mədəni mühitin və irsin qorunması relsinə çıxarmaq, maliyyə institutları və yaxud infrastrukturları təsis etmək tendensiyası xarakterik olmuşdur. İşgüzar adamlar tərəfindən mədəniyyətə iqtisadi təsir göstərilməsinə və incəsənətə sponsorluq edilməsinə, dövlət maliyyələşdirməsinin kifayət qədər olmamasına əsaslanan vacib bir aspektdə baxılmalıdır.

Son illərdə bu problemlərə çox sayda tədqiqatlar həsr olunmuş və mədəniyyət siyasəti, həmçinin siyasət formasının müəyyənləşdirilməsinə dair beynəlxalq konfransların mövzusuna çevrilmişdir. Nəticələrdən biri kimi, mədəniyyət və incəsənətin bugünkü biznesə aid olmasının səbəblərini təsvir edən bir "matrisa" tipi işlənib hazırlanmışdır. Bu mənada aşağıdakı arqumentlərdən danışmaq olar: inkişaf arqumenti, möhkəm birliyə malik cəmiyyət arqumenti, marketinq arqumenti, iqtisadiyyatı bilmə arqumenti. Burada milli-mədəni irs və mənəvi dəyərlər həmişə prioritet sahədir.

# Ədəbiyyat

## Azərbaycan dilində


1. Abbasov A. Atatürkün maarif, mədəniyyət və incəsənətə dair fikirləri. // Bilgi dərgisi, təhsil, mədəniyyət, incəsənət seriyası, 2000, № 2, s.6-10.
2. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlərin kulturoloji mahiyyəti. "Mədəniyyət dünyası", XIII buraxılış, Bakı: 2006, s.97-104.
3. Abbasov N. Mədəniyyətlərarası kommunikasiyalar və mədəni ünsiyyət. "Mədəniyyət dünyası", XIV buraxılış, Bakı: 2006, s.137-143.
4. Abbasov N. Türk dünyasının mədəni inteqrasiyası məsələləri haqqında. "Mədəniyyət dünyası", IV buraxılış, Bakı: 2002, s.146-148.
5. Abbasov N. Estetik mədəniyyət cəmiyyətin ümumi mədəniyyətinin bir hissəsi kimi. "Mədəniyyət dünyası" VIII buraxılış, Bakı: 2004, s.107-109.
6. Ağayev R., Abbasov N. Azərbaycan Türkiyə əlaqələri. Mədəni-maarif jurnalı 2001-ci il № 3/4, s.54.
7. Axundova N. Azərbaycanda mədəniyyət siyasəti. Reallıqlar və perspektivlər. "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsi üzrə açıq cəmiyyət İnstitutut-Budapeşt Soros Fondunun himayəsi ilə keçirilmiş Beynəlxalq konfransın və sosioloji tədqiqatın sənəd və materiallarının məcmuəsi. Bakı: 27-29 iyun, 2001-ci il. s.59.
8. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, 264 s.
9. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2003, 48 s.
10. Azərbaycanda "2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası". "Mədəni-maarif", 2006, № 11, s.5-6.
11. Azərbaycan Respublikası (1991-2001). Bakı: Yeni nəşrlər evi, 2001, 360 s.
12. Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı. "Azərbaycan" qəzeti, 10 mart 2001-ci il.
13. Azərbaycanda Atatürk Mərkəzinin rəsmi açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Bülleten (Azərbaycanda Atatürk Mərkəzinin rüblük nəşri), AzAtaM, Bakı, 2004, № 2 (10), s. 6-8.
14. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2001, 90 s.
15. Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. "Ədəbiyyat qəzeti", 13 avqust 2001-ci il.

16. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" II Uluslararası Folklor Konfransının materialları. Bakı, "Səda", 17-21 mart 2004-cü il, 416 s.
17. Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" III Uluslararası Folklor Konfransının materialları. Bakı, "Səda", 13-16 noyabr 2005-ci il, 584 s.
18. Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım. "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyası. Bakı, Sabah, 2001, 194 s.
19. Beynəlxalq mədəni əlaqələr (Dərslik, M.S.Manafova və N.T.Əfəndiyevanın redaktəsilə). Bakı: ADMİU-nun "Mədəniyyətşünaslıq" kafedrası, 2008, 660 s.
20. Cəfərov N. Azərbaycan mədəniyyəti məsələləri. Bakı: BDU, 2000, 50 s.
21. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı, AzAtaM, 2002, 602 s.
22. Cəfərzadə Z.N. Şərq mədəniyyətlərinin tarixi tipologiyasının metodoloji problemləri. Kulturologiya elm. nam. ... dis. avtoref. Bakı, 2008, 24 s.
23. Dadaşova S., Sultanov O. Kulturologiya mədəniyyət siyasətinin metodoloji əsası kimi. // "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsi üzrə Açıq Cəmiyyət İnstitutu – Budapeşt SOROS Fondunun himayəsi ilə keçirilmiş Beynəlxalq konfransın və sosioloji tədqiqatın sənəd və materiallarının məcmuəsi. Bakı, 27-29 iyun, 2001-ci il, s.75.
24. Dünya azərbaycanlılarının I qurultayında "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi" (9 noyabr 2001-ci il) // "Azərbaycan", 10 noyabr 2001; Dirçəliş – XXI əsr, 2003, № 12 (70), s. 175-186.
25. Əfəndiyev T.İ. Şərəfli yol. " Mədəniyyət dünyası", VII buraxılış, Bakı: ADMİU, 2003, s.6-10.
26. Əfəndiyev T.İ. Milli mədəniyyət naminə. "Mədəniyyət və sənət" jurnalı, 2003, № 1, s.2.
27. Əfəndiyev T.İ. Azərbaycan mədəniyyəti və incəsənəti. İran: 2003, 340 s.
28. Əfəndiyeva N. Millət və islam. "Mədəniyyət dünyası", XIV burazılış, Bakı: ADMİU, 2007, s. 73-78.
29. Əfəndiyeva N. Azərbaycanlı özünüdərki və özünüidentifikasiyanın kulturoloji-fəlsəfi problemləri qloballaşma kontekstində Kulturologiya elm. dok. … dis. avtiref. Bakı, ADMİU, 2008, 48 s.
30. Əliyev Q., Ə.Tağıyev, M.Bayramov. Mədəniyyətşünaslığın əsasları. Bakı: 1989, 202 s.
31. Əliyev V. 80 yaşlı sənət məbədi. "Mədəniyyət və sənət" jurnalı, 2003, № 1, s.4-5.
32. Əliyeva İ.H. Azərbaycan bayramları və milli-mənəvi dəyərlərimiz. Kulturologiya elm. nam. …dis. avtoref, Bakı, 2004, 30 s.

33. Əliyeva Y.A. Azərbaycanda kulturoloji fikrin tarixi inkişaf mərhələləri. Kulturologiya elm. nam... dis., Bakı, ADMİU, 2007, 184 s.
34. Əlizadə A. Milli mədəniyyətdə tarixilik (dərs vəsaiti). Bakı: Mars-Print, 2000, 130 s.
35. Əlizadə A. Estetik mədəniyyət və varislik. Bakı: 2005, 290 s.
36. Əsgərov Q.Ş. Biliyin qiymətləndirilməsinin metodoloji əsası. "Simurq" (kulturoloji jurnal), 2008, № 1, s.57-61.
37. Əsədli M. Yusif Ziya Talıbzadənin həyatı və mühiti (1877–1923). Bakı:Nurlan, 2005, 190 s.
38. Əsədli M. Yusif Ziya Talıbzadə milli-mədəni intibah hərəkatında. "Mədəniyyət dünyası", XIII buraxılış. Bakı: ADMİU, 2006, s.57-67.
39. Fəlsəfə. Ensiklopedik lüğəti. Bakı: "Azərbaycan Ensiklopediyası", Nəşriyyat-Poliqrafiya Birliyi, 1997, 520 s.
40. Folklorun mühafizəsi haqqında. "Mədəni-maarif" jurnalı, 2001, № 1-2 (123-124), s.59-61.
41. Göyalp Z. Türkçülüyün əsasları, Bakı: Maarif, 1991, 176 s.
42. Haqverdiyev A.A. Müstəqil Azərbaycan mədəniyyətinin aktual problemləri. Kulturologiya elm. nam... dis. avtoref. Bakı: ADMİU, 2005, 29 s.
43. Heydər Əliyev mədəniyyət və incəsənət haqqında (Toplayanı: Asif Rüstəmli). "Mədəniyyət və sənət" jurnalı, 2003, № 1, s.1.
44. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərbaycan, 1994, 174 s.
45. Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. Bakı: "Bakı", 2001, 440 s.
46. Heydər Əliyev mədəni irsimizin keşiyində. II kitab. Bakı: "Bakı", 2001, 547s.
47. Heydər Əliyev. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda çıxışı. "Azərbaycan" qəzeti. 1996, 3 fevral.
48. Heydər Əliyev. Müstəqillik yolu. Bakı: Azər-Unti 1997, 135 s.
49. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, 752 s.
50. Həsənova V. Qloballaşma prosesinin mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı dialoquna təsiri. "Mədəniyyət dünyası", X buraxılış. Bakı: ADMİU, 2005, s.127-130.
51. Hüseynov İ., Əmirxanov S. Kulturologiya və onun əsas istiqamətləri. Bakı: ADMİU, 1996.
52. Hüseynov İ.H. Milli-mədəni irsimizin təntənəsi. "Mədəniyyət dünyası", III buraxılış, Bakı, 2001, s.102-103.
53. Hüseynov İ.H. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı: Marş-Print, 2002, 308 s.

54. Hüseynov İ.H. Müasir mədəniyyətin tarixi-ənənəvi əsasları. "Mədəniyyət dünyası", VII buraxılış, Bakı, 2003, s.107-112.
55. Hüseynov İ.H. Abbasov N. Milli ideyaların inkişafı naminə. "Mədəni-maarif", 2004, № 5, s.9-11.
56. Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları (dərslik). Bakı: Mars-Print, 2007, 440 s.
57. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan – Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı: Nurlan, 2007, 302 s.
58. Kulturologiya. Sxemlər albomu (Tərtib edəni: T.Behbudov). Bakı: Mütərcim, 2006, 80 s.
59. Kulturologiya (dərslik). Bakı: ADMİU-nun "Mədəniyyətşünaslıq" kafedrası, 2003, 402 s.
60. Qarayev Yaşar. Meyar – şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 456 s.
61. Qasımzadə F. Mədəniyyət siyasəti və Azərbaycan xalqının mədəni irsi. "Simurq" Azərbaycan mədəniyyət assosisiyası. "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihəsi üzrə açıq cəmiyyət İnstitutu- Budapeşt SOROS fondunun himayəsi ilə keçirilmiş Beynəlxalq konfransın və sosioloji tədqiqatın sənəd və materiallarının məcmuəsi. Bakı: 27-29 iyun, 2001-ci il. s.68.
62. Qasımzadə F. Bir daha kulturologiya məsələlərinə dair. "Simurq" (kulturoloji jurnal), 2008, № 1, s.29-35.
63. Qəniyev M., Məmmədov E. Mədəniyyətşünaslıq. Sxemlər və cədvəllər albomu. Bakı: 2003, 112 s.
64. Qubatoğlu B. Mədəniyyət tarixi. İki cilddə, I cild. Bakı: "Nasir", 2002, 338 s.
65. Qubatoğlu B. Mədəniyyət tarixi. İki cilddə, II cild. Bakı: "Nasir", 2002, 252 s.
66. Qurbanov B. Azərbaycan incəsənəti: təriflər, təhriflər. Bakı: Araz, 2001, 192 s.
67. Qurbanov B. Demokratikləşmə yolundakı bəzi sosial-mədəni məsələlər. "Mədəniyyət dünyası", IV buraxılış, Bakı: ADMİU, 2002, s. 4-10.
68. Qurbanov B. Müasir mərhələdə təhsil və tərbiyə sistemimizlə əlaqədar bəzi mülahizələr. "Mədəniyyət dünyası", V buraxılış, Bakı: ADMİU, 2002, s. 11-17.
69. Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azərbaycan Respublikasının Qanunu. "Mədəniyyət" qəz., 25 dekabr, 1991.
70. Manafova M. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı: "Təbib", 2006, 402 s.
71. Mehdi N. Azərbaycan üçün yenilik problemi. "Mədəniyyət dünyası", III buraxılış, Bakı, ADMİU, 2001, s. 28-30.

72. Mehdi N., Mehdi D. Mədəniyyətdən total narazılıq. "Mədəniyyət dünyası", IV buraxılış, Bakı, ADMİU, 2002, s. 10-13.
73. Mehdi N. Ruh, mədəniyyət, insan yeyinliklə yavaşlıq arasında. "Mədəniyyət dünyası", VIII buraxılış, Bakı, ADMİU, 2004, s. 68-80.
74. Mehrabov A. Təhsil müəssisəsi rəhbərinin idarəetmə mədəniyyəti və onun formalaşma xüsusiyyətləri. "Simurq" (kulturoloji jurnal), 2008, № 1, s.51-56.
75. Mədəni irsin qorunmasına dair normatik hüquqi aktlar toplusu (1 sentyabr 2001-ci ilədək olan vəziyyətə görə) Bakı: Elm, 2001, 240 s.
76. Mədəniyyət tarixi və nəzəriyyəsi (dərslik). Bakı: ADMİU, 2006, 820 s.
77. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan" qəz., № 86, 18 aprel 1998-ci il.
78. Mədəniyyətin marksizm-leninizm nəzəriyyəsi. Bakı: Maarif, 1990, 397 s.
79. "Mədəni-Maarif" jurnalı, 2004, № 5, s.31; 2006, № 11, s.3.
80. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi. Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsində fəaliyyəti (Tərtibçi və elmi redaktor: Sevda Məmmədəliyeva). Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 424 s.
81. Məmmədov F. Azərbaycanda yeni mədəniyyət siyasətini formalaşmasına vətəndaş köməyi haqqında "Simurq" Azərbaycan mədəniyyət assosiasiyasının "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" layihsəsi üzrə Açıq Cəmiyyət İnstitutu – Budapeşt SOROS Fondunun himayəsi ilə keçirilimiş Beynəlxalq Kofnransın və sosiaolloji tədqiqatın sənəd və materiallarının məcmuəsi. Bakı: 27-29 iyun, 2001-ci il. s.19.
82. Məmmədova F.R. Azərbaycan mühacirətinin elmi-nəzəri tədqiqatlarında dil kulturoloji baxışlar kontekstində. Kulturologiya elm. nam. ... dis. avtoref. Bakı, 2007, 24 s.
83. Məmmədova N. Dəyər anlayışının kulturoloji təhlili. "Mədəni-maarif", 2006, № 10, s.49-50.
84. Məmmədova S. Mədəniyyətşünaslıq. Bakı: "Kooperasiya" nəşriyyatı, 2001, 202 s.
85. Paşazadə İ. Mədəni irsə sədaqətlə. "Mütərcim jurnalı", 2000, № 2, s.82-84.
86. Rəsulzadə M.Ə. Əsərləri, II cild. Bakı: Şirvannəşr, 2001, 528 s.
87. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı: Yazıçı, 1989, 496 s.

88. “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası haqqında. “Simurq” kulturoloji jurnalı. Dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi msələləri. Bakı, 2008, № 1, s.78-79.
89. “Simurq” Azərbaycan mədəniyyət assosiasiyası “Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım” layihəsi üzrə Açıq Cəmiyyət İnstitutu – Budapeşt SOROS Fondunun himayəsi ilə keçirilmiş Beynəlxalq konfransın və sosioloji tədqiqatın sənəd və materiallarının məcmuəsi. Bakı: 27-29 iyun 2001.
90. Sosioligiya (dərslik). Bakı: Təbib, 1994, ??? s.
91. Sultanov F. Yaranış. “ Mədəniyyət dünyası”, VII buraxılış, Bakı: ADMİU, 2003, s.382-390.
92. Süleymanlı M.A. Müasir dövrdə mədəniyyət müəssisələrinin idarə olunması və iqtisadiyyatı (metodik tövsiyə). Bakı: ADMİU, 1996, 60 s.
93. Süleymanlı M.A. “Kulturologiya”nın tədrisi məsələsinə dair. “Mədəniyyət dünyası”, IV buraxılış, Bakı: ADMİU, 2002, s. 39-42.
94. Süleymanlı M.A. Sosial-mədəni sahənin idarəedilməsinin elmi-nəzəri və əməli məsələləri (“Tətbiqi kulturologiya” dərsliyinin VII fəsli, s. 306-355). Bakı: Mars-Print, 2004, 412 s.
95. Süleymanlı M.A. Əhməd Ağaoğlunun “Üç mədəniyyət” əsəri. Şərq fəlsəfəsi problemləri, beynəlxalq elmi-nəzəri jurnal. Bakı: AMEA, 2004, № 1-2, s.57-66.
96. Süleymanlı M.A. Turizm sosial-mədəni hadisə və kulturoloji proses kimi (“Turizmin əsasları” dərsliyinin V fəsli, s. 270-332). Bakı: Mars-Print, 2007, 440 s.
97. Süleymanlı M.A. “Ölkədaxili turizm”, “Beynəlxalq turizm” və “Turizm sahəsində reklam” fənləri üzrə bakalavr təhsil sistemi üçün proqram. Bakı, ADMİU, 2007, 18 s.
98. Şəmsizadə N. Azərbaycan ideoloqiyası. Bakı: Sabah, 1996, 103 s.
99. Şükürov A. Fəlsəfə. Bakı: Adiloğlu. 2002, 492 s.
100. Şükürov A. Fəlsəfə və qloballaşma, Bakı: Adiloülu, 2002, 440 s.
101. Şükürov A. Kulturologiya (Dərslik). Bakı: Aqiloğlu, 2003, 274 s.
102. Tağıyev Ə., Əliyev Q. Kulturologiya (Dərs vəsaiti). Bakı: Təbib, 1997, 96 s.
103. Tətbiqi kulturologiya (Dərslik). Bakı: ADMIU, 2004, 412s.

**Türk dilində**

104. Eröz Mehmet. Milli kültürümüz ve meselelerimiz. T.C. Kültür Bakanlığı, Ankara: 1996, 430 s.
105. Kafesoğlu İ., Saray M. Atatürk ilkeleri ve dayandığı tarihi temeller. İstanbul: İstanbul Universitesi Basımevi ve Film Merkezi, 1998, 230 s.

106. Kurbanov B. Küreselleşme zihniyetine doğru. "Mədəniyyət dünyası", VIII buraxılış, Bakı: ADMİU, 2004, s. 60-67.
107. Kurbanov B. Türk dünyasının ortak tarihi-estetik dügürleri açısından Azerbaycan sanatı. "Mədəniyyət dünyası", X buraxılış, Bakı: ADMİU, 2005, s. 87-92.
108. Mehmetzade M.B. Millet ve Dövlət. "Odlu Yurt", İstanbul, iyun 1931, sayı 4 (29), s.145-150.
109. Milli Kültür. V.Beş yıllık kalkınma planı (Özəl ihtisas komisyonu raporu). Ankara: T.C. Başbakanlık Devlet Planlama Teşkilatı, 1983, 575 s.
110. Resulzade M.E. Azerbaycan kültür gelenekleri. Ankara: Sipahi matbaası, 1949, 31 s.
111. Resulzade M.E. Millet olmak azmı. Milli tesanüd, Ankara, Kardeş matbaası, 1978, s.17-18 ("Azerbaycan", Ankara, 1 ağustos 1952, sayı 5).
112. Resulzade M.E. Milletçilik – Patriotizm. Milli tesanüd, Ankara, Kardeş matbaası, 1978, s.19-20 ("Azerbaycan", Ankara, eylül 1952, sayı 6).
113. Resulzade M.E. Kavim ve millet. Milli tesanüd, Ankara, Kardeş matbaası, 1978, s.24-25.
114. Süleymanlı M.A. Kültür biliminin tedrisi meselesi. "Korkut Ata" dil, edebiyat ve kültür dergisi, Türkiye (Erzurum), 2003, sayı: 2, s. 16-17.
115. Süleymanlı M.A. Küreselleşmenin Azerbaycan kültürüne yansımalarına dair. "Güney Azerbaycan" sosyal, kültür, siyasi araştırmalar dosyası (Ankara). Güney Azerbaycan Tanitim Cemiyeti (GÜNAZTAC), Tanıtım 6, Ankara 2004, s. 8-9.
116. Tüccarzade İbrahim Hilmi. Maarifimiz ve servet-i ilmiyyemiz. T.C. Kültür Bakanlığı, Ankara: 2000, 102 s.
117. Türk milli kültürü (Hazırlayanlar: İsmayıl Kayabalı, Cemender Arslanoğlu). "Azerbaycan" aylıq kültür dergisi, Ankara: 1981, Yıl: 30, Sayı: 235, s.38-89.
118. Türkiye Cumhuriyetinin VIII. Beş Yillik Kalkinma Planı, 2001-2005. www.basbakanlik. (T.C. Türkiye Başbakanlığının saytı).
119. Uriel Heyd. Türk ulusçuluğunun temelleri (Çeviren: Kadir Günay). T.C. Kültür Bakanlığı, Ankara: 2002, 196 s.

**Rus dilində**

120. Вопросы охраны и использования памятников истории и културы. М.: 1990, 124 с.
121. Гегель. Соч., М-Л.: 1934, 216 с.
122. Гуревич П.С. Культурология (учебник, 3-е изд., перераб. к допол.) Москва: УИЦ «Гардарики», 1999, 288 с.

123. Культура на пороге III тысячелетия. Тезисы. Докладов международного семинара в г. Санкт-Петербурге (25-26 апреля 1994 года). Санкт-Петербург: 1994, 224 с.
124. Культура Советского Азербайджана. Баку: Азернешр, 1980, 182 с.
125. Культурная (социальная) антропология. М.: Академический Проект, 2004, 268 с.
126. Культурология (учеб. Пособие для вузов. Под. ред. Проф. А.Н. Марковой, 3-е изд). Москва: ЮНИТИ-ДАНА, 2002 384 с.
127. Культурология . М.: Изд. «Природа» 2001, 236 с.
128. Мамедов Ф.Т. Культурология (Вопросы теории и истории). Учебного пособия. Баку: «Абилов, Зейналов и сыновья», 2002, 534 с.
129. Мамедов Ф.Т. Культурология как путь к эффективной жизнедеятельности. Баку: «Абилов, Зейналов и сыновья», 2006, 576 с.
130. Мамедов Ф.Т. Культурная политика «проблемы и принципы направления культурной». "Təhsil, mədəniyyət, incəsənət" jurnalı, Б.: 2003, № 3, с.83-90.
131. Мамедов Ф.Т. О задачах новой культурной политики в Азербайджане. Б.: 1998, 76 с.
132. Мамедов Ф. Культурология. Вопросы теорииеи и истории (метариалы к лекциям и семинарам). Статьи, доклады и выступления. Б.: 2002, 101 с.
133. Мамедов Ф.Т. Культурология и задачи социально-культурного развития Азербайджана. Культурологический журнал «Симург». Вопросы истории и терории мировой культуры и цивилизации. Б.: 2008, № 1, с. 11-28.
134. Мамедов В.А. Основы политологии. М.: «Наука», 1997, 480 с.
135. На VI Саммите глав тюркоязычных государств в Баку. Речь Президента Азербайджанской Республики Гейдара Алиева // Возрождение – XXI век, 2000, № 26, с. 4-8.
136. Проблемы културного наследования в философской теории и практике современного Запада. М.: Политиздат, 1989. с.116.
137. Ракитов А.И. Наука и устойчивое развитие общества // Общественные науки и современность, 1997, № 4, с.10.
138. Философия, человек и жизнь. М.: ЮНИТИ, 2002, 151 с.

### İnternet materialları

139. http://www.mct.gov.az Mədəniyyət və Turizm Nazirliyi
140. culturologic@azeronline.com "Simurq" Azərbaycan Mədəniyyət Assosiyasiyası

141. gurer_gulsevin@yahoo.com. Türk Dünyası Araştırmaları Enstitüsü (Ege Üniversitesi, İzmir-Türkiye).
142. www.ovras.tr. Türk Dünyasının sosyal ve kültürəl durumu (Ozey Ramazan).
143. www.mfa.gov.tr. (T.C. Xarici İşleri Bakanlığı).
144. www.basbakanlik. (T.C. Türkiye Başbakanlığı).
145. http://musugu-dunya.az ("Musiqi dünyası"nın elektron jurnalı, Azərbaycan dilində).
146. http://intellect.musigi-dunya.az ("İntellektual mülkiyyət" jurnalının elektron versiyası: azərbaycan, rus və ingilis dillərində).
147. http://harmony.musigi-dunya.az (Musiqi kulturoloji beynəlxalq elektron jurnalı: rus və ingilis dillərində).
148. http://kultura.rossii.ru/ Rusiya Federasiyası mədəniyyəti
149. http://www.culture.az Mədəniyyət Nazirliyi
150. http://azeripaint.aznet.org Rəssamlar İttifaqı
151. http://azeri.org Azərbaycan dili və ədbiyyatına həsr olunmuş sayt
152. http://www.citisight.com/baku/musculture.html Musiqi Mədəniyyəti Muzeyi
153. http://www.gateway.az Azərbaycan Portal İnkişafı layihəsi
154. http://resources.net.az; http://www.saznet.org; http://www.search.az; http://www.azeriweb.com "azerinet"
155. http://www.aztv.az AZTV
156. http://www.azertag.com; http://www.xeber.net; http://www.top.az; http://www.news.azerinet.com İnformasiya agentlikləri
157. http://www.president.az Azərbaycan Respublikası Prezidentinin veb saytı
158. http://www.azembassy.com Azərbaycanın ABŞ-dakı səfirliyinin saytı
159. http://www.azembassy.msk.ru. Azərbaycanın Rusiya Federasiyasındakı səfirliyinin saytı
160. www.aznet.org. "Azərbaycan-Açıq Cəmiyyət İnstitutu" – Soros Yardım Fondu
161. http://www.culturalpolicies.net Azərbaycanın milli mədəniyyət siyasətinin icmalının elektron versiyası.
162. www.first-lady.az (Mehriban Əliyevanın şəxsi saytı)
163. www.mehriban-aliyeva.org
164. www.RESPUBLICA.NEWS.AZ ("Respublika" qəzeti, 3 dekabr 2008-ci il, № 271).
165. www.edebiyyatqazetişcom ("Ədəbiyyat qəzeti", 5 dekabr 2008-ci il, № 46).

# MÜNDƏRİCAT

**Ön söz** .......... 3
**Giriş** .......... 9

**I. Mədəniyyət siyasətinin mahiyyəti və problemləri** .......... 19
1.Dövlətin mədəniyyət siyasətinin prioritetləri və məqsədləri (mənəvi dəyərlər kontekstində) .......... 59
2.Mədəniyyət siyasətinin planlaşdırılması, mədəniyyətin qanunvericilik təminatı və dövlətin bu sahədəki vəzifələri .......... 78
3.Demokratik və totalitar mədəniyyət planlaşdırılması .......... 100
4.Milli mədəniyyətin mahiyyəti və onun mühafizəsinə dair dövlət tədbirləri .......... 108
5.Mədəniyyətlərarası kommunikasiyalar və mədəni ünsiyyət .......... 118

**II. Mədəniyyət siyasətinin rastlaşdığı çətinliklər** .......... 146
1.Siyasi və iqtisadi sistem dəyişikliklərinin mədəniyyət sahəsindəki təzahürləri .......... 153
2.Mədəniyyət müəssisələrinin fəaliyyəti, əhalinin mədəni həyatda iştirakı və yaradıcılığın dəstəklənməsi .......... 157
3.Qloballaşma və mədəni inteqrasiya şəraitində mədəniyyətin maliyyələşməsi və milli-mənəvi dəyərlərin mühafizəsi problemi .......... 200

**III. Mədəniyyət siyasətinin effektivləşmə, səmərəliləşmə perspektivləri** .......... 215
1.Azərbaycan mədəniyyəti və dünya mədəniyyətinin inkişaf mərhələləri. Siyasi mədəniyyət .......... 218
2.Azərbaycanla inkişaf etmiş dünya dövlətlərinin mədəniyyət siyasətlərinin müqayisəli təhlili .......... 246
3.Mədəniyyət siyasətinin tənzimlənməsində yerli və beynəlxalq təşkilatların rolu .......... 263
4.Mədəni dünyanın “Mədəniyyət siyasəti” anlayışı, YUNESKO və Avropa Şurası qərarlarının ümumi çərçivəsi .......... 271
5.Dövlətin mədəniyyət siyasətinin həyata keçirilməsində Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyəti .......... 278
6.Təhsil və elm sahəsində Azərbaycanın mədəniyyət siyasətinin məqsədləri .......... 289

Ali təhsilli kadr hazırlığı məsələləri (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyəti nümunəsində) ............ 295
Qeyri-hökumət təşkilatlarının Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardımı ("Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının fəaliyyəti kontekstində) ........................ 301
Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mədəniyyət konsepsiyasında varislik faktoru ............................................................ 313

**IV. Mədəniyyət siyasəti sahəsindəki nailiyyətlər və perspektivlər** ........................................................................ 324
Mədəniyyət industriyaları: kitab nəşri, mədəniyyətə dair xüsusi dövri nəşrlər, mətbuat, kino, radio, televiziya və multimediya-şəbəkə layihələri .................................................................... 329
Milli-mənəvi irsin qorunması ilə bağlı görülən tədbirlər və bu sahədə beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq .................. 360
Dövlət gənclər siyasətinin mədəni və mənəvi aspektləri .............. 373
Azərbaycanda turizmin inkişaf perspektivləri və mədəni-asudə vaxtin dəyərləndirilməsi .......................................................... 386

**V. Mədəniyyətə dövlət qayğısı və beynəlxalq əməkdaşlığın əməli nəticələri** ........................................................................ 395
Azərbaycan Mədəniyyətinin Dostları Fondu və Heydər Əliyev Fondunun mədəniyyət sahəsində fəaliyyəti ................................ 395
"Mədəniyyətlərarasi dialoq Avropa və onun qonşu regionlarinda davamli inkişafin və sülhün əsasidir" mövzusunda Avropa Şurasinin üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin Bakı konfransı ..... 415

**Nəticə** ............................................................................ 426
**İstifadə edilmiş ədəbiyyat** ................................................ 435

Çapa imzalanmışdır 23.12.2008
Kağız farmatı 84x60 1/16
Həcmi 28 ç.v.
Tiraj 1000

*Təknur MMC-nin mətbəəsində çap edilmişdir*
*Ünvan: H.Cavid 31*